Əgər biz müstəqil dövlətiksə, müstəqil inkişaf etmək istəyiriksə, biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikası vergilər nazirinin
16 dekabr 2011-ci il tarixli 1117040101734200 nömrəli əmrinə
əsasən hazırlanmış və çap edilmişdir.

VERGİ

ENSİKLOPEDİYASI

BAKI 2013

Baş redaktor
F.Ə.MƏMMƏDOV
Azərbaycan Respublikasının vergilər naziri,
2-ci dərəcəli dövlət vergi xidməti müşaviri

Baş redaktorun müavini,
Redaksiya Şurasının sədri
A.F.Musayev
AMEA-nın müxbir üzvü

Məsləhətçilər
akad. A.Q.Nadirov
akad. Z.Ə.Səmədzadə
dos. A.Q.Qəhrəmanov

Redaksiya Şurasının üzvləri:
Asəf Əsədov
Ələkbər Məmmədov
Asif Cahangirov
Natiq Şirinov
Elçin Məmmədov
Samirə Musayeva
Mehdi Mirsəlimov
Zaur Fətizadə
Ceyhun Yusifov

VERGİ ENSİKLOPEDİYASI
Bakı, 2013, -424 səh.

Ensiklopediyada Azərbaycanın və dünyanın inkişaf etmiş ölkələrinin vergi sistemlərində tətbiq edilən əsas termin və anlayışların izahı verilmişdir. Burada Azərbaycan Respublikasının Vergi Məcəlləsində, gömrük qanunvericiliyində, vergilərə aid digər normativ aktlarda olan müddəalar, ölkəmizdə ödənilən vergi və yığımlar əks olunmuşdur.
Kitabdan vergi və gömrük işçiləri, vergi planlaşdırması üzrə mütəxəssislər, hüquqşünaslar və auditorlar, ali məktəblərin müəllimləri, iqtisadiyyat və hüquq ixtisasları üzrə təhsil alan tələbələr, doktorantlar, həmçinin, bütün vergi ödəyiciləri istifadə edə bilərlər.

ISBN: 978-9952-8188-3-3

ÖN SÖZ

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən inkişaf strategiyasına uyğun olaraq ötən illər ərzində vergi sistemində köklu islahatlar aparılmiş, vergi qanunvericiliyi və inzibatçılığı təkmilləşdirilmiş, funksional əsasda fəaliyyət göstərən yeni idarəetmə sistemi təşkil edilmişdir. Nəticədə səmərəli nəzarət imkanlarına malik vergi inzibatçılığı formalaşdırılmış, vergi orqanları ilə vergi ödəyiciləri arasında texnoloji baxımdan mükəmməl elektron əlaqələr sistemi yaradılmış və vergi ödəyicilərinə xidmət sahəsində kompleks tədbirlər həyata keçirilmişdir.

Bu tədbirlər çərçivəsində vergi təbliğatı və maarifləndirilməsinə xüsusi önəm verilərək gənc nəslin vergilər haqda anlayış va biliklərini artırmaq, gələcəyin potensial vergi ödəyicilərinə vergi adətlərini aşılamaq məqsədilə təhsilin bütün pillələrini əhatə edən dərs vəsaitləri nəşr edilmis və bu vəsaitlər tədris proqramlarına daxil edilmişdir.

Son illər vergi qanunvericiliyində köklu dəyişikliklərin aparılması, iqtisadi inkişafın tələblərinə uyğun olaraq vergi sisteminin təkmilləşdirilməsi vergilər sahəsində nəşr olunan dərsliklərin, xüsusilə orta məktəb şagirdləri üçün nəzərdə tutulan dərs vəsaitlərinin yenidən işlənilməsinə, habelə beynəlxalq təcrübəni nəzərə alaraq vergi sisteminin təkamül prosesi barədə ətraflı məlumatları ictimaiyyətin bütün təbəqələrinə çatdırmaq və vergi mədəniyyətini daha da yüksəltmək məqsədilə vergi sisteminin inkişaf yolunu, aparılmış islahatların nəticələrini, vergitutmanın bütün elementlərinin nəzəri və metodoloji əsaslarını, praktiki məsələlərini vahid toplu şəklində özündə əks etdirən Vergi Ensiklopediyasının hazırlanmasına zərurət yaranmışdır.

Hər bir ölkənin vergi sisteminin yaranması, mükəmməl bir şəklə düşməsi uzun və mürəkkəb prosesdir. Azərbaycanda bu proses Sovet İttifaqının dağılmasından və respublikamızın müstəqillik qazanmasından sonra başlanmış və qısa müddət ərzində çox böyük uğurlar qazanılmışdır.

Bazar iqtisadiyyatına keçidin ilk dövrlərində respublikamızda "Dövlət vergi xidməti haqqında", "Azərbaycan Respublikasında hüquqi şəxslərin mənfəətindən və gəlirlərinin ayrı-ayrı növlərindən vergilər haqqında", "Əlavə dəyər vergisi haqqında", "Aksizlər haqqında" və s. qanunlar qəbul edilsə də, bunlar vergi sisteminin inkişafına təkan verə bilmədi. Bəzi normativ-hüquqi sənədlərdə müddəaların bir-biri ilə ziddiyyət təşkil etməsi, vergi sistemini müəyyənləşdirən vergi konsepsiyasının olmaması, dünya təcrübəsinin nəzərə alınmaması bu sahədə inkişafı ləngidirdi. Lakin qısa müddət ərzində bazar münasibətlərinin inkişafı, dünya iqtisadiyyatının sınaqdan çıxarılmış üsullarından istifadə edilməsi nəticəsində çox böyük uğurlar qazanıldı. 2000-ci ildə Vergilər Nazirliyinin yaranması, 2001-ci il yanvarın 1-dən Vergi Məcəlləsinin qüvvəyə minməsi ölkəmizdə normal vergi sisteminin əsasını qoydu.

Respublikamızda bazar iqtisadiyyatı münasibətlərinə keçid nəticəsində büdcə siyasətinin formalaşdırılmasında, iqtisadi potensialının, ölkənin müdafiə qüdrətinin artırılmasında, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında vergilərin rolu getdikcə artır.

Dünyanın demək olar ki, bütün inkişaf etmiş ölkələrində vergilərə həsr olunmuş ensiklopediyalar, ensiklopedik lüğətlər geniş istifadə olunur. Təqdim olunan kitab respublikamızda bu boşluğu aradan qaldırmaq məqsədilə hazırlanmışdır. Buraya vergi sistemi, vergi qanunvericiliyi, müxtəlif vergilər, vergilərə birbaşa və dolayısı ilə aid olan terminlər, anlayışlar haqqında məlumatlar daxil edilmişdir.

QISALTMA VƏ İXTİSARLAR

Kitabda yerə qənaət məqsədilə bəzi sözlər qısa şəkildə yazılmışdır. Burada həm indiyə qədər işlədilən, həm də yalnız bu ensiklopediya üçün tətbiq olunan qısaltma və ixtisarlar istifadə edilmişdir.

ABŞ – Amerika Birləşmiş Ştatları
ADNA – Azərbaycan Dövlət Neft Akademiyası
AES – Atom Elektrik Stansiyası
AHİK – Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası
Aİ – Avropa İttifaqı
AİB – Avropa İqtisadi Birliyi
AM – Apelyasiya Məhkəməsi
AR – Azərbaycan Respublikası
AR CM – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
AR CPM – Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi
AR DGK – Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
AR DİN – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
AR DNF – Azərbaycan Respublikasının Dövlət Neft Fondu
AR DNŞ – Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti
AR DSMF – Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu
AR ƏM – Azərbaycan Respublikasının Əmək Məcəlləsi
AR ƏN – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
AR GM – Azərbaycan Respublikasının Gömrük Məcəlləsi
AR İXM – Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi
AR MB – Azərbaycan Respublikasının Mərkəzi Bankı
AR MM – Azərbaycan Respublikasının Mülki Məcəlləsi
AR MN – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
AR NK – Azərbaycan Respublikasının Nazirlər Kabineti
AR NN – Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi
AR TŞ – Azərbaycan Respublikasının Tarif Şurası
AR VM – Azərbaycan Respublikasının Vergi Məcəlləsi
AR VN – Azərbaycan Respublikasının Vergilər Nazirliyi
AŞ –Avropa Şurası
ATƏT – Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
AVİS – Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi
BDX – Baş Dövlət Xəzinədarlığı
BMK – Beynəlxalq Maliyyə Korporasiyası
BOKT – Bank olmayan kredit təşkilatları
BTN – Brüssel tarif nomenklaturası
BVF – Beynəlxalq Valyuta Fondu
DGK – Dövlət Gömrük Komitəsi
DXA – Dövlət Xəzinədarlıq Agentliyi
DİN – Daxili İşlər Nazirliyi
DYF – Dövlət Yol Fondu
ƏSF – Əmanətlərin Sığortalanması Fondu
FQ – faydalı qazıntılar
GƏŞ – Gömrük Əməkdaşlıq Şurası

ha – hektar
HPB – Hasilatın Pay Bölgüsü
XİZ – Xüsusi İqtisadi Zona
XKS – Xalq Komissarları Soveti
İƏİT – İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı
IFA – International Fiscal Assosiasion (Beynəlxalq Vergi (Fiskal) Assosiasiyası)
İKT – informasiya-kommunikasiya texnologiyaları
IOTA – The Intra-European Organisation of Tax Administrations (Avropadaxili Vergi Administrasiyaları Təşkilatı)
İÖVAA – İslam Ölkələrinin Vergi Administrasiyaları Assosiasiyası
ISSN – International Standard Serial Number (Beynəlxalq Standart Seriya nömrəsi)
kq – kiloqram
kv.m. – kvadrat metr
MAƏH – minimum aylıq əməkhaqqı
MMC – Məhdud Məsuliyyətli Cəmiyyət
MMUS – Milli Mühasibat Uçotları Standartları
MUBS – Mühasibat Uçotunun Beynəlxalq Standartları
MR – muxtar respublika
QKDK – Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
man. – manat
mm – millimetr
OECD – Organisation for Economic Cooperation and Development (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı)
RF – Rusiya Federasiyası
SELA – Sistema Ekonomiko Latinoamericano (Latın Amerikası ölkələrinin iqtisadi sistemi)
SITS – Standard International Trade Classification (Standart Beynəlxalq Ticarət Təsnifatı)
sm – santimetr
SSRİ – Sovet Sosialist Respublikaları İttifaqı
SSRİ MİK – Sovet Sosialist Respublikaları İttifaqının Mərkəzi İcraiyyə Komitəsi
TEGVV – təyin edilmiş gəlirdən vahid vergi
ÜDM – ümumi daxili məhsul
ÜMM – ümumi milli məhsul
ÜTT – Ümumdünya Ticarət Təşkilatı
VABA – Vergi administrasiyalarının birliyi assosiasiyası
VÖEN – vergi ödəyicisinin eyniləşdirmə nömrəsi
VHF – vergi hesab fakturası
VM– Vergi Məcəlləsi
VN – Vergilər Nazirliyi
WCO – World Customs Organization (Ümumdünya Gömrük Təşkilatı)

Vergi terminlərinin izahı barədə əlavə məlumatı aşağıda adları çəkilən kitablardan almaq olar:

1. Böyük İqtisadi Ensiklopediya. 5 cilddə. Müəllifi və baş redaktoru akademik Z.Ə.Səmədzadə. Bakı, 2012.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2011. - 264 s.
3. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, 2009. - 311s.
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2012. - 648 s.
5. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, 2004. - 743 s.
6. Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi. Bakı, 2004. -296 s.
7. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı, 2004. -272 s.
8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı, 2012. - 552 s.
9. Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi. Bakı, 2011. - 88 s.
10. Azərbaycan Respublikasının Cinayət – Prosessual Məcəlləsi, "Hüquq ədəbiyyatı", Bakı, 2003. - 720 s.
11. A.F.Musayev, A.Q.Qəhrəmanov. "Vergi mədəniyyəti". Bakı, 2010. - 344 s.
11. А.В.Толкушкин. "Энциклопедия российского и международного налогообложения". Москва, 2003. - 910 с.
12. А.В. Толкушкин. "История налогов в России". Москва, 2001. - 432 с.
13. И.Г. Русакова, В.А. Кашин, А.В. Толкушкин и др. "Налоги и налогообложение". Москва, 2000. - 495 с.

A

AÇIQ SƏHMDAR CƏMİYYƏTİ (ASC) – fiziki və (və ya) hüquqi şəxslərin könüllü sazişi əsasında yaradılan, iştirakçıların onlara mənsub səhmləri digər səhmdarların razılığı olmadan özgəninkiləşdirə bildiyi müəssisənin təşkilat forması. Bu cür səhmdar cəmiyyət buraxdığı səhmlərə açıq abunə yazılışını və onların sərbəst satışını həyata keçirə bilər. Açıq səhmdar cəmiyyət illik hesabatını və mühasibat balansını hamının tanış olması üçün hər il dərc etməyə borcludur.

Açıq səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir. Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar səhmdarların ümumi yığıncağında qəbul edilir və bu barədə məlumat açıqlanır. Bu məlumatın açıqlanması qaydası səhmdar cəmiyyətinin nizamnaməsində nəzərdə tutulmalıdır (AR MM, maddə 99.3).

Açıq səhmdar cəmiyyətinə aidiyyəti olan şəxs ilə həmin cəmiyyət arasında bağlanılan hər hansı əqd, razılaşma və yaxud əlaqəli əqdlər məcmusu aidiyyəti şəxslə əqd hesab edilir. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, aidiyyəti şəxslərin siyahısı, onlarla cəmiyyət arasında əqdlərin bağlanması və belə əqdlər barədə məlumatın açıqlanması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir (AR MM, maddə 99.4).

ADİ MİLLİ KOMPANİYA – təsisçiləri yerli fiziki və hüquqi şəxslərdən ibarət olan, qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçmiş, mülkiyyətində ayrıca əmlakı olan, öz öhdəlikləri üçün bu əmlakla cavabdehlik daşıyan, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malik qurum.

ADLI EMİSSİYA QİYMƏTLİ KAĞIZLARI – bu, qiymətli kağızlar üzrə hüquqların keçməsi və onlarda təsbit edilmiş hüquqların həyata keçirilməsi sahibinin mütləq eyniləşdirilməsini tələb edən, sahibləri haqqında məlumat emitentə qiymətli kağızların sahiblərinin reyestri formasında açıqlanmalı olan qiymətli kağızlar. Adlı qiymətli kağız müəyyən şəxsin adına verilir. Adlı qiymətli kağızlar sənədli və sənədsiz formalarda emissiya edilə bilər.

Adlı qiymətli kağız üzrə borclu icranı yalnız sənədin sahibi olan və özünü adına sənəd verilmiş şəxs kimi və ya şəxsin hüquqi varisi kimi təsdiq edən şəxsə həyata keçirməlidir. Borclu icranı bu cür təsdiq olmadan həyata keçirdiyi halda öz ixtiyarını sübut edəcək üçüncü şəxs qarşısında öhdəliyindən azad edilmir. Adlı qiymətli kağızda borclu icranı sənədin hər hansı sahibinə həyata keçirmək hüququnu özündə saxlamışdırsa, onun icranı kağız sahibinə həyata keçirmək hüququ vardır, lakin buna borclu deyildir (AR MM, maddə 989).

ADSIZ BANK KİTABÇASI – qiymətli kağızın bir növü. Fiziki şəxslə bağlanmış bank əmanəti müqaviləsində adlı bank kitabçasının və adsız bank kitabçasının verilməsi nəzərdə tutula bilər. Bank kitabçasında bankın adı və olduğu yer, əmanət filiala qoyulduqda isə həm də müvafiq filialın adı və olduğu yer, əmanət üzrə hesabın nömrəsi, hesaba köçürülmüş pul vəsaitinin bütün məbləğləri, hesabdan silinmiş pul vəsaitinin bütün məbləğləri və bank kitabçasının banka təqdim olunduğu anadək hesabdakı pul vəsaitinin qalığı göstərilməli və bank tərəfindən təsdiq edilməlidir.

ADVALOR DƏRƏCƏ – malların gömrük dəyərinə görə faizlə hesablanır. Advalor dərəcə əsasən malın satış qiymətinə proporsional olaraq müəyyən olunur və adətən bir mal qrupuna daxil olan müxtəlif keyfiyyət xarakteristikasına malik mallara tətbiq edilir.

ADVALOR VERGİ – əmlakın peşəkar ekspert tərəfindən müəyyənləşdirilməli olan dəyərindən faizlə hesablanan vergi.

AGENT – öz adından və ya digər şəxsin adından həmin digər şəxsin tapşırığı ilə və onun maraqlarının təmin olunması naminə müəyyən hərəkətləri yerinə yetirmək hüququ olan, vəkil edilmiş şəxs, vasitəçi kimi çıxış edən fiziki və ya hüquqi şəxs, vətəndaş və ya təşkilat. İqtisadi münasibətlər zamanı agent qismində brokerlər, maklerlər, dilerlər, komisyonçular çıxış edirlər. Vəkil edilmiş vəzifəli şəxslərə də agent deyilir (məsələn, sığorta agenti).

AKKREDİTƏ – səlahiyyətlərin və ya etimadın rəsmi qeydiyyatı. Bu termin latın sözündən (accredere) götürülmüşdür və etibar etmək kimi tərcümə olunur. Akkreditə, adətən, diplomatik termin kimi işlədilir. Diplomatların xarici ölkədə akkreditasiyası onların öz ölkəsini həmin ölkənin ərazisində təmsil etmə hüququnun təsdiq edilməsi deməkdir. Bununla yanaşı, akkreditə jurnalistikada da istifadə edilir və hər hansı bir tədbiri mətbuatda işıqlandıracaq jurnalistlərin həmin tədbirdə qeydiyyatını nəzərdə tutur.

AKSİYA – bax: *Səhm.*

AKSİZ ANBARI – alıcılara göndərilmə anınadək alkoqollu məhsulların vergi anbarı rejimində saxlanılması üçün xüsusi olaraq ayrılmış və təchiz edilmiş yer.

AKSİZ MƏBLƏĞLƏRİNİN AİD EDİLMƏ QAYDASI – aksizli malların realizə edilməsi zamanı hesablanmış aksiz vergisi məbləğinin müəssisənin mənfəət vergisi hesablanarkən gəlirdən çıxılan xərclərinə aid edilməsi. Qeyd olunan qayda RF VM-nin 199-cu maddəsində öz əksini tapmışdır.

AKSİZLƏR – AR VM-nin XII fəslində göstərilmiş qaydalarla aksizli malların satış qiymətinə daxil edilən vergi. AR ərazisində istehsal edilən, yaxud idxal olunan aksizli mallardan, vergidən azad edilən mallar istisna olunmaqla, aksiz tutulur.

AR ərazisində aksizli malların istehsalı və ya idxalı ilə məşğul olan bütün müəssisələr və fiziki şəxslər, habelə respublika hüdudlarından kənarda bilavasitə özü və ya podratçı vasitəsilə aksizli mallar istehsal edən

və istehsal etdiyi yerdə vergi ödəyicisi kimi uçotda olmayan AR-in rezidentləri aksizin ödəyiciləridirlər. Sifarişçinin göndərdiyi xammaldan AR ərazisində mallar istehsal edildiyi hallarda, malların istehsalçısı (podratçı) aksizin ödəyicisidir; bu halda istehsalçı (podratçı) aksiz məbləğlərini sifarişçidən almalıdır.

AR VM-nə görə (maddə 184), aşağıdakı əməliyyatlar vergitutma obyektləri hesab edilir:

- AR ərazisində istehsal edilən aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması;
- idxal malları üçün – AR GM-ə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması.

AR ərazisində istehsal olunan neft məhsulları və tütün məmulatları üçün – vergi tutulan əməliyyatın məbləği vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən, o cümlədən barter əsasında, aldığı və ya almalı olduğu haqqın topdansatış bazar qiymətindən (aksiz və ƏDV çıxılmaqla) aşağı olmayan məbləğidir; digər aksizli mallar üçün vergi tutulan əməliyyat istehsal olunan malların miqdarı hesab olunur.

İdxal malları üçün (minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr istisna olmaqla) vergi tutulan əməliyyatın məbləği AR GM-yə uyğun olaraq müəyyən edilən, lakin topdansatış bazar qiymətindən aşağı olmayan malların aksiz və ƏDV çıxılmaqla gömrük dəyəridir.

AR-ə idxal olunan minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə aşağıdakı aksiz dərəcələri tətbiq edilir:

Vergitutma obyektinin adı	Aksizin dərəcəsi
Minik avtomobilləri:	
mühərrikin həcmi 2000 kub sm-dək olduqda	Mühərrikin həcminin hər kub sm-ə görə – 0,15 man.
mühərrikin həcmi 3000 kub sm-ədək olduqda	300 man. + mühərrikin həcminin 2001 – 3000 kub sm hissəsi üçün hər kub sm-ə görə – 1 man.
mühərrikin həcmi 4000 kub sm-ədək olduqda	1300 man.+mühərrikin həcminin 3001 – 4000 kub sm hissəsi üçün hər kub sm-ə görə – 2 man.
mühərrikin həcmi 4000 kub sm-dən çox olduqda	3300 man. + mühərrikin həcminin 4000 kub sm-dən çox hissəsi üçün hər kub sm-ə görə – 4 man.
İstirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr	Mühərrikin həcminin hər kub sm-ə görə – 1 man.

İdxal olunan minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə görə vergi tutulan əməliyyat – onların mühərrikinin həcmidir.

AR ərazisində istehsal olunan mallar üçün – malların istehsal binasının hüdudlarından kənara buraxıldığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır. Malların idxalı üçün – AR GM-ə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır.

Aksizli malların ixracı sıfır dərəcəsi ilə vergiyə cəlb olunur.

AR VM-ə görə (maddə 188), aksizdən müəyyən azadedilmələr də nəzərdə tutulmuşdur. Fiziki şəxsin fərdi istehlakı üçün 3 litr alkoqollu içkinin və 600 ədəd siqaretin idxalı, AR-ə avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş bakındakı

Neft məhsullarının 1 tonu üçün tətbiq edilən aksiz dərəcələri aşağıdakı kimidir:

Avtomobil benzini Aİ-95	101%
Avtomobil benzini Aİ-92	92%
Avtomobil benzini Aİ-80	93%
Dizel yanacağı	24%
Məişət-soba yanacağı	28%
Ağ neft (KO-20)	32%
Reaktiv mühərrik yanacağı	14%
Nafta (ilkin emal benzini)	19%
Maye qaz (butan-butilen və propan-propilen fraksiyası)	30%
Qaz benzini	37%
Mühərrik yanacağı DT-36	52%
Mühərrik yanacağı DT-20	61%
Soba mazutu	11%
Motor yağları – M-12VB, M-14V2	52%
Sənaye yağları İ-12A, İ-20V, İ-40A, İ-8B1, İ- 30V	72%
Turbin yağları T-22, T-30, T-46	39%
Transformator yağı T-1500	54%.
Digər yağlar AK-15, S-11, XM-6, K-12, K-19,VM-4	56%
Kokslar K-8, K-0, K-0,25	19%
Koks ümumi	18%
Bitum BN 60/90, BNB – 60/70	33%
Bitum MQO	34%
Bitum BNV, rubraks A–30, BNB–70/30, BNB–85/25	31%
Kimya sənayesi üçün ilkin benzin fraksiyası	8%

yanacaq, AR ərazisindən tranzitlə daşınan mallar, təkrar ixrac üçün nəzərdə tutulan mallar istisna edilməklə, malların respublika ərazisinə müvəqqəti idxalı, təkrar ixrac üçün nəzərdə tutulan və girovla təminat verilən mallar aksizdən azad edilir. Lakin azadolmalar yalnız o zaman tətbiq edilir ki, gömrük rüsumlarından azadolmaların şərtlərinə əməl edilmiş olsun.

Gömrük rüsumu tutulması məqsədləri üçün idxal rüsumun geri qaytarılması rejiminin təsiri altına düşürsə və ya azadolmanın şərtləri pozulduğu üçün gömrük rüsumunun ödənilməsi tələb edilirsə, həmin rejim aksizin tutulmasına da tətbiq olunur.

Respublikamızda aşağıdakı mallar aksizli mallara aid edilir:

- içməli spirt, pivə və spirtli içkilərin bütün növləri;
- tütün məmulatları;
- neft məhsulları;
- minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla);
- istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr.

AR-ə idxal edilən aksizli mallara (minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr istisna olmaqla) aksizlərin dərəcələri AR NK tərəfindən müəyyən edilir.

AR-də istehsal olunan içməli spirtə, pivəyə, spirtli içkilərə və tütün məmulatlarına aşağıdakı aksiz dərəcələri tətbiq edilir:

- içməli spirt (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 faizdən az spirt olan denaturlaşdırılmamış etil spirti) – hər litrinə 0,8 man.;
- araq, tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likör və likör məmulatları – hər litrinə 0,5 man.;
- konyak və konyak materialları – hər litrinə 0,2 man.;
- şampan şərabı – hər litrinə 0,2 man.;
- şərablar və şərab materialları – hər litrinə 0,1 man.;
- pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilər – hər litrinə 0,08 man.;
- bütün növ tütün məmulatları – 12,5 faiz.

Respublikamızda istehsal olunan neft məhsullarına, minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə aksiz dərəcələri AR NK tərəfindən müəyyən edilir.

AR-də istehsal olunan minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə mühərrikin həcminin hər kub sm.-nə görə – 0 man. aksiz dərəcəsi tətbiq edilir.

Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövri üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməlidir. Vergi ödəyicisinin aksizin ödənişi üzrə borcu varsa, həmin borc yaranandan

ödənilənədək həyata keçirilən vergi tutulan əməliyyatlar üzrə aksizlər həmin əməliyyatların aparıldığı vaxt ödənilir və vergi ödəyicisinin həmin malları bu mallar üzrə aksizi ödəyənədək istehsal binasının hüdudlarından kənara çıxarmağa hüququ yoxdur.

Aksizli mallar idxal edildikdə, aksiz gömrük orqanları tərəfindən gömrük rüsumlarının tutulduğu qaydada tutulur.

AR qanunvericiliyinə əsasən, aksizlərin ödəyicisi olan hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədlərdə qeyd olunmuş hüquqi ünvan üzrə, fərdi sahibkar və AR VM-in müddəalarına uyğun olaraq bəyannamə verməli olan rezident fiziki şəxs yaşadığı yer üzrə, eyni zamanda vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirdən ödəmə yerində vergi tutulmayan qeyri-rezident şəxs isə Azərbaycan mənbəyindən gəlirin alındığı yer üzrə vergi orqanında uçota durmağa borcludur (AR VM, maddə 33.1). Bununla yanaşı, aksizlərin ödəyicisi uçotda olduğu vergi orqanının ərazisindən kənarda aksizli malın istehsalı ilə məşğul olarsa, bu halda həmin ödəyici həm də fəaliyyət göstərdiyi yer üzrə bu uçota durmalıdır (AR VM, maddə 33.2).

Aksizlər dövlət büdcəsinə ödənilir.

Vergi ödəyicisi AR VN tərəfindən müəyyən edilmiş qaydada verginin ödənilməsi üçün nəzərdə tutulmuş müddətlərdə, hesabat dövrü ərzində vergi tutulan əməliyyatlarını göstərməklə bəyannamə verməlidir.

Vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin fəaliyyətinə xitam verildikdə, aksiz bəyannaməsi 30 gün müddətində vergi orqanına təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.

Sonradan təkrar ixrac məqsədi ilə idxal olunan mallar üçün aksiz malların idxalı vaxtı ödənilir və sonradan təkrar ixracın faktiki həcminə müvafiq məbləğdə aksizi almış gömrük orqanları tərəfindən 15 gün ərzində geri qaytarılır.

AR qanunvericiliyinə əsasən, aksizli malları göndərən vergi ödəyicisi normativ-hüquqi aktlara uyğun olaraq malı qəbul edənə elektron vergi hesab-fakturası verməlidir. Elektron vergi hesab-fakturası özündə aşağıdakı məlumatları əks etdirən sənəddir:

- vergi ödəyicisinin və alıcının (sifarişçinin) adı;
- vergi ödəyicisinin və alıcının (sifarişçinin) eyniləşdirmə nömrəsi (VÖEN);
- yola salınmış malların, görülmüş işlərin və ya göstərilmiş xidmətlərin adı;
- vergi tutulan əməliyyatın haqqının məbləği, həmçinin vergi tutulan əməliyyatın həcmi;
- aksizli mallarda aksizin məbləği;
- vergi tutulan əməliyyatdan ödənilməli olan verginin məbləği;
- elektron vergi hesab-fakturasının verilmə tarixi;
- elektron vergi hesab-fakturasının nömrəsi;
- ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyicisinin qeydiyyat bildirişini vermiş vergi

orqanının adı, bildirişin verilmə tarixi və nömrəsi;

- elektron vergi hesab-fakturasını imza etmiş məsul şəxsin vəzifəsi, soyadı, adı, atasının adı.

Mallar pərakəndə qaydada göndərildiyi hallarda elektron vergi hesab-fakturası əvəzinə qəbz və ya çek verilə bilər.

Aksizin ödəyicisi aksiz üzrə əvəzləşdirmə üçün ərizəni aksizin ödənilməsinə dair bəyannamə ilə birlikdə vergi orqanına verir.

AR qanunvericiliyinə əsasən, vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin fəaliyyətinə xitam verildikdə, aksiz bəyannaməsi bu Məcəllədə nəzərdə tutulmuş müddətdən gec olmamaq şərti ilə 30 gün müddətində vergi orqanına təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.

AR qanunvericiliyinə əsasən, aksizlər dövlət büdcəsinə ödənilir. Aksizlər bu vergi ilə bağlı bildirişdə göstərilən yerdə, ödəyicinin uçotda olduğu yer üzrə, həmçinin ödəyici olan fiziki şəxsin yaşadığı yer üzrə, yaxud ödəyici olan hüquqi şəxsin idarə olunduğu yer üzrə büdcəyə ödənilə bilər.

AR qanunvericiliyinə əsasən, aksiz qanunla müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş vergi ödəmələrinə görə ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün bir ildən artıq olmamaq şərti ilə ödənilməmiş vergi ödəməsi məbləğinin 0,1 faizi məbləğində faiz tutulur.

AKSİZLƏRİN VERGİTUTMA OBYEKTİ – bax: *Aksizlər*.

AKSİZLİ MALLAR – bax: *Aksizlər*.

AKSİZLİ MALLAR GÖMRÜK ƏRAZİSİNƏ GƏTİRİLDİKDƏ VERGİ BAZASI – idxal olunan aksizli mallar üçün qanunvericiliyə uyğun olaraq təyin olunan vergitutma obyektinin vergiyə cəlb olunan hissəsi.

AKSİZLİ MALLARIN İXRACI – qanunvericiliyə uyğun olaraq aksizli hesab edilən malların ölkə ərazisindən çıxarılması.

AKSİZLİ MALLARIN İXRACI FAKTINI TƏSDİQ EDƏN SƏNƏDLƏR – aksizi 0 dərəcə ilə tətbiq etmək hüququnu əsaslandırmaq üçün vergi ödəyicisinin qeydiyyatda olduğu vergi orqanına təqdim etməli olduğu sənədlər.

AKSİZ MARKALARI – aksizli malların istehsal binasının hüdudlarından və ya idxal malları üçün gömrük xidmətinin nəzarətindən qanunvericiliyə uyğun olaraq çıxmasını təsdiq edən marka.



AKSİZLİ MİNERAL XAMMAL – təbii qaz başa düşülür. Aksizlərin tutulması məqsədilə çıxarılmış qaza və səmt qazına emaldan və təkrar emaldan sonra təbii qaz kimi baxılır.

AKT – vergi yoxlamasının nəticələrinə görə vergi orqanlarının səlahiyyət verilmiş vəzifəli şəxsləri tərəfindən tərtib edilən sənəd.

AKTİVLƏR – təsərrüfat subyektinə məxsus olan xüsusi əmlak və debitor hesabların cəmi, o cümlədən binalar, istehsal ehtiyatları, müştərilərin subyektə çatası (onların borc öhdəlikləri) və ya müəssisənin bilavasitə kassasında (xəzinəsində), yaxud bankın depozitində olan pul məbləği.

AKTİVLƏR TƏQDİM EDİLƏRKƏN GƏLİR VƏ ZƏRƏR – aktivlərin təqdim olunmasından daxilolmalar və aktivlərin müvafiq qanunvericiliyə uyğun olaraq müəyyənləşdirilən dəyəri arasındakı fərq.

AKTİVLƏRİN DƏYƏRİ – aktivlərin alınması, gətirilməsi, istehsalı, tikilməsi, quraşdırılması və qurulması üçün çəkilən xərclər, həmçinin vergi ödəyicisinin gəlirdən çıxmaq hüququna malik olduğu xərclər istisna edilməklə, aktivlərin dəyərini artıran digər xərclər.

AQRESSİV MÜHİT – əsas vasitələrin istismarı prosesində onların aşınmasına (köhnəlməsinə) səbəb olan təbii və (və ya) süni amillərin məcmusu. Əsas vəsaitlərin qəza vəziyyəti yaranmasına səbəb ola bilən partlayış, yaxud yanğın təhlükəsi yarada bilən, zəhərli və ya digər texnoloji mühitlə əlaqədə olması da aqressiv mühitə aid edilir. Bəzi ölkələrdə mənfəət vergisinin ödəyicilərinin aqressiv mühitdə əsas vəsaitlərin amortizasiyasının hesablanması zamanı xüsusi əmsal tətbiq etmək hüququ nəzərdə tutulmuşdur (məsələn, RF VM, maddə 259, bənd 7).

ALİMENTLƏR – latın sözü "alimentum"dan götürülüb, mənası qida, təminat deməkdir. Qanunla müəyyən edilmiş hallarda ailənin bir üzvünün digər üzvlərinə verməli olduğu dolanacaq vasitəsi.

ALKOQOL VƏ TÜTÜN MƏMULATLARINA NƏZARƏT ÜZRƏ REGİONLARARASI TƏFTİŞ – bəzi ölkələrdə alkoqollu məhsulların və tütün məmulatlarının istehsalı və dövriyyəsinə, qanunvericiliyinə uyğun olaraq, nəzarəti həyata keçirən vergi orqanı.

ALKOQOLLU MƏHSULLAR – içməli spirt, araq, konyak, pivə, likör məhsulları, şərab düzəldilməsi üçün materiallar istisna olmaqla, tərkibində etil spirtinin həcmi 1,5%-dən artıq olan şərab və digər məhsullar.

AMİL – Ərəb Xilafəti dövründə vergi işlərini idarə edən, yaxud vergiyə nəzarət edən mülki hakim. Amil titulunu əsasən vergiyə nəzarət edən xəzinə qulluqçuları daşıyırdılar. Vergilərin yığılması ilə, adətən, vergi məmurlarının xüsusi olaraq bu vəzifəyə təyin edilmiş müfəttişi məşğul olurdu, lakin Xilafətin ucqarlarında, o cümlədən Azərbaycanda da vergi məmurunun işini canişinin özü yerinə yetirirdi. Məhz buna görə ilk canişinlər amil adlanırdı (sonralar amil termini ilə ancaq maliyyə agenti vəzifəsinin daşıyıcıları ifadə edilirdi).

AMNİSTİYA – amnistiya aktı fərdi qaydada müəyyən edilməyən şəxslər barəsində AR Milli Məclisi

tərəfindən qəbul edilir. Cinayət törətmiş şəxslər amnistiya aktı ilə cinayət məsuliyyətindən azad edilə bilərlər. Cinayət törətməyə görə məhkum olunmuş şəxslər isə cəzadan azad edilə bilərlər, yaxud onlara təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxslərin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər və yaxud belə şəxslər əlavə cəzadan azad edilə bilərlər. Amnistiya aktı ilə cəzasını çəkmiş şəxslərin məhkumluğu götürülə bilər.

AMORTİZASİYA – aktivlərin faydalı xidmət müddəti ərzində dəyərinin müntəzəm surətdə azalması. Köhnəlmə və sıradan çıxma vəziyyətinin baş verməsinin labüdlüyü aktivlərin dəyərinin tədricən istehsal olunan məhsulun üzərinə köçürülməsi prosesini zəruri edir.

AMORTİZASİYA AYIRMALARI – mühasibat uçotunda mənəvi və fiziki aşınma nəticəsində əsas vəsaitlərin dəyərinin müəyyən hissəsinin istehsal olunan əmtəənin (işin, xidmətin) dəyərinə keçirilməsi. Bəzən bu ayırmaların norması lazım olduğundan artıq götürülür və sürətli amortizasiya baş verir.

AMORTİZASİYA EDİLƏN ƏMLAK – faydalı istifadə müddəti bir ildən, dəyəri isə qanunvericiliklə müəyyən olunan həddən artıq olan əmlak.

AMORTİZASİYA QRUPLARI – amortizasiya edilən əmlakın istismar müddətlərinə görə bölünən qrupları.

AMORTİZASİYA MƏBLƏĞİNİN HESABLANMASI ÜSULLARI – təşkilatların mənfəətinə verginin ödənilməsi üçün amortizasiya məbləğinin hesablanması üçün tətbiq edilən üsullar. Əksər ölkələrdə amortizasiya məbləği amortizasiya olunan obyekt üçün hər ay aşağıdakı üsullardan biri ilə hesablanır:

- düz xətt üsulu ilə;
- azalan qalıq üsulu ilə;
- istehsal vahidi üsulu ilə;

AMORTİZASİYA NORMASI – müəyyən dövrə görə amortizasiya olunan əsas vəsaitin konkret növü üzrə əsas vəsaitin dəyərinə nisbətdə faiz şəklində müəyyən olunmuş norma.

AMORTİZASİYA OLUNAN ƏMLAKIN İLKİN DƏYƏRİ – büdcədən əvəzləşdirilən vergilər, habelə qanunvericiliyə uyğun olaraq, gəlirdən çıxıla bilən xərclər istisna olmaqla əsas vəsaitlərin alınması, gətirilməsi, istehsalı, tikilməsi, quraşdırılması və qurulması üçün çəkilən xərclərin məcmusu.

ANALİTİK UÇOT – təsərrüfat vəsaitlərinin hərəkəti barədə hərtərəfli məlumatları özündə əks etdirən mühasibatlıq yazılışı sistemi.

ANALOGİYA – hər hansı əşya, proses və s.-yə məxsus cəhətlərin oxşarlığı. Yunan dilindən tərcümədə uyğunluq, oxşarlıq mənasını verir.

ANALOJİ ƏMTƏƏ – əmtəə nomenklaturunda eyni kod altında göstərilən əmtəə; digər əmtəə ilə tam eynilik təşkil edir, öz təyinatına, tətbiqinə, keyfiyyətinə, texniki xüsusiyyətlərinə və əsas xassələrinə görə o biri əmtəəyə uyğun olduğundan alıcı istehlak prosesində istifadə etdiyi əmtəəni onunla dəyişir və ya dəyişməyə hazırdır.

ANNUİTETLƏR – borcun elə növüdür ki, kreditor ona görə həm

borc, həm də borca görə hesablanmış faiz məbləği də daxil olmaqla gəlir əldə edir. Eyni zaman intervalı ilə və eyni məbləğdə dövri ödənişlər ardıcıllığıdır. Bəzən maliyyə rentası da adlanır. Latınca "annuus", fransızca "annuite" sözləri "illik" mənasını verir.

ANŞTALT – bəzi ölkələrdə təşkilatın və hüquqi şəxsin xüsusi forması. Almanca "anstalt" şəklində yazılır, qurum, təşkilat, nəyi isə nizamlayan qayda deməkdir. Almaniya, Avstriya və İsveçrədə idarə və ya təşkilat, Lixtenşteyndə isə məhdud məsuliyyətli hüquqi şəxs başa düşülür. Bir və ya bir neçə həm fiziki, həm də hüquqi şəxs tərəfindən yaradıla bilər; kapitalın səhmlərə bölünməsi və ya bölünməməsi mümkündür; başqa sözlə, anştalt auksioner cəmiyyətlə fond arasında olan hibrid bir formadır. Anştaltın fəaliyyəti güzəştli holdinq şirkətlərinin və ya domisil şirkətlərin tələblərinə uyğundursa, həmin şirkətlərə edilən güzəştli vergiqoyma rejimi onun üçün də tətbiq olunur. Anştalt Lixtenşteynin ərazisində adi sahibkarlıq fəaliyyəti göstərirsə, onda gəlirə korporasiya vergisi və netto-aktiv adlanan xüsusi əmlak vergisi ödəməlidir.

Beynəlxalq vergi planlaşdırmasında bu cür forma aşağıdakı səbəblərə görə əlverişli hesab edilir: a) qeydiyyatın sadəliyi; b) hüquqi və fiziki şəxslərin kapitalında eyni zamanda iştirakın mümkünlüyü; c) şirkətin bir şəxs tərəfindən təsis edilməsi; ç) təsisçinin məhdud məsuliyyəti; d) güzəştli vergi rejimindən istifadə hüququ; e) ikiqat vergitutmanın aradan qaldırılması sazişinin qüvvədə olması; ə) əsl sahibkarın şəxsiyyətinin gizli saxlanılmasının mümkünlüyü.

Anştaltın kapitalı səhmlərə bölünməmişdirsə, o, bəzi ölkələrin qanunvericiliyinə görə, ayrıca hüquqi şəxs kimi qəbul edilməyə bilər, gəlir isə onun sahiblərinin gəliri hesab edilər.

ANTİDEMPİNQ – əmtəənin normal dəyərindən aşağı qiymətə satışının – dempinqin qarşısının alınması.

ANTİDEMPİNQ RÜSUMLARI – idxal olunan malların qiyməti AR-in gömrük ərazisinə gətirildiyi anda ixrac olunduğu ölkədəki real dəyərindən xeyli aşağı olduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə AR-də onların istehsalının təşkilinə və ya genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilən rüsumlar.

ANTİDEMPİNQ TƏDBİRLƏRİ – daxili bazarın dempinqdən müdafiəsi üçün dövlətlər tərəfindən həyata keçirilən tədbirlər.

APARAT – dövlət idarəsinin və ya təsərrüfatının hər hansı sahəsinə xidmət göstərən müəssisə və ya müəssisələr qrupu. Bundan əlavə, hər hansı iş üçün alət və qurğu da aparat adlanır.

APATRİDLƏR – yunan sözü "apatris" və "apolis"dən götürülüb, mənası "vətəndən məhrum olmuşlar" deməkdir və vətəndaşlığı olmayan şəxslərdir.

APELYASİYA – məhkəmənin qanuni qüvvəyə minməmiş qərarlarından şikayət verilməsi. "Apellatio" latın dilindən tərcümədə "müraciət" mənasını verir.



Bakı Apelyasiya Məhkəməsinin yeni binası

APELYASİYA MƏHKƏMƏSİ – AR Konstitusiyasının 132-ci maddəsinin I hissəsinə müvafiq olaraq apellyasiya məhkəməsi mülki, inzibati və iqtisadi mübahisələrə, cinayət və inzibati xətalara dair işlər üzrə yuxarı instansiya məhkəməsidir.

APOSTİL – 5 oktyabr 1961-ci il tarixli Haaqa Konvensiyasına müvafiq olaraq Konvensiyaya qoşulmuş dövlətlərin rəsmi sənədlərini imzalayan şəxsin imzasının və ya sənədə vurulan möhür və ştampın xarici rəsmi sənədlərin leqallaşdırılmasını tələb etməyən xüsusi təsdiq edilmə qaydası. "Apostil" fransızca "apostille" sözündən götürülmüşdür, mənası "qeyd, haşiyə" deməkdir.

ARAYIŞ – bu və ya digər faktları və ya hadisələrin təsvirini və təsdiqini özündə əks etdirən sənəd növü.

ARBİTRAJ – mübahisənin həlli üsulu. Mübahisənin həlli üçün tərəflər məhkəməyə deyil, ayrıca şəxslərə – arbitrlərə və ya münsiflər məhkəməsinə müraciət edə bilərlər. Fransız sözü "arbitraje" "düzgün qərar" deməkdir.

ARTIQ ÖDƏMƏ – vergi ödəyicisi tərəfindən artıq ödənilmiş vergilər, faizlər və maliyyə sanksiyaları.

ARTIQ TUTULMUŞ VERGİ – vergi ödəyicisindən düzgün tutulmamış vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləği.

ASILI AGENT – müqavilə əsasında xarici şirkətin maraqlarını öz dövlətində təmsil edən, xarici şəxs adından onun üçün hüquqi fəsadlar kəsb edə biləcək müqavilələr bağlamaq və ya onların şərtlərini əhəmiyyətli şəkildə (qiymətini, daşınma şərtlərini) dəyişdirmək səlahiyyətləri olan şəxs.

ATTESTASİYA – işçilərin peşəkarlıq səviyyəsinin yoxlanılması, ixtisasına, sənətinə müvafiq olaraq onların tutduğu vəzifəyə (peşəyə) uyğun olduğunu aşkara çıxarmaq məqsədi ilə keçirilən tədbir. Latınca "attestatio" "şəhadətnamə" mənasını verir. Həmçinin işəgötürən müvafiq iş

yerlərində əməyin mühafizəsi tədbirlərinin təmin olunmasını və ya istehsal sanitariyasının, gigiyenasının vəziyyətini müəyyən etmək və yaxşılaşdırmaq məqsədi ilə, habelə əmək məhsuldarlığının və işin səmərəliliyinin artırılması, əməyin təşkilində ən mütərəqqi üsulların, o cümlədən yeni texnikanın və ya texnologiyanın tətbiqi zamanı iş yerlərinin attestasiyasını keçirməlidir.

AUDİT – mühasibat (maliyyə) hesabatının, hesablaşma-tədiyyə sənədlərinin, vergi bəyannamələrinin və iqtisadi subyektlərin digər maliyyə öhdəliklərinin müstəqil, müəssisədən kənar yoxlamalarının müqavilə əsasında həyata keçirilməsi üzrə, eləcə də mühasibat uçotunun qurulmasına, bərpasına və aparılmasına görə təkliflərin işlənib hazırlanması, maliyyə hesabatının tərtib edilməsi üzrə, aktivlərin və passivlərin qiymətləndirilməsi üzrə, maliyyə, vergi, bank və digər təsərrüfat qanunvericiliyi məsələlərinə dair məsləhətləşmə üzrə auditorların (auditor firmalarının) sahibkarlıq fəaliyyəti növü. Latınca "auditus" "dinləmək" deməkdir.

AUDİT HESABATI – müstəqil audit yoxlamasının nəticəsində tərtib edilən hesabat.

AUDİTLƏ ƏLAQƏDAR XİDMƏTLƏR – təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil aparmaq və yazılı rəy vermək, mühasibat uçotu qurmaq, hesabat göstəricilərinin dürüstlüyünü təsdiq etmək və auditorun peşə fəaliyyətinə (auditor təşkilatının nizamnamə məqsədlərinə) uyğun olaraq maliyyə-təsərrüfat münasibətləri sahəsində digər xidmətlər.

AUDİTOR – qanunvericiliklə müəyyən edilmiş qaydada ölkə ərazisində auditor xidməti göstərən fiziki və ya hüquqi şəxs.

AUDİTOR FƏALİYYƏTİ HAQQINDA QANUNVERİCİLİK – "Auditor xidməti haqqında" AR Qanunu, AR-in digər qanunvericilik aktları, beynəlxalq müqavilə və sazişlər.

AUDİTOR FƏALİYYƏTİNİN QAYDALARI (STANDARTLARI) – auditor fəaliyyətinin həyata keçirilməsi, auditin və audit xidmətinin keyfiyyətinin qiymətləndirilməsi, auditorların hazırlanması və onların peşəkarlığının qiymətləndirilməsi qaydaları üzrə vahid tələblər. Auditor fəaliyyətinin standartları 3 əsas qrupa bölünür:

- ümumi standartlar;
- auditor yoxlamasının aparılması standartları;
- hesabatın (aktın) tərtib edilməsi standartları.

Ümumi standartlar auditorun texniki hazırlığa və təcrübəyə malik olmasını, onun müstəqilliyinin təmin edilməsini, öz işinə peşəkarlıqla yanaşmasını nəzərdə tutur. Auditor yoxlamasının aparılması standartlarına görə işlər yaxşı planlaşdırılmalı, onların yerinə yetirilməsinə nəzarət edilməli, mövcud daxili nəzarət öyrənilməli və qiymətləndirilməlidir. Hesabatın (aktın) tərtib edilməsi standartlarına görə isə hesabatların mühasibat uçotu qaydalarına müvafiq tərtib edilib-edilmədiyi, əvvəlki dövrlə müqayisədə yoxlanılan bütün dövr ərzində həmin qaydaya riayət edilib-

edilmədiyi göstərilməli, məlumatların düzgünlüyü və dəqiqliyi müəyyən edilməlidir.

Audit üzrə peşəkarlıq norma və standartlarının işlənib hazırlanması ilə bir neçə təşkilat, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası, Audit Təcrübəsi üzrə Beynəlxalq Komitə və başqaları məşğul olur.

Bir sıra ölkələrə icazə verilmişdir ki, beynəlxalq audit standartlarının bazasında öz milli standartlarını işləyib hazırlasınlar. Bəzi ölkələr yalnız beynəlxalq audit standartlarından öz standartları kimi istifadə edə bilərlər. İnkişaf etmiş ölkələrin isə öz milli audit standartları vardır.

Audit Təcrübəsi üzrə Beynəlxalq Komitə və Beynəlxalq Mühasiblər Federasiyası tərəfindən 30 beynəlxalq audit standartı hazırlanıb qəbul edilmişdir.

AUDİTOR XİDMƏTİ – təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil aparmaq və yazılı rəy vermək, mühasibat uçotu qurmaq, hesabat göstəricilərinin dürüstlüyünü təsdiq etmək və auditorun peşə fəaliyyətinə (auditor təşkilatının nizamnamə məqsədlərinə) uyğun olaraq maliyyə-təsərrüfat münasibətləri sahəsində göstərilən digər xidmətlər.

"AUDİTOR XİDMƏTİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – auditor xidmətinin təşkilini, onun həyata keçirilməsinin hüquqi əsaslarını, auditorların funksiyalarını, hüquqlarını və vəzifələrini müəyyənləşdirən, mülkiyyətçinin əmlak hüquqlarını müdafiə edən müstəqil maliyyə nəzarət sisteminin yaradılmasını nəzərdə tutan 16 sentyabr 1994-cü il tarixli 882 nömrəli Qanun. Bu Qanun mülkiyyət formasından və təşkilati-hüquqi tabeliyindən asılı olmayaraq AR ərazisində fəaliyyət göstərən bütün müəssisələrə, təşkilat və idarələrə şamil edilir. Aşağıdakı 5 fəsildən və 20 maddədən ibarətdir:

1. Ümumi müddəalar.
2. AR-də auditor xidmətinin tənzimlənməsi.
3. Auditorların hüquqları, vəzifələri və məsuliyyəti.
4. AR-də auditor xidmətinin təşkilinin ümumi qaydası.
5. Xüsusi müddəalar.

AUDİTOR SİRRİ – auditi həyata keçirən şəxsin "Auditor xidməti haqqında" AR Qanununa əsasən sifarişçinin tələbi ilə aparılan audit zamanı əldə edilən məxfi məlumat.

AUDİTOR TƏŞKİLATI – Auditorlar Palatasının verdiyi lisenziya əsasında ölkə ərazisində auditor xidməti göstərmək hüququnu əldə etmiş və nizamnaməsinə görə yeganə fəaliyyət sahəsi bu xidmət növü olan hüquqi şəxs. Auditor təşkilatı qanunvericiliklə müəyyən edilmiş qaydada bir və daha artıq təsisçi tərəfindən yaradılır.

AUDİTOR TƏŞKİLATLARININ VƏ SƏRBƏST AUDİTORLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ – auditi həyata keçirən şəxsin 16 sentyabr 1994-cü il tarixli 882 nömrəli "Auditor xidməti haqqında" AR Qanunu ilə müəyyən edilən hüquq və vəzifələri. Həmin Qanunun 12-ci maddəsinə görə sərbəst auditor və au-

ditor təşkilatı aşağıdakı hüquqlara malikdir:

- "Auditor xidməti haqqında" AR Qanunu"na və sifarişçi ilə bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq auditin forma və metodlarını sərbəst müəyyənləşdirmək;

- sifarişçinin maliyyə-təsərrüfat fəaliyyətinə dair bütün sənədlərlə (o cümlədən kənar hüquqi şəxslərdə saxlanılan sənədlərlə) tanış olmaq və yoxlama üçün onları almaq, pul məbləğlərinin, qiymətli kağızların, maddi sərvətlərin mövcudluğunu yoxlamaq və audit üçün lazım olan digər məlumatları almaq;

- sifarişçinin rəhbərliyindən və işçilərindən yazılı izahat almaq;

- səlahiyyətli dövlət orqanlarının sifarişi ilə auditor xidməti göstərərkən müəyyən etdikləri pozuntu və nöqsanlar haqqında onlar qarşısında məsələ qaldırmaq;

- auditin keçirilməsinə müqavilə əsasında başqa auditorları cəlb etmək;

- yoxlanılan təsərrüfat subyekti tərəfindən audit üçün lazım olan sənədlərin təqdim edilməməsi halında audit yoxlamasını keçirməkdən imtina etmək.

Həmin Qanunun 13-cü maddəsində auditorların vəzifələri göstərilmişdir. Bu vəzifələr aşağıdakılardan ibarətdir:

- auditin aparılmasında AR qanunvericiliyinin tələblərinə hökmən riayət etmək;

- auditor yoxlamalarını və digər auditor xidmətlərini keyfiyyətli həyata keçirmək;

- qanunda göstərilmiş hallara görə auditin aparılmasında iştirakının qeyri-mümkünlüyü barədə dərhal sifarişçiyə (səlahiyyətli dövlət orqanına) xəbər vermək;

- sifarişçinin mühasibat uçotunun və hesabatının vəziyyətini, düzgünlüyünü, qüvvədə olan qanunlara və normativ aktlara uyğunluğunu yoxlamaq;

- auditin aparılması zamanı aşkar edilmiş bütün pozuntular, mühasibat uçotunun aparılması və hesabatların tərtibi ilə bağlı nöqsanlar haqqında sifarişçinin rəhbərliyinə məlumat vermək;

- sifarişçinin tələbi ilə aparılan audit zamanı əldə edilən məlumatı (məhkəmə orqanlarının tələb etdiyi hallar və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" AR Qanununa əsasən təqdim olunmalı məlumatlar istisna olmaqla) məxfi saxlamaq;

- yoxlama gedişində alınmış və ya tərtib edilmiş sənədlərin qorunub saxlanmasını təmin etmək;

- təsərrüfat subyektinin tələbi ilə ona auditin aparılmasına dair qanunvericiliyin tələbləri, tərəflərin hüquq və vəzifələri, habelə auditorun rəyində olan irad və nəticələr üçün əsas olan normativ aktlar barəsində ətraflı məlumatlar vermək;

- qanunvericiliklə nəzərdə tutulmuş hallarda vergi hesabatına dair auditor rəyi vermək;

- sığortaçı ilə mülki məsuliyyətin icbari sığortası müqaviləsini bağlamaq;

- "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun

maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" AR Qanununun tələblərinə riayət etmək, bu sahədə qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirləri həyata keçirmək.

AVADANLIĞIN YERDƏYİŞMƏSİ – dəniz və çay nəqliyyatı vasitələrində istehlak və (və ya) istifadə üçün nəzərdə tutulan, hava nəqliyyatı vasitələri və qatarla haqqı ödənilməklə beynəlxalq sərnişin daşınmasında, haqqı ödənilməklə və ya ödənilmədən beynəlxalq sənaye və kommersiya daşımalarında istifadə olunan, eyni zamanda, dəniz və hava nəqliyyatı vasitələrində sərnişinlərə satılması nəzərdə tutulan malların gömrük rüsum və vergiləri tutulmadan ölkənin gömrük sərhədində yerdəyişməsini nəzərdə tutan gömrük rejimi.

AVADANLIQ (VƏSAİT, LƏVAZİMAT, AZUQƏ, EHTİYAT) – ölkənin gömrük ərazisinə daxil olarkən dəniz və hava nəqliyyatı vasitələrində, qatarlarda olan aşağıdakı mallar: səfər zamanı həmin nəqliyyat vasitələrinin istismarını və onlara texniki xidməti həyata keçirmək üçün zəruri olan mallar, o cümlədən ehtiyat hissələr və avadanlıqlar istisna olmaqla yanacaq və sürtkü materialları; satılıb-satılmamasından asılı olmayaraq, həmin nəqliyyat vasitələrinin sərnişinləri və ekipaj üzvlərinin istehlakı üçün nəzərdə tutulan mallar; gömrük ərazisini tərk edən həmin nəqliyyat vasitələrinin sərnişinləri və ekipaj üzvlərinə satılmaq üçün nəzərdə tutulan mallar.

AVAL – çeklə ödəmə təminatı. Ödəyicidən başqa hər bir şəxsə verilə bilər. Aval çekin üz tərəfində və ya əlavə vərəqdə "aval hesab edilir" yazılır, kim tərəfindən və kimə verildiyi göstərilir, avalçı tərəfindən yaşadığı yer və tarix qeyd olunub imzalanır, avalçı hüquqi şəxsdirsə, olduğu yer və tarix göstərilir. Fransız sözü "aval"dan götürülüb, mənası veksel deməkdir və veksel zaminliyi kimi işlədilir. Köçürmə vekseli üzrə ödəniş veksel zaminliyi (aval) vasitəsilə tamamilə və ya qismən təmin edilə bilər.

Veksel zaminliyi köçürmə vekselində və ya əlavə vərəqdə verilir. Aval üçün ödəyici və ya veksel verən olmayan avalçının köçürmə vekselinin üz tərəfində qoyduğu imza kifayətdir. Avalda onun kimin hesabına verildiyi göstərilməlidir. Bu göstərilmədikdə hesab edilir ki, aval veksel verənin hesabına verilmişdir. Avalçı avalı kimin əvəzinə vermişdirsə, onun qədər məsuliyyət daşıyır. Onun öhdəliyi qarantiya verdiyi öhdəliyin etibarsız olduğu halda da qüvvədə qalır. Avalçı köçürmə vekselini ödəyərək həmin vekseldən irəli gələn hüquqları qarantiya verdiyi şəxsə qarşı və köçürmə vekselinə görə onun qarşısında mükəlləfiyyətli olanların hamısına qarşı əldə edir (AR MM, maddə 1016).

AVANS – şərtləndirilmiş ödəmələr və ya qarşıdan gələn xərclər hesabına borclu tərəfindən kreditora qabaqcadan verilən pul məbləği və ya əmlak dəyərli sair ödəmə.

AVANS ÖDƏNİŞ – hər hansı bir layihəyə pul vəsaiti yönəldilməsinin bir forması olub yerinə yetiriləcək işin, göstəriləcək xidmətin, alınacaq maddi qiymətlilərin və s.-in dəyərinin öncə-

dən ödənilməsi məqsədilə pul vəsaitinin avansı alan şəxsə verilməsi və ya onun hesabına köçürülməsi.

AVROPA BİRLİYİ ÖLKƏLƏRİNDƏ ƏLAVƏ DƏYƏR VERGİSİ – AB Şurasının birliyə üzv ölkələrin eyni ƏDV sisteminə keçirilməsi barədə direktivdə göstərilmişdir ki, bu birliyin üzvlüyünə qəbul olmaq istəyən hər bir dövlətin vergi sistemində ƏDV mütləq olmalıdır. Bu AB-nin maliyyə vəsaitlərinin tərkibində ƏDV-nin mühüm yer tutması ilə əlaqədardır. Məsələn, 1999-cu ildə birliyin xüsusi vəsaitlərində ƏDV-dən daxilolmaların payı 66% təşkil etmişdir.

Dolayı vergilərin bir-birinə uyğunlaşdırılmasının əsas vəzifəsi AB daxilində fiskal sərhədlərin aradan qaldırılması və birliyə daxil olan ölkələrdə ƏDV-nin dərəcələrinin bir-birinə yaxınlaşdırılmasıdır. AB-yə daxil olan ölkələrdə ƏDV-nin dərəcələrinin bir-birinə yaxınlaşdırılması üçün 1993-cü ildə onun minimal səviyyəsi 15 faiz həddində müəyyən edilmişdir. Bundan başqa, bir sıra ölkələrdə müəyyən məhsullar üçün ƏDV-nin artırılmış və azaldılmış dərəcələrindən də istifadə olunur. Aİ-yə daxil olan ölkələrdə ƏDV-nin dərəcələrinin bir-birinə uyğunlaşdırılmasının real vəziyyəti cədvəldə əks olunmuşdur.

AB daxilində inteqrasiya proseslərinin daha da inkişafı, hər bir ölkənin iqtisadiyyatın hər hansı bir konkret sahəsində ixtisaslaşdırılması üçün birlik çərçivəsində ƏDV üzrə klirinq sisteminin tətbiq edilməsi nəzərdə

Avropa Birliyi ölkələrində əlavə dəyər vergisi

Ölkələr	ƏDV-nin daxil edildiyi il	Vergi gəlirlərində ƏDV-nin payı, %	ÜDM-də ƏDV-nin payı, %	ƏDV-nin standart dərəcəsi
Avstriya	1973	21.7	9.1	20
Belçika	1971	16	7.5	21
Böyük Britaniya	1973	14.7	5.7	17.5
Yunanıstan	1987	14.9	5.3	18
Danimarka	1967	20.6	9.9	25
İrlandiya	1972	21.3	8.4	21
İspaniya	1986	13.9	3.9	16
İtaliya	1973	15.1	6.2	19
Lüksemburq	1970	13	5.4	15
Hollandiya	1969	15.7	6.2	17.5
Portuqaliya	1986	13.3	4.3	17
Fransa	1968	19.9	9	18.6
AFR	1968	16.9	6.3	16
İsveç	1969	13.4	6.8	25

tutulur. Klirinq məhsul idxal edən ölkələrin ƏDV-dən itkilərinin yerini doldurmalıdır. Çünki ixrac ƏDV-dən azad olduğundan məhsul ixrac edən ölkələrin büdcələri müəyyən itkiyə məruz qalır. Bu məqsədlə hər bir ölkə öz idxal-ixrac əməliyyatlarında ƏDV-nin ödənilməsi üzrə məlumatları toplamalı, ƏDV üzrə izafi daxilolmalar klirinq hesablamaları sisteminə uyğun olaraq xarici iqtisadi əməliyyatlarda ƏDV üzrə mənfi saldosu olan ölkələr arasında yenidən bölüşdürülməlidir.

AVROPA İQTİSADİ BİRLİYİ – Avropanın 6 dövlətində iqtisadi inteqrasiyanı sürətləndirmək məqsədilə yaradılmış beynəlxalq təşkilat idi. Almaniya, Fransa, İtaliya, Belçika, Niderland və Lüksemburq arasında saziş bağlanması nəticəsində 1957-ci ildə yaradılmışdı.



1993-cü ildə Avropa Birliyi adı ilə fəaliyyət göstərməyə başladı. 2009-cu ilin dekabr ayında imzalanan Lissabon Sazişinə əsasən, Avropa Birliyi adı Aİ adı ilə əvəz edildi.


AVROPA İTTİFAQININ ŞƏRQ TƏRƏFDAŞLIĞI – Aİ-nin 6 keçmiş SSRİ respublikası – Belarus, Ukrayna, Moldova, Azərbaycan, Gürcüstan və Ermənistanla əməkdaşlığını nəzərdə tutan layihədir. Layihə ilk dəfə 2008-ci ildə Polşanın xarici işlər naziri tərəfindən təklif edilmiş və 2009-cu il may ayının 7-də Praqa şəhərində keçirilən Avropa Şərq Tərəfdaşlığı Sammitində qəbul edilmişdir. Layihə Aİ-nin büdcəsindən maliyyələşir. 2010-2013-cü illər üçün layihənin büdcəsi 600 milyon avro təşkil edir. Layihənin məqsədi adı çəkilən ölkələrdə demokratiya, insan hüquqları, qanunun aliliyi, bazar iqtisadiyyatı prinsipləri, davamlı inkişafın təmin edilməsi və bu məqsədlə həmin ölkələrə dəstəyin göstərilməsidir.

AVROPA QONŞULUQ SİYASƏTİ – Aİ-nin xarici siyasət aləti olub onun şərq və cənub istiqamətlərində yerləşən ölkələrlə hərtərəfli əməkdaşlığını nəzərdə tutur. Bu ölkələr daha çox inkişaf etməkdə olan ölkələrdir və layihə çərçivəsində həmin ölkələrə bir sıra siyasi və iqtisadi islahatların həyata keçirilməsi üzrə Aİ tərəfindən dəstək göstərilir. Avropa Qonşuluq Siyasəti çərçivəsində Aİ ilə benefisiar ölkə arasında Tədbirlər Planı qəbul edilir və ölkə qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılması məqsədilə Aİ ilə həmin ölkə arasında Assosiasiya Sazişi üzrə danışıqlar aparılır. Avropa Qonşuluq Siyasəti Cənub qrupu və Şərq qrupu olmaqla iki istiqamətdə həyata keçirilir. Cənub qrupuna Əlcəzair, Misir, İsrail, İordaniya, Livan, Mərakeş, Suriya, işğal olunmuş Fələstin torpaqları və Tunis, Şərq qrupuna isə Azərbaycan, Gürcüstan, Ermənistan, Belarus, Moldova, Rusiya və Ukrayna daxildir.

AVROPADAXİLİ VERGİ ADMİNİSTRASİYALARI TƏŞKİLATI (IOTA) – Avropa ölkələrindən olan üzvlərinə vergi inzibatçılığının təkmilləşdirilməsində köməklik göstərmək məqsədilə forum təqdim edən hökumətlərarası qeyri-kommersiya təşkilatı. Təşkilatın təsis edilməsi haqqında

rəsmi qərar 28-30 oktyabr 1996-cı il tarixlərində Varşava şəhərində keçirilmiş Mərkəzi və Şərqi Avropa və Baltikyanı Ölkələrin Vergi Administrasiyalarının 3-cü Konfransı zamanı qəbul edilmişdir. Avropa Komissiyası, Aİ-yə üzv olan 9 ölkənin vergi administrasiyası, Beynəlxalq Valyuta Fondu, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Amerikadaxili Vergi Administrasiyaları Mərkəzi, ABŞ-ın Daxili Gəlirlər Xidməti bu qərarı dəstəkləmişdir. 1997-ci ildə fəaliyyət şərtləri müəyyən edilmiş və təşkilatın Nizamnaməsinin layihəsi hazırlanmışdır. Eyni zamanda, IOTA Macarıstan Respublikası ilə "Yerləşmə haqqında" Saziş imzalamışdır. Bu gün 46 vergi administrasiyası Avropadaxili Vergi Adminis- trasiyaları Təşkilatının üzvüdür: 45 tam üzv və 1 assosiativ üzv. Təşkilatın Katibliyi Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində yerləşir.

AVTOMATLAŞDIRILMIŞ VERGİ İNFORMASİYA SİSTEMİ (AVİS) – AVİS 2006-cı ildən etibarən istifadəyə verilmişdir, əsas məqsədi büdcənin mədaxil hissəsinin tam və vaxtında formalaşdırılması, çevik və səmərəli vergi inzibatçılığının həyata keçirilməsi üçün effektli informasiya dəstəyinin təmin edilməsidir. Bu sistem vergi ödəyiciləri ilə bilavasitə işləyən yerli vergi orqanlarının funksional fəaliyyətinin avtomatlaşdırılması, digər dövlət qurumları ilə



Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS)

inteqrasiya, eyni zamanda, müxtəlif iqtisadi təhlillərin və proqnozlaşdırmanın aparılması imkanlarına malikdir.

AVTOMOBİL DAYANACAQLARINDAN İSTİFADƏYƏ GÖRƏ ÖDƏNİŞ – "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" AR Qanunu (maddə 9.1.5) ilə müəyyən edilmiş ödəniş növüdür. Ödəniş bələdiyyə ərazilərində hüquqi və fiziki şəxslərə məxsus olan ixtisaslaşdırılmış avtomobil dayanacaqlarından və ya bələdiyyələrin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və ya müvəqqəti dayanacaqlarından istifadə üçün müəyyən edilmişdir. Ödənişin məbləği hər bir nəqliyyat vasitəsi üçün sutkada 0,1 manatdan çox olmamaqla müəyyən edilir.

AVTOMOBİL YOLLARINDAN İSTİFADƏYƏ GÖRƏ VERGİ – 1994-cü ildən 2001-ci ilin yanvar ayının 1-dək qüvvədə olmuş "DYF haqqında" AR Qanunu ilə müəyyən edilmiş vergilərdən biridir. Avtomobil yollarından istifadəyə görə verginin aşağıdakı dərəcələri müəyyən edilmişdi:

- mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisə və təşkilatların (tədarük, ticarət və təchizat təşkilatlarından başqa) məhsul (iş və xidmətlərin) satışından əldə etdikləri ümumi gəlirin 0,05 faizi miqdarında;

- tədarük, ticarət (o cümlədən topdansatış ticarət) və təchizat təşkilatlarının illik dövriyyəsinin 0,3 faizi miqdarında;

- vasitəçilik xidməti göstərən və konsiqnasiya müqavilələri əsasında işləyən tədarük, ticarət və təchizat fəaliyyəti həyata keçirən müəssisə və təşkilatların illik dövriyyəsinin 0,3 faizi miqdarında.

Avtomobil yollarından istifadəyə görə vergi hüquqi şəxslər tərəfindən göstərilən dərəcələr üzrə təqvim ili üzrə hesablanıb ödənilirdi.

RF-də də bu vergi 1991-ci ildən "RF-də yol fondları haqqında" Qanuna görə tutulurdu və 2003-cü ildən nəqliyyat vergisinin tətbiqi ilə əlaqədar ləğv edildi.

AVTOMOBİLLƏRİN, HESABLAMA TEXNİKASININ VƏ FƏRDİ KOMPÜTERLƏRİN ALINIB SATILMASINA VERGİLƏR – bəzi ölkələrdə, o cümlədən də RF-də ("Vergi sisteminin əsasları haqqında" RF-nin Qanunu, maddə 21) tətbiq edilən yerli vergilərdən biri. Vergi rayon və şəhər səlahiyyətli orqanların qərarları ilə müəyyən edilə bilər. Vergi ödəyiciləri avtomobilləri, hesablama texnikasını və fərdi kompüterləri alıb-satan hüquqi və fiziki şəxslərdir. Verginin dərəcəsi 10% həddində müəyyən edilir. Vergi məbləğləri rayon və şəhər dövlət hakimiyyəti orqanlarının qərarı üzrə müvafiq olaraq rayon, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin büdcələrinə ödənilir. RF-inn subyektlərinin ərazilərində satışdan vergi tətbiq edildikdə həmin subyektlərin səlahiyyətli orqanları tərəfindən göstərilən vergi ləğv edilir.

AVTONƏQLİYYATIN SAXLANMA YERİNƏ GÖRƏ YIĞIM – rayon və şəhər hakimiyyət orqanlarının qərarı ilə xüsusi təchiz edilmiş

yerlərdə hüquqi və fiziki şəxslərin avtonəqliyyat vasitələrinin saxlanması üçün yığım. Bəzi ölkələrdə, məsələn, RF-də tətbiq olunur. Ödənilən yığım müəssisə və təşkilatların maliyyə vəsaitlərindən tutulur və şəhər, rayon, kənd və qəsəbə büdcələrinə daxil edilir.


AVTONƏQLİYYAT VASİTƏLƏRİNİN ALINMASINA GÖRƏ VERGİ – 1994-cü ildən 2001-ci ilin yanvar ayının 1-dək qüvvədə olmuş "DYF haqqında" AR Qanunu ilə müəyyən edilmiş vergilərdən biridir. Qanuna əsasən, vergi ödəyiciləri avtonəqliyyat və təkərli texnika vasitələrini alan hüquqi və fiziki şəxslər müəyyən edilmişdir. Bu vergi, həmçinin, AR ərazisindən kənarda avtonəqliyyət vasitələri və təkərli texnika almış hüquqi və fiziki şəxslər tərəfindən də ödənilirdi. Avtonəqliyyat və təkərli texnika vasitələrinin alınması üçün vergi avtonəqliyyat və təkərli texnikanın satış qiymətinin 2 faizi məbləğində müəyyən edilmişdi. Qanuna əsasən avtonəqliyyat və təkərli texnika vasitələrinin alınması üçün müəyyənləşdirilmiş verginin ödənilməsi haqqında qəbz və ya ödəniş sənədi təqdim edilmədikdə, nəqliyyat vasitələrinin qeydiyyata, təkrar qeydiyyata alınmaması və texniki baxışa buraxılmaması nəzərdə tutulmuşdu.

AVTONOM GÖMRÜK TARİFİ – qanunvericilik qaydasında ölkənin hökuməti tərəfindən təyin edilən gömrük tarifinin bir növü; müqavilə tarifindən fərqli olaraq, avtonom tarif dövlətlər tərəfindən birtərəfli qaydada təyin edilir və bu tarif üçün daha çox haqq alınır.

AZAD GÖMRÜK ZONASI – azad ticarət zonasının bir forması; belə zonalar ABŞ-da daha çox yaradılır.

AZAD İQTİSADİ ZONALAR – bir növ ixtisaslaşmış iqtisadi zona, birgə sahibkarlıq zonası, azad ticarət zonası və s. daxildir. Azad iqtisadi zona – milli və xarici sahibkarlar üçün güzəştli iqtisadi şərtlərlə nəzərdə tutulmuş məhdud ərazi hissəsinə deyilir.

AZAD TİCARƏT AVROPA ASSOSİASİYASI (EFTA – EUROPEAN FREE TRADE ASSOCIATION) – Aİ-yə daxil olmayan 4 Avropa ölkəsi – Norveç, İslandiya, İsveçrə və Lixtenşteyni birləşdirən azad ticarət assosiasiya. Bu qurum Aİ ilə paralel fəaliyyət göstərir. Assosiasiya 3 may 1960-cı ildə Avropa İqtisadi Birliyinə daxil olmaq istəməyən 7 dövlət (Avstriya, Danimarka, Norveç, Portuqaliya, İsveç, İsveçrə və Böyük Britaniya) arasında Stokholm Sazişinin bağlanması nəticəsində yaranıb. Sazişə 1970-ci ildə İslandiya, 1971-ci ildə isə Lixtenşteyn qoşulub. Sonradan Avstriya, Danimarka, Por- tuqaliya, İsveç və Böyük Britaniya Avropa İqtisadi Birliyinə qoşulmaqla Assosiasiyanın tərkibindən çıxdılar. Aİ-nın əsas iqtisadi inteqrasiya prinsipləri Assosiasiya üçün də keçərlidir, lakin yeganə fərq ondan ibarətdir ki, Assosiasiyaya daxil olan 4 ölkənin ümumi xarici gömrük tarifləri mövcud deyil və hər bir ölkə gömrük rüsumlarını müstəqil şəkildə müəyyən edir.



AZAD TİCARƏT ZONASI – azad ticarət zonasının yaradılması haqqında Saziş imzalayan dövlətlər arasında tariflərin, idxal kvotalarının və onlar arasında bir sıra mal və xidmətlərin ticarətinə olan üstünlüklərin aradan qaldırılmasını nəzərdə tutan zonadır. Azad ticarət zonasının yaradılmasının əsas məqsədi ticarət baryerlərinin aradan qaldırılmasıdır. Lakin bu zaman dövlətlər arasında müxtəlif gömrük zonaları qalır.

AZAD TİCARƏT ZONASININ YARADILMASI HAQQINDA SAZİŞ – ölkələr arasında azad ticarət zonasının yaradılmasını nəzərdə tutan sazişdir. Adətən, qonşu ölkələr arasında imzalanır. Lakin bəzi qlobal sazişlər də mövcuddur (məsələn, Ümumdünya Ticarət Təşkilatının Tariflər və Ticarət haqqında Baş Sazişi).

AZADOLMA – fiziki və hüquqi şəxslərin müəyyən dairəsinin qanunvericilikdə nəzərdə tutulan vergilərin ödənilməsindən tam və ya qismən azad edilməsi; gəlirin ayrılmış hissəsinin vergiyə cəlb olunmaması.

AZƏRBAYCAN MƏNBƏYİNDƏN GƏLİR – Aşağıdakı gəlirlər Azərbaycan mənbəyindən gəlirlər hesab edilir:

- AR-də muzdlu işdən gəlir;
- AR-də istehsal olunmuş malların istehsalçı tərəfindən təqdim edilməsindən gəlir;
- AR-də malların təqdim edilməsindən, iş görülməsindən və xidmət göstərilməsindən gəlir;
- AR-in ərazisindəki daimi nümayəndəliyə aid edilən sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir, o cümlədən belə daimi nümayəndəlik vasitəsilə təqdim edilmiş mallara (işlərə, xidmətlərə) aid edilə bilən eyni cinsli, yaxud bənzər (oxşar) malların (işlərin, xidmətlərin) təqdim edilməsindən, habelə daimi nümayəndəlik vasitəsilə həyata keçirilən fəaliyyətə aid edilə bilən fəaliyyətdən və ya ona oxşar fəaliyyətdən əldə edilmiş gəlir;
- vergi ödəyicisinin borclarının onun kreditorları tərəfindən silinməsindən, AR VM-in 114.7-ci maddəsinə uyğun olaraq, gəlirə daxil edilmiş əsas vəsaitlərin təqdim edilməsindən, Məcəllənin 141-ci maddəsinə uyğun olaraq xərclərin kompensasiya edilməsindən və ya ehtiyatların azalmasından gəlir;
- rezident hüquqi şəxsdən divident şəklində əldə edilən gəlir, həmçinin bu hüquqi şəxsdə iştirak payının satılmasından və ya başqasına verilməsindən əldə edilən gəlir;
- rezidentlərdən alınan faizlər şəklində gəlir;
- rezident tərəfindən ödənilən pensiya;
- AR ərazisində daimi nümayəndəliyi və ya əmlakı olan şəxsdən alınan faizlər şəklində gəlir (həmin şəxsin bu faizlər üzrə borcu bu cür daimi nümayəndəlik və ya əmlakla bağlıdırsa);
- AR-də saxlanılan və ya istifadə edilən əmlak üçün alınan royalti şəklində gəlir, yaxud VM-in 13.2.23-cü maddəsində göstərilən və AR-də saxlanılan və ya istifadə edilən əmlakın təqdim edilməsindən gəlir;
- AR-də istifadə edilən daşınan əmlakın icarəyə verilməsindən əldə edilən gəlir;
- AR-dəki daşınmaz əmlakdan əldə

edilən gəlir, o cümlədən bu əmlakda iştirak payının təqdim edilməsindən gəlir;

- aktivlərinin 50 faizindən çox olan hissəsi birbaşa və ya dolayısı ilə AR-dəki daşınmaz əmlakdan ibarət olan müəssisənin səhmlərinin və ya iştirak payının təqdim edilməsindən gəlir;

- rezidentin sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan əmlak təqdim edilməsindən əldə etdiyi digər gəlirlər;

- idarəetmə, maliyyə xidmətləri göstərilməsindən əldə edilən gəlir (bu gəlir rezident hüquqi şəxsin və ya qeyri-rezidentin AR ərazisində yerləşən daimi nümayəndəliyi tərəfindən ödənilirsə, yaxud o, həmin müəssisə və ya onun daimi nümayəndəliyi ilə bağlanmış müqaviləyə əsasən əldə edilmişdirsə);

- AR-də riskin sığortası və ya təkrar sığortası haqqında müqavilə üzrə ödənilən gəlir;

- AR ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya daşınmalar həyata keçirilərkən telekommunikasiya və ya nəqliyyat xidmətlərindən gəlir;

- mədəniyyət, incəsənət, teatr, kino, radio, televiziya, musiqi, rəssamlıq, idman, mühəndislik, memarlıq, arxitektura və elm sahələri üzrə Azərbaycan Respublikasındakı fəaliyyətlə bağlı edilən ödənişlər;

- AR-dəki fəaliyyətlə bağlı meydana çıxan və VM-in yuxarıda göstərilən maddələrində əhatə edilməyən digər gəlirlər.


AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI – "Auditor xidməti haqqında" 1994-cü il 16 sentyabr tarixli 882 nömrəli Azərbaycan Respublikası Qanununa əsasən, ölkə ərazisində auditor xidmətinin dövlət tənzimlənməsini təşkil etmək, bu sahədə olan və Azərbaycan Respublikasında auditor xidmətinin inkişafına və təkmilləşdirilməsinə yönəlmiş normativ aktların layihələrini, tədbirlər sistemini hazırlamaq, dövlətin, təsərrüfat subyektlərinin və auditorların (auditor təşkilatlarının) mənafelərini müdafiə etmək, öz fəaliyyətində bu Qanundan, digər qanunvericilik və normativ hüquqi aktlardan irəli gələn tələblərə auditorlar (auditorlar təşkilatları) tərəfindən riayət edilməsinə nəzarət etmək məqsədilə yaradılmışdır.

5 aprel 1996-cı ildən fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikasının Auditorlar Palatası müstəqil maliyyə nəzarəti orqanıdır.

Auditorlar Palatasının əsas vəzifəsi, mülkiyyət formasından asılı olmayaraq, bütün təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun dəqiq və dürüst aparılmasını təmin etmək məqsədilə respublikada auditor xidmətinin işini təşkil etməkdən və mövcud qanunvericiliyə uyğun olaraq onun inkişafı və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər həyata keçirməkdən ibarətdir.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ – AR-də gömrük işi sahəsindəki dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı.



AR DGK öz səlahiyyətləri daxilində gömrük işi üzrə AR-in bütün ərazisində qüvvədə olan, AR-in bütün dövlət orqanları, hüquqi-təşkilati formasından asılı olmayaraq idarələr, müəssisələr və təşkilatlar, habelə vəzifəli şəxslər və fiziki şəxslər tərəfindən icrası məcburi olan normativ aktlar qəbul edir.

AR DGK-də sədrdən və sədrin müavinlərindən, DGK Aparatının, habelə gömrük orqanlarının, gömrük laboratoriyalarının, tabeçilikdə olan digər idarə, müəssisə və təşkilatların rəhbər işçilərindən ibarət kollegiya təşkil olunur. Kollegiyanın tərkibi vəzifələr üzrə AR DGK sədrinin təqdimatına əsasən AR Prezidenti tərəfindən təsdiq edilir. Kollegiya öz iclaslarında AR DGK-nın fəaliyyəti ilə bağlı mühüm məsələlərə baxır və onlar haqqında qərarlar çıxarır.

AZƏRBAYCAN RESPUBLİKASI MƏNBƏLƏRİNDƏN XARİCİ TƏŞKİLATLARIN GƏLİRLƏRİ – xarici təşkilatın daimi nümayəndəliyinin AR-dəki sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan və vergi agentləri tərəfindən ödəmə mənbəyində vergiyə cəlb olunmalı gəlirlərdir. Tətbiq olunan dərəcələr gəlirin növündən asılı olaraq müəyyənləşdirilir.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ (AR VN) – səlahiyyətləri daxilində AR-in dövlət vergilərinin və digər büdcə daxilolmalarının düzgün hesablanmasına, onların vaxtında və tam məbləğdə dövlət büdcəsinə ödənilməsinə, vergi qanunvericiliyinə riayət olunmasına nəzarət edən dövlət icra orqanıdır.



AR Prezidentinin 11 fevral 2000-ci il tarixli fərmanı ilə 1991-cı ilin oktyabrında yaranmış Baş Dövlət Vergi Müfəttişliyinin bazasında təşkil olunmuşdur. Baş Dövlət Vergi Müfəttişliyinə Bakı şəhərinin Dövlət Vergi Müfəttişliyi, Naxçıvan MR Baş Dövlət Vergi Müfəttişliyi, respublikanın şəhər və rayonlarının vergi müfəttişlikləri (60 müfəttişlik) tabe idi. Bakı şəhərinin Dövlət Vergi Müfəttişliyinə tabe olan 11 Vergi Müfəttişliyi, Naxçıvan MR Baş Dövlət Vergi Müfəttişliyinə tabe olan 7 Vergi Müfəttişliyi fəaliyyət göstərirdi. AR VN yaradıldıqdan sonra vergi orqanlarında islahatlar aparılmış, struktur dəyişiklikləri baş vermişdir. 2000-ci ildə VN-in Mərkəzi Aparatında Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi, Vergi borclarının məcburi alınması işinin təşkili idarəsi və Operativ nəzarət idarəsi, 2001-ci ildə Mərkəzi Aparatın iki idarəsinin bazasında İri Vergi Ödəyiciləri ilə İş üzrə Departament (Xüsusi Rejimli Vergi Xidməti Departamenti) yaradıldı. Bunlardan əlavə VN-in çoxsaylı vergi orqanlarının sayı azaldılmış, onları hərəsi bir-neçə inzibati rayonu əhatə edən yeni ərazi vergi idarələri əvəz etmişdir.

Hazırda AR VN-in Mərkəzi Aparatının strukturu aşağıdakı kimidir:

Nazir
Nazirin birinci müavini
Nazirin müavinləri
Nazirin müşavirləri
Vergilər Nazirliyinin Aparatı
Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi
Daxili təhlükəsizlik Baş İdarəsi
Vergi auditi Baş İdarəsi
İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsi
Operativ nəzarət idarəsi
Beynəlxalq münasibətlər idarəsi
Vergi ödəyicilərinə xidmət idarəsi
Vergi borclarının alınması işinin təşkili idarəsi
Hüquq idarəsi
İnsan resursları idarəsi
Maliyyə-təsərrüfat idarəsi
Analitik-informasiya şöbəsi
İnformasiya texnologiyaları və proqram təminatı şöbəsi
Xüsusi işlər üzrə baş mütəxəssis
Mühasibatlıq

Bunlardan əlavə, VN-in strukturuna Xüsusi Rejimli Vergi Xidməti Departamenti, Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti, Vergi Auditi Departamenti, Bakı Şəhər Vergilər Departamenti və Tədris Mərkəzi daxildir.

Ərazi vergi idarələri aşağıdakılardır:

2 saylı Ərazi Vergilər İdarəsi (Əhatə dairəsi: Sumqayıt, Abşeron, Xızı, Siyəzən)

3 saylı Ərazi Vergilər İdarəsi (Əhatə dairəsi: Quba, Qusar, Xaçmaz, Şabran)


4 saylı Ərazi Vergilər İdarəsi (Əhatə dairəsi: Şamaxı, Ağsu, Qobustan)

5 saylı Ərazi Vergilər İdarəsi (Əhatə dairəsi: Şirvan, Hacıqabul, Salyan, Neftçala, Sabirabad, Saatlı)


6 saylı Ərazi Vergilər İdarəsi (Əhatə dairəsi: Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar)



Bakı Şəhər Vergilər Departamenti



Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturu



Azərbaycan Respublikası Vergilər Nazirliyi Aparatının strukturu



12 saylı Ərazi Vergilər İdarəsi



Naxçıvan Şəhər Vergilər İdarəsi

8 saylı Ərazi Vergilər İdarəsi (Əhatə dairəsi: Ağcabədi, Beyləqan, İmişli)

9 saylı Ərazi Vergilər İdarəsi (Əhatə dairəsi: Göyçay, Kürdəmir, Ağdaş, Ucar, Zərdab)

10 saylı Ərazi Vergilər İdarəsi (Əhatə dairəsi: Qəbələ, İsmayıllı, Oğuz)

11 saylı Ərazi Vergilər İdarəsi (Əhatə dairəsi: Mingəçevir, Yevlax, Şəki, Bərdə, Tərtər)

12 saylı Ərazi Vergilər İdarəsi (Əhatə dairəsi: Gəncə, Naftalan, Göranboy, Samux, Göygöl, Daşkəsən)

13 saylı Ərazi Vergilər İdarəsi (Əhatə dairəsi: Zaqatala, Balakən, Qax)

14 saylı Ərazi Vergilər İdarəsi (Əhatə dairəsi: Şəmkir, Tovuz, Gədəbəy, Ağstafa, Qazax)

Göstərilən idarələrdən başqa aşağıdakı rayon vergilər şöbələri fəaliyyət göstərir:

Ağdam rayon Vergilər Şöbəsi
Cəbrayıl rayon Vergilər Şöbəsi
Füzuli rayon Vergilər Şöbəsi
Xocalı rayon Vergilər Şöbəsi
Xocavənd rayon Vergilər Şöbəsi
Kəlbəcər rayon Vergilər Şöbəsi
Qubadlı rayon Vergilər Şöbəsi
Laçın rayon Vergilər Şöbəsi
Şuşa rayon Vergilər Şöbəsi
Zəngilan rayon Vergilər Şöbəsi

Naxçıvan MR-də onun Vergilər Nazirliyinə tabe olan Naxçıvan Şəhər Vergilər İdarəsi və aşağıdakı rayon vergilər şöbələri yaradılmışdır:

Babək rayon Vergilər Şöbəsi
Culfa rayon Vergilər Şöbəsi
Kəngərli rayon Vergilər Şöbəsi
Ordubad rayon Vergilər Şöbəsi
Sədərək rayon Vergilər Şöbəsi
Şahbuz rayon Vergilər Şöbəsi
Şərur rayon Vergilər Şöbəsi

AR VN-in vəzifələri, funksiyaları və hüquqları AR Prezidenti tərəfindən 29 mart 2001-ci il tarixli 454 nömrəli Fərmanla təsdiq edilmiş "VN haqqında Əsasnamə"də göstərilmişdir.

Bu Əsasnaməyə görə, nazirliyin vəzifələri aşağıdakılardır:

- öz səlahiyyətləri daxilində AR-in dövlət vergilərinin və digər büdcə daxilolmalarının düzgün hesablanmasına, onların vaxtında və tam məb-

ləğdə dövlət büdcəsinə köçürülməsinə, vergi qanunvericiliyinə riayət olunmasına nəzarət etmək;

- vergi qanunvericiliyi ilə bağlı vergi ödəyicilərinə məlumatların verilməsini, vergilərin hesablanması və ödənilməsi barədə onlara əvəzsiz olaraq izahatların verilməsini təmin etmək;

- vergi sahəsində hüquq pozuntularını doğuran səbəbləri araşdırmaq və belə halların aradan qaldırılması üçün öz səlahiyyətləri daxilində müvafiq tədbirlər həyata keçirmək;

- vergi ödəyicilərinin hüquqlarının və qanuni mənafelərinin qorunmasını təmin etmək;

- öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək;

- AR-in qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

Göstərilən vəzifələrə uyğun olaraq VN aşağıdakı funksiyaları həyata keçirir:

- AR-in vergi siyasətinin təkmilləşdirilməsi haqqında təkliflər hazırlayır;

- vergi münasibətlərini tənzimləyən qanunvericilk aktlarının layihələrinin hazırlanmasında iştirak edir;

- AR-in vergi qanunvericiliyinə riayət olunmasını, dövlət vergilərinin və ona həvalə edilmiş digər daxilolmaların düzgün hesablanmasını, vaxtında və tam məbləğdə dövlət büdcəsinə köçürülməsi ilə bağlı dövlət vergi orqanlarının işini təşkil edir;

- AR-in dövlət büdcəsinin vergilər üzrə daxilolma proqnozunun hazırlanmasında iştirak edir;

- AR-in vergi qanunvericiliyinə riayət olunmasını təmin edən tədbirlər hazırlayır və həyata keçirir;

- AR-in dövlət vergi orqanlarının inkişaf proqramlarının hesablan-



VN yanında Xüsusi Rejimli Vergi Xidməti Departamenti

masında iştirak edir və onu həyata keçirir;

- hesablanmış və təyinatı üzrə daxil olmuş vergilərin uçotunu aparır və bu barədə AR Prezidentinə, AR NK-ya və AR MN-ə məlumat verir;

- vergi qanunvericiliyinin pozulması hallarına dair məlumatları toplayır, təhlil edir, onu qiymətləndirir və belə halların baş verməsinə gətirib çıxaran səbəblərin və şəraitin aradan qaldırılması üçün müvafiq dövlət orqanlarına təkliflər verir;

- vergi ödəyicilərinin, onların filiallarının, nümayəndəliklərinin və digər bölmələrinin (obyektlərinin), habelə nəzarət-kassa aparatlarının uçotunu aparır;

- kommersiya hüquqi şəxslərin, xarici kommersiya hüquqi şəxslərin filial və nümayəndəliklərinin dövlət qeydiyyatını həyata keçirir, dövlət reyestrini aparır və bununla bağlı məlumatları qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətlərdə aidiyyəti dövlət orqanlarına göndərir;

- qanunvericiliklə nəzərdə tutulmuş qaydada vergi ödəyiciləri haqqında, o cümlədən vergi və kommersiya sirrinin qorunması haqqında qaydalara riayət edir və onu təmin edir;

- vergi ödəyicilərinə vergi yoxlamalarının nəticələri haqqında aktın, habelə qanunla müəyyən edilmiş hallarda vergi orqanının qərarının surətini təqdim edir;

- vergi ödəyiciləri tərəfindən artıq ödənilmiş vergi məbləğlərinin əvəzləşdirilməsi və ya geri qaytarılması, vergi ödəyicilərindən düzgün tutulmayan vergi məbləğlərinin, maliyyə sanksiyalarının, faizlərin və inzibati cərimələrin geri qaytarılması üçün qanunvericiliklə müəyyən edilmiş tədbirləri görür;

- tabeliyində olan vergi orqanlarının fəaliyyətlərinə nəzarəti həyata keçirir;

- qanunvericiliyə uyğun olaraq cinayət işləri üzrə təhqiqat, istintaq aparır və əməliyyat-axtarış fəaliyyətini həyata keçirir;

- vergilərin və digər daxilolmaların hesablanması və ödənilməsi ilə bağlı vergi hesabatlarının, bəyannamələrin və digər sənədlərin formalarını AR MN ilə razılaşdırmaqla tələb edir;

- qanunvericiliyə müvafiq olaraq vergi nəzarətinin forma və metodlarını müəyyən edir;

- şikayətlərə və müraciətlərə vaxtında və obyektiv baxılmasını təmin edir, vergi ödəyicilərinin hüquqlarının və qanuni mənafelərinin pozulmasını doğuran səbəb və şəraitin aradan qaldırılması üçün tədbirlər görür;

- AR dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin qərarlarından (o cümlədən normativ aktlardan), hərəkətlərindən (hərəkətsizliklərindən) şikayət vermə üzrə vergi ödəyicilərinin öz hüquqlarını gerçəkləşdirməsinə şərait yaradır;

- xarici dövlətlərin vergi və digər səlahiyyətli orqanları ilə əməkdaşlıq edir;

- iqtisadiyyat, o cümlədən maliyyə, vergitutma və investisiyaların cəlb edilməsi ilə bağlı digər ölkələrlə AR arasında münasibətlərin tənzimlənməsinə dair təkliflərin hazırlanmasında iştirak edir;

- nazirliyin vəzifəli şəxslərinin və onun tabeliyində olan digər struktur

bölmələrinin işçilərinin təhlükəsizliyini, onların sosial və hüquqi müdafiəsini təmin edir;

- AR dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığı və ixtisasının artırılması ilə bağlı tədbirlər həyata keçirir;

- AR dövlət vergi orqanlarının vahid avtomatlaşdırılmış məlumat sisteminin yaradılmasını təmin edir;

- öz vəzifələrinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.

Əsasnamədə VN-in öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün hüquqları da göstərilmişdir. Bu hüquqlar aşağıdakılardır:

- qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda kameral və səyyar vergi yoxlamaları keçirmək;

- vergitutma bazası həcminin müəyyənləşdirilməsi, aksiz markası ilə markalanmalı olan, lakin markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin vergitutma obyektlərinin uçotu, əhali ilə pul hesablaşmalarının aparılması sahəsində qanunvericiliyə riayət olunmasını yoxlamaq məqsədi ilə vergi ödəyicilərinə qanunla nəzərdə tutulmuş hallarda və qaydada operativ nəzarəti həyata keçirmək;

- vergi ödəyicilərində bütün maliyyə sənədlərini, mühasibat kitablarını, hesabatları, smetaları, nağd vəsaitləri, qiymətli kağızları və başqa qiymətliləri, bəyannamələri və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlamaq, habelə yoxlamaların keçirilməsi zamanı yoxlamaya aid olan məsələlərlə bağlı vergi ödəyicilərindən və ya onların vəzifəli şəxslərindən lazımi izahatlar, arayışlar və məlumatlar almaq;

- vergi ödəyicilərinin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin saxlanılması ilə bağlı olan istehsal, anbar, ticarət və digər binalarda (ərazilərdə) AR VM ilə müəyyən edilmiş qaydada xronometraj metodu ilə müşahidə aparmaq və baxış keçirmək, qanunla müəyyən edilmiş qaydada sənədləri və nümunə kimi əşyaları götürmək, mülkiyyətində və ya istifadəsində olan əmlakın (yaşayış sahələri istisna olmaqla) AR VM-də müəyyən edilmiş hallarda AR NK tərəfindən təsdiq edilmiş qaydada inventarizasiyasını aparmaq;

- vergi ödəyicilərindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını, habelə vergi ödəyicisi auditor tərəfindən yoxlanılmalı olduğu halda, auditor rəyini tələb etmək;

- vergi qanunvericiliyinə müvafiq olaraq bazar qiymətləri nəzərə alınmaqla vergilərin hesablanmasını təmin etmək məqsədi ilə bazar qiymətlərinin qeydə alınmasını və bazar qiymətləri barədə informasiya bazasının yaradılmasını təmin etmək;

-vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada əlaqəli məlumatlara əsasən, yaxud birbaşa və ya dolayı qiymətləndirmə metodlarından istifadə etməklə vergitutma bazasını və vergiləri hesablamaq;

- VM ilə müəyyən edilmiş qaydada vergi öhdəliklərinin yerinə yetirilməsi müddətini dəyişdirmək;

- qanunla müəyyən edilmiş qaydada vergi qanunvericiliyinin pozulması ilə bağlı işlərə baxmaq, vergi ödəyicilərinin vergi borclarına faizlər hesablamaq, onlara maliyyə sanksiyaları və inzibati cərimələr tətbiq etmək;

- müəyyən edilmiş müddətlərdə ödənilməmiş vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin qanunla nəzərdə tutulmuş qaydada dövlət büdcəsinə ödənilməsini təmin etmək;

- hesablanmış vergilərin, faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının və inzibati cərimələrin nağd və ya köçürmə qaydasında ödənilməsini təmin etmək;

- vergi ödəyicilərinin hesablaşma, valyuta və ya digər hesablarından qanunvericiliyə müvafiq olaraq hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün banklara və ya digər kredit təşkilatlarına icra (ödəniş) sənədi olan sərəncam vermək, inzibati cərimələrin alınmasını təşkil etmək;

- qanunla müəyyən edilmiş hallarda vergi ödəyicisinin hesablaşma, valyuta və digər hesablarına həbs qoyulması barədə məhkəmədə iddia qaldırmaq;

- vergilər üzrə borcların, hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş hallarda və qaydada vergi ödəyicisinin əmlakının siyahıya alınması üçün tədbir görmək;

- «Əməliyyat-axtarış fəaliyyəti haqqında» AR Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

- AR CPM ilə müəyyən edilmiş hallarda və qaydada təhqiqat və istintaq aparmaq;

- vergi nəzarətini həyata keçirmək məqsədilə mütəxəssisləri, ekspertləri, tərcüməçiləri, müşahidəçiləri cəlb etmək;

- xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyətin belə razılıq olmadan həyata keçirildiyi halda qanunvericiliyə uyğun olaraq müvafiq tədbir görmək;

- nəzarət-kassa aparatlarının tətbiqinə və əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayət edilməsinə nəzarət etmək;

- xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə məşğul olan şəxslərdən lisenziyanın geri alınması barədə xüsusi razılıq (lisenziya) verən orqanın qarşısında vəsatət qaldırmaq;

- qanunla müəyyən edilmiş hallarda kommersiya qurumlarının dövlət qeydiyyatının ləğv edilməsi barədə məhkəmədə iddia qaldırmaq;

- düzgün müəyyənləşdirilməmiş tənzimlənən qiymət və tariflərin ləğv edilməsi və ya dəyişdirilməsi barədə onları müəyyən edən orqan qarşısında məsələ qaldırmaq;

- müntəzəm nəzarət tələb olunan yerlərdə müəyyən olunmuş qaydada stasionar vergi məntəqələri yaratmaq;

- aksiz markası ilə markalanmalı olan malların markalanmadan və ya saxta aksiz markaları ilə markalanmış malların satışının həyata keçirilməsi faktı aşkar edildikdə, həmin malları siyahıya almaq və qanunvericiliyə uyğun olaraq tədbir görmək;

- dövlət vergi orqanlarının üzərinə düşən vəzifələri yerinə yetirmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada tabeliyində olan vergi orqanları, tədris müəssisələri və digər qurumlar yaratmaq və ləğv etmək;

- tabeliyində olan vergi orqanlarının və digər struktur bölmələrinin fəaliyyətinə rəhbərlik etmək, onların əsasnamələrini (nizamnamələrini) təsdiq etmək;

- ərizələri və digər məlumatları qeydiyyata almaq, qanunla müəyyən edilmiş qaydada onların yoxlanılmasını təşkil etmək;

- struktur bölmələrinin vəzifəli şəxslərinin qeyri-qanuni aktlarını və qərarlarını ləğv etmək;

- öz səlahiyyətləri daxilində bütün vergi ödəyiciləri üçün icrası məcburi olan qərarlar qəbul etmək;

- dövlət vergi orqanlarının səlahiyyətlərinə aid məsələlər üzrə metodik və təlimat xarakterli göstərişlər, məsləhət və izahatlar vermək;

- qanunvericiliklə müəyyən edilmiş qaydada rabitə və məlumatların ötürülməsi sistemi yaratmaq;

- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

Əsasnamədə həmçinin göstərilmişdir ki, AR VN-də nazirdən (kollegiyanın sədri) və nazirin müavinlərindən, Naxçıvan MR vergilər nazirindən, habelə nazirliyin digər rəhbər işçilərindən ibarət kollegiya təşkil olunur. Kollegiyanın tərkibi vəzifələr üzrə nazirin təqdimatına əsasən AR Prezidenti tərəfindən təsdiq edilir. Kollegiya öz iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı mühüm məsələlərə baxır və onlar haqqında müvafiq qərarlar qəbul edir. Nazirliyin kollegiyasının iclasları kollegiyanın üzvlərinin üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Kollegiyanın iclasında səslər bərabər bölündükdə kollegiyanın sədrinin səsi həlledici hesab edilir. Kollegiyanın qərarları nazirin əmrləri ilə həyata keçirilir.

"AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİNİN 10 İLLİYİ" YUBİLEY MEDALI – VN-in 10 illik yubileyi ilə əlaqədar AR-in 29 dekabr 2009-cu il tarixli 937-IIIQ nömrəli Qanunu ilə



təsdiq edilmiş, vergi orqanlarında xidmətdə yüksək nəticələr əldə edən, vergi sisteminin inkişafında fəal iştirak edən və xüsusi xidmətləri olan vergi orqanlarının əməkdaşlarına təqdim olunan dövlət təltifidir. Dairəvi formadadır, diametri 36 mm-dir, hər iki üzü qızılı rəngli dairəvi metal lövhədən ibarətdir. Üz tərəfində dairənin yuxarı qövsü boyunca «AZƏRBAYCAN RESPUBLİKASI», aşağı qövsü boyunca «VERGİLƏR NAZİRLİYİ» sözləri, dairənin mərkəzində «10» rəqəmi və «il» sözündən ibarət emblem, habelə emblemdən aşağıda «2000–2010» rəqəmləri həkk olunmuşdur. Arxa tərəfi hamar səthlidir və mərkəzdə Vergilər Nazirliyinin tanınma nişanı və onun üstündə «10 İLLİYİ» sözləri, habelə dairənin yuxarı qövsü boyunca

«AZƏRBAYCAN RESPUBLİKASI», aşağı qövsü boyunca «VERGİLƏR NAZİRLİYİNİN» sözləri həkk olunmuşdur. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 45 mm ölçüdə metal lövhəyə halqa və ilgək vasitəsilə birləşdirilir. Lövhə hər iki tərəfdən paralel olaraq mavi, qırmızı və yaşıl rənglərdən ibarət yuxarıdan aşağıya doğru hər birinin eni 4 mm olan zolaqlardan, mərkəz hissədə isə eni 13 mm olan tünd göy rəngli zolaqdan ibarətdir. Medalın lövhəsinin mərkəzindəki tünd göy rəngli zolağın mərkəzində yuxarıdan aşağıya doğru eni 2 mm olan qızılı rəngdə zolaq vardır. Medala paltara bərkidilmək üçün elementi olan, metaldan düzəldilmiş və lövhə ilə eyni tərtibatda olan 37 mm x 10,3 mm ölçülü qəlib əlavə olunur.

AZƏRBAYCAN RESPUBLİKASINDA VERGİ VƏ YIĞIM NÖVLƏRİ – AR VM ilə və "Sosial sığorta haqqında" 18 fevral 1997-ci il tarixli 250-IQ nömrəli AR Qanunu ilə müəyyən edilmişdir.

AR VM-yə görə respublikamızda vergilərin üç növü – dövlət vergiləri, muxtar respublika vergiləri, yerli vergilər (bələdiyyə vergiləri) ödənilməlidir.

Dövlət vergiləri dedikdə, respublikanın bütün ərazisində ödənilməli olan vergilər, muxtar respublika vergiləri dedikdə, Naxçıvan MR-də ödənilən vergilər, yerli vergilər (bələdiyyə vergiləri) dedikdə, bələdiyyələrin ərazilərində ödənilən vergilər nəzərdə tutulur.

Yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir. Vergi qanunvericiliyinə uyğun olaraq, bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər (AR VM, maddə 4).

Dövlət vergilərinə aşağıdakılar aiddir:

- fiziki şəxslərin gəlir vergisi;
- hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa);
- əlavə dəyər vergisi;
- aksizlər;
- hüquqi şəxslərin əmlak vergisi;
- hüquqi şəxslərin torpaq vergisi;
- yol vergisi;
- mədən vergisi;
- sadələşdirilmiş vergi.

VM ilə bütün dövlət vergilərinin dərəcələrinin ən yüksək hədləri müəyyən edilir.

Dövlət vergilərinin hər il üçün tətbiq olunan dərəcələri VM ilə müəyyən edilən dərəcələrdən yüksək ola bilməz və hər il AR-in dövlət büdcəsi haqqında qanunu qəbul edilən zaman həmin dərəcələrə yenidən baxıla bilər.

Muxtar respublika vergilərinə Naxçıvan MR-də tutulan və VM-də sadalanan dövlət vergiləri aiddir.

Yerli vergilərə (bələdiyyə vergilərinə) aiddir:

- fiziki şəxslərin torpaq vergisi;
- fiziki şəxslərin əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

Yerli vergilərin hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və bələdiyyələrin vergi xidməti orqanlarının hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, bələdiyyələrin vergi xidməti orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir.

Məcburi dövlət sosial sığorta haqqı sığortalamaya görə sığortaçı təşkilata verilən pul vəsaitidir. Məcburi dövlət sosial sığortasında sığorta haqqı əmək ödənişinə (gəlirə) nisbətdə faizlə müəyyən edilir və sığortaedənin (olunanın) vəsaitləri hesabına ödənilir.

Məcburi dövlət sosial sığorta haqqı aşağıdakı kimi ödənilməlidir:

- seçkili orqanlar və mülkiyyətindən və təşkilati-hüquqi formasından asılı olmayaraq AR-in və ya xarici dövlətin qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxs statusunda olan müəssisə, idarə və təşkilatlar, onların filial və nümayəndəlikləri, habelə başqasını sosial sığorta edən şəxslər üçün – hesablanmış əməyin ödənişi fondunun və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərinin 22 faizi miqdarında;

- mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən şəxslərin (hüquqi şəxs yaradanlardan, ailə kəndli təsərrüfatı üzvlərindən başqa) əmək qabiliyyətli ailə üzvlərinin hər biri üçün (alınan əmlak və torpaq payı hesabına şəxsi yardımçı və digər təsərrüfatlar daxil olmaqla) torpaq sahəsinin hər hektarına görə ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının:

- torpaqların 1-ci keyfiyyət qrupu üzrə – 12 faizi; torpaqların 2-ci keyfiyyət qrupu üzrə – 8 faizi; torpaqların 3-cü keyfiyyət qrupu üzrə – 4 faizi; torpaqların 4-cü keyfiyyət qrupu üzrə – 2 faizi miqdarında; ev təsərrüfatında muzdlu işçilərin (ev qulluqçusu, dayə, şəxsi katibə, sürücü və s.) əməyindən istifadə edən şəxslər üçün – hesablanmış əməkhaqqının 20 faizi miqdarında;

- AR Milli Məclisinin qərarı, AR Prezidentinin fərman və sərəncamları ilə vəzifəyə təyin olunan şəxslər; dövlət qulluqçuları; seçkili ödənişli vəzifələrdə işləyənlər; hərbi qulluqçular və xüsusi rütbəli şəxslər (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla); prokurorlar, prokurorun müavinləri və köməkçiləri, prokurorluğun müstəntiqləri; əmək müqaviləsi (kontraktı) ilə işləyənlər üçün – hesablanmış əməkhaqqının 3 faizi miqdarında;

- Vəkillər Kollegiyasının üzvləri, xüsusi notariuslar, sərbəst auditorlar, sərbəst mühasiblər üçün – gəlirlərinin 20 faizi miqdarında;

- müəlliflik qonorarı ödəyən hüquqi və fiziki şəxslər üçün ödəmə mənbəyindən tutulmaqla – hesablanmış qonorar məbləğinin 15 faizi miqdarında;

- mülki-hüquqi xarakterli müqavilələrlə işləyənlər üçün (sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər istisna olmaqla) ödəmə mənbəyindən tutulmaqla – gəlirlərin 25 faizi miqdarında;

- xarici ölkələrdə haqqı ödənilən

əmək fəaliyyəti ilə və ya fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan və həmin ölkələrdə məcburi dövlət sosial sığorta haqqı ödəməyən AR vətəndaşları üçün – ölkə üzrə müəyyən edilmiş minimum aylıq əməkhaqqının 80 faizi.

Ticarət və tikinti sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının 50 faizi məbləğinin, digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər isə 20 faizi məbləğinin:

- Bakı şəhərində 100 faizi;
- Sumqayıt və Gəncə şəhərlərində 90 faizi;
- respublika tabeli digər şəhərlərdə 80 faizi;
- rayon mərkəzlərində, digər şəhərlər və qəsəbələrdə 60 faizi;
- kənd yerlərində 50 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər.

Ailə kəndli təsərrüfatının hər bir üzvü üçün ölkə üzrə müəyyən edilmiş minimum aylıq əməkhaqqının 6 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödənilir.

Hər ay üçün hesablanmış məcburi dövlət sosial sığorta haqqı əməkhaqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə nağd və ya nağdsız hesablaşma qaydasında ödənilir.

Ödəmə mənbəyindən qonorar ödəyən hüquqi və fiziki şəxslər tərəfindən məcburi dövlət sosial sığorta haqqı qonoraın hesablandığı aydan sonrakı ayın 15-dək ödənilir.

Məcburi dövlət sosial sığorta haqları ödənilmədikdə və ya ödənilməsi gecikdirildikdə, yaranmış borc məbləğləri aşağıdakı qaydada alınır:

- sığortaedən məcburi dövlət sosial sığorta haqlarını bu qanunla müəyyən edilmiş müddətdə ödəmədikdə, məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı bu qanuna müvafiq olaraq hesablanmış və ya yenidən hesablanmış məcburi dövlət sosial sığorta haqları üzrə borcların və tətbiq edilmiş maliyyə sanksiyalarının 5 gün müddətində ödənilməsinə dair sığortaedənə bildiriş göndərir;
- hesablanmış və ya yenidən hesablanmış məcburi dövlət sosial sığorta haqları üzrə borclar və ya tətbiq edilmiş maliyyə sanksiyaları sığortaedən tərəfindən bildirişdə göstərilən müddətdə ödənilmədiyi halda, məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı sığortaedənin cari, valyuta və digər hesablarından məcburi dövlət sosial sığorta haqları üzrə borcların və tətbiq edilmiş maliyyə sanksiyalarının məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının hesabına alınması üçün banka və ya digər kredit təşkilatına icra sənədi olan sərəncam verir;
- sığortaedənin cari və digər hesablarında vəsait olduqda, məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının sərəncamı bank və ya digər kredit təşkilatı tərəfindən həmin sərəncamın daxil olduğu gün icra edilir;
- sığortaedənin valyuta hesabına

sərəncam yönəldildiyi halda bank və ya digər kredit təşkilatı həmin gün AR MB-nin müəyyən etdiyi rəsmi məzənnə ilə sərəncamda göstərilən məbləğin 105 faizinədək hesabdakı valyuta vəsaitini dondurur və dərhal bu barədə sığortaedənə məlumat göndərir. Valyuta vəsaiti sığortaedən tərəfindən manata konvertasiya edildikdən sonra sərəncam icra edilir;

- sığortaedənin cari, valyuta və digər hesablarında vəsait olmadıqda və ya məcburi dövlət sosial sığorta haqları üzrə borcların və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinə kifayət etmədikdə, məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının sərəncamı bankda və ya digər kredit təşkilatında saxlanılır və sığortaedənin hesablarına vəsait daxil olduqca icra edilir;

- məcburi dövlət sosial sığorta haqları üzrə borclar və tətbiq edilmiş maliyyə sanksiyaları sərəncamın banka və ya digər kredit təşkilatına daxil olduğu gündən 90 gün ərzində ödənilmədikdə, sərəncam geri qaytarılır və həmin borca görə sərəncam bir daha icraya qəbul edilmir, həmin borclar və maliyyə sanksiyaları sığortaedəndən məhkəmə qaydasında alınır;

- məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının məcburi dövlət sosial sığorta haqları üzrə borcların və tətbiq edilmiş maliyyə sanksiyalarının alınması haqqında sərəncamı bir neçə bank və kredit təşkilatına verildikdə və bu zaman məcburi dövlət sosial sığorta haqları üzrə borclar və tətbiq edilmiş maliyyə sanksiyaları sığortaedənin hər hansı cari, valyuta və digər hesabından məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının hesabına alındıqda, məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı digər banklara və ya kredit təşkilatlarına həmin borc və maliyyə sanksiyalarının alınması üçün vermiş olduğu sərəncamların və artıq alınmış vəsaitlərin dərhal geri qaytarılmasını təmin edir;

- sığortaedən hüquqi şəxs olmadıqda, borc məbləği məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında tutulur.

Artıq ödənilmiş və ya düzgün tutulmamış məcburi dövlət sosial sığorta haqqı sığortaedənin müraciətinə əsasən geri qaytarılır.

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ DÖVLƏT VERGİ MÜFƏTTİŞLİYİ – vergi qanunvericiliyinə və dövlət qiymət intizamına nəzarət sisteminin təkmilləşdirilməsi, bu sahədə dövlət vergi xidmətinin rolunun gücləndirilməsi, müstəqil fəaliyyətinin və nəzarət işlərinin obyektivliyinin təmin edilməsi məqsədilə 1991-ci ilin oktyabrında yaradılmışdır. AR Prezidentinin 11 fevral 2000-ci il tarixli Fərmanı ilə ləğv edilmiş, onun bazasında VN yaradılmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİ (AR CM) – cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün

təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir. AR CM 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli AR Qanunu ilə təsdiq edilmişdir. İki hissədən (ümumi və xüsusi hissələr) və 12 bölmədən ibarətdir.

Ümumi hissədə aşağıdakı 6 bölmə var:

1. Cinayət hüququ. 2. Cinayət haqqında. 3. Cəza haqqında. 4. Cinayət məsuliyyətindən və cəzadan azad etmə. 5. Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti. 6. Cinayət-hüquqi xarakterli digər tədbirlər.

Qalan 6 bölmə Xüsusi hissəyə daxildir:

7. Sülh və insanlıq əleyhinə cinayətlər. 8. Şəxsiyyət əleyhinə olan cinayətlər. 9. İqtisadi sahədə cinayətlər. 10. İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər. 11. Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər. 12. Hərbi xidmət əleyhinə olan cinayətlər.

AR CM-nin "İqtisadi sahədə cinayətlər" bölməsində vergilərdən və gömrük odənişlərinin ödənilməsindən yayınma barədə, aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan satma, satış məqsədilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə barədə maddələr verilmişdir (maddələr 209, 213, 213-1).

AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT-PROSESSUAL MƏCƏLLƏSİ – AR-in 14 iyul 2000-ci il tarixli 907-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş məcəllə; cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayəti törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamasını, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin hüquqi prosedurlarını müəyyən edir. AR CPM iki hissədən, 11 bölmədən, 58 fəsildən və 521 maddədən ibarətdir. Ümumi hissəyə aşağıdakı bölmələr daxildir:

1. Əsas müddəalar. 2. Məhkəmə və cinayət prosesində iştirak edən şəxslər. 3. Sübutlar və sübutetmə. 4. Prosessual məcburiyyət tədbirləri. 5. Cinayət mühakimə icraatında əmlak məsələləri. 6. Cinayət mühakimə icraatı zamanı – konfidensiallıq və müddət məsələləri.

Xüsusi hissədə olan bölmələr icraat məsələlərini əhatə edir: 7. Cinayət təqibi üzrə məhkəməyədək icraat. 8. Birinci instansiya məhkəməsində icraat. 9. Apelyasiya və kassasiya instansiyaları məhkəmələrində icraat. 10. Bəzi kateqoriyalı şəxslər barəsində icraatın xüsusiyyətləri. 11. Xüsusi icraatlar.

"AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SƏRHƏDİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – AR-in dövlət sərhədi rejimi, sərhədboyu rejim, dövlət sərhədinin qorunması, dövlət sərhədinin qorunmasında AR dövlət orqanlarının, ictimai təşkilatların və vətəndaşların iştirakı, AR-in dövlət sərhədi haqqında qanunvericiliyinin pozulmasına görə mə-

suliyyət məsələlərini müəyyən edən 9 dekabr 1991-ci il tarixli 13 nömrəli Qanun. Bu Qanun 40 maddədən və aşağıdakı 6 fəsildən ibarətdir:

1. Ümumi müddəalar.
2. AR-in dövlət sərhədi rejimi.
3. Sərhədboyu rejim.
4. AR dövlət sərhədinin qorunması.
5. AR dövlət sərhədinin qorunmasında AR dövlət orqanlarının, ictimai təşkilatların və vətəndaşların iştirakı.
6. AR dövlət sərhədi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU – AR-də məcburi



dövlət sosial sığortası, əmək pensiyaları sahəsində idarəetməni həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı. Büdcədənkənar dövlət fondudur. Əhalinin ayrı-ayrı təbəqələrinin sosial müdafiəsini təşkil etmək əsas məqsədidir. Fondun gəlirləri məcburi dövlət sosial sığorta haqları və dövlət büdcəsindən ayırmalar (transferlər) hesabına formalaşır. AR DSMF "Sosial sığorta və pensiya təminatının maliyyələşdirilməsi sahəsində idarəetmənin təkmilləşdirilməsi" məqsədilə AR Prezidentinin 30 sentyabr 1992-ci il tarixli Fərmanı ilə AR Pensiya Fondu və Sosial Sığorta Fondu bazasında yaradılıb. Fondun başlıca xərc istiqamətləri aşağıdakılardır:

- əhaliyə ödənişlər (pensiyaların ödənilməsi; sosial pensiyaçıların və onlara bərabər tutulanların pensiyalarının ödənilməsi; müavinətlərin ödənilməsi);
- sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə AHİK vasitəsilə maliyyələşdirilən xərclər;
- pensiya və müavinətlərin əhaliyə çatdırılması, bank əməliyyatlarının aparılması üzrə xidmət haqqı xərcləri;
- məşğulluq tədbirlərinin həyata keçirilməsi, məşğulluq orqanlarının saxlanılması xərcləri;
– əlillərin sosial müdafiəsi tədbirlərinin həyata keçirilməsi və əlillərin sosial müdafiəsi orqanlarının saxlanılması xərcləri;
– sığorta olunanların fərdi uçot sisteminin tətbiqi ilə bağlı xərclər və s.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK MƏCƏLLƏSİ – işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərini tənzim edir; fiziki şəxslərin əmək hüquqlarının və bu hüquqların həyata keçirilməsini təmin edən qaydaların minimum normalarını müəyyən edir. AR ƏM 1 fevral 1999-cu il 618-IQ nömrəli AR Qanunu ilə təsdiq edilmişdir və aşağıdakı prinsiplərə əsaslanır:

- tərəflərin hüquq bərabərliyinin təmin edilməsi;

- mənafelərin haqq-ədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması;

- tərəflərin maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını ödəmək məqsədi ilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadənin təmin edilməsi;

- əsasən, əmək müqaviləsi (kontraktı) üzrə öhdəliklərin icrasına hüquqi təminat yaradılması.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ – dövlət əmlakının idarə edilməsi, onun özəlləşdirilməsi, bu sahəyə investisiyaların cəlb olunması və AR-də daşınmaz əmlakın dövlət reyestrinin və vahid kadastrının aparılması sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı.



AR Prezidentinin 24 iyun 2009-cu il tarixli 116 nömrəli Fərmanı ilə AR-in Dövlət Əmlakının İdarə edilməsi üzrə Dövlət Komitəsinin əsasında yaradılmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİ – AR dövlət sərhədləri daxilində olan quru ərazisi, AR-in daxili suları, Xəzər dənizinin (gölünün) AR-ə mənsub olan bölməsi, AR-in üzərindəki hava məkanı AR ərazisinin tərkib hissəsidir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏN TRANZİT – "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin AR ərazisindən tranzit keçidi qaydaları haqqında Əsasnamə" ilə müəyyən edilir. Bu Əsasnamə Azərbaycan Respublikasının 2002-ci il 27 dekabr tarixli, 414-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.

Əsasnaməyə görə, AR ərazisindən tranzitlə keçən əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə AR ərazisindən keçmək üçün tranzit vizası müvafiq icra hakimiyyəti orqanı və ya AR-in diplomatik nümayəndəlikləri və konsulluqları tərəfindən verilir. Tranzit vizasında keçidin dayanacaqsız olması haqqında qeyd və ya möhür olmazsa, onun sahibinə AR-də ən çoxu 5 gün qalmaq hüququ verilir. Tranzit keçid dayanacaqlı olarsa, vizanın müddəti müstəsna hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən artırılır. Tranzit keçid zamanı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin AR ərazisində məcburi dayanmasının sənədləşdirilməsi təbii fəlakət baş verdikdə, avtonəqliyyat vasitəsinin (onun hissələrinin) sıradan çıxması, yaxud yol-nəqliyyat hadisəsi nəticəsində təmirə ehtiyac yarandıqda, AR ərazisindən keçən şəxslər xəstələndikdə, baş (qovşaq) məntəqədə bir nəqliyyat vasitəsindən digər nəqliyyat vasitəsinə minərkən gecikmə hallarında həyata keçirilir.

Əsasnamənin 8-ci bəndinə görə, beynəlxalq yükdaşımalarda iştirak edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin AR ərazisindən tranzit keçidi beynəlxalq və dövlətlərarası yükdaşımalar üçün müəyyənləşdirilmiş sərhəd nəzarət-buraxılış məntəqələrindən və avtomobil yollarından həyata keçirilir.

AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK MƏCƏLLƏSİ – AR-də gömrük işinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, o cümlədən gömrük ərazisinə gətirilən, bu ərazidən aparılan, tranzitlə keçirilən mallara və nəqliyyat vasitələrinə tətbiq edilən ümumi qaydaları və prosedurları, gömrük işi sahəsində şəxslərin hüquqlarını və vəzifələrini müəyyənləşdirir. İki hissədən, 21 bölmədən və 58 fəsildən ibarətdir. Bölmələrin adları aşağıda göstərilmişdir (mötərizə daxilindəki nömrələr fəsillərin nömrələridir):

Ümumi hissə

1.Ümumi müddəalar (1-2).

2.Gömrük orqanlarının başqa şəxslərlə münasibətləri (3-5).

3.Gömrük işində informasiya sistemləri və informasiya texnologiyaları (6-8).

4.Gömrük orqanlarının qərarları və onlardan şikayət vermə (9-10).

5.Gömrük orqanlarının vəzifəli şəxsləri (11-12).

Xüsusi hissə

6. Gömrük nəzarəti (13-15).

7. Gömrük rəsmiləşdirilməsi (16).

8. Malların gömrük ərazisinə gətirilməsi və bu ərazidən aparılması (17-19).

9. Nəqliyyat vasitələrinin və şəxslərin gömrük ərazisinə daxil olması və və bu ərazidən yola düşməsi (20-22).

10. Gömrük prosedurlarına dair ümumi qaydalar (23-27).

11. Xüsusi gömrük prosedurları (28-33).

12. Malların kabotaj daşınması, qadağalar və məhdudiyyətlər (34-38).

13. Gömrük rüsumlarının və mallarla ticarətdə digər tədbirlərin tətbiqini əsaslandıran amillər (39-41).

14. Gömrük ödənişləri, gömrük borcu və təminat (42-46).

15. Gömrük nəzarətinə dair əlavə müddəalar (47-49).

16. Malların gömrük sərhədindən beynəlxalq poçt göndərişləri, boru kəməri və elektrikötürücü xətlər vasitəsi ilə keçirilməsi (50-51).

17. Fiziki şəxslər tərəfindən malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi (52).

18. Qeyri-rezidentlərin ayrı-ayrı kateqoriyaları üçün gömrük güzəştləri (53).

19. Xarici ticarətin gömrük statistikasının və mal nomenklaturasının aparılması (54-55).

20. Gömrük ekspertizası (56).

21. Mallar və nəqliyyat vasitələri barəsində sərəncam verilməsi və əldə olunan vəsaitlərdən istifadə edilməsi (57-58).

AZƏRBAYCAN RESPUBLİKASININ İNZİBATİ XƏTALAR MƏCƏLLƏSİ – "AR İXM-in təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" 11 iyul 2000-ci il tarixli 906-IQ nömrəli AR Qanunu ilə təsdiq edilmiş Məcəllə. Bu Məcəllə insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi, qanun-

çuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik və inzibati xətaların qarşısının alınması prinsiplərinə əsaslanır. İki hissədən (Ümumi və Xüsusi), 6 bölmədən, 35 fəsildən ibarətdir. Ümumi hissəyə "Ümumi müddəalar" adlı birinci bölmə (1-5 fəsillər) daxildir. Xüsusi hissədə isə aşağıdakı bölmələr var (mötərizədə fəsillərin nömrələri göstərilmişdir):

2. İnzibati xətalar (6-24).

3. İnzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanlar (vəzifəli şəxslər) (25-26).

4. İnzibati xətalar haqqında işlər üzrə icraat (27-30).

5. İnzibati xətalar haqqında işlər üzrə icraatın mərhələləri (31-33).

6. İnzibati xətalar haqqında işlər üzrə qərarların icrası (34-35).

AZƏRBAYCAN RESPUBLİKASININ İNZİBATİ-PROSESSUAL MƏCƏLLƏSİ – "AR İPM- nin təsdiq edilməsi haqqında" 30 iyun 2009-cu il tarixli 846-IIIQ nömrəli AR Qanunu ilə təsdiq edilmiş Məcəllə. Bu Məcəllə inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrin məhkəmə aidiyyətini, həmin mübahisələrə məhkəmədə baxılmasının və həll edilməsinin prosessual prinsiplərini və qaydalarını müəyyən edir. Məcəllə aşağıda göstərilən 18 fəsildən (130 maddədən) ibarətdir:

1. Ümumi müddəalar.

2. İnzibati məhkəmə icraatının prinsipləri.

3. Etirazlar.

4. Məhkəmə aktlarını və sənədlərini təqdim etmə.

5. Prosessual müddətlər.

6. Proses iştirakçıları. İddianın növləri.

7. Məhkəmə qaydasında tətbiq edilən müvəqqəti xarakterli müdafiə tədbirləri.

8. Birinci instansiya məhkəməsində icraat.

9. Məhkəmə qərarları.

10. Apelyasiya instansiya məhkəməsində şikayət üzrə icraat.

11. Kassasiya instansiya məhkəməsində şikayət üzrə icraat.

12. Yeni açılmış hallar üzrə icraat.

13. Prosessual xərclər.

14. Məhkəmə qərarlarının icrası.

15. Normativ xarakterli aktların qanunauyğunluğunun mübahisələndirilməsinə dair iddialar üzrə icraat.

16. Siyasi partiyalarla bağlı mübahisələrə dair işlər üzrə icraat.

17. Kütləvi informasiya vasitələri ilə bağlı mübahisələrə dair işlər üzrə icraat.

18. Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat.

AZƏRBAYCAN RESPUBLİKASININ QİYMƏTLİ KAĞIZLAR ÜZRƏ DÖVLƏT KOMİTƏSİ – qiymətli kağızlar bazarında dövlət siyasətini və qiymətli kağızlar bazarının tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı. "AR QKDK-nın yaradılması haqqında" AR Prezidentinin 2008-ci il 19 noyabr tarixli 52 nömrəli Sərəncamına əsasən yaradılmış Dövlət Komitəsi. AR Prezidentinin 5 mart 2009-cu il tarixli 70 nömrəli Fərmanı ilə AR QKDK-nın Əsasnaməsi və strukturu təsdiq edilmişdir. QKDK öz fəaliyyət istiqamətlərinə uyğun olaraq qiymətli

kağızlar bazarının tənzimlənməsi ilə bağlı normativ aktların qəbul edilməsi, qiymətli kağızların emissiyası və tədavülü, qiymətli kağızlar bazarı iştirakçılarının və investisiya fondlarının fəaliyyətləri, qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəlikləri bazarı, müvafiq fəaliyyət növlərinin lisenziyalaşdırılmasının həyata keçirilməsi, lotereyaların təşkili və keçirilməsi, qiymətli kağızlar bazarında investorların və qiymətli kağızlar bazarının iştirakçılarının hüquqlarının müdafiəsi, sağlam rəqabət mühitinin yaradılması üzrə dövlət tənzimlənməsini və nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. QKDK öz vəzifələrini yerinə yetirmək üçün qiymətli kağızlar bazarına aid olan qanunvericilik aktlarının layihələrinin hazırlanması, beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları ilə əməkdaşlığın edilməsi, qanunvericiliyi pozan şəxslərin inzibati qaydada məsuliyyətə cəlb edilməsi, qiymətli kağızlar bazarı sahəsində mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün müvafiq tədbirlərin görülməsini həyata keçirir.

AR QKDK-nın strukturu AR QKDK-nın aparatı (şöbələr və sektorlar) və bu komitənin Naxçıvan MR üzrə İdarəsindən ibarətdir.

"AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – AR MB-nin hüquqi statusunu, onun məqsəd, funksiya və səlahiyyətlərini, habelə idarəetmə və təşkilati strukturunu müəyyən edir, onun dövlət hakimiyyəti orqanları ilə və digər şəxslərlə münasibətlərini tənzimləyən 10 dekabr 2004-cü il tarixli 802-IIQ nömrəli Qanun. Qanunda göstərilmişdir ki, AR MB dövlət orqanıdır, müstəqil balansa, nizamnamə kapitalına və digər əmlaka malikdir; balansında olan əmlaka qanunvericiliyə uyğun olaraq sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirir; qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, MB-nin razılığı olmadan kapitalın və digər əmlakın özgəninkiləşdirilməsinə yol verilmir.

MB-nin fəaliyyətinin əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin, bank və ödəniş sistemlərinin sabitliyini və inkişafını təmin etməkdir. Öz məqsədlərinə nail olmaq üçün MB:

- dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir;
- nağd pul dövriyyəsini təşkil edir, AR Konstitusiyasının 19-cu maddəsinin II hissəsinə (AR ərazisində man.-dan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsinin qadağan edilməsinə) müvafiq olaraq, pul nişanlarının tədavülə buraxılmasını və tədavüldən çıxarılmasını həyata keçirir;
- man.-ın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir və elan edir;
- qanunvericiliyə uyğun olaraq valyuta tənzimini və nəzarətini həyata keçirir;
- sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlayır və idarə edir;
- qanunvericiliyə uyğun olaraq hesabat tədiyyə balansını tərtib edir və

ölkənin proqnoz tədiyyə balansının hazırlanmasında iştirak edir;

- AR qanunlarına və normativ xarakterli aktlara uyğun olaraq bank fəaliyyətini lisenziyalaşdırır və tənzimləyir, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarəti həyata keçirir;

- ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanuna uyğun olaraq həyata keçirir;

- qanunvericilikdə nəzərdə tutulmuş başqa funksiyaları həyata keçirir.

AR Konstitusiyası və qanunları ilə müəyyən edilmiş funksiya və səlahiyyətlərini həyata keçirərkən, MB müstəqildir və bu zaman hər hansı dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər onun fəaliyyətinə hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhdudiyyət qoya bilməz, qanuna zidd təsir və müdaxilə edə bilməz.

MB öz fəaliyyəti barədə yalnız AR Prezidentinə hesabat verir.

AR MB haqqında AR Qanunu 66 maddədən və aşağıdakı fəsillərdən ibarətdir:

1. Ümumi müddəalar.
2. MB-nin kapitalı.
3. MB-nin dövlət hakimiyyəti orqanları ilə münasibətləri.
4. MB-nin təşkilati strukturu və idarə olunması.
5. Pul siyasəti.
6. Nağd pul tədavülünün təşkili.
7. Beynəlxalq qızıl-valyuta ehtiyatlarının idarə olunması.
8. Ödəniş sistemlərinin təşkili.
9. Kredit təşkilatları ilə münasibətlər.
10. Əqdlər və əməliyyatlar.
11. Mərkəzi Bankın maliyyə uçotu və hesabatı.
12. Yekun müddəalar.

AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ MƏCƏLLƏSİ – 28 dekabr 1999-cu il tarixli, 779-IQ



Azərbaycan Respublikasının Mərkəzi Bankı

nömrəli Qanun ilə təsdiq edilmiş, 26 may 2000-ci il tarixli, 886-IQ nömrəli Qanuna əsasən 2000-ci il sentyabr ayının 1-dən qüvvəyə minmiş Məcəllə. Ümumi və Xüsusi hissələrdən ibarətdir. Ümumi hissənin 6, Xüsusi hissənin 4 bölməsi var:

1. Giriş müddəalar. 2. Şəxslər. 3. Əmlak və əşya hüququ. 4. Əqdlər. 5. Müddətlər. 6. Öhdəlik hüququnun ümumi hissəsi. 7. Müqavilələrdən əmələ gələn öhdəliklər. 8. Qanundan əmələ gələn öhdəliklər. 9. Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər. 10. Vərəsəlik hüququ.

Məcəllənin məqsədi üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığını onun iştirakçılarının bərabərliyi əsasında təmin etmək, vəzifələri isə aşağıdakılardır:

- mülki hüquq subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləmək;
- mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək;
- fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi və ailə həyatının, şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qorumaq;
- mülki dövriyyəni təmin etmək;
- sahibkarlıq fəaliyyətini dəstəkləmək;
- sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaratmaq.

Mülki qanunvericilik mülki hüquq münasibətləri subyektlərinin hüquqi vəziyyətini, mülkiyyət hüququnun və başqa əmlak hüquqlarının əmələ gəlməsi əsaslarını və həyata keçirilməsi qaydasını , müqavilə və digər öhdəlik münasibətlərini, habelə sair əmlak münasibətlərini və onlarla bağlı olan şəxsi qeyri-əmlak münasibətlərini müəyyənləşdirir .

Ailə, əmək münasibətləri, təbii ehtiyatlardan istifadə, ətraf mühitin mühafizəsi, müəlliflik hüququ və əlaqədar hüquqlar ilə bağlı münasibətlər, əgər ailə, əmək, torpaq, təbiəti mühafizə, müəlliflik və digər xüsusi qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, insanın özgəninkiləşdirilməyən hüquq və azadlıqlarının, digər qeyri-maddi nemətlərin gerçəkləşdirilməsi və müdafiəsi ilə bağlı münasibətlər, əgər bu münasibətlərin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, mülki qanunvericilik və başqa hüquqi aktlar ilə tənzimlənir.

AR-in tərəfdar çıxdığı dövlətlərarası müqavilələr bu Məcəllə ilə tənzimlənən mülki hüquq münasibətlərinə (beynəlxalq müqavilədən onun tətbiqi üçün dövlətdaxili normativ hüquqi aktın qəbul edilməsi tələbinin irəli gəldiyi hallar istisna edilməklə) birbaşa tətbiq edilir. AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilədə müəyyənləşdirilən normalar mülki qanunvericilikdə nəzərdə tutulan normalardan fərqlənərsə, onda beynəlxalq müqavilənin normaları tətbiq edilir.

Mülki qanunvericiliyin prinsipləri aşağıdakılardır:

- mülki hüquq subyektlərinin bərabərliyi;
- mülki hüquq subyektlərinin iradə sərbəstliyi;
- mülki dövriyyə iştirakçılarının əmlak müstəqilliyi;

- mülkiyyətin toxunulmazlığı;
- müqavilələr azadlığı;
- şəxsi və ailə həyatına kimsənin özbaşına qarışmasının yolverilməzliyi;
- mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması;
- pozulmuş hüquqların bərpasının təmin edilməsi;
- mülki hüquqların məhkəmə müdafiəsi.

AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ-PROSESSUAL MƏCƏLLƏSİ – 28 dekabr 1999-cu il tarixli 780-IQ nömrəli Qanun ilə təsdiq edilmiş və 26 may 2000-ci il tarixli 886-IQ nömrəli Qanuna əsasən 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmiş Məcəllə. Bu məcəllə 3 bölmə və 50 fəsildən ibarətdir. "Ümumi qaydalar" adlanan birinci bölmədə Məhkəmənin tərkibi, Məhkəmə aidiyyatı, Məhkəmədə nümayəndəlik, Məhkəmə xərcləri, Prosessual müddətlər və s. fəsillər, "Birinci instansiya məhkəməsində icraat" adlanan ikinci bölmədə İddia icraatına və Xüsusi icraata aid fəsillər, "Məhkəmə aktlarına yenidən baxılması" adlanan üçüncü bölmədə Apelyasiya instansiyası məhkəməsində icraat, Kassasiya instansiyası məhkəməsində icraat, Məhkəmələrin beynəlxalq səlahiyyətləri, Xarici dövlətin məhkəmə qətnamələrinin məcburi icrası və s. fəsillər bütün mülki-prosessual məsələləri əhatə edir.

AZƏRBAYCAN RESPUBLİKASININ VERGİ QANUNVERİCİLİYİ – AR Konstitusiyasından, VM-dən və onlara uyğun olaraq AR-in qəbul edilmiş qanunvericilik aktlarından ibarətdir. Bu qanunvericilikdən başqa digər qanunvericilk aktlarına vergitutma və vergi nəzarəti məsələləri yalnız aşağıdakılara daxil edilə bilər:

- AR İXM-də vergi münasibətlərinə aid inzibati xətalar haqqında nəzərdə tutulan müddəalara;
- AR CM-də vergi cinayətləri haqqında nəzərdə tutulan müddəalara;
- vergi öhdəliklərinin üstünlüyü haqqında müflisləşmə və iflas haqqında qanunvericilikdə nəzərdə tutulan müddəalara;
- büdcə qanunvericiliyində vergilərlə bağlı müddəalara;
- vergilər üzrə dövlət təminatlarının və müddətli güzəştlərin verilməsi ilə bağlı müddəalara;
- hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə və ya qanunlarda nəzərdə tutulan müddəalara;
- ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda nəzərdə tutulan müddəalara.

AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə VM və ona müvafiq olaraq qəbul edilmiş normativ-hüquqi aktlar ilə vergilər haqqında nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin beynəlxalq müqavilələrin müddəaları tətbiq edilir.

AZƏRBAYCAN RESPUBLİKASININ VERGİ MƏCƏLLƏSİ – AR-in 11iyul 2000-ci il tarixli 905-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş və 2001-ci il yanvarın 1-dən qüvvəyə minmiş Məcəllə. Vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyi-

cilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edir. Bu Məcəllədə, eyni zamanda, Naxçıvan MR-də və bələdiyyələrdə vergitutmanın ümumi əsasları və vergilər göstərilmişdir. VM iki hissədən, on yeddi fəsildən, 221 maddədən ibarətdir. Birinci hissə "Ümumi hissə" adlanır. Yeddi fəsildən ibarət olan bu hissədə ümumi müddəalar, vergi ödəyicisi, vergi agenti, dövlət vergi orqanları, vergi nəzarəti, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, vergi orqanlarının qərarlarından, vəzifəli şəxslərin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət verilməsi qaydaları göstərilmişdir. "Xüsusi hissə" adlanan ikinci hissəyə fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, ƏDV, aksizlər, əmlak vergisi, torpaq vergisi, yol vergisi, mədən vergisi və sadələşdirilmiş vergi haqqında maddələr daxil edilmişdir.

Başqa ölkələrdə olduğu kimi, respublikamızda da vergi qanunvericiliyi ildən-ilə təkmilləşdirilir. Bu məqsədlə AR VM-ə dəyişiklik və əlavələrin edildiyi sənədlər aşağıdakılardır:

1. 22 iyun 2001-ci il tarixli 157-IIQD nömrəli AR Qanunu.
2. 2 iyul 2001-ci il tarixli 171-IIQD nömrəli AR Qanunu.
3. 16 noyabr 2001-ci il tarixli 217-IIQD nömrəli AR Qanunu.
4. 26 noyabr 2002-ci il tarixli 383-IIQD nömrəli AR Qanunu.
5. 20 iyun 2003-cü il tarixli 485-IIQD nömrəli AR Qanunu.
6. 4 noyabr 2003-cü il tarixli 506-IIQD nömrəli AR Qanunu.
7. 28 noyabr 2003-cü il tarixli 519-IIQD nömrəli AR Qanunu.
8. 28 sentyabr 2004-cü il tarixli 766-IIQD nömrəli AR Qanunu.
9. 3 dekabr 2004-cü il tarixli 792-IIQD nömrəli AR Qanunu.
10. 24 dekabr 2004-cü il tarixli 815-IIQD nömrəli AR Qanunu.
11. 24 iyun 2005-ci il tarixli 943-IIQD nömrəli AR Qanunu.
12. 21 oktyabr 2005-ci il tarixli 1028-IIQD nömrəli AR Qanunu.
13. 20 oktyabr 2006-cı il tarixli 167-IIIQD nömrəli AR Qanunu.
14. 15 dekabr 2006-cı il tarixli 196-IIIQD nömrəli AR Qanunu.
15. 29 dekabr 2006-cı il tarixli 220-IIIQD nömrəli AR Qanunu.
16. 16 iyun 2007-ci il tarixli 392-IIIQD nömrəli AR Qanunu.
17. 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli AR Qanunu.
18. 9 oktyabr 2007-ci il tarixli 430-IIIQD nömrəli AR Qanunu.
19. 6 noyabr 2007-ci il tarixli 472-IIIQD nömrəli AR Qanunu.
20. 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli AR Qanunu.
21. 2 oktyabr 2008-ci il tarixli 699-IIIQD nömrəli AR Qanunu.
22. 19 iyun 2009-cu il tarixli 835-IIIQD nömrəli AR Qanunu.
23. 30 dekabr 2010-cu il tarixli 42-IVQD nömrəli AR Qanunu.

24. 17 may 2011-ci il tarixli 117-IVQD nömrəli AR Qanunu.

25. 10 iyun 2011-ci il tarixli 161-IVQD nömrəli AR Qanunu.

26. 6 dekabr 2011-ci il tarixli 263-IVQD nömrəli AR Qanunu.

27. 20 aprel 2012-ci il tarixli 334-IVQD nömrəli AR Qanunu.

28. 1 may 2012-ci il tarixli 351-IVQD nömrəli AR Qanunu.

29. 12 iyun 2012-ci il tarixli 383-IVQD nömrəli AR Qanunu.

30. 29 iyun 2012-ci il tarixli 414-IVQD nömrəli AR Qanunu.

31. 21 dekabr 2012-ci il tarixli 509-IVQD nömrəli AR Qanun

AZƏRBAYCAN RESPUBLİKASININ VERGİ SİSTEMİ – AR-də dövlət vergiləri, MR vergiləri və yerli vergilər (bələdiyyə vergiləri) müəyyən edilir və ödənilir. Dövlət vergiləri AR-in bütün ərazisində, MR vergiləri Naxçıvan MR-də, yerli vergilər (bələdiyyə vergiləri) bələdiyyələrin ərazilərində ödənilməli olan vergilərdir. Yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir. Lakin bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcələrini azaltmaq barədə qərar qəbul edə bilərlər.

AZƏRBAYCAN RESPUBLİKASININ VERGİLƏR NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ – AR Prezidentinin 29 mart 2001-ci il tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş əsasnamə. Bu əsasnamədə AR VN-in vəzifələri, funksiyaları, hüquqları göstərilmiş, fəaliyyətinin təşkili barədə qaydalar verilmişdir.

"AZƏRBAYCANIN VERGİ JURNALI" – 1 iyul 2003-cü ildə Vergilər Nazirliyi tərəfindən təsis edilmiş və 510 qeydiyyat nömrəsi ilə AR Ədliyyə Nazirliyində KİV-in dövlət reyestrinə daxil edilmişdir. Beynəlxalq ISSN (Beynəlxalq Standart Seriya Nömrəsi) mərkəzində qeydiyyata alınmış (ISSN 2305-4611) və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə iqtisadiyyat üzrə elmi tədqiqatların nəticələrinin dərc edilməsi tövsiyə olunan nəşrlərin siyahısına daxil



edilmiş elmi nəşrdir. Əsasən, vergitutmanın müasir problemlərini və vergi işinin ümumkonseptual məsələlərini optimal nəzəri və praktiki uzlaşmada elmi-metodoloji cəhətdən ifadə edən məqalələrin dərcinə üstünlük verilir. Həmçinin, iqtisadiyyatın digər sahələri ilə bağlı yazılmış orijinal məqalələr də çap olunur. Azərbaycan, türk, ingilis və rus dillərində məqalələr dərc edilir. 2012-ci ilin yanvarınadək "Azərbaycanın vergi xəbərləri" adı ilə nəşr olunmuşdur.

B

BAC – keçmişdə Azərbaycanda və bir sıra Şərq ölkələrində ödənilən yol vergisi (rüsumu). Həm quru yolla, həm də su yolu ilə gedənlərdən alınırdı. Tacirlər xüsusi silahlı dəstələr tərəfindən qorunan karvan yollarının müəyyən məntəqələrində bac ödəyirdilər; onlar həm də çayların üstündə salınmış körpülərdən keçəndə bac verməli idilər.

BAXIŞ – səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxsinin yoxlamanın dolğun və obyektiv keçirilməsi üçün bütün halların ayırd edilməsi məqsədi ilə vergi yoxlaması keçirilən vergi ödəyicisinin ərazilərinin, binalarının, habelə sənədlərin və əşyaların həmin orqanın əsaslandırılmış qərarı əsasında keçirilən nəzarət tədbiri. AR VM-in 41-ci maddəsində göstərilmişdir ki, səyyar vergi yoxlaması keçirilmədən ərazilərin, binaların, sənədlərin və əşyaların baxışının keçirilməsinə sənədlər və əşyalar vergi orqanının vəzifəli şəxsi tərəfindən əvvəl həyata keçirilmiş səyyar vergi yoxlaması zamanı əldə edilmişdirsə və ya həmin sənədlərin və əşyaların sahibinin razılığı olduqda yol verilir. Baxış müşahidəçilərin iştirakı ilə həyata keçirilir və bu zaman vergi yoxlaması həyata keçirilən şəxsin, onun nümayən-dəsinin, mütəxəssislərin baxışda iştirak etmək hüququ vardır. Baxışın keçirilməsi barəsində protokol tərtib edilir.

BALANS – hər hansı bir fəaliyyət növünü və ya prosesini xarakterizə edən qarşılıqlı əlaqəli göstəricilər sistemi. Latınca "bilanx" "tərəzi" deməkdir.

BALANS DƏYƏRI – əsas vəsaitlərin və qeyri-maddi aktivlərin mühasibat uçotunda əks etdirildiyi qiymət.

BALANS MƏNFƏƏTI – müəssisənin müəyyən dövr ərzində istehsal və qeyri-istehsal fəaliyyətində əldə etdiyi, mühasibat balansında əks etdirdiyi mənfəət.

BALANSDANKƏNAR FAYDALI QAZINTI EHTİYATLARI – "Yerin təki haqqında" 13 fevral 1998-ci il tarixli 439-IQ nömrəli AR Qanunu və AR Prezidentinin 6 mart 2000-ci il tarixli 293 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Faydalı qazıntı ehtiyatlarının dövlət balansının aparılması qaydaları"na əsasən, geoloji və texniki-iqtisadi göstəriciləri müvafiq mineral-xammal üçün təsdiq edilmiş kondisiya tələblərinə (müvafiq standartlara, texniki şərtlərə) cavab verməyən, lakin gələcəkdə sənaye istismarına cəlb oluna biləcək faydalı qazıntı ehtiyatları balansdankənar ehtiyatlar hesab olunur. Balansdankənar ehtiyatlara aiddir:

- Faydalı Qazıntı Ehtiyatları üzrə Komissiya tərəfindən balansdankənar ehtiyatlar kimi təsdiq edilmiş faydalı qazıntı ehtiyatları;


- qüvvədə olan kondisiya tələblərinə (müvafiq standartlara, texniki şərtlərə) cavab verən, lakin mürəkkəb dağ-texniki şəraitdə yerləşdiyinə görə, mövcud texnika və texnologiyanın tətbiqi ilə istismarı iqtisadi cəhətdən

səmərəsiz hesab olunan faydalı qazıntı ehtiyatları.

BALANSLAŞDIRILMIŞ BÜDCƏ – xərclər və gəlirlər arasında uyğunluğa riayət edilmiş büdcə. Büdcə balanslaşdırılmış olduğu halda, dövlətin əlavə vəsait almağa və bununla dövlət borcunu artırmağa ehtiyacı yaranmır. Daimi iqtisadi tərəddüdlər şəraitində isə hər il tamamilə balanslaşdırılmış büdcə təşkil olunması mümkünsüzdür və lazım da deyil. Ancaq bəzi iqtisadçılar hesab edirlər ki, büdcə iqtisadi dövrün mərhələləri üzrə orta balanslaşdırılmış olmalıdır. Bəzi iqtisadçıların fikrincə isə, balanslaşdırılmış büdcənin tərtib edilməsinə heç bir ehtiyac yoxdur. Onlar iddia edirlər ki, büdcə kəsirinin müəyyən olunması üzrə müzakirələr o qədər geniş yeri əhatə edir ki, istənilən mübahisə mənasız olur.

BANK – fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən maliyyə-kredit təşkilatı. Hüquqi status baxımından hüquqi şəxsdir. Bank – pul vəsaitlərinin toplanması, kreditlərin verilməsi, pulla hesablaşmaların həyata keçirilməsi, pulun emissiyası, müxtəlif qiymətli kağızların buraxılması və s. funksiyaları yerinə yetirən iqtisadi təşkilatdır.

BANK FƏALİYYƏTİNİ HƏYATA KEÇİRDİKDƏ ÇƏKİLMİŞ MƏSRƏFLƏR – bankların öz fəaliyyətlərini həyata keçirdikdə mənfəət vergisinin vergi bazasını azaldan məsrəfləri.



Bakıda XIX əsrin sonunda inşa edilmiş bank binası

BANK HESABI – bankla müştəri arasında müqavilə əsasında açılan və ora pul vəsaitinin daxil olması, saxlanılması, hərəkəti və digər əməliyyatların aparılması üçün hesab.

Bank hesabı müqaviləsinə görə bank müştəriyə (hesabın sahibinə) açılmış hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair müştərinin sərəncamlarını yerinə yetirməyi öhdəsinə götürür. Bank hesabda olan pul vəsaitinə dair müştərinin maneəsiz sərəncam vermək hüququna qarantiya verməklə, bu vəsaitdən istifadə edə bilər. Bank müştərinin pul vəsaitindən istifadə edilməsi istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz, habelə müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz (AR MM, maddə 954).

Bank hesabı müqaviləsi yazılı formada bağlanır. Bank hesabı müqaviləsinin yazılı formasına riayət edilməməsi bu müqavilənin etibarsızlığına səbəb olur. Belə müqavilə əhəmiyyətsizdir. Bank hesabı müqaviləsi bağlanarkən müştəriyə və ya onun göstərdiyi şəxsə tərəflərin razılaşdırdığı şərtlərlə bankda hesab açılır. Bank həmin növ hesabların açılması üçün bankın elan etdiyi, qanunda nəzərdə tutulmuş və qanuna əsasən bank qaydaları ilə müəyyənləşdirilmiş tələblərə uyğun şərtlər əsasında hesab açmaq təklifi ilə müraciət etmiş müştəri ilə bank hesabı müqaviləsi bağlamalıdır.

Bank müştəri üçün həmin növ hesablardan ötrü qanunla, qanuna əsasən müəyyənləşdirilmiş bank qaydaları ilə və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə nəzərdə tutulan əməliyyatlar aparmalıdır, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı hal nəzərdə tutulmasın.

Bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bank müştərinin hesabında olan pul vəsaitindən istifadə etməsi üçün faizlər ödəyir və bu faizlərin məbləği hesaba salınır. Faizlər bank tərəfindən bank hesabı müqaviləsində müəyyənləşdirilmiş miqdarda, müqavilədə müvafiq şərt olmadıqda isə bu bankın tələbli əmanət üzrə müəyyənləşdirdiyi miqdarda ödənilir.

Hesabdan pul vəsaitinin silinməsini bank müştərinin sərəncamına əsasən həyata keçirir. Müştərinin sərəncamı olmadan hesabdakı pul vəsaitinin silinməsinə məhkəmənin qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla müştəri arasında müqavilədə nəzərdə tutulmuş hallarda yol verilir. Hesabdakı pul vəsaitinin məbləği hesaba qarşı irəli sürülən bütün tələbləri ödəməyə kifayət etdikdə, hesabdan bu vəsaitin silinməsi müştərinin sərəncamlarının və hesabdan silməyə dair digər sənədlərin daxil olduğu ardıcıllıqla (təqvim ardıcıllığı) həyata keçirilir, bu şərtlə ki, qanunda ayrı qayda nəzərdə tutulmasın (AR MM, maddə 965).

Müştəriyə gələn pul vəsaitinin vaxtında hesaba salınmadığı və ya bank tərəfindən əsassız olaraq hesabdan silindiyi, habelə pul vəsaitinin hesabdan köçürülməsi və ya hesabdan verilməsi haqqında müştərinin göstərişlərinin lazımınca yerinə yetirilmədiyi hallarda bank həmin məbləğ üçün nəzərdə tutulmuş qaydada və miqdarda faizlər ödəməlidir.

Bank hesabının və bank əmanətinin, hesab əməliyyatlarının və müştəri haqqında məlumatların sirrinə bank təminat verir.

BANK KİTABÇASI – tərəflərin razılaşması ilə ayrı qayda nəzərdə tutulmayıbsa, fiziki şəxslə bank əmanəti müqaviləsinin bağlanması və onun əmanət üzrə hesabına pul vəsaitinin qoyulması bank kitabçası ilə təsdiq olunur. Bank əmanəti müqaviləsində adlı bank kitabçasının və ya adsız bank kitabçasının verilməsi nəzərdə tutula bilər. Bank kitabçasında bankın adı və olduğu yer, əmanət filiala qoyulduqda isə həm də müvafiq filialın adı və olduğu yer, əmanət üzrə hesabın nömrəsi, habelə hesaba köçürülmüş pul vəsaitinin bütün məbləğləri, hesabdan silinmiş pul və-

saitinin bütün məbləğləri və bank kitabçasının banka təqdim olunduğu anadək hesabdakı pul vəsaitinin qalığı göstərilməli və bank tərəfindən təsdiq edilməlidir. Əgər ayrı hal sübuta yetirilməyibsə, bank kitabçasında göstərilmiş əmanət haqqında məlumatlar bankla əmanətçi arasında əmanət üzrə hesablaşmalar üçün əsasdır.

Bank əmanətin verilməsini, əmanət üzrə faizlərin ödənilməsini və əmanət üzrə hesabdan pul vəsaitinin digər şəxslərə köçürülməsinə dair əmanətçinin sərəncamlarının icrasını bank kitabçası təqdim olunduqda həyata keçirir. Adlı bank kitabçası itirildikdə və ya təqdim olunmaq üçün yararsız vəziyyətə düşdükdə, əmanətçinin ərizəsi üzrə bank ona yeni bank kitabçası verir. İtirilmiş adsız bank kitabçası üzrə hüquqların bərpası adsız qiymətli kağızlar üçün nəzərdə tutulmuş qaydada həyata keçirilir. Bank – bank kitabçasını qeyri-qanuni yollarla və ya itirmə nəticəsində əldə etmiş şəxslə həmin kitabça üzrə hesablaşma apararsa, məsuliyyətdən azad olunur, bu şərtlə ki, həmin hallar barədə məlumata malik olmasın. Lakin əgər bank kobud ehtiyatsızlıq üzündən belə məlumata malik olmazsa, məsuliyyətdən azad edilmir. Banka qarşı olan tələbi AR MM ilə müəyyən edilmiş qaydada həmin tələbin güzəşti yolu ilə əldə etmiş yeni kreditor, ona bank kitabçasının verilməsini tələb edə bilər.

“BANK OLMAYAN KREDİT TƏŞKİLATLARI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – AR-də hüquqi və fiziki şəxslərin maliyyə resurslarına olan ehtiyaclarının daha dolğun ödənilməsi, maliyyə xidmətlərindən istifadəsi üçün əlverişli şəraitin yaradılması məqsədilə bank olmayan kredit təşkilatlarının təsis edilməsi, idarə olunması və fəaliyyətinin tənzimlənməsi qaydalarını müəyyən edən Qanun. AR Prezidenti tərəfindən 25 dekabr 2009-cu ildə təsdiq edilmiş 933-IIIQ nömrəli bu Qanun 26 maddədən və aşağıdakı fəsillərdən ibarətdir:

1. Ümumi müddəalar.
2. BOKT-nin yaradılması və idarə edilməsi.
3. Lisenziya və icazələrin verilməsi.
4. BOKT-lərin fəaliyyətinə dair tələblər.
5. BOKT-nin fəaliyyətinə nəzarət.
6. Keçid müddəaları.

“BANKLAR HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – Azərbaycanda bank sisteminin hüquqi bazasının beynəlxalq standartlara tam uyğunlaşdırılması, iqtisadiyyatda bank xidmətlərinin rolunun artırılması, bank əmanətçilərinin və kreditorlarının müdafiəsinin gücləndirilməsi və bütövlükdə bank sisteminin stabil və təhlükəsiz fəaliyyətinin təmin edilməsi məqsədilə bankların təşkili, daxili idarəedilməsi, fəaliyyətinin tənzimlənməsi və ləğv edilməsi prinsiplərini, qaydalarını və normalarını müəyyən edən Qanun. AR Prezidenti tərəfindən 2004-cü ilin 16 yanvarında təsdiq edilmiş 590-IIQ nömrəli bu Qanun 11 fəsil və 94 maddədən ibarətdir. Göstərilmişdir ki, AR ərazisində banklar və bank olmayan kredit təşkilatları

MB-nin verdiyi xüsusi razılıq (lisenziya) əsasında bank fəaliyyəti ilə məşğul ola bilər; depozit əməliyyatları yalnız banklar tərəfindən həyata keçirilməlidir; MB hər hansı şəxsin lisenziyası olmadan bank fəaliyyəti ilə məşğul olduğunu müəyyən etdikdə, həmin şəxsə bu fəaliyyətinə xitam verilməsi haqqında tələb göndərir və müvafiq dövlət orqanlarına bu barədə məlumat verir. "Banklar haqqında" AR Qanunu aşağıdakı fəsillərdən ibarətdir:

1. Ümumi müddəalar.
2. Bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya və icazələrin verilməsi.
3. Bankların yaradılması, idarə edilməsi və daxili audit.
4. Bankların fəaliyyətinə dair tələblər.
5. Banklarda mühasibat uçotu və hesabat. Bankların fəaliyyətinə nəzarət.
6. Banklara təsir tədbirləri və sanksiyalar.
7. Müvəqqəti inzibatçı.
8. Bankların maliyyə sağlamlaşdırılması.
9. Bankların ləğvi.
10. Bankların iflası.
11. Keçid və yekun müddəalar.

BANKLAR VƏ DİGƏR KREDİT TƏŞKİLATLARI TƏRƏFİNDƏN FİZİKİ ŞƏXSLƏRİN ƏMANƏTLƏRİ ÜZRƏ ÖDƏNİLƏN FAİZLƏRİN GƏLİR VERGİSİNDƏN AZAD EDİLMƏSİ – 2001-ci il yanvarın 1-dən başlayaraq tətbiq olunan, müddəti müvafiq normativ aktlarla mütəmadi olaraq uzadılan, fiziki şəxslərə əmanətlər üzrə ödənilən faizlərin vergidən azad olunmasını nəzərdə tutan vergi güzəştidir. Hal-hazırda qüvvədə olma müddəti 2013-ce ilin sonunda bitir.

BANKLARIN GƏLİRLƏRİNƏ VERGİ – bankların hesabat dövründə əldə etdiyi mənfəətə tətbiq olunan vergidir. Adətən belə vergi kimi mənfəət vergisi çıxış edir.

BARTER ƏMƏLİYYATLARI – mülki-hüquqi müqavilə çərçivəsində tələb edilən mal və xidmətin, təklif edilən mal və xidmət müqabilində satın alınması və ya tələb və təklifin qarşılıqlı mübadilə edilməsidir.

BASKAK – XIII-XIV əsrlərdə tatar-monqol dövlətində xan tərəfindən təyin olunmuş vergiyığan. Hər bir baskakın sərəncamında türk və monqol əsgərlərdən ibarət dəstə olurdu və bu dəstə müəyyən ərazidə asayişi və qayda-qanunu qorumaq üçün hərbi hissə yaradırdı. Həmin dövrdə verginin dərəcəsi 10% idi, hər cür məhsulun onda birini vergi kimi ödəmək tələb olunurdu. Baskak həm də yerli hakimiyyət orqanına nəzarət edirdi. XIV əsrin axırlarından başlayaraq vergi ödəmək yerli orqanlara həvalə olundu.

BAŞLANĞIC XƏTLƏR – "RF-nin dəniz suları, ərazi dənizi və bitişik zonalar haqqında" RF Qanunu ilə müəyyən edilmiş termin. Başlanğıc xətti aşağidakilar hesab olunur:

- RF-də rəsmən dərc edilmiş dəniz xəritələrində göstərilmiş ən böyük çəkilmənin sahil boyunca xətti;
- sahil boyunca və bilavasitə ona yaxın adalar zənciri olduğu yerdə sahil xəttinin dərin kəsildiyi və əyri olduğu yerdə olan adaların, riflərin (sualtı qayaların) və qayaların hüdud-



Baskakların vergi yığması

larının dənizə doğru ən uzaq tərəflərini birləşdirən düz başlanğic çıxış xətti;

- dənizə axan çayın mənsəbində dənizdə ən böyük çəkilmə zamanı sahillərinin maksimal görünən nöqtələrinin arasında eninə keçən düz xətt;

- sahilləri RF-yə aid olan adalar və materik arasında körfəzə və boğaza təbii giriş məntəqələrində ən böyük çəkilmə nöqtələrini birləşdirən 24 dəniz milindən çox olmayan düz xətt;

- tarixən RF-yə aid olan adalar və materik arasında körfəzə və boğaza təbii giriş məntəqələrini birləşdirən 24-dən çox dəniz mili düz başlanğic (çıxış) xətlər sistemi.

RF-nin bitişik zonaların dəniz ərazilərinin eninin ölçülməsi üçün başlanğıc çıxış xətləri müəyyən edən nöqtələrin coğrafi koordinatlarının siyahısı RF hökuməti tərəfindən təsdiq edilir və "Dəniz gəmiçilərinə bildiriş"də dərc edilir.

Dəniz ərazisinin eninin ölçülməsi üçün dənizin sərhədləri və başlanğic çixiş xətlər 1:200000-1:300000 miqyasında olan dəniz xəritələrinə, belə xəritələr olmadıqda 1:100 000 və ya 1:500 000 xəritələrinə daxil edilir. Bəzi hallarda bu rayonun xəritəsinin çəkilməsinin spesifikası, coğrafi şəraitin xüsusiyyətləri, mənbələrin dəqiqliyi dərəcəsi və ya başqa səbəblərlə əlaqədar göstərilən miqyaslardan kənara çıxmağa icazə verilir.

BAŞ MÜHASİB – mühasibat uçotu üzrə mütəxəssis, yaxud mühasibatlıq qaydalarına riayət etməklə ticarət və uçot kitablarını aparan şəxs.

BAŞA ÇATDIRILMAMIŞ İSTEHSAL – texnoloji proseslə nəzərdə tutulan bütün emal mərhələlərindən keçməmiş qismən hazır məhsul.

BAŞQA TƏŞKİLATLARDA PAY ŞƏRİKLİYİNDƏN GƏLİRLƏR – təşkilatların mənfəət vergisinin

vergitutma obyekti, eyni zamanda satışdankənar gəlirlərin bir növü.

BAZA GƏLİRLİYİNİN DÜZƏLİŞ ƏMSALLARI – RF-də şərti gəlirə vahid verginin ödənişi barədə şəhadətnamə əsasında həyata keçirilən sahibkarlıq fəaliyyətinin nəticəsinə müəyyən amillərin təsirinin dərəcəsini əks etdirən əmsallar.

2003-cü il yanvarın 1-dən vahid verginin tutulması üçün tətbiq edilir. RF VM-in 346.27 maddəsinə görə, K1, K2, K3 əmsalları baza gəlirliyinin düzəliş əmsalları kimi istifadə olunur.

BAZA GƏLİRLİYİNİN K1 ƏMSALI – RF-də baza gəlirliyinin elə düzəliş əmsalıdır ki, müxtəlif bələdiyyə qurumlarında sahibkarlıq fəaliyyəti həyata keçirildikdə yaşayış məntəqəsinin, həmin məntəqədə istifadə olunan ərazinin xüsusiyyətlərini nəzərə alır. K1 əmsalı vergi ödəyicisinin obyektinin olduğu yerdə torpağın kadastr dəyərinin torpağın dövlət torpaq kadastrında müvafiq fəaliyyət növləri üçün müəyyən edilmiş maksimal kadastr dəyərinə nisbəti kimi müəyyən edilir.

BAZA GƏLİRLİYİNİN K2 ƏMSALI – RF-də baza gəlirliyinin sahibkarlıq fəaliyyətində bəzi xüsusiyyətlərini, məsələn, malların (işlərin, xidmətlərin) çeşidini, mövsümiliyini, iş vaxtını, gəlirlərin həcmini və s. nəzərə alan düzəliş əmsalı. K2 əmsalının qiymətləri RF subyektləri üzrə təqvim ili üçün müəyyən edilir və 0,1-dən 1-ə qədər dəyişir (RF VM-in 346.29 maddəsinin 7 bəndi).

BAZA GƏLİRLİYİNİN K3 ƏMSALI – RF-də malların (işlərin, xidmətlərin) istehlak qiymətlərinin dəyişiklik indeksinə uyğun olan əmsal-deflyator. K3 RF hökumətinin müəyyən etdiyi qaydada mətbuatda dərc edilir və baza gəlirliyinin hesablanmasında istifadə olunur.

BAZAR QİYMƏTİ – malın (işin, xidmətin) tələblə təklifin qarşılıqlı təsiri nəticəsində təşəkkül tapan qiyməti, yaxud müəyyən zaman intervalında real bazarda əmtəənin formalaşmış qiyməti, yəni bazarda əmtəənin satıla bildiyi qiymət. Bazar qiyməti nəzərə alınmaqla vergilərin hesablanması aşağıdakı hallarda həyata keçirilə bilər:

- barter (mal mübadiləsi), idxal-ixrac əməliyyatları aparıldıqda;
- təsərrüfat əqdləri qarşılıqlı surətdə asılı olan şəxslər arasında həyata keçirildikdə;
- vergi ödəyicilərinin eyni xüsusiyyətli və ya eyni cinsli mallara (işə, xidmətə) 30 gün ərzində tətbiq etdikləri qiymətlərin səviyyəsi 30 faizdən çox dəyişdikdə;
- müəssisənin əmlakı qalıq dəyərindən artıq qiymətə sığortalandığı halda.

Müəyyənləşdirilmiş bazar qiymətlərindən ancaq vergitutma məqsədləri üçün istifadə edilir və mallar (işlər, xidmətlər) qanunvericilikdə nəzərdə tutulmuş qaydada faktiki satış qiyməti ilə uçota alınır.

AR VM-ə görə, malların (işlərin, xidmətlərin) bazar qiymətləri müəyyənləşdirilərkən qiymətlərə təsir edə bilən aşağıdakı amillər nəzərə alınır (maddə 14.6.1):

- göndərilmiş malların (görülmüş işlərin, göstərilmiş xidmətlərin) həcmi;

- öhdəliklərin icra olunması müddəti və ödəniş şərtləri;

- mallara (işlərə, xidmətlərə) tələb və təklifin dəyişməsi;

- malların mənşə ölkəsi, alındığı və ya təqdim edildiyi yer;

- malların (işlərin, xidmətlərin) göndərilmə şərtləri;

- malların keyfiyyətinin və digər istehlak göstəricilərinin səviyyəsi;

- marketinq siyasətinin aparılması ilə əlaqədar yeni malların (işlərin, xidmətlərin) bazara çıxarılması, yaxud yeni bazara çıxarılması, əmtəə nümunələrinin təqdim edilməsi.

İşlərin görülməsi, xidmətlərin göstərilməsi, o cümlədən təmir, tikinti quraşdırma işləri, nəqliyyat, icarə, təhsil, tibb xidmətləri və digər sahələr üzrə bazar qiymətləri müəyyənləşdirilərkən işlərin görüldüyü, xidmətlərin göstərildiyi ərazi, onların keyfiyyət göstəriciləri və qiymətlərə təsir edə bilən digər şərtlər də nəzərə alınmalıdır.

Qiymətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən tənzimlənən mallar (işlər, xidmətlər) təqdim olunarkən (ixrac istisna olmaqla) və alınarkən AR TŞ tərəfindən müəyyənləşdirilən qiymətlər əsas götürülür.

BAZAR QİYMƏTİNİN TƏYİN EDİLMƏSİ – Eyni xüsusiyyətli və ya eyni cinsli mallarla (işlərlə, xidmətlərlə) müvafiq əmtəə (iş, xidmət) bazarında heç bir əməliyyat aparılmadıqda, rəsmi və açıq mənbələrdən bu malların (işlərin, xidmətlərin) bazar qiymətləri haqqında məlumat toplamaq mümkün olmadıqda, aşağıdakı qiymətləndirmə üsullarından istifadə edilə bilər: 1. Sonrakı (təkrar) satış qiymətinə əsasən. Malların (işlərin, xidmətlərin) bazar qiyməti həmin malların (işlərin, xidmətlərin) sonrakı (təkrar) satış qiymətinə əsasən müəyyən olunur. Bazar qiyməti sonrakı satış qiymətindən tətbiq olunmuş əlavələr çıxılmaqla müəyyənləşdirilir. 2. Dəyərin toplanması üsuluna əsasən. Bazar qiymətləri malları (işləri, xidmətləri) təqdim edənin əsaslandırılmış xərclərini və mənfəətini toplamaqla hesablanır. 3. Malların (işlərin, xidmətlərin) bazar qiymətlərini yuxarıda göstərilən üsullardan biri ilə müəyyənləşdirmək mümkün olmadıqda, bazar qiymətləri müqavilə əsasında cəlb edilmiş ekspert tərəfindən müəyyənləşdirilir.

BENEFİSİAR – pul vəsaitləri və ya digər əmlakla əlaqədar əməliyyatlardan son nəticədə iqtisadi və ya hər hansı digər fayda əldə edən fiziki və ya hüquqi şəxs, habelə xeyrinə əqdlərin həyata keçirildiyi hüquqi şəxsin əsl sahibi və ya müştəriyə nəzarəti həyata keçirən fiziki şəxs.

BEYNƏLXALQ DAŞIMA – dəniz, hava və ya yerüstü nəqliyyat (avtomobil və dəmir yolu) vasitəsi ilə malların və ya sərnişinlərin bir dövlətdə yerləşən məntəqə ilə digər dövlətdə yerləşən məntəqə arasında daşınması.

BEYNƏLXALQ HÜQUQ – dövlətlər arasında yaranan münasibətləri tənzimləyən prinsip və normaların məcmusu.

BEYNƏLXALQ XÜSUSİ HÜQUQ – beynəlxalq xarakter daşıyan mülki-hüquqi münasibətləri (əmlak və qeyri-əmlak xarakterli, həmçinin ailə, əmək, prosessual hüquq münasi-

bətləri) tənzimləyən normaların məcmusu.

BEYNƏLXALQ İKİQAT VERGİTUTMA – eyni bir gəlirin və ya əmlakın iki dövlətdə eyni vergi növünə cəlb edilməsi. Beynəlxalq ikiqat vergitutmanın yaranmasının əsas səbəbi xarici fiziki və ya hüquqi şəxsin bir dövlətdə əldə etdiyi gəlirin həmin dövlətdə mənbə prinsipi əsasında, həmin şəxsin vergi rezidenti olduğu dövlətdə isə rezidentlik prinsipi əsasında vergiyə cəlb edilməsidir. Digər bir səbəb isə gəlir əldə edən şəxsin hər iki dövlətdə daxili qanunvericiliyin müddəalarına əsasən rezident hesab edilməsidir. Bu halda, hər iki dövlət həmin şəxsin dünya gəlirlərini vergiyə cəlb etmək hüququna malikdir, bu isə ikiqat vergitutmanın yaranmasına gətirib çıxarır.

BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR – dövlətlər, beynəlxalq və regional təşkilatlar arasında çoxtərəfli iqtisadi əlaqələr.

BEYNƏLXALQ İŞGÜZAR KOMPANİYA – beynəlxalq işgüzar kompaniya və ya beynəlxalq işgüzar korporasiya offşor yurisdiksiyada qeydiyyatdan keçmiş vergi ödəməyən və ya cüzi məbləğdə vergi ödəyən müəssisədər. Bu tip müəssisələr qeydiyyatda keçdikləri yerdə biznes əməliyyatları apara bilməzlər, yəni yalnız beynəxalq əməliyyatlar aparmaq hüququna malikdirlər.

BEYNƏLXALQ KOMPANİYA – bax: *Çoxmilli müəssisə.*

BEYNƏLXALQ MALİYYƏ KORPORASİYASI (BMK) – Dünya Bankı Qrupuna daxil olan təşkilatlardan biridir. BMK özəl sektora investisiyaların qoyulmasının maliyyələşdirilməsi, kapitalın beynəlxalq maliyyə bazarlarına isiqamətləndirilməsi və şirkətlərə və hökumətlərə məsləhət xidmətlərinin göstərilməsi vasitəsilə inkişaf etməkdə olan ölkələrdə sabit iqtisadi artıma kömək edir. BMK şirkətlərə və maliyyə institutlarına yeni yaranan bazarlarda iş yerlərinin açılmasında, vergi gəlirlərinin yaradılmasında, korporativ idarəetmənin və ətraf mühitin qorunmasının yaxşılaşdırılmasında və yerli cəmiyyətlərə öz töhfəsinin verilməsində yardım edir. BMK-nın 182-üzvü var. BMK-ya üzv olmaq üçün ölkələr: Dünya Bankının üzvü olmalı; BMK-nın Saziş Maddələrini imzalamalı; Dünya Bankı Qrupunun Korporativ Katibliyində saxlanılan, BMK-nın Saziş Maddələrinə qoşulmasına dair ratifikasiya sənədini təqdim etməlidirlər.



Beynəlxalq Maliyyə Korporosiyasının iqamətgahı (ABŞ, Vaşinqton).

BEYNƏLXALQ MÜQAVİLƏ – iki və ya daha çox dövlətin və ya beynəlxalq hüququn digər subyektlərinin siyasi, iqtisadi və ya digər sahələrdə onların qarşılıqlı hüquq və öhdəliklərini müəyyən edən razılaşma sənədi. Müqaviləyə tərəf olan subyektlərdən asılı olaraq, beynəlxalq müqavilələr dövlətlərarası, hökumətlərarası və idarələrarası (yaxud qurumlararası) ola bilər. Beynəlxalq müqavilələr konvensiya, saziş, pakt, protokol, kommünike və s. formalarda bağlanır və adından asılı olmayaraq, tərəflər üçün eyni dərəcədə hüquqi öhdəlik təşkil edir. İştirakçı tərəflərin sayından asılı olaraq, beynəlxalq müqavilələr ikitərəfli və ya çoxtərəfli, əhatə ərazisindən asılı olaraq isə regional və universal olur.

BEYNƏLXALQ MÜQAVİLƏLƏRİN TƏTBİQİNDƏ XÜSUSİ QAYDALAR – müqavilənin özündə onun hər hansı bir müddəasının tətbiqi üçün qayda nəzərdə tutulmadıqda, müqavilənin tərəflərinin həmin müddəaların tətbiqi üçün istifadə etdiyi qaydalar.

BEYNƏLXALQ TƏŞKİLAT – müəyyən məqsədlər üçün bağlanmış sazişlərə görə yaradılmış dövlətlərarası və qeyri-dövlət xarakterli beynəlxalq birlik. Bəziləri nizamnaməsiz (məsələn, ATƏT) fəaliyyət göstərir. Beynəlxalq təşkilatlar beynəlxalq hökumətlərarası təşkilatlara və beynəlxalq qeyri-hökumət təşkilatlarına bölünür.

BEYNƏLXALQ TİCARƏT – beynəlxalq münasibətlərin tərkib hissəsi; ölkələr arasında sərhədləri keçməklə əməliyyatlarda mal, iş və xidmətlərin mübadiləsi.

BEYNƏLXALQ VALYUTA FONDU (BVF) – valyuta münasibətləri sahəsində qlobal əməkdaşlığı stimullaşdırmaq, maliyyə sabitliyini təmin etmək, beynəlxalq ticarətə köməklik etmək, yüksək məşğulluq səviyyəsini və davamlı iqtisadi artımı təmin etmək və bütün dünyada yoxsulluğun azaldılması məqsədilə fəaliyyət göstərən, 186 ölkədən ibarət təşkilatdır. BVF-nin əsası 1944-cü ilin iyul ayında ABŞ-ın şimal-şərqində yerləşən Nyu-Hempşir ştatının Bretton Vuds şəhərində keçirilən görüşdə 45 ölkənin nümayəndəsinin İkinci Dünya müharibəsindən sonra yaradılacaq beynəlxalq iqtisadi əməkdaşlığın strukturu haqqında razılığa gəldikləri zaman qoyulmuşdur. Fond rəsmi olaraq 1945-ci ilin dekabr ayında, ilk 29 üzv ölkənin onun Razılaşma Maddələrini imzalamasından sonra yaranmışdır. 1 mart 1947-ci ildə fəaliyyətə başlamışdır.



Beynəlxalq Valyuta Fondunun baş ofisi (ABŞ, Vaşinqton).

BEYNƏLXALQ VERGİ (FİSKAL) ASSOSİASİYASI (IFA) – maliyyə məsələləri sahəsində əməkdaşlığı nəzərdə tutan beynəlxalq qeyri-



hökumət təşkilatıdır. Təşkilat 1938-ci ildə yaradılmışdır və baş qərargahı Niderland Krallığında yerləşir. IFA-nın əsas məqsədi beynəlxalq və müqayisəli dövlət maliyyəsi hüququ və vergitutmanın iqtisadi aspektləri sahəsində təcrübə və fikir mübadiləsinin və müvafiq araşdırmaların aparılmasıdır. İldə bir dəfə IFA-nın illik konqresləri keçirilir, həmçinin göstərilən mövzularla bağlı müntəzəm olaraq elmi məqalələr dərc edilir. Hazırda təşkilat 106 ölkəni əhatə edən 1200 nümayəndəni birləşdirir. 62 ölkədə IFA-nın nümayəndəlikləri mövcuddur. IFA-ya həm müstəqil fiziki şəxslər, həm də müxtəlif korporasiyalar üzv ola bilər.

BEYNƏLXALQ VERGİ HÜQUQU – xarici elementlərin də daxil olduğu vergitutma sahəsi üzrə münasibətləri tənzimləyən beynəlxalq hüquq, geniş mənada isə həm də milli normaların məcmusu.

BEYNƏLXALQ VERGİ MÜNASİBƏTLƏRİ – müxtəlif dövlətlər arasında vergi məlumatlarının mübadiləsi, vergi qanunvericiliyi və vergi inzibatçılığının müxtəlif sahələrinə dair təcrübə mübadiləsini, həmçinin, ikiqat vergitutmanın qarşısının alınması sahəsində dövlətlər arasında ikitərəfli əməkdaşlığı nəzərdə tutur. Buraya həmçinin, vergitutma sahəsində fəaliyyət göstərən beynəlxalq və regional təşkilatlarla ikitərəfli və çoxtərəfli əməkdaşlıq da aiddir.

BEYNƏLXALQ VERGİ SAZİŞLƏRİ – vergitutma məsələlərinə aid beynəlxalq müqavilələrin ümumi adı. Vergi sazişlərinin əsas növləri ikiqat vergitutmanın aradan qaldırılması haqqında müqavilələr və vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında müqavilələrdir. Qarşılıqlı inzibati yardım haqqında müqavilələr ya yardımın bütün növlərini əhatə etməklə bağlana bilər, ya da ayrılıqda məlumat mübadiləsi haqqında, yaxud vergilərin toplanmasında yardım haqqında müqavilə formasında bağlana bilər. Məzmununa görə beynəlxalq vergi sazişləri aşağıdakı qruplara bölünür:

- gömrük rüsumlarının alınması məsələləri haqqında sazişlər – bu qrupa gömrük konvensiyaları, tarif və ticarət haqqında saziş, azad ticarət zonasının yaradılması haqqında saziş, Lomey konvensiyasının vergiyə aid maddələri, AİB, Karaib birliyi, Latın Amerikası İnteqrasiya Assosiasiyası və digər təşkilatların yaranması haqqında müqavilələr daxildir;

- ikiqat vergitutmanın aradan qaldırılması sazişləri – bu qrupa ikiqat vergitutmanın aradan qaldırılması üçün normalar müəyyən edən ikitərəfli və çoxtərəfli sazişlər daxildir;

- qarşılıqlı surətdə müxtəlif şəxslərə və onların ailə üzvlərinə imtiyazlar, immunitetlər, güzəştlər verilməsi haqqında sazişlər;

- vergi məsələlərində qarşılıqlı inzibati və hüquqi yardım göstərilməsi haqqında sazişlər;

- vergitutma sisteminin standartlaşdırılması və unifikasiyası haqqında sazişlər;

- vergi sisteminin müxtəlif problemlərini əhatə edən sazişlər.

BEYNƏLXALQ VERGİ VƏ İNVESTİSİYA MƏRKƏZİ – Rusiya, Azərbaycan, Qazaxıstan, Filippin, Ukrayna, Böyük Britaniya və Şimali İrlandiya Krallığı və ABŞ-da ofisləri olan müstəqil, qeyri-kommersiya xarakterli tədqiqat və təhsil təşkilatıdır. 1993-cü ildə təsis olunmuş



Beynəlxalq Vergi və İnvestisiya Mərkəzi vergi və investisiya siyasəti məlumatları üzrə hesablama palatası və keçmiş Sovet İttifaqı və Orta Şərq, Şimali Afrikanın digər dövlətləri və Asiya-Sakit Okeanı regionunun yüksək vəzifəli şəxsləri üçün öndə gedən məlumat mərkəzi kimi xidmət göstərir. 1993-cü ilin sentyabr ayında Rusiya və Qazaxıstan dövlətləri arasında sazişin imzalanması nəticəsində yaranıb.

BƏHRƏ – orta əsrlərdə Azərbaycanda natural vergi növü. "Bəhrə" sözünün fars dilində iki müxtəlif mənası var: həm mənfəət, xeyir, həm də hissə, pay mənalarında işlənir. Elxanilər, Qaraqoyunlular və Ağqoyunlular dövrlərində əsas vergi növlərindən biri idi. Məhsulun 20-25%-i ilə ödənilən bu vergi sonralar malcəhət adlandırılsa da bəzi yerlərdə ona yenə bəhrə deyirdilər.

BƏLƏDİYYƏ – qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə forması. Bələdiyyənin öz mülkiyyəti, yerli büdcəsi və seçkili bələdiyyə orqanları olur və o, AR Konstitusiyası ilə və bu qanunla səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Bələdiyyələr bərabərlik əsasında qurulur və fəaliyyət göstərirlər.

"Bələdiyyə" və "yerli özünüidarə" terminləri və bunların iştirakı ilə düzələn söz birləşmələri bələdiyyə, onların orqanları, yerli özünüidarə funksiyalarının həyata keçirilməsi ilə bağlı olan müəssisə, idarə və təşkilatlar, mülkiyyət obyektləri və başqa obyektlər barəsində, habelə əhali tərəfindən yerli özünüidarənin həyata keçirilməsi ilə əlaqədar digər hallarda işlədilir.

BƏLƏDİYYƏ BÜDCƏSİ – bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, AR Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaiti.

Yerli büdcə bələdiyyə büdcəsi olub dövlət büdcəsinin tərkib hissəsi deyil.

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, müvafiq olaraq yerli büdcənin tənzimlənməsi prosesində dövlət büdcəsindən vəsait almaq hüququ vardır.

Yerli büdcənin tərtibi və icrası prosesində büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsipləri və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatından istifadə edilir.

Büdcə ili yanvarın 1-də başlanır və dekabrın 31-də bitir.

BƏLƏDİYYƏ MÜLKİYYƏTİNDƏ OLAN MÜƏSSİSƏ VƏ TƏŞKİLATLARIN MƏNFƏƏT VERGİSİ – bələdiyyə mülkiyyətində olan müəssisələrin mənfəət vergisinin digər yerli vergilərdən fərqli xüsusiyyəti ondan ibarətdir ki, bu vergi bələdiyyə büdcəsinə ödənilməsinə baxmayaraq Azərbaycan Respublikası Vergi Məcəlləsinin IX fəslində nəzərdə tutulmuş dövlət vergilərinə aid olan hüquqi şəxslərin mənfəət vergisi üzrə qaydalara müvafiq hesablanır. Mənfəət vergisi birbaşa vergi hesab olunur, yəni onun məbləği müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin son nəticəsindən asılıdır.

BƏLƏDİYYƏ VERGİLƏRİ – VM-də və müvafiq qanunla ("Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" 27 dekabr 2001-ci il tarixli 244-IIQ nömrəli AR Qanunu) müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq olunan və bələdiyyələrin ərazilərində ödənilən vergilər nəzərdə tutulur. Bələdiyyələr tərəfindən tətbiq olunan digər məcburi ödənişlər müvafiq qanunla müəyyən edilir.

Yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit olunmuş hədlər daxilində müəyyən edilir. Vergi qanunvericiliyinə uyğun olaraq bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər.

Yerli vergilərin hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və bələdiyyələrin vergi xidməti orqanlarının hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, bələdiyyələrin vergi xidməti orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir.

BƏRPA DƏYƏRİ – mövcud vaxtda istifadəsi zəruri olan dövriyyədənkənar aktivlərin mümkün məsrəflərinin qiymətləndirilməsi. Bərpa dəyəri müasir şəraitdə əsas fondların təkrar istehsalının dəyəridir. Bərpa dəyəri yenidən qiymətləndirmənin aparılması məqamında real mövcud olmanı nəzərə alaraq əsas fondların təkrar istehsal şərtlərini, yəni: tikinti-quraşdırma və smeta işlərinin aparılması üçün müqavilə qiymətlərini, tikinti materiallarının, yanacaq, enerji, avadanlıq, inventar və s. topdansatış qiymətlərini müəyyən edir. Aşınma çıxılmaqla bərpa dəyəri mühasibat uçotunda əsas fondların faktiki dəyərini əks etdirməlidir; qalıq dəyərinin növlərindən biridir.

BƏYANNAMƏ – təsərrüfat subyektinin hər hansı vəziyyətini (prinsipini) və ya hər hansı müəyyən informasiyanı özündə daşıyan ərizə, elan və ya sənəd.

BƏYANNAMƏÇİ – gömrük rəsmiləşdirilməsi məqsədi ilə malları və

nəqliyyat vasitələrini bəyan edən, təqdim edən, göstərən hüquqi şəxs.

BƏYANNAMƏYƏ GÖRƏ VERGİLƏRIN TUTULMASI – bilavasitə vergi ödəyicisi tərəfindən vergi öhdəliklərinin müstəqil surətdə müəyyənləşdirilməsi, bəyan edilməsi və ödənilməsini özündə ehtiva edən vergitutma formasıdır.

BİLDİRİŞ – özündə müəyyən məlumatı, xəbərdarlığı əks etdirən sənəd, məktub. Vergi inzibatçılığında bir neçə adda bildirişlər mövcuddur; məsələn, səyyar vergi yoxlamasının başlanması və ya vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclar haqqında.

"BİR PƏNCƏRƏ" SİSTEMİ – məlumatların bir mərkəzdə cəmləşdirilməsi və eləcə də bütün inzibati qeydiyyatların (vergi qeydiyyatı da daxil olmaqla) tamamilə sinxronlaşdırılması vasitəsilə həyata keçirilən xüsusi qeydiyyat forması.

BİRBAŞA XARİCİ İNVESTİSİYALAR – xarici ölkələrdə əldə edilən və ya yaradılan bina, ərazi, fabrik, istehsal təsisi, makina-təchizat kimi maddi dəyərlər birbaşa xarici kapital investisiyaları adlandırılır. Bu terminin iqtisadi ədəbiyyatda çoxlu sayda tərifi mövcuddur. Məsələn, bunlardan birinə görə, birbaşa xarici investisiyalar qlobal istehsalın səbəb olduğu maliyyə axınıdır. Çox istifadə olunan tərif-lərdən birinə görə hər hansı xarici ölkədə şirkətin idarə edilməsində uzunmüddətli perspektivdə söz sahibi olmağa yetərli səviyyədə hissə almaqla reallaşdırılan investisiyalardır. Başqa bir tərifə bir ölkədə bir firmanı satın almaq və ya yeni qurulan bir firma üçün kapital qoyuluşunu təmin etmək və ya mövcud bir firmanın kapitalını artırmaq yoluyla, başqa bir ölkədə yaradılan firmalar tərəfindən digər ölkədə yaradılan firmalara yatırılan və özü ilə birlikdə texnologiya, menecment bilgisi və sərmayədarın nəzarət səlahiyyətini də bərabər gətirən investisiyalardır. Beynəlxalq sahədə istifadə olunan tərifə görə isə birbaşa xarici kapital investisiyası bir ölkədə yerləşən bir qurumun (investor), fərqli bir ölkədə uzun müddət qalaraq məqsədi iqtisadi mənfəət əldə etməsidir.

BİRBAŞA İNVESTİSİYALAR – RF Qanunu (№ 36151, maddə 1, bənd 10) ilə müəyyən edilmiş qaydada müəssisəni idarəetmədə iştiraka hüquqların alınması və gəlir əldə edilməsi məqsədi ilə müəssisənin (təşkilatın) nizamnamə kapitalına vəsait qoyulmasını bildirən termindir.

BİRBAŞA VERGİLƏR – vergi ödəyicilərinin gəlir və ya əmlakından bilavasitə tutulan vergilər. Bu vergilərin ödənişi zamanı vergi ödəyicisinin gəlirinin, sərvətinin və s.-in həcmi müvafiq qanunvericilik əsasında hesablanır və vergi orqanı tərəfindən cəlb olunur. Birbaşa vergilərə fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, mədən vergisi, torpaq vergisi, əmlak vergisi, sadələşdirilmiş vergi və s. daxildir. Birbaşa vergiləri də öz növbəsində aşağıdakı iki qrupa ayırmaq olar: birbaşa real vergilər; birbaşa şəxsi vergilər. Birbaşa real vergilər vergi ödəyicilərinin maliyyə vəziyyətindən asılı olmayaraq əmlakın, məhsulların və ya fəaliyyətin ayrı-ayrı növlərinə

görə ödənilir. Bu zaman vergi ödəyicisinin ödəniş qabiliyyətli olub-olmaması nəzərə alınmır. Birbaşa real vergilərə misal olaraq torpaq vergisini, əmlak vergisini və s. göstəmək olar. Birbaşa şəxsi vergilər isə həqiqi əldə edilmiş gəlirdən tutulur və vergi ödəyicisinin faktiki ödəniş qabiliyyətini əks etdirir. Birbaşa şəxsi vergilərə misal olaraq fiziki şəxslərin gəlir vergisini, hüquqi şəxslərin mənfəət vergisini və s. göstərmək olar.

BİRDƏFƏLİK RÜSUM – xidmətin verilməsindən, faydadan müvəqqəti yararlanmaya görə ödənilən birdəfəlik ödəmə. Məsələn, Azərbaycan Respublikasında bazarlarda, yarmarkalarda və xüsusi olaraq satış üçün ayrılmış digər yerlərdə malların, məmulatların və kənd təsərrüfatı məhsullarının satışını həyata keçirən fiziki şəxslər tərəfindən ödənilirdi.

BİRGƏ FƏALİYYƏT – elə müqaviləli razılaşmadır ki, onun vasitəsilə iki və ya daha çox tərəf birgə nəzarət edilən iqtisadi fəaliyyəti həyata keçirir.

BİRGƏ FƏALİYYƏTDƏN GƏLİR – müqavilə razılaşması əsasında həyata keçirilən, iki və ya daha çox tərəf birgə nəzarətlə birgə fəaliyyətdən əldə olunan gəlirlərdən həmin fəaliyyətlə bağlı xərcləri çıxmaqla əldə etdikləri birgə gəliri.

BİRJA – eyni xarakterli malların təşkilati, daim fəaliyyət göstərən topdansatış bazarı. Təqdim olunan malların xarakterindən asılı olaraq birjaların aşağıdakı növləri vardır: fond birjası, əmtəə birjası, valyuta birjası və s.

BİRJA VERGİSİ – bəzi dövlətlərdə fond birjasında qiymətli kağızların dövriyyəsinə tətbiq olunan vergi növüdür.

BİRJADA SÖVDƏLƏŞMƏYƏ GÖRƏ YIĞIM – broker komissiyaları da daxil olmaqla, birjada əqdin həyata keçirilməsi üçün çəkilən bütün xərclərin məcmusudur. Adətən, yığım sövdələşmənin məbləğinin müəyyən faizi nisbətində hesablanır.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ NÜMUNƏVİ VERGİ KONVENSİYASI – inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında ikiqat vergitutmanın aradan qaldırılması haqqında 1980-ci ildə tövsiyə edilmiş Model Konvensiya. Bu konvensiyanın əsas məqsədi ölkələr arasında gəlirlərin müxtəlif növlərinin paylanması barədə razılaşmalara imkan yaratmaqla ikiqat vergitutmanı aradan qaldırmaqdır.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ VERGİ MƏSƏLƏLƏRİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ ÜZRƏ EKSPERTLƏR KOMİTƏSİ – BMT-nin vergi məsələlərində beynəlxalq əməkdaşlıq məsələləri üzrə Ekspertlər Komitəsi BMT-nin İqtisadi və Sosial Şurasının bir qurumu olub BMT-nin ikiqat vergitutmanın aradan qaldırılması haqqında Model Vergi Konvensiyası və İnkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında ikitərəfli vergi sazişlərinin aparılmasına dair Təlimatın daim yenilənməsi və

onlarla bağlı araşdırma və müzakirələrin aparılmasına məsul olan orqandır. Bu qurum BMT-yə üzv ölkələrinin vergi orqanları arasında beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi üçün dialoqun aparılması üçün forum rolunu oynayır. Komitənin iclasları ildə bir dəfə keçirilir. Komitənin mənzil-qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşir.

BİTİŞİK ZONA – sahilyanı dövlətin dəniz ərazisi xaricində yerləşmiş ona bitişik olan və dəniz ərazisinin eninin ölçüldüyü başlanğıc xəttdən 24 dəniz mili məsafəsində xarici sərhədi olan dəniz zonasıdır. RF sahilinə əks sahili olan və ya qarışıq sahili olan dövlətlər arasında bitişik zonanın delimitasiyası beynəlxalq hüququn və RF-nin beynəlxalq müqavilələrinin ümumi qəbul edilmiş prinsiplərinə və normalarına uyğun olaraq həyata keçirilir. Bitişik zona aşağıdakı məqsədlər üçün zəruri hesab edilir:

- sahilyanı dövlətin ərazisi və ya ərazi dənizi hədlərində gömrük, maliyyə, immiqrasiya və ya sanitar qaydalarının pozulmasının qarşısını almaq üçün;

- sahilyanı dövlətin ərazisində və ya ərazi dənizi hədlərində müvafiq qanunların və qaydaların pozulmasına görə cəzalandırmaq üçün.

RF bitişik zonada, yuxarıda göstərilən qanun pozuntularının qarşısının alınması və təqsirkarların tutulması üçün təqib, dayandırma, müayinə və qanun pozuntusu törədən bütün xarici gəmilərin (hərbi gəmilər və qeyri-kommersiya məqsədləri üçün istismar edilən digər dövlət gəmiləri istisna olunmaqla) tutulması daxil olmaqla RF-nin qanunvericiliyinə və beynəlxalq hüququn normalarına uyğun olaraq lazım olan tədbirləri görür.

BİYAR – orta əsrlərdə kəndlinin feodal və ya dövlət üçün işləməsi. Məsələn, Səfəvilər dövründə bütün iş qabiliyyəti olan ailə üzvləri 2 gündən 6 günə qədər biyara getməli idilər. Biyar Çində və Hindistanda da geniş tətbiq edilirdi, kəndlilər yol çəkilməsində, qalaların tikintisində, kanalların qazılmasında ödənişsiz işləyirdilər.

BİZNES – qanunla nəzərdə tutulmuş formada mülkiyyətdən və qeyri-maddi imkanlardan istifadə etməklə müştəri üçün əmtəə satışı, xidmət göstərilməsi, iş görülməsi ilə məşğul olan müstəqil fəaliyyət növüdür. Əsas məqsəd kimi gəlir əldə etmək və biznes sahiblərinin maddi rifahının yüksəldilməsi göstərilə bilər. Biznes fəaliyyəti fərdi qaydada və ya hüquqi şəxs yaratmaqla (məhdud məsuliyyətli cəmiyyət, açıq/qapalı səhmdar cəmiyyət ivə s.) aparıla bilər.

BİZNES MÜHİTİ – əsasən biznesin nəzarəti və təsiri hüdudlarından kənarda olan, həm müsbət, həm də mənfi təsir göstərə bilən siyasi, iqtisadi, sosial və texnoloji qüvvələrin kompleksidir.

BİZNES VERGİTUTMASININ APARILMASINA DAİR DAVRANIŞ MƏCƏLLƏSİ – Avropa Birliyi ölkələrinin vergitutma rəqabətinin birlikdaxili bazarın normal fəaliyyətinə mənfi təsirin qarşısını almaq məqsədilə 1997-ci ildə Avropa Birliyi şurası tərəfindən qəbul edilmiş normativ sənəddir. Məcəlləyə əsasən, Avropa

Birliyinə üzv ölkələr vergitutma sahəsindəki fəaliyyətlərini bir-birilərilə əlaqələndirməli, şirkətlərarası rəqabət şəraitlərinə təsir göstərməmək məqsədilə güzəştli vergitutmanı və ya vergidən tam azadolmanı nəzərdə tutan qanunvericiliyə dəyişikliklər etməməli, eyni zamanda, vergidən yayınma hallarının qarşısının alınması məqsədilə üzv ölkələrlə əməkdaşlıq qurmalıdır.

BONİFİKASİYA – əmtəənin və xidmətin ölkədən ixracı zamanı daxili bazarda ona hesablanan vergilərin geri ödənilməsi, qaytarılması. Bu proses dünya bazarında həmin əmtəə və ya xidmətin rəqabət qabiliyyətinin artırılması məqsədinə xidmət edir.

BONUS – faydalı qazıntıları şirkətlərə istismara verdiyi üçün həmin ehtiyatların üzərində mülkiyyət hüququnu saxlayan dövlətə buna görə ödənilən vəsait. Latın dilində "bonus" – mükafat deməkdir. Bonus hasilatın pay bölgüsü sazişlərinin imzalanması və ya icrası ilə bağlı hökumətə ödənilən mükafatdır. Bonuslar adətən mərhələlərlə ödənilir. Onun bir hissəsi layihənin əvvəlində, digər hissəsi isə layihədə müəyyən mərhələlərə çatdıqca ödənilir. Adətən, hasilatın pay bölgüsü tipli müqavilələrdə bonuslar müqaviləyə daxil edilmir. Çünki onun daxil edilməsi halında bonusun hasilat başladıqdan sonra kompensasiyası məsələsi qaldırıla bilər.

BORC ÖHDƏLİYİ – müəyyən edilmiş müddətdə ödənilməli olan maliyyə və kreditor borclarından ibarət olur, yəni müvafiq olaraq təşkilatın hesabına daxil olmalı vəsait və kreditor qarşısında maliyyə öhdəliyi.

BORC VƏSAİTLƏRİNİN ALINMASINDA FAİZLƏRƏ QƏNAƏT ŞƏKLİNDƏ MADDİ FAYDA – Şəxslər tərəfindən alınmış borclar üzrə hesablanmış borc faizlərinin güzəşt edilməsi nəticəsində əldə edilmiş gəlir (maddi fayda).

BORCUN VƏ ÖDƏNMİŞ SƏHMDAR KAPİTALININ NİSBƏTİ – Hüquqi şəxsin ümumi borc öhdəliklərinin onun səhmdarlarının nizamnamə kapitalındakı paylarına nisbətdə faizlə ifadəsi.

BÖLGÜ VERGİSİ – bəzi ölkələrdə müxtəlif səviyyəli orqanlar arasında bölüşdürülən vergi daxilolmaları. Bu vergi daxilolmaları hakimiyyətin müxtəlif səviyyəli dövlət orqanlarının arasında bölünür. Məsələn, federal və regional dövlət orqanlarının arasında.

BÖLÜŞDÜRÜLMƏMİŞ MƏNFƏƏTƏ VERGİ – ayrı-ayrı vergi ödəyicisi olan səhmdar şirkətlərinin (təşkilatların) divident çıxılmadan mənfəətindən tutulan vergi. Bir sıra ölkələrdə fərdi sahibkarların (istəyi ilə) müəssisələrinin mənfəətinə vergi qoyulması rejiminin tətbiqinə yol verilir. Bu halda müəssisənin bütün mənfəətinin birbaşa vergiyə cəlb edilməsi çoxpilləli sistemə keçir: əvvəlcə müəssisənin mənfəəti mənfəət vergisinə cəlb olunur, sonra dividentlərə bölünən hissəsi "ödəmə mənbəyində" xüsusi vergiyə cəlb olunur və sonra səhmdarların alınmış ümumi gəlirinin tərkibində dividentlər gəlir vergisinə cəlb olunur. Beləliklə, mənfəətin (onun bölgüsünə qədər) mütərəqqi dərəcə ilə vergiyə cəlb olunması möhləti təmin olunur, bu zaman müəs-

sisənin mənfəətin vergiyə cəlb olunarkən, bir qayda olaraq mütənasib vergi dərəcəsi tətbiq olunur. Bölüşdürülməmiş mənfəətin vergiyə cəlb edilməsi bir sıra ölkələrdə ya əlavə vergi şəklində həyata keçirilir, ya da mənfəətin bölüşdürülən hissəsi vergiyə güzəşt şəklində cəlb olunur. Bölüşdürülməmiş mənfəətin əlavə vergiyə cəlb olunması sistemi Fransa, Avstriya, AFR, İtaliya, Yaponiya, ABŞ, Braziliya, Yunanıstan, Hindistan, İrlandiya, Yeni Zelandiya, Filippin və bir sıra başqa ölkələrdə istifadə olunur.

BROKER – birjada yeri olan, əmtəələrin istehsalçılardan istehlakçılara çatdırılmasında iştirak edən vasitəçi. Başqa sözlə, bu, fond və əmtəə birjalarında, valyuta, sığorta və gəmi kirayə etmə müqavilələri, əmtəə, mal, qiymətli kağızlar, valyuta və digər dəyərli şeylər satılan bazarlarda alıcılarla satıcılar arasında saziş bağlayan vasitəçi. Bu vasitəçi əmtəələrin sahibi deyil, hətta onun sərəncamında satılan mallar da olmur. Broker yalnız malları istehsalçının adından təklif edir. Broker rolunda firmalar və ayrı-ayrı şəxslər çıxış edə bilər.

BROKER FƏALİYYƏTİ – müştərinin hesabına tapşırıq və ya komisyon müqaviləsi əsasında müvəkkil və ya komisyonçu kimi fəaliyyət göstərən, həmin müştərinin mənafeyi üçün qiymətli kağızlarla alqı-satqı əqdlərinin bağlanması üzrə qiymətli kağızlar bazarında peşəkar fəaliyyət.

BRÜSSEL TARİF NOMENKLATURASI – dünya ticarətində gömrük nəzarəti və gömrük rüsumlarının tutulması məqsədləri üçün malların beynəlxalq standart təsnifatı. BTN gömrük tarifləri üzrə beynəlxalq danışıqların aparılması üçün əsas hesab olunur. Bir sıra ölkələrdə BTN gömrük məqsədləri üçün təsnifatın milli sistemidir, ölkələrin əksəriyyətində isə malların təsvirinin və kodlaşdırılmasının harmonizasiya edilmiş sistemi istifadə edilir.

BURAXILIŞ – gömrük orqanları tərəfindən mal və ya nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsindən sonra tamamilə şəxsin sərəncamına verilməsi.

BÜDCƏ – hər maliyyə ili üçün iqtisadi subyektin xərclərini və gəlirlərini əhatə edən illik maliyyə planı. Qədim normand dilində – çanta, pul kisəsi deməkdir. Burada gələcək xərclər və gəlirlər, onların detallaşdırılmış təsvir və tətbiqi öz əksini tapır. Büdcənin qanunvericilikdə hüquqi anlayışı da verilmişdir. "Büdcə sistemi haqqında" AR-in 02.07.2002-ci il tarixli 358 nömrəli Qanununun 1.1.1-ci maddəsinə əsasən, büdcə AR-in müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsi ilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir.

BÜDCƏ GƏLİRLƏRİ – dövlət büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalar. Dövlət büdcəsinin gəlirləri aşağıdakılardan ibarətdir: dövlət vergiləri; qrantlar; digər gəlirlər. Dövlət büdcəsi gəlirlərinin yığımı AR VM və digər qanunvericilik akt-

larına uyğun olaraq həyata keçirilir. Gəlirlərin məbləğinin yuxarı həddi dövlət büdcəsinin qanunla təsdiq olunmuş göstəriciləri ilə məhdudlaşmır. Qanunvericiliklə nəzərdə tutulmuş həcmdən artıq ödənilmiş vergilərin, rüsumların, digər ödənişlərin və daxilolmaların büdcədən qaytarılması dövlət büdcəsi gəlirlərinin azaldılmasına aid edilir ("Büdcə sistemi haqqında" AR 02.07.2002-ci il tarixli 358 nömrəli Qanununun 9-cu maddəsi).

BÜDCƏ XƏRCLƏRİ – dövlət və yerli özünüidarə orqanlarının vəzifə və funksiyalarının həyata keçirilməsinin maliyyə təminatına yönəldilən pul vəsaitləri. Dövlət büdcəsinin xərclərinə aşağıdakılar daxildir: 1. Cari xərclər, o cümlədən əməkhaqqı, əməkhaqqına əlavə, pensiya və başqa sosial müavinətlər və ödənişlər, malların satın alınması və başqa xidmətlər üzrə xərclər, faiz üzrə ödənişlər, qrantlar, subsidiyalar və cari köçürmələr; 2. Əsaslı xərclər, o cümlədən əsas vəsaitlərin alınması, kapital qoyuluşları və səhmlərin alınması; 3. Kreditlər üzrə borclara, faizlərə xidmət xərcləri və layihələrdə pay iştirakı ("Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının 02.07.2002-ci il tarixli 358 nömrəli Qanununun 10-cu maddəsi).

BÜDCƏ KƏSİRİ (DEFİSİT) – büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləği. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının 02.07.2002-ci il tarixli 358 nömrəli Qanununun 1.1.8-ci maddəsinə əsasən, büdcə kəsiri (defisit) – büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləğidir. Büdcə kəsirinin yaradılmasının bir neçə forması mövcuddur. Büdcə xərclərinin gəlirləri üstələməsi faktiki büdcə kəsiri adlanır. Əgər dövlət istehsalın həcminin azaldığı dövrdə iqtisadi aktivliyi və məcmu tələbi təşviq etmək (stimullaşdırmaq) istəyirsə, müxtəlif proqramların maliyyələşdirilməsi üçün büdcə xərclərini artıra və ya vergiləri azalda bilər. Bu, məqsədli şəkildə dövlət tərəfindən yaradılmış struktur büdcə kəsiri sayılır. Struktur büdcə kəsirindən fərqli olaraq, dövri büdcə kəsiri məqsədli büdcə-vergi siyasətindən asılı olmur və böhran vəziyyətində büdcə gəlirlərinin azalması, o cümlədən vergilərin yığım əmsalının aşağı düşməsi nəticəsində yaranır. Büdcə kəsirinin göstərilən formalarından başqa, daha iki forması vardır: aktiv və passiv. Aktiv büdcə kəsiri dedikdə, büdcə xərclərinin büdcə gəlirlərini üstələməsi, passiv büdcə kəsiri isə vergi dərəcələrinin azaldılması və müvafiq olaraq, yığım əmsalının aşağı düşməsi nəticəsində yaranır. Büdcə kəsirinin inflyasiya amili ilə bağlı olmasını nəzərə alaraq bir sıra alimlər real, nominal və əməliyyat büdcə kəsiri kimi kəskin formalar üzərində dayanırlar. Nominal büdcə kəsiri – dövlət büdcəsinin icrasında öz əksini tapan büdcə kəsiridir. Real büdcə kəsiri = (nominal büdcə kəsiri – dövlət borcunun maliyyələşdirilməsi üçün borc faizi) * inflyasiya. Əməliyyat büdcə kəsiri = ümumi büdcə kəsiri – faiz ödənişlərinin inflyasiya hissəsi.

BÜDCƏ NƏZARƏTİ – büdcə gəlir və xərclərinin qarşıya qoyulan

məqsədlər yönümündə realizasiyasını yoxlamaq və zəruri tədbirləri vaxtında həyata keçirməyi nəzərdə tutan tədbirlər sistemi. Beynəlxalq təcrübədə müəssisə səviyyəsində cari və gözlənilən xərcləri də əhatə edən büdcə-nəzarət bəyannamələri hər həftə dərc olunmalıdır. AR dövlət büdcəsinin icrasına nəzarəti Azərbaycan Respublikasının Milli Məclisi və onun Hesablama Palatası həyata keçirir. Dövlət büdcəsinin icrasına nəzarəti öz səlahiyyətləri daxilində AR MN həyata keçirir. Dövlət büdcəsindən maliyyələşən büdcə təşkilatlarının rəhbərləri onlara tabe olan təşkilatlarda gəlir və xərclərin müəyyən edilmiş qaydada uçotunun aparılması və vəsaitin təyinatı üzrə istifadəsinə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. Dövlət büdcəsindən maliyyələşdirilən müəssisə və təşkilatların maliyyə-təsərrüfat fəaliyyətində maliyyə qaydaları pozulduqda Azərbaycan Respublikasının Maliyyə Nazirliyi qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər həyata keçirir ("Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının 02.07.2002-ci il tarixli 358 nömrəli Qanununun 21-ci maddəsi).



Azərbaycan Respublikasının Hesablama Palatası

BÜDCƏ PROFİSİTİ (ARTIQLIĞI) – büdcə gəlirlərinin xərclərdən artıqlığı və ya büdcə gəlirlərinin xərcləri üstələməsi. Büdcə profisiti zamanı artıq qalan vəsait iqtisadi subyektin, yəni dövlətin, bələdiyyənin və s.-nin saxlancına (ehtiyat fondlarına) keçirilir. Büdcə profisiti iki formada yarana bilər. Birincisi, xərc maddələri proqnozdan aşağı səviyyədə icra olunduqda, ikincisi, büdcə gəlirləri proqnozdan yuxarı səviyyədə icra olunduqda. İkinci halda yaranmış büdcə profisiti iqtisadi subyektin maliyyə durumunda artımı ifadə edir.

"BÜDCƏ SİSTEMİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – AR-də büdcə sisteminin təşkilinin, büdcələrin tərtibi, təsdiqi, icrası və onların icrasına nəzarətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, habelə dövlət büdcəsi ilə büdcədənkənar dövlət fondlarının, yerli büdcələrin qarşılıqlı əlaqələrinin əsas prinsiplərini müəyyən edən 2 iyul 2002-ci il tarixli 358-IIQ nömrəli Qanun. Bu Qanun AR Prezidentinin 31 oktyabr 2002-ci il tarixli 809 nömrəli Fərmanı ilə tətbiq edilmişdir. Qanun preambula, 40 maddə və aşağıda sadalanan 4 fəsildən ibarətdir:

1. Ümumi müddəalar.
2. Dövlət büdcəsi.
3. Naxçıvan MR-in büdcəsinin tərtibi, təsdiqi, icrası və icrasına nəzarət.
4. Yerli büdcələrin tərtibi, təsdiqi, icrası və icrasına nəzarət.

BÜDCƏ TƏŞKİLATI – büdcə smetası əsasında fəaliyyəti tamamilə və ya qismən büdcə vəsaiti hesabına maliyyələşdirilən, hesablaşma hesabı olmayan qeyri-kommersiya təşkilatı.

BÜDCƏDƏNKƏNAR FONDLAR – qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondları.

BÜDCƏNİN VERGİ GƏLİRLƏRİ – vergiyə cəlb etmə qaydasında büdcəni formalaşdıran gəlirlər növü. AR dövlət büdcəsində vergi gəlirlərinin payı 65-70 faiz təşkil edir.

BÜDCƏNİN VERGİ XƏRCLƏRİ – qanunla tətbiq olunan güzəştlər nəticəsində büdcəyə daxil olmayan vergi məbləğini əks etdirən xərclər. 1960-cı illərin ikinci yarısından etibarən bir sıra inkişaf etmiş ölkələrdə bu xərclərin məbləği müəyyən təhlil üsulu ilə təyin edilir. "Vergi xərcləri" ifadəsi daha çox ABŞ-da yayılmışdır (1967-ci ildən). ABŞ-ın federal büdcəsində vergi xərcləri vergi daxilolmalarının azalması formasında əks olunur; xüsusi ayrılmış "vergi xərcləri büdcəsi"nə keçirilir. ABŞ Konqresinin büdcə aktları "vergi xərclərini" onların vergitutmadan azad edilməsi, ümumi gəlirin azaldılması, xüsusi vergi kreditinin yaradılması, güzəştli vergi dərəcələrinin tətbiqi və ya vergi öhdəliyinin aşağı salınmasını nəzərdə tutan federal vergi qanunlarının əsasında yaranmış gəlir azalmaları kimi müəyyən edir. Almaniyada 1966-cı ildən, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında, Kanadada 1979-cu ildən, Fransada 1980-ci ildən istifadə olunur.

Dövlət xərcləri (büdcə) planlarında "birbaşa vergi endirimləri və güzəştləri" (Direct Tax Allowances and Relieves) və ya "xüsusi vergi tədbirləri" kimi əks oluna bilər (Special Taxation Measures).

BYUKENEN CEYMS MAKCİL (1919-2013) – 1919-cu ildə ABŞ-ın Tennessi ştatında Marfrisboro şəhərində anadan olmuşdur. Tennessi universitetindən sonra təhsilini Çikaqo Universitetində davam etdirmiş və 1948-ci ildə burada iqtisadiyyat üzrə doktor elmi dərəcəsi almışdır. 1950-ci ildə Tennessi və Virciniya universitetlərinin professoru olmuşdur. C.Byukenen yeni siyasi iqtisad məktəbinin yaradıcılarından biri olmuşdur. Onun əsas tədqiqatları "ictimai seçim" nəzəriyyəsinin, büdcə defisiti şəraitində demokratiya problemlərinin, qərar qəbuletmənin siyasi-hüquqi əsaslarının işlənməsinə həsr edilmişdir. 1986-cı ildə "İqtisadi və siyasi qərar qəbuletmədə sazişçilik və konstitusion təməlli nəzəriyyənin əsaslarının işlənməsi sahəsində tədqiqatlarına görə" Nobel mükafatına layiq görülmüşdür.



C

CARİ HESAB – müştərinin adına açılır və pul vəsaitlərinin saxlanması və nağdsız hesablaşmalar aparmaq üçün, pul köçürmələrinin alınması və göndərilməsi üçün istifadə. Əməliyyatları yalnız onun sahibi və ya hesab sahibinin göstərdiyi şəxslər apara bilər.

CARİ VALYUTA ƏMƏLİYYATLARI – qanunvericiliyə uyğun olaraq cari valyuta əməliyyatlarına aşağıdakı əməliyyatlar aiddir: malların, işlərin və xidmətlərin ixracı və idxalı üzrə hesablaşmaların, eləcə də ixrac-idxal əməliyyatlarının 180 gündən artıq olmayan müddətə kreditləşdirilməsi ilə əlaqədar hesablaşmaların həyata keçirilməsi üçün xarici valyutanın ölkəyə və ölkədən köçürülməsi; 180 gündən artıq olmayan müddətə maliyyə kreditlərinin alınması və verilməsi; əmanətlər, investisiyalar, kreditlər və kapitalın hərəkəti ilə bağlı başqa əməliyyatlar üzrə faizlərin, dividentlərin və digər gəlirlərin ölkəyə və ölkədən köçürülməsi; ölkəyə və ölkədən qeyri-ticarət xarakterli köçürmələr, o cümlədən əməkhaqqı, təqaüd, aliment və miras üzrə məbləğlərin köçürülməsi, eləcə də digər bu kimi əməliyyatlar.

CARİ VERGİ ÖDƏMƏLƏRİ – hesabat ili ərzində ödənilən və il başa çatdıqdan sonra vergi hesablamaları ilə haqq-hesab edilən vergi ödənişləri. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Hər ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin 1/4 hissəsini təşkil edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini bu rübdəki gəlirinin həcmini onun keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyənləşdirə bilər. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirib hər il aprel ayının 15-dək bu barədə vergi orqanına məlumat verir. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyicilərinin cari vergi ödəmələri aşağıda göstərilən qaydada həyata keçirilir:

Əvvəllər fəaliyyəti olmayan vergi ödəyicilərinin mənfəət vergisi və ya gəlir vergisi üzrə cari vergi ödəmələri təqvim ili ərzində rüblər üzrə artan yekunla müvafiq vergi dərəcələrinə əsasən hesablanır. Cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalıdır. Əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri

rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidirlər. Cari vergi ödəmələri müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün əvvəllər fəaliyyəti olmayan vergi ödəyicisindən ödənilməmiş cari vergi ödəmələrinə görə nəzərdə tutulmuş qaydada faiz tutulur. Müəyyən edilmiş faiz aparılmış vergi yoxlaması nəticəsində aşkar edilmiş vaxtında ödənilməmiş vergilər üzrə cari vergi ödəmələrinə münasibətdə bütün ötmüş müddətə ancaq bir ildən çox olmamaq şərti ilə tətbiq edilir. Cari vergi ödəmələri vergi ili üçün əvvəllər fəaliyyəti olmayan vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Sadələşdirilmiş verginin ödəyiciləri ƏDV-nin məqsədləri üçün qeydiyyata alındıqdan sonra cari vergi ödəmələrinin məbləği müəyyən edilir. Əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri vergini əlaqəli məlumatlar əsasında hesablayır və vergi ödəyicisinə müvafiq bildiriş göndərir.

Cari vergi ödəmələri hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir və bu zaman hesablanmış cari vergi məbləği hesabat üzrə vergi məbləğindən çox olduğu halda artıq hesablanmış cari vergi və ona uyğun faiz məbləğləri azaldılır.

CENEVRƏ NOMENKLATURASI – gömrük nəzarəti və gömrük rüsumları qoyulması məqsədləri üçün malların təsnifatı nomenklaturası. 1931-ci ildə qəbul olunmuşdur və Brüssel tarif nomenklaturası və Standart beynəlxalq vergi təsnifatı üçün əsas kimi qəbul olunur.

CƏRİMƏ – qanunla müəyyən edilmiş hallarda və qaydada tətbiq edilən pul tələbi, maddi təsir tədbiri. Cərimə (cinayət hüququnda) AR Cinayət Məcəlləsi ilə müəyyən edilmiş hallarda və məbləğdə məhkəmə tərəfindən təyin edilən pul tənbehidir.

CIDIRDA TOTALİZATOR OYUNUNDA İŞTİRAKÇIDAN YIĞIM – cıdır oyununda müəyyən nəticənin baş verəcəyinə dair totalizatorda qoyulmuş müəyyən məbləğin məhdudlaşdırımış faiz nisbəti şəklində tətbiq olunan və həmin qoyuluşu etmiş şəxs tərəfindən yerli büdcəyə ödənilən yığım.

CIDIRDA YARIŞ İŞTİRAKÇISINDAN YIĞIM – cıdır yarışlarında iştirak edən atların sahibləri tərəfindən ödənilən, həddi cıdır yerləşən ərazinin səlahiyyətli yerli icra hakimiyyəti orqanları tərəfindən müəyyənləşdirilən yığım.

CİDDİ UÇOT BLANKI – qanunvericiliklə nəzərdə tutulmuş qaydada və hallarda aparılan hesablaşmaların əks etdirildiyi və müvafiq qanunvericilik aktı ilə təsdiq edilmiş sənəd forması.

CİNAYƏT – AR Cinayət Məcəlləsi ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi.

CİNAYƏT ƏMƏLİ – AR Cinayət Məcəlləsi ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi.

CİNAYƏT İŞİ ÜZRƏ İBTİDAİ İSTİNTAQ – ibtidai araşdırmanın növlərindən biri olub məhkəməyədək aparılan icraat.

CİNAYƏT MƏCƏLLƏSİ – bax: *AR CM.*

CİNAYƏT PROSESİNİN İŞTİRAKÇILARI – təhqiqatçı, müstəntiq, prokuror, habelə zərər çəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiaçı, onların qanuni nümayəndələri və nümayəndələri, şübhəli və ya təqsirləndirilən şəxs, onların qanuni nümayəndələri, müdafiəçi, mülki cavabdeh, onun qanuni nümayəndəsi və ya nümayəndəsi; tərəflər, üçüncü şəxslər, ərizəçilər, maraqlı şəxslər, pozulmuş və ya mübahisə edilən hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququ olan ictimai təşkilatlar, dövlət orqanları və digər orqanlar işdə iştirak edən şəxslərdirlər; prosesdə həm də şahidlər, ekspertlər, mütəxəssislər, tərcüməçilər, nümayəndələr və vəkillər iştirak edə bilərlər.

CİNAYƏT YOLU İLƏ ALINAN GƏLİRLƏR – cinayət hüquq pozuntusunun törədilməsi nəticəsində əldə edilən hər hansı iqtisadi mənfəət başa düşülür. Bu mənfəət hər bir növ əmlak, maddi və ya qeyri-maddi, daşınar və ya daşınmaz əmlak, habelə bu cür əmlaka hüquq verən hüquqi akt və ya sənədi özünə daxil edə bilər.

CİNAYƏT YOLU İLƏ ALINAN GƏLİRLƏRİN LEQALLAŞDIRILMASI – müəyyən cinayət əməli törətməklə əldə edilən gəlirlərin aşkara çıxarılması prosesi. 1990-cı il noyabrın 8-də Strasburq şəhərində AŞ-nin "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında" Konvensiyası imzalanmışdır. Bu Konvensiyada göstərilmişdir ki, geniş miqyaslı beynəlxalq xarakter alan cinayətkarlığın təhlükəli formalarına qarşı mübarizədə səmərəli və müasir üsulların beynəlxalq miqyasda istifadə olunması tələbatını nəzərə alaraq, bu məqsədə nail olmaq üçün səmərəli beynəlxalq əməkdaşlıq sisteminin yaradılması zərurətini nəzərə alaraq, tədbirlər görmək barədə razılığa gəlmişlər. AR 1 mart 2003-cü il tarixdə 420-IIQ nömrəli AR Qanunu ilə bu Konvensiyaya qoşulmuşdur.

CİZYƏ – Ərəb Xilafətində tətbiq edilən vergi. "Cizyə" ərəb sözüdür, ödəmək, təmin etmək, tələb etmək,



Ərəb Xilafəti dövründə Azərbaycanda zərb edilmiş gümüş sikkələr

cərimə almaq və s. kimi çox müxtəlif mənaları var. Qeyri-müsəlmanlardan, həm də yalnız kişilərdən alınırdı. Cizyə hər bir şəxsin maddi durumuna görə təyin olunurdu, bu vergini ödəyənlərin isə bütün hüquqları qorunurdu. İslamın ilk dövründə tacirlər və sənətkarlar daha tez müsəlmanlığı qəbul edirdilər ki, cizyə ödəməsinlər.

Ç

ÇEK – qiymətli kağız olub, ifadə etdiyi pul məbləğinin çek sahibinə ödənilməsi barədə çek verənin banka verdiyi və heç nə ilə şərtləndirilməyən yazılı sərəncamı.

Çekdə aşağıdakı rekvizitlər göstərilməlidir (AR MM, maddə 1049.2):

- sənədin mətninə daxil edilmiş "çek" adı;
- müəyyən pul məbləğini ödəmək barədə sadə və heç nə ilə şərtləşdirilməyən tapşırıq;
- ödənişi icra etməli bankın adı;
- ödəniş yerinin göstərilməsi;
- çekin tərtib olunduğu tarixin və yerin göstərilməsi;
- çek verənin imzası.

Çeklərə hesablaşma çeki, bank çeki, pul çeki və yol çeki aiddir. Hesablaşma çeki hesablardan nağdsız qaydada hesablaşmaların aparılmasını nəzərdə tutan çekdir. Bank çeki bir bankın başqa banka banklararası hesablaşmaların aparılması üçün təqdim etdiyi çekdir. Pul çeki müştərinin bankda olan hesabından nağd pul vəsaitini almaq üçün yazılı sərəncamdan ibarət olan çekdir. Yol çeki bir məntəqədə verilmiş çekdə imza nümunəsi göstərilən çek sahibinə, çekdə yazılmış məbləği ödəməyi üzərinə götürən təşkilatın öhdəliyi olub, digər məntəqədə nağdlaşdırılan çekdir. Yol çeklərinin ödənilməsi sahibinin imzası əsasında çekin emitenti, onun filialı və yaxud emitentin göstərdiyi digər təşkilat tərəfindən həyata keçirilir.

Çek yalnız o hallarda verilə bilər ki, çek verənin bankdakı hesablarında vəsaiti və həmin vəsaitə dair çeklər vasitəsi ilə sərəncam vermək hüququ olsun. Çekin ödənilməsi üçün çek verənin vəsaiti və ya ona verilmiş kredit kifayət etmədikdə bankın çeki ödəməkdən imtina etmək hüququ vardır. Bank təmin olunmamış məbləği ödədikdə isə çek sahibinin hüquqları ona keçir.

Çek müəyyən şəxsin adına və təqdim edənə (adsız) yazıla bilər.

Çek təqdim olunduqda ödənilməlidir. Hər cür başqa göstəriş etibarsız sayılır. Tərtib edildiyi ölkədə ödənilməli olan çek bir ay müddətində ödənişə təqdim olunmalıdır. Verildiyi ölkədə deyil, başqa ölkədə ödənilməli olan çek, verilmə yeri ilə ödəniş yeri eyni qitədədirsə, iki ay müddətində, müxtəlif qitələrdədirsə, üç ay müddətində ödənişə təqdim edilməlidir. MDB-nin üzvü olan bir dövlətin ərazisində verilən və MDB-nin üzvü olan digər dövlətin ərazisində ödənilməli olan çeklər eyni qitədə verilən və ödənilməli olan çeklər sayılır.

Çek verən, habelə hər hansı çek sahibi çekin üz tərəfində "hesablaşma"



Pul çeki

qeydi və ya eyni mənalı başqa qeyd yazmaqla, çekin nağd pulla ödənilməsini qadağan edə bilər. Bu halda ödəyici çekin ödənişini yalnız hesabdan hesaba keçirmə yolu ilə (hesablaşma, köçürmə, nağdsız hesablaşmalar) icra edə bilər.

ÇIXARILMIŞ FAYDALI QAZINTI – faydalı qazıntıların vergiyə cəlb edilməsi məqsədilə istifadə edilən termin. Bu məqsədlə çıxarılmış faydalı qazıntılar vergitutma obyekti kimi adlandırılır.

ÇIXARILMIŞ FAYDALI QAZINTILARIN DƏYƏRİ – mədən vergisinin hesablanması üçün istifadə olunan anlayış. Mədən vergisi üzrə vergitutma obyekti hesab olunan faydalı qazıntıların dəyəri çıxarılmış faydalı qazıntıların dəyəri adlanır.

ÇIXARILMIŞ FAYDALI QAZINTININ MİQDARI – mədən vergisi üzrə vergitutma obyekti hesab olunan faydalı qazıntıların miqdarı.

ÇIXILMAYAN MƏSRƏFLƏR – bir sıra ölkələrin vergi qanunvericiliyində istifadə olunan termindir və vergi ödəyicisinin elə xərcləridir ki, onun gəlir vergisi üzrə vergitutma bazasından çıxılmır.

"ÇİRKLİ" PULLARIN LEQALLAŞDIRILMASI (YUYULMASI) – cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması prosesi. Bu zaman aparılan maliyyə əməliyyatları nəticəsində cinayət yolu ilə əldə edilmiş vəsaitlər qanuni kimi görünür; vəsaitlər "gizli iqtisadiyyat"dan rəsmi iqtisadiyyata keçir və ondan sonrakı mərhələdə açıq şəkildə istifadə edilir. "Çirkli" pulların yuyulması adətən pul vəsaitlərini nağd puldan qeyri-nağd pula və əksinə, qeyri-nağd puldan nağd pula, habelə qeyri-nağd puldan qeyri-nağd pula çevirməklə aparılır. Müəyyən şirkətlərin bir-birinə çoxsaylı pul göndərmələri ödənişin ilk mənbəyini itirməklə və vergidən yayınmaqla həyata keçirilir. Nəticədə qanunsuz biznesdə əldə edilmiş pul tamamilə qanuni və gəlirli layihələrə qoyulur.

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması AR-də cinayət əməli hesab edilir (AR CM, maddə 193.1). 2009-cu il 10 fevral tarixli 767-IIIQ nömrəli AR Qanunu da bu cinayət əməlinə qarşı mübarizəyə təkan vermişdir. Bu Qanun cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı hüquqpozmaların aşkar edilməsi və qarşısının alınması üçün hüquqi mexanizmin yaradılmasına, belə pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuların maliyyələşdirilməsi məqsədi ilə maliyyə sistemindən istifadə olunması imkanlarını istisna edən şəraitin yaradılmasına, bu sahədə dövlətin və cəmiyyətin maraqlarının qorunmasına yönəlmişdir.

ÇOXQAT VERGİ QOYULUŞU – eyni vergitutma obyektinin bir neçə dəfə bir və müxtəlif növ vergiyə cəlb olunması və o cümlədən ikiqat vergiyə cəlb olunmanın müxtəlif növləri. Adətən, dolayı vergilərin çoxqat vergi tutulması gəlir vergisi və əmlak vergiləri üzrə çoxqat vergi tutulmadan fərqləndirilir. AR-də çoxqat

vergi tutulması gömrük ərazisinə gətirilən eyni malın gömrük rüsumu və ƏDV (yaxud gömrük rüsumu, aksiz və ƏDV) olmaqla ardıcıl vergi tutulması nəticəsində yaranır. Bundan başqa, RF-də bir sıra malların satışına eyni zamanda ƏDV və satışdan vergi (aksizli malların satışında aksizlər, ƏDV və satışdan vergi) olmaqla vergitutma tətbiq edilir. RF ərazisində reallaşdırılan eyni mal bir dəfəyə dörd vergiyə cəlb edilə bilər: gömrük rüsumları, aksizlər, ƏDV, satışdan vergi. Bundan başqa, göstərilən vergilərə əlavə olaraq ayrı-ayrı malların alqı-satqısı üzrə müqavilələrin qeydiyyatı zamanı dövlət rüsumu və müxtəlif yığımlar tutula bilər. Başqa sözlə, hər bir sonuncu dolayı vergi yalnız malın dəyərindən deyil, həmçinin əvvəlki ödənilmiş və ya tutulmuş dolayı vergidən tutulur və bu zaman "vergidən tutulan vergi" yaranır. Dolayı vergilərlə çoxqat vergitutma əksər hallarda malların rəqabətə davamlılığının azalmasına gətirir və müvafiq olaraq, istehsalçıları vergilərdən yayınma üçün qeyri-qanuni sxemlərin axtarışına məcbur edir.

Gəlirlərin (əmlakların) çoxqat vergitutma mərkəzi ərazi, yerli hakimiyyət və özünüidarə orqanları tərəfindən sərbəst müəyyən edilən gəlirlərə (əmlaka) vergilər olduğu halda yaranır. Həmçinin gəlirdən aşağıdakı mərhələlərdə ardıcıllıqla vergi tutulduqda çoxqat vergitutmaya şərait yaranır:

- şirkətin gəliri mənfəət vergisinə cəlb olunur;
- ödənilən divident ödəmə mənbəyində vergiyə cəlb olunur;
- divident şəklində alınmış gəlir şirkətin səhmdarı olan fiziki şəxsin gəliri olaraq vergiyə cəlb olunur.

Gəlirlərin və əmlakların çoxqat vergitutulmasının aradan qaldırılması və ya azaldılması, adətən, vergi ödəyicisinə mənbədə tutulmuş verginin hesabına aid edilməsi hüququnun verilməsi yolu ilə əldə edilir. Belə hüquq milli vergi qanunvericiliyinin normaları ilə və ya ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərlə müəyyən edilə bilər. Gəlirlərə çoxqat vergi qoyulması daha çox iqtisadiyyatı az inkişaf etmiş ölkələr və keçid iqtisadiyyatı olan ölkələrdə tətbiq edilir.

ÇOXMİLLİ MÜƏSSİSƏ – birdən çox ölkədə istehsal fəaliyyəti ilə məşğul olan və ya xidmət göstərən müəssisə. Beynəlxalq Əmək Təşkilatı çoxmilli müəssisənin izahını belə verir: baş qərargahının yerləşdiyi və gündəlik idarəetmə qərarlarının qəbul edildiyi ölkədə qeydiyyatdan keçən və bir sıra digər ölkələrdə nümayəndəlikləri olan müəssisə çoxmilli müəssisə hesab olunur.

D

DAXİLİ AUDİT – təsərrüfat subyektinin fəaliyyətinin inkişafına və səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş risklərin idarə olunması, nəzarət və idarəetmənin səmərəliliyinin qiymətləndirilməsi və inkişafına sistemli yanaşmaqla, təsərrüfat subyektinə öz məqsədlərinə nail olmaqda köməklik edən obyektiv, təminatverici və məsləhətverici fəaliyyət göstərən orqan.

Əsasən, aşağı idarəetmə strukturlarının fəaliyyəti barədə informasiya toplayır və menecerlərin hesabatlarının düzgünlüyünü yoxlayır. Bu, başlıca olaraq, ehtiyatların itkisinin qarşısını almaq və müəssisə daxilində zəruri dəyişikliklər aparmaq üçün istifadə olunur.

"DAXİLİ AUDİT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – AR-də təsərrüfat subyektlərinin idarə edilməsinin səmərəliliyinin artırılması məqsədi ilə daxili audit xidmətinin təşkilinin və həyata keçirilməsinin hüquqi əsaslarını, daxili auditorların hüquq və vəzifələrini müəyyən edən 22 may 2007-ci il tarixli 332-IIIQ nömrəli Qanun.

Aşağıda sadalanan 5 fəsildən və 15 maddədən ibarətdir:

1. Ümumi müddəalar.
2. Daxili auditin təşkili.
3. Daxili auditor.
4. Daxili audit fəaliyyətinin dövlət tənzimlənməsi və əlaqələndirilməsi.
5. Yekun müddəalar.

DAXİLİ BAZARDA MÜHÜM OLAN İSTEHLAK MALLARININ VƏ DİGƏR MALLARIN ÇATIŞMAZLIĞI – 12 aydan az olmayan müddətdə malların istehsal həcminin belə malların daxili bazarda istehlakının 20%-dən daha az təşkil etməsi nəticəsində daxili bazarda qiymətlərin əhəmiyyətli yüksəlməsinə doğru aparan vəziyyət.

DAXİLİ NƏZARƏT – müəssisə və təşkilatlarda səlahiyyətlərdən suiistifadə və daxili qaydaların pozulması hallarını minimuma endirmək məqsədilə həyata keçirilən tədbirlər. Pul vəsaitləri və digər əmlak üzrə əməliyyat aparan təşkilatlarda müəyyən olunmuş qaydada nəzarət təşkil edilir. Məsələn, banklarda daxili nəzarət sistemi struktur bölmələrin həyata keçirdiyi əməliyyatları təhlil edir, risqin azaldılması üçün tövsiyələrini verir, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" AR Qanununa uyğun olaraq, əməliyyatların aparılması zamanı hüquq pozuntuların aşkar etməklə təhlükəli vəziyyətin yaranmasının qarşısını alır.

AR vergilər nazirinin 24.08.2009-cu il tarixli Əmri ilə AR dövlət vergi orqanlarında daxili nəzarət sisteminin təşkili Qaydaları təsdiq edilmişdir. Bu Qaydalar VN-in mərkəzi aparatında və digər struktur bölmələrində intizam qaydalarına özünənəzarət prinsiplərinə əsaslanan daxili nəzarət sistemini

tənzimləyir və onun tətbiqində əsas məqsəd vergi əməkdaşları tərəfindən intizam pozuntularına yol verilmə riskinin azaldılmasına, müvafiq struktur vahidi tərəfindən keçirilən daxili auditlər zamanı əmək funksiyaları pozuntusunun aşkar edilməsini istisna edən şəraitin yaradılmasına nail olmaqdır.

Daxili nəzarət sistemi VN-in mərkəzi aparatında və digər struktur bölmələrində strukturdaxili və strukturdankənar tətbiq oluna bilər; strukturdaxili nəzarət sistemi xidməti vəzifələrini bilavasitə iş yerində həyata keçirən əməkdaşların hərəkətlərinə (hərəkətsizliyinə), strukturdankənar nəzarət sistemi isə xidməti vəzifələrini iş yerini müvəqqəti tərk etməklə həyata keçirən əməkdaşların hərəkətlərinə (hərəkətsizliyinə) tətbiq edilir.

DAİMİ NÜMAYƏNDƏLİK – AR-də qeyri-rezident hüquqi şəxsin və ya qeyri-rezident fiziki şəxsin daimi nümayəndəliyi həmin şəxslərin istənilən 12 ay ərzində AR-də üst-üstə 90 gündən az olmayaraq bilavasitə və ya müvəkkil edilmiş şəxs vasitəsilə tam və ya qismən sahibkarlıq fəaliyyətini həyata keçirdiyi yer. Daimi nümayəndəlik dedikdə, əsasən, aşağıdakılar əhatə olunur:

- idarəetmə yeri;
- bölmə;
- kontor;
- filial və agentlik;
- tikinti və təmir meydançaları, quraşdırma və yığma obyektləri, həmçinin, bu cür obyektlərlə bağlı nəzarət fəaliyyətinin göstərilməsi;
- təbii ehtiyatların kəşfiyyatı, işlənməsi və çıxarılması üzrə yerlər, istifadə olunan qurğular və ya meydançalar, qazma avadanlığı və ya gəmilər, həmçinin bu cür obyektlərlə bağlı nəzarət fəaliyyətinin göstərilməsi;
- qeyri-rezident fiziki şəxsin sahibkarlıq fəaliyyəti üçün istifadə etdiyi baza (yer);
- müxtəlif məsləhət xidməti üzrə yerlər;
- respublika ərazisində digər sahibkarlıq növlərinin həyata keçirildiyi hər hansı iş yeri;
- qeyri-rezident müəssisələrin və ya qeyri-rezident fiziki şəxsin AR-dəki daimi nümayəndəliyi funksiyalarını həyata keçirən, onların adından fəaliyyət göstərən, onların adından müqavilələri hazırlamaq və ya bağlamaq səlahiyyətlərinə malik olan və adətən belə səlahiyyətləri həyata keçirən şəxslər;
- malların istehsal və ya təqdim edildiyi, işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer.

DAİMİ YAŞAYIŞ YERİ – tam həcmdə fəaliyyət qabiliyyətli şəxsin mülkiyyətçi kimi icarə və kirayə müqaviləsi üzrə, yaxud AR qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əsaslarla daimi və ya daha çox yaşadığı ev, mənzil, xidməti yaşayış sahəsi, yataqxana, qoca və əlil evləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evləri, xüsusi təhsil müəssisələri və digər bu kimi yaşayış yerləri başa düşülür.

DAİMİ YAŞAYIŞ YERİNƏ MALİK ŞƏXS – ikiqat vergitutmanın aradan qaldırılması, gəlir və kapitala görə vergiləri ödəməkdən yayınmanın

qarşısının alınması haqqında Konvensiyada istifadə edilən termin. Bu Konvensiyaya görə, razılığa gələn iki dövlətdən birində fiziki şəxsin daimi yaşayış yeri varsa, o, həmin dövlətin rezidenti hesab olunur; onun hər iki dövlətdə daimi yaşayış yeri varsa, o, daha sıx şəxsi və iqtisadi əlaqələrə malik olduğu dövlətin rezidenti hesab olunur.

DAŞINAR ƏMLAK – Əmlak istənilən əşyaların və qeyri-maddi əmlak nemətlərinin toplusudur. Daşınmaz əşyalara aid edilə bilməyən bütün əşyalar daşınar əşyalar sayılır.

DAŞINMAZ ƏMLAK – üzərində hüquqlar dövlət qeydiyyatına alınmalı olan torpaq sahələri, yer təki sahələri, ayrıca su obyektləri (sututarlar) və torpaqla möhkəm bağlı olub təyinatına tənasübsüz (hədsiz) zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan bütün əşyalar, o cümlədən binalar, qurğular, yaşayış və qeyri-yaşayış sahələri, fərdi yaşayış və bağ evləri, meşələr və çoxillik əkmələr, əmlak kompleksi kimi müəssisələr.



AR MM-ə görə (maddə 139), mülkiyyət hüququ və daşınmaz əmlaka digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, əmələ gəlməsi, başqasına keçməsi və xitamı dövlət qeydiyyatına alınmalıdır. Mülkiyyət hüququ, istifadə hüququ, ipoteka, servitutlar, habelə daşınmaz əmlaka digər hüquqlar AR MM-də və qanunvericilikdə nəzərdə tutulan hallarda qeydə alınmalıdır. Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilən və aparılan daşınmaz əmlakın dövlət reyestrində həyata keçirilir.

Daşınmaz əmlakın dövlət reyestrinin məzmunu torpaq sahəsi üzərində hüquqa və ya həmin hüququn məhdudlaşdırılmasına dair həqiqi hüquqi vəziyyətə uyğun deyildirsə, hüququ qeydə alınmamış və ya hüququ düzgün qeydə alınmamış şəxs, yaxud mövcud olmayan yüklənmə haqqında qeydin daxil edilməsi ilə hüququ pozulmuş şəxs daşınmaz əmlakın dövlət reyestrində qeyddə düzəlişin aparılması üçün belə düzəlişlə hüququna toxunulan şəxsdən razılıq verməsini tələb edə bilər.

Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir. Təsdiqləmə zamanı notarius əşyaya dair sərəncam verən tərəfin sərəncam hüququnu və müqavilənin qanunauyğunluğunu yoxlamalıdır. O, təsdiqlədiyi müqavilənin yanlışlığı üçün məsuliyyət daşıyır. Sərəncam hüququ sərəncam verən tərəfin daşınmaz əmlakın dövlət

reyestrinə əsasən bu hüquqa malik olması və ya ixtiyarlı şəxsin ona həmin səlahiyyəti verməsi ilə təsdiqlənir. Bu səlahiyyət də notariat qaydasında təsdiqlənməlidir. Müqavilənin qanunauyğunluğu notariat qaydasında təsdiqləmə ilə təsbit olunur. Notariat qaydasında təsdiqlədikdən sonra notarius müqavilənin iki nüsxəsini müraciət etmiş şəxsə verir və ya onun istəyi ilə bu məcəllə ilə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat barəsində hüquq əldə edənin notariat qaydasında təsdiq edilmiş ərizəsini müqavilə, hüquqların dövlət qeydiyyatı üçün qanunla nəzərdə tutulmuş digər əsasları əks etdirən sənədlər, torpaq sahəsinin planı və ölçüsü, torpaq sahəsində yerləşən bina, qurğu, tikililərin və digər daşınmaz əmlakın (onların tərkib hissələrinin) texniki pasportu, plan-cizgisi və dövlət rüsumunun ödənilməsi barədə qəbz ilə birlikdə müvafiq icra hakimiyyəti orqanına göndərir. Əldə edən qanuni qüvvəyə minmiş məhkəmə qərarına və ya ona bərabər olan sənədə, o cümlədən notariat qaydasında təsdiqləməyə istinad edirsə, notariat qaydasında təsdiqləmə tələb olunmur. Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi üçün təsdiqləyici sənədlər təqdim edilməzsə, ərizə rədd edilmiş sayılır. Əgər söhbət yalnız sərəncam hüququnu təsdiq edən sənədə əlavədən gedirsə, onda ilkin qeydiyyat mülkiyyətçinin razılığı ilə aparılır (AR MM, maddə 144).

Daşınmaz əmlaka sahiblik və istifadə hüququ onun barəsində əqdin notariat qaydasında təsdiq edildiyi andan əmələ gəlir (məhkəmə qərarı və ya digər qanuni qüvvəyə malik olan və barəsində şikayət verilə bilməyən qərar əsasında yaranan hüquq istisna olmaqla).

DAŞINMAZ ƏMLAKA AİD SÖVDƏLƏŞMƏNİN QEYDİYYATI – Mülkiyyət hüququ və daşınmaz əmlaka digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, əmələ gəlməsi, başqasına keçməsi və xitamı dövlət qeydiyyatına alınmalıdır. Mülkiyyət hüququ, istifadə hüququ, ipoteka, servitutlar, habelə daşınmaz əmlaka digər hüquqlar Mülki Məcəllədə və qanunvericilikdə nəzərdə tutulan hallarda qeydə alınmalıdır. Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı AR Mülki Məcəlləsinə uyğun olaraq daşınmaz əmlaka hüquqların əmələ gəlməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) başqasına keçməsinin və bu hüquqlara xitam verilməsinin dövlət tərəfindən tanınması və təsdiq edilməsi barədə hüquqi aktdır.

DAŞINMAZ ƏMLAKA HÜQUQUN DÖVLƏT QEYDİYYATI – Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı AR Mülki Məcəlləsinə uyğun olaraq daşınmaz əmlaka hüquqların əmələ gəlməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) başqasına keçməsinin və bu hüquqlara xitam verilməsinin dövlət tərəfindən tanınması və təsdiq edilməsi barədə hüquqi aktdır. AR Mülki Məcəlləsi ilə və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" AR Qanunu ilə müəyyən edilmiş qaydada daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı daşın-

maz əmlakın dövlət reyestrində aparılır.

DAŞINMAZ ƏMLAKA HÜQUQUN QEYDİYYATINI APARAN ORQAN – Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi.

DAŞINMAZ ƏMLAKA VERGİ – daşınmaz əmlakın dəyərinə tətbiq olunan vergi. Azərbaycanda əmlak vergisinin hesablanmasının mövcud qaydasından və növündən fərqli olaraq, dünyanın bir çox ölkələrində əmlak vergisi daşınmaz əmlakın bazar dəyərinə tətbiq olunur. Bu gün qüvvədə olan AR VM-in müddəalarına əsasən, əmlaka vergi mahiyyətcə eyni olsa da, vergitutma bazasına görə fərqli formada aşağıdakı kimi hesablanır:

- fiziki şəxslərin mülkiyyətində olan binalara əmlak vergisi;
- fiziki şəxslərə məxsus su və hava nəqliyyatı vasitələrinə əmlak vergisi;
- hüquqi şəxslərin balansında olan əsas vəsaitlərə əmlak vergisi;
- fiziki və ya hüquqi şəxslərin mülkiyyətində və ya istifadəsində olan torpaq sahələrinə vergi.

"DAŞINMAZ ƏMLAKIN DÖVLƏT REYESTRİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – Daşınmaz əmlaka mülkiyyət hüququ və digər əşya hüquqlarının, bu hüquqların əmələ gəlməsi, məhdudlaşdırılması (yüklənməsi) və başqasına keçməsinin, onlara xitam verilməsinin dövlət qeydiyyatı, habelə AR ərazisi üzrə vahid olan daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydalarını müəyyən edən 29 iyun 2004-cü il tarixli 713-IIQ nömrəli Qanun. 23 maddədən və aşağıda sadalanan 4 fəsildən ibarətdir:

1. Ümumi müddəalar.
2. Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatının aparılması qaydası.
3. Daşınmaz əmlak üzərindəki bəzi hüquqların dövlət qeydiyyatı.
4. Məsuliyyət.

DAŞIYICI – dənizlə yük daşınması müqaviləsini yükgöndərənlə və ya fraxtedənlə və ya onun adından belə müqaviləni bağlamış şəxs.

DEBET – ikitərəfli cədvəl formasında olan mühasibat hesabının sol tərəfi. Pul vəsaitlərinin, əmtəə-material sərvətləri (məsələn, hazır məhsul, bitməmiş istehsal, material, yanacaq və sair) ehtiyatlarının vəziyyətini və hərəkətlərini qeyd etmək üçün istifadə olunan hesablarda debetdə hər ayın əvvəli üçün nəzərə alınan mövcud sərvətlər və ay ərzində onların daxil olması göstərilir.

DEFOLT – borclunun borc müqaviləsinə əsasən öz borc öhdəliklərini yerinə yetirməməsi, yəni vaxtlı-vaxtında borc ödənişlərinin yerinə yetirilməməsi.

DEMEREC – müəyyən vaxt aralığında valyutaya sahibliklə bağlı yaranan xərclər. Qiymətli əmtəələrlə, məsələn, qızılla bağlı demerec qızılın müəyyən vaxt intervalında saxlanılması nəticəsində yaranan xərcdir.

DEMPİNQ – bir ölkənin istehsal etdiyi əmtəəsini öz ölkəsindəkinə nisbətən digər ölkənin ərazisində ucuz qiymətə satması. İngilis dilində "dumping" "atma", dağıtma" deməkdir. Dempinq məhsul satışı bazarında potensial rəqibini sıxışdırmaq, satışın

həcmini çoxaltmaq məqsədilə edilir. Dempinqə qarşı mübarizə aparmaq məqsədilə antidempinq rüsumlarından, müvəqqəti antidempinq rüsumlarından və idxal mallarının məhdudlaşdırılmasından istifadə olunur.

DEMPİNQ MARJASI – malın real qiyməti ilə ixrac rüsumu arasında olan fərq. Antidempinq ödənişlərinin müəyyən edilməsi üçün baza kimi götürülür.

DENONSASİYA – müqavilədən rəsmi imtina, müqaviləyə xitam verilməsi; hər hansı dövlətin beynəlxalq müqaviləyə xitam verilməsi barədə elanı; beynəlxalq müqavilədən dövlətin rəsmi qeydiyyata alınmış imtinası. Müqavilənin denonsasiyası barədə informasiya, adətən, müqavilənin özündə əks olunur. Latın sözü olan "denuntiatio" məlumatlandırma deməkdir.

DEPO HESABI – Depozitarların uçot sistemində qiymətli kağızların uçotu zamanı istifadə olunan hesablar. Depozitarın uçot sistemində qiymətli kağızların uçotu ikili yazılış prinsipi əsasında aparılır:

- passiv depo hesabı – qiymətli kağızların sahibləri üzrə uçotu aparılan hesab;

- aktiv depo hesabı – qiymətli kağızların saxlandığı yer üzrə uçotu aparılan hesab.

Depozitarın uçot sistemində passiv depo hesablarında uçotu aparılan qiymətli kağızların buraxılışlar üzrə ümumi miqdarı, aktiv depo hesablarında uçotu aparılan qiymətli kağızların həmin buraxılışlar üzrə miqdarına bərabər əks olunmalıdır.

Depozitarın uçot sistemində aşağıdakı əsas passiv depo hesab növlərindən istifadə olunur:

- şəxsi depo hesabı;
- girovsaxlayıcı depo hesabı;
- emissiya depo hesabı;
- idarəçi depo hesabı;
- LORO müxbir depo hesabı.

Depozitarın uçot sistemində aşağıdakı əsas aktiv depo hesab növlərindən istifadə olunur:

- xəzinə depo hesabı;
- NOSTRO müxbir depo hesabı.

Depozitar eyni zamanda reyestrsaxlayıcı peşəkar fəaliyyətini həyata keçirdikdə o, qiymətli kağız sahiblərinin reyestrini depo hesabları əsasında apara bilər.

Depo hesablarının aparılması sistemində hər bir hesaba yalnız özünə məxsus və sistemdə təkrarlanmayan nömrə verilir. Bütün hesablar azı aşağıdakı bölmələrdən ibarət ola bilər:

1. Əsas bölmə (deponentin hesabında olan və heç bir öhdəliklə yüklənməmiş qiymətli kağızların uçot bölməsi).

2. Girov bölməsi (deponentin hesabında olan və girov öhdəlikləri ilə yüklənmiş qiymətli kağızların uçot bölməsi).

3. Öhdəliklər bölməsi (dondurulmuş qiymətli kağızların uçot bölməsi).

4. Ticarət bölməsi (ticarətə çıxarılmış qiymətli kağızların uçotu bölməsi).

Zəruri hallarda depozitar depo hesablarının aparılması sistemində əlavə hesab növlərini və bölmələrini tətbiq edə bilər.

Passiv depo hesabı olan Emissiya depo hesabı depozitarın uçot sistemində emitent üçün açılır. Emissiya

depo hesabında aşağıdakı məlumatlar əks edilir:

- emitentin adı;
- qiymətli kağızlar buraxılışının dövlət qeydiyyatı nömrəsi;
- qiymətli kağızların növü, buraxılış forması, miqdarı və nominal dəyəri;
- geri satın alınmış qiymətli kağızların miqdarı;
-yerləşdirilməmiş qiymətli kağızların miqdarı.

Passiv depo hesabı olan Şəxsi depo hesabı depozitarın uçot sistemində qiymətli kağız sahibləri (deponentlər) üçün açılır. Şəxsi depo hesabında aşağıdakı məlumatlar əks edilir:

- deponentin adı;
- fiziki şəxslər üçün – soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin göstəriciləri;
- hüquqi şəxslər üçün – tam adı, dövlət qeydiyyat nömrəsi;
- emitentin adı;
- qiymətli kağız buraxılışının dövlət qeydiyyat nömrəsi;
- qiymətli kağızların növü, forması, miqdarı, nominal dəyəri.

Passiv depo hesabı olan adi Girovsaxlayıcı depo hesabı depozitarın uçot sistemində qiymətli kağızların girova qoyulması hallarında girovsaxlayıcıya açılır. Girovsaxlayıcı depo hesabında aşağıdakı məlumatlar əks edilir:

- girovsaxlayıcının adı;
- fiziki şəxslər üçün – soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin göstəriciləri;
- hüquqi şəxslər üçün – tam adı, dövlət qeydiyyat nömrəsi;
• qiymətli kağız sahibinin adı;
• emitentin adı;
• qiymətli kağız buraxılışının dövlət qeydiyyat nömrəsi;
• girova qoyulmuş qiymətli kağızların növü, forması, miqdarı və nominal dəyəri;
•girovun dövlət qeydiyyat nömrəsi və tarixi.

Passiv depo hesabı olan İdarəçi depo hesabı qiymətli kağızların idarə olunması üzrə peşəkar fəaliyyəti həyata keçirən şəxs üçün açılır. İdarəçi depo hesabında aşağıdakı məlumatlar əks olunur:

- idarəçinin adı;
- fiziki şəxslər üçün – soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin göstəriciləri;
- hüquqi şəxslər üçün – tam adı, dövlət qeydiyyat nömrəsi;
- emitentin adı;
- qiymətli kağız buraxılışının dövlət qeydiyyat nömrəsi;
- qiymətli kağızların növü, forması, miqdarı və nominal dəyəri.

Passiv depo hesabı olan LORO müxbir depo hesabı qiymətli kağızları saxlayan depozitarda həmin qiymətli kağızlara olan hüquqların uçotunu aparan depozitar üçün açılır. LORO müxbir depo hesabının sahibi özünün uçot sistemində qiymətli kağızların saxlandığı yeri əks etdirən NOSTRO müxbir depo hesabını açmalıdır. LORO müxbir depo hesabında aşağıdakı məlumatlar əks olunur:

- müxbir depozitarın adı;
- emitentin adı;
- qiymətli kağız buraxılışının dövlət qeydiyyat nömrəsi;
- qiymətli kağızların növü, forması, miqdarı və nominal dəyəri.

Aktiv depo hesabı olan Xəzinə depo hesabı qiymətli kağızları saxlayan depozitarda qiymətli kağızların hər bir buraxılış üzrə ümumi sayının uçotunun aparılması üçün açılır.

Xəzinə depo hesabında aşağıdakı məlumatlar əks olunur:

- xəzinənin adı;
- emitentin adı;
- qiymətli kağız buraxılışının dövlət qeydiyyat nömrəsi;
- qiymətli kağızın növü, forması, ümumi miqdarı və nominal dəyəri.

Aktiv depo hesabı olan NOSTRO depo hesabı qiymətli kağızlara olan hüquqların uçotunu aparan depozitarda, həmin qiymətli kağızları saxlayan və onların uçotunu LORO müxbir depo hesabında aparan depozitar üçün açılır. NOSTRO müxbir depo hesabında aşağıdakı məlumatlar əks olunur:

- qiymətli kağızları saxlayan depozitarın adı;
- emitentin adı;
- qiymətli kağız buraxılışının dövlət qeydiyyat nömrəsi;
- qiymətli kağızların növü, forması, ümumi miqdarı və nominal dəyəri.

Depozitar tərəfindən depo hesabından hesab sahibinə müəyyən olunmuş formada çıxarışlar verilir. Depo hesabından çıxarış depozitar tərəfindən hesab sahibinə təqdim edilən və müəyyən tarixə onun depo hesabında olan qiymətli kağızlar barədə məlumatları əks etdirən sənəddir.

DEPONENT – bank idarəsinin depozitinə qiymətli əşyanı köçürən fiziki və ya hüquqi şəxs; müəssisənin və ya təşkilatın sərəncamında müvəqqəti olan pul məbləğinin məxsus olduğu fiziki və ya hüquqi şəxs; qiymətli kağızların qorunub saxlanması və ya qiymətli kağızlara olan hüquqların uçotu üzrə depozitarın xidmətlərindən istifadə edən pul və ya qiymətli kağızları qorunmaq üçün banka verən fiziki və ya hüquqi şəxs.

DEPOZİT – banklarda və əmanət kassalarında qoyuluş; müştərilərin banka müəyyən tələblərinin mövcudluğunu təsdiq edən bank kitablarında yazı; kredit idarələrinə saxlanmaq üçün verilən qiymətli kağızlar; gömrük vergilərinin və rüsumlarının ödənilməsində gömrük idarələrinə haqlar; birjanın üzvü tərəfindən hesablama palatasına, müqavilə qeydiyyatdan keçən zaman müştərilər tərəfindən brokerə ödənilməli olan sabit məbləğin və ya fyuçers müqaviləsinin ümumi dəyərinin şərtlənmiş bir hissəsi olan pul məbləği.

DEPOZİT (ƏMANƏT) SERTİFİKATI – müəyyən edilmiş müddətlər bitdikdən sonra hər hansı bank idarəsində əmanət alınmasına əmanətçinin (hüquqi şəxsin) hüququnu təsdiq edən pul vəsaitlərinin əmanəti haqqında emitent bankın yazılı sənədi.

DEPOZİTAR – depozitar fəaliyyəti həyata keçirən qiymətli kağızlar bazarının peşəkar iştirakçısı; konkret beynəlxalq müqavilənin mətninin, onun ratifikasiyası ilə bağlı sənədlərin və s. saxlanılması ilə bağlı öz üzərinə öhdəlik götürmüş dövlət və ya beynəlxalq təşkilat. Bir qayda olaraq depozitar birbaşa müqavilədə təsbit edilir.

DEPOZİTAR FƏALİYYƏTİ – qiymətli kağızların saxlanması və on-

lara hüquqların, habelə öhdəliklərlə yüklənməsi faktlarının uçotu və təsdiq edilməsi üzrə xidmətlərin göstərilməsi üzrə peşəkar fəaliyyət.

DEPOZİTAR MÜQAVİLƏSİ – depozitarla deponent arasında yaranan münasibətləri tənzimləyən müqavilə.

DƏR-ƏL-İSTİXRAC – Ərəb Xilafəti dövründə yaradılmış nəzarət orqanı.

DƏYƏR – ekvivalent mübadilə vaxtı miqdar nisbətlərinin əsası. Müxtəlif iqtisadi məktəblər cürbəcür dəyərin təbiətini izah edir: iş vaxtının xərcləri, tələbatın və təklifin balansı, istehsalın xərcləri, son faydalılıq və sair.

DƏYƏRİN ÇIXILMASI ÜSULU – "Gömrük tarifi haqqında" AR Qanununun 21-ci maddəsi əsasında AR ərazisinə idxal edilən malların gömrük dəyərinin müəyyən edilməsi üsulu. Bu üsul ilə gömrük dəyərinin müəyyən edilməsi qiymətləndirilən eyni və eynicinsli mallar AR ərazisində öz ilkin vəziyyətini dəyişdirmədən satıldıqda tətbiq olunur. Malın gömrük dəyərini müəyyən etmək üçün dəyərin çıxılması üsulu qiymətləndirilən malın gətirildiyi eyni və ya təxminən eyni tarixdə AR ərazisində qiymətləndirilən idxal edilmiş mallarla eyni və yaxud eynicinsli malların ən böyük məcmu miqdarı satıcı ilə əlaqəli olmayan sövdələşmə iştirakçısına satıldıqda əsas götürülür. Üsulun tətbiqi zamanı mal vahidinin qiymətindən aşağıdakı xərc maddələri çıxılır:

a) idxal edilmiş eyni sinif və ya növ malların satışı ilə əlaqədar adətən ödənilən və ya ödənilməli olan komissiyalar və ya gəlir və ümumi xərclər üçün adətən ödənilən əlavələr;

b) malların idxalı və satışı ilə əlaqədar ödənilməli olan idxal gömrük rüsumlarının, vergilərin, yığımların və digər ödənişlərin məbləği;

c) daşınma, yüklənmə, boşaldılma işlərinə, sığortaya adətən sərf olunan xərclər;

ç) müvafiq hallarda malın hava və dəniz limanınadək, yaxud AR gömrük ərazisinə daxil olduğu digər hər hansı bir yerədək gətirilməsi xərcləri (nəqliyyat xərcləri, malın yüklənmə, boşaldılma və yenidən yüklənmə xərcləri, sığorta xərcləri).

Qiymətləndirilən malların idxalı ilə eyni və ya təxminən eyni vaxtda belə bir satış həyata keçirilmədikdə gömrük dəyəri idxal olunan mallarla eyni və ya eynicinsli olan malların AR ərazisində 90 gündən artıq olmamaq şərtilə ən tez satıldığı satış qiymətinə əsasən müəyyən edilir.

Qiymətləndirilən eyni və eynicinsli malların gətirilmə anındakı vəziyyətdə satılması halları olmadıqda bəyan edənin xahişinə əsasən emal mərhələsini keçmiş mal vahidinin qiymətindən istifadə etməklə əlavə dəyərə düzəliş edilir.

DƏYƏRİN TOPLANMASI ÜSULU – "Gömrük tarifi haqqında" AR Qanununun 22-ci maddəsi əsasında AR ərazisinə idxal edilən malların gömrük dəyərinin müəyyən edilməsi üsulu. Gömrük dəyəri bu üsulla müəyyən edilərkən malın aşağıdakıların toplanması yolu ilə hesablanmış qiyməti əsas götürülür:

a) materialların dəyəri və malın istehsalçı tərəfindən qiymətləndirilən istehsal xərcləri;

b) ixrac edən ölkədən eyni növlü malların AR-ə satışı üçün səciyyəvi olan ümumi xərclər, o cümlədən nəqliyyat, yüklənmə yerinədək sığorta xərcləri və s.;

c) AR-ə belə malların göndərilməsi nəticəsində ixrac edənin əldə etdiyi mənfəət.

DİGƏR MƏSRƏFLƏR – məhsulun (işin, xidmətin) maya dəyərinin bir elementi olub özündə vergiləri, yığımları, qanunvericiliyə uyğun olaraq müxtəlif fondlara məcburi ödənişləri, bank kreditlərinə görə ödənilən faizləri, ezamiyyə xərclərini, kadrların hazırlanması və yenidən hazırlanması xərclərini və s. özündə əks etdirir.

DİLER – öz adından birja, ticarət və ya qiymətli kağızlar və valyutanın alqı-satqısı vasitəçiliyini və öz hesabına birja və ya ticarət əməliyyatlarını həyata keçirən şəxs və ya firma. Diler öz hesabına müqavilə bağlaya və istənilən qiymətli kağızı qiymətləndirə bilər. Bundan başqa, reklam yayanlar və reklamları konkret potensial istehlakçılara çatdıran şəxslər də diler adlanır. Dilerin gəliri malların, valyutaların, qiymətli kağızların alış-satış qiymətləri arasındakı fərqdən, eləcə də onların məzənnələrinin dəyişməsi nəticəsində yaranan fərqdən əldə edilir.

DİLER FƏALİYYƏTİ – öz adından və öz hesabına əvvəlcədən kütləvi elan olunmuş alış və (və ya) satış qiymətləri ilə qiymətli kağızlar üzrə alqı-satqı əqdlərinin bağlanması üzrə qiymətli kağızlar bazarında peşəkar fəaliyyət.

DİPLOMAT – bir ölkə tərəfindən həmin ölkənin maraqlarını digər



Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

dövlətdə və ya beynəlxalq təşkilatda təmsil etmək məqsədilə təyin edilmiş və diplomatik immunitet və imtiyazlardan istifadə edən şəxs.

DİPLOMATİK AGENT – diplomatik nümayəndəliyin rəhbəri və ya nümayəndəliyin hər hansı üzvü.

DİPLOMATİK DƏRƏCƏLƏR – xaricdə diplomatik nümayəndəliklərin başçılarının rütbəsini müəyyən edən diplomatik hüquq termini. Diplomatik əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyasının 14-cü maddəsi diplomatik nümayəndəliyin başçılarının 1815-ci il Vyana Reqlamenti ilə müəyyən olunmuş üç dərəcəsini təsdiq etmişdir. Bu dərəcələr aşağıdakılardır:

- səfirlər və nunsilər, o cümlədən onlara ekvivalent olan digər nümayəndəlik başçıları;
- elçilər və internunslar;
- işlər müvəkkili.

Konvensiyada xüsusi olaraq vurğulanır ki, nümayəndəlik başçıları arasında rütbə böyüklüyü və etiketdən başqa, bu və ya digər dərəcəyə mənsub olduğuna görə heç bir fərq qoyulmamalıdır.

"Diplomatik xidmət haqqında" 2001-ci il 8 iyun tarixli 137-IIQ nöm-

rəli AR Qanununun 8-ci maddəsinə görə, diplomatik xidmət əməkdaşlarına, tutduqları vəzifə və ixtisasları nəzərə alınmaqla, aşağıdakı diplomatik rütbələr verilir:

- fövqəladə və səlahiyyətli səfir;
- birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi;
- ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi;
- birinci dərəcəli müşavir;
- ikinci dərəcəli müşavir;
- birinci dərəcəli birinci katib;
- ikinci dərəcəli birinci katib;
- birinci dərəcəli ikinci katib;
- ikinci dərəcəli ikinci katib;
- üçüncü katib;
- attaşe.

DİPLOMATİK HEYƏTİN ÜZVÜ – diplomatik nümayəndəliyin tərkibinə daxil olan şəxs.

DİPLOMATİK HÜQUQ – daimi və müvəqqəti diplomatik missiyalarla məşğul olan beynəlxalq hüququn bir hissəsi.

DİPLOMATİK İMMUNİTET – diplomatik hüququn xarici ölkələrin diplomatik nümayəndiliyinə və onun əməkdaşlarına verilən xüsusi hüquq və imtiyazların məcmusunu bildirən termin. Diplomatik immunitetə digər hüquq və imtiyazlarla yanaşı aşağıdakılar daxildir:

- şəxsiyyətin toxunulmazlığı;
- xidməti otaqların, yaşayış binalarının və mülkiyyətin toxunulmazlığı;
- olduğu ölkənin məhkəmələrinə verilməməsi;
- vergilərdən, yığımlardan, gömrük yoxlamasından azad olması.

Diplomatik immunitet beynəlxalq müqavilələrlə (əsasən 1961-ci il Vyana Konvensiyası ilə), dövlətlərin qanunvericilikləri ilə və beynəlxalq ənənələrlə tənzimlənir.

DİPLOMATİK KORPUS – ölkə ərazisində akkreditə edilmiş bütün xarici diplomatların və diplomatik nümayəndəliklərin cəmi.

DİPLOMATİK KURYER – diplomatik poçt və diplomatik bağlamaların daşınması ilə məşğul olan şəxs.

DİPLOMATİK NÜMAYƏNDƏLİK – bir ölkənin və ya beynəlxalq təşkilatın maraqlarını digər ölkədə və ya beynəlxalq təşkilatda təmsil etmək üçün həmin digər ölkənin və ya beynəlxalq təşkilatın yerləşdiyi ölkənin ərazisində yaradılmış səfirlik, konsulluq və ya digər nümayəndəlik.



Azərbaycan Respublikasının ABŞ-da səfirliyi (Vaşinqton)

DİPLOMATİK POÇT – diplomatik sənədlərin mübadilə edildiyi məxfi poçt.

DİPLOMATİK VƏZİFƏLƏR – diplomatik xidmət əməkdaşlarının tutduqları vəzifələr. "Diplomatik xidmət haqqında" AR Qanununun 6-cı maddəsinə görə diplomatik xidmət orqanlarında diplomatik vəzifə tutan şəxslər diplomatik xidmət əməkdaşlarıdır;

diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər diplomatik xidmət əməkdaşlarına aid deyildirlər. Həmin Qanuna görə, AR-in diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşları üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- fövqəladə və səlahiyyətli səfir, AR-in beynəlxalq təşkilatlardakı daimi nümayəndəsi;
- baş konsul;
- müşavir-elçi, daimi nümayəndənin müavini;
- müşavir;
- konsul;
- birinci katib;
- vitse-konsul;
- ikinci katib;
- üçüncü katib;
- attaşe.

DİPLOMATİYA – dövlət başçılarının, hökumətlərin və xarici əlaqələr üzrə xüsusi orqanların prinsipial fəaliyyəti olub, dövlətin xarici siyasətinin məqsəd və vəzifələrini həyata keçirməkdən və dövlətin hüquq və maraqlarını xaricdə müdafiə etməkdən ibarətdir. Diplomatiya dedikdə, əsasən, beynəlxalq münasibətlərin iştirakçısı olan dövlət və qrupların səlahiyyətli nümayəndələri arasında danışıqların aparılması sənəti və təcrübəsi nəzərdə tutulur. Diplomatiyanın predmeti, subyekti, obyekti də dünyanın siyasi xəritəsində öz yerini tutmuş dövlətlərdir.

DİSBURSMENT HESABI – gəminin limanda dayanacağa gəlməsi zamanı liman agenti tərəfindən gəmi sahibinin adından xərclərin (verginin və rüsumların, gəmidə xidmət üzrə xərclərin) hesabı (ingiliscə – "disbursement" ödəniş deməkdir); bu hesabın sənədi gəmi sahibi nümayəndəsi ilə razılaşdırılaraq gəmi kapitanı tərəfindən imzalanır.

DİSKRESİON SƏLAHİYYƏTLƏR – qanunla inzibati orqana və ya vəzifəli şəxsə mümkün qanunauyğun qərarlardan birini seçmək hüququnun verilməsi.

DİSKRESİYA TRASTI – etibar edilmiş şəxsə əmlakdan öz mülahizəsinə görə digər şəxsin xeyrinə istifadə etmək hüququ verir; trastın təsisçisinin benefisiarların hər birinin səhmlərinin etibarnaməli idarəçiliyini rəsmiləşdirmədiyi trastdır, həmçinin o, investisiya portfelinin strukturunu və tərkibini dəyişə bilər.

DİSPAÇ – tərəflərin razılaşması ilə yüklərin vurulmasının və ya boşaldılmasının vaxtından əvvəl başa çatdırılmasına görə müəyyən edilən mükafat.

DİVERSİFİKASİYA – investisiya, yaxud kredit vəsaitləri formasında kapital resurslarının iqtisadiyyatın müxtəlif sahələrinə yatırılması (bölüşdürülməsi). Bu proses bir tərəfdən kapital riskini aşağı salır, digər tərəfdən çoxistiqamətli iqtisadi inkişafa şərait yaradır. Bundan əlavə, diversifikasiya dedikdə, ölkə iqtisadiyyatının çoxsahəli və regional inkişafı başa düşülməlidir.

DİVİDENT – hüquqi şəxsin xalis mənfəətinin təsisçilərin mülkiyyətinə keçən hissəsi və ya hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin bölüşdürülməsi ilə bağlı pul və

ya digər ödəmələr şəklində etdiyi ödəniş. Hüquqi şəxsin ləğvi ilə bağlı əmlakın bölüşdürülməsi nəticəsində əldə edilən gəlir, həmçinin səhmdarların səhmlərinin faiz nisbətini dəyişdirməyən səhmlərin bölüşdürülməsi, səhmlərin (hissələrin, payların) nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı edilən ödənişlər divident sayılmır (AR VM, maddə 13.2.15).

"DOING BUSINESS" – Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının 2003-cü ildən etibarən nəşr etdiyi hesabatdır. 183 ölkədə biznes fəaliyyəti ilə məşğul olmanın 10 göstəricisini əhatə edən hesabat dünyada biznes mühitinin tənzimlənməsi və təkmilləşdirilməsi üçün həyata keçirilən əsas islahatları özündə birləşdirməklə ölkələr üzrə müvafiq sıralamanı müəyyən edir.

DOLAYI QİYMƏTLƏNDİRMƏ METODU – vergi ödəyicilərinin vergi öhdəliklərinin müəyyənləşdirilməsi üçün metod. Vergi öhdəlikləri ödəyicinin xərclərinin qiymətləndirilməsi, onun aktivlərinin artımı, işçilərinin sayı və müəyyən verginin hesablanması üçün zəruri olan digər parametrlər vasitəsilə müəyyən edilir. Vergi öhdəliklərinin qiymətləndirilməsi prosesi "Birbaşa və dolayı qiymətləndirmə metodlarının tətbiq edilməsi" Qaydalarının təsdiq edilməsi barədə AR NK-nın 2001-ci il 23 fevral tarixli 47 nömrəli Qərarı ilə tənzimlənir.

DOLAYI MƏSRƏFLƏR – Hesabat dövründə vergi ödəyicisi tərəfindən məhsul istehsalı və satışına çəkilən birbaşa xərclərə aid edilməyən digər bütün xərclərin cəmi.

DOLAYI VERGİLƏR – əmtəə və ya xidmətin qiymətindən tutulan vergilər. Onlar əmtəə və ya xidmətin qiymətinə dövlət tərəfindən edilən özünəməxsus əlavədir. Dolayı vergilərin nominal ödəyicisi kimi məhsulu, xidməti, işi satan subyekt çıxış edir. Lakin ödənilən verginin real yükü alıcının üzərinə düşür. Beləliklə, alıcı dolayı verginin real ödəyicisinə çevrilir. Tutulma obyektinə görə dolayı vergiləri iki qrupa ayırmaq olar: dolayı universal vergilər; dolayı fərdi vergilər. Dolayı universal vergiyə əlavə dəyər vergisini misal göstərmək olar. Bu vergi, vergi qanunvericiliyində qoyulmuş məhdudiyyətlər istisna olunmaqla, bütün məhsullara, iş və xidmətlərə tətbiq edilir. Dolayı fərdi vergiyə misal olaraq aksizləri göstərmək olar. Bu, istehsalın müəyyən mərhələsindəki dövriyyəsinə, ayrı-ayrı mal növlərinə və xidmətlərə tətbiq edilir.

DOMİSİL – həm beynəlxalq, həm də bəzi ölkələrin vergi hüququnda istifadə edilən və fiziki şəxsin daimi yaşadığı yeri bildirən termin. Latın dilində "domisilium" "olduğu yer" deməkdir. Fiziki şəxsin hər hansı ölkədə domisili varsa, vətəndaşlığından asılı olmayaraq, həmin ölkədə bütün gəlirlərindən vergi ödəməlidir. Domisil iki cür olur: a) "mənşə domisili" – fiziki şəxsin doğulduğu ölkə; b) "seçim domisili" – fiziki şəxsin özünün seçdiyi və daimi yaşadığı ölkə.

Fiziki şəxsin, bir qayda olaraq, yalnız bir domisili olur. Böyük Britaniya Birləşmiş Krallığının və Şimali İrlandiyanın qanunvericiliyinə görə, həmin ölkədə doğulmuş və ya daimi yaşa-


mağa gəlmiş fiziki şəxs Birləşmiş Krallıqda domisilli hesab olunur. Fransada iqtisadi mənafeyi bu ölkəylə bağlı olan, ailəsini orada saxlayan və ya 5 ildən artıq bu ölkədə yaşayan şəxslər domisilə malikdirlər.

DOMİSİL KOMPANİYA – ölkə ərazisində qeydiyyata alınmış, lakin həmin ərazidə heç bir kommersiya və ticarət fəaliyyəti göstərməyən kompaniya.

DONOR – konkret məqsədlər üçün təmənnasız olaraq digər şəxslərə, yəni resipiyentə maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada yardım edən şəxs. Nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik, yaxud qrant predmeti ola bilən layihə və proqramlar üçün vəsait toplanması olan, öz fəaliyyətində mənfəət götürmək məqsədi güdməyən AR-in istənilən hüquqi şəxsi və fiziki şəxsi donor ola bilər. Beynəlxalq təşkilatlar və onların nümayəndəlikləri, xarici hökumətlər və onların nümayəndəlikləri, xeyriyyəçilik, humanitar inkişaf və başqa ictimai yönümlü beynəlxalq təşkilatlar, maliyyə-kredit institutları, təhsil, elm, səhiyyə, incəsənət və idmanın inkişafı sahələrində fəaliyyət göstərən xarici ictimai təşkilatlar, o cümlədən fondlar, assosiasiyalar, federasiyalar və komitələr, həmçinin mənfəət götürmək məqsədi güdməyən digər xarici hüquqi şəxslər, eləcə də xarici fiziki şəxslər donor qismində çıxış edə bilərlər. Azərbaycan dövləti adından Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrantlar müsabiqə əsasında verilir.

DOTASİYA – dövlət, regional və yerli büdcədən onlardan aşağı və tabe olan büdcələrə, müəssisə və ya təşkilatlara geri qaytarılmamaq şərtilə verilən pul vəsaitləri. Latın dilində "dotatio" – "bəxşiş", "hədiyyə" deməkdir. "Büdcə sistemi haqqında" 2 iyul 2002-ci il tarixli 358 nömrəli AR-Qanununun 1.1.14-cü maddəsinə əsasən, dotasiya dövlət büdcəsindən Naxçıvan MR büdcəsinə və yerli büdcələrə onların gəlir və xərclərini tənzimləmək məqsədi ilə əvəzsiz verilən maliyyə vəsaitidir. Dotasiyalar subsidiya və subvensiyalara bölünür. Dotasiyaların ən geniş yayılmış növünü vergi güzəştlərinin ləğv olunması itkilərinin kompensasiyası, həmçinin defisitlərin örtülməsi məqsədilə dövlət büdcəsindən verilən dotasiyalar təşkil edir. Dotasiyalar, adətən, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən dövlət və xüsusi müəssisələrə verilir.

DÖVLƏT – müəyyən idarəetmə formasına malik cəmiyyətin siyasi təşkilatı; cəmiyyətin idarəetməsini, onun iqtisadi və sosial strukturunun mühafizəsini həyata keçirən, hökumət və onun orqanlarının rəhbərlik etdiyi cəmiyyətin siyasi formalı təşkilatı.



Azərbaycan Respublikasının dövlət bayrağı

"DÖVLƏT BORCU HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – dövlət borcalmalarının həyata keçiril-

məsini və dövlət zəmanətlərinin verilməsini, habelə dövlət borcunun idarə olunmasında iştirak edən subyektlər arasındakı münasibətləri tənzimləyən Qanun (22.07.2007-ci il tarixli 334 nömrəli). Bu Qanun AR Prezidentinin 6 avqust 2007-ci il tarixli 610 nömrəli Fərmanı ilə tətbiq edilmişdir. Preambula və 20 maddədən ibarət Qanun dərc edildiyi gündən qüvvədədir.

DÖVLƏT BÜDCƏSİ – müvafiq hakimiyyət orqanları vasitəsi ilə dövlətə məxsus funksiyaların yerinə yetirilməsini təmin etmək üçün lazım olan pul vəsaitinin qanunla müəyyən olunmuş qaydada yığılması və xərclənməsi forması ("Dövlət büdcəsi haqqında" 18 may 1999-cu il tarixli 667-IQ nömrəli AR Qanununun 1-ci maddəsi).

DÖVLƏT GÖMRÜK KOMİTƏSİ – bax: *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi.*

DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN FUNKSİYALARI – AR Prezidentinin 1998-ci il 27 oktyabr tarixli 7 nömrəli fərmanı ilə təsdiq edilmiş AR DGK haqqında Əsasnamənin 4-cu bəndinə görə, AR DGK-nin funksiyaları aşağıdakılardır:

- gömrük işini təşkil etmək və onu təkmilləşdirmək;
- gömrük siyasətini həyata keçirmək;
- öz səlahiyyətləri daxilində respublikanın iqtisadi mənafeyini və təhlükəsizliyini qorumaq;
- öz səlahiyyətləri daxilində gömrük ərazisinin vahidliyini təmin etmək;
- qabaqcıl gömrük tənzimlənməsi vasitələrinin tətbiqini təşkil etmək;
- icrasına nəzarət gömrük orqanlarına həvalə olunmuş gömrük işinə dair və digər qanunvericiliyə əməl olunmasını təmin etmək.

DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN HÜQUQLARI – AR DGK haqqında Əsasnamənin 6-cı bəndində AR DGK-nın hüquqları göstərilmişdir. Bu hüquqlar aşağıdakılardır:

- gömrük siyasətinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;
- gömrük işi haqqında qanunvericilik aktlarının və digər hüquqi aktların layihələrini hazırlamaq;
- xarici sərmayələrin cəlb edilməsi və ixracın stimullaşdırılması da daxil olmaqla, iqtisadiyyat sahəsində AR-in dünya birliyi ilə qarşılıqlı münasibətlərinin tənzimlənməsi mexanizmini təkmilləşdirmək haqqında təkliflərin hazırlanmasında iştirak etmək;
- dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin mənəviyyatının, insanların həyat və sağlamlığının, heyvan və bitkilərin, ətraf mühitin qorunması, daxili bazarın və Azərbaycan istehlakçılarının mənafeyinin müdafiəsi üzrə tədbirlərin həyata keçirilməsində AR gömrük orqanlarının iştirakını təmin etmək;
- AR üçün mühüm əhəmiyyət kəsb edən malların və materialların ixracına, habelə mədəni sərvətlərin aparılmasına nəzarətin təşkilində iştirak etmək;
- AR-in gömrük sərhədindən keçirilən mallara aid gömrük rüsumlarının, vergilərin, habelə digər ödənişlərin dərəcələri və tətbiqi mexanizminin təkmilləşdirilməsi haqqında müəyyən olunmuş qaydada təkliflər vermək;
- xarici-iqtisadi fəaliyyətin müvafiq mal nomenklaturasının aparıl-

masını, habelə onun hazırlanması, dəyişdirilməsi və ona əlavələr edilməsi üzrə işi təşkil etmək;

- gömrük rejimlərinin hüquqi tənzimləmə xüsusiyyətlərini müəyyən etmək;

- ayrı-ayrı kateqoriyalı malların sərbəst gömrük zonalarına və sərbəst anbarlara yerləşdirilməsini məhdudlaşdırmaq və ya qadağan etmək;

- ticarət məqsədləri üçün nəzərdə tutulmayan malların fiziki şəxslər tərəfindən keçirilməsinin sadələşdirilmiş, güzəştli qaydalarını müəyyən etmək;

- gömrük brokerlərinin və gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərin fəaliyyətinin hüquqi tənzimləmə xüsusiyyətlərini müəyyən etmək;

- ona həvalə edilmiş vəzifə və funksiyaları yerinə yetirmək üçün, mərkəzi icra hakimiyyəti orqanları da daxil olmaqla, hüquqi-təşkilati formasından asılı olmayaraq, müəssisələrdən və təşkilatlardan, habelə vəzifəli şəxslərdən və fiziki şəxslərdən sənədlər və məlumatlar tələb etmək;

- gömrük işi məsələləri üzrə koordinasiya və ekspert şuraları, işçi qruplar və müvəqqəti yaradıcı kollektivlər təşkil etmək; gömrük işi və gömrük siyasəti problemlərinin həlli məqsədi ilə müqavilə əsasında xarici ölkələrin mütəxəssisləri və alimləri də daxil olmaqla, elmi müəssisələri, alimləri və mütəxəssisləri cəlb etmək;

- rabitə və məlumatların ötürülməsinin xidməti sistemini yaratmaq;

- tabeçiliyindəki idarələrin, müəssisələrin və təşkilatların fəaliyyətinə rəhbərlik etmək, onların əsasnamələrini və nizamnamələrini təsdiq etmək, onların rəhbərlərini təyin etmək, maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını və təftişini həyata keçirmək;

- AR qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN NORMATİV AKTLARI – AR Dövlət Gömrük Komitəsi öz səlahiyyətləri daxilində gömrük işi üzrə AR-in bütün ərazisində qüvvədə olan, respublikanın bütün dövlət orqanları, hüquqi-təşkilati formasından asılı olmayaraq idarələr, müəssisələr və təşkilatlar, habelə vəzifəli şəxslər və fiziki şəxslər tərəfindən icrası məcburi olan normativ aktlar qəbul edir.

DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN VƏZİFƏLƏRİ – Dövlət Gömrük Komitəsi "AR DGK haqqında Əsasnamə"nin 5-ci bəndində təsbit edilmiş aşağıdakı vəzifələri yerinə yetirir:

- gömrük siyasətinin həyata keçirilməsi üçün hüquqi, iqtisadi, təşkilati mexanizmlər hazırlayır və onların həyata keçirilməsini təmin edir;

- gömrük işinin inkişaf proqramını hazırlayır və həyata keçrir;

- gömrük nəzarətinin həyata keçirilməsini və təkmilləşdirilməsini təşkil edir, bu cür nəzarətin səmərəliliyinə zərər vurmadan onun sadələşdirilməsi və təkmilləşdirilməsi üçün tədbirlər görür;

- gömrük sərhədindən keçirilən mallar barəsində qiymətlərin tənzimlənməsi və digər qeyri-tarif tədbirləri də daxil olmaqla, iqtisadi proqramların işlənib hazırlanmasında iştirak edir və öz səlahiyyətləri daxilində on-

ların həyata keçirilməsini təşkil edir.

- AR-in gömrük sərhədindən keçirilən mallardan vergilərin, gömrük rüsumlarının, aksizlərin, habelə digər gömrük ödənişlərinin alınmasını təşkil edir;

- malların gömrük dəyərinin düzgün müəyyən olunması üzərində nəzarət sistemini təşkil edir;

- gömrük rüsumlarının, vergilərin vaxtında və tam həcmdə dövlət büdcəsinə köçürülməsini təmin edir;

- AR qanunvericiliyində nəzərdə tutulmuş hallarda lisenziya və ya ixtisas attestatları verir, onları ləğv edir, yaxud geri alır, reyestrinin aparılmasını təmin edir;

- mallar və nəqliyyat vasitələri AR-in gömrük sərhədindən keçirilərkən müvafiq gömrük rejimlərindən səmərəli istifadəni təmin edir;

- malların və nəqliyyat vasitələrinin AR-in gömrük sərhədindən keçirilməsinə dair qaydaların işlənib hazırlanmasını təşkil və onların icrasını təmin edir;

- malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsini təşkil edir, onun təkmilləşdirilməsi və sadələşdirilməsi üçün tədbirlər görür;

- müstəqil surətdə, yaxud zəruri olduqda digər hüquq-mühafizə orqanları cəlb edilməklə gömrük nəzarəti zonası rejiminə riayət olunmasına nəzarəti təmin edir, gömrüyün infrastruktur obyektlərinin mühafizə sistemini təşkil edir, AR-in gömrük sərhədinin qorunması məqsədi ilə digər tədbirləri həyata keçirir;

- icrasına nəzarət AR-in gömrük orqanlarına həvalə olunmuş gömrük işi üzrə və digər qanunvericilik aktlarına əməl olunmasını təmin edən tədbirlər sistemini hazırlayır və həyata keçirir;

- rezident və qeyri-rezident tərəfindən milli və xarici valyutanın, eləcə də digər valyuta sərvətlərinin müvafiq qanunvericiliyə uyğun olaraq AR-in gömrük sərhədindən keçirilməsinə, habelə AR GM ilə nəzərdə tutulmuş digər hallarda valyuta nəzarətini həyata keçirir;

- qaçaqmalçılığa və gömrük işi sahəsində digər cinayətlərə qarşı mübarizə aparılmasını təşkil edir. AR-in gömrük orqanları tərəfindən bu cür cinayətlər üzrə qüvvədə olan qanunvericilik aktlarına müvafiq olaraq təhqiqat, ibtidai istintaq aparılmasını və əməliyyat-axtarış fəaliyyəti həyata keçirilməsini təmin edir;

- gömrük qaydalarının pozulmasına və AR-in gömrük orqanlarının nominal fəaliyyətinə qəsd edən inzibati xətalara qarşı mübarizəni təşkil edir;

- narkotik vasitələrin və psixotrop maddələrin, silahların, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvətləri olan əşyaların, intellektual mülkiyyət obyektlərinin, habelə digər malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq məqsədi ilə tədbirlər sistemi hazırlayır və həyata keçirir;

- Xəzər dənizinin (gölünün) AR-ə mənsub olan bölməsində bioloji sərvətlərdən səmərəli istifadə edilməsi və onların qorunması üzrə dövlət siyasətinin hazırlanıb həyata keçirilməsində iştirak edir, öz səla-

hiyyətləri daxilində bioloji sərvətlərin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi zamanı mövcud qanunvericiliyin tələblərinin yerinə yetirilməsi üzərində nəzarəti təmin edir;

- AR-in dəmir yolu vağzallarında, hava və dəniz limanlarında beynəlxalq nəqliyyat vasitələrinin fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasında və beynəlxalq terrorçuluqla mübarizədə Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarına köməklik göstərir;

- AR-in gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən qaçaqmalçılıq və gömrük işi sahəsində digər cinayətlər, gömrük qaydalarının pozulması işləri və AR-in gömrük orqanlarının normal fəaliyyətinə qəsd edən inzibati xətalar haqqında işlər üzrə icraat zamanı, habelə əməliyyat-axtarış tədbirləri həyata keçirilərkən qanunçuluğa əməl olunmasına nəzarəti həyata keçirir;

- AR-in xarici ticarətinin gömrük və xüsusi gömrük statistikasının aparılmasını təşkil edir;

- müəyyən olunmuş qaydada gömrük statistikasına dair və digər gömrük işinə aid məlumatları AR Prezidentinə, AR NK-ya və digər mərkəzi icra hakimiyyəti orqanlarına (onların fəaliyyətinə dair məsələlər üzrə) təqdim edir;

- AR qanunvericiliyinə uyğun olaraq, maraqlı şəxslərin gömrük məsələləri üzrə məlumatlandırılması və onlara məsləhətvermənin təminat sistemini yaradır;

- gömrük işi həyata keçirilərkən fiziki şəxslərin və təsərrüfat subyektlərinin hüquq və mənafelərinin müdafiəsi üzrə tədbirlər görür;

- AR gömrük orqanlarının və onların vəzifəli şəxslərinin qərarlarından (o cümlədən normativ aktlarından), hərəkət və hərəkətsizliyindən şikayət etmə üzrə fiziki və hüquqi şəxslərin hüquqlarının reallaşdırılması üçün şərait yaradır;

- şikayətlərə və müraciətlərə vaxtında və tam baxılmasını təmin edir; fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin pozulmasını yaradan səbəblərin aradan qaldırılması üçün tədbirlər görür;

- öz səlahiyyətləri daxilində gömrük işi üzrə mühüm hüquqi aktların nəşrini təmin edir;

- AR-də gömrük işinin inkişafı və vəziyyətinə dair məlumat-izahat işləri aparır; bu məqsədlə kütləvi informasiya vasitələrindən və digər təbliğat vasitələrindən istifadə edir;

- konkret mallarla və ya təsərrüfat əməliyyatları ilə əlaqədar gömrük işi haqqında qanunvericilik aktlarının tətbiqi məsələləri üzrə öz qərarlarının qəbulu və fəaliyyət göstərməsini təmin edir;

- AR-də gömrük işi haqqında qanunvericiliyin tətbiqi təcrübəsini ümumiləşdirir və təhlil edir;

- gömrük işi məsələləri ilə məşğul olan beynəlxalq təşkilatların işində iştirak edir;

- AR-in gömrük işinə dair beynəlxalq öhdəliklərinin yerinə yetirilməsini təmin edir;

- xarici dövlətlərin gömrük və digər səlahiyyətli orqanları ilə əməkdaşlığı və qarşılıqlı fəaliyyəti həyata keçirir;

- gömrük işi sahəsində elmi-tədqiqat işlərinin aparılmasını təşkil edir;

- xarici dövlətlərin gömrük siyasətini və bu dövlətlərdə gömrük işinin vəziyyətini öyrənir və təhlil edir;

- gömrük orqanlarının vəzifəli şəxslərinin hazırlanmasını və ixtisaslarının artırılmasını, gömrük laboratoriyalarında, habelə digər tabeli idarə, müəssisə və təşkilatlarda işləmək üçün mütəxəssislər hazırlanmasını təmin edir;

- gömrük idarələri, gömrükxanalar, gömrük postları, gömrük laboratoriyaları, elmi-tədqiqat və tədris müəssisələri, hesablama mərkəzləri yaradır və ləğv edir;

- AR gömrük orqanlarının vahid avtomatlaşdırılmış məlumat sisteminin yaradılmasını, fəaliyyət göstərməsini və təkmilləşdirilməsini təmin edir;

- AR-də gömrük işinin inkişafı üzrə həyata keçirilən tədbirləri maliyyələşdirir;

- müəyyən olunmuş qaydada AR gömrük sisteminin büdcədənkənar inkişaf fondunu idarə edir və onun üzərində sərəncam verir;

- gömrük orqanlarının, gömrük laboratoriyalarının, tabeçiliyində olan digər idarə, müəssisə və təşkilatların maddi-texniki və sosial bazasını inkişaf etdirir;

- gömrük orqanlarının vəzifəli şəxslərinin, gömrük laboratoriyalarının, həmçinin, tabeliyindəki digər idarələrin, müəssisələrin, təşkilatların işçilərinin dövlət və sosial müdafiəsini, fiziki hazırlığını təmin edir, onların tibbi təminatını həyata keçirir;

- AR-in qanunvericiliyi ilə ona həvalə edilmiş digər vəzifələri yerinə yetirir.

DÖVLƏT GÖMRÜK ORQANLARI VƏ TƏŞKİLATLARI – AR DGK-nın AR Prezidentinin 2001-ci il 19 iyun tarixli 510 nömrəli fərmanı ilə təsdiq edilmiş strukturuna görə müəyyən edilmiş orqanlar və təşkilatlar. Bu gömrük orqanları və təşkilatları aşağıdakılardır:

Naxçıvan Gömrük Komitəsi; Bakı Baş Gömrük İdarəsi; Hava Nəqliyyatında Baş Gömrük İdarəsi; Xəzər dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi İdarəsi; Enerji gömrükxanası; Naxçıvan şəhər gömrükxanası; Astara gömrükxanası; Balakən gömrükxanası; Biləsuvar gömrükxanası; Şirvan gömrükxanası; Yevlax gömrükxanası; Gəncə gömrükxanası; Sədərək gömrükxanası; Sumqayıt gömrükxanası; Tovuz gömrükxanası; Xaçmaz gömrükxanası; Xudafərin gömrükxanası; Culfa gömrükxanası; Mərkəzi laboratoriya; «Azərterminalkompleks» təsərrüfat hesablı xarici iqtisadi birlik Avtomobil təsərrüfatı; Tədris mərkəzi; İdman-sağlamlıq mərkəzi.



Dövlət Gömrük Komitəsi Avtonəqliyyat Gömrük İdarəsi

DÖVLƏT XƏZİNƏDARLIQ AGENTLİYİ – dövlət büdcəsinin kassa icrasını həyata keçirən və həmin maliyyə əməliyyatlarının uçotunu aparan, büdcə xərcləri üzrə dövlətin adından büdcə təşkilatları qarşısında öhdəlikləri qəbul edən, AR-də dövlətə məxsus maliyyə vəsaitlərinin vahid mərkəzdən idarə edilməsi, bu vəsaitlərin daxil olması və məqsədyönlü xərclənməsi sahəsndə cari nəzarəti həyata keçirən icra hakimiyyəti orqanı.

DÖVLƏT İMMUNİTETİ – dövlətə və onun orqanlarına xarici dövlətin məhkəməsində iddia irəli sürülə bilinməməsini göstərən beynəlxalq hüququn prinsipi. Xarici dövlətin əmlakı məcburi xarakterli heç bir tədbirə məruz qalmamalıdır.

DÖVLƏT İSTİQRAZLARI – dövlət tərəfindən buraxılan borc qiymətli kağızları. Dövlət istiqrazları dövlətin əsas borclanma mexanizmlərindən biri olub, hər hansı fövqəladə hadisə ilə əlaqədar tələb olunan xərclərin (məsələn, hərbi xərclər) qarşılanması və ya bu və ya digər tədbirlərin həyata keçirilməsi üçün çatışmayan vəsaitin əldə olunması məqsədi güdür. Bu zaman borcalan kimi dövlət çıxış edir. Bir qayda olaraq, dövlət istiqrazının yerləşdirilməsi borcverənlər tərəfindən bu istiqrazların alınması yolu ilə həyata keçirilir ki, bu zaman borcverən borcalandan təqdim edilən pul vəsaitinə və ya digər əmlaka görə müəyyən edilmiş faiz gəlirləri və ya dövlət istiqrazının tədavülə buraxılma şərtləri ilə nəzərdə tutulmuş digər hüquqları əldə etmiş olur.

DÖVLƏT QEYDİYYATI – dövlət tərəfindən qeydiyyatı aparılan qeydiyyat obyektlərinin (məhsulların, hüquqi şəxslərin, daşınmaz əmlakın və s.) reystrlərə (siyahılara) daxil edilməsi.

DÖVLƏT QULLUĞU – AR Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsi.

DÖVLƏT MALİYYƏLƏRİ BEYNƏLXALQ İNSTİTUTU – dövlət maliyyələri sahəsində fəaliyyət göstərən iqtisadçıları birləşdirən təşkilat. Təşkilatın əsası 1937-ci ildə Paris şəhərində qoyulub. Təşkilatın əsas məqsədi dövlətlərin iqtisadi siyasətləri barədə bütün dünyadan olan dinləyicilər arasında fikir mübadiləsinin və akademik araşdırmaların aparılmasından ibarətdir. Hazırda institut 50 ölkədən 800-ə yaxın nümayəndəni birləşdirir.

DÖVLƏT MÜLKİYYƏTİ –AR-ə mülkiyyət hüququ ilə mənsub olan əmlak dövlət mülkiyyətidir. Fiziki, hüquqi şəxslərin və ya bələdiyyələrin mülkiyyətində olmayan torpaq və digər təbii ehtiyatlar dövlət mülkiyyətidir. Dövlət büdcəsinin vəsaiti AR mülkiyyətidir.

DÖVLƏT PROQRAMI – mövcud resurslardan istifadə yolu ilə perspektivli hədəflərin və məsələlərin nailiyyətini təmin edən iqtisadiyyatın dövlət tənzimləməsi aləti.

DÖVLƏT REYESTRİ – AR-də qəbul edilən normativ hüquqi aktları, normativ xarakterli aktları, AR Milli Məclisinin qərarlarını, AR Prezidentinin və AR Nazirlər Kabinetinin sərəncamlarını, həmçinin, onların rekvizitlərini əks etdirən dövlət informasiya ehtiyatı.

DÖVLƏT RÜSUMU – dövlət orqanları tərəfindən hakimiyyət səlahiyyətlərinin icrası zamanı göstərilən və hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlərə və hüquqi hərəkətlərə görə (sənədlərin tərtibi, qeydiyyatı, razılıqların verilməsi və s.) ödənilən haqq (ödəniş). AR İXM-yə görə dövlət rüsumunu tutan səlahiyyətli vəzifəli şəxslər tərəfindən dövlət rüsumunun düzgün tutulmamasına və ya dövlət büdcəsinə vaxtında və tam ödənilməməsinə görə vəzifəli şəxslər 70 man.-dan 90 man.-dək miqdarda cərimə edilirlər (maddə 248).

"DÖVLƏT RÜSUMU HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – Dövlət rüsumunun tutulduğu halları, dövlət rüsumunun ödəyicilərini, dövlət rüsumunun hesablanması və ödənilməsi qaydalarını, düzgün tutulmamış və artıq ödənilmiş dövlət rüsumunun büdcədən qaytarılması qaydalarını, dövlət rüsumu tutan orqanların məsuliyyətini, dövlət rüsumunun ödənilməsinə nəzarəti və dövlət rüsumunun dərəcələri və ödənilməsinin xüsusiyyətlərini müəyyən edən Qanun. 2001-ci il 4 dekabr tarixli 223-IIQ nömrəli bu Qanun 2002-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. İki fəsildən və 35 maddədən ibarətdir.


DÖVLƏT RÜSUMUNUN QAYTARILMASI – ödənilmiş (artıq ödənilmiş) dövlət rüsumunun ödəyən tərəfin müraciəti əsasında alan orqan tərəfindən qaytarılması.

DÖVLƏT SEKTORU – dövlət orqanları tərəfindən tamamilə nəzarət edilən, dövlətin mülkiyyətində olan qarışdırılmış iqtisadiyyatın hissəsi. İqtisadiyyatın dövlət sektoruna daxildir: təhsil, milli səhiyyə xidməti, sosial xidmətlər, ictimai nəqliyyat, milli və yerli dövlət müəssisələri və dövlət korporasiyaları.

DÖVLƏT SƏRHƏDİ – AR dövlət ərazisinin (quru və su ərazisinin, yerin təkinin, dəniz və hava fəzasının) hüdudlarını müəyyən edən xətt və bu xətt üzrə keçən şaquli səth. AR dövlət sərhədi AR dövlət suverenliyinin ərazi hüdududur.

DÖVLƏT TORPAQ KADASTRI – torpaq istifadəçiliyinin dövlət qeydiyyatı, torpaqların kəmiyyət və keyfiyyətcə uçotu, bonitirovkası (məh-suldarlığına görə torpağın qiymətləndirilməsi) və iqtisadi qiymətləndiril- məsi üzrə məlumatların məcmusu.

"DÖVLƏT TORPAQ KADASTRI, TORPAQLARIN MONİTORİNQİ VƏ YER QURULUŞU HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – AR-də dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu işlərinin nizama salınmasının hüquqi əsaslarını müəyyən edən Qanun. AR Prezidenti tərəfindən 22 dekabr 1998-ci ildə imzalanmışdır (№ 593- IQ).


RUSİYA FEDERASİYASI
DAĞISTAN
TBİLİSİ
RUSTAVİ
Marneuli
Qardabani
Gürcüstan
Saqareco
Qazax
Ağstafa
Tovuz
Dilican
Şəmkir
GƏNCƏ
Daşkəsən
Xanlar
Göygöl
YEVLAX
Ucar
Bərdə
Tərtər
Ağdam
XANKƏNDİ
Laçın
Füzuli
Beyləqan
İmişli
Ağcabədi
Sabirabad
ƏLİ-BAYRAMLI
Saatlı
Hacıqabul
Şəki
Qəbələ
İsmayıllı
Şamaxı
Quba
Qusar
Xaçmaz
Davaçi
Siyəzən
SUMQAYIT
Xırdalan
BAKI
Pirallahı
Şirvan
Salyan
Neftçala
Biləsuvar
Cəlilabad
Lənkəran
Astara
Masallı
Yardımlı
Göyçə gölü
Xəzər dənizi
Kür
Araz
Qabırrı
Tərtər
Qarqar
Turşsu su anb.
Mingəçevir su anb.
Şəmkir su anb.
Sarısu su anb.
Ağstafa su anb.
Qanıx
Alazani
Qaraçay
Samur
Qudyalçay
Qusarçay
Qamışlı
Girdimançay
Xudafərin
Qarasu
Araz
Kür

yolu ilə qəbul olunan, vergi xidmətində olduğu müddət ərzində xüsusi rütbə daşıyan, xidmətçəkmə qaydalarını və hüquqi vəziyyətinin əsaslarını AR-in 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə" müəyyənləşdirən vəzifəli şəxs və ya icra hakimiyyəti orqanları sisteminə daxil olan vergi orqanlarının funksiya və məqsədlərini öz peşəkar fəaliyyətləri ilə həyata keçirən dövlət qulluqçusu.

DÖVLƏT VERGİ ORQANLARI – öz səlahiyyətləri çərçivəsində vergi ödəyicilərinin uçotunu aparan, vergilərin hesablanması və ödənilməsinə nəzarət edən, qanunvericilikdə nəzərdə tutulan hədlərdə hüquq mühafizə orqanlarının səlahiyyətlərini yerinə yetirməyə hüququ olan dövlət orqanları.

DÖVLƏT VERGİLƏRİ – mövcud qanunvericiliyə əsasən dövlət büdcəsinə ödənilməli olan vergilər. AR VM-ə görə dövlət vergilərinə aşağıdakılar aid edilir: fiziki şəxslərin gəlir vergisi; hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa); əlavə dəyər vergisi; aksizlər; hüquqi şəxslərin əmlak vergisi; hüquqi şəxslərin torpaq vergisi; yol vergisi; mədən vergisi; sadələşdirilmiş vergi.

DÖVLƏT VERGİLƏRİNƏ ƏLAVƏLƏR – bəzi dövlətlər tərəfindən yerli büdcələrin xərclərinin təmin olunması məqsədilə dövlət vergilərinin (federal vergilərin) məbləğinə müəyyən faizlə tətbiq olunan əlavə vergi məbləğləri.

DÖVLƏT VƏ BƏLƏDİYYƏ QİYMƏTLİ KAĞIZLARI – hökumət və ya yerli hakimiyyət orqanları tərəfindən büdcənin defisitinin aradan qaldırılması məqsədi ilə buraxılmış və hökumət tərəfindən hökmən zəmanət verilmiş qiymətli kağızlar.

DÖVLƏTƏ MƏCBURİ ÖDƏMƏLƏR – büdcə sisteminə daxil olan müvafiq büdcəyə və ya büdcədənkənar fondlara qanunvericilikdə nəzərdə tutulan qaydada ödənilməli olan vergilər, rüsumlar, yığımlar və digər məcburi ödəmələr, o cümlədən vaxtlı-vaxtında qanunvericiliyin tələblərinə riayət edilmədiyinə görə ödənilən cərimələr, faizlər və s. ödəmələr.

DÖVR – hər hansı başa çatmış prosesi əhatə edən zaman intervalı; iqtisadi proses, hərəkət, plan, müqavilə, zəmanət, borcların, vergilərin ödənilməsi, işlərin yerinə yetirilməsi müddətinin axımı.

DÖVRİ GÖMRÜK BƏYANNAMƏSİ – Eyni mallar və nəqliyyat vasitələri eyni bir şəxs tərəfindən müntəzəm olaraq keçirildikdə, AR gömrük orqanı malların və nəqliyyat vasitələrinin AR-in gömrük sərhədindən keçirilməsinə dair müəyyən müddət ərzində bir dövri bəyannamə verilməsinə icazə verə bilər.

DÖVRİYYƏ – vergitutma məqsədləri üçün müəyyən bir dövr ərzində bütün mənbələr üzrə əldə edilən vəsaitin məbləği.

DÖVRİYYƏ VƏSAİTLƏRİ – bir il ərzində, yaxud adi (normal) əməliyyat dövründə (bu dövr bir ildən çox olmamaqla) istehsal, tədavül və istehlak sahələrində iştirakı nəzərdə tutulan pul vəsaitləri və digər aktivlər

(kassada və bankda olan pul vəsaitləri, tez satılan qiymətli kağızlar, debitor borcları, mal ehtiyatları, xammal, materiallar, bitməmiş istehsalat, hazır məhsul, gələcək dövrün xərclərinin cari hissəsi).

DÖVRİYYƏDƏN VERGİLƏR – sahibkarlıq fəaliyyəti çərçivəsində malların (işlərin, xidmətlərin) dövriyyəsindən tutulan bir qrup dolayı vergi növü. Bu vergilərə müəssisələrin və təşkilatların mallarının (işlərinin, xidmətlərinin) dövriyyəsindən, bəzi hallarda isə sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərin mallarının (işlərinin, xidmətlərinin) reallaşdırılmış həcmindən tutulan vergilər daxildir. İki əsas növü var: dövriyyədən vergi və ƏDV. Bunlardan əlavə fərdi aksizlər, pərakəndə ticarətdə dövriyyədən vergi (satışdan vergi) də vergilərin bu qrupuna aiddir. Ölkələrin əksəriyyətində dövriyyədən vergilər müəssisənin ümumi dövriyyəsinin dəyərindən tutulur. Ölkə daxilində satılan kütləvi istehlak malları və xidmət müəssisələrinin gəlirləri bu vergilərin əsas hissəsini təşkil edir.

Dövriyyədən vergilər 1914-1918-ci illərdə – Birinci Dünya müharibəsi dövründə əvvəlcə Almaniya və Fransada, sonra isə digər ölkələrdə geniş istifadə olunurdu. Məqsəd müharibə nəticəsində büdcədə yaranan çatışmazlığı aradan qaldırmaq idi. İnflyasiya və vergitutma obyektlərinin artırılması nəticəsində vergilərin həcmi getdikcə artırdı. Əvvəlcə vergi malın istehsalının və dövriyyəsinin bütün mərhələlərində (çoxpilləli və ya kumulyativ adlanan üsulla) tutulurdusa, sonralar ölkələrin əksəriyyəti yüksək dərəcə tətbiq etməklə birpilləli sistemə keçdi. Çoxpilləli sistemdən Almaniya, Belçika, Avstriya və daha bir neçə ölkə keçən əsrin 60-cı illərindən istifadə etmişlər.

Dövlət ixrac mallarını dövriyyə vergisindən azad etməklə ölkədə istehsal edilən malların ixracını stimullaşdırır. İnkişaf etmiş ölkələrdə dövriyyədən vergilər yalnız fiskal əhəmiyyət daşımır, həm də istehsal prosesinə təsir edir.

SSRİ-də 1930-1932-ci illərin vergi islahatları nəticəsində dövriyyə vergisi tətbiq edilirdi (SSRİ MİK və XKS-in 2 sentyabr 1930-cu il tarixli qərarı). Bu vergi təsərrüfat hesabı ilə fəaliyyət göstərən və SSRİ Dövlət Bankında hesabı olan dövlət istehsal birliklərindən, müəssisələrdən, ictimai və kooperativ (kolxozlardan başqa) təşkilatlardan tutulurdu.

DUAYEN – hər hansı ölkədə olan diplomatik korpusun rəhbəri. Fransız dilində "başçı", "rəhbər" mənasında işlənən "doyen" sözündən götürülmüşdür.

DUBLİKAT – sənədin, əşyanın surəti və ya növbəti nüsxəsi.

"DUTY FREE" – iki dövlətin iki gömrük postunun arasında yerləşdirilmiş ticarət nöqtəsi. Satılan mala aksizlər, ƏDV və rüsumlar tətbiq olunmadığı üçün bu mağazalarda pərakəndə qiymətlər daha aşağı olur. Tipik çeşid – spirtli içkilər, tütün məmulatları, ətriyyat və sair.

DÜNYA BANKI – inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki yardımın göstərilməsi məqsədi ilə yaradılmış beynəlxalq maliyyə təşkilatı. Hal-hazırda faktiki olaraq



Dünya Bankının baş ofisi (ABŞ, Vaşinqton)

Dünya Bankı adı altında iki təşkilat başa düşülür: Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı; Beynəlxalq İnkişaf Assosiasiyası. Müxtəlif vaxtlarda, Dünya Bankının vəzifələrinin həyata keçirilməsi üçün daha üç təşkilat onlara qoşulmuşdur: Beynəlxalq Maliyyə Korporasiyası; İnvestisiya Zəmanətləri üzrə Çoxtərəfli Agentlik; İnvestisiya Mübahisələrinin Nizamlanması üzrə Bey- nəlxalq Mərkəz. Bütün beş təşkilat Dünya Bankının təşkilatları qrupuna daxildir və Dünya Bankı Qrupu adlanır. Dünya Bankı inkişaf etməkdə olan ölkələrə göstərilən maliyyə və texniki dəstəyin vacib mənbəyidir. Onun missiyası sabit nəticələrin əldə edilməsinə çalışaraq yoxsulluğa qarşı mübarizə aparmaq, resurslar təqdim edərək, biliklərlə bölüşərək, dövlət və özəl sektorlarda potensialın artırılmasına və tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə köməklik edərək insanlara yaşayış şəraitinin və ətraf mühitin yaxşılaşdırılmasında yardım etməkdir.

E

EFFEKTİV ƏLAQƏLİ GƏLİR – ABŞ-da istifadə olunma və ya istifadə olunma üçün saxlanılma, habelə ABŞ-da fəaliyyət maddi amil olmaqla aktivlərdən (əmlaklardan) əldə olunan gəliri ifadə edən ABŞ-ın vergi qanunvericiliyində tətbiq edilən termindir. Effektiv əlaqəli gəlirin konsepsiyası ABŞ-ın ərazisində fəaliyyət göstərən və ya göstərmiş qeyri-rezident xarici fiziki şəxslərin və xarici korporasiyaların vergidən yayınmasına qarşı müəyyən edilmiş tədbirdir. Bu konsepsiya ABŞ-ın Daxili Gəlirlərinin Xidmətinə qeyri-rezident xarici fiziki şəxslər və xarici korporasiyalar tərəfindən əldə olunan gəlirlərin ayrı-ayrı növlərindən rezidentlərin vergiyə cəlb olunması şərtlərinə müvafiq olaraq vergi tutmasına əsas verir. Effektiv əlaqəli gəlirin konsepsiyasının tətbiqi zamanı ABŞ ilə bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması barədə sazişlərin müddəaları nəzərə alınır.

EHTİYAT MALLAR – gömrük ərazisinə gəldiyi zaman qatarlarda, dəniz və hava gəmilərində olan və ya gömrük ərazisində olduğu zaman qatarlarda, dəniz və hava gəmilərində yerdəyişmə edilən (yüklənən) mallardır (termin RF gömrük qanunvericiliyində tətbiq edilir): qatarların, dəniz və hava gəmilərinin yolda və ya aralıq dayanacaqlarda (dayanacaq məntəqələrində) olduğu zaman normal istismarının və texniki xidmətinin təminatı üçün lazım olan ehtiyat hissələr və avadanlıqlar istisna olunmaqla yanacaq və sürtkü materialları; qatarlarda, dəniz və hava gəmilərində olan, satılıb- satılmamasından asılı olmayaraq, sərnişinlərin və ekipajın üzvlərinin (qatar briqadasının işçilərinin) istehlakı üçün nəzərdə tutulmuş mallar; gömrük sərhədini keçən dəniz və hava gəmilərinin sərnişinlərinə və ekipaj üzvlərinə satılması üçün nəzərdə tutulmuş və həmin gəmilərdə istehlak edilməsi məqsədi olmayan mallar (RF Hökumətinin 9 iyul 2001-ci il tarixli 524 nömrəli qərarı ilə təsdiq edilmiş "Ehtiyat malların yerdəyişməsinin gömrük rejimi haqqında Qaydalar"ın 2-ci bəndi).

EHTİYAT ÜSULU – gömrük qanunvericiliyinə uyğun olaraq ölkə ərazisinə gətirilən malların gömrük dəyərinin müəyyən edilməsi üsulu.

EHTİYAT SIĞORTA FONDLARINA AYIRMALARIN GƏLİRDƏN ÇIXILMASI – sığorta fəaliyyəti ilə məşğul olan hüquqi şəxs tərəfindən AR qanunvericiliyi ilə müəyyən edilmiş normalara uyğun olaraq ehtiyat sığorta fondlarına ayırma məbləğlərinin gəlirdən çıxılması.

EHTİYATLARIN YARADILMASINA MƏSRƏFLƏR – bankların mənfəət vergisi üzrə vergitutma bazasının azaldılması kimi səciyyələndirilən xərc növü. Banklar, şübhəli borclar üzrə ehtiyatlar istisna olmaqla, ssudalar və ona bərabər tutulan borclar üzrə (banklararası kre-

ditlər, depozitlər və müxbir hesablarda yerləşdirilmiş vəsaitlər üzrə borc da daxil olmaqla) mümkün zərərlərin qarşılanması üçün ehtiyatlar yarada bilərlər.

EKSPATRİASİYA – ölkə hüdudlarından könüllü və ya məcburi şəkildə kənara çıxarılma (adətən, vətəndaşlıqdan məhrum etmə ilə bağlıdır).

EKSPATRİANT – ekspatriasiya həyata keçirən və ya ekspatriasiyaya məruz qalan şəxs.

EKSPERT – təhqiqat orqanları, məhkəmə və ya digər orqanlar tərəfindən ekspertiza keçirilməsi və həlli xüsusi biliklər tələb edən məsələlər üzrə rəy verilməsi üçün cəlb edilən, elm, texnika, incəsənət və s. sahələr üzrə xüsusi biliklərə malik olan şəxs; elm, texnika, incəsənət və digər peşə sahəsində xüsusi biliklərdən istifadə etməklə rəy verməyə qadir olan, cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında materialların tədqiqinin aparılması üçün cinayət prosesini həyata keçirən orqan və ya onun tələbi ilə ekspert müəssisəsinin rəhbərliyi tərəfindən təyin edilmiş şəxs; məhkəmə ekspertizasının aparılması həvalə olunmuş, məhkəmə ekspertizasının predmetinə aid olan xüsusi məsələlərə dair zəruri biliyə malik olan və işin nəticəsində marağı olmayan şəxs.

Zəruri hallarda səyyar vergi yoxlamasına ekspert cəlb edilə bilər. Bu zaman ekspert qarşısında qoyulan suallar və onun rəyi ekspertin xüsusi biliyindən kənara çıxmamalıdır. Ekspert müqavilə əsasında cəlb edilir və bu müqavilədə tərəflərin hüquqları, vəzifələri, ekspert qarşısında qoyulan suallar, səhv və ya bilərəkdən yalan rəy verməsinə görə ekspertin məsuliyyəti və mülki qanunvericiliklə müəyyən edilmiş digər məsələlər nəzərdə tutula bilər (AR VM, maddə 44.1,44.2).

Ekspert, ona təqdim edilmiş materiallar kifayət qədər olmadıqda və ya ekspertiza keçirilməsi üçün bilikləri çatışmadıqda, rəy verilməsindən imtina edə bilər (AR VM, maddə 44.5).

EKSPERTİZA – elm, texnika, incəsənət və s. sahələr üzrə xüsusi bilik tələb edən məsələlərə dair mütəxəssis-ekspert tərəfindən aparılan tədqiqat; təhqiqat, ibtidai istintaq orqanının və ya məhkəmənin (hakimin) icraatında olan işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr və proseslər haqqında xüsusi elmi biliklər əsasında aparılan tədqiqat.

AR VM-in 44-cü maddəsinə görə, səyyar vergi yoxlamasında qarşıya çıxan məsələlərin izah olunması üçün xüsusi biliklər tələb olunduğu hallarda yoxlamanı bilavasitə həyata keçirən vergi orqanının qərarı ilə ekspertiza təyin edilir. Bu qərarda ekspertizanın təyin edilməsi üçün əsaslar, ekspertin adı və ya ekspertiza keçirən təşkilatın adı, ekspert qarşısında qoyulan məsələlər və ekspertə təqdim olunan materiallar göstərilir.

EKZEKVATURA – beynəlxalq hüquqda digər ölkədə qəbul edilmiş məhkəmə qərarının icra edilməsi; qəbul edən dövlətin hökuməti tərəfindən konsulun qəbul edilməsini təsdiq edən rəsmi sənəd; konsulu qəbul edən dövlətin razılığı.

ELEKTRON AUDİT – kompüter texnologiyalarına əsaslanaraq elektron

formatda aparılan mühasibat əməliyyatlarının və onların mənbələrinin yoxlanması və audit məqsədləri üçün təhlil edilməsi.

ELEKTRON BƏYANNAMƏ – informasiyanın elektron-rəqəmsal formada təqdim olunduğu sənəd.

ELEKTRON HESAB-FAKTURALARI – faktura, mal təqdim edilməsi, iş görülməsi, xidmətlərin göstərilməsi müqabilində müştərinin borclandığı məbləği göstərmək üçün müştəriyə verilən ticari vəsiqə. İKT-nin və dolayısı ilə elektron ticarətin inkişaf etməsi nəticəsində elektron ödənişlər və elektron hesab-fakturalar yaranmışdır.

Elektron hesab-faktura – hesab-fakturada əks olunan məlumatların müəyyən standartlaşdırılmış forma üzrə hazırlanaraq qarşı tərəfə elektron daşıyıcıda internet şəbəkəsindən istifadə edilərək göndərilən mühasibatlıq sənədidir.

ELEKTRON HÖKUMƏT – dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin və operativliyinin yüksəldilməsi məqsədilə vətəndaşlara, biznes qurumlarına, dövlət qurumlarına formalaşmış dövlət xidmətlərinin çeşidinin informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə təqdim edilməsini və idarəetmə proseslərinin avtomatlaşdırılmasını təmin edən dövlət idarəetməsinin vahid elektron kargüzarlıq sistemi.

Dövlət, biznes və vətəndaşlar arasında qarşılıqlı münasibətlər elektron hökumətdə mövcud əsas modelləri müəyyənləşdirir: G2C (hökumət-vətəndaşlar), G2B (hökumət-biznes), G2G (hökumət-hökumət).

ELEKTRON XİDMƏTLƏR – informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməklə, tərəflər arasında bilavasitə təmas olmadan fiziki və hüquqi şəxslərə göstərilən xidmətlər.

ELEKTRON İMZA – fiziki və hüquqi şəxslərin identikləşdirilməsinə (eyniləşdirilməsinə) xidmət edən elektron-rəqəmsal formalı məlumat.



ELEKTRON KARGÜZARLIQ – internet və şəbəkə vasitəsi ilə təşkilatın öz vəzifələrini həyata keçirməsi ilə əlaqədar sənədləşdirmə və sənədlərlə işin təşkili üzrə fəaliyyəti.

ELEKTRON QEYDİYYAT – elektron qaydada göndərilmiş sənədlər əsasında dövlət qeydiyyatının həyata keçirilməsi.

ELEKTRON QUTU – kompüter şəbəkəsi üzrə elektron sənədlərin göndərilməsi və qəbul olunmasına yönələn xüsusi texnologiya və həmin texnologiya tərəfindən təqdim olunan xidmətlər. Elektron qutu vasitəsilə mübadilə istər daxili şəbəkədə, istərsə də beynəlxalq şəbəkədə aparıla bilər. 2011-ci ildən etibarən AR vergi ödəyiciləri Vergilər Nazirliyinin daxili şəbəkəsi olan AVİS-də (Avtomatlaşdırılmış Vergi İdarəetmə Sistemində) elektron qutu açmaq imkanını əldə etmişlər.

ELEKTRON MÜBADİLƏ – bütün sənədlərin yaradılması, verilməsi, saxlanması informasiya-rabitə texnologiyalarının vasitəsilə vahid şəbəkəyə daxil olan kompüterlərdə təmin olunan sənədləşmənin aparılması sistemi.

ELEKTRON VERGİ HESAB-FAKTURASI (VHF) – müəyyən forma üzrə hazırlanan və vergi ödəyicisinin və alıcının (sifarişçinin) adı, VÖEN-i, malın, işin və ya xidmətin adı, vergi tutulan əməliyyatın məbləği və həcmi, aksizli mallarda aksizin məbləği, vergi tutulan əməliyyatdan ödənilməli olan verginin məbləği, verilmə tarixi, nömrəsi, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyicisinin qeydiyyat bildirişini vermiş vergi orqanının adı, bildirişin verilmə tarixi və nömrəsi, elektron VHF-i imza etmiş məsul şəxsin vəzifəsi, soyadı, adı, atasının adını özündə əks etdirən ciddi uçot blankı.

Vergi ödəyicisi malın alıcısına (işlərin, xidmətlərin sifarişçisinə) elektron VHF-ni mal göndəriləndən (iş görüləndən, xidmət göstəriləndən) sonra 5 gündən gec olmayaraq verməyə borcludur.

Elektron VHF-nin tətbiqi, uçotu və istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı (AR NK) tərəfindən müəyyən edilir.

ƏDV-nin ödəyiciləri olmayan alıcılara pərakəndə mal göndərildikdə və ya xidmət göstərildikdə, elektron VHF əvəzinə qəbz və ya çek verilə bilər. Qəbzlər, çeklər, müəyyən edilmiş qaydada sifariş edilməyən, çap edilməyən və tərtib edilməyən elektron VHF-lər, nağd aparılan əməliyyatların rəsmiləşdirildiyi sənədlər verginin əvəzləşdirilməsinə əsas vermir və aparılan əvəzləşdirilmə etibarsız hesab edilir.

Aksizli malları göndərən vergi ödəyicisi normativ-hüquqi aktlara uyğun olaraq malı qəbul edənə elektron VHF yazmalı və verməlidir; mallar pərakəndə qaydada göndərildiyi hallarda elektron VHF çek və ya qəbz ilə əvəz edilə bilər.

Elektron hesab-fakturalarının tətbiqi, uçotu və istifadə qaydaları AR NK-nın 2009-cu il 28 sentyabr tarixli,156 nömrəli qərarı ilə təsdiq edilmişdir. Bu Qaydalara müvafiq tərtib edilməyən elektron vergi hesab-fakturası ƏDV-nin və aksizin əvəzləşdirilməsinə əsas vermir. Elektron vergi hesab-fakturalarının seriyaları və nömrələri AR VN-də tətbiq edilən AVİS vasitəsilə verilir. ƏDV ödəyicisi kimi qeydiyyatdan keçmiş və vergi tutulan əməliyyat aparan şəxs (satıcı) malları (işləri, xidmətləri) alan şəxsə (alıcıya, yaxud sifarişçiyə) elektron vergi hesab-fakturasını elektron formatda təqdim etməlidir. Elektron vergi hesab-fakturasının uçotu hər bir əlavə dəyər vergisinin ödəyicisi üzrə AR VN-in AVİS-i vasitəsilə həyata keçirilir. Elektron vergi hesab-fakturalarının eyni seriyada və eyni nömrədə təkrarlanmasına yol verilmir. Elektron vergi hesab-fakturası yalnız əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatdan keçmiş şəxslər tərəfindən təqdim edilə bilər.

EMİSSİYA – pul və qiymətli kağızların buraxılışı.

EMİSSİYA OLUNAN QİYMƏTLİ KAĞIZIN SERTİFİKATI – emitent tərəfindən verilən və serti-

fikatda qeyd edilən qiymətli kağızlara hüquqları təsdiq edən sənəd. Qiymətli kağızların sahibi bu sertifikat əsasında emitentdən öhdəliklərinin icrasını tələb etmək hüququna malikdir.

EMİISSİYA OLUNAN QİYMƏTLİ KAĞIZLAR – Qiymətli kağızların emissiyası emitentin qiymətli kağızlarının emissiyası haqqında qərarının qəbulunun, nəzərdə tutulmuş hallarda emissiya prospektinin tərtibinin, qiymətli kağızların buraxılışının, yerləşdirilməsinin və müəyyən edilmiş digər tədbirlərinin məcmusu.

EMİSSİYA OLUNAN QİYMƏTLİ KAĞIZLARIN SƏNƏDLİ FORMASI – investisiya qiymətli kağızları aşağıdakı formalardan birində emissiya edilə bilər:

1078-6.3.1. sənədli adlı qiymətli kağızlar;

1078-6.3.2. sənədsiz adlı qiymətli kağızlar;

1078-6.3.3. sənədli adsız qiymətli kağızlar.

EMİSSİYA OLUNAN QİYMƏTLİ KAĞIZLARIN YERLƏŞDİRILMƏSİ – investisiya qiymətli kağızların yerləşdirilməsi.

EMİTENT – qiymətli kağızların emissiyasını qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirən şəxs, müvafiq icra hakimiyyəti orqanı və müvafiq qaydada buna səlahiyyət verilmiş dövlət orqanı və ya bələdiyyə.

ETİL SPİRTİNİN, SPİRTLİ VƏ ALKOQOLLU MƏHSULLARIN İSTEHSALINA VƏ DÖVRİYYƏSİNƏ HÜQUQ VƏ LİSENZİYA VERİLMƏSİNƏ GÖRƏ YIĞIM – ayrı-ayrı fəaliyyət növlərinə xüsusi lisenziyanın verilməsi haqqında müvafiq qanunvericilik aktına əsasən müəyyən bir müddətdə bu fəaliyyətlə məşğul olmağa görə lisenziyanın (icazənin) verilməsinə görə alınan rüsum.

EYNİCİNSLİ MALLAR – Vergitutma məqsədləri üçün bircins elə mallar hesab olunur ki, identik olmamaqla oxşar xüsusiyyətlərə malik olurlar, oxşar komponentlərdən ibarətdirlər ki, bu da onlara eyni bir funksiyanı yerinə yetirməyə və bir-birini qarşılıqlı surətdə əvəz etməyə imkan verir.

EYNİCİNSLİ MALLARLA QİYMƏT SÖVDƏLƏŞMƏSİ METODU – vergitutma məqsədləri üçün malın (işin, xidmətin) qiymətinin təyin edilməsi üsulu. Tərəflər arasında sövdələşmə zamanı bircins malın (işin, xidmətin) qiyməti qanunvericiliklə məhdudlaşdırılan həddən az və ya çox olduqda vergitutma məqsədləri üçün bu metoddan istifadə olunur.

EYNİLƏŞDİRMƏ (İDENTİFİKASİYA) – eyni növdən olan və ya eyni xüsusiyyətə malik uçot obyektlərinin sayının uçotunun aparılması üçün istifadə edilən nömrələmə sistemi.

EZAMİYYƏ XƏRCLƏRİ – vergi ödəyiciləri tərəfindən işçilərin ezamiyyəyə göndərilməsi ilə əlaqədar çəkilən xərc növü. Ezamiyyə xərclərinin Nazirlər Kabinetinin müvafiq qərarına əsasən müəyyən edilmiş hədlərdə gəlirdən çıxılmasına qanunvericiliklə icazə verilir. Ezamiyyə xərclərinə işçilərin ezamiyyəyə getməgəlmə (nəqliyyat) xərcləri, mehmanxana xərcləri, yemək (gündəlik) xərcləri aiddir.

Ə

ƏLAVƏ DƏYƏR – məhsulun dəyərinin sonuncu istehsal müəssisəsində yaranan hissəsi; hər hansı obyektin istehsal etdiyi mal və xidmətlərin dəyəri ilə həmin obyektin başqa obyektlərdən aldığı mal və xidmətlərin dəyəri arasındakı fərq. İşçilərin əməkhaqqı, dolayı vergilər və digər məcburi ödənişlər, əsas istehsal fondlarının amortizasiyası üçün məsrəflər, mənfəət – hamısı birlikdə əlavə dəyəri təşkil edir.

ƏLAVƏ DƏYƏR VERGİSİ – AR VM-in XI-ci fəslində göstərilən qaydalarla tutulan vergi. İlk dəfə 1958-ci ildə Fransa iqtisadçısı M. Lore tərəfindən təklif olunmuş bu dolayı vergi dövriyyə vergisini əvəz edir.

ƏDV vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə AR VM-in müddəalarına uyğun olaraq verilən hesab-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir.

ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməli olan hər bir şəxs ƏDV-nin ödəyicisidir. Qeydiyyatdan keçən şəxs qeydiyyatın qüvvəyə mindiyi andan etibarən vergi ödəyicisi olur. Qeydiyyata dair ərizə verməli olan, lakin qeydiyyatdan keçməmiş şəxs qeydiyyata dair ərizə vermək öhdəliyinin yarandığı dövrdən sonrakı hesabat dövrünün başlanğıcından etibarən vergi ödəyicisi sayılır. AR-ə ƏDV tutulan malları idxal edən şəxs bu cür idxal malları üzrə, ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçmədən iş görən və ya xidmət göstərən, qanuna müvafiq surətdə vergiyə cəlb edilməli olan qeyri-rezident şəxs həmin işlər və ya xidmətlər üzrə vergi ödəyicisi hesab edilir. Aksizli malların istehsalçıları da ƏDV-nin ödəyiciləridir. Hüquqi şəxs yaratmadan göstərilən birgə sahibkarlıq fəaliyyəti də ƏDV-nin məqsədləri üçün ayrıca şəxs sayılır.

Qeydiyyatdan keçməli olmayan sahibkarlıq fəaliyyəti göstərən hər bir şəxs vergi orqanına ƏDV-nin məqsədləri üçün qeydiyyat haqqında könüllü ərizə verə bilər. Şəxs ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçərkən, vergi orqanı həmin şəxsi ƏDV ödəyicilərinin dövlət reyestrində qeydə almağa və ərizə verildikdən sonra 5 iş günündən gec olmayaraq, ona müəyyən edilmiş forma üzrə qeydiyyat bildirişi verməyə, həmin bildirişdə vergi ödəyicisinin adını və ona aid olan digər məlumatı, qeydiyyatın qüvvəyə mindiyi tarixi və VÖEN-i göstərməyə borcludur. ƏDV ödəyicisinin qeydiyyat bildirişi ƏDV ödəyicisinə bir dəfə verilir və onda saxlanılır. ƏDV ödəyicisinin qeydiyyat bildirişi itirildikdə və ya yararsız hala düşdükdə vergi ödəyicisinin müraciəti əsasında ona bildirişin surəti verilir.

Qeydiyyat hansı tarixin əvvəl başlanmasından asılı olaraq aşağıdakı tarixlərin birində qüvvəyə minir:

- könüllü qeydiyyat zamanı – qey-

diyyat haqqında ərizənin verildiyi aydan sonrakı hesabat dövrünün birinci günündə.

ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməyə borclu olan, lakin qeydiyyat üçün ərizə verməyən vergi ödəyicisini vergi orqanı öz təşəbbüsü ilə qeydiyyata alır və ona müvafiq qeydiyyat bildirişi göndərir. ƏDV ödəyicilərinin məlumatlarında dəyişikliklər baş verdikdə ƏDV ödəyicilərinin dövlət reyestrində müvafiq düzəlişlər edilməlidir.

Vergi ödəyicisi ƏDV-yə cəlb olunan əməliyyatlar aparmağı dayandırırsa, ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunmasına dair ərizə verməyə borcludur. Bu halda, ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunması vergi ödəyicisinin vergi tutulan əməliyyatları tam dayandırdığı gün qüvvəyə minir. Lakin ödəyicinin vergiyə cəlb olunan əməliyyatlarının ümumi məbləği əvvəlki tam 12 təqvim ayı ərzində 6000 manatdan çox deyilsə, vergi ödəyicisi ƏDV-nin məqsədləri üçün son qeydiyyatın qüvvəyə mindiyi tarixdən etibarən bir il keçdikdən sonrakı istənilən vaxt qeydiyyatın ləğv olunmasına dair ərizə verə bilər; bu zaman qeydiyyatın ləğv olunması vergi orqanına qeydiyyatın ləğv edilməsinə dair ərizənin verildiyi gün qüvvəyə minir.

Vergi orqanı şəxsin ƏDV qeydiyyatının ləğv edilməsi barədə məlumatı bir iş günü ərzində müvafiq icra hakimiyyəti orqanına (AR MN-ə) göndərməli, ƏDV-nin məqsədləri üçün qeydiyyatı ləğv edilən şəxsin adını, onun haqqında digər məlumatları ƏDV ödəyicilərinin reyestrindən silməli və verilmiş qeydiyyat bildirişini geri almalıdır.

Malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal vergitutma obyektidir.

Vergi tutulan əməliyyatın dəyəri vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla) əsasında müəyyən edilir. Vergi ödəyicisi vergi tutulan əməliyyatın əvəzində mal, iş və ya xidmət alırsa, yaxud almağa hüququ varsa, bu malların, işlərin və ya xidmətlərin ƏDV nəzərə alınmadan bazar dəyəri (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla) vergi tutulan əməliyyatın dəyərinə daxil edilir.

Vergi tutulan idxalın dəyəri malların AR-in gömrük qanunvericiliyinə uyğun olaraq müəyyən edilən gömrük dəyərindən və mallar ölkə ərazisinə gətirilərkən ödənilməli olan rüsumlardan və vergilərdən (ƏDV nəzərə alınmadan) ibarətdir.

ƏDV tutulan dövriyyənin dəqiqləşdirilməsi AR VM-in 163-cü maddəsində göstərilən qayda ilə aparılır.

AR VM-ə görə, aşağıdakı işlərin görülməsindən, xidmətlərin göstərilməsindən və əməliyyatların aparılmasından ƏDV sıfır (0) dərəcəsi ilə tutulur (maddə 165):

- AR-də akkreditə edilmiş beynəlxalq təşkilatların və xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinin, bu nümayəndəliklərin müvafiq sta-

tuslu AR-in vətəndaşı olmayan diplomatik və inzibati-texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mallar və xidmətlər;

- xaricdən alınan əvəzsiz maliyyə yardımları (qrantlar) hesabına malların idxalı, qrant üzrə resipiyentlərə malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi;

- malların və AR VM-in 168.1.5-ci maddəsində göstərilmiş xidmətlərin ixracı; həmin maddədə göstərilən xidmətlər aşağıdakılardır: patentlərin, lisenziyaların, ticarət markalarının, müəlliflik və digər analoji hüquqların mülkiyyətə verilməsi və ya güzəşt edilməsi; məsləhət, hüquq, mühasibat, mühəndis və ya reklam xidmətlərinin, məlumatların işlənilməsi üzrə xidmətlərin və digər analoji xidmətlərin göstərilməsi; işçi qüvvəsinin verilməsi üzrə xidmətlərin göstərilməsi; nəqliyyat müəssisələrinin nəqliyyat vasitələri istisna olmaqla daşınan əmlakın icarəyə verilməsi; göstərilən xidmətlərin yerinə yetirilməsi üçün hüquqi və ya fiziki şəxsi cəlb edən agentin xidmət göstərməsi; telekommunikasiya xidmətlərinin göstərilməsi; radio və televiziya yayımı, poçt rabitəsi xidmətlərinin göstərilməsi; kompüter, internet və digər elektron şəbəkələr, elektron poçt və digər oxşar vasitələrlə xidmətlərin göstərilməsi, yaxud bu cür şəbəkələrdən və ya xidmətlərdən istifadə hüququnun verilməsi;

- beynəlxalq poçt xidmətləri istisna olmaqla, beynəlxalq və tranzit yük və sərnişin daşınması; beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsi, xidmətlərin göstərilməsi;

- AR MB-yə qızıl və digər qiymətlilərin göndərilməsi.

ƏDV-nin dərəcəsi hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin 18 faizidir. Vergi tutulan dövriyyə hesabat dövri ərzində vergi tutulan əməliyyatların ümumi dəyərindən ibarətdir. AR VM- in 177-ci maddəsinə görə vergi ödəyicisi:

- vergi orqanına hər hesabat dövrü üçün ƏDV-nin bəyannaməsini verməyə;

- bəyannamənin verilməsi üçün müəyyən edilən müddətdə hər hesabat dövrü üzrə vergini büdcəyə ödəməyə borcludur.

ƏDV-nin bəyannaməsi hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq verilir. Vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin fəaliyyətinə xitam verildikdə, ƏDV bəyannaməsi bu Məcəllədə nəzərdə tutulmuş müddətdən gec olmamaq şərti ilə 30 gün müddətində vergi orqanına təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.

Vergi tutulan idxal üzrə ƏDV AR VM-ə və gömrük qanunvericiliyinə uyğun olaraq gömrük rüsumlarının ödənilməsi üçün nəzərdə tutulan qaydada gömrük orqanları tərəfindən hesablanır və alınır.

ƏDV üzrə hesabat dövri təqvim ayı sayılır.

Hesabat dövründə vergi tutulan dövriyyəsinin azı 50 faizi sıfır dərəcə ilə vergiyə cəlb olunan vergi ödəyicisinə, hesabat dövründə əvəzləşdirilən vergi məbləğinin hesablanmış vergidən artıq olan hissəsi onun vergi və ya gömrük orqanlarına ərizəsini verdiyi vaxtdan 45 gün ərzində qaytarılır. Digər vergi ödəyiciləri üçün – əvəzləşdirilən vergi məbləğinin hesabat dövri ərzində hesablanmış vergi məbləğindən artıq olan hissəsi növbəti 3 aya keçirilir və bu ayların ödəmələrinə aid edilir, artıq ödəmənin hər hansı qalığı isə bu 3 ay bitdikdən sonra vergi ödəyicisinin ərizəsinə əsasən 45 gün ərzində büdcədən qaytarılır. Müəyyən məbləğlərin vergi ödəyicisinə səhvən qaytarıldığı bütün hallarda vergi və ya gömrük orqanları həmin məbləğlərin vergilərin tutulması üçün müəyyən edilmiş qaydada qaytarılmasını tələb etməlidir.

ƏDV-nin düzgün hesablanması və vaxtında büdcəyə ödənilməsi, həmçinin, bəyannamələrin vergi orqanlarına müəyyən edilmiş müddətlərdə verilməsi üçün vergi ödəyiciləri və onların vəzifəli şəxsləri AR-in vergi qanunvericiliyinə uyğun olaraq, ƏDV-nin tutulması gömrük orqanlarının səlahiyyətinə aid olduqda isə AR-in gömrük qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

ƏLAVƏ DƏYƏR VERGİSİ ÜZRƏ GÖMRÜK BORCUNUN HESABLANMASI – AR NK-nın 2012-ci il 7 may tarıxli 96 nömrəli qərarı ilə təsdiq edilmiş hesablanma Qaydası. Bu Qayda AR GM-in 242.5-ci maddəsinə əsasən hazırlanmışdır və ƏDV üzrə gömrük borcunun məbləğinin hesablanması qaydasını müəyyən edir. ƏDV üzrə gömrük borcu gömrük orqanına yalnız bank, poçt və ya plastik kart vasitəsilə, beynəlxalq poçt göndərişləri ilə göndərilən mallar üçün isə poçt rabitəsi operatorlarına qanunvericiliklə müəyyən edilmiş ödəniş vasitələri ilə ödənilir.

AR-in gömrük orqanlarına gömrük bəyannaməsini təqdim edən və ya adından gömrük bəyannaməsi verilən şəxslər ƏDV üzrə gömrük borcunun ödəyicisi hesab edilirlər.

Mallardan istifadə edilməsi və onlara dair sərəncam verilməsi haqqında, o cümlədən müvafiq gömrük proseduruna uyğun olaraq, gömrük ödənişlərindən tamamilə və ya qismən azad edilmiş mallardan təyinatı üzrə istifadə edilməsi barədə GM-də nəzərdə tutulmuş tələblərə riayət olunmadığı halda, müvafiq gömrük prosedurlarının tələblərini yerinə yetirməli olan şəxs həmin mallar üçün hesablanmış ƏDV üzrə gömrük borcunun ödənilməsinə görə məsul şəxs hesab edilir.

ƏDV üzrə gömrük borcunun hesablanması idxal olunan mallara münasibətdə gömrük sərhədini keçən gündən, ixrac olunan mallara münasibətdə isə mallara dair bəyannamənin təqdim olunduğu gündən başlanır və həmin gün qüvvədə olan vergi dərəcəsi əsas götürülür. ƏDV üzrə gömrük borcunun məbləği hesablanarkən malların GM və «Gömrük tarifi haqqında» AR-in Qanununa uyğun qaydada müəyyən edilən gömrük dəyərinin, aksiz vergisinin və gömrük rüsumlarının məbləğinin cəmi əsas götürülür.

Malların gömrük rəsmiləşdirilməsi zamanı müəyyən edilmiş gömrük dəyərini – «D», aksiz vergisini – «A», gömrük rüsumlarını – «R», qüvvədə olan vergi dərəcəsini isə – «V» hərfi ilə işarə etsək, onda ƏDV-nin məbləği aşağıdakı düsturla hesablanacaq:

ƏDV = (D + A + R) x V/100

ƏDV üzrə gömrük borcu gömrük orqanları tərəfindən gömrük bəyannaməsi təsdiq edilənədək və ya gömrük bəyannaməsinin təsdiqi ilə eyni vaxtda ödənilir.

Kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara hesablanmış ƏDV üzrə gömrük borcu həmin mallar gömrük sərhədindən keçirilərkən sadələşdirilmiş bəyannamənin təsdiqi ilə eyni vaxtda ödənilir. Gömrük bəyannaməsinin verilməsi gecikdirildikdə, ƏDV üzrə gömrük borcunun ödənilməsi müddəti gömrük bəyannaməsinin verilməsi üçün müəyyən edilən müddətin başa çatdığı gündən hesablanır. GM-in 156.2-ci maddəsində nəzərdə tutulan dövrdə bəyannamə verildiyi halda, ƏDV üzrə gömrük borcu mallar müvafiq gömrük orqanına təqdim edildiyi tarixdən 15 gündən gec olmayaraq ödənilməlidir.

ƏLAVƏ DƏYƏR VERGİSİNDƏN AZADEDİLMƏLƏR – AR VM-in 164-cü maddəsi ilə müəyyən edilmiş azad edilmələr. Bu maddədə göstərilmişdir ki, malların ixracından başqa, malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin aşağıdakı növlərindən, habelə idxalın aşağıdakı növlərindən ƏDV tutulmur:

- özəlləşdirilmə qaydasında dövlət müəssisəsindən satın alınan əmlakın dəyəri, habelə dövlət əmlakının icarəyə verilməsindən alınan icarə haqqının büdcəyə ödənilməli olan hissəsi;

- maliyyə xidmətlərinin göstərilməsi;

- milli və ya xarici valyutanın (numizmatika məqsədlərindən başqa), həmçinin, qiymətli kağızların göndərilməsi və ya idxal edilməsi;

- AR MB-nin aktivlərində yerləşdirilməsi üçün nəzərdə tutulan qızılın, habelə valyuta sərvətlərinin, xaricdə istehsal edilmiş AR pul nişanlarının, yubiley sikkələrinin və digər bu qəbildən olan qiymətlilərin idxalı;

- idxal olunan əmlak istisna olmaqla müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində hər hansı əmlakın qoyulması (əmlakın pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda);

- tutulan məbləğlər hədlərində dövlət hakimiyyəti, yerli özünüidarəetmə və digər səlahiyyətli orqanların tutduğu dövlət rüsumu, icazə haqları, yığımlar və onların tutulması müqabilində göstərdiyi xidmətlər;

- beynəlxalq təşkilatların, xarici dövlətlərin hökumətlərinin, habelə dövlətlərarası və hökumətlərarası sazişlərə əsasən xarici hüquqi və fiziki şəxslərin ayırdıqları kreditlər və borclar hesabına, həmçinin bu kreditlər və borclar hesabına həyata keçirilən layihələrdə Azərbaycan tərəfinin payı 49 faizdən çox olmadıqda, həmin pay hesabına mallar alınması, işlər görülməsi, xidmətlər göstərilməsi və bunların idxalı;

- kütləvi informasiya vasitələri

məhsullarının alqı-satqısının bütün növləri üzrə dövriyyələr, mətbu kütləvi informasiya vasitələri məhsulları istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olmaqla);

- orta məktəb dərslikləri, uşaq ədəbiyyatının və büdcədən maliyyələşdirilən dövlət əhəmiyyətli nəşrlərin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti;

- dəfn və qəbiristanlığın mərasim xidmətləri;

- AR MB-nin və AR DNF-nin qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı mal idxalı, iş görülməsi və xidmət göstərilməsi;

- AR-ə, o cümlədən onu təmsil edən hüquqi şəxslərə neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq verilməsi nəzərdə tutulan əsas fondların, daşınan əmlakın və digər aktivlərin AR DNF-yə və ya AR-i təmsil edən tərəfə hər hansı şəkildə təqdim edilməsi üzrə əməliyyatlar;

- metropolitenlə sərnişindaşıma xidmətləri;

- ödənişli məktəbəqədər təhsil xidmətlərinin göstərilməsi (digər fəaliyyətləri ilə bağlı xidmətlərin göstərilməsi istisna olmaqla);

- VM-in 106.1.9-106.1.11-ci maddələri ilə müəyyən olunan aktivlərin dəyəri və onların hər hansı şəkildə təqdim olunması üzrə əməliyyatlar.

Müvafiq icra hakimiyyəti orqanı konkret sahənin inkişafını təmin etməklə konkret dövr üçün nəzərdə tutulan, istehsal ehtiyaclarını yerli xammal hesabına ödəmək mümkün olmadıqda, istehsal təyinatlı xammal və müasir texnologiyanı təmin edən avadanlıqların idxalını ƏDV-dən azad edə bilər.

ƏLAVƏ DƏYƏR VERGİSİNİN DEPOZİT HESABI – ƏDV-nin mədaxili, uçotu, hərəkəti və dövlət büdcəsinə məxarici ilə bağlı əməliyyatlar aparılan vahid xəzinə hesabı. Bu hesaba vəsaitlər, əsasən, aşağıdakı mənbələrdən daxil ola bilər:

- ƏDV qeydiyyatında olan vergi ödəyicisinin bank hesabından;

- digər vergi ödəyicilərinin bank hesablarından.

ƏLAVƏ DƏYƏR VERGİSİNİN DEPOZİT HESABINA VƏSAİTLƏRİN MƏDAXİLİ – ƏDV-nin depozit hesabına vəsaitlər, əsasən, aşağıdakı mənbələrdən daxil ola bilər:

- ƏDV qeydiyyatında olan vergi ödəyicisinin öz bank hesablarından;

- digər vergi ödəyicilərinin bank hesablarından.

Alınmış mallara (işlərə, xidmətlərə) görə təqdim edilmiş elektron vergi hesab-fakturaları üzrə ödənilməli olan ƏDV-nin məbləği vergi ödəyicisi, o cümlədən ƏDV məqsədləri üçün qeydiyyatda olmayan büdcə təşkilatları, dövlət müəssisələri, səhmlərinin və paylarının 50 faizindən çoxu dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən ƏDV-nin depozit hesabına ödəniş sənədləri əsasında köçürülür.

Nağdsız ödənişlərin aparılması zamanı tətbiq olunan "A" formatlı ödəniş tapşırığı ƏDV-nin ödənilməsi üçün istifadə edildikdə, "B1.Bene-

fisiar (alan) bank" bölməsində DXA-nın bank rekvizitləri əks etdirilməlidir. Həmin ödəniş tapşırığının "B2. Vəsaiti alan" bölməsinin "Adı" sətrində satıcının adı, "Hesab №-si" sətrində ƏDV-nin depozit hesabının nömrəsi, "VÖEN" sətrində isə satıcının VÖEN-i dəqiq qeyd olunmalıdır. Satıcı alıcıdan ƏDV-nin depozit hesabına ƏDV məbləğinin köçürülməsini təsdiq edən ödəniş sənədini tələb edə bilər.

Ödəniş tapşırığının "B2.Vəsaiti alan" bölməsində satıcının VÖEN-i düzgün qeyd olunmadıqda, daxil olmuş vəsait, onu ödəyən alıcının VÖEN-nə uyğun olaraq, açılmış ƏDV-nin "naməlum sub-uçot hesabı"na mədaxil edilir.

ƏLAVƏ DƏYƏR VERGİSİNİN DEPOZİT HESABINDAN VƏSAİTLƏRİN MƏXARİCİ – ƏDV-nin depozit hesabından pul vəsaitlərinin dövlət büdcəsinə və dövlət gömrük orqanlarının xəzinədarlıq orqanlarında açılmış müvafiq depozit hesabına və digər sub-uçot hesablara köçürülməsi. Depozit hesabından pul vəsaitlərinin məxarici aşağıdakı hallarda baş verir:

- ƏDV üzrə vergi öhdəliyinin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsi üçün;

- vergi ödəyicisinin rəsmi müraciətinə əsasən.

Vergi ödəyicilərinin ƏDV üzrə öhdəliklərinin yerinə yetirilməsini təmin etmək məqsədilə AR VN tərəfindən ƏDV-nin depozit hesabından vəsaitin dövlət büdcəsinə ödənilməsi üçün vergi öhdəliklərinin yaranması ardıcıllığına uyğun olaraq təsdiq edilmiş kassa xərclərinin sifarişi iki nüsxədə, ödəniş tapşırığı elektron imzalarla təsdiq edilmiş elektron formatda və ya kağız daşıyıcılarında dörd nüsxədə "ƏDV-nin depozit hesabı üzrə məxaric vəsaitləri haqqında" Reyestr kağız formatda saat 13-dək BDX-yə təqdim edilir. Kassa xərclərinin sifarişinin bir nüsxəsi DXA tərəfindən təsdiq edilərək növbəti iş günündə AR VN-ə qaytarılır. DXA tərəfindən ödəniş tapşırığı üzrə vəsaitlərin aidiyyəti yerli xəzinədarlıq orqanlarına köçürülməsi məqsədi ilə elektron formatda ödəniş tapşırıqlarının təsdiq edilməsi təmin olunur və bank hesab-müqaviləsində nəzərdə tutulmuş reqlamentə uyğun olaraq, xidmət olunduğu banka göndərilir.

ƏDV-nin depozit hesabı üzrə bank əməliyyatları AR MB-nin ödəniş sistemləri vasitəsilə aparılır.

ƏLAVƏ DƏYƏR VERGİSİNİN SIFIR FAİZLƏ ÖDƏNMƏSİ HÜQUQUNU TƏSDİQ EDƏN SƏNƏD – əlavə dəyər vergisinin sıfır faizlə ödənməsi hüququnu təsdiq edən sertifikat. Sıfır dərəcəsi ilə ƏDV tutulan əməliyyatlar ƏDV-yə cəlb olunan əməliyyatlar hesab edilir və belə əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən nağdsız qaydada (mal, iş və xidmət təqdim edənin bank hesabına birbaşa nağd qaydada ödənişlər istisna edilməklə) ƏDV-nin depozit hesabı vasitəsilə ödənilmiş ƏDV-nin məbləği VM-in müddəalarına uyğun olaraq əvəzləşdirilir.

ƏLAVƏ DƏYƏR VERGİSİNİN SUB-UÇOT HESABI – ƏDV-nin depozit hesabına mədaxil olmuş ƏDV məbləğlərinin vergi ödəyiciləri üzrə

uçotunun aparılması məqsədi ilə AR VN-də açılmış uçot vərəqələri.

ƏLAVƏ DƏYƏR VERGİSİNİN SUB-UÇOT HESABLARI ÜZRƏ VƏSAİTLƏRİN HƏRƏKƏTİ – ƏDV sub-uçot hesabından ƏDV məbləğinin digər ƏDV sub-uçot hesabına köçürülməsi əməliyyatları. ƏDV-nin sub-uçot hesabından ƏDV məbləğlərinin köçürülməsi ardıcıllığı aşağıdakı kimidir:

- dövlət büdcəsinə;
- dövlət gömrük orqanlarının xəzinədarlıq orqanlarında açılmış müvafiq depozit hesabına;
- ƏDV sub-uçot hesablarına.

ƏLAVƏ EKSPERTİZA – ilkin məhkəmə ekspertizasının rəyi kifayət qədər aydın olmadıqda, ekspert qoyulmuş sualları tam həll etmədikdə və ya tədqiqat aparılmış obyektlərə dair əlavə suallar yarandıqda, aparılmış tədqiqatın və ya rəydəki boşluğun aradan qaldırılması üçün əlavə məhkəmə ekspertizası təyin edilir və onun aparılması həmin ekspertə və ya başqa ekspertə həvalə edilir.

ƏLAVƏ GƏLİR VERGİSİ – Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında 1909-cu ildən 1973-cü ilədək fiziki şəxslərdən gəlir vergisinə əlavə olaraq yığılmış sərbəst vergi növü olmuşdur (bu vergi üzrə daxilolmalar 1972- 1973 büdcə ilində mərkəzi hökumətin təxminən gəlirinin 2%-ni təşkil etmişdir).

ƏLAVƏ VERGİLƏR – əsas vergilərin qanunla nəzərdə tutulmuş məbləğini artıran vergilər. Müxtəlif dövrlərdə bəzi ölkələrin ya dövlət vergilərinə əlavə olunan regional vergilər, ya da federal, yaxud regional vergilərə əlavə olunan yerli vergilər əlavə vergilər hesab edilir. Əsas dövlət vergilərinə əlavə olunan dövlət vergilərindən də istifadə oluna bilər. Məsələn, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında əlavə gəlir vergisi, ABŞ-da federal Korporasiya vergisinə ştatlarda əlavə vergi ödənilirdi.

ƏLƏSGƏROV AĞASƏLİM KƏRİM OĞLU – iqtisad elmləri doktoru, professor, AMEA-nın müxbir



üzvü, 22 may 1928-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu (indiki Azərbaycan Dövlət İqtisad Universitetini) bitirmişdir. İqtisadiyyatın bir sıra sahələrinin aktual problemlərini, o cümlədən kənd təsərrüfatı məhsullarının maya dəyərinin hesablanması, respublikalararası nəqliyyat-iqtisadi əlaqələrinin təkmilləşdirilməsi yolları, həmçinin, bazar iqtisadiyatı əlaqələrinin yaranması, formalaşması və inkişafı istiqamətlərini tədqiq etmişdir.

A.Ələsgərov «Bazar və Azərbaycan Respublikasının dünya birliyi ilə xarici iqtisadi əlaqələrinin səmərəli inkişafı problemləri», «Keçid cəmiyyətinin sosial-iqtisadi problemləri (MDB ölkələrinin təcrübəsindən)» və s. elmi əsərlərin müəllifidir.

Azərbaycan Dövlət Neft Akademiyasında, Azərbaycan Dövlət İqtisad Universitetində, Bakı Dövlət Universitetində pedaqoji fəaliyyət göstərmişdir.

ƏLİLLƏRİN SOSİAL MÜDAFİƏSİNİ TƏMİN EDƏN MƏQSƏDLƏR – əlillərin əmək şəraitinin yaxşılaşdırılması, əlillər üçün iş yerlərinin yaradılması, onların hüquq və qanuni maraqlarının müdafiəsi, onların bərpa edilməsi ilə bağlı tədbirlər, onlara digər vətəndaşlar ilə bərabər imkanların təmin edilməsi.

ƏLVERİŞLİLİK TESTİ – birbirindən asılı olan şəxslər (maliyyə sənaye qrupuna daxil olan törəmə və ya ana şirkətlər) tərəfindən ödənilmiş xidmət haqlarının xərclərdən çıxması zamanı vergidən yayınmalara qarşı tədbir kimi bir sıra dövlətlərin vergi qanunvericiliyində nəzərdə tutulmuş xüsusi test.

ƏMANƏT – müəyyən şərtlərlə banka və digər maliyyə-kredit idarəsinə saxlanmaq (qorunmaq) üçün fiziki şəxslərin köçürdüyü pul vəsaitləri; mənfəət əldə edilməsi və ya təminat alınması məqsədilə pulun daha az likvid formaya keçirilməsi; hesablanmış faizlər də daxil olmaqla bankın milli və xarici valyutada qəbul etdiyi və müvafiq qanunvericiliyə və ya müqaviləyə əsasən geri ödəməli olduğu pul vəsaitləri.

Pul vəsaitini əmanətlərə cəlb etmək hüququna, qanunla müəyyənləşdirilmiş qaydada verilən xüsusi icazəyə (lisenziyaya) uyğun olaraq, buna hüququ çatan banklar və poçt rabitəsinin milli operatorları malikdirlər. Bank əmanəti müqaviləsi "əmanətin ilk tələb üzrə verilməsi" şərti ilə (tələbli əmanət) və ya "əmanətin müqavilədə müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra" şərti ilə (müddətli əmanət) bağlanır. Müqavilədə əmanətlərin qanuna zidd olmayan başqa qaytarma şərtləri ilə də qoyulması nəzərdə tutula bilər. İstənilən növ bank əmanəti müqaviləsinə görə bank əmanətçinin ilk tələbi ilə əmanətin məbləğinin ən azı dörddə bir hissəsini dərhal, qalan hissəsini isə ən geci beş bank günü müddətində verməlidir, amma qaytarmanın müqavilədə nəzərdə tutulmuş başqa şərtləri ilə hüquqi şəxslərin qoyduqları əmanətlər istisna təşkil edir. Fiziki şəxsin əmanəti ilk tələb üzrə almaq hüququndan imtina etməsi haqqında müqavilənin şərti əhəmiyyətsizdir. Tələbli əmanət istisna olmaqla, müddətli və ya başqa əmanət müddət qurtaranadək və ya bank əmanəti müqaviləsində göstərilmiş ayrı hallar baş verənədək əmanətçinin tələbi ilə ona qaytarıldıqda, əmanət üzrə faizlər bankın tələbli əmanətlər üzrə ödədiyi faizlərin miqdarına uyğun miqdarda ödənilir, bu şərtlə ki, müqavilədə faizlərin ayrı miqdarı nəzərdə tutulmasın (AR MM, maddə 947).

Bank əmanətçiyə əmanətin məbləği üçün bank əmanəti müqaviləsi ilə müəyyənləşdirilmiş miqdarda faizlər ödəyir. Müqavilədə ödənilən faizlərin miqdarı haqqında şərtlər olmadıqda bank faizləri AR MM-in 449.1-ci maddəsinə uyğun müəyyənləşdirilən miqdarda ödəməlidir. Bank əmanəti müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bankın tələbli əmanətlər üçün ödənilən faizlərin miqdarını dəyişməyə ixtiyarı vardır. Bank faizlərin miqdarını azaltdıqda faizlərin yeni miqdarı faizlərin azaldılması haqqında əmanətçilərə məlumat verilənədək qoyulmuş əmanətlərə həmin məlu-

matın verildiyi andan bir ay keçəndən sonra tətbiq olunur, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın (AR MM, maddə 948.2). Bank əmanətinin məbləğinə faizlər bu məbləğin banka daxil olduğu günün ertəsi günündən məbləğin əmanətçiyə qaytarılmasından və ya başqa əsaslarla əmanətçinin hesabından silinməsindən əvvəlki günədək hesablanır. Bu qayda bir günlük depozitlərə tətbiq edilmir. Bank əmanəti müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bank əmanəti məbləğinə hesablanan faizlər əmanətçiyə hər rüb başa çatdıqdan sonra onun tələbi ilə əmanətin məbləğindən ayrılıqda ödənilir, həmin müddətdə tələb olunmamış faizlər isə üstünə faizlər hesablanan əmanətin məbləğini artırır. Əmanət qaytarıldıqda həmin anadək hesablanmış bütün faizlər ödənilir (AR MM, maddə 949).

ƏMƏKHAQQI – müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusu.

ƏMƏKHAQQINA MƏSRƏFLƏR – işçilərə pul və ya naturaral formada verilən istənilən ödənişlər, stimullaşdırıcı ödənişlər və əlavələr, əmək şəraiti və rejimi ilə bağlı kompensasiya xarakterli ödənişlər, mükafatlar və birdəfəlik ödənişlər, eyni zamanda, həmin işçilərin saxlanılması ilə əlaqədar əmək müqaviləsində və kollektiv sazişdə nəzərdə tutulan xərclər.

ƏMƏK KİTABÇASI – işçinin əmək fəaliyyəti haqqında sənəd. Bu sənəddə onun əmək stajı haqqında – işə girdiyi gün, ay, il, işlədiyi peşəsi (vəzifəsi), işdən çıxarılmanın əsası, günü, ayı və ili barədə qeydlər göstərilir. Ailə kəndli təsərrüfatı üzvlərinin əmək fəaliyyətini və əmək stajını təsdiq edən sənəd bələdiyyələr tərəfindən verilən vəsiqə hesab edilir.

ƏMƏK MÜQAVİLƏSİ (KONTRAKTI) – işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilə.

ƏMLAK – istənilən əşyaların və qeyri-maddi aktivlərin toplusu. AR VM-in 13.2.21 maddəsinə görə, əmlak dedikdə hər hansı daşınan və ya daşınmaz əmlak, o cümlədən qeyri-maddi aktivlər, dövriyyə vəsaitləri və mülkiyyət hüququnun digər obyektləri başa düşülür.

ƏMLAK HAQQINDA BƏYANNAMƏ – Azərbaycan Respublikasının "Korrupsiyaya qarşı mübarizə haqqında" 13 yanvar 2004-cü il tarixli 580-IIQ nömrəli Qanununun 5.1.2-ci maddəsinə uyğun olaraq, vəzifəli şəxslərin vergitutma obyekti olan əmlakları barədə məlumatları özündə əks etdirən bəyannamə.

Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nın 5.3-cü maddəsinə əsasən vəzifəli şəxslər bəyannaməni təqdim

etdikdən sonra əldə etdikləri və sonradan özgəninkiləşdirdikləri bəyan edilməli olan əmlak barədə məlumatları növbəti ildə təqdim ediləcək bəyannaməyə əlavə edirlər.

ƏMLAK VERGİSİ – AR VM-in XIII fəslinə uyğun olaraq tutulan vergi.

Vergitutma obyekti aşağıdakılar olan fiziki şəxslər və müəssisələr bu verginin ödəyiciləridir:

- rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və AR-in ərazisində yerləşən tikililər və ya onların hissələri, həmçinin, yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq, rezident fiziki şəxslərə məxsus su və hava nəqliyyatı vasitələri;

- müəssisələrin balansında olan əsas vəsaitlərin orta illik dəyəri;

- AR-də özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr üçün – yalnız daimi nümayəndəliklə bağlı olan əsas vəsaitlərin orta illik dəyəri.

Vergitutma obyekti olan və müəssisələr tərəfindən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün birləşdirilən əsas vəsaitlərin dəyəri bu əsas vəsaitləri birləşdirən birgə fəaliyyət iştirakçıları tərəfindən vergiyə cəlb edilməsi məqsədləri üçün bəyannaməyə daxil olunur. Birgə fəaliyyət nəticəsində yaradılmış və ya alınmış əsas vəsaitlərin dəyəri isə birgə fəaliyyətin iştirakçıları tərəfindən müqavilə üzrə mülkiyyətdə müəyyən olunmuş pay haqqına müvafiq olaraq bəyannaməyə daxil edilir.

Fiziki şəxslər əmlak vergisini aşağıdakı qaydada və dərəcələrlə ödəyirlər:

- onların xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyərindən (bu dəyər 5000 man.-dək olduqda vergi tutulmur, 5000 man.-dan çox olan məbləğdən isə 0,1 faizlə vergi ödənilir);

- su və hava nəqliyyatı vasitələrinə görə (su nəqliyyatı vasitəsinin mühərrikinin 1 kub sm-i üçün 0,02 man., hava nəqliyyatı vasitəsinin mühərrikinin 1 kub sm-i üçün 0,02 man., mühərriki olmayan su və hava nəqliyyatı vasitələri üçün – onların bazar qiymətinin 1 faizi qədər vergi ödənilir).

Müəssisələr əsas vəsaitlərin müəyyənləşdirilmiş orta illik qalıq dəyərindən 1 faiz dərəcə ilə əmlak vergisi ödəyirlər.

AR VM-də əmlak vergisindən güzəştlər və azadolmalar da nəzərdə tutulmuşdur (maddə 199):

- dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları və yerli özünüidarəetmə orqanları, AR MB və onun qurumları, dövlət fondları və əlillərin, sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatları əmlak vergisini ödəməkdən azaddır;

- misgərlik, qalayçılıq, dulusçuluq və saxsı məmulatlarının, təsərrüfat müxəlləfatının, bağçılıq-bostançılıq alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallardan məişət alətlərinin hazırlanması sahəsində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə

məşğul olan fiziki şəxslərin sənətkarlıq emalatxanalarının binaları və ya binaların bu emalatxanalar yerləşən hissələri əmlak vergisinə cəlb edilmir;

- binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla AR Milli Qəhrəmanlarının, Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının, "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslərin, I və II qrup müharibə əlillərinin, həlak olmuş, yaxud sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarının (ərlərinin), 1941-45-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərin, müharibə veteranı adı almış şəxslərin, Çernobıl AES-də, qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində radiasiya qəzaları nəticəsində, nüvə qurğularının hər hansı növləri ilə bağlı sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği 30 man. azaldılır.

Vergitutma məqsədləri üçün müəssisənin əmlakının dəyəri aşağıdakı əmlakların dəyərində azaldılır (AR VM, maddə 199.4):

- ekologiya, yanğından mühafizə və ya mülki müdafiə üçün istifadə edilən obyektlərin;

- məhsul ötürən kəmərlərin, dəmir və avtomobil yollarının, rabitə və enerji ötürücü xətlərin, meliorasiya və suvarma sistemi obyektlərinin;

- AR ərazisində mülkiyyətində və istifadəsində avtonəqliyyat vasitələri (kənd təsərrüfatı məhsullarının istehsalında istifadə olunan kənd təsərrüfatı texnikası və büdcə təşkilatlarının avtomobil nəqliyyatı vasitələrindən başqa) olan şəxslərin vergiyə cəlb edilən avtonəqliyyat vasitələrinin;

- təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin yalnız bu sahələrin təyinatı üzrə istifadə etdiyi obyektlərinin.

Şəhərlərdə sərnişin daşımaları üçün istifadə olunan trolleybuslar və tramvaylar əmlak vergisindən azaddır.

Binalar üzrə əmlak vergisi AR NK-nın müəyyən etdiyi qaydada binaların inventar dəyərinə əsasən hesablanılır. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən müəyyən edilir. Bir neçə sahibi olan bina üzrə əmlak vergisi həmin binanın hər sahibi üçün onun binanın dəyərindəki payına uyğun olaraq hesablanır.

Su və hava nəqliyyatı vasitələrinə görə vergi onların qeydiyyatını həyata keçirən təşkilatlar tərəfindən verilən məlumatlar əsasında hər il yanvarın 1-i vəziyyətinə hesablanılır. Belə qeydiyyatın olmadığı hallarda, həmin əmlakın sahibi mülkiyyətində olan su və hava nəqliyyatı vasitələri barədə lazımi məlumatları (buraxılış ili, alış qiyməti və texniki xarakteristikası) əks etdirən sənədləri hər il yanvar ayının 1-dək müvafiq orqana təqdim edir.

Bir neçə fiziki şəxsə məxsus olan su və hava nəqliyyatı vasitəsinə görə

vergi həmin nəqliyyat vasitəsini öz adına qeydiyyatdan keçirmiş şəxsdən tutulur.

Cari il üçün verginin məbləği bərabər hissələrlə – həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir. Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın sahibi tərəfindən ödənilir.

Müəssisələrin əmlak vergisi dövlət büdcəsinə, fiziki şəxslərdən əmlak vergisi yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

ƏMLAKA AİD OLAN VERGİ ÇIXILMALARI – Vergi Məcəlləsinin 201.6-cı maddəsi ilə müəyyən edilmiş əmlak vergisi üzrə çıxılmalar (hesablanmış əmlak vergisinin məbləği) Vergi Məcəllənin 119-cu maddəsi ilə məhdudlaşdırılmayan gəlirdən çıxılmalara aid edilir (VM maddə 201.6).

Fiziki şəxsin əmlakın təqdim edilməsindən (təsərrüfat fəaliyyəti üçün istifadə edilən əmlakdan və ya təqdim edilməsindən əldə olunan gəlirin vergidən azad edildiyi əmlakdan başqa) yaranan zərəri belə əmlakın təqdim edilməsindən əldə olunan gəliri hesabına kompensasiya edilir. Yaranmış zərər həmin ildə kompensasiya edilə bilmirsə, o, gələcək üç ilədək davam edən sonrakı dövrə keçirilir və belə əmlakın təqdim edilməsindən götürülən gəlir hesabına kompensasiya edilir (VM, maddə 120).

ƏMLAKA HƏBS QOYULMASI – mülki iddianı və cinayət qanunu ilə nəzərdə tutulmuş hallarda əmlak müsadirəsini təmin etmək məqsədi ilə tətbiq edilir; əmlakın siyahıya alınmasından və mülkiyyətçiyə və ya sahibə həmin əmlak üzərində sərəncam verməyi, zəruri hallarda isə ondan istifadəni qadağan etməkdən ibarətdir; bank əmanətlərinə tətbiq edildikdən sonra onlar üzrə əməliyyatların aparılmasına xitam verilir.

ƏMLAKIN ETİBARLI İDARƏ EDİLMƏSİ MÜQAVİLƏSİ – bir şəxsin üçüncü şəxslər qarşısında təmsilçilik üçün başqa şəxsə verdiyi vəkalət. Mülkiyyətçi öz əmlakını başqa şəxsin etibarnaməli idarəçiliyinə verə bilər.

ƏMLAKIN GİROV QOYULMASI – Girov və ipoteka hüququ girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur və eyni zamanda, borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur. Girov daşınar əşyalara (ipoteka obyekti olan daşınar əşyalardan başqa) əşya hüquqlarının məhdudlaşdırılmasıdır.

ƏMLAKIN QALIQ DƏYƏRI – əsas vəsaitlərin ilkin dəyərinin həmin əsas vəsaitlərə hesablanmış amortizasiyanın məbləği qədər azaldılan dəyəri.

ƏMLAKIN MÜSADİRƏ EDİLMƏSİ – məhkumun cinayət törədərkən istifadə etdiyi alət və vasitələrin, cinayətin predmetlərinin, habelə cinayət yolu ilə əldə etdiyi əmlakın məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınması. Əmlak müsadirəsi nəzərdə tutulmuş hallarda təyin olunur. Cinayət yolu ilə əldə edilmiş əmlak və ya cinayətin pred-

meti istifadə edildiyi, özgəninkiləşdirildiyi və ya başqa səbəblərdən dövlət nəfinə alına bilinmədiyi halda həmin əmlakın dəyəri məbləğində məhkuma məxsus olan pul və ya digər əmlak müsadirə edilir.

ƏMLAKIN OLDUĞU YER – mülkiyyət hüququnu təsdiq edən sənəddə göstərilən yer və ya əmlakın sahibinin sənədlə müəyyən etdiyi yer.

ƏMLAKIN ORTA İLLİK DƏYƏRİ – müəssisənin əmlakının hesabat ilinin əvvəlinə və sonuna qalıq dəyəri toplanılıb ikiyə bölünməklə hesablanır.

ƏMLAKIN REALLAŞDIRILMASINDA MƏSRƏFLƏR – Əmlakın reallaşdırılması zamanı vergi ödəyicisinin belə əməliyyatlar üzrə gəlirini satılmış əmlakın aşağıdakı qaydada təyin edilən dəyəri hüdudlarında azaltmaq hüququ var: amortizasiya olunan əmlak təqdim edilərkən amortizasiya olunmuş əmlakın qalıq dəyəri həddində; qiymətli kağızlar, öz istehsalı olan məhsullar və alınmış mallar istisna olmaqla, digər əmlakın satışı zamanı həmin əmlakın alış qiyməti həddində; alınmış malların satışı zamanı həmin malların alındığı qiymət həddində.

ƏMLAKIN SİYAHIYA ALINMASI – vergi ödəyicisinin öz əmlakı barəsində hüquqlarının elə məhdudlaşdırılmasıdır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmış əmlaka və ya onun bir hissəsinə sərəncam vermək hüququna malik olmur, həmin əmlaka sahiblik və ondan istifadə edilməsi vergi orqanının nəzarəti ilə həyata keçirilir.

Əmlakın siyahıya alınması qaydası AR VM-in 89-cu maddəsində göstərilmişdir. Vergi ödəyicisi vergi öhdəliyini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, yaranmış vergi borclarının, habelə həmin öhdəliyin yerinə yetirilməməsi ilə əlaqədar vergi borcu üzrə hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi onun əmlakı siyahıya alına bilər. Bu siyahıyaalınma vergi ödəyicisinin öz əmlakı barəsində hüquqlarının elə məhdudlaşdırılmasıdır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmış əmlaka və ya onun bir hissəsinə sərəncam vermək hüququna malik olmur, həmin əmlaka sahiblik və ondan istifadə edilməsi vergi orqanının nəzarəti ilə həyata keçirilir. Vergi ödəyicisi vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclarını nəzərdə tutulan müddət ərzində ödəmədikdə, vergi orqanı AR VN tərəfindən müəyyən edilmiş formada aktivləri barədə məlumatın 10 gün ərzində vergi orqanına təqdim edilməsini vergi ödəyicisindən tələb edə bilər. Məlumatın vaxtında verilməməsinə görə vergi ödəyicisi məsuliyyət daşıyır. Vergi ödəyicisinin vergi öhdəliyini yerinə yetirməkdən boyun qaçırması barədə vergi orqanının kifayət qədər əsası olduqda, vergi orqanı vergi ödəyicisinə yazılı bildiriş göndərməklə, eyni zamanda, ondan vergi öhdəliyini dərhal ödəməyi tələb edə bilər. Vergi ödəyicisi vergi öhdəliyini yerinə yetirmədikdə, vergi orqanı özünün əsaslandırılmış qərarı əsasında vergi ödəyicisinin əmlakının siyahıya alınmasını həyata keçirə bilər. Yalnız vergi öhdəliyinin yerinə yetirilməsi, həmin öhdəliyin yerinə

yetirilməməsi ilə əlaqədar vergi borcu üzrə hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının, habelə əmlakın satışı üzrə xərclərin ödənilməsi üçün zəruri və kifayət olan, satış üçün yararlı və öz əmtəə xassəsini itirməmiş əmlak siyahıya alınır.

Əmlakın siyahıya alınması aşağıdakı ardıcıllıqla həyata keçirilir:

- nağd pul vəsaitləri;

- bilavasitə məhsulların (malların) istehsalında iştirak etməyən əmlak (qiymətli kağızlar, valyuta dəyərliləri, qeyri-istehsal binaları, minik avtonəqliyyatı, xidmət otaqlarının dizayn əşyaları və sair);

- hazır məhsullar (mallar), habelə istehsalda iştirak etməyən və (və ya) bilavasitə istehsalda iştirakı nəzərdə tutulmayan digər maddi qiymətlilər;

- istehsalda bilavasitə iştirakı nəzərdə tutulmuş xammal və materiallar, habelə dəzgahlar, avadanlıqlar, binalar, qurğular və digər əsas vəsaitlər;

- digər əmlak.

Əmlakın siyahıya alınması vergi orqanının rəhbərinin qərarına əsasən həyata keçirilir. Qərarda vergi ödəyicisinin adı və əmlakın yerləşdiyi ünvan göstərilməlidir.

Əmlakın siyahıya alınmasını həyata keçirən vergi orqanının vəzifəli şəxsləri vergi ödəyicisinə (onun nümayəndəsinə) siyahıya alınma haqqında vergi orqanının rəhbərinin qərarını və özlərinin səlahiyyətlərini təsdiq edən sənədi təqdim etməlidirlər. Siyahıya alınma zamanı vergi orqanının vəzifəli şəxsləri tərəfindən əmlakın siyahıya alınması haqqında protokol tərtib edilir, əmlak siyahıya alınır və bu siyahı protokola əlavə edilir. Siyahıda əmlakın dəqiq adı, sayı, fərdi əlamətləri, mümkün olduqda qiymətləri göstərilməklə əmlak tam təsvir edilir. Siyahıya alınan bütün əmlak müşahidəçilərə və vergi ödəyicisinə (onun nümayəndəsinə) baxış üçün təqdim edilir.

Əmlakın siyahıya alınması haqqında qərar qanunla müəyyən edilmiş qaydada ləğv edildiyi andan, yaxud vergi öhdəliyinin yerinə yetirildiyi andan öz qüvvəsini itirir.

Aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması aşağıdakı qaydada həyata keçirilir:

- aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması vergi ödəyicisinin həmin mallar barəsində hüquqlarının elə məhdudlaşdırılmasıdır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmış aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış mallara sahiblik, onlardan istifadə etmək və sərəncam vermək hüququna malik deyildir;

- aksiz markaları ilə markalanmalı olan malların həmin markalarla markalanmadan və ya saxta aksiz markaları ilə markalanmaqla satışı və ya saxlanılması aşkar edildikdə (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) ümumi miqdarı, aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) miqdarı mü-

vafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş formaya uyğun olan aktla, hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin rekvizitləri və onların səlahiyyətli nümayəndəsinin adı və soyadı göstərilməklə rəsmiləşdirilir, akt vergi orqanının nümayəndələrinin, habelə obyektin məsul şəxsinin və müşahidəçilərin imzaları ilə təsdiqlənir; vergi ödəyicisi və ya onun səlahiyyətli nümayəndəsi aktda öz qeydlərini edə bilər, aktı imzalamaqdan imtina edə bilər və bu barədə həmin aktda müvafiq qeyd aparılır;

- aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş formaya uyğun olan siyahısı tərtib edilir. Siyahıda həmin malların adı, fərqləndirici əlamətləri, mənşə mənbəyi, alış və satış qiymətləri, vergi orqanının adı, siyahıya almanı həyata keçirən vəzifəli şəxslərin adı, soyadı və atasının adı, siyahıyaalmanın həyata keçirildiyi tarix və yer, vergi ödəyicisi və onun nümayəndəsi haqqında məlumat, müşahidəçilər və dəvət olunmuş mütəxəssislər haqqında məlumatlar əks etdirilir;

- aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) mənşə mənbəyi, alış və satış qiymətləri ilkin sənədlərlə və ya vəzifəli şəxsdən (vəzifəli şəxs olmadıqda satıcıdan) alınmış izahatla müəyyənləşdirilir;

- AR İXM-də göstərilən inzibati xətalara yol vermiş vəzifəli şəxs (şəxslər) barəsində həmin Məcəlləyə müvafiq olaraq protokol tərtib olunur;

- tərtib olunmuş aktın, siyahının və protokolun surətləri vəzifəli şəxsə verilir;

- aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınmasını həyata keçirən vergi orqanının nümayəndəsi həmin malların siyahıya alınması prosesində vergi ödəyicisinin və ya onun nümayəndəsinin iştirak etməsinə icazə verməməyə səlahiyyətli deyildir;

- aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması prosesində vergi orqanının nümayəndəsi vergi ödəyicisinə və ya onun nümayəndəsinə hüquq və vəzifələrini izah etməlidir.

Vergi ödəyicisinin pul vəsaitləri siyahıya alınarkən siyahıya alındığı gündən sonrakı iş günündən gec olmayaraq müvafiq büdcə hesabına depozitə qoyulur. Vergi orqanı vergi ödəyicisinin pul vəsaitlərinin depozitə qoyulmasını təsdiq edən sənədin surətini ona təqdim edir. Qızıldan, gümüşdən, platindən və platin qrupundan olan materiallardan, qiymətli daşlardan və mirvaridən hazırlanmış zərgərlik məmulatları siyahıya alınarkən qablaşdırılır, möhürlənir və məsul saxlanması üçün vergi ödəyicisinə (onun qanuni və (və ya) səlahiyyətli nümayəndəsinə) və ya vergi

orqanının müəyyən etdiyi digər şəxsə təhvil verilir.

ƏMLAKIN TƏQDİM EDİLMƏSİNDƏN YARANAN ZƏRƏR – Əmlakın təqdim edilməsindən əldə olunan vəsaitin məbləği həmin əmlakın (qiymətli kağızlar, amortizasiya olunan əmlak və öz istehsalı olan məhsullar istisna olmaqla) alındığı qiymətdən azdırsa, onda bu məbləğlər arasındakı fərq vergitutma məqsədləri üçün vergi ödəyicisinin zərəri hesab olunur. Amortizasiya olunan əmlakın qalıq dəyəri onun satış xərcləri də daxil olmaqla təqdim edilməsi nəticəsində əldə olunan vəsaitin məbləğindən çoxdursa, bu məbləğlər arasındakı fərq vergitutma məqsədləri üçün vergi ödəyicisinin zərəri hesab olunur.

ƏMR – dövlət hakimiyyət orqanının, dövlət müəssisəsinin rəhbərinin aktı; hərbi qüvvələrdə rəisin tabeliyində olan şəxslər üçün məcburi olan yazılı və ya şifahi göstəriş.

ƏMTƏƏ – mübadilə üçün istehsal edilən əmək məhsulu; istehsal-iqtisadi fəaliyyətin maddi-əşyavi formada hər hansı məhsulu; satıcılarla alıcılar arasında alqı-satqı, bazar münasibətləri obyekti, başqa sözlə, tələb və ehtiyacı ödəyən və diqqəti cəlb etmək, almaq, istifadə etmək, yaxud istehlak etmək məqsədilə satış və bazar üçün nəzərdə tutulan insan əməyinin məhsulu.

ƏMTƏƏ NİŞANI – hüquqi cəhətdən qorunan firma adı, firma nişanı, əmtəə nümunəsi və ya onların əlaqələndirilməsi, başqa sözlə, müəyyən firmanın əmtəələrinin digər firmanın məlumatlarından fərqləndirilməsi üçün müəyyən edilmiş qaydada qeydiyyatdan keçən nişan (işarə, əlamət). Əmtəə nişanının sahibi eyni məhsul və xidmətlər üçün əmtəə nişanından və onun variantlarından istifadə edilməsi üçün müstəsna hüquqa malikdir. Mülki-hüquqi təsnifata görə, əmtəə nişanı hüququ müstəsna hüquqlara aiddir. Qanunla müəyyən edilir ki, əmtəə nişanı sahibi əmtəə nişanından istifadə etməyə görə, ondan sərəncamlıq etməyə görə eləcə də digər şəxslər tərəfindən əmtəə nişanından istifadə edilməsinə qadağan qoymağa görə müstəsna hüquqa malikdir.

ƏMTƏƏ-MATERİAL EHTİYATLARININ UÇOTU – vergi ödəyicisi tərəfindən istehsal edilən, yaxud satın alınan malların istehsal xərclərinə və ya satınalma qiymətlərinə əsasən müəyyənləşdirilən dəyərinin uçotda əks etdirilməsi.

ƏNƏNƏVİ MÜƏSSİSƏ-İXRACATÇI – RF-nin və bəzi ölkələrin gömrük ərazisindən malın çıxarılmasında ƏDV-nin qaytarılması məqsədləri üçün malların təqdimatının, o cümlədən müvəqqəti, natamam və dövri gömrük bəyannamələri tətbiq etməyin xüsusi qaydasından istifadə hüququ olan müəssisə. Bu cür müəssisələrə əsasən öz məhsullarını və müəyyən şərtləri ödəyən məhsulları bilavasitə istehsalçılardan alan müəssisələr aid edilir.

ƏRAZİ – hər hansı bir sərhəd çərçivəsilə əhatə edilmiş səth. Ölkə ərazisi dedikdə, həmin ölkənin hökuməti tərəfindən idarə olunan, əhatə dairəsində fiziki şəxslər, məhsullar, xidmət və pul vəsaitlərinin sər-

bəst dövriyyə imkanları olan sahə başa düşülür. Ölkənin iqtisadi ərazisinə, eyni zamanda, onun hava məkanı, su hövzələri, beynəlxalq sularda kontinental şelfi, digər ölkələrdə diplomatik, hərbi, elmi və s. məqsədlər üçün istifadə etdiyi (səfirlik, konsulluq və s.) "sahəvi anklavlar" da aid edilir.

ƏRAZİ VERGİLƏR İDARƏSİ – Vergilər Nazirliyinin struktur bölməsi olan və dövlət vergi orqanları sırasına daxil olan Ərazi Vergilər İdarəsi (ƏVİ) ona həvalə olunmuş ərazidə öz səlahiyyətləri daxilində kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı və vergi ödəyicilərinin uçotu, dövlət vergilərinin və digər büdcə daxilolmalarının düzgün hesablanması, onların vaxtında və tam məbləğdə dövlət büdcəsinə köçürülməsi sahəsində təşkilat və nəzarət tədbirlərini həyata keçirir. İdarə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Vergilər Nazirliyinin digər struktur vahidi və



14 saylı Ərazi Vergilər İdarəsi

ya bölmələri, müvafiq icra hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. İdarə hüquqi şəxsdir, müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində AR dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürlərə, müvafiq ştamplara və blanklara malikdir. AR vergi orqanları sisteminə 14 ƏVİ daxildir.

ƏRAZİ ZONASI – torpaqdan istifadə və tikinti qaydaları çərçivəsində sərhəd və şəhərsalma reqlamentləri əsasında müəyyən edilmiş səth. Ərazi zonaları aşağıdakılar nəzərə alınaraq müəyyən edilir:

- funksional zona və onların planlaşdırılmış inkişaf parametrləri;
- mövcud torpaqdan istifadə qaydalarına əsasən istifadə olunan planlaşdırma;
- iç-içə yerləşən tikinti obyektlərinə dəyə biləcək zərərin aradan qaldırılması və s.

ƏRİZƏ – maraqlı şəxsin inzibati aktın qəbul edilməsi və ya ona məxsus olan hər hansı hüququn həyata keçirilməsi ilə bağlı inzibati orqana yazılı müraciəti; vətəndaşlara məxsus hüquqların həyata keçirilməsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət.

ƏRZAQ VERGİSİ – SSRİ MİK-in 1921-ci il martın 21-də qəbul olunmuş dekreti ilə kəndli təsərrüfatlarından alınan vergi. Kənd təsərrüfatı ilə məşğul olan əhali istehsal edilən taxıl məhsullarının müəyyən hissəsini dövlətə ödəyirdi; bu zaman ailə üzvlərinin və təsərrüfatda mal-qaranın sayı nəzərə alınırdı. Ən kasıb kəndlilər bu vergidən azad edilmişdi. Varı çox olan kəndlilər məhsulun, demək olar ki, hamısını ödəməli olurdular. Azərbaycanda əvvəlcə bu verginin əvəzinə hər təsərrüfatdan könüllü olaraq 20 girvənkə taxıl ödənilirdi. Lakin 1922-ci

il may ayının 3-dən bu vergi Azərbaycanda da tətbiq olunmağa başladı. Lakin digər yerli vergilərlə birlikdə 1923-cü ilin mayında vahid kənd təsərrüfatı vergisinə keçilməklə ləğv olundu.

ƏSAS VASİTƏLƏR – müəssisənin sahib olduğu bütün maddi varlıqları əhatə edən mühasibat termini. Müəssisənin əsas vasitələrinin cəmi onun öhdəliklərinin cəminə bərabər olmalıdır. Beynəlxalq mühasibatlıqda aktivlərin aşağıdakı təsnifatı mövcuddur:

- cari əsas vasitələr – nağd pullar, qiymətli kağızlar, bank depozitləri və nağd pula mümkün qədər tez çevrilə bilən digər predmetlər;

- ticarət investisiyaları – törəmə və ya birgə şirkətlərə investisiyalar;

- "fixed" vasitələr – torpaq, binalar, fabriklər, maşın və avadanlıqlar, mebel;

- qeyri-maddi vasitələr – qudvill (müsbət reputasiya), patentlər və s.

ƏSAS VASİTƏLƏRİN TƏMİRİNƏ MƏSRƏFLƏR – mənfəət vergisi ödəyicisi tərəfindən əsas vəsaitlərin təmirinə çəkilmiş xərclər. Digər xərclər kimi qiymətləndirilir və həyata keçirildiyi hesabat dövrü və (və ya) vergi ilində vergitutma məqsədləri üçün qəbul edilir.

ƏSAS VƏSAİTLƏR – istehsal prosesində iştirak edib öz formasını itirməyən, istifadə müddəti bir ildən, dəyəri isə müəyyən olunmuş həddən artıq olan maddi aktivlərdir. Köhnəlməyə məruz qalınca dəyəri azalır və amortizasiya olunaraq vəsaitin öz dəyərinə keçirilir.

ƏSASNAMƏ – dövlət orqanının təşkili qaydalarını, strukturunu, funksiyalarını, səlahiyyətlərini, vəzifələrini və işinin təşkili qaydalarını müəyyən edən normativ hüquqi akt.

ƏŞYALARIN NÜMUNƏ KİMİ GÖTÜRÜLMƏSİ – səyyar vergi yoxlaması keçirildikdə yoxlamanın predmetinə aid olan və vergi ödəyicisi tərəfindən vergilərin hesablanması üçün təqdim olunan əşyaların öyrənilməsinə əlavə vaxt tələb olunduğu halda, həmçinin, təqdim olunmuş sənədlərdə vergi qanunvericiliyinin pozulması halları əşyalarla bağlı olduqda, səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının vəzifəli şəxsi tərəfindən nümunə kimi əşyaların götürülməsi. Nümunə kimi əşyaların götürülməsinə yalnız səyyar vergi yoxlaması keçirildikdə və vergi orqanının rəhbərinin (yaxud onun müavininin) əsaslandırılmış qərarı olduqda yol verilir.

AR VM-in 43-cü maddəsində sənədlərin götürülməsi qaydaları ilə yanaşı, nümunə kimi əşyaların götürülməsi qaydaları da göstərilmişdir. Səyyar vergi yoxlaması zamanı nümunə kimi əşyalar aşağıdakı məqsədlər üçün götürülür:

- gəlirdən çıxılan xərclərə aid edilən malların (işlərin, xidmətlərin) dəyərinin onların fiziki və keyfiyyət göstəriciləri, növü, mənşəyi və digər göstəriciləri ilə uyğunluğunun yoxlanılması;

- malların (işlərin, xidmətlərin) təqdim olunmasından əldə edilən və uçota alınan gəlirin həmin malların (işlərin, xidmətlərin) fiziki və keyfiyyət göstəriciləri, növü, mənşəyi və digər göstəricilərinə uyğunluğunun yoxlanılması;

- malların (işlərin, xidmətlərin) bazar qiymətlərinin müəyyənləşdirilməsi;

- vergi qanunvericiliyinin pozulmasının, o cümlədən aksiz markası ilə markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların saxlanılmasının, satışının və idxal olunmasının sübut edilməsi;

- vergi qanunvericiliyinin pozulmasının sübut edilməsi məqsədi ilə əşyaların nümunə kimi götürülməsi zəruri olan digər hallarda.

Vergi orqanının vəzifəli şəxsi tərəfindən səyyar vergi yoxlaması zamanı nümunə kimi götürülən əşyalar xüsusiyyətindən asılı olaraq qablaşdırılır, zəruri hallarda isə yoxlayıcı tərəfindən möhürlənir.

Səyyar vergi yoxlaması keçirilərkən əşyaların nümunə kimi götürülməsinin miqdarı, həcmi və götürülmə ilə əlaqədar digər şərtlər AR-in ərazisində qüvvədə olan standartlara və normativlərə əsasən müəyyən edilir.

Nümunə kimi götürülmüş əşyalar, həmin əşyaların tədqiq edilməsi üçün zəruri olan vaxtı nəzərə almaqla 30 gündən artıq olmayan müddətə götürülə bilər; əşyaların saxlanılması və onların qorunması, qanunvericiliyə uyğun olaraq yaradılmış və fəaliyyət göstərən təşkilatlarda tədqiq edilməsi vergi orqanının hesabına həyata keçirilir; istehlak xassələrini itirmədiyi halda, həmin əşyalar vergi ödəyicisinə qaytarılır, istehlak xassələrini itirdikdə isə onların dəyəri vergi orqanı tərəfindən ödənilir.

Əşyaların götürülməsi sənədləri və əşyaları götürülən şəxslərin və (və ya) onların nümayəndələrinin, habelə müşahidəçilərin iştirakı ilə həyata keçirilir; zəruri hallarda nümunə kimi əşyaların götürülməsində iştirak etmək üçün mütəxəssis dəvət oluna bilər.

Səyyar vergi yoxlaması zamanı vergi ödəyicisi nümunə kimi əşyaları vermədiyi halda, bu barədə AR VN tərəfindən təsdiq edilmiş formada imtina aktı tərtib edilir və həmin akt vergi orqanının vəzifəli şəxsləri, yoxlamada iştirak edən digər şəxslər (müşahidəçilər, ekspertlər, mütəxəssislər), habelə vergi ödəyicisi və ya onun nümayəndəsi tərəfindən imzalanır.

ƏVARİZ – orta əsrlərdə Azərbaycanda və Yaxın Şərqin bir sıra ölkələrində tətbiq edilmiş daimi olmayan, fövqəladə vergi növü. Natura və ya mükəlləfiyyət şəklində ödənilirdi. Əvariz ərəbcədən tərcümədə "təsadüfi hadisə" mənasını verir.

ƏVƏZLƏŞDİRMƏ – vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturaları üzrə nağdsız qaydada (mal, iş və xidmət təqdim edənin bank hesabına birbaşa nağd qaydada ödənişlər istisna edilməklə) ödəmələr üzrə ƏDV-nin depozit hesabına və bu hesab daxilində aparılan əməliyyatlarda ödənilən vergi məbləği.

ƏVƏZSİZ ƏLDƏ EDİLƏN ƏMLAKDAN GƏLİRLƏR – təşkilatların satışdankənar gəlirləri şəklində mənfəət vergisi üzrə vergiqoymanın obyekti. Aktivlərini (əmlakını) əvəzsiz əsasla və ya güzəştli qiymətlə

təqdim edən şəxsin gəliri bu qayda ilə təqdim edilən aktivin bazar qiyməti və onun AR Vergi Məcəlləsinin 143-cü maddəsinə uyğun olaraq müəyyənləşdirilən dəyəri (aktivlərin alınması, gətirilməsi, istehsalı, tikilməsi, quraşdırılması və qurulması üçün çəkilən xərclər, həmçinin vergi ödəyicisinin gəlirdən çıxmaq hüququna malik olduğu xərclər) arasındakı fərqdən ibarətdir.

ƏVƏZSIZ ÖDƏNİŞ – müqabilində heç bir öhdəlik nəzərdə tutulmayan və qaytarılmayan ödəniş.

ƏVVƏLKİ DÖVRDƏ MAL İXRACI – əvvəlki dövrdə mal, iş, xidmət və intellektual fəaliyyətin nəticələrinin, həmçinin, onlara əlahiddə hüququn geri qaytarmaq öhdəliyi olmadan ölkənin gömrük ərazisindən çıxarılması.

F

FAİZ – maliyyə öhdəliklərinin vaxtlı-vaxtında yerinə yetirilməməsinə görə ödənilməli olan məbləğdən hesablanan, lakin ödənməli olan məbləğdən artıq olmayan dəbbə növü, cərimə sanksiyası. Mallar (işlər, xidmətlər) müqavilədə nəzərdə tutulan müddətdə icra edilmədikdə və ya vergilər, habelə digər ödənişlər gecikdirildikdə tətbiq olunur.

FAİZ GƏLİRLƏRİ – pul vəsaitlərinin sahibləri tərəfindən həmin vəsaitlərin digər iqtisadi subyektlərə müvəqqəti təqdim edilməsindən əldə olunan, maliyyə vəsaitlərinin istifadəsinə görə kompensasiya xarakteri daşıyan gəlirlər. Adətən, illik faiz dərəcəsi şəklində ifadə olunur.

FAİZLƏR – borc öhdəlikləri ilə bağlı olan hər hansı ödəmə, o cümlədən kreditlərin (ssudaların) və ya depozitlərin (hesabların) verilməsi üçün ödəmə.

FAİZLƏRDƏ QƏNAƏTDƏN MADDİ FAYDA – faizsiz və ya aşağı faizlə götürülmüş borc (kredit) vəsaitlərindən istifadəyə görə faiz şəklində ödənilməyən məbləğ.

FAKTİKİ GƏLİRİN ALINMA TARİXİ – vergi ödəyicisinin nağd pul vəsaitini aldığı, nağdsız ödəmədə isə pul vəsaitinin bankda onun hesabına və ya sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti almaq hüququna malik olacağı hesaba daxil olduğu vaxt gəlirin əldə edildiyi vaxt. Vergi ödəyicisinin maliyyə öhdəliyinin ləğv edildiyi və ya ödənildiyi halda (qarşılıqlı hesablaşmalar aparıldıqda və sair bu kimi hallarda) öhdəliyin ləğv edildiyi və ya ödənildiyi vaxt gəlirin əldə edildiyi vaxt sayılır.

FAYDALI İSTİFADƏ MÜDDƏTİ – əsas vəsait obyektlərinin və (və ya) qeyri-maddi aktivlərin vergi ödəyicisinin fəaliyyətinin yerinə yetirilməsi üçün istifadə edildiyi dövr. Faydalı istifadənin müddəti mənfəət vergisinin ödəyicisi olan hüquqi şəxslər və gəlir vergisinin ödəyicisi olan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslər tərəfindən əsas vasitələrin təsnifatına əsasən amortizasiya edilən əmlakın konkret istismara verilməsi tarixindən təyin edilir. Qeyri-maddi aktiv obyeklərinin faydalı istifadəsi müddəti patent və şəhadətnamələrin istifadə müddətinə və ölkənin və ya xarici dövlətin qanunvericiliyinə uyğun olaraq intellektual mülkiyyət obyektlərindən istifadə müddətlərinin digər məhdudiyyətlərinə, habelə müvafiq müqavilələr üzrə qeyri-maddi aktivlərdən istifadə müddətinə əsasən müəyyən edilir. Bütün aktivlərə amortizasiya hesablanması norması və qaydaları AR Vergi Məcəlləsinin 114-cü maddəsində müəyyən edilmişdir. Qeyri-maddi aktivlərə amortizasiya istifadə müddəti məlum olmayanlar üçün 10 faizədək, istifadə müddəti məlum olanlar üçün isə illər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə hesablanır (AR Vergi Məcəlləsi, maddə114.3.6).

FAYDALI QAZINTI EHTİYATLARININ DÖVLƏT BALANSI – "Yerin təki haqqında" 13 fevral 1998-

ci il tarixli 439-IQ nömrəli AR Qanunu və AR Prezidentinin 6 mart 2000-ci il tarixli 293 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Faydalı qazıntı ehtiyatlarının dövlət balansının aparılması Qaydalari" ilə tənzimlənən faydalı qazıntı ehtiyatlarının dövlət balansı sənaye əhəmiyyətli yataqlar üzrə hər növ faydalı qazıntı ehtiyatlarının kəmiyyəti, keyfiyyəti, öyrənilmə dərəcəsi, yerləşməsi, sənayedə istifadə dərəcəsi, faydalı qazıntıların çıxarılması, itkisi, kəşf edilmiş ehtiyatlar ilə sənayenin təmin edilməsi haqqında məlumatları özündə əks etdirməklə, mineral-xammal bazasının vəziyyətinin uçotu məqsədilə aparılır. Faydalı qazıntı ehtiyatlarının dövlət uçotuna aiddir:

- faydalı qazıntı yataqları və onların sahələri, dağ-mədən müəssisələri və ölkə üzrə faydalı qazıntı ehtiyatlarının hər ilin yanvar ayının 1-nə olan vəziyyəti;

- ölkə üzrə dövlət balansına götürülən faydalı qazıntı ehtiyatları;

- istismara cəlb edilən faydalı qazıntı yataqları üzrə hasilat və itkilər, istismar və kəşfiyyat işləri nəticəsində və digər səbəblərdən ehtiyatların dəyişməsi üzrə illik hesabatlar;

- fəaliyyətdə olan, tikilən və layihələndirilən dağ-mədən müəssisələrinin mineral-xammal ehtiyatları ilə təmin olunmasının səviyyəsi haqqında məlumatlar. Faydalı qazıntı ehtiyatlarının illik hesabat balansı yer təkinin geoloji öyrənilməsi və faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan müəssisə və təşkilatlar tərəfindən istismar olunan faydalı qazıntı yataqları və onların sahələri, istismar işləri ilə yanaşı geoloji-kəşfiyyat işləri aparılan yataqlar və geoloji-kəşfiyyat işləri aparılan faydalı qazıntı yataqları üzrə hər bir faydalı qazıntı növü üçün ayrılıqda növbəti ilin yanvar ayının 1-nə olan vəziyyətə görə tərtib olunur, müəssisənin (təşkilatın) rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiq edilir. Faydalı qazıntı ehtiyatlarının illik hesabat balansı hesabat ilindən sonrakı ilin fevral ayının 1-dək AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Geologiya İnformasiya Fonduna təqdim edilir. Dövlət Geologiya İnformasiya Fondu müəssisə və təşkilatların təqdim etdikləri faydalı qazıntı ehtiyatlarının illik hesabat balansının düzgün tərtib edilməsini yoxlayır; hesabat ili ərzində ehtiyatların hərəkəti və dəyişilməsi əsasında faydalı qazıntı ehtiyatlarının dövlət uçotunu aparır; hər il, hesabat ilindən sonrakı ilin yanvar ayının 1-nə olan vəziyyətə görə, faydalı qazıntı ehtiyatlarının məcmu dövlət balansını tərtib edir. Faydalı qazıntı ehtiyatlarının məcmu dövlət balansı Faydalı Qazıntı Ehtiyatları üzrə Komissiya tərəfindən baxılır, təsdiq edilir və istifadə üçün Dövlət Geoloji İnformasiya Fondunda daimi saxlanılır. Bu Qaydaların 1.3-cü bəndində nəzərdə tutulduğu hallarda məcmu dövlət balansının müvafiq hissəsi məlumat (xidməti istifadə) üçün AR Sənaye və Energetika Nazirliyində saxlanılır.

FAYDALI QAZINTI YATAQLARININ VƏ TƏZAHÜRLƏRİNİN DÖVLƏT KADASTRI – "Yerin təki haqqında" 13 fevral 1998-ci il tarixli 439-IQ nömrəli AR Qanunu və AR Prezidentinin 6 mart

2000-ci il tarixli 293 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Faydalı qazıntı ehtiyatlarının dövlət balansının aparılması Qaydalari"na əsasən faydalı qazıntı yataqlarının və təzahürlərinin dövlət kadastrı hər bir yataq üzrə əsas və yanakı faydalı qazıntı ehtiyatlarının kəmiyyətini və keyfiyyətini, onlarda olan komponentlərin miqdarını, yataqların işlənməsinin dağ-mədən-texniki, hidrogeoloji, ekoloji şəraitini və geoloji-iqtisadi qiymətləndirilməsini səciyyələndirən məlumatları, eləcə də hər bir faydalı qazıntı təzahürünə dair məlumatları özündə birləşdirməlidir. Dövlət kadastrı faydalı qazıntı yataqlarının kompleks istifadəsi, onların işlənilməsi ilə əlaqədar infrastrukturun səmərəli inkişafı və yerləşdirilməsi məqsədi ilə aparılır. Faydalı qazıntı yataqlarının və təzahürlərinin dövlət kadastrı yer təkinin geoloji öyrənilməsi və faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan təşkilat və müəssisələrin Dövlət Geoloji İnformasiya Fonduna təqdim etdikləri hesabatlar əsasında AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən tərtib edilir və aparılır.

FAYDALI QAZINTILAR – Yer qabığında maddi istehsal sahəsində effektiv istifadə oluna bilən üzvi və qeyri-üzvi mənşəli təbii mineral aqreqatları. Faydalı qazıntılar bərk, maye və qaz halında olur. Geoloji tərkibinə görə FQ-lər bir neçə qrupa ayrılır:

- yanar FQ-lər (neft, təbii qaz, şist, torf, kömür);
- filiz FQ-lər (qara, əlvan və nəcib filizlər);
- qeyri-filiz FQ-lər (tikinti materialları (əhəngdaşı, qum, gil və sair), tikinti daşları (qranit) və s.);
- daşrəngli xammal (yəşəm daşı, rodonit, aqat, oniks, xalsedon, cila daşı, nefrit və s.) və qiymətli daşlar (almaz, zümrüd, rubin, sapfir);
- mineral sular (yeraltı təbii müalicəvi, faydalı bioaktiv element tərkibli və şirin (içməli) sular);
- dağ-kimya xammalı (apatit, fosfat, mineral duz, barit, borat və s.).



Gədəbəy rayonunda qızıl yataqlarının işlənməsi

AR ərazisinin 2/3 hissəsi yanar FQ yataqları ilə zəngindir. Bu yataqlar daha çox Abşeron yarımadası, Xəzər dənizinin şelf zonası, Bakı və Abşeron arxipelaqlarındadır. Bundan başqa, Cənub-şərqi Şirvan, Mərkəzi Aran, Qobustan, Ceyrançöl, Acınohur, Siyəzən zonaları da neftlə zəngindir. Eyni zamanda, AR ərazisinin Böyük Qafqazın cənub-şərq yaylaları, Böyük və Kiçik Qafqazın dağətəyi zonası, Xəzər dənizi sahilləri, Masazır gölü və şimal çaylarının yataqları, Abşeron yarımadası da digər faydalı qazıntılarla zəngindir.

FAYDALI QAZINTILARIN ÇIXARILMASIINA VERGİ – bax: *mədən vergisi.*

FAYDALI QAZINTILARIN ÇIXARILMASI – sənaye və təsərrüfatda istifadə etmək üçün faydalı hesab olunan kimyəvi maddə, mineral birləşmə və qiymətli daşların texnoloji üsullarla yerin təkindən, səthindən və ya dənizin dibindən çıxarılması.

FAYDALILIQ PRİNSİPİ – vergitutmanın əsas prinsiplərindən biri. Bu prinsipə əsasən yığılmış verginin məbləği onun yığılmasına çəkilən xərclərin cəmindən çox olmamalıdır.

FEDERAL DAİRƏLƏR ÜZRƏ REGİONLARARASI MÜFƏTTİŞLİKLƏR – RF-də federal dairələrdə yaradılan vergi orqanları.

FELDŞTEYN MARTIN STÜART (1939) – Amerika iqtisadçısı, Harvard Universitetinin professoru. 1978-2008-ci illərdə ABŞ İqtisadi Araşdırmalar Milli Bürosunun prezidenti və baş direktoru olmuşdur. 1982-1984-cü illərdə ABŞ Prezidenti yanında İqtisadi Şuranın sədri və



Prezident Ronald Reyqanın baş iqtisadi müşaviri olmuşdur. İqtisadiyyat sahəsində 300-dən artıq məqalənin müəllifidir və əsas əsərləri makroiqtisadiyyat və dövlət maliyyəsi sahəsinə aidir.

FƏALİYYƏTİN AYRI-AYRI NÖVLƏRİ ÜÇÜN ŞƏRTİ GƏLİRƏ VAHİD VERGİ – fəaliyyətin qanunvericiliklə müəyyən edilmiş ayrı-ayrı növləri üçün şərti gəlirə görə tutulan vergi. RF-də 2003-cü il yanvarın 1-dən tətbiq edilir. Federal Qanunla bu vergi aşağıdakı fəaliyyət növləri üçün tutulur:

- məişət və baytar xidmətləri;
- avtonəqliyyat vasitələrinin təmiri, texniki cəhətdən yoxlanması, yuyulması və saxlanması xidmətləri;
- avtonəqliyyat xidmətləri;
- pərakəndə satış;
- ictimai iaşə xidmətləri;
- küçələrdə və nəqliyyat vasitələrində reklamların yerləşdirilməsi;
- müvəqqəti yaşayış yeri ilə təminetmə;
- ticarət üçün yerlərin və torpaq sahələrinin icarəyə verilməsi.

Vergi ödəyiciləri RF-nin vahid vergi tutulan subyektlərində fəaliyyət göstərən təşkilatlar və fərdi sahibkarlar, vergi obyekti ödəyicinin şərti gəliridir. Vergi bazası fəaliyyət növündən və bu fəaliyyət növünü xarakterizə edən fiziki göstəricinin qiymətindən asılı olan şərti gəlirdir.

FƏALİYYƏTİN HƏYATA KEÇİRİLDİYİ YER – ƏDV-nin məq-

sədləri üçün işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer. Aşağıdakılar işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer sayılır:

- daşınmaz əmlakın olduğu yer – işlər (xidmətlər) bilavasitə bu əmlakla bağlıdırsa; bu cür işlərə (xidmətlərə) tikinti, tikinti-quraşdırma, təmir-bərpa işləri, daşınmaz əmlakla bağlı agent və ekspert xidmətləri və digər analoji işlər (xidmətlər) aiddir;

- işlərin faktiki görüldüyü (xidmətlərin faktiki göstərildiyi) yer – bunlar daşınar əmlakla bağlıdırsa;

- xidmətlərin faktiki göstərildiyi yer – xidmətlər mədəniyyət, incəsənət, təhsil, bədən tərbiyəsi və ya idman sahəsində, yaxud digər analoji fəaliyyət sahələrində göstərilirsə;

- nəqletmənin faktiki həyata keçirildiyi yer – işlər (xidmətlər) bu nəqletmə ilə bağlıdırsa;

- işlərin və ya xidmətlərin alıcısının yerləşdiyi və ya qeydiyyatda olduğu, təsis edildiyi, işlər və ya xidmətlər alıcının daimi nümayəndəliyi ilə bilavasitə bağlı olduğu halda həmin daimi nümayəndəliyin olduğu yer; bu müddəalar aşağıdakı xidmətlərə tətbiq edilir: patentlərin, lisenziyaların, ticarət markalarının, müəlliflik və digər analoji hüquqların mülkiyyətə verilməsi və ya güzəşt edilməsi; məsləhət, hüquq, mühasibat, mühəndis və ya reklam xidmətlərinin, həmçinin, məlumatların işlənilməsi üzrə xidmətlərin və digər analoji xidmətlərin göstərilməsi; işçi qüvvəsinin verilməsi üzrə xidmətlərin göstərilməsi; daşınar əmlakın icarəyə verilməsi (nəqliyyat müəssisələrinin nəqliyyat vasitələri istisna olmaqla); müqavilənin əsas iştirakçısı adından bu maddədə göstərilən xidmətlərin yerinə yetirilməsi üçün hüquqi və ya fiziki şəxsi cəlb edən agentin xidmət göstərməsi; telekommunikasiya xidmətlərinin göstərilməsi (siqnalların, sənədlərin, şəkillərin və ya səsin, yaxud istənilən xarakterli informasiyanın teleqraf, radio, optik və ya digər elektromaqnit sistem vasitəsilə alınması, yayılması, ötürülməsi, o cümlədən bu cür ötürmə, alma və ya yayım hüquqlarının təqdim edilməsi və ya alınması); radio və televiziya yayımı, poçt rabitəsi xidmətlərinin göstərilməsi; kompüter, internet və digər elektron şəbəkələr, elektron poçt və digər oxşar vasitələrlə xidmətlərin göstərilməsi, yaxud bu cür şəbəkələrdən və ya xidmətlərdən istifadə hüququnun verilməsi;

- işi yerinə yetirən və ya xidmət göstərən şəxsin fəaliyyəti həyata keçirdiyi yer.

FƏALİYYƏTİN MÜƏYYƏN NÖVLƏRİ ÜÇÜN ŞƏRTİ GƏLİRƏ VAHİD VERGİ – siyahısı bir qayda olaraq yerli orqanlar tərəfindən müəyyən olunmuş fəaliyyət növlərinə tətbiq olunan, məcburi xarakter daşıyan, məbləği müvafiq fəaliyyət növü üzrə əldə oluna bilən potensial gəlir nəzərə alınmaqla hesablanan vergi. Sadələşdirilmiş verginin bir növüdür. RF-də 1998-ci il 31 iyulda qəbul edilmiş federal qanuna görə tətbiq olunan və fəaliyyətin ayrı-ayrı növləri üçün şərti gəlirə vahid verginin 2003-cü il yanvarın 1-dən tutulmağa başlanması ilə əlaqədar 2002-ci ilin dekabrın 31-dən ləğv edilmişdir. Vergi ödəyiciləri hüquqi şəxslər (təşkilatlar) və müəyyən edilmiş sahələrdə hüquqi

şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslər idi. Vergitutma obyekti növbəti təqvim ayı üçün şərti gəlir hesab olunurdu. Vahid vergi üçün vergi dövrü bir rüb nəzərdə tutulmuşdu və vergi dərəcəsi şərti gəlirin 20 faizi qədər idi.

RF subyektlərinin dövlət hakimiyyətinin qanunvericilik orqanlarında qəbul edilmiş normativ aktlar ilə:

- qanunla müəyyən edilmiş siyahıya daxil olan sahibkarlıq fəaliyyətinin sahələri;
- şərti gəlirin və vahid verginin hesablanması üçün zəruri parametrlər;
- vergi güzəştləri;
- verginin ödənmə müddəti və qaydası təyin olunurdu.

FƏRDİ HESAB – dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən hər bir sığorta olunan şəxsə uçot dövründə daimi (dəyişməz) sosial sığorta nömrəsi ilə açılmış şəxsi hesab.

FƏRDİ İSTİFADƏÇİ KODU – hər bir proqram istifadəçisinə verilmiş şifrəli kod.

FƏRDİ SAHİBKAR – hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs.

"FƏRQLƏNMƏ NIŞANI" – sərnişin və yük daşımalarını həyata keçirən şəxslərə VM ilə müəyyən olunan qaydada ödənilən sadələşdirilmiş vergi məbləğinin müqabilində AR NN tərəfindən verilən və növbəti dövrlərdə daşımaların həyata keçirilməsinə hüququ təsdiqləyən xüsusi nişan. AR VM-in 221.4.7 maddəsinə görə, avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün müvafiq icra hakimiyyəti orqanından (AR NN-dən) təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarım il və ya il üçün ciddi hesabat blankı olan "Fərqlənmə nişanı" almalıdırlar.

"Fərqlənmə nişanı" vergi ödəyicisinin nəqliyyat siyasətini həyata keçirən müvafiq mərkəzi icra hakimiyyəti orqanı (AR NN) tərəfindən təsdiq edilmiş formada ərizəsinə əsasən iki iş günündən gec olmayaraq verilir. Vergi ödəyicisinin ərizəsinə həmin fəaliyyət üçün sadələşdirilmiş verginin ödənilməsini təsdiq edən bank ödəniş sənədi əlavə edilməlidir. Bank ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi göstərilməlidir. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər hesablanmış vergini tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra onlara "Fərqlənmə nişanı" verilir.

Ödənilmiş vergi, ödəyicinin həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq, geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir. Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə, həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər nəzərə alınır və

verginin ödənildiyini təsdiq edən "Fərqlənmə nişanı"nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

"Fərqlənmə nişanı"nın forması nəqliyyat siyasətini həyata keçirən müvafiq mərkəzi icra hakimiyyəti orqanı (AR NN) tərəfindən müəyyən edilir və aşağıdakı məlumatları əks etdirir:

- vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fiziki şəxsin adı, atasının adı, soyadı;
- vergi ödəyicisinin VÖEN-i;
- nişanın qüvvədə olma müddəti;
- avtonəqliyyat vasitəsinin markası və dövlət qeydiyyatı nişanı;
- avtonəqliyyat vasitələrində oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti;
- daşımanın həyata keçirildiyi ərazi;
- ödənilmiş verginin məbləği.

FİLİAL – Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik (hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölməsi) funksiyalarını həyata keçirən ayrıca bölməsi filial sayılır (AR MM, maddə 53.2).

FİSKAL FEDERALİZM – maliyyə sferasında federasiyanın dominantlığına əsaslanan federal hakimiyyət ilə ABŞ-da ştatların hakimiyyəti arasında səlahiyyətlərin bölüşdürülməsi prinsipi. Federal hökumətin gücləndirilməsi, ona genişləndirilmiş səlahiyyətlərin və hüquqların verilməsi (ştatlarla müqayisədə) iqtisadi və siyasi mərkəzləşdirməyə yönəldilmiş obyektiv təmayülə əsaslanır. Ştatların maliyyə sferasındakı müstəqilliyi (muxtariyyəti) ştatların ayrı-ayrı vergi və yığım növlərinin tətbiqi, ştat üçün dövlət borcunun limitinin müəyyən olunması və maliyyə resursları ilə manevr etmək imkanlarına əsaslanır.

FİSKAL RÜSUMLAR – dövlət büdcəsinə gəlirlərin alınması məqsədi ilə tətbiq olunan gömrük rüsumları. Fiskal rüsumlar əsasən bu ölkədə istehsal edilməyən istehlak mallarına tətbiq edilir. Fiskal gömrük rüsumlarının məbləğləri ölkənin gömrük ərazisinə malların idxalı zamanı ƏDV-yə cəlb olunur.

FİSKAL SİYASƏT – dövlətin maliyyə siyasətinin tərkib hissəsi olub büdcənin formalaşması siyasətini ifadə edir. "Fisk" latın sözüdür, mənası "zənbil" deməkdir. İlk dəfə Qədim Romada pulların saxlandığı kassa, sonralar isə vergi, rüsum və digər gəlirlərin cəmləndiyi mərkəz – «fisk» adlandırılmışdır. Fiskal siyasətin əsas məqsədi dövlət xərclərinin maliyyələşdirilməsini təmin etmək üçün ayrı-ayrı fiziki və hüquqi şəxslərin gəlirlərinin müəyyən hissəsinin dövlət büdcəsinə cəlb edilməsi olmuşdur. Fiskal siyasət məcmu tələbin, məşğulluğun və gəlirin səviyyəsinə təsir etmək üçün dövlətin xərclərdən, vergiqoymadan və borclanmadan istifadə edərək həyata keçirdiyi siyasətdir. Bunu vurğulamaq vacibdir ki, fiskal siyasətdəki dəyişiklik məcmu tələb və məcmu təklifin hər ikisinə təsir edir. Fiskal siyasət, əsasən, tələbin idarəolunması aləti kimi istifadə olunur. İlk dəfə bu ideyanı geriləmə əleyhinə istifadə edən C. M. Keyns hesab edirdi ki, vergi dərəcələrində və

dövlət xərclərində dəyişiklik etməklə məcmu tələbi stimullaşdırmaq ən yaxşı vasitədir.

Fiskal siyasət hökumətin büdcə xərcləri və vergi sistemi ilə bağlı elə tənzimləyici siyasətdir ki, bu son nəticədə milli gəlirin və xərcləmələrin strukturuna və yenidən bölgüsünə təsir edir. Beynəlxalq praktikada vergi dərəcələrinin artırılması və ya büdcə xərclərinin kəskin azaldılması fiskal siyasəti gərginləşdirən amillər kimi nəzərdən keçirilir. Optimal fiskal siyasət vergi dərəcələrinin dəyişməsinin işgüzar aktivliyə, büdcə xərclərindəki dəyişiklərin inflyasiya və faiz dərəcələrinə, büdcə kəsirinin isə makroiqtisadi tarazlığa təsirini nəzərə almaqla icra edilməlidir.

FİZİKİ ŞƏXS – AR vətəndaşı, əcnəbi və vətəndaşlığı olmayan şəxs. Fiziki şəxs hüquq münasibətlərində öz adından iştirak edən insan fərdidir. AR-də bütün vətəndaşlar, AR-in ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fiziki şəxslərdir (AR MM, maddə 24.2). Fiziki şəxsin mülki hüquq qabiliyyəti insanın mülki hüquqlara malik olmaq və mülki hüquq vəzifələri daşımaq qabiliyyətidir. Bütün fiziki şəxslərin mülki hüquq qabiliyyəti eyni dərəcədə tanınır (AR MM. maddə 25.1).

FİZİKİ ŞƏXSİN GƏLİRLƏRİNİN NÖVLƏRİ – AR VM-in VIII fəsli ilə tənzimlənir. Rezident fiziki şəxslərin gəliri onun respublika daxilində və xaricində əldə etdiyi gəlirdir, qeyri-rezident fiziki şəxsin gəliri isə AR mənbələrindən əldə etdiyi aşağıdakı gəlirlərə aiddir:

- muzdlu işlə əlaqədar əldə edilən gəlir;
- muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir;
- vergidən azad edilən gəlirlərdən başqa bütün digər gəlirlər.

Muzdlu iş dedikdə, əmək qanunvericiliyinə uyğun olaraq, müqavilə (kontrakt) əsasında haqqı ödənilməklə yerinə yetirilən əmək fəaliyyəti başa düşülür. Fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir isə əmək-haqqı, bu işdən alınan hər hansı ödəmə və ya faydadır. Muzdlu işə aid olmayan fəaliyyətdən gəlirlər sahibkarlıq və qeyri- sahibkarlıq fəaliyyətindən gəlirlərdən ibarətdir.

Sahibkarlıq fəaliyyətindən gəlirə aşağıdakılar aiddir: sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən gəlir; sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına və ya müəssisənin bağlanılmasına razılıq verilməsinə görə alınan gəlir; əsas vəsaitlərin təqdim edilməsindən alınan məbləğlər; gəlirdən çıxılan, kompensasiya edilən məbləğlərdən və ya ehtiyatların azalmasından gəlir.

Qeyri-sahibkarlıq fəaliyyətindən gəlirə aşağıdakılar aiddir: faiz gəliri; divident; əmlakın icarəyə verilməsindən gəlir; royalti; işçinin işəgötürənə olan borcunun və ya öhdəliyinin bağışlandığı hallar istisna olmaqla, vergi ödəyicisinə bağışlanmış borcun məbləği; sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən gəlir; işəgötürənin öz işçisinə malı, işi və ya xidməti təqdim etdiyi, yaxud hədiyyə verdiyi hallar istisna olmaqla, təqvim

ili ərzində alınan hədiyyə və mirasların məbləği; vergi ödəyicisinin aktivlərinin ilkin qiymətinin artdığını göstərən hər hansı digər gəlir (təqdim olunduğu və ya vergitutma məqsədləri üçün amortizasiya hesablandığı təqdirdə) – əməkhaqqından başqa; həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq.

FİZİKİ ŞƏXSİN MƏSRƏFLƏRİNƏ VERGİ NƏZARƏTİ – fiziki şəxsin böyük məbləğdə xərclərinin onun gəlirlərinə uyğunluğunun müəyyənləşdirilməsi məqsədilə həyata keçirilən kompleks tədbirlər.

FİZİKİ ŞƏXSİN SAHİBKAR KİMİ QEYDİYYAT ŞƏHADƏTNAMƏSİ – fiziki şəxsin uçotunu aparan vergi orqanı tərəfindən verilmiş və həmin fiziki şəxsin vergi uçotuna dayanmasını təsdiq edən və özündə onun adını, VÖEN-ni və ünvanını əks etdirən, blankın təkrar çapdan müdafiə məqsədi ilə xüsusi gizli nişanları olan sənəd.

FİZİKİ ŞƏXSİN YAŞADIĞI YER – Fiziki şəxsin, adətən, yaşadığı yer onun yaşayış yeri sayılır. Şəxsin bir neçə yaşayış yeri ola bilər. On dörd yaşına çatmamış şəxslərin yaşayış yeri valideynlik hüquqlarını itirməmiş valideynlərinin yaşayış yeri sayılır, qəyyumluq altında olan şəxsin yaşayış yeri isə qəyyumun yaşayış yeri sayılır. Əgər şəxs hər hansı səbəbdən öz yaşayış yerini müəyyən müddətə tərk edirsə, o, yaşayış yerini itirmir (AR MM, maddə 27).

FİZİKİ ŞƏXSLƏRİN DÖVLƏT QEYDİYYATI – sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin vergi orqanlarında uçota alınması.

FİZİKİ ŞƏXSLƏRİN ƏMLAK VERGİSİ – bax: *Əmlak vergisi.*

FİZİKİ ŞƏXSLƏRİN FAKTİKİ GƏLİRLƏRİNDƏN İRİ HƏCMLİ MƏSRƏFLƏRİN UYĞUNLUĞUNA DÖVLƏT NƏZARƏTİ – RF-nin "Fiziki şəxslərin gəlir vergisi haqqında" Qanununa uyğun olaraq dövlət nəzarəti sistemidir. Sonralar bu sistem fiziki şəxslərin xərclərinə vergi nəzarəti ilə əvəz edilmişdir.

FİZİKİ ŞƏXSLƏRİN GƏLİR VERGİSİ – AR VM-in VIII və X fəsilləri ilə tənzimlənən vergi. Rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyicilərdir. Rezidentlərin gəlirləri üzrə vergitutma obyekti vergi (təqvim) ili üçün rezidentlərin bütün gəliri ilə həmin dövr üçün gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlirdir. Xüsusi notarius tərəfindən bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlar (xərclər nəzərə alınmadan) vergitutma obyektidir. Ödəmə mənbəyində vergi tutulduğu halda, vergitutma obyekti vergiyə cəlb olunan gəlirdir. AR-də daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən qeyri-rezident vergi ödəyicisinin vergiyə cəlb olunan gəliri müəyyən dövr ərzində Azərbaycan mənbələrindən daimi nümayəndəliklə bağlı əldə edilən ümumi gəlirlə həmin dövrdə bu gəlirlərin əldə edilməsi ilə əlaqədar çəkilən və gəlirdən çıxılan məbləğ arasında fərqdir. Qeyri-rezidentin

ödəmə mənbəyində vergi tutulan ümumi gəliri, gəlirdən çıxılan məbləğ nəzərə alınmadan, ödəniş yerində vergitutma obyektidir. Rezident fiziki şəxslərin gəliri onun respublika daxilində və xaricində əldə etdiyi gəlirdən ibarətdir. Muzdlu iş dedikdə, əmək qanunvericiliyinə uyğun olaraq, müqavilə (kontrakt) əsasında haqqı ödənilməklə yerinə yetirilən əmək fəaliyyəti başa düşülür. Fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir isə əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya faydadır. Muzdlu işə aid olmayan fəaliyyətdən gəlirlər sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətindən gəlirlərdən ibarətdir.

Sahibkarlıq fəaliyyətindən gəlirə aşağıdakılar aiddir: sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən gəlir; sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına və ya müəssisənin bağlanılmasına razılıq verilməsinə görə alınan gəlir; əsas vəsaitlərin təqdim edilməsindən alınan məbləğlər; gəlirdən çıxılan, kompensasiya edilən məbləğlərdən və ya ehtiyatların azalmasından gəlir. Qeyri-sahibkarlıq fəaliyyətindən gəlirə aşağıdakılar aiddir: faiz gəliri; divident; əmlakın icarəyə verilməsindən gəlir; royalti; işçinin işəgötürənə olan borcunun və ya öhdəliyinin bağışlandığı hallar istisna olmaqla, vergi ödəyicisinə bağışlanmış borcun məbləği; sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən gəlir; işəgötürənin öz işçisinə malı, işi və ya xidməti təqdim etdiyi, yaxud hədiyyə verdiyi hallar istisna olmaqla, təqvim ili ərzində alınan hədiyyə və mirasların məbləği; vergi ödəyicisinin aktivlərinin ilkin qiymətinin artdığını göstərən hər hansı digər gəlir (təqdim olunduğu və ya vergitutma məqsədləri üçün amortizasiya hesablandığı təqdirdə) əməkhaqqından başqa; həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq; xüsusi notarius tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlar; vəkillik fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən bu fəaliyyətlə bağlı göstərilən xidmətə görə alınan haqq.

VM-ə görə, aylıq gəlirdən aşağıdakı dərəcələrlə vergi tutulur: vergi tutulan aylıq gəlirin məbləği 2500 man.-a qədər olduqda 14 faiz, 2500 man.-dan çox olduqda 350 man.+ 2500 man.-dan çox olan məbləğin 25 faizi. İki və daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir.

Qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirdən aşağıdakı dərəcələrlə vergi tutulur: vergi tutulan illik gəlirin məbləği 30000 man.-a qədər olduqda 14 faiz, 30000 man.-dan çox olduqda 4200 man. + 30000 man.-dan çox olan məbləğin 25 faizi. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergiyə cəlb edilən gəlirlərindən 20 faiz dərəcə ilə vergi tutulur. Xüsusi notarius tərəfindən bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xid-

mətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə vergi tutulur.

AR VM-in 102-ci maddəsində fiziki şəxslərin gəlir vergisindən azadolmalar və güzəştlər göstərilmişdir. Bu maddəyə görə, fiziki şəxslərin aşağıdakı gəlirləri gəlir vergisindən azaddır:

- rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin xarici ölkədə aldığı əməkhaqqı, AR vətəndaşı olmayan diplomatik və ya konsulluq əməkdaşının rəsmi məşğulluğundan gəlir;

- AR-in rezidenti olmayan şəxsin iş yerindən gəlir (bu gəlir AR rezidenti olmayan işəgötürən tərəfindən, yaxud onun adından ödənilirsə və qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən və ya onun adından, yaxud daimi nümayəndəlikdə fəaliyyəti ilə əlaqədar ödənilmirsə);

- təqvim ili ərzində alınan hədiyyə, maddi yardım, birdəfəlik müavinət və miraslar: hədiyyələrin, təhsil və ya müalicə haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 1000 manatadək olan hissəsi, xaricdə müalicə haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 2000 manatadək olan hissəsi, mirasların dəyərinin 20000 manatadək olan hissəsi; hədiyyə, maddi yardım və miras vergi ödəyicisinin ailə üzvlərindən alındığı halda, onun tam dəyəri;

- əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlər istisna olmaqla, dövlət müavinətləri, əvəzsiz dövlət köçürmələri, dövlət pensiyaları, dövlət təqaüdləri, işçilərin sayının və ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq əmək müqaviləsinə xitam verildikdə, işçilərə AR ƏM-ə müvafiq ödənilən təminatlar, habelə AR-in qanunları və müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar ("AR VM-in təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" AR Qanununun və bu Qanunla təsdiq edilmiş AR VM-in tətbiq edilməsi barədə AR Prezidentinin Fərmanına görə, burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini AR NK həyata keçirir);

- alimentlər;

- fiziki şəxsin əsas iş yerində aylıq gəliri 200 manatadək olduqda, əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 1 misli, illik gəliri 2400 manatadək olduqda, əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi;

- qiymətli daşlardan və metallardan, qiymətli daşlar və metalların məmulatlarından, incəsənət əsərlərindən, əntiq əşyalardan və vergi ödəyicisinin sahibkarlıq fəaliyyətində istifadə edilən və ya istifadə edilmiş əmlakdan başqa, daşınan maddi əmlakın təqdim edilməsindən gəlir;

- sığorta hadisəsi baş verdikdə sığorta olunanın və faydalanan şəxsin həyatına, habelə onun əmlakına və ya əmlak mənafelərinə dəymiş zərərin əvəzini ödəmək üçün pul və ya natura

şəklində ödənilmiş vəsait, həmçinin, işəgötürən tərəfindən ödənilən bütün növ icbari və könüllü tibbi sığorta haqları, 3 ildən az olmayan müddətə bağlanan müqavilə ilə həyatın yığım sığortası və pensiya sığortası üzrə işəgötürənin AR-in sığortaçılarına ödədikləri sığorta haqları, həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilənin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra sığorta olunana və faydalanan şəxsə ödənilən hər hansı məbləğlər;

- vergi ödəyicisinin azı 3 il ərzində əsas yaşayış yeri olduğu daşınmaz əmlakının təqdim edilməsindən gəlir;

- dəymiş zərərlərin ödənilməsi ilə bağlı alınan kompensasiya ödənişləri;

- bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər;

- sənətkarlığın misgərlik, qalayçılıq və saxsı məmulatlarının, təsərrüfat müxəlləfatının, bağçılıq-bostançılıq alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallardan məişət alətlərinin hazırlanması sahəsində fəaliyyət göstərən fiziki şəxslərin gəliri;

- müvafiq qaydada müvafiq icra hakimiyyəti orqanında qeydiyyatdan keçmiş lotereyalardan, habelə dövlət daxili uduşlu istiqrazlardan əldə olunan uduşların dəyəri.

Bunlardan əlavə, fiziki şəxslərə kompensasiya xarakterli müəyyən ödəmələr də gəlir vergisindən azaddır (AR VM, maddə 102.1.14). Yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri, beynəlxalq yarışlarda və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri – 4000 manatadək, respublika, şəhər və rayon yarışlarında və müsabiqələrində isə – 200 manatadək, dövlət qulluqçusuna pensiya yaşına çatmasına görə könüllü işdən çıxması ilə əlaqədar verilən birdəfəlik haqq, AR MM-in deputatlarına deputatlıq səlahiyyətlərinin yerinə yetirilməsi ilə əlaqədar xərclərin ödənilməsi üçün vəzifə maaşlarına aylıq pul təminatı və müvafiq icra hakimiyyəti orqanının (AR Prezidentinin) qərarı ilə vəzifəyə təyin olunan AR icra hakimiyyəti və digər dövlət orqanlarının (təsisatlarının) rəhbər işçilərinə səlahiyyətlərinin icrası ilə bağlı təmsilçilik xərclərinin ödənilməsi üçün verilən vəzifə maaşlarına aylıq əlavə pul təminatı üçün də gəlir vergisi ödənilmir.

AR VM-ə görə, (maddə 102.2) aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır:

- AR-in Milli Qəhrəmanlarının;

- Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının;

- müharibə əlillərinin;

- həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarının (ərlərinin);

- 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərin;

- qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin;

- Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində

digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin.

I və II qrup əlillərin (müharibə əlillərindən başqa), sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır.

Bütün bunlardan əlavə, bəzi fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır (AR VM, maddə 102.4):

- həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və arvadları (ərləri); bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar;

-1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə AR-in ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri); bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar;

- Əfqanıstana və döyüş əməliyyatları aparılan başqa ölkələrə göndərilmiş hərbi qulluqçular və təlim-yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəlilər;

- daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya I qrup əlilə baxan və onunla birlikdə yaşayan valideynlərdən biri (özlərinin istəyi ilə), arvad (ər), himayəçi və ya qəyyum;

- məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər; bu güzəşt mənzil qanunvericiliyinə və ya mülki hüquqi əqdlərə əsasən ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmış şəxslərə şamil edilmir.

Qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır. Bu qayda uşaqların 18 yaşa, tələbələrin və şagirdlərin 23 yaşa çatdığı ilin sonunadək, habelə uşaqların və himayədəkilərin öldüyü hallarda ölüm ilinin sonunadək saxlanılır. Fiziki şəxslərin vergi tutulan gəliri uşağın doğulduğu və himayədə olanın himayəyə götürüldüyü aydan başlayaraq azaldılır. Himayədə olanların sayı il ərzində azaldıqda (uşaqların ölüm halları istisna olmaqla), himayədə olanların sayının azaldığı aydan sonrakı aydan başlayaraq onların saxlanması üçün məbləğin çıxılmasına xitam verilir (AR VM, maddə 102.5).

FİZİKİ ŞƏXSLƏRİN QİYMƏTLİ KAĞIZLARLA ƏMƏLİYYATLARINA AİD GƏLİRLƏRİ – qiymətli kağızların tədavülü nəticəsində mülki-hüquqi əqdlərin həyata keçirilməsi zamanı əldə olunan gəlirlər.

FİZİKİ ŞƏXSLƏRİN TORPAQ VERGİSİ – bax: *Torpaq vergisi.*

FOND BİRJASI – qapalı səhmdar cəmiyyəti formasında yaradılan, öz

üzvləri arasında qiymətli kağızlarla ticarəti təşkil edən və bağlanmış əqdlərin icrasını təmin edən ticarət təşkilatçısı. Qiymətli kağızlarla əqdlərin bağlanması üçün zəruri şəraitin yaradılması, onların bazar qiymətlərinin müəyyən edilməsi, onlar haqqında lazımi məlumatın yayılması üzrə peşəkar fəaliyyətdir. Fond birjası yalnız adi adlı səhmlər emissiya edə bilər. Fond birjası ticarəti öz üzvləri arasında təşkil edir. İstisna qaydasında AR MB birja ticarətində birja üzvü olmadan iştirak edə bilər. Fond birjasının işçiləri qiymətli kağızlar bazarının peşəkar iştirakçıları və onların təsisçiləri ola bilməzlər, həmçinin, fond birjasının fəaliyyətində sahibkarlar kimi iştirak edə bilməzlər.

Fond birjasının üzvləri birjanın daxili qaydalarına uyğun olaraq birja ticarətində bilavasitə iştirak etmək hüququna malik olan broker və ya dilerlərdir. Fond birjasının üzvlərinin broker və diler fəaliyyətinə xüsusi razılıqları (lisenziyaları) olmalıdır və onlar birja tərəfindən onların ödəniş qabiliyyətinə və özlərinin fəaliyyətlərinin təşkilinə dair müəyyən edilən ixtisas tələblərinə cavab verməlidirlər.

Birjada üzvlüyə aşağıdakı hallarda xitam verilir:


- birja üzvlüyündən könüllü qaydada çıxdıqda;
- müvafiq icra hakimiyyəti orqanının qərarı nəticəsində birja üzvü olan brokerə və dilerə verilən xüsusi razılıq (lisenziya) ləğv edildikdə;
- birjanın müvafiq idarəetmə orqanının qərarı ilə birja üzvü birja qaydalarını kobud surətdə pozduqda və ya birja tərəfindən müəyyən edilən ixtisas tələblərinə cavab vermədikdə;
-birjanın fəaliyyətinə xitam verildikdə.



ABŞ-ın ən irifond birjası – NASDAQ

FORVARD KONTRAKTI – şəxsin qiymətli kağızlar, mallar və ya pul vəsaitləri gələcəkdə müəyyən vaxtda və müəyyən şərtlərlə bu cür forvard kontraktının bağlandığı anda təsbit edilmiş qiymətlə əldə etməyə (satmağa) öhdəliyini təsdiq edən müqavilə.

FRİDMAN MİLTON (1912-2006) – amerikalı iqtisadçı, pul dövriyyəsinin nəzəriyyəyə və praktikasına aid işlərin müəllifi, monetarist istiqamətin lideri. İstehlakın analizi, pul dövriyyəsinin tarixi və monetar nəzəriyyənin işlənib hazırlanması, eləcə də siyasətin sabitləşməsi mürəkkəbliyinin nümayiş etdirilməsi sahəsində Nobel mükafatı laureatı adı almışdır (1976). M.Fridmanın adı ən çox monetarist doktrina ilə assosiasiya



edilir. Onu yetərincə məşhurlaşdırmış bu doktrina 1970-80-ci illərdə, əsasən, Amerika Birləşmiş Ştatlarında mərkəzi banklar tərəfindən həyata keçirilən monetarist siyasətə yenidən baxılmasına təsir göstərmişdir. M.Fridman özünün pul barədə nəzəriyyəsinin əsas müddəalarını ABŞ-da pul dövriyyəsinin tarixinə və nəzəriyyəsinə həsr edilmiş "1867-1960-cı illərdə Birləşmiş Ştatların monetar tarixi" və "Birləşmiş Ştatların monetar statistikası" fundamental əsərlərində açıqlamış və pul barədə müxtəlif konsepsiyaları təhlil etmişdir.

G

GETMƏ VERGİSİ – vətəni tərk edib gedən şəxslərdən (ekspatriantlardan) alınan vergi; hava və dəniz limanlarında sərnişinlərdən tutulan vergi, yığım və haqq. Sərnişin vergisi, sərhəd sənədləşdirilməsinə görə yıgım da bu vergi ilə analogiya təşkil edir.

GƏLİR – müəyyən bir müddət ərzində hər hansı bir fəaliyyət nəticəsində fiziki və ya hüquqi şəxs, dövlət tərəfindən əldə edilmiş pul və ya maddi dəyərlər. Dövlət gəlirləri dövlət tərəfindən vergilərin, rüsumların, ödənişlərin, xarici ticarət əməliyyatlarının, xarici kreditlərin və xaricdən yardımların hesabına əldə edilən gəlirlərdir. Bu gəlirlər dövlət funksiyalarının həyata keçirilməsi üçün nəzərdə tutulur. Təşkilat gəlirləri iştirakçıların investisiyaları istisna olmaqla, aktivlərin (pul vasitələri, başqa əmlak) və ya öhdəliklərin ödənilməsi nəticəsində təşkilatın kapitalının artımına gətirib çıxaran iqtisadi faydanın artımıdır. Əhalinin gəlirləri vətəndaşların şəxsi, ailə və ev təsərrüfatlarından pul şəklində əldə etdikləri gəlirləridir. Onlara əməkhaqqı, pensiya, təqaüd, maddi yardım, şəxsi təsərrüfatda malların satışından gələn gəlir, göstərilmiş xidmətlər görə pul şəklində daxilolmalar, müəllif qonorarları, şəxsi əmlakın satışından və kirayə verilməsindən alınan gəlirlər aiddir.

GƏLİR MƏNBƏYİ – bəzi ölkələrin vergi qanunvericiliyində və ikiqat vergitutmanın aradan qaldırılması sazişlərində istifadə edilən termin. Ayrı-ayrı ölkələrin qanunvericiliyində bu termin müxtəlif mənalarda işlənir. Məsələn. dividentlərə görə gəlir mənbəyi şirkətin qeydiyyatdan keçdiyi ölkə, yaxud şirkətin mənfəət götürdüyü ölkə ola bilər. Ölkələrin əksəriyyətinin qanunvericiliyində və ikiqat vergitutmanın aradan qaldırılmasının demək olar ki, bütün sazişlərində gəlir mənbəyi şəxsin qeydiyyatdan keçdiyi ölkə hesab edilir.

GƏLİR VERGİLƏRİ – bilavasitə vergi ödəyicilərinin sərəncamında qalan gəlir növlərindən ödənilən vergi növləri. Mövcud qanunvericiliyə uyğun olaraq bu vergilərə fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi (bəzi dövlətlərdə korporativ vergi adlanır) və sadələşdirilmiş vergi aid olunur.

GƏLİRDƏN AMORTİZASİYA OLUNAN AKTİVLƏR ÜZRƏ ÇIXARILAN MƏBLƏĞLƏR – AR Vergi Məcəlləsinin 114.3-cü maddəsinə əsasən gəlirdən amortizasiya olunan aktivlər üzrə çıxılan illik amortizasiya normaları aşağıdakı kimi müəyyən edilir:

- binalar, tikintilər və qurğular – 7%-dək;
- maşınlar, avadanlıq və hesablama texnikası – 25%-dək;
- nəqliyyat vasitələri – 25%-dək;
- iş heyvanları – 20%-dək;
- geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər – 25%-dək;
- qeyri-maddi aktivlər — istifadə müddəti məlum olmayanlar üçün 10 faizədək, istifadə müddəti məlum

olanlar üçün isə illər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə;

- digər əsas vəsaitlər – 20%-dək.

GƏLİRDƏN ÇIXILAN XƏRCLƏR – gəlirdən çıxılmayan xərclərdən başqa, gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərclər.

GƏLİRDƏN ÇIXILAN MƏBLƏĞLƏRİN MƏHDUDLAŞDIRILMASI – AR VM-in 119-cu maddəsinə əsasən, aşağıdakı vergilərin, VM ilə nəzərdə tutulmuş vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış faizlərin və maliyyə sanksiyalarının gəlirdən çıxılmasına yol verilmir: AR-in və ya digər dövlətlərin ərazilərində ödənilmiş mənfəət vergisi və ya gəlirdən hesablanan hər hansı digər vergi; ödənilmiş maliyyə sanksiyaları və Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış faizlər.

GƏLİRDƏN ÇIXILMAYAN XƏRCLƏR – Vergi qanunvericiliyinə əsasən, gəlirdən çıxılmayan xərclər aşağıdakılardır: əsas vəsaitlərin alınmasına və qurulmasına çəkilən xərclər və vergi qanunvericiliyinə uyğun olaraq kapital xarakterli digər xərclər; qeyri-kommersiya fəaliyyəti ilə bağlı olan xərclər; əyləncə və yemək xərcləri (müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş normalar daxilində müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclər, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərcləri istisna olmaqla), habelə işçilərin mənzil və digər sosial xarakterli xərcləri; fiziki şəxsin fərdi istehlakla və ya əməkhaqqının alınması ilə bağlı olan xərcləri; faktiki ezamiyyə xərclərinin müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi normadan artıq olan hissəsi. Ehtiyat fondlarına ayırma məbləğləri yalnız vergi qanunvericiliyində nəzərdə tutulmuş qaydada gəlirdən çıxılır. Sahibkarlıq fəaliyyəti əyləncə və ya sosial xarakteri daşıyan vergi ödəyicisinin xərcləri bu cür fəaliyyət çərçivəsində çəkilirsə, müvafiq olaraq əyləncə və sosial xərclər gəlirdən çıxılır.

GƏLİRİN DƏQİQLƏŞDİRİLMƏSİ – fiziki şəxsin aldığı və vergi qanunvericiliyinə uyğun olaraq AR-də ödəmə mənbəyindən vergi tutulmuş dividentin, faizin, icarə haqqının və royaltinin gəlirdən çıxılması.

GƏLİRİN ƏLDƏ EDİLMƏSİ İLƏ BAĞLI XƏRCLƏR – VM-ə uyğun olaraq, gəlirdən çıxılmayan xərclərdən başqa, gəlirin əldə edilməsi ilə bağlı olan, həmçinin, qanunla nəzərdə tutulmuş icbari ödənişlər də daxil olmaqla gəlirdən çıxılan bütün xərclər.

GƏLİRİN TRANSFORMASİYASI – hər hansı dövrədən (vasitəçi, konduit şirkəti) keçməsi zamanı gəlirin (onun formasının, növünün, kateqoriyalarının) dəyişikliyini əks etdirən termin. Şirkətin sahibkarlıq fəaliyyətindən əldə rfilən gəlirin onun səhmdarlarının arasında bölüşdürülməsi dividentə çevrilir. Sahibkarlıq fəaliyyətindən gəlir və divident müxtəlif gəlir kateqoriyalarına (növlərinə) aiddir və onlara vergitutmanın müxtəlif şərtləri tətbiq edilir. Gəlirin hər hansı dövrədə öz formasını dəyişmədiyi hallara vergi transparantlığı deyilir.

GƏLİRİN VƏ XƏRCİN UÇOTU – vergi ödəyicisi tərəfindən vergi tutulan gəlirin (mənfəətin) dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumat əsasında gəlirlərinin və xərclərinin vaxtlı-vaxtında dəqiq uçotunun aparılması, vergi qanunvericiliyinə uyğun şəkildə tətbiq edilən uçot metodundan asılı olaraq gəlirlərinin və xərclərinin onların əldə edildiyi və ya çəkildiyi müvafiq hesabat dövrlərinə aid edilməsi. Vergi ödəyicisi öz fəaliyyəti ilə bağlı olan bütün əməliyyatların başlanğıcını, gedişini və sonunu müəyyənləşdirməyə imkan verən uçotun aparılmasını təmin etməyə borcludur.

GƏLİRLƏRDƏN VƏ ƏMLAKDAN İKİQAT VERGİQOYMANIN ARADAN QALDIRILMASI HAQQINDA SAZİŞLƏR – iki dövlət arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmaya gətirib çıxaran halların qarşısının alınmasına yönəlmiş şərt və müddəaları özündə əks etdirən beynəlxalq müqavilə.

GƏLİRLƏRƏ VERGİLƏR – fiziki və hüquqi şəxslərin gəlirlərinə vergilər qrupu. AR VM-də bu cür vergilər fiziki şəxslərin gəlir vergisi və hüquqi şəxslərin mənfəət vergisidir. Digər ölkələrdə bu cür vergilərin sayı bəzən çox olur. Məsələn, RF-də gəlirlərə vergilərə aşağıdakılar aiddir:

- fiziki şəxslərin gəlirlərinə vergi;
- təşkilatların mənfəətinə vergi;
- oyun biznesinə vergi;
- vergiqoymanın sadələşdirilmiş sistemi;
- fəaliyyətin ayrı-ayrı növləri üçün şərti gəlirə vergi;
- vahid kənd təsərrüfatı vergisi.

GƏLİRLƏRİN (XƏRCLƏRİN) FAİZLƏR ŞƏKLİNDƏ VERGİ UÇOTU – gəlirlərin (xərclərin) borc müqavilələri, kreditlər, bank hesabları, bank yatırımları, həmçinin qiymətli kağızlar və digər borc öhdəlikləri üzrə alınmış (ödənilmiş) faizlər şəklində vergi uçotunun aparılması qaydası.

GƏLİRLƏRİN VƏ XƏRCLƏRİN NƏZƏRƏ ALINMA METODLARI – hüquqi şəxslərin mənfəət vergisi və sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərin gəlir vergisinin hesablanması zamanı gəlir və xərclərin nəzərə alınması metodları. Vergi ödəyicisi vergitutma obyektinin və bazasının müəyyən edilməsi üçün gəlir və xərclərin uçotunu iki metodla apara bilər: kassa metodu; hesablama metodu. Vergi ödəyicisi vergi ili ərzində eyni metodu tətbiq etmək şərti ilə vergilərin uçotunu kassa metodu və ya hesablama metodu ilə apara bilər. Vergi ödəyicisinin istifadə etdiyi uçot metodu dəyişdirilərkən verginin məbləğinə təsir göstərən mühasibat əməliyyatlarına düzəlişlər uçot metodunun dəyişdirildiyi ildə aparılmalıdır. Düzəlişlər zamanı həmin əməliyyatlardan heç biri nəzərdən qaçırılmadan və ya iki dəfə hesaba alınmadan həyata keçirilməlidir. Vergi ödəyiciləri tərəfindən vergi tutulan gəlirin (mənfəətin) dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumat əsasında gəlirlərinin və xərclərinin vaxtlı-vaxtında dəqiq uçotunu aparmaqla tətbiq etdiyi uçot metodundan asılı olaraq gəlirlər və xərclər onların əldə edildiyi və ya çəkildiyi müvafiq hesabat dövrlərinə aid edilir. Vergi ödəyicisinin istifadə etdiyi uçot metodunda xərclərin

və daxilolmaların müddətləri və uçotu qaydasına dair bütün tələblər nəzərə alınmalıdır. Kassa metodu ilə uçot aparan vergi ödəyicisi gəliri əldə edəndə və ya gəlir onun sərəncamına veriləndə həmin gəliri nəzərə almalı və gəlirdən öz xərclərini yalnız xərclər çəkildiyi zaman çıxmalıdır. Hesablama metodu ilə uçot aparan vergi ödəyicisi gəlir əldə edilməsinin və xərc çəkilməsinin faktiki vaxtından asılı olmayaraq gəlirini və xərcini müvafiq surətdə gəlir almaq hüququnun əldə edildiyi və ya xərcin çəkilməsi barədə öhdəliyin yarandığı vaxt nəzərə almalıdır.

GƏLİRLİ MƏHSUL – "Məhsul bölgüsü sazişləri haqqında" RF Qanununda yerin təkindən istifadəyə görə, ödənişlər çıxılmaqla, istehsal olunan məhsulu ifadə edən termin.

GƏTİRİLƏN MALLARA GÖRƏ STANDARTLAR VƏ TƏLƏBLƏR – malların ölkəyə gətirilməsi zamanı yol verilən pozuntuların aşkara çıxarılmasına, qarşısının alınmasına və pozuntulara yol verilməməsinə yönəldilmiş norma və qaydaların məcmusu.

GƏTİRİLƏN MALLARLA QİYMƏT SÖVDƏLƏŞMƏSİ METODU – AR-ə gətirilən malların gömrük dəyərinin müəyyən edilməsi üçün gömrük orqanları tərəfindən istifadə edilən metodlardan biri.

GƏTİRİLMƏDƏ GÖMRÜK RÜSUMLARININ DƏRƏCƏSİ – malların gömrük ərazisinə gətirilməsi zamanı gömrük orqanları tərəfindən alınan gömrük ödənişlərinin bir növü.

GİROV – öhdəliklərin yerinə yetiriləcəyinə zəmanət vermə forması. Bu zaman borclu öz əmlakını kreditora verir və borcu qaytarmadıqda, yaxud ödənişləri vaxtında yerinə yetirmədikdə, həmin əmlak kreditorun mülkiyyətinə keçir.

GÖMRÜK – sərhəd ticarətinə nəzarət edən orqan. Malların, nəqliyyat vasitələrinin, əşyaların və s. gömrük sərhədində yerdəyişməsi qaydalarını, gömrük rejimlərini tətbiq edir, gömrük ödənişlərinin yığılması ilə məşğul olur, gömrük nəzarətini və gömrük rəsmiləşdirməsini həyata keçirir. "Gömrük" sözü latınca "ticarət" mənasını verən "commercium" sözündən alınıb. Maraqlıdır ki, rus dilində "gömrük" mənasında "tamojnya" işlədilir və bu söz türk sözü olan "tamğa"dan götürülmüşdür.

GÖMRÜK AGENTİ – bəzi ölkələrin gömrük qanunvericiliyində istifadə olunan termin; gömrük brokeri anlayışına analoji anlayış.

GÖMRÜK ANBARI – gətirilən malların saxlanc dövründə gömrük rüsumları, vergiləri alınmadan və mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən onların gömrük nəzarəti altında saxlancından, ixrac gömrük rejiminə uyğun aparılması nəzərdə tutulan malların isə GM-də nəzərdə tutulan güzəştlər verilməklə gömrük nəzarəti altında saxlancından ibarət gömrük rejimi. Gömrük anbarı mülkiyyət formasından asılı olmayaraq AR-in hüquqi və fiziki şəxsləri tərəfindən təsis edilə bilər. Bu anbar açıq tipli, yəni istənilən şəxslər tərəfindən istifadə oluna bilən və qapalı tipli, yəni müəyyən şəxslərin mallarının saxlanması üçün nəzərdə tutulan anbar ola bilər. Gömrük anbarının tipi onun təsis

edilməsi üçün verilən lisenziyada göstərilir.

GÖMRÜK ANBARININ YARADILMASI ÜÇÜN LİSENZİYA – malların saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi üçün AR NK-nın müəyyən etdiyi qaydalar əsasında alınması tələb olunan xüsusi razılıq sənədi. Gömrük anbarının təsisçisi AR-in gömrük orqanıdırsa, lisenziya tələb olunmur.

GÖMRÜK ANBARLARINA VƏ ONLARIN SAHİBLƏRİNƏ TƏLƏBLƏR – AR DGK-nın müvafiq əmri ilə təsdiq edilmiş "Gömrük anbarları haqqında Əsasnamə"nin 2 və 3-cü maddələrində qeyd olunan tələblər. Gömrük anbarı elə qurulmalıdır ki, malların gömrük nəzarətindən kənar oraya daxil olması və oradan götürülməsi qeyri-mümkün olsun və anbarda saxlanılan malların mühafizəsi təmin edilsin. Anbarın ərazisi hasarla (çəpərlə) əhatə olunmalıdır. Binanın və yaxud hər hansı bir tikilinin bir hissəsi gömrük anbarı olduqda, anbara gələn yollar və yolqırağı boşaltma meydançaları gömrük nəzarəti altında olan mallara kənar şəxslərin toxunması üçün heç bir imkan yaratmamalıdır. Zəruri hallarda bilavasitə anbar ərazisi olan binada və yaxud tikilidə siqnalizasiya sisteminin qurulması da tələb edilə bilər. Gömrük orqanı gömrük anbarının qurulması və təchiz edilməsi üçün konkret tələblər müəyyən edə bilər, o cümlədən onun tələbi ilə anbar ikiqat bağlayıcı (kilidləyici) qurğu ilə təchiz edilməli və həmin qurğulardan biri gömrük orqanının, digəri isə anbar sahibinin öhdəsində olmalıdır. Anbar sahibi gömrük orqanının (anbar üzrə məsul gömrük əməkdaşlarının) razılığı olmadan anbara daxil olub orada saxlanılan mallarla hər hansı bir əməliyyat apara bilməz. Bunlardan əlavə anbar sahibi anbarın normal fəaliyyəti üçun onu yükləmə, boşaltma və nəqliyyat vasitələri, anbar avadanlığı, təşkilati texnika, mebel, habelə zəruri işçi qüvvəsi ilə təmin etməlidir. Gömrük orqanının əməkdaşları üçün əvəzsiz (pulsuz) olaraq gömrük orqanının tələblərinə cavab verən və gömrük nəzarətinin, gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi üçün zəruri olan binalar, yer, avadanlıq və rabitə vasitələri ayrılmalıdır. Gömrük anbarının əlavə təchizatı, oranın qaydada saxlanılması, anbarın mühafizəsi və buraxılış rejiminin təmin edilməsi anbar sahibi tərəfindən onun öz hesabına həyata keçirilir.

Anbar sahibi aşağıda göstərilənləri yerinə yetirməyə borcludur:

- gömrük nəzarətinin həyata keçirilməsini çətinləşdirməmək;
- gömrük anbarında saxlanılan malların gömrük nəzarətindən kənar götürülməsinə yol verməmək;
- gömrük anbarı təsis edilməsi üçün verilən lisenziyanın şərtlərinə riayət etmək və gömrük orqanlarının səlahiyyətli vəzifəli şəxslərinə malların yerləşdiyi yerlərə daxil olmasına şərait yaratmaqla həmin orqanların tələblərinə əməl etmək;
- saxlanılan malların uçotunu aparmaq (o cümlədən gömrük orqanının ayrıca tələbinə görə avtomatlaşdırılmış uçotunu), onlar barədə bu təlimata uyğun olaraq gömrük orqanlarına (cari və dövri) hesabat vermək;

- lisenziya ləğv olunduqda, yaxud geri alındıqda malların mühafizəsini və gömrük anbarının ləğv olunma prosesinin yerinə yetirilməsini təmin etmək.

GÖMRÜK BAXIŞI – malların və nəqliyyat vasitələrinin yoxlanışını və şəxsi yoxlamanı da nəzərdə tutan gömrük nəzarəti. Gömrük sərhədindən keçidin qanuniliyini müəyyənləşdirmək məqsədi daşıyır və aşağıdakıları əhatə edir:

- mallara dair məlumatları və bununla əlaqədar dövlət orqanlarının icazə sənədlərini yoxlamaq;

- idxal və ixrac üçün qadağan edilmiş malların qarşısını almaq;

- örtülü aparılan, həmçinin sənədsiz keçirilən malları aşkar etmək;

- başqa məqsədlər üçün nəzərdə tutulan malların xarakteristikasını müəyyənləşdirmək.

GÖMRÜK BƏYANNAMƏSİ – malların müvafiq gömrük proseduru altında yerləşdirilməsi üçün tələb olunan məlumatları əks etdirən, şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada gömrük orqanına təqdim olunan sənəd.

GÖMRÜK BİRLİKLƏRİ – iki və ya daha çox dövlətin ticarətdə gömrük rüsumlarını ləğv etməsinə, gömrük sisteminin uyğunlaşdırılmasına əsaslanan birlik formaları. Tariflər və ticarət haqqında Baş Sazişin XXIV maddəsinə görə gömrük birlikləri birneçə gömrük ərazisinin birləşdirilməsini və həmin ərazinin daxilində gömrük rüsumlarının ləğv edilməsini, vahid xarici gömrük tarifinin tətbiqini nəzərdə tuturlar. 1947-ci ildə qəbul edilmiş bu prinsip 1957-ci ildə AİB-nin yaranması haqqında müqavilənin əsasını təşkil edir. Bəzi hallarda iştirakçı dövlətlər arasında daxili gömrük rüsumları ləğv edilsə də digər dövlətlərlə müstəqil gömrük məsrəfləri saxlanılır. Gömrük birliklərinin yaranması qarşılıqlı ticarətdə məhdudiyyətin tamamilə aradan qaldırılmasını nəzərdə tutmur, qeyri-tarif tənzimləmə saxlanılır.

GÖMRÜK BİRLİYİ – iki və ya daha çox ölkənin gömrük sisteminin uyğunlaşdırılması barədə razılaşmaya əsaslanan birlik. RF ilə Belarus Respublikası da belə bir birlik yaradıblar. Sonradan bu birliyə Qazaxıstan və Qırğızıstan respublikaları da qoşulmuşlar.

GÖMRÜK BİRLİYİ HAQQINDA SAZİŞ – RF ilə Belarus Respublikası arasında 6 yanvar 1995-ci ildə Minsk şəhərində bağlanmış Saziş. Bu Saziş RF tərəfindən həmin ilin 30 noyabrında Federal Qanunla ratifikasiya edilmiş və qüvvəyə minmişdir. Saziş istənilən MDB ölkəsi üçün açıq hesab olunur və oradakı müddəaları qəbul edən ölkə ona qoşula bilər. 1995-ci il yanvarın 20-də RF və Belorus Respublikası hökumətləri Qazaxıstan Respublikası hökuməti ilə Gömrük birliyi haqqında əlavə Saziş bağlamışlar. Bundan sonra 6 və 20 yanvar 1995-ci il tarixli Gömrük birliyi haqqında Sazişin iştirakçıları sırasına 1996-cı il martın 29-da Qırğızıstan Respublikası da qoşulmuşdur. Sazişə uyğun olaraq, RF ilə Belarus Respublikası arasındakı sərhəddə 25 may 1995-ci ildə, RF ilə Qazaxıstan Respublikası arasındakı sərhəddə 31

dekabr 1995-ci ildə gömrük nəzarəti ləğv edilmişdir.

GÖMRÜK BROKERİ – malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə gətirilməsi, bu ərazidən aparılması, yaxud tranziti ilə əlaqədar dolayı gömrük təmsilçiliyini həyata keçirən hüquqi şəxs. AR GM-in 22-ci maddəsinə görə gömrük brokeri öz fəaliyyətini GM-ə və qəbul edilmiş normativ hüquqi aktlara uyğun həyata keçirir; gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi həyata keçirilərkən, gömrük brokeri malları gömrük sərhədindən müstəqil keçirən şəxsin bütün vəzifələrini yerinə yetirir və onun kimi məsuliyyət daşıyır; gömrük brokerinin təmsil etdiyi şəxslərlə münasibətləri tərəflər arasında bağlanmış müqavilə ilə tənzimlənir; gömrük brokerlərinin dövlət reyestri təsdiq edilmiş qaydalara uyğun olaraq aparılır; şəxs gömrük brokerinin xidmətlərindən imtina etdikdə gömrük orqanının vəzifəli şəxsləri bəyannaməçiyə, mallar barədə səlahiyyəti olan digər şəxslərə gömrük bəyannaməsinin tərtib edilməsində, ona müvafiq düzəlişlər edilməsində və malların gömrük rəsmiləşdirilməsi üzrə digər əməliyyatların həyata keçirilməsində yardım göstərməlidirlər.

AR İXM-yə görə gömrük brokeri kimi qanunsuz fəaliyyət göstərildikdə 350 man.-dan 500 man.-dək miqdarda cərimə nəzərdə tutulmuşdur (maddə 294).

GÖMRÜK BROKERİ KİMİ FƏALİYYƏT GÖSTƏRMƏK ÜÇÜN LİSENZİYA – gömrük brokeri fəaliyyətini həyata keçirmək üçün edilmiş müraciət əsasında AR NK-nın müəyyən etdiyi qaydalara uyğun olaraq verilən xüsusi razılıq sənədi.

GÖMRÜK DAŞIYICISI – gömrük nəzarəti altında olan malların daşınmasını gömrük müşayiəti olmadan və gömrük ödənişlərinin ödənilməsi təmin edilmədən (malların və nəqliyyat vasitələrinin girovu, üçüncü şəxsin zəmanəti, ödənilməli olan məbləğlərin depozitə qoyulması) həyata keçirə bilən hüquqi şəxs. Gömrük daşıyıcısı kimi qanunsuz fəaliyyət göstərilməsinə görə 300 man.-dan 500 man.-dək cərimə nəzərdə tutulmuşdur (AR İXM, maddə 295).

GÖMRÜK DAŞIYICISI KİMİ FƏALİYYƏT GÖSTƏRMƏK ÜÇÜN LİSENZİYA – gömrük daşıyıcısı kimi fəaliyyət göstərmək üçün AR Dövlət Gömrük Komitəsi tərəfindən verilən xüsusi razılıq sənədi.

Gömrük dəyəri bu üsulla müəyyən edilərkən, malın aşağıdakıların toplanması yolu ilə hesablanmış qiyməti əsas götürülür:

a) idxal edilən malların hazırlanmasında istifadə edilən materiallara, həmin malların istehsalına və ya digər emalına çəkilən xərclər və ya bunların dəyəri;

b) yüklənmə yerinədək sığorta xərcləri və dəyərləri və s.;

c) AR-ə ixrac etmək məqsədilə ixrac ölkəsində istehsalçılar tərəfindən hazırlanan və qiymətləndirilən mallarla eyni sinif və ya növdən olan malların satışı zamanı adətən nəzərə alınan mənfəətə və ümumi xərclərə bərabər mənfəət və ümumi xərclərin həcmi.

AR-in rezidenti olmayan hər hansı bir şəxsdən hesablanmış qiymətin

müəyyən edilməsi üçün hesabat sənədləri tələb edilə bilməz. Lakin gömrük dəyərinin təyin edilməsi məqsədi ilə malların istehsalçısı tərəfindən təqdim edilən məlumatlar, istehsalçının razılığı və müvafiq ölkənin aidiyyəti orqanlarına əvvəlcədən bildirişin verilməsi və həmin orqanların araşdırmaya etiraz etməməsi şərtilə həmin ölkədə AR-in gömrük orqanı tərəfindən yoxlanıla bilər.

GÖMRÜK ƏMƏKDAŞLIQ ŞURASI (GƏŞ) – 1950-ci ildə Brüssel şəhərində GƏŞ-in təsis edilməsi haqqında Konvensiyanın qəbul edilməsi ilə yaradılmışdır. 1994-cü ildən etibarən təşkilat Ümumdünya Gömrük Təşkilatı (WCO) adı ilə fəaliyyət göstərir. Təşkilatın baş qərargahı Belçikanın Brüssel şəhərində yerləşir. Ümumdünya Gömrük Təşkilatının əsas fəaliyyət istiqamətləri gömrük orqanları arasında əmtəələrin təsnifatı, qiymətləndirilməsi, malın mənbəyinin müəyyən edilməsi yolları, qaçaqmalçılıqla mübarizə və digər aidiyyəti sahələrdə beynəlxalq əməkdaşlığın təmin edilməsidir.



Gömrük Əməkdaşlıq Şurasının qərargahı. (Belçika, Brüssel)

GÖMRÜK ƏMƏKDAŞLIQ ŞURASININ NOMENKLATURASI – idxal olunmuş mallarla bağlı gömrük rüsumlarının müəyyən edilməsi və statistik məqsədlər üçün standartlaşdırılmış təsnifat sistemini müəyyən edir. Bu sistem ilk dəfə 1931-ci ildə Cenevrə Tarif Nomenklaturası adı ilə yaradılmışdı. Sonradan bu sistem daha da təkmilləşdirilərək Brüssel Tarif Nomenklaturası və 1976-cı ildən Gömrük Əməkdaşlıq Şurası Nomenklaturası adlandırılmışdı. 1989-cu ildən etibarən Harmonizasiya Edilmiş Əmtəələrin İzahı və Kodlaşdırma Sistemi adlanır.

GÖMRÜK ƏRAZİSİ – AR-in quru ərazisindən, daxili sularından, Xəzər dənizinin (gölünün) AR-ə mənsub olan bölməsindən (o cümlədən onda yerləşən adalar, süni adalar, qurğular və tikililər) və onların üzərindəki hava məkanından ibarətdir.

GÖMRÜK ƏRAZİSİNDƏ MALLARIN EMALI – ixrac gömrük rejiminə uyğun olaraq emal məhsullarının ölkənin gömrük ərazisinin hüdudlarından kənara aparılması şərtilə, iqtisadi siyasət tədbirləri tətbiq edilmədən və idxal gömrük rüsumları və vergilər qaytarılmaqla, xarici malların bu ölkənin gömrük ərazisində müəyyən olunmuş qaydada emal üçün istifadə edilməsindən ibarət gömrük rejimi.

GÖMRÜK ƏRAZİSİNDƏ MALLARIN EMALI ÜÇÜN LİSENZİYA – gömrük ərazisində malların emalı üçün DGK tərəfindən verilən lisenziya.

GÖMRÜK ƏRAZİSİNDƏN ÇIXARILAN MALLARA ƏLAVƏ DƏYƏR VERGİSİ – gömrük əra-

zisindən aparılan mallara AR GM-ə və VM-ə əsaslanmaqla hesablanan dolayı vergi növü.

GÖMRÜK ƏRAZİSİNDƏN KƏNARDA MALLARIN EMALI – yerli mallara iqtisadi siyasət tədbirləri tətbiq etmədən ixrac edib, onlardan ölkənin gömrük ərazisindən kənarda emal üçün istifadə edilməsindən və sonra emal məhsullarının, tamamilə və ya qismən gömrük rüsumlarından, vergilərdən azad etməklə və onlara iqtisadi siyasət tədbirləri tətbiq etmədən bu məhsulların həmin ölkənin gömrük ərazisində sərbəst dövriyyə üçün buraxılışından ibarət gömrük rejimi.

GÖMRÜK ƏRAZİSİNDƏN KƏNARDA MALLARIN EMALI ÜÇÜN LİSENZİYA – gömrük ərazisindən kənarda malların emalı üçün DGK tərəfindən verilən lisenziya.

GÖMRÜK ƏRAZİSİNƏ GƏTİRİLƏN MALLARA ƏLAVƏ DƏYƏR VERGİSİ – gömrük ərazisinə gətirilən mallara GM-ə və VM-ə əsaslanmaqla hesablanan dolayı vergi növü.

GÖMRÜK GÜZƏŞTİ – AR GM-ə əsasən, qeyri-rezidentlərin ayrı-ayrı kateqoriyaları üçün müəyyən edilən güzəştli gömrük rejimi.

GÖMRÜK İŞİ – malların və ya digər əşyaların gömrük sərhədindən keçirilməsi qaydaları, gömrük vergisinə cəlb olunması, nəzarət və gömrük siyasətini həyata keçirən digər vasitələrin məcmusu. Gömrük işi praktikada bir neçə formada – gömrük orqanları sistemini yaratmaq, hüquqi və tarif tənzimlənməsi, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti, gömrük qaydalarının pozulması haqqında işin tədqiqi və təhqiqatın təşkili ilə reallaşdırıla bilər.

GÖMRÜK İŞİ HAQQINDA QANUNVERİCİLİK – gömrük sərhədindən keçirilən mallar və nəqliyyat vasitələri barəsində gömrük-tarif tənzimlənməsi tədbirlərini, xarici ticarətin iştirakçıları tərəfindən gömrük qanunvericiliyi ilə müəyyənləşdirilmiş qadağalara və məhdudiyyətlərə riayət olunmasını təmin edən üsulları, gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələrini əks etdirir. Gömrük qanunvericiliyi AR Konstitusiyasından, AR GM-dən, "Gömrük tarifi haqqında" AR Qanunundan, onlara uyğun olaraq qəbul edilmiş digər normativ-hüquqi aktlardan və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

GÖMRÜK İŞİ SAHƏSİNDƏ CİNAYƏTLƏR – AR CM-in 206-cı (qaçaqmalçılıq), 207-ci (AR-in və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaları AR-ə qaytarmama), 209-cu (gömrük ödənişlərinin ödənilməsindən yayınma), 213-1-ci (aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan satma, satış məqsədi ilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə), 224-1-ci (ikili təyinatlı mallardan (işlərdən, xidmətlərdən, əqli fəaliyyətin nəticələrindən) istifadə qaydalarını pozma), 224-2-ci (ixrac rejimini pozma) maddələrində nəzərdə tutulmuş cinayətlər.

GÖMRÜK İTTİFAQI – bax: *Gömrük Birliyi.*

GÖMRÜK İTTİFAQI HAQQINDA SAZİŞ – bax: *Gömrük Birliyi haqqında Saziş.*

GÖMRÜK QAYDALARI – gömrük sərhədindən keçən malların və nəqliyyat vasitələrinin yerləşdirilməsi, gömrük nəzarəti və rəsmiləşdirilməsi qaydaları, həmçinin, güzəştlərin, məhdudiyyətlərin tətbiqi qaydaları.

GÖMRÜK QAYDALARINI POZMUŞ ŞƏXS – gömrük qaydalarını pozaraq İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati məsuliyyət daşıyan şəxs.

GÖMRÜK QAYDALARINI POZMUŞ ŞƏXSLƏRİN MƏSULİYYƏTİ – Gömrük qaydalarını pozmuş şəxslər inzibati məsuliyyət daşıyırlar. Gömrük orqanları tərəfindən gömrük qaydaları əleyhinə olan inzibati xətalar üzrə icraatın aparılması, həmin işlərə baxılması və bu zaman yerinə yetirilən prosessual hərəkətlər, inzibati xətalar törətməyə görə tətbiq edilən inzibati tənbehin növləri AR İnzibati Xətalar Məcəlləsi ilə tənzimlənir.

GÖMRÜK QAYDALARININ POZULMASI – AR İXM-nin "Gömrük qaydaları əleyhinə olan inzibati xətalar" adlanan 21-ci fəsildəki 258-295-ci maddələrinə əsasən inzibati məsuliyyət yaradan qayda pozuntuları.

GÖMRÜK QAYDALARININ POZULMASINA GÖRƏ CƏRİMƏLƏR – gömrük qaydalarını pozmuş şəxsə bu pozuntulara görə AR İXM-də nəzərdə tutulmuş hallarda hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən təyin edilən və təqsirkar şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləğləri.

GÖMRÜK LABORATORİYALARI – gömrük məqsədləri üçün malların ekspertiza və tədqiqatların aparılması üçün Dövlət Gömrük Komitəsi tərəfindən yaradılmış laboratoriyalar.

GÖMRÜK MƏCƏLLƏSİ – bax: *Azərbaycan Respublikasının Gömrük Məcəlləsi.*

GÖMRÜK NƏZARƏTİ – gömrük qanunvericiliyinə riayət olunmasını təmin etmək məqsədi ilə gömrük orqanlarının həyata keçirdiyi tədbirlər.

GÖMRÜK NƏZARƏTİ OLDUQDA MALLARIN EMALI – ökənin gömrük ərazisində xarici mallardan gömrük rüsumları və vergilər alınmadan, həmçinin onlara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən müəyyən edilmiş qaydada gömrük nəzarəti altında istifadə edilməsi və sonradan emal məhsullarının sərbəst dövriyyə üçün buraxılışı və ya digər gömrük rejimi altında yerləşdirilməsindən ibarət gömrük rejimi.

GÖMRÜK NƏZARƏTİ VƏ GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİ OLMADAN GÖMRÜK SƏRHƏDİNDƏN KEÇİRİLƏN AKSİZLİ MALLARDAN AKSİZİN ALINMASI XÜSUSİYYƏTLƏRİ – aksizli malların təqdim edilməsi və (və ya) sifarişçinin verdiyi xammaldan hazırlanmış neft məhsullarının sifarişçiyə və ya digər şəxsə verilməsi üzrə əməliyyatların vergitutmadan azad edilməsi.

GÖMRÜK NƏZARƏTİ ZONASI – gömrük sahələrində, gömrük sərhədi boyunca, gömrük rəsmiləşdirilməsi yerlərində, sərbəst zonalarda,

gömrük anbarlarında, malların yükləmə-boşaltma və müvəqqəti saxlanc yerlərində, gömrük nəzarəti altında olan malların daşınmasını həyata keçirən nəqliyyat vasitələrinin dayanacağında, gömrük orqanlarının olduğu yerlərdə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi digər yerlərdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən gömrük nəzarəti zonaları yaradılır və rejim qaydaları müəyyən edilir. Gömrük nəzarəti zonalarının yaradılması və onların nişanlanması qaydalarını müvafiq icra hakimiyyəti orqanı (AR DGK) müəyyən edir.

GÖMRÜK ORQANLARI – AR-də gömrük işini yerinə yetirən orqanlar. AR GM-in 6-cı maddəsinə görə, gömrük xidmətinin inzibati bölməsi olan və vahid sistem təşkil edən gömrük orqanları hüquq-mühafizə orqanlarıdır; bu orqanların fəaliyyəti qanunun aliliyi, insan hüquqlarının və azadlıqlarının qorunması, şəxslərin qanun qarşısında hüquq bərabərliyi, aşkarlıq, peşəkarlıq, xidmətdə nizam-intizam prinsiplərinə əsaslanır, öz fəaliyyətlərində gömrük qanunvericiliyini rəhbər tuturlar; qanunvericilikdə nəzərdə tutulan hallar istisna edilməklə, heç bir dövlət orqanı tərəfindən gömrük orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə qərarlar qəbul edilə, yaxud dəyişdirilə, funksiyaları yerinə yetirilə, fəaliyyətinə digər formada müdaxilə oluna bilməz.



DGK-nın Hava Nəqliyyatında Gömrük İdarəsi

GÖMRÜK ORQANLARININ HÜQUQLARI – AR GM və digər qanunvericilik aktları ilə həvalə olunmuş vəzifələri yerinə yetirmək üçün GM-in 9-cu maddəsi ilə müəyyən edilmiş hüquqlar. Bu hüquqlar aşağıdakılardır:

- gömrük qanunvericiliyinə riayət olunması məqsədi ilə müvafiq tədbirlər həyata keçirmək;
- GM-ə və gömrük işi üzrə digər qanunvericilik aktlarına əsasən gömrük orqanlarına təqdim olunması nəzərdə tutulan sənəd və məlumatları şəxslərdən tələb etmək;
- gömrük orqanlarına təqdim edilən məlumatların, sənədlərin və bəyannamələrin düzgünlüyünü araşdırmaq;
- şəxslərin xarici ticarət əməliyyatlarının gömrük auditini aparmaq;
- dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin sənədlərini, o cümlədən malların baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlarını (şəhadətnamələrini) qanunvericiliyə uyğun olaraq yoxlamaq;
- malların və nəqliyyat vasitələrinin buraxılışından sonra şəxslərin bunlar barəsində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət etmək öhdəliklərini yerinə yetirməsini yoxlamaq, gömrük prosedurlarına nəzarəti həyata keçirmək, hüquqpozmaların operativ su-

rətdə qarşısını almaq, əməliyyat-axtarış fəaliyyətini sürətləndirmək və digər məqsədlər üçün gömrük orqanlarının sistemi daxilində mobil qruplar təşkil etmək;

- təhqiqatı və istintaqı gömrük orqanlarının səlahiyyətinə aid edilmiş cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması, onları hazırlayan, törədən və ya törətmiş şəxsləri müəyyənləşdirmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

- cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təhqiqat və ibtidai istintaq aparmaq;

- müvafiq qanunvericiliyə uyğun olaraq inzibati xətalarla bağlı işlər üzrə icraatı aparmaq, bu işlərə baxmaq və inzibati xətalar törətmiş şəxsləri məsuliyyətə cəlb etmək;

- gömrük işi sahəsində cinayətlərin qarşısını almaq, belə cinayətləri törətmiş, habelə onların törədilməsində şübhəli bilinən şəxslərin saxlanılması və ya təqib edilməsi məqsədi ilə idarə, müəssisə və təşkilatlara (xarici dövlətlərin diplomatik, konsulluq və başqa nümayəndəliklərinə, beynəlxalq təşkilatlara məxsus olan və xüsusi təyinatlı nəqliyyat, rabitə vasitələri istisna edilməklə) məxsus olan rabitə və nəqliyyat vasitələrindən son zərurət vəziyyətində istifadə etmək;

- müstəqil surətdə, yaxud digər hüquq-mühafizə orqanları cəlb edilməklə, gömrük nəzarəti zonasında rejim qaydalarına riayət olunmasına nəzarət etmək, gömrük xidmətinin infrastruktur obyektlərinin mühafizə sistemini təşkil etmək, gömrük sərhədinin qorunması məqsədi ilə başqa tədbirləri həyata keçirmək;

- malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi, həmçinin gömrük nəzarəti altında yerləşdirilən malların daşınması, saxlanılması, onlar üzərində yük əməliyyatlarının aparılması ilə bağlı faktları və hadisələri sənədləşdirmək, audio yazılarını, video və foto çəkilişləri aparmaq;

- GM-də nəzərdə tutulmuş hallarda və qaydada fiziki qüvvədən, xüsusi vasitələrdən (o cümlədən texniki vasitələrdən) və odlu silahdan istifadə etmək;

- öz funksiyalarını yerinə yetirmək məqsədi ilə şəxslərə gömrük qanunvericiliyinin pozulmasının aradan qaldırılması üçün yazılı formada xəbərdarlıqlar göndərmək və tələblərinin yerinə yetirilməsinə nəzarət etmək;

- digər ölkələrin gömrük orqanları ilə, habelə beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək;

- gömrük rəsmiləşdirilməsinin və nəzarətinin müasir metodlarının və vasitələrinin tətbiqi məsələləri üzrə xarici ticarət iştirakçıları ilə əməkdaşlıq etmək məqsədi ilə onlarla rəsmi münasibətlər yaratmaq, məsləhətləşmələr aparmaq;

- GM-də və gömrük işi üzrə digər qanunvericilik aktlarında nəzərdə tutulmuş başqa hüquqlardan istifadə etmək.

GÖMRÜK ORQANLARININ VƏZİFƏLƏRİ – AR GM-in 8-ci maddəsində müəyyən edilmiş vəzifələr. Bu vəzifələr aşağıdakılardır:

- AR-in gömrük siyasətinin formalaşdırılmasında iştirak və bu

siyasətin həyata keçirilməsini təmin etmək;

- icrasına nəzarət gömrük orqanlarına həvalə edilmiş qanunvericilik aktlarına riayət olunmasını təmin etmək;

-GM-in və gömrük işi üzrə digər qanunvericilik aktlarının pozulması hallarının qarşısını almaq və müvafiq araşdırmalar aparmaq;

- qanunvericilikdə nəzərdə tutulmuş qaydada AR-in iqtisadi və milli təhlükəsizliyini təmin etmək;

- gömrük nəzarətini və rəsmiləşdirilməsini həyata keçirmək və təkmilləşdirmək;

- mallar və nəqliyyat vasitələri gömrük sərhədindən keçirilərkən gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi qaydalarına riayət olunmasını təmin etmək;

- gömrük rüsumlarını, müvafiq vergiləri və digər gömrük ödənişlərini almaq;

- malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsinin sürətləndirilməsi üçün əlverişli şərait yaratmaq;

- gömrük sərhədindən keçirilən mallar barəsində ticarət siyasəti tədbirlərinin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

- gömrük işi sahəsində cinayətlərə, həmçinin, gömrük qaydaları əleyhinə inzibati xətalara və digər hüquqpozmalara qarşı mübarizə aparmaq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, silahların, ozondağıdıcı maddələrin, xalqların mədəni, tarixi və arxeoloji sərvətlərinin, əqli mülkiyyət hüquqları obyektlərinin, yox olmaq təhlükəsi altında olan heyvanların və bitki növlərinin, başqa malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq;

- AR-in dəmiryol vağzallarında, dəniz, çay limanlarında, habelə digər yerlərdə beynəlxalq nəqliyyat vasitələrinin fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasında və beynəlxalq terrorçuluqla mübarizədə digər hüquq-mühafizə orqanlarına yardım göstərmək;

- milli təhlükəsizliyin, ictimai asayişin, insanların mənəviyyatının, həyat və sağlamlığının, heyvanlar və bitkilər aləminin, ətraf mühitin, xalqların bədii, tarixi və arxeoloji sərvətlərinin qorunması sahəsində tədbirlərin həyata keçirilməsində müvafiq dövlət orqanlarına yardım göstərmək;

- Xəzər dənizinin (gölünün) AR-ə mənsub olan bölməsində bioloji sərvətlərdən səmərəli istifadə edilməsi və qorunması üzrə dövlət siyasətinin həyata keçirilməsində iştirak, onlar gömrük sərhədindən keçirilərkən qanunvericiliyin tələblərinin yerinə yetirilməsi üzərində nəzarəti təmin etmək;

- insan alverçilərinin, habelə insan alveri qurbanlarının gömrük sərhədindən keçməsinin qarşısını qanunvericilikdə nəzərdə tutulmuş qaydada almaq;

- AR-də xarici ticarətin gömrük statistikasını və xüsusi gömrük statistikasını beynəlxalq standartlara və təcrübəyə uyğun aparmaq və təkmilləşdirmək;

- gömrük ərazisinə gətirilən mallara münasibətdə istehlakçıların hüquqlarının müdafiəsi üzrə tədbirlərin həyata keçirilməsində müvafiq dövlət orqanlarına yardım göstərmək;

- gömrük işini həyata keçirərkən şəxslərin hüquqlarının və maraqlarının qorunması üzrə tədbirlər görmək;

- milli və xarici valyutanın, digər valyuta sərvətlərinin gömrük sərhədindən müvafiq qanunvericiliyə uyğun olaraq keçirilməsinə nəzarət etmək, habelə bu Məcəllə ilə müəyyənləşdirilmiş hallarda valyuta nəzarətini həyata keçirmək;

- gömrük işi ilə əlaqədar beynəlxalq müqavilələrin layihələrinin işlənib hazırlanmasında iştirak, orada nəzərdə tutulmuş beynəlxalq öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

- qanunvericilikdə nəzərdə tutulmuş qaydada ixrac nəzarətini həyata keçirmək;

- dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən mallar üzərində qanunvericiliyə uyğun olaraq baytarlıq, fitosanitar və sanitariya nəzarətini həyata keçirmək;

- beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə dövlət sərhədinin buraxılış məntəqələrində qanunvericiliyə uyğun olaraq icazə blanklarını vermək;

- gömrük işi sahəsində yeni informasiya sistemlərinin və texnologiyalarının layihələrinin hazırlanmasını və tətbiqini təmin etmək;

- müasir texnologiyalardan və avadanlıqdan istifadə etməklə, gömrük işi sahəsində riskləri idarəetmə sistemi əsasında gömrük nəzarətini təkmilləşdirmək;

- xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının aparılması ilə əlaqədar müvafiq tədbirlər görmək;

- gömrük işi sahəsində elmi tədqiqatlar aparmaq və bu sahəyə aid məsləhətlər vermək;

- dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə gömrük məsələləri üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada məlumatlar vermək;

- dövlət orqanları ilə, xarici ticarətin iştirakçıları və səlahiyyətli iqtisadi operatorlarla məlumatların elektron formada mübadiləsini həyata keçirmək;

- müvafiq qanunvericiliklə müəyyənləşdirilmiş qaydada malların idxalı və ixracı barədə məlumatların digər dövlətlərin gömrük xidmətləri ilə elektron formada mübadiləsi, gömrük rəsmiləşdirilməsi və nəzarəti müddətinin mümkün qədər qısaldılması, beynəlxalq ticarət-təchizat zəncirinin kompleks idarə edilməsində iştirak etmək yolu ilə beynəlxalq ticarətin asanlaşdırılmasına şərait yaratmaq;

- beynəlxalq ticarət-təchizat zəncirinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə xarici ticarətin iştirakçıları və səlahiyyətli iqtisadi operatorlarla tərəfdaşlıq əlaqələri yaratmaq;

- digər dövlət orqanları ilə əməkdaşlıq etmək, həmçinin müvafiq məqsədlərə nail olmaq üçün qanunvericilikdə nəzərdə tutulmuş hallarda onların fəaliyyətini əlaqələndirmək;

- qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

GÖMRÜK ÖDƏNİŞLƏRİ – müəyyən olunmuş qaydada ölkənin gömrük orqanları tərəfindən alınan ödənişlər.

AR GM-də, AR VM-də, "Gömrük tarifi haqqında", "Dövlət rüsumu haqqında" AR-in qanunlarında və normativ-hüquqi aktlarda nəzərdə tu-

tulmuş hallarda aşağıdakı gömrük ödənişləri alınır:

- gömrük rüsumları;
- əlavə dəyər vergisi;
- aksizlər;
- yol vergisi;
- gömrük yığımları;
- haqq;
- dövlət rüsumu.

AR-in iqtisadi maraqlarının qorunması məqsədi ilə ixrac və idxal edilən mallara "Gömrük tarifi haqqında" AR Qanununda və normativ-hüquqi aktlarda nəzərdə tutulmuş qaydada müvəqqəti olaraq xüsusi rüsumlar və mövsümi rüsumlar tətbiq oluna bilər. Fiziki şəxslər tərəfindən gömrük sərhədindən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar keçirilərkən gömrük ödənişləri sadələşdirilmiş qaydada alınır. Bəyan olunan mallara gömrük ödənişlərinin tətbiqi zamanı onların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun kodu əsas götürülür. Gömrük rüsumlarının dərəcələri göstərilməklə, bu dərəcələrin həm malların adları, həm də kodları üzrə axtarışının həyata keçirilməsinə, qanunla nəzərdə tutulmuş digər gömrük ödənişlərinin məbləğlərinin öyrənilməsinə imkan verən, malları gömrük sərhədindən keçirən şəxslərin istifadəsi üçün nəzərdə tutulan və istifadəsi sadə olan elektron avadanlıqlar gömrük sərhədburaxılış məntəqələrində hər kəsin yaxşı görə biləcəyi yerlərdə yerləşdirilməlidir.

GÖMRÜK ÖDƏMƏLƏRİNDƏN YAYINMA – gömrük işi sahəsində cinayət əməli hesab edilən hərəkət. Gömrük ödənişlərini ödəməkdən yayınmağa görə, bu az miqdarda (2000 man.-dək məbləğ nəzərdə tutulur) olduqda AR İXM-in 290-cı maddəsinə əsasən inzibati məsuliyyət (ödənişlərin məbləğinin 50 faizindən 150 faizinədək miqdarda cərimə), xeyli miqdarda (2000 man.-dan yuxarı), külli miqdarda (4000 man.-dan yuxarı) və təkrar olaraq gömrük ödənişlərinin ödənilməsindən yayınma AR CM-in 209-cu maddəsinə əsasən cinayət məsuliyyəti yaradır; CM-də xeyli miqdarda ödəmədən yaynmaya görə – 1000 man.-dan 2000 man.-dək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırma, külli miqdarda ödəmədən yayınmaya və təkrar yayınmaya görə – 2000 man.-dan 5000 man.-dək miqdarda cərimə və ya 2 ilədək müddətə islah işləri ilə cəzalandırma və eyni müddətə azadlıqdan məhrumetmə nəzərdə tutulmuşdur.

GÖMRÜK ÖDƏNİŞLƏRİNİN TƏMİN EDİLMƏSİ – idxal-ixrac əməliyyatları aparan vergi ödəyiciləri, o cümlədən fiziki şəxslər tərəfindən hesablanan gömrük rüsum və vergilərinin tam həcmdə ödənilməsi.

GÖMRÜK POSTU – malların və nəqliyyat vasitələrinin, əşyaların və başqa predmetlərin gömrük sərhədindən keçirilməsi qaydasını, gömrük rejimlərinin tətbiq edilməsini və gömrük tədiyyələrinin tutulmasını təmin edən, gömrük nəzarətini və gömrük rəsmiləşdirməsini həyata keçirən dövlət orqanı.

GÖMRÜK REJİMİ – xarici iqtisadi əlaqələrin inkişafına dövlət təsirinin həyata keçirildiyi gömrük tənzimlənməsi vasitələrinə kompleks

şəkildə kömək edən xüsusi tədbirlər sistemi və metodların məcmusu. Deməli, gömrük rejimi gömrük məqsədləri üçün gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin statusunu təyin edən qaydaların məcmusudur.

GÖMRÜK REJİMLƏRİNİN FORMALARI – sərbəst dövriyyə üçün buraxılış; təkrar idxal; tranzit; gömrük anbarı; rüsumsuz ticarət mağazası; gömrük ərazisində emal; gömrük nəzarəti altında emal; müvəqqəti idxal (ixrac); sərbəst gömrük zonası; sərbəst anbar; gömrük ərazisindən kənarda emal; ixrac; təkrar ixrac; məhv etmə; dövlətin xeyrinə maldan imtina.

GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİ – GM-in tələblərinə uyğun olaraq malların və nəqliyyat vasitələrinin müvafiq gömrük proseduru altında yerləşdirilməsi və bu prosedurun başa çatdırılması üzrə həyata keçirilən hərəkətlər.

GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİ ÜÇÜN GÖMRÜK YIĞIMI – gömrük qanunvericiliyinə uyğun olaraq gömrük rəsmiləşdirilməsinə görə gömrük orqanları tərəfindən alınan gömrük ödənişi növü.

GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİ ÜZRƏ MÜTƏXƏSSİS – Müvafiq icra hakimiyyəti orqanından (AR DGK-dən) ixtisas attestatı almış mütəxəssislər gömrük brokeri adından gömrük rəsmiləşdirilməsi ilə əlaqədar hərəkətləri yerinə yetirmək hüququna malikdirlər. AR GM-in 25.1-ci maddəsində göstərilən mütəxəssislər gömrük rəsmiləşdirilməsi ilə əlaqədar əməliyyatları gömrük brokerinin adından yerinə yetirdikdə, onlar gömrük brokerini təmsil edən şəxs hesab olunurlar. Gömrük brokeri gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərin gömrük orqanları ilə münasibətlərindən irəli gələn vəzifələrini məhdudlaşdıra bilməz. İxtisas attestatının verilməsi qaydalarını və gömrük rəsmiləşdirilməsi üçün mütəxəssislərin qarşısında qoyulan tələbləri müvafiq icra hakimiyyəti orqanı (AR NK) müəyyən edir.

GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİ ÜZRƏ MÜTƏXƏSSİSİN İXTİSAS ATTESTATI – sahibinin gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis kimi fəaliyyət göstərə bilməsini təsdiq edən sənəd. İxtisas attestatının digər şəxsə verilməsinə icazə verilmir. Attestatdan AR-in bütün ərazisində gömrük rəsmiləşdirilməsi üçün istifadə edilə bilər. Attestatın qeydiyyat nömrəsi və verilmə tarixi vardır. Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisə ixtisas attestatının verilməsi və həmçinin ixtisas attestatının fəaliyyətinin bərpa edilməsinə görə AR qanunvericiliyi ilə müəyyən edilən miqdarda yığım alınır.

GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİNİN SADƏLƏŞDİRİLMİŞ QAYDASI – Təbii fəlakətlər və digər fövqəladə hallar zamanı zəruri olan malların və nəqliyyat vasitələrinin, canlı heyvanların, tez xarab olan malların, radioaktiv maddələrin, kütləvi informasiya məqsədləri üçün materialların, AR-in qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının, AR MB-nin ünvanlarına göndərilən və bu qəbildən olan başqa malların gömrük rəsmiləşdirilməsi güzəştli və sa-

dələşdirilmiş qaydada həyata keçirilir. AR GM-in 111.1-ci maddəsində göstərilən hallarda gömrük rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş qaydasını müvafiq icra hakimiyyəti orqanı (AR NK) müəyyən edir.

GÖMRÜK RÜSUMLARI – ölkə sərhədindən keçirilən əmtəələrdən alınan dövlət pul yığımı. Bunun vasitəsilə dövlət idxal mallarının qiymətini qaldırmaqla daxili bazarını qorumuş olur, rəqabəti zəiflədir və idxalın strukturuna nəzarət edir. Gömrük rüsumlarının, əsasən, idxal, ixrac və tranzit növləri vardır. Gömrük orqanları tərəfindən bu ölkənin gömrük ərazisinə malların idxalı və ixracı zamanı alınan ödənişlərdir. "Gömrük tarifi haqqında" Qanununa uyğun olaraq AR-də aşağıdakı gömrük rüsumları tətbiq edilir:

- advalor – malların gömrük dəyərinə görə faizlə hesablanan;
- spesifik – mal vahidinə görə müəyyən olunmuş dəyərlə hesablanan;
- kombinə edilmiş – hər iki növü birləşdirməklə hesablanan.

GÖMRÜK RÜSUMUNA ƏLAVƏLƏR – iqtisadi, bəzən də fiskal və siyasi məqsədlər üçün bir sıra dövlətlər tərəfindən tutulan əlavə gömrük rüsumu. Gömrük rüsumuna əlavələrə malların idxalı zamanı sürüşkən idxal yığımları aid edilir.

GÖMRÜK RÜSUMUNUN BAZA DƏRƏCƏSİ – gömrük rüsumunun payı, gömrük tarifində təyin edilmiş dərəcə. Konkret ödəyənlər üçün malın və başqa amillərin yaranma ölkəsindən asılı olaraq müəyyən edilmiş baza payı artıma və ya azaldılmaya aid ola bilər.

GÖMRÜK RÜSUMUNUN QARIŞIQ DƏRƏCƏSİ – AR-də aşağıdakı gömrük rüsumları tətbiq edilir: advalor – malların gömrük dəyərinə görə faizlə hesablanan; spesifik – mal vahidinə görə müəyyən olunmuş dəyərlə hesablanan; qarışıq – hər iki növü birləşdirməklə hesablanan.

GÖMRÜK RÜSUMUNUN QAYTARILMASI – ödənilmiş (artıq ödənilmiş) gömrük rüsumunun ödəyən tərəfin müraciəti əsasında gömrük orqanı tərəfindən qaytarılması.

GÖMRÜK RÜSUMUNUN ÖDƏNİLMƏSİNDƏN AZADOLMA – Gömrük Məcəlləsinə uyğun olaraq malların hərəkəti zamanı gömrük rüsumunun tutulmaması. "Gömrük tarifi haqqında" AR Qanununa görə gömrük rüsumlarından aşağıdakılar azad edilir:

- yüklərin, baqajın və sərnişinlərin beynəlxalq daşımalarını həyata keçirən nəqliyyat vasitələri, habelə onların yolboyu, dayanacaqlararası məntəqələrdə normal istismarı üçün lazım olan və ya həmin nəqliyyat vasitələrinin qəzasının (sınmasının) nəticələrini aradan qaldırmaq məqsədi ilə xaricdən alınmış maddi-texniki təchizat və tədarük malları, yanacaq, ərzaq və digər əmlak;
- dənizdə balıq ovlayan AR gəmilərinin və AR-in hüquqi və fiziki şəxsləri tərəfindən icarəyə (fraxta) götürülmüş gəmilərin fəaliyyətini təmin etmək məqsədilə AR-in gömrük ərazisindən çıxarılan maddi-texniki təchizat və tədarük malları, yanacaq, ərzaq və başqa əmlak, habelə həmin

gəmilərdə AR-in gömrük ərazisinə gətirilən vətəgəçilik məhsulları;

- rəsmi, yaxud şəxsi istifadə üçün xarici ölkələrin nümayəndələri tərəfindən və ya AR-in beynəlxalq müqavilələrinə və AR qanunvericiliyinə müvafiq surətdə bu cür malları rüsumsuz gətirmək və rüsumsuz çıxarmaq hüququna malik olan fiziki şəxslər tərəfindən AR-in gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallar;

- AR qanunvericiliyinə uyğun olaraq, gömrük sərhədi ərazisindən çıxarılan AR-in valyutası və bu əraziyə gətirilən xarici valyutalar (numizmatika məqsədi ilə istifadə olunanlardan başqa), qiymətli kağızlar;

- AR qanunvericiliyində nəzərdə tutulmuş hallarda dövlətin mülkiyyətinə keçirilməli olan mallar;

- qəza və dağıntıların, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması məqsədi ilə və ya humanitar yardım kimi AR-in gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallar, o cümlədən məktəblər, məktəbəqədər müəssisələr və müalicə ocaqları üçün pulsuz dərs vəsaitləri;

- texniki yardım da daxil olmaqla, təmənnasız yardım və xeyriyyə məqsədi ilə dövlətlərin, hökumətlərin və beynəlxalq təşkilatların xətti ilə AR-in gömrük ərazisinə gətirilən və ya bu ərazidən çıxarılan mallar, habelə qrant haqqında müqaviləyə və ya qərara əsasən qrant kimi alınan pul və (və ya) digər maddi yardımlar;

- üçüncü ölkələr üçün nəzərdə tutulmuş və AR-in gömrük ərazisindən tranzit rejimi ilə gömrük nəzarəti altında keçən mallar;

- AR GM-ə uyğun olaraq, respublikanın gömrük ərazisindən fiziki şəxslər tərəfindən istehsal və kommersiya təyinatı olmayan və yalnız şəxsi istifadə üçün çıxarılan mallar;

- AR-in ərazisinə qaytarılan milli mədəniyyət sərvətləri;

- yığma komandaların hazırlığı ilə bağlı ölkəyə gətirilən idman avadanlığı, texnikası və malları;

- kütləvi informasiya vasitələri – kütləvi informasiya vasitələri məhsullarının ixracına, habelə fəaliyyətinin təşkili üçün idxal etdikləri avadanlıq, zəruri xammal və digər vasitələrə görə;

- əməkçi miqrantın qazandığı vəsaitin və bu vəsaitlə əldə etdiyi əşyaların, məişət avadanlıqlarının, həmçinin, əmək fəaliyyəti üçün zəruri olan alətlərin, əməkçi miqrant əmək fəaliyyətinə başladıqda və əmək fəaliyyəti sona çatdıqda gətirilməsi və çıxarılmasına görə.

GÖMRÜK SƏRHƏDİ – ölkənin gömrük ərazisinin hüdudları, habelə sərbəst gömrük bölgəsinin və sərbəst anbarların perimetrləri. Dövlət sərhədinin gömrük sərhədinə uyğunluğu nisbi bölgüdür. Belə ki, siyasi sərhəd ərazilərdən keçən müəyyən xətti zolaqdan, gömrük sərhədi isə idxal və ixrac mallarına, valyuta sərvətlərinə və s. faktiki nəzarəti həyata keçirən, digər tərəfdən isə lazımi hallarda malları gömrük vergilərinə cəlb edən, müxtəlif qayda və qanunlara nəzarət edən gömrük məntəqələri şəbəkəsindən ibarətdir. Digər tərəfdən isə gömrük sərhədi siyasi sərhədə – dövlət sərhədinə uyğun gəlir. Müasir baxımdan gömrük sərhədi ölkənin yalnız

tarif sərhədi deyil, habelə valyuta sərhədi, həmin dövlətdə hakim olan sosial-iqtisadi strukturun sərhədidir. Nəhayət, qısa mənada, gömrük sərhədi sərhəd qoşunlarının, sərhəd nəzarət buraxılış məntəqələrinin (NBM) yerləşdiyi dövlət sərhədi sahəsində olan gömrük müəssisələri (məntəqələri) şəbəkəsindən ibarətdir.

GÖMRÜK SƏRHƏDİNDƏN KEÇİRMƏ – malların və nəqliyyat vasitələrinin AR-in qanunvericiliyi ilə müəyyən edilmiş üsullarla, o cümlədən beynəlxalq poçt göndərişləri, boru kəmərləri və elektrik ötürücü xətlər vasitəsi ilə gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması üzrə hərəkətlər.

GÖMRÜK SİYASƏTİ – gömrük işi sahəsində dövlət siyasəti. Gömrük siyasəti gömrük ərazisindən mal və nəqliyyat vasitələrinin müvafiq gömrük rejimləri tətbiq edilməsi vasitəsilə keçirilməsinin dövlət tənzimlənməsi üzrə fəaliyyətinin istiqamətlərini və dövlətin xarici ticarət dövriyyəsini müəyyən edir. Vahid gömrük siyasəti AR-in daxili və xarici siyasətinin tərkib hissəsi olaraq həyata keçirilir. AR-in gömrük siyasətinin məqsədi gömrük nəzarəti alətlərindən səmərəli istifadə edilməsindən, ölkənin gömrük ərazisində əmtəə mübadiləsinin tənzimlənməsindən, ölkə bazarının müdafiəsi üzrə ticarət siyasətinin həyata keçirilməsində iştirak edilməsindən, milli iqtisadiyyatın inkişafının stimullaşdırılmasından, ölkənin iqtisadi siyasətinin strukturunun yenidən qurulmasından və bu sahədə digər məsələlərin həyata keçirilməsinə kömək edilməsindən ibarətdir.

Gömrük siyasəti xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin aşağıdakı əsas prinsipləri ilə müəyyən edilir:

- Azərbaycan gömrük ərazisinin bütövlüyü;
- xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin bir sahəsi olmaqla həmin fəaliyyətə nəzarətin həyata keçirilməsi;
- xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsində iqtisadi tədbirlərə üstünlük verilməsi;
- xarici ticarət fəaliyyəti iştirakçılarının bərabərliyi və onlar arasında ayrı-seçkiliyə yol verilməməsi;



Azərbaycan-İran sərhəd keçid məntəqəsi

- xarici ticarət fəaliyyəti iştirakçılarının hüquqi və qanuni maraqlarının dövlət tərəfindən qorunması;

- dövlət orqanları tərəfindən xarici ticarət fəaliyyətinə, onun iştirakçılarına və bütövlükdə ölkə iqtisadiyyatına zərər vura bilən lüzumsuz müdaxilələrin edilməməsi;

- valyuta nəzarəti siyasəti.

Gömrük siyasəti dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə xidmət edir. Gömrük siyasəti gömrük tarif qanunvericiliyində, beynəlxalq gömrük təşkilatları ilə bağlanılmış müqavilələrdə, sərbəst gömrük və ticarət zonalarının təşkil edilməsində əks olunur.

GÖMRÜK STATİSTİKASI – xarici iqtisadi əlaqələr sahəsində dövlət statistikasının tərkib hissəsi olub, idxal və ixrac əməliyyatları üzrə dəqiq uçot aparmaqla xarici iqtisadi fəaliyyətə dair statistik məlumatlardan ibarətdir.

GÖMRÜK TARİFİ – AR-in gömrük sərhədindən keçirilən mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusu.

Gömrük tarifinin əsas məqsədləri aşağıdakılardır:

- AR üzrə idxalın əmtəə strukturunu səmərəliləşdirmək;

- AR ərazisində malların gətirilməsi və çıxarılmasının, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etmək;

- valyuta sərvətlərinin AR-in gömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılması üzərində səmərəli nəzarət etmək;

- AR-də malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaq;

- AR-in iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq;

- AR iqtisadiyyatının dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq.

"GÖMRÜK TARİFİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – AR-də daxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsi olan gömrük tarifinin formalaşdırılması və tətbiqi, həmçinin gömrük sərhədindən keçən mallardan rüsum tutulması qaydalarını müəyyən edən Qanun. 1995-ci ilin 20 iyun tarixli 1064 nömrəli bu Qanunun tətbiq sahəsi AR-in vahid gömrük ərazisidir. Qanun 37 maddədən və aşağıdakı fəsillərdən ibarətdir:

1. Ümumi müddəalar.
2. Mövsümi və xüsusi rüsumlar.
3. Malın gömrük dəyəri.
4. Gömrük dəyərinin müəyyən edilməsi üsulları və onların tətbiqi qaydaları.
5. Malın mənşə ölkəsinin müəyyən edilməsi.
6. Tarif güzəştləri.
7. Yekun müddəalar.

GÖMRÜK TƏDİYYƏLƏRİNİN ÖDƏNMƏSİNDƏ MÖHLƏT – şəxs tərəfindən nəzərdə tutulmuş üsullardan istifadə edilməklə təminat verildikdə, gömrük orqanları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda və qaydada gömrük borcunun ödənilməsinə 14 gündən 60 günədək möhlət verirlər. Gömrük borcunun

ödənilməsinə verilən möhlət müddəti ərzində borcun məbləğinə MB-nin müəyyən etdiyi uçot dərəcəsi ilə dövlət büdcəsinə ödənilən faizlər hesablanır.

GÖMRÜK TƏMSİLÇİSİ – gömrük orqanları ilə münasibətlərində AR GM-də və gömrük işi üzrə digər qanunvericilik aktlarında nəzərdə tutulmuş fəaliyyəti həyata keçirmək üçün müəyyən şəxs tərəfindən təyin edilən təmsilçi. GM-in 21-ci maddəsinə görə gömrük təmsilçiliyi birbaşa (təmsil edilən şəxsin tapşırığı ilə onun adından və onun mənafeyi üçün), yaxud dolayı (təmsil edilən şəxsin tapşırığı ilə öz adından və onun mənafeyi üçün) ola bilər; gömrük təmsilçisi hansı şəxsin mənafeyi üçün fəaliyyət göstərdiyini və gömrük təmsilçiliyinin birbaşa, yaxud dolayı həyata keçirildiyini gömrük orqanına bildirməlidir; gömrük təmsilçisi kimi fəaliyyət göstərdiyini bildirməyən, yaxud bunu bildirən, lakin müvafiq səlahiyyəti olmayan şəxs öz adından və özünün mənafeyi üçün fəaliyyət göstərən hesab olunur; gömrük orqanı gömrük təmsilçiliyini birbaşa, yaxud dolayı həyata keçirən şəxsdən ona müvafiq səlahiyyətin verildiyini təsdiqləyən sənədin təqdim olunmasını tələb etməlidir.

GÖMRÜK YIĞIMLARI – gömrük orqanları tərəfindən gömrük rəsmiləşdirilməsi və xidmət üçün normativ aktlarda nəzərdə tutulmuş, alınacaq pul ödənişləri.

Gömrük yığımlarına aşağıdakılar aiddir:

- gömrük nəzarətinin həyata keçirilməsi ilə bağlı gömrük yığımları;
- gömrük müşayiətinə görə gömrük yığımları;
- malların saxlancına görə gömrük yığımları;
- gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsinə görə yığımlar;
- bankların və bank olmayan kredit təşkilatlarının müvafiq icra hakimiyyəti orqanının reyestrinə daxil edilməsinə görə yığımlar.

GÖMRÜK TARİF TƏNZİMLƏNMƏSİ – əmtəələrə idxal və ixrac rüsum dərəcələrinin müəyyən edilməsi yolu ilə həyata keçirilir və dövlət həmin rüsum dərəcələrini müəyyən dövr ərzində qaldırıb-endirməklə xarici iqtisadi fəaliyyəti, bir sözlə, xarici ticarəti tənzimləyir. Tarif tənzimlənməsi milli iqtisadi təhlükəsizliyin müdafiəsini, ictimai qaydaların, insanların həyat və sağlamlığının, cəmiyyətin əxlaqi və mənəvi dəyərlərinin qorunmasını, həmçinin ölkənin gömrük sərhədlərindən əmtəələrin keçirilməsi zamanı gömrük ödənişləri alınması yolu ilə dövlət büdcəsinin gəlir hissəsinin doldurulmasını təmin edir.

GÜZƏŞT – ümumi qaydadan istisna hal kimi verilən üstünlük hüququ, yüngülləşmə; mövcud qaydaların, öhdəliklərin icrasından qismən azadolma və onların şərtlərinin yüngülləşdirilməsi.

GÜZƏŞTLİ VERGİ TUTULAN ÖLKƏLƏRDƏ ƏLDƏ EDİLƏN GƏLİR – vergi dərəcələri aşağı olan və ya ümumiyyətlə, vergi olmayan yurisdiksiyalarda qeydiyyatdan keçən hüquqi şəxslərin nizamnamə fondunda iştirak payından əldə edilən gəlir.

H

HAAQA KONVENSİYASI – xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən, Haaqa şəhərində 1961-ci il oktyabrın 5-də bağlanmış Konvensiya. AR Konvensiyaya 5 mart 2004-cü il tarixli 595-IIQ nömrəli AR Qanunu ilə qoşulmuşdur. Konvensiya razılığa gələn dövlətlərdən birinin ərazisində edilmiş və razılığa gələn digər dövlətin ərazisində təqdim olunmalı rəsmi sənədlərə tətbiq edilir. Rəsmi sənəd dedikdə, aşağıdakılar başa düşülür:


- dövlət orqanından və ya dövlətin məhkəməsi və ya iqtisadi məhkəməsi ilə əlaqəsi olan vəzifəli şəxsdən alınan sənədlər, o cümlədən dövlət ittihamçısından (prokurordan), məhkəmə katibindən, məhkəmə icraçısından alınan sənədlər;
- inzibati sənədlər;
- notarial aktlar;
- özəl fiziki şəxs tərəfindən imzalanmış sənədlərə əlavə edilən rəsmi qeydlər, sənədin qeydiyyatını və ya müəyyən tarixdə baş vermiş faktı təsdiq edən və imzaların notarial və rəsmi təsdiqlənməsinə bərabər tutulan rəsmi sənədlər.

Konvensiya aşağıdakılara tətbiq edilmir:

- diplomatik və ya konsulluq idarələri tərəfindən icra edilən sənədlərə;
- kommersiya və ya gömrük əməliyyatlarına birbaşa aidiyyəti olan inzibati sənədlərə.

Konvensiyada leqallaşdırmadan azad edilmə nəzərdə tutulduqda, razılığa gələn hər bir dövlət belə hallarda öz diplomatik və konsulluq idarələri tərəfindən leqallaşdırmanın həyata keçirilməsinin qarşısını almaq üçün zəruri tədbirlər görür (Konvensiyanın 9-cu maddəsi).

HAMİLTON ROBERT (1743 - 1829) – şotland riyaziyyatçısı və siyasi iqtisadçısı. Edinburq Kral Cəmiyyətinin təsisçi üzvü, 1769-cu ildə Pert Akademiyasının rektoru olmuşdur. 1913-cü ildə "Dövlət borcu haqqında" əsərini yazmışdır.



HARBERGER ARNOLD (1924) – Amerika iqtisadçısı. Nyu-Cersi ştatında anadan olmuşdur. Çikaqo iqtisad məktəbinin banilərindən biridir. Con Hopkins və Çikaqo universitetlərində oxumuşdur. 1959-cu ildən Çikaqo Universitetinin professorudur. 1997-ci ildən Amerika İqtisadçılar Assosiasiyasının prezidentidir. Əsas əsərləri: "Uzunmüddətli istifadə mallarına tələb" (1960) və "Vergitutma və rifah" (1974).



HARMONİZASİYA EDİLMİŞ SİSTEM – GƏŞ-in nomenklaturasına və beynəlxalq ticarətdə malların gömrük tarif və statistik təsnifatının digər sistemlərinə əsaslanan malların təsvirinə və kodlaşdırılmasına aid olan sistem. Malların təsvirinin və kodlaş-

dırılmalarının harmonizasiya edilmiş sistemi haqqında beynəlxalq konvensiya 14 iyun 1983-cü il tarixdə Brüsseldə imzalanmışdır. Həmin konvensiyaya 24 iyun 1986-cı ildə dəyişikliklər edilmişdir. Beynəlxalq konvensiyanın 1-ci maddəsinin a) bəndinə əsasən "harmonizasiya edilmiş sistem" adı altında malların mövqeləri, subpozisiyaları və onlara aid olan rəqəmli kodları, bölmələrə, qruplara və subpozisiyalara qeydlər daxil olmaqla nomenklaturalar, həmçinin, harmonizasiya edilmiş sistem haqqında Beynəlxalq konvensiyanın əlavəsində göstərilən harmonikləşmiş sistemin izah edilməsi üçün təsnifatın əsas qaydaları başa düşülür.

HASİLAT SƏNAYESİ – yerin səthindən və təkindən, həmçinin, sudan müxtəlif növ faydalı qazıntı (FQ), xammal və yanacaq hasil edən və ya çıxaran istehsal sahəsi. Bərk aqreqat halında olan bütün FQ-lər 3 üsul ilə hasil edilir və ya çıxarılır: açıq, yeraltı və kombinəedilmiş açıq-yeraltı üsullar. Məsələn, boz kömürün 90%-i, daş kömürün 20%-i, həmçinin, qara və rəngli metal filizlərin 70%-i açıq və ya kombinə edilmiş üsullarla çıxarılır. Maye və qaz aqreqat halında olan FQ-lər isə yerin səthindən quyuların qazılması hesabına xüsusi saxlanc yerlərinə doldurulmaq yolu ilə hasil edilir.

"HASİLATIN PAY BÖLGÜSÜ" (HPB) – hazırda bazar iqtisadiyyatının yenicə formalaşdığı ölkələrdə daha geniş yayılmış müqavilə münasibətləri forması. HPB müqaviləsinin şərtləri, adətən, ölkənin milli qanunvericiliyində, əksər hallarda isə ayrıca HPB haqqında qanunda müəyyən edilir. Mahiyyət baxımından konsessiya müqaviləsindən fərqli olaraq HPB müqavilələrində müəyyən vergi və qeyri-vergi ödənişləri ilə yanaşı, hasil olunan neftin (mənfəət neftinin) bir hissəsi də məhsul formasında dövlətin payına aiddir. AR-də ilk dəfə müvafiq HPB müqaviləsi 1994-cü ilin sentyabrın 24-də dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkətinin (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) imzaladığı "Əsrin müqaviləsi" adlı müqavilə olmuşdur. İndiyədək karbohidrogen ehtiyatlarının hasilatı ilə bağlı 6 saziş dənizdə, 11 saziş isə quruda olmaqla, cəmi 17 HPB müqaviləsi imzalanmışdır.

HASİLATIN PAY BÖLGÜSÜNƏ DAİR SAZİŞLƏR – Hasilatın pay bölgüsünə dair sazişlər ərazisində təbii ehtiyatlar olan hökumətlə təbii ehtiyatların hasilatı ilə məşğul olan şirkət və ya şirkətlər qrupu arasında bağlanan sazişlərdir. Bu sazişlərə əsasən hasil edilmiş təbii ehtiyatların (əsasən neft) tərəflər arasında bölgüsünün məbləğləri müəyyən edilir.

HAZIRLIQ XARAKTERLİ FƏALİYYƏT – Bu termin xarici təşkilatın nümayəndəliyinin fəaliyyətinin daimi nümayəndəlik vasitəsilə həyata keçirilməsini müəyyən etmək üçün istifadə olunur. Tikililərin yalnız malların saxlanılması, nümayişi və (və ya) malların çatdırılması üçün istifadə olunması, həmin xarici təşkilata məxsus malların sırf onların saxlanması,

göstərilməsi və (və ya) belə çatdırılmadan öncə çatdırılması məqsədilə ehtiyatlarının saxlanması, daimi fəaliyyət yerinin yalnız beynəlxalq təşkilat üçün malların alınması məqsədilə saxlanılması, daimi fəaliyyət yerinin yalnız beynəlxalq təşkilat tərəfindən həyata keçirilən məlumatların yığılması, emalı və (və ya) yayılması, mühasibat uçotunun aparılması, marketinq, reklam və mal (xidmət, iş) bazarının öyrənilməsi məqsədilə istifadə edilməsi, daimi fəaliyyət yerinin yalnız beynəlxalq təşkilatın adından adi müqavilələrin bağlanması məqsədilə saxlanılması (əgər müqavilələrin bağlanması xarici təşkilatın təlimatı olan məktublar əsasında həyata keçirilirsə) hazırlıq xarakterli fəaliyyətə aid edilir.

HECİNQ – riskin minimallaşdırılmasına yönəldilmiş tədbir və ya ticarət strategiyası. Hecinq bir bazarda olan ticarət mövqeyindəki qiymət dəyişməsinə qarşı sığortalanmaq və kompensasiya məqsədilə digər bazarda əks mövqeyin yaradılmasıdır. İnvestorlar tərəfindən malik olduqları investisiyalar vasitəsi ilə baş verə biləcək hər hansı kapital itkisi riskini tənzimləmək məqsədi ilə hecinq alətlərindən istifadə edilir. Məsələn: opsionlar, fyuçerslər və s. Hecinqin effektivliyi onun predmetinin dəyərinin və ya pul vəsaitlərinin axınında hecinq edilən riskə aid dəyişikliklərin hecinq alətinin dəyərinin və ya pul vəsaitlərinin axınındakı dəyişikliklər ilə tam uyğunluğu səviyyəsi ilə müəyyən edilir. Hecinq daha çox fyuçers müqavilələri ilə aparılır. Fyuçers müqavilələrinin meydana çıxması malların qiymətlərinin dəyişməsindən sığortalanmaq zərurətindən yaranmış və fyuçerslərlə ilk əməliyyatlar Çikaqonun (ABŞ) əmtəə bazarlarında məhz bazarın konyunkturunun kəskin dəyişmələrindən müdafiə üçün aparılmışdır. Hecinq terminindən XX əsrin ikinci yarısına qədər müstəsna olaraq qiymət risklərinin aradan qaldırılması üçün istifadə olunmuşdur. Lakin hazırda hecinqin məqsədi risklərin optimallaşdırılmasıdır. Hecinqin mexanizmi nağd (əmtəə, qiymətli kağızlar, valyuta) və fyuçers bazarında təyinatca əks öhdəliklərin tarazlaşdırılmasından ibarətdir.

Fyuçerslərlə aparılan əməliyyatlarla yanaşı forvard müqavilələri və opsionlarla da aparılan əməliyyatlar hecinq əməliyyatları hesab edilə bilər. Opsionun satılması hecinq əməliyyatı kimi qəbul edilə bilər. Hecinqin nəticəsi təkcə risklərin aşağı salınması deyil, həm də mümkün mənfəətin aşağı düşməsidir. Alqı və satqı ilə hecinqi fərqləndirirlər. Alqı ilə hecinq fyuçersin əldə edilməsi ilə bağlıdır ki, bu da alıcını gələcəkdə qiymətlərin qalxmasından sığortalayır. Hecinq zamanı (satıcının hecinqi, qısa hecinq) satışı real əmtəə bazarında həyata keçirmək nəzərdə tutulur və gələcəkdə qiymətlərin aşağı düşməsindən sığortalanmaq məqsədilə təcili alətlərin satışı həyata keçirilir.

HEZELL SİLVİO İOHAN (1862- 1930) – alman sahibkar, maliyyə nəzəriyyəçisi və ictimai islahatçı. Özünün "azad iqtisadiyyat" haqqında nəzəriyyəsi ilə məşhurdur. Onun birinci elmi əsəri – "Pul işinin islahatı sosial dövlətə yol kimi" 1891-ci ildə



Buenos-Ayresdə nəşr olunmuşdur. Pul haqqında əsas ideyalar həmin ildə nəşr olunmuş "Nervus rerum" (latıncadan tərcüməsi - "Əsas iş") əsərində də öz əksini tapmışdır. Onun iqtisadi baxışları kreditlər və torpağın milliləşdirilməsi üzrə faizin ləğv edilməsinə əsaslanmışdır. S.Hezell belə bir nəticəyə gəlmişdir ki, bərabər sürətli pul dövriyyəsi böhransız iqtisadiyyat üçün əhəmiyyətli şərtdir. Pul qənaət vasitəsi kimi deyil, yalnız mübadilə vasitəsi kimi xidmət etməlidir.

HESAB – Bank hesabı müqaviləsinə görə, bank müştəriyə (hesabın sahibinə) daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair müştərinin sərəncamlarını yerinə yetirməsi üçün açılır.

HESABAT DÖVRÜ – Hesabat dövrü vergitutma məqsədləri üçün vergi dövrü olub, vergitutma elementlərindən biridir. Vergitutma bazasının formalaşdığı müddətdir. Hesabat dövrü müxtəlif vergi və tədiyyə növləri üzrə fərqli ola bilər. Vergitutma məqsədləri üçün hesabat dövrü ay, rüb, ildir.

HESABAT İLİ – əməliyyatların həyata keçirildiyi təqvim ili 1 yanvardan 31 dekabra qədər və 366 gündən çox olmayan olan dövrü əhatə edir.

HESAB-FAKTURA – satqı dəyərini təsdiq edən hesab-faktura. Bu faktura satıcı tərəfindən malın alqı-satqı müqaviləsində göstərilmiş məbləği, malın miqdarı, çəkisi və s. haqqında məlumatı əks etdirən sənəddir.

HESABLAMA METODU – hüquqi şəxslərin mənfəət vergisi və sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərin gəlir vergisinin hesablanması zamanı gəlir və xərclərin nəzərə alınması metodu (AR-in Vergi Məcəlləsinin 130, 134-136-cı maddələri ilə müəyyən edilmişdir). Hesablama metodu ilə uçot aparan vergi ödəyicisi gəlir əldə edilməsinin və xərc çəkilməsinin faktiki vaxtından asılı olmayaraq, gəlirini və xərcini müvafiq surətdə gəlir almaq hüququnun əldə edildiyi və ya xərcin çəkilməsi barədə öhdəliyin yarandığı vaxt nəzərə almalıdır.

Hesablama metodundan istifadə olunarkən gəlirin əldə edilməsi vaxtı aşağıdakı kimi müəyyən edilir:

- məbləğ vergi ödəyicisinə qeyd-şərtsiz ödənilməli olduğu, yaxud vergi ödəyicisi əqd və ya müqavilə üzrə bütün öhdəliklərini yerinə yetirdiyi vaxt;
- vergi ödəyicisi müqavilə üzrə iş gördükdə və ya xidmət göstərdikdə müqavilədə nəzərdə tutulan işlərin görülməsinin və ya xidmətlərin göstərilməsinin tam başa çatdığı vaxt;
- vergi ödəyicisi gəlir əldə edirsə və ya onun faiz gəliri, yaxud əmlakın icarəyə verilməsindən gəlir əldə etmək hüququ olduqda, borc öhdəliklərinin və ya icarə müqaviləsi üzrə ödəmənin müddətinin qurtardığı vaxt. Bu halda borc öhdəliyinin və ya icarə müqaviləsi üzrə ödəmənin müddəti bir neçə hesabat dövrünü əhatə etdikdə gəlir onun hesablanma qaydasına müvafiq

surətdə həmin hesabat dövrləri üzrə bölüşdürülür.

Vergi ödəyicisi vergi uçotunun aparılması üçün hesablama metodundan istifadə etdikdə, əqdlə bağlı olan xərcin çəkilməsi vaxtı aşağıda sadalanan şərtlərin hamısına əməl edildiyi vaxt sayılır:

- vergi ödəyicisi birmənalı olaraq maliyyə öhdəliklərini qəbul edir;
- maliyyə öhdəliklərinin məbləği dəqiq qiymətləndirilir;
- əqddə və ya müqavilədə iştirak edən bütün tərəflər əqd və ya müqavilə üzrə özlərinin bütün öhdəliklərini yerinə yetirmişlər, yaxud müvafiq məbləğlər qeyd-şərtsiz ödənilməlidir.

Maliyyə öhdəliyi əqdə və ya müqaviləyə müvafiq surətdə qəbul edilən və yerinə yetirilməsindən ötrü əqdin və ya müqavilənin digər iştirakçısının pul şəklində və ya digər şəkildə müvafiq vəsait verməli olduğu öhdəlikdir. Borc öhdəliyi üzrə faizlər və ya əmlakın icarə haqqı ödənilərkən borc öhdəliyi və ya icarə müqaviləsi üzrə ödənişin müddəti bir neçə hesabat dövrünü əhatə etdikdə, xərc həmin hesabat dövrləri üzrə onun hesablanma qaydasına müvafiq surətdə bölüşdürülür.

HESABLAŞMA – alınmış malların, görüləcək işlərin və xidmətlərin dəyərinin ödənilməsi.

HEYVANLAR ALƏMİNƏ AİD OBYEKTLƏRDƏN VƏ SU BİOLOJİ RESURSLARINDAN İSTİFADƏ HÜQUQUNA GÖRƏ YIĞIM – heyvanlar aləminin və su bioloji resurslarının obyektlərinin öz təbii mühitindən müvafiq qaydada xüsusi razılıq almış şəxslər tərəfindən çıxarılmasına görə ödəmə.

HƏBS – qətimkan tədbiri qismində Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada təqsirləndirilən şəxsin azadlığını müvəqqəti məhdudlaşdırmaqla istintaq təcridxanasında saxlanılması.

HƏBS QƏTİMKAN TƏDBİRİ – Təqsirsizlik prezumpsiyasına müvafiq olaraq şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsinə aidiyyəti sübut olunmadıqda, o, həbs oluna və ya zərurət olmadıqda həbsdə saxlanıla bilməz. Həbs qətimkan tədbiri qismində Cinayət-Prosessual Məcəllənin 155.1–155.3-cü maddələrinin tələblərini nəzərə almaqla seçilə bilər. Məhkəmə qərarına əsasən həbs olunmuş şəxs müvəqqəti saxlanma yerində 24 saatdan artıq saxlanıla bilməz və bu müddət keçənədək istintaq təcridxanasına keçirilməlidir (həmin müddət istintaq təcridxanasına nəqliyyat vasitələri ilə daşınması müddətinə aid deyil).

HƏRRAC – alıcıların müsabiqəsi əsasında malların və qiymətli kağızların müəyyən vaxtda və müəyyən edilmiş yerdə satışı. Bütün hərracların prinsipi ümumi alıcılar arasında rəqabətin olmasıdır. Malları almaq hüququ üçün alıcılar arasında rəqabət prosesində hərracın qalibi müəyyən edilir.

HƏVƏSLƏNDİRMƏ VƏ İNKİŞAF FONDU – iqtisadi stimullaşdırma fondu. Bu fond istehsalın genişlənməsi, yeni texnologiyaların tətbiqinin, mərkəzləşməmiş kapital qoyuluşlarının maliyyələşdirilməsinə xidmət etdiyi halda, maddi həvəsləndirmə fondu işçilərin mükafatlandırılmasına və onlara maddi yardımların göstərilməsinə xidmət edir.

HİKS CON RİÇARD (1904-1989) – britaniyalı iqtisadçı. Oksford Universitetində riyaziyyat və iqtisadiyyat üzrə təhsil almışdır. 1926-cı ildən London İqtisadiyyat Məktəbində dərs demiş, 1935-1938-ci illərdə Kembric Universitetində araşdırmalarla məşğul olmuşdur. Mançester (1939-1946) və Oksford (1952-1965) universitetlərinin professoru olmuşdur. C.R.Hiks iqtisadi tarazlıq, pul nəzəriyyəsi, beynəlxalq iqtisadi münasibətlər problemlərinin işlənib hazırlanmasına böyük töhfələr vermişdir. Mikroiqtisadiyyata aid olan "istehlakçı tələbi" nəzəriyyəsi, makroiqtisadiyyatda Keyns baxışını yekunlaşdıran IS/LM modeli (1937) onu daha da məşhurlaşdırmışdır.



C.R.Hiksin "Dəyər və kapital" (1939) kitabı dəyər və ümumi müvazinət nəzəriyyəsini xeyli zənginləşdirib. Onun "Əməkhaqqı nəzəriyyəsi" adlanan ilk əsərində kapitalın qarşılıqlı əvəz olunması imkanları haqqında tezis mərkəzi yer tutur.

C.R.Hiks ümumi müvazinət nəzəriyyəsində və rifah iqtisadiyyatında ilk kəşfedici işlərinə görə iqtisadiyyat üzrə Nobel mükafatı almışdır.

HOLDİNQ – elə işgüzarlıq fəaliyyətidir ki, müxtəlif kompaniyaların səhm və nəzarət paketləri başqa bir kompaniya (holdinq kompaniyası) tərəfindən alınır, nəticədə onların fəaliyyətinə nəzarət edilir və divident formasında gəlir qazanılır. Holdinq iri məbləğdə investisiya tələb edir, odur ki, bir neçə fiziki, yaxud hüquqi şəxsin birgə səyi nəticəsində təşkil edilir.

HOLDİNQ KOMPANİYASI – elə səhmdar kompaniyasıdır ki, divident formasında gəlir qazanmaq məqsədilə öz kapitalının əsas hissəsini başqa kompaniyaların nəzarət səhm paketlərinin alınmasına yönəldir. Bu kompaniyada birləşən müəssisələrin hü- quqları məhduddur və onların birliyi yalnız maliyyə cəhətdəndir.

HÖKUMƏT BAŞÇISI – ölkənin icra hakimiyyətinin əsas vəzifəli şəxsi. Parlamentli hakimiyyət sistemində hökumət başçısı, bir qayda olaraq, baş nazir olur. Respublikamızda prezidentli idarə sistemi olduğundan hökumət başçısı Prezidentdir. O, eyni zamanda, Azərbaycan dövlətinin başçısıdır və həm ölkənin daxilində, həm də xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir. AR Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir. AR Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır. AR Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

HÜQUQ – pozitiv və normativ hüquq nəzəriyyəsinə görə ictimai münasibətləri tənzimləyən, dövlətin müəyyənləşdirdiyi və sanksiyalaşdırdığı, dövlət tərəfindən qorunan, davranış qaydalarının məcmusu, liberal hüquq nəzəriyyəsinə görə isə hər bir şəxs üçün bərabər azadlıq və ədaləti özündə nəzərdə tutan norma və qaydaların məcmusu.

HÜQUQİ ŞƏXS – AR-in və ya xarici dövlətin qanunvericiliyinə uyğun olaraq hüquqi şəxs statusunda yaradılmış müəssisə və təşkilatlar; qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır. Hüquqi şəxslər bir fiziki və ya hüquqi şəxs tərəfindən, yaxud fiziki və hüquqi şəxslərin toplusu tərəfindən yaradıla bilər, üzvlüyə əsaslana bilər, üzvlərin olmasından asılı ola və ya asılı olmaya bilər, sahibkarlıq fəaliyyəti ilə məşğul ola və ya məşğul olmaya bilər. Bələdiyyələr mülki hüquq münasibətlərində eynilə digər hüquqi şəxslər kimi iştirak edirlər. Bu hallarda bələdiyyənin səlahiyyətlərini onun hüquqi şəxslər olmayan orqanları həyata keçirirlər. Hüquqi şəxslər fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan (kommersiya hüquqi şəxsləri) və ya əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən (qeyri-kommersiya hüquqi şəxsləri) qurumlar ola bilər. Qeyri-kommersiya qurumları olan hüquqi şəxslər ictimai birliklər, fondlar, hüquqi şəxslərin ittifaqları formasında, habelə qanunvericilikdə nəzərdə tutulan digər formalarda yaradıla bilər.

Qeyri-kommersiya hüquqi şəxsləri sahibkarlıq fəaliyyəti ilə yalnız o hallarda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin. Sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün qeyri-kommersiya hüquqi şəxsləri təsərrüfat cəmiyyətləri yarada bilər və ya onlarda iştirak edə bilərlər (AR MM, maddə 43).

HÜQUQİ ŞƏXSİN LƏĞV OLUNMASI – hüquqi şəxsin mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsidir.

HÜQUQİ ŞƏXSLƏRİN DÖVLƏT QEYDİYYATI – AR-in ərazisində hüquqi şəxs statusu almaq istəyən qurumların, habelə xarici hüquqi şəxslərin AR ərazisində yaratdıqları nümayəndəlik və ya filialların hüquq qabiliyyətinin təsdiq edilməsi, hüquqi statusunun müəyyənləşdirilməsi və onlar barəsində məlumatların (qeydlərin) hüquqi şəxslərin vahid dövlət reyestrinə daxil edilməsi. AR İXM-in 200-1-ci maddəsinə görə, bu cür qeydiyyat aparıldıqda, eləcə də təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sönrakı dəyişikliyinin dövlət qeydiyyatına alınması zamanı AR-in müvafiq icra hakimiyyəti orqanına yanlış məlumatların verilməsinə görə fiziki şəxslər 700 man. miqdarında, hüquqi şəxslər 4000 man. miqdarında cərimə edilir.

Hüquqi şəxs dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır.

Hüquqi şəxsin hüquq qabiliyyətinə onun ləğvinin başa çatdığı an xitam verilir. Kommersiya hüquqi şəxsləri qanunla qadağan edilməyən istənilən fəaliyyət növlərini həyata keçirmək üçün zəruri mülki hüquqlara malik ola və mülki vəzifələr daşıya bilərlər. Siyahısı qanunvericiliklə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə hüquqi şəxslər yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilərlər. Hüquqi şəxsin hüquqları yalnız qanunla nəzərdə tutulan hallarda və qaydada məhdudlaşdırıla bilər. Hüquqi şəxs öz hüquqlarının məhdudlaşdırılması haqqında qərardan məhkəməyə etiraz verə bilər. Hüquqi şəxsin xüsusi icazə (lisenziya) alınması zəruri olan fəaliyyəti həyata keçirmək hüququ belə lisenziyanın alındığı andan və ya lisenziyada göstərilən vaxtda əmələ gəlir və bu hüquqa, əgər qanunvericiliklə ayrı qayda müəyyənləşdirilməyibsə, lisenziyanın müddəti qurtardıqda xitam verilir.

HÜQUQİ ŞƏXSLƏRİN ƏMLAK VERGİSİ – bax: *Əmlak vergisi*.

HÜQUQİ ŞƏXSLƏRİN MƏNFƏƏT VERGİSİ – AR VM-in IX və X fəsillərində göstərilən qaydalarla ödənilən vergi. AR-də rezident və qeyri-rezident müəssisələr mənfəət vergisinin ödəyiciləridir. Fiziki şəxs olmayan hər hansı xarici şəxs AR VM-in 137-ci maddəsinə uyğun olaraq birgə sahibkarlıq fəaliyyətinin obyekti kimi baxılmalı olmadığını sübut etməyincə, ona müəssisə kimi baxılır. Rezident müəssisə üçün vergitutma obyekti onun mənfəətidir. Vergi ödəyicisinin bütün gəlirləri (vergidən azad edilən gəlirdən başqa) ilə gəlirdən çıxılan xərc arasındakı fərq mənfəətdir.

AR-də özünün daimi nümayəndəliyi vasitəsilə fəaliyyət göstərən qeyri-rezident müəssisə bu fəaliyyətdən əldə etdiyi mənfəətindən, yəni daimi nümayəndəliyi ilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirinin həmin gəlirin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir. Qeyri-rezidentin daimi nümayəndəliyi ilə bağlı olmayan ümumi gəliri AR VM-in 125-ci maddəsində nəzərdə tutulduğu hallarda xərclər çıxılmadan ödəmə mənbəyində vergiyə cəlb olunur.

AR-dəki daimi nümayəndəliklə bağlı olmayan əmlak təqdim edilməsindən gəlir əldə edən qeyri-rezident müəssisənin təqvim ili ərzində Azərbaycan mənbəyindən əldə etdiyi bu növ ümumi gəlirindən və həmin dövrdə bu cür gəlirə aid olan xərclər çıxıldıqdan sonra vergi tutulur.

Hüquqi şəxslərin mənfəət vergisinin dərəcəsi 20 faizdir.

AR VM-də (maddə 106) mənfəət vergisindən azadolmalar və güzəştlər də göstərilmişdir. Aşağıdakılar vergidən azaddır:

- xeyriyyə təşkilatlarının gəliri – sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa;

- qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr;

- beynəlxalq, dövlətlərarası və hökumətlərarası təşkilatların gəlirləri – sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa;

- dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüi-

darəetmə orqanlarının gəlirləri (sahibkarlıq fəaliyyətindən gəlir istisna olmaqla);

- AR MB-nin, onun qurumlarının və AR DNF-nin (vəsaitin yerləşdirilməsindən əldə edilən gəlir istisna olmaqla), habelə ƏSF-nin gəlirləri;

- alınmış sığorta ödənişləri (həmin sığorta hadisəsi ilə əlaqədar zərərə aid edilən məbləğlərdən başqa);

- sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması üçün yaradılmış xüsusi təhsil müəssisələrinin gəliri – sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa.

– AR qanunvericiliyinə uyğun olaraq dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlir;

- qanunvericiliklə müəyyən edilmiş hallarda hüquqi şəxsin qərarı ilə onun özünün və tam mülkiyyətində olan rezident törəmə müəssisələrin birinin balansından digərinin balansına əvəzsiz olaraq verilən aktivlərin dəyəri;

- bir hüquqi şəxsin balansından əvəzsiz olaraq digər şəxsin balansına verilmiş əsas vəsaitlərin dəyəri;

-neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq əsas fondların, daşınar əmlakın və digər aktivlərin AR-i təmsil edən tərəfə təqdim edilməsi üzrə əməliyyatlar.

Əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlillərdən və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır. Bu güzəştlərin alınması hüququ müəyyən edilərkən işçilərin orta siyahı sayına əvəzçilik, podrat müqavilələri və mülki-hüquqi xarakterli digər müqavilələr üzrə işləyən əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər daxil edilmir.

HÜQUQİ ŞƏXSLƏRİN TORPAQ VERGİSİ – bax: *Torpaq vergisi.*

HÜQUQLARIN VAHİD DÖVLƏT REYESTRİ – dövlət qeydiyyatına alınmış mülkiyyət, müəlliflik, fəaliyyət, istifadə və sair hüquqlar barədə məlumatları əks etdirən reyestr.

X

XALİS AKTİVLƏR – fondun aktivləri ilə passivləri arasındakı fərq məbləği.

XALİS GƏLİR – fiziki şəxslərin əldə etdikləri gəlirdən vergi çıxıldıqdan sonra yerdə qalan məbləğ.

XALİS MƏNFƏƏT – mənfəət vergisi çıxıldıqdan sonra qalan mənfəət.

XAMMAL – ilk dəfə əmək prosesinə məruz qalan və sənaye məhsulları istehsalında istifadə edilən təbii və üzvi mənşəli əmək cisimləri. Xammal hər bir texnoloji prosesin əsas elementlərindən biri hesab edilir. Onun keyfiyyəti, yararlılığı və dəyəri müəyyən dərəcədə sənaye istehsalının əsas kəmiyyət və keyfiyyət göstəricilərini müəyyən edir.

XARİCİ DÖVLƏTLƏRİN NÜMAYƏNDƏLİKLƏRİNƏ VƏ ONLARIN ƏMƏKDAŞLARINA GÖMRÜK GÜZƏŞTLƏRİ – Xarici dövlətlərin AR-dəki diplomatik nümayəndəlikləri və onların əməkdaşları üçün AR GM-in 53-cü fəslində nəzərdə tutulmuş gömrük güzəştləri. Həmin fəsildə göstərilmişdir ki, xarici dövlətlərin AR-dəki diplomatik nümayəndəlikləri özlərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan malları və nəqliyyat vasitələrini, gömrük sərhədindən keçirilməsi qaydalarına riayət etmək şərti ilə, gömrük rüsumlarından, vergilərdən və digər gömrük ödənişlərindən azad olunmaqla gömrük ərazisinə gətirə və bu ərazidən apara bilərlər; bu qayda saxlanca görə ödənişlərə, habelə malların və nəqliyyat vasitələrinin gömrük orqanlarının iş vaxtından kənar saatlarda və iş yerindən kənarda gömrük nəzarətinin həyata keçirilməsinə görə aldığı gömrük ödənişlərinə şamil edilmir (AR GM, maddə 307). Xarici dövlətlərin diplomatik nümayəndəliklərinin başçıları və diplomatik heyətinin üzvləri, habelə onlarla birlikdə yaşayan ailə üzvləri şəxsi istifadə üçün nəzərdə tutulan malları və nəqliyyat vasitələrini, gömrük sərhədindən keçirilməsi qaydalarına riayət etmək şərti ilə, gömrük rüsumlarından, vergilərdən və digər gömrük ödənişlərindən azad edilməklə gömrük ərazisinə gətirə və bu ərazidən apara bilərlər; xarici dövlətlərin diplomatik nümayəndəliklərinin başçılarının, diplomatik heyətinin üzvlərinin, onlarla birlikdə yaşayan ailə üzvlərinin şəxsi baqajları gömrük baxışından azaddır. Xarici dövlətlərin diplomatik nümayəndəliklərinin başçılarının, diplomatik heyətinin üzvlərinin, onlarla birlikdə yaşayan ailə üzvlərinin şəxsi baqajlarında şəxsi istifadə üçün nəzərdə tutulmayan, gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması müvafiq qanunvericiliklə və beynəlxalq müqavilələrlə qadağan edilən, məhdudlaşdırılan malların mövcudluğu haqqında kifayət qədər əsaslar olduqda, gömrük orqanları həmin şəxslərin və ya onların səlahiyyətli nümayəndələrinin iştirakı ilə gömrük baxışı keçirirlər (AR GM, maddə 308). Xarici dövlətlərlə bağlanılan beynəlxalq müqavilələr əsasında

xarici dövlətlərin nümayəndəliklərinin diplomatik heyəti üçün nəzərdə tutulan güzəştlər, hər bir dövlətlə qarşılıqlı olmaq şərti ilə, bu nümayəndəliklərin AR vətəndaşı olmayan və ya daimi olaraq AR-də yaşamayan inzibati-texniki və xidmətçi heyətinin əməkdaşlarına və onların ailə üzvlərinə də şamil edilə bilər (AR GM, maddə 310). Xarici dövlətlərin konsulluq nümayəndəliklərinə, onların başçılarına, digər vəzifəli şəxslərinə və qulluqçularına, habelə göstərilən şəxslərin ailə üzvlərinə (həmin əməkdaşlar və onların ailə üzvləri AR vətəndaşı deyilsə və ya AR-də daimi yaşamırlarsa) xarici dövlətlərin diplomatik nümayəndəlikləri və ya diplomatik nümayəndəliyin müvafiq heyəti üçün də gömrük ödənişlərinə dair güzəştlər tətbiq edilir. Xarici dövlətlərlə bağlanılan beynəlxalq müqavilələr əsasında bu Məcəllədə xarici dövlətlərin nümayəndəliklərinin diplomatik heyəti üçün nəzərdə tutulan güzəştlər, hər bir dövlətlə qarşılıqlı olmaq şərti ilə, konsulluq nümayəndəliklərinin AR vətəndaşı olmayan və ya daimi olaraq AR-də yaşamayan xidmətçi heyət işçilərinə və onların ailə üzvlərinə də şamil edilə bilər (AR GM, maddə 311). Gömrük sərhədindən keçirilən xarici dövlətlərin diplomatik poçtunu və konsul valizini (çantasını) açmaq və gecikdirmək olmaz (AR GM, maddə 312.1). Xarici dövlətlərin diplomatik və konsulluq kuryerləri gömrük baxışından və gömrük ödənişlərindən qarşılıqlı azadolunma əsasında şəxsi istifadə üçün olan malları gömrük ərazisinə gətirə və bu ərazidən apara bilərlər (AR GM, maddə 313.1). Dövlətlərarası danışıqlarda, beynəlxalq konfranslarda, seminarlarda, müşavirələrdə iştirak etmək üçün və ya digər rəsmi tapşırıqla AR-ə gələn xarici dövlətlərin nümayəndələrinə, parlament və hökumət nümayəndə heyətlərinin üzvlərinə, həmçinin, qarşılılıq prinsipi əsasında xarici dövlətlərin nümayəndə heyətinin əməkdaşlarına xarici dövlətlərin diplomatik nümayəndəliklərinin heyət üzvləri üçün nəzərdə tutulan gömrük güzəştləri tətbiq edilir. Bu güzəştlər həmin şəxsləri müşayiət edən ailə üzvlərinə də şamil olunur (AR GM, maddə 314).

XARİCİ FİZİKİ ŞƏXS – AR-in vətəndaşı olmayan fiziki şəxs (əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər).

XARİCİ HÜQUQİ ŞƏXS – AR-in hüdudlarından kənarda yaradılmış hüquqi şəxs. Əmək funksiyalarını AR-də həyata keçirir; bu, nümayəndəlik və ya filial şəklində ola bilər.

XARİCİ HÜQUQİ ŞƏXSİN FİLİALI – AR-in hüdudlarından kənarda yaradılmış hüquqi şəxsin AR-də yaradılmış və onun səlahiyyətlərinin bir hissəsini icra edən qurumu.

XARİCİ İQTİSADİ FƏALİYYƏT – xarici ticarət fəaliyyəti, investisiya fəaliyyəti, o cümlədən istehsal kooperasiyası, malların, informasiyaların, işlərin, xidmətlərin, intellektual fəaliyyətin, habelə intellektual mülkiyyətin beynəlxalq mübadiləsi sahəsində əməkdaşlıq və digər fəaliyyət.

XARİCİ İQTİSADİ FƏALİYYƏTİN İŞTİRAKÇILARI – xarici iqtisadi fəaliyyətlə məşğul olan şəxslər.

XARİCİ İQTİSADİ FƏALİYYƏTİN MAL NOMENKLATURASI – Azərbaycan Respublikasının Hökuməti tərəfindən müəyyən edilən və dövlətin gömrük sərhədi vasitəsilə daşınan malların təsnifatlaşdırılmış sistemi. Xarici iqtisadi fəaliyyətin mal nomenklaturası malların dövlətin gömrük ərazisində idxalı və ixracı zamanı gömrük ödənişlərinin həyata keçirilməsi məqsədilə istifadə edilir.

XARİCİ İNVESTİSİYA – Xarici investorların mənfəət əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti və başqa növ fəaliyyət obyektlərinə qoyduqları əmlakın və əmlak hüquqlarının bütün növləri, o cümlədən intellektual fəaliyyətin nəticələrinə hüquqlar və əşya hüquqlarına aid olmayan digər hüquqlar.

XARİCİ İNVESTİSİYALI KOMMERSİYA TƏŞKİLATI – yalnız xarici investisiya əsasında yaradılmış kommersiya təşkilatı.

"XARICI İNVESTİSİYANIN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi prinsiplərini müəyyən edən Qanun. 1992-ci il 15 yanvar tarixli 57 nömrəli, 7 bölmə və 43 maddədən ibarət bu Qanun xalq təsərrüfatında xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl xarici texnikanın və texnologiyanın, idarəetmə təcrübəsinin cəlb olunmasına, bunlardan səmərəli istifadə edilməsinə yönəlmişdir və xarici investorların hüquqlarının müdafiəsinə təminat verir.

"Xarici investisiyanın qorunması haqqında" AR Qanununun bölmələri aşağıdakılardır:

1. Ümumi müddəalar.
2. Xarici investisiya üçün dövlət təminatı.
3. Xarici investisiya qoyulmuş müəssisələrin yaradılması və fəaliyyəti.
4. Xarici investorların qiymətli kağızlar əldə etməsi.
5. Xarici investorların torpaqdan istifadə hüquqlarını və başqa əmlak hüquqlarını əldə etməsi.
6. Sərbəst iqtisadi zonalarda xarici investisiya.
7. Yekun müddəalar.

Qanunda xarici investorların AR ərazisində investisiya qoymasının yolları da göstərilmişdir:

- AR-in hüquqi şəxsləri və vətəndaşları ilə birlikdə yaradılan müəssisələrdə, təşkilatlarda payçılıq iştirakı;
- tamamilə xarici investorlara məxsus olan müəssisələr yaradılması;
- müəssisələrin, əmlak komplekslərinin, binaların, qurğuların, müəssisələrdə iştirak payının, səhmlərin, istiqrazların və digər qiymətli kağızların, habelə AR qanunvericiliyinə müvafiq surətdə xarici investorlara məxsus ola bilən başqa əmlakın əldə edilməsi;
- torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, habelə digər əmlak hüquqlarının əldə edilməsi;
- AR-in hüquqi şəxsləri və vətəndaşları ilə xarici investisiya qoyuluşunun başqa formalarını nəzərdə tutan müqavilələr bağlanması.

XARİCİ İNVESTOR – özünə məxsus olan, borc götürdüyü və ya cəlb etdiyi maliyyə vəsaitini, maddi və

intellektual sərvətləri investisiya fəaliyyəti obyektlərinə qoymaq haqqında qərar qəbul edən, habelə onlardan istifadə olunmasını təmin edən subyekt. AR-də xarici investorlar aşağıdakılar ola bilər:

a) xarici hüquqi şəxslər;

b) xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xaricdə daimi yaşayış yeri olan AR vətəndaşları; bu şərtlə ki, onlar vətəndaşı olduqları və ya daimi yaşadıqları ölkədə təsərrüfat fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış olsunlar;

c) xarici dövlətlər;

ç) beynəlxalq təşkilatlar.

XARİCİ MALLAR – ölkədə istehsal olunmayan (mənşəyi xarici ölkə olan) mallar.

XARİCİ MALLARIN ÇIXARILMASI (EKSPORT) – xarici malların gömrük qanunvericiliyində və digər qanunvericilik aktlarında nəzərdə tutulan iqtisadi siyasət tədbirləri tətbiq edilmədən, hər hansı ödənişlər tutulmadan və ya idxal zamanı tutulmuş gömrük rüsumları və vergilər qaytarılmaqla ölkənin gömrük ərazisindən ixrac edilməsi.

XARİCİ ŞƏXSLƏR – xarici fiziki və ya hüquqi şəxslər.

XARİCİ ŞƏXSLƏRİN BƏZİ QRUPLARINA GÖMRÜK GÜZƏŞTLƏRİ – AR GM-ə əsasən, bir sıra qeyri-rezidentlərə, o cümlədən xarici dövlətlərin diplomatik və konsulluq nümayəndəliklərinə, dövlətlərarası və hökumətlərarası beynəlxalq təşkilatların nümayəndəliklərinə verilən azadolmalar.

XARİCİ TƏŞKİLAT – digər dövlətin qanunvericiliyinə əsasən yaradılmış hüquqi şəxs.

XARİCİ TƏŞKİLATIN DAİMİ NÜMAYƏNDƏLİYİ – AR-də qeyri-rezident hüquqi şəxsin və ya qeyri-rezident fiziki şəxsin 12 ay ərzində Azərbaycan Respublikasında üst-üstə 90 gündən az olmayaraq bilavasitə və ya müvəkkil edilmiş şəxs vasitəsilə tam və ya qismən sahibkarlıq fəaliyyətini həyata keçirdiyi yer.

XARİCİ TƏŞKİLATIN GƏLİRLƏRİNDƏN VERGİNİN VERGİ AGENTİ TƏRƏFİNDƏN TUTULMASI – vergi agentinin olduğu dövlətdə daimi nümayəndəlik yaratmadan fəaliyyət göstərən və həmin dövlətin mənbəyindən gəlirlər əldə edən qeyri-rezident hüquqi şəxsdən ödəmə mənbəyində verginin tutulması. Verginin tutulmaması üçün aşağıdakı hallardan birinin olması tələb olunur:

- qeyri-rezidentin həmin dövlətdə daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərməsinin sənədləşmiş sübutu;

- qüvvədə olan qanunvericilik aktlarına əsasən müvafiq imtiyazın həmin şəxsə şamil olunması;

- ikiqat vergiyə cəlb olunmanın aradan qaldırılması və müvafiq inzibati qayadara əsasən ilkin azadolma prinsipinin tətbiq edilməsi.

XARİCİ TƏŞKİLATIN TİKİNTİ MEYDANÇASI – vergi qanunvericiliyində xarici təşkilatın digər dövlətin ərazisində daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərindən mənfəət vergisinin tutulması məqsədilə istifadə olunan termin. Tikinti meydançası dedikdə, 12 aydan artıq tikinti aparılan istənilən ərazi başa düşülür. Belə ərazi aşağıdakıları əhatə edə bilər:

- daşınmaz əmlakın yenilərinin tikilməsini, köhnələrinin isə yenidən qurulmasını, genişlənməsini, təmirini;

- qurğuların, o cümlədən üzən qurğuların və qazma qurğularının, habelə binaların, qurğuların və ya üzən qurğuların konstruktiv elementlərinə möhkəm bərkitmə tələb edən maşın və avadanlıqların tikilmə, montaj, təmir, rekonstruksiya, genişlənmə yerini.

Bir qayda olaraq, vergitutma məqsədləri üçün tikinti meydançasının fəaliyyətinin başlanma tarixini müəyyən edərkən 2 tarixdən birini əsas götürürlər:

- tikinti meydançasının podratçıya verilməsi barədə akt imzalanan tarix;

- faktiki işlərin (hazırlıq işləri də nəzərə alınmaqla) başlama tarixi.

Tikinti meydançasının fəaliyyətinin başa çatma tarixi kimi isə təhvil-təslim aktının imzalandığı tarix qəbul olunur.

XARİCİ TİCARƏT – bax: *Beynəlxalq ticarət.*

XARİCİ TİCARƏT FƏALİYYƏTİ – dövlətin beynəlxalq ticarət əməliyyatlarına cəlb olunan fəaliyyəti.

XARİCİ TİCARƏT FƏALİYYƏTİ HAQQINDA QANUNVERİCİLİK – dövlətin beynəlxalq ticarət əməliyyatlarına cəlb olunan fəaliyyətini tənzimləyən və onun əsas prinsiplərini müəyyən edən qanunvericilik.

XARİCİ TİCARƏT FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ ORQANLARI – dövlətin xarici iqtisadi fəaliyyətinə nəzarəti həyata keçirən və xarici ticarətin həcminin artırılması məqsədilə kompleks tədbirlər həyata keçirən dövlət orqanları.

XARİCİ TİCARƏT FƏALİYYƏTİNİN KOORDİNASİYASI VƏ TƏNZİMLƏNMƏSİ ORQANI – xarici iqtisadi fəaliyyətin dövlət orqanları tərəfindən müəyyən müddətə verilən və müəyyən edilmiş kəmiyyətlərdə mal ixracını və idxalını nəzərdə tutan icazələr vasitəsilə tənzimlənməsi orqanı. Buraya lisenziyalaşdırma, kvotalaşdırma və digər tədbirlər aid edilir.

XARİCİ TİCARƏT RÜSUMLARI – malların gömrük ərazisinə gətirilməsi və bu ərazidən aparılması zamanı gömrük orqanları tərəfindən alınan gömrük ödənişlərinin bir növü.

XARİCİ TİCARƏT SİYASƏTİ – dövlət tərəfindən xarici ticarət fəaliyyəti sahəsində həyata keçirilən siyasət.

XARİCİ TİCARƏT YIĞIMLARI – xarici ticarətin tənzimlənməsi məqsədilə qanunvericilikdə müəyyən edilən gömrük rüsumlarının yığılması.

XARİCİ TİCARƏTİN GÖMRÜK STATİSTİKASI – AR-də xarici ticarətin cari vəziyyətini, dinamikasını, inkişaf meyillərini və perspektivlərini təhlil etmək, gömrük ödənişlərinin dövlət büdcəsinə daxil olmasına nəzarəti, valyuta və ixrac nəzarətini həyata keçirmək məqsədi ilə malların gömrük sərhədindən keçirilməsi barədə məlumatların toplanması, təhlili, elektron üsullarla işlənməsi.

Xarici ticarətin gömrük statistikası xarici ticarət əlaqələri barədə məlumatların müqayisəliliyini təmin edən metodologiya əsasında aparılmalıdır. Xarici ticarətin gömrük statistikası müəyyən edilmiş qaydada və müd-

dətdə nəşr olunmalıdır (AR GM, maddə 317).

XARİCİ VALYUTA – a) müvafiq xarici dövlətin və ya dövlətlər qrupunun ərazisində tədavüldə olan və qanuni ödəniş vasitəsi sayılan, eləcə də tədavüldən çıxarılmış və ya çıxarılan, lakin həmin ərazidə tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən banknotlar, xəzinə biletləri və sikkələr şəklində pul nişanları; b) xarici dövlətin pul vahidlərində, beynəlxalq pul və ya hesablaşma vahidlərində hesablarda olan vəsaitlər.

XARİCİ VALYUTA İLƏ İFADƏ OLUNAN KAĞIZ PULLARIN VƏ ÖDƏNİŞ SƏNƏDLƏRİNİN ALINMASINA VERGİ – bəzi ölkələrdə xarici valyutaların kağız əsginazlarının və ödəniş sənədlərinin alınmasına tətbiq edilən vergi.

XARİCİ VALYUTANIN ALQI – SATQI ƏMƏLİYYATLARINDAN GƏLİRLƏR – hüquqi şəxslərin mənfəət vergisi üzrə vergitutma obyekti olmaqla qeyri-satış əməliyyatlarından gəlirlər. Xarici valyutanın satışından (alışından) gəlir əməliyyatın aparıldığı tarixdə valyutanın satış (alış) kursunun Mərkəzi Bankın müəyyən etdiyi rəsmi məzənnədən yuxarı olduqda yaranır.



XARİCİ VƏTƏNDAŞLAR – AR-in vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxslər.

XARİCİ VƏTƏNDAŞLARIN AYRI-AYRI KATEQORİYALARININ GƏLİRLƏRİ – beynəlxalq təşkilatların əməkdaşlarına, onların ailə üzvlərinə və xidmətedici personalına diplomatik toxunulmazlıq və imtiyazların, vergi imtiyazlarının verilməsi barədə dövlətin qoşulduğu beynəlxalq müqavilələrin normalarının əhatə dairəsinə düşən xarici vətəndaşların gəlirləri.

XEYRİYYƏ TƏŞKİLATI – xeyriyyəçilik fəaliyyətini həyata keçirən qeyri-kommersiya təşkilatı.

XEYRİYYƏ TƏŞKİLATLARININ GƏLİRİ – xeyriyyəçilik fəaliyyətini həyata keçirən qeyri-kommersiya təşkilatlarının gəliri.

XEYRİYYƏÇİLİK FƏALİYYƏTİ – fiziki şəxs və (və ya) xeyriyyə təşkilatı tərəfindən həyata keçirilən və maddi və ya digər köməyə (yardıma) ehtiyacı olan fiziki şəxslərə və ya bilavasitə bu cür kömək (yardım) göstərən təşkilatlara, o cümlədən xeyriyyə təşkilatlarına birbaşa bu cür təmənnasız kömək (yardım) göstərməkdən, o cümlədən əvəzsiz pul köçürməkdən ibarət olan fəaliyyət, yaxud digər hallar nəzərdə tutulmamışdırsa, ictimai mənafelər naminə həyata keçirilən elmi, təhsil və ya başqa fəaliyyət.

Kömək (yardım) göstərilməsi AR VM-in 13.2.35 maddəsinə görə aşağıdakı hallarda xeyriyyəçilik fəaliyyəti sayılmır:

- bu cür köməyi (yardımı) alan şəxs köməyi (yardımı) göstərən şəxsin qarşısında mülkiyyət və ya qeyri-mülkiyyət xarakterli öhdəlik (alınan vəsaitdən və ya əmlakdan məqsədli təyinatla istifadə olunmasına dair öhdəlikdən başqa) qəbul edirsə;

- bu cür köməyi (yardımı) alan və köməyi (yardımı) göstərən şəxslər qarşılıqlı surətdə asılı olan şəxslər sayılırlarsa;

- bu cür kömək (yardım) hər hansı fiziki və ya hüquqi şəxsə seçki kampaniyasında iştirak etmək üçün göstərilirsə.

XƏRAC – Ərəb Xilafəti dövründə əsas vergilərdən biri. Əvvəllər torpağı olanlardan alınırdı. Sonralar pul və ya natura şəklində bütün torpaq vergilərinin cəmi oldu.

XƏRC – iqtisadi subyektlər tərəfindən hər hansı bir fəaliyyətin həyata keçirilməsi zamanı iqtisadi resursların dəyərinin pulla ifadəsi.

XƏTTİ ÜSUL – avadanlığın köhnəlməsi ilə bağlı amortizasiya məbləğinin hesablanması üsulu. Bu üsul tətbiq edildikdə, əsas vəsaitin illik köhnəlmə dəyəri, yəni amortizasiya norması aşağıdakı qayda ilə hesablanır: əsas vəsaitin dəyərindən qalıq dəyəri çıxılır və alınan məbləğ əsas vəsaitin istifadə müddətinə bölünür; burada əsas vəsaitin dəyəri – onun alınması zamanı çəkilən bütün xərclər, başqa sözlə, balansda əks etdirilən dəyər, qalıq dəyəri – əsas vəsaitin istifadə müddətinin bitməsi zamanı onun satılacağı dəyər, əsas vəsaitin istifadə müddəti – əsas vəsaitin istifadə ediləcəyi illərin sayıdır.

XİDMƏT – malların təqdim edilməsi sayılmayan, nəticələri maddi ifadə kəsb edən fəaliyyət. AR VM-in 13.2.11 maddəsinə görə, xidmətlərin göstərilməsi (işlərin görülməsi) zamanı istifadə olunan mallar ayrıca təqdim edilmirsə və ya xidmətin (işin) dəyərinə daxil edilməyən kompensasiyalı xərclər müqavilədə və ya ödəniş sənədlərində ayrıca göstərilmirsə, həmin mallar və ya xərclər xidmətin (işin) ayrılmaz tərkib hissəsi hesab edilir.

XİDMƏTÇİ HEYƏTİN ÜZVÜ – bilavasitə istehsal və idarəetmə prosesində iştirak etməyən, yalnız xidmətedici fuksiyaları icra edən şəxs.

XİDMƏTİ İNFORMASİYA – yalnız xidməti istifadə üçün nəzərdə tutulan informasiya.

XIRDA BİZNESƏ VƏ XİDMƏT SAHƏLƏRİNƏ VERGİ QOYULUŞUNA NƏZARƏT ÜZRƏ REGİONLARARASI TƏFTİŞ – RF-də xırda biznes və xidmət sahələrində vergitutmaya nəzarətin həyata keçirilməsi məqsədilə yaradılmış regionlararası təftiş.

XIRDA SAHİBKARLIQ ÜÇÜN VERGİQOYMA, UÇOT VƏ HESABATIN SADƏLƏŞDİRİLMİŞ SİSTEMİ – kiçik və orta sahibkarlıq subyektlərində vergi yükünün azaldılmasına, vergi uçotunun aparılmasının və vergi öhdəliklərinin bəyan edilməsinin yüngülləşdirilməsinə istiqamətlənən və vergi ödəyiciləri üçün məcburi xarakter daşımayan alternativ xüsusi vergitutma rejimi. AR-də 3 formada mövcuddur, onlardan ikisi müəyyənləşdirilmiş fəaliyyət növləridir:

- avtonəqliyyat vasitələri ilə yük və sərnişin daşımaları üzrə fəaliyyət;

- mənzil tikintisi üzrə fəaliyyət.

Üçüncüsü isə müəyyən edilmiş müddət ərzində nəzərdə tutulmuş həddi keçməyən vergi ödəyicilərini əhatə edir.

Eyni zamanda, respublikamızın ərazilərinin vergi potensialını nəzərə alaraq sadələşdirilmiş verginin tətbiqində vergi dərəcələrinin diferensiallaşdırılmasından da istifadə olunur.

XRONOMETRAJ – vergi orqanları tərəfindən vergi ödəyicilərinin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin saxlanılması ilə bağlı olan istehsal, anbar, ticarət və digər binalarda qanunvericiliklə müəyyən edilmiş qaydada müşahidə aparılması metodu.

XÜMS – İslamda vergi. Ərəbcə "beşdə bir" deməkdir. Əldə olunan qənimət və qazancın, eləcə də illik gəlirin beşdə bir hissəsi vergi kimi ödənilir.

XÜSUSİ BƏYANNAMƏ – xarici subpodratçılardan ödəmə mənbəyində tutulan vergi bəyannaməsi; xüsusi vergi rejimli müəssisələrin mənfəət vergisinin bəyannaməsi.

"XÜSUSİ FƏRQLƏNMƏ NİŞANI"- vergi ödəyicilərinin mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri üçün xüsusi nişan. İstehsal fəaliyyətinin təmin olunması üçün işçilərinin və özünə məxsus yüklərin daşınmasında vergi ödəyicilərinin istifadə etdiyi avtonəqliyyat vasitələri sadələşdirilmiş vergiyə cəlb edilmir və bu nəqliyyat vasitələri üçün "Xüsusi fərqlənmə nişanı" alınır. "Fərqlənmə nişani"nda olan bütün məlumatlar "Xüsusi fərqlənmə nişanı"nda da olur. Bu nişan mülkiyyətində avtomobil nəqliyyatı vasitələri olan vergi ödəyicilərinin müraciətindən sonra beş iş günü ərzində heç bir haqq alınmadan AR NN tərəfindən verilir. "Xüsusi fərqlənmə nişanı" almış vergi ödəyiciləri avtomobil nəqliyyatı vasitələrini satarkən və ya icarəyə verərkən, yaxud digər məqsədlər üçün istifadə edərkən ən azı bir iş günü əvvəl nişanı onu vermiş orqana qaytarmalıdır. Xüsusi təyinatlı, habelə dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, yerli özünüidarəetmə orqanlarının, AR MB-nin, HPB, əsas ixrac boru kəməri haqqında və bu qəbildən olan digər sazişlər çərçivəsində fəaliyyət göstərən xarici podratçıların və subpodratçıların, dövlət fondlarının, xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan avtomobil nəqliyyatı vasitələri üçün "Xüsusi fərqlənmə nişanı" alınmır və bu cür avtonəqliyyat vasitələrinin sahibləri həmin nəqliyyat vasitələri barədə AR NN-ə məlumat verirlər.

XÜSUSİ FONDLAR – müəssisə və təşkilatlarda istehsalın stimullaşdırılmasının təmin olunması məqsədilə formalaşan məqsədli fondlar. Fondlar öz məqsədi və formalaşma mənbəyinə görə fərqlənirlər. Onlara nümunə kimi, maddi həvəsləndirmə fondunu, sosial-mədəni tədbirlər və mənzil tikintisi fondunu, istehsalın inkişaf fondunu və s. qeyd etmək olar.

XÜSUSİ GÖMRÜK STATİSTİKASI – gömrük orqanlarının üzərinə qoyulan vəzifələrin icrası məq-

sədilə müvafiq icra hakimiyyəti tərəfindən müəyyənləşdirilən qaydada aparılan və yalnız gömrük məqsədləri ilə istifadə olunan göstəricilərin məcmusu.

XÜSUSİ İQTİSADİ ZONA (XİZ) – ümumən dövlətin və ya onun ayrıca ərazisinin inkişafının strateji məsələlərinin həlli məqsədilə yaradılan, xüsusi statusa malik olan və yerli və xarici sahibkarlar üçün güzəştli iqtisadi şərtlər verən ərazi. XİZ-lər yerinə yetirilən funksiyalar üzrə (azad ticarət zonası, sənaye-istehsal zonası, turist rekreasiya zonaları, servis zonaları, kompleks zonaları), iqtisadiyyata inteqrasiya səviyyəsinə görə (inteqrasiya olunmuş, anklav) və təqdim edilən güzəştlərin (vergi, idxal və ya ixrac, gömrük, maliyyə, inzibati) sistemlərinə uyğun olaraq təsnifatlaşdırıla bilər.

XÜSUSİ KAPİTAL – mahiyyətinə görə xüsusi kapital, daha doğrusu, səhmdar kapital şirkətin sahib olduğu bütün aktivlərin balans dəyərlərinə və şirkətə məxsus olmayan öhdəliklərə əsasən qiymətləndirilmiş səhmdarların şirkətdəki investisiyalarının (sərmayə qoyuluşlarının) dəyəri.

XÜSUSİ RAZILIQ – təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsə müvafiq sahibkarlıq fəaliyyəti növlərini həyata keçirməyə icazə verən rəsmi sənəd.

XÜSUSİ REGİONLARARASI TƏFTİŞLƏR – bəzi ölkələrdə ayrı-ayrı sahələrdə vergi orqanlarının həyata keçirdiyi operativ vergi nəzarəti.

XÜSUSİ RÜSUMLAR – dövlətin iqtisadi maraqlarının qorunması məqsədilə ixrac və idxal edilən mallara qa-



Çin Xalq Respublikasında Azad İqtisadi Zona – Şanxay

nunvericilklə müəyyən edilən qaydada tətbiq edilən rüsumlar. Bu rüsumlar aşağıdakı hallarda tətbiq olunur:

- mallar AR gömrük ərazisinə bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vuran və ya ziyan vura biləcək kəmiyyətdə və şərtlərlə gətirildiyi təqdirdə müdafiə tədbiri kimi;

- digər dövlətlərin və onların ittifaqlarının Azərbaycan dövlətinin mənafeyinə toxunan ayrı-seçkilik və digər hərəkətlərinə cavab tədbiri kimi.

XÜSUSİ RÜSUMSUZ TİCARƏT MAĞAZALARI – mallardan gömrük rüsumları, vergilər alınmadan və onlara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən gömrük ərazisində (beynəlxalq hava və dəniz limanlarında və gömrük orqanları tərəfindən müəyyən edilən digər yerlərdə) həmin malların gömrük nəzarəti altında satılmasından ibarət gömrük rejimi.

XÜSUSİ TİCARƏT TƏDBİRLƏRİ – azad ticarət zonalarının yaradılması haqqında sazişdə qeyd olunan, mahiyyəti sazişə qoşulmuş dövlətlərin iqtisadiyyatına ziyan vurmaq təhlükəsi meydana çıxarkən həmin dövlət tərəfindən əmələ gəlmiş təhlükənin aradan qaldırılmasına tələb olunan müddətə məhdudlaşdırıcı kvotalar və ya xüsusi idxal rüsumlarının, kompensasiyalı rüsumların, antidempinq rüsumlarının tətbiqindən ibarət tədbirlər komleksi.

XÜSUSİ VERGİ REJİMİ – vergi qanunvericiliyində nəzərdə tutulan hallarda müəyyən dövr ərzində vergilərin hesablanmasının xüsusi qaydası. Bu rejimlərin nümunəsi kimi aşağıdakıları qeyd etmək olar:

- kənd təsərrüfatı məhsullarının istehsalına tətbiq olunan vergitutma rejimi;

- kiçik sahibkarlıqla məşğul olan şəxslərə tətbiq olunan sadələşdirilmiş vergitutma sistemi;

- gəlirə tətbiq olunan vahid vergi;

- hasilatın pay bölgüsü üzrə sazişlərdə və onlara uyğun tərtib olunan müvafiq protokollarda nəzərdə tutulan vergitutma rejimi.

XÜSUSİ VERGİ STATUSUNA MALİK KOMPANİYA – beynəlxalq vergi planlaşdırılmasında qeydiyyat zamanı və ya sonra xüsusi güzəştli vergi statusu əldə etmiş milli şirkət mənasını verən anlayış. Qeydiyyat zamanı müvafiq statusu almış şirkətlərə beynəlxalq işğuzar şirkətlər, offşor şirkətlər və beynəlxalq şirkətlər, qeydiyyatdan sonra şərti güzəştli şirkətlər və vergilərdən azad edilmiş şirkətlər aid edilir.

XÜSUSİLƏŞMİŞ BÖLMƏLƏRİ OLAN VERGİ ÖDƏYİCİSİ – mənfəət vergisinin hesablanması və ödənilməsi qaydasında, habelə ödəmə qaydasında müəyyən xüsusiyyətlərlə fərqlənən xüsusiləşmiş bölmələri olan və mənfəət vergisi üzrə vergi ödəyicisi olan təşkilat.

İ

İANƏ – ayrı-ayrı şəxslərə və ya təşkilatlara könüllü olaraq yardım etmək məqsədilə verilən pul məbləği. Ərəb sözüdür, kömək, yardım deməkdir. Yoxsullara imkanlı adamlar tərəfindən verilən ianə sədəqə adlanır. AR VM-ə görə, qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları ilə birlikdə ianələr də vergidən azaddır (AR VM, maddə 106.1.2).

İCARƏ – əmlaka, torpağa və digər təbii ehtiyatlara müqavilə əsasında, əvəzi ödənilməklə müddətli sahib olmaq və bunlardan istifadə etmək.

İCARƏ HAQQI – icarə müqaviləsinə görə kirayəyə verənin (icarəyə verənin) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadəyə, habelə bəhərdən istifadə etmək və gəlir götürmək hüququna görə ödəməyə borclu olduğu, tərəflərin razılığı ilə natura, pul formalarında və ya qarışıq formada təyin edilən haqq.

İCARƏ MÜQAVİLƏSİ – əmlak kirayəsi müqaviləsi. Bu müqaviləyə görə, kirayəyə verən (icarəyə verən) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı bəhərdən istifadə etmək və gəlir götürmək hüququ da verilir. İcarəçi icarəyə verənə müəyyənləşdirilmiş icarə haqqı ödəməyə borcludur. İcarə predmeti torpaq sahələri, binalar, daşınar əşyalar, hüquqlar və müəssisələr ola bilər.

İCBARI ÖDƏNİŞ – vergilər və digər məcburi ayırmaların, o cümlədən, cərimələr, tətbiq edilmiş maliyyə sanksiyalarıın dövlət büdcəsinə ödəmək öhdəliyi.

İCMAL BÜDCƏ – dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin, büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlarının, büdcədənkənar dövlət fondlarının gəlir və xərclərinin funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində icmalı.

İDENTİK MALLAR – eyni cinsli, yaxud bənzər (oxşar) mallar.

İDXAL – ölkənin daxili bazarında reallaşdırmaq üçün əmtəələrin, xidmətlərin, texnologiyaların və kapitalın xaricdən gətirilməsi, istehsal və istehlak təyinatlı xidmətlərin xarici tərəfdaşlardan ödənilməklə alınması, başqa sözlə, xarici malların və ya kreditlərin və istiqrazların verilməsi, xarici şirkətlər tərəfindən müəssisələrin (valyuta idxalı) alqısı formasında ölkəyə gətirilməsi, xarici şəxslərin, firmaların, təşkilatların xidmətlərindən pullu istifadə.

İDXAL VERGİLƏRİ – dövlətin gömrük ərazisinə daxil olarkən qanunvericiliyin tələblərinə uyğun gömrük orqanlarının vasitəsi ilə həmin dövlətin büdcəsinə ödənilməli olan vergilər. AR-də idxal vergilərinə əlavə dəyər vergisi, aksizlər və yol vergisi aid edilir.

İDXAL VƏ İXRACIN MİQDARININ MƏHDUDLAŞDIRILMASI – RF-də tətbiq edilən tarifsiz tənzimləmə metodudur (“Xarici ticarət fəaliyyətinin dövlət tənzimlən-

məsi haqqında" RF Qanunu). RF-də idxal və ixrac miqdar məhdudiyyəti olmadan həyata keçirilir. İdxal və ixracın miqdarının məhdudlaşdırılması yalnız xüsusi hallarda RF hökuməti tərəfindən tətbiq edilə bilər: RF-in milli təhlükəsizliyinin təminatı məqsədi ilə; daxili mal bazarında vəziyyətləri nəzərə alaraq RF-nin beynəlxalq öhdəliklərinin yerinə yetirilməsi məqsədi ilə; RF daxili bazarının müdafiəsi məqsədi ilə. İxracın miqdarının məhdudlaşdırılmasının tətbiqi "Məhsul bölgüsü sazişləri haqqında" RF Qanununa uyğun olaraq bağlanmış sazişlər üzrə investorun mülkiyyəti olan mineral xammalın ixracının təmin edilməsi sahəsində RF-nin öz öhdəliklərinin icrası nəzərə alınmaqla həyata keçirilir.

İdxal və ixracın miqdarının məhdudlaşdırılmasının tətbiqi haqqında RF hökumətinin qərarı bu məhdudlaşdırmanın qüvvəyə minməsinə qədər üç aydan gec olmayan müddət qalanadək qəbul edilir və rəsmi dərc olunur.

Miqdar məhdudlaşdırılması zamanı kvotaların bölgüsü və lisenziyaların verilməsi, bir qayda olaraq, müsabiqə və ya hərracın keçirilməsi yolu ilə, yaxud xarici ticarət fəaliyyətinin tənzimlənməsi üzrə federal orqan tərəfindən istehsalçı təşkilatlara üstün hüquq verilməklə kvotanın məbləğinin icrasına qədər idxal və ixrac üzrə əməliyyatların aparılması qaydasında həyata keçirilir. Müsabiqənin və ya hərracın keçirilməsinin qaydaları RF hökuməti tərəfindən müəyyən edilir. Belə müsabiqənin və ya hərracın iştirakçılarının sayının məhdudluğuna və onların mülkiyyət formasına, qeydiyyata alınma yerlərinə və bazarda mövqeyinə görə diskriminasiyasına yol verimir.

İDXALIN GÖMRÜK RÜSUMU – idxal zamanı gömrük orqanları tərəfindən müvafiq qanunvericiliyə uyğun olaraq tutulan rüsum.

İXRAC – malların, işlərin, xidmətlərin, intellektual fəaliyyətin nəticələrinin (o cümlədən bu nəticələr barəsində müstəsna hüquqların) və kapitalın ölkə ərazisinə yenidən gətiriləcəyi barədə öhdəliklər olmadan onların ölkənin iqtisadi ərazisindən daşınıb aparılması. Malların və xidmətlərin ölkə sərhədindən çıxarılmadan onların əcnəbi hüquqi və fiziki şəxslərə satılması da ixraca aiddir.

İXRAC GÖMRÜK RÜSUMU – ixrac zamanı gömrük orqanları tərəfindən müvafiq qanunvericiliyə uyğun olaraq tutulan rüsum. AR-dən ixrac zamanı ixrac gömrük rüsumuna cəlb olunan malların siyahısı və ixrac rüsumlarının dərəcələri AR NK-nın 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmişdir.

İXRAC KVOTASI – xalq təsərrüfatı, ayrı-ayrı sahələr və ya müəssisələr üçün əmtəə və xidmətlərin ixracının əhəmiyyətini xarakterizə edən kəmiyyət göstəricisi (yəni ölkənin ÜDM-ində ixracın payı).

İXRAC MÜKAFATI – müəyyən malların ixracatçılarına tətbiq olunan maliyyə güzəşti. İxrac mükafatı vasitəsilə malların ixracı stimullaşdırılmaqla yanaşı, ixracatçılara malların xarici bazarlara daha aşağı qiymətlərə çıxarılması imkanının yaradılması ilə malların rəqabətə davamlılığı artırılır.

İXRAC NƏZARƏTİ – malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) AR ərazisinə gətirilməsi, bu ərazidən çıxarılması və tranzitinin AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydalara uyğun həyata keçirilməsini təmin edən tədbirlər kompleksi. Hüquqi və fiziki şəxslərdən alınmış ixrac nəzarətinə aid sənəd və məlumatların və ya onların məzmununun açıqlanması və ya üçüncü şəxslərə verilməsi AR CM-in 202-1 maddəsinə görə 100 man.-dan 500 man.-dək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır; eyni əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə 500 man.-dan 1000 man.-dək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

"İXRAC NƏZARƏTİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – dövlət orqanları tərəfindən ixrac nəzarətinin həyata keçirilməsinin hüquqi əsaslarını və ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) AR-in gömrük sərhədindən keçirilməsi qaydalarını müəyyən edən Qanun. 2004-cü il 26 oktyabr tarixli 772-IIQ nömrəli bu Qanun 14 maddədən ibarətdir.

İXRAC NƏZARƏTİ SAHƏSİNDƏ QANUNVERİCİLİK – AR-in ixrac nəzarəti üzrə qanunvericiliyi AR Konstitusiyasından, "İxrac nəzarəti haqqında" AR Qanunundan, AR-in gömrük işi, əhalinin sanitar-epidemioloji və radiasiya təhlükəsizliyi haqqında qanunvericiliyindən və digər müvafiq normativ hüquqi-aktlardan ibarətdir. AR-in tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələrlə bu qanunlar arasında ziddiyyət yarandıqda, həmin beynəlxalq müqavilələr tətbiq olunur.

İXRAC NƏZARƏTİ SİSTEMİ – ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı, tranziti əməliyyatlarının aparılması qaydaları. "İxrac nəzarəti haqqında" AR Qanununa görə, AR-in ixrac nəzarəti sisteminə daxildir:

- ixrac nəzarəti üzrə qanunvericilik aktları;
- ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) siyahısının müəyyən edilməsi;
- ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ayrı-ayrı dövlətlərə ixrac rejimlərinin müəyyən edilməsi;
- ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracının, idxalının, təkrar ixracının, təkrar idxalının, tranzitinin xüsusi icazə əsasında həyata keçirilməsi;
- ikili təyinatlı malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) sifariş edilmiş məqsədlər üçün istifadəsinə nəzarət;
- xüsusi icazə verilməsindən əvvəl və sonra ixrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xarici iqtisadi əməliyyatların aparılmasına nəzarət;
- beynəlxalq təşkilatlarla və xarici dövlətlərin ixrac nəzarəti orqanları ilə məlumat mübadiləsi və digər qarşılıqlı əlaqələr;

- ixrac nəzarəti sisteminin fəaliyyəti üzrə ictimaiyyətə ümumi, habelə spesifik məlumatın verilməsi;

- ixrac nəzarəti sisteminin fəaliyyəti barədə ictimai rəyin öyrənilməsi.

İxrac nəzarətinə düşən malların AR-in gömrük sərhədindən keçirilməsinə nəzarəti AR-in gömrük orqanı həyata keçirir.

İXRAC NƏZARƏTİNİN FİRMADAXİLİ PROQRAMI – ixrac nəzarəti qaydalarına əməl olunması məqsədilə təşkilatlar tərəfindən həyata keçirilən təşkilati, inzibati, məlumat və digər xarakterli tədbirlər.

İXRAC NƏZARƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNİN MƏQSƏDLƏRİ VƏ PRİNSİPLƏRİ – "İxrac nəzarəti haqqında" AR Qanununun 4-cü maddəsində göstərilmiş məqsəd və prinsiplər. Bu məqsəd və prinsiplər aşağıdakılardır:

- AR-in milli təhlükəsizliyinin təmin edilməsi;

- ixrac nəzarətinin həyata keçirilməsində AR-in siyasi, hərbi və iqtisadi maraqlarının təmin edilməsi;

- AR-in tərəfdar çıxdığı kütləvi qırğın və başqa növ silahların yayılmaması barədə dövlətlərarası beynəlxalq müqavilələr üzrə öhdəliklərə riayət edilməsi;

- kütləvi qırğın silahlarının yayılmaması rejimi çərçivəsində nəzarətə düşən malın (işin, xidmətin, əqli fəaliyyətin nəticələrinin) son istifadəçisinin, aralıq tərəflərin və texnologiya səviyyəsinin yoxlanılması;

- ixrac nəzarəti haqqında qanunvericiliyə, habelə ixrac nəzarəti siyasətinin aparılmasına dair məlumatların açıqlığı.

İXRACA DÖVLƏT İNHİSARI – RF-də "Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi haqqında" Qanuna uyğun olaraq tətbiq edilən qeyritarif tənzimləməsi metodu. Dövlət inhisarında olan idxal-ixrac mallarının siyahısı federal qanunlarla müəyyən edilir.

İXRACAT VERGİSİ – AR-də istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən dövlət büdcəsinə ödənilməsi müəyyən edilən yığım.

İXTISASLAŞDIRILMIŞ HƏRRAC – bir və ya bir neçə qrup malların satışını həyata keçirən hərrac.



ABŞ , Nyu-York , ixtisaslaşmış "Sotbis" hərrac evi

İKİLİ MÜHASİBATLIQ – mühasibat uçotunun aparılmasının elə metodudur ki, bu zaman hər bir təsərrüfat, maliyyə əməliyyatları barədə ikili yazılış edilir. Əməliyyat eyni bir məbləğ olmaqla bir hesabın debetində, digər hesabın isə kreditində əks etdirilir. Belə yazılış zamanı hesablar arasında onların müxabirləşməsi adlanan qarşılıqlı əlaqə yaranır.

İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI – eyni gəlirlər və ya əmlak elementinin iki dövlətdə eyni vergiyə cəlb edilməsinə gətirib çıxaran halların aradan qaldırılmasına yönəlmiş tədbirlər. Bir çox dövlətlərin daxili qanunvericiliklərində həmin dövlətlərin vergi rezidentlərinin xaricdən əldə etdikləri gəlirlərinə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında müddəaların nəzərdə tutulduğuna baxmayaraq, daxili qanunvericilikdəki birtərəfli tədbirlər istənilən nəticəni vermir. Bu səbəbdən də ikiqat vergitutmanın aradan qaldırılması məqsədilə ikitərəfli beynəlxalq müqavilələrin bağlanması təcrübəsi geniş tətbiq edilir.

İQTA TORPAQLARI – xidmət əvəzinə verilən torpaqlar. Ərəb Xilafətində (VII-IX əsrlər) torpaq sahibliyinin formalarından biridir.

İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATI (İƏİT) – demokratiya və bazar iqtisadiyyatına sadiq olan dünya ölkələrinin hökumətlərini aşağıdakı məqsədlər üçün birləşdirən təşkilat:

- sabit iqtisadi artımı təmin etmək;
- məşğulluq səviyyəsini artırmaq;
- yaşayış səviyyəsini qaldırmaq;
- maliyyə sabitliyini saxlamaq;
- digər ölkələrin iqtisadi inkişafına yardım etmək;
- dünya ticarətinin inkişafına öz töhfəsini vermək.

Təşkilat hökumətlərə siyasət təcrübələrini müqayisə etmək, ümumi problemlərin həllini axtarmaq, ən qabaqcıl təcrübəni müəyyən etmək və daxili və beynəlxalq siyasəti koordinasiya etmək üçün zəruri şərait yaradır. İƏİT-in 34 üzvü var: bu ölkələrdən 20-si 14 dekabr 1960-cı ildə – təşkilatı təsis edən Konvensiya imzalandıqda üzv olmuş, digərləri isə sonrakı illərdə qoşulmuşdur. İƏİT Konvensiyasının Əlavə Protokolunda, ona imza edən ölkələr qərara almışdılar ki, Avropa Birliyi Komissiyası təşkilatın "işində iştirak etməlidir". Bu iştirak sadə müşahidəçi statusundan kənara çıxır və faktiki olaraq Komissiyaya kvaziüzv statusu verir. Qeyri-üzvlərlə Əməkdaşlıq Mərkəzi İƏİT-in üzvü olmayan ölkələrlə qlobal əməkdaşlığın istiqamətlərinin strategiyasını inkişaf etdirir və müşahidə edir.

İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATININ VERGİ MƏSƏLƏLƏRİ ÜZRƏ ŞƏFFAFLIQ VƏ MƏLUMAT MÜBADİLƏSİNƏ DAİR QLOBAL FORUMU – Qlobal Forum 2000-ci ildən



bəri həm İƏİT-ə üzv, həm də OECD-yə üzv olmayan ölkələr tərəfindən şəffaflıq və məlumat mübadiləsi sahəsində fəaliyyət göstərilən çoxtərəfli çərçivə rolunu oynayır. Qlobal Forumun əsas nailiyyətlərindən biri 2002-ci ildə Vergi məqsədləri üçün Məlumat Mübadiləsi Model Sazişinin tərtib edilməsi olmuşdur.

Hazırda 107 ölkə Forumun üzvüdür.

Forumun tərkibində 9 müşahidəçi təşkilat mövcuddur.

İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATININ VERGİ SAZİŞLƏRİ ÜZRƏ QLOBAL FORUMU – Vergi sazişləri üzrə Qlobal Forum hər il İƏİT-ə üzv olan və üzv olmayan dövlətlərin vergi orqanlarında vergi sazişləri üzrə danışıqların aparılması ilə məşğul olan əməkdaşlarını bir araya toplayan və beynəlxalq ikiqat vergitutma sahəsində baş verən yeniliklər, ikiqat vergitutmanın aradan qaldırılmasına dair İƏİT Model Konvensiyası ilə bağlı mövcud olan ziddiyyətli məqamlar, təklif edilən əlavə və dəyişikliklər layihələri ilə bağlı müzakirələrin təşkil edildiyi qurumdur. Forumun işində AR Vergilər Nazirliyinin də nümayəndələri müntəzəm olaraq iştirak edirlər.

İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATININ VERGİ SİYASƏTİ VƏ İNZİBATÇILIĞI MƏRKƏZİ – İƏİT Katibliyinin tərkibinə daxil olan Vergi Siyasəti və İnzibatçılığı Mərkəzi təşkilatın vergitutma məsələləri ilə məşğul olan əsas orqanıdır. Mərkəz Fiskal Məsələlər Komitəsini texniki dəstəklə təmin edir. Mərkəzin əsas funksiyaları beynəlxalq və daxili vergilərlə bağlı məsələlər, birbaşa və dolayı vergilər, vergi siyasəti və vergi inzibatçılığının təkmilləşdirilməsidir. VSİM-in statistik nəşrləri üzv dövlətlərin, eləcə də üzv olmayan dövlətlərin vergi dərəcələrinin müqayisə olunmasına əlverişli zəmin yaradır. Mərkəz həmçinin bütün üzv dövlətlərin vergi sistemlərinin əsas parametrlərini özündə əks etdirən Vergi Məlumat Bazasının da yaradıcısıdır. Mərkəz, həmçinin, İƏİT-in vergi məsələləri ilə məşğul olan digər qurumları ilə də qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

İQTİSADİ MƏNAFELƏRİN MÜDAFİƏSİ TƏDBİRLƏRİ – "İqtisadi mənafelərin müdafiəsi üzrə tədbirlər haqqında" RF Qanunu ilə nəzərdə tutulmuş tədbirlər. Bu tədbirlərə aşağıdakılar daxildir:

- xüsusi müdafiə tədbirləri;
- antidempinq tədbirləri;
- kompensasiya tədbirləri;
- malların idxalının məhdudiyyəti;
- malların ixracı vaxtı RF-nin iqtisadi maraqlarının müdafiəsi üzrə tədbirlər.

Ölkənin iqtisadiyyatına, iqtisadiyyatın sahələrinin inkişafına və ya malların istehlakçılarının mühüm hissəsinin maraqlarına zərər vura bələcəyi və ya ümumdövlət əhəmiyyətinə malik olan başqa səbəblər olduqda, qəbul edilməsi üçün meyarlara və prosedurlara şərait yaransa da RF hökuməti xüsusi müdafiə, antidempinq və ya kompensasiya tədbirlərinin tətbiq edilməməsi haqqında qərar qəbul edə bilər. Belə qərarlar müvafiq qaydada əsaslandırılmalıır. Bu qərarların mahiyyətini təşkil edən səbəblər dəyişdikdə ona təkrar baxıla bilər.

İQTİSADİ SAHƏYƏ MÜHÜM ZİYAN VURULMASI TƏHLÜKƏSİ – iqtisadiyyatın sahələrinə aşkar sübutlarla təsdiq edilmiş əhəmiyyətli zərərin vurulmasının qarşısının alına bilinməməsi.

İQTİSADİ SİYASƏT – iqtisadi proseslərin nizamlanmasına təsir göstərən və ya onların gedişini müəyyənləşdirən tədbirlər kompleksi. İqtisadi siyasətin bütün formaları üçün vacib olan üç əsas prinsip vardır:

- iqtisadi siyasət daima dəyişən təsərrüfatçılıq şəraitinin və iqtisadi təfəkkür səviyyəsinin təsiri ilə formalaşır;

- iqtisadi siyasətin səmərəsi ölkə reallıqlarının nəzərə alınmasından asılıdır;

- iqtisadi siyasət ölkənin siyasi kursunun müdafiəsinin həlledici vasitəsidir.

İqtisadi siyasətin subyektlərinə dövlət (onun tərkibinə ərazi və yerli strukturlar daxildir) və qeyri-dövlət birlikləri daxildir. Hakimiyyət ayrı-ayrı istehsalçı qruplar ilə əhali qruplarının iqtisadi maraqlarının uzlaşmasına xidmət etməlidir.

İqtisadi siyasətin əsas praktiki məqsədləri aşağıdakılardır: iqtisadi artım; tam məşğulluq; qiymət səviyyəsinin və milli valyutanın sabitliyi; xarici iqtisadi tarazlıq. Bu siyasətin əsas tərkib hissələri – sosial siyasət, maliyyə-valyuta siyasəti, beynəlxalq inteqrasiya siyasəti, büdcə-vergi siyasəti, regional siyasət, struktur siyasəti və ayrı-ayrı fəaliyyət sahələrinin siyasəti hesab edilir.

İQTİSADİ SİYASƏT TƏDBİRLƏRİ – iqtisadi siyasətə əsaslanan və kvota qoymanı, lisenziyalaşdırmanı, minimal və maksimal qiymətlərin müəyyən edilməsini, malların və nəqliyyat vasitələrinin idxalına və ixracına məhdudiyyət qoyulmasını nəzərdə tutan tədbirlər.

İQTİSADİ TƏHLÜKƏSİZLİK – ölkənin sosial, siyasi və müdafiə mövcudluğunun və proqressiv inkişafının səviyyəsini, mümkün xarici və daxili təhlükələrlə və təsirlərlə münasibətdə onun iqtisadi maraqlarının möhkəmliyini və müstəqilliyini kifayət qədər təmin edən iqtisadiyyatın durumudur.

İLKİN ƏMƏLİYYATLAR – malların və nəqliyyat vasitələrinin əsas gömrük rəsmiləşdirilməsi və müəyyən gömrük rejimi altında yerləşdirilməsinə qədər gömrük işinə aid olan bütün hərəkətlər.

İLKİN SATIŞ QİYMƏTİ – ipoteka predmetinin bazar dəyərinin müəyyənləşdirilməsi üçün müvafiq marketinq keçirilməsi vaxtının məhdudluğu şəraitində ipoteka predmetinin satış (likvid) qiyməti.

İLKİN UÇOT – əsalandırılmış iqtusadi qərarların qəbul edilməsi zamanı istifadə olunmaq məqsədilə üçot məlumatlarının döyri olaraq toplanması, ölçülməsi, qeydiyyatı, yığılması, saxlanması prosesi.

İLKİN VERGİ GÜZƏŞTİ – vergitutmadan əvvəl tətbiq edilən vergi güzəşti.

İMMUNİTET – beynəlxalq hüquqda və bəzi ölkələrin qanunvericilik aktlarında dövlətin və şəxslərin müəyyən öhdəliklərdən azad olmasını bildirən termin. "İmmunitet" latın dilində "azadolma", "qurtulma" mənasında işlənən "immunitas" sözündən alınmışdır və üç cür olur:

- dövlətin immuniteti;
- diplomatik immunitet;
- konsul immuniteti.

Orta əsrlərdə immunitet dedikdə feodalın öz ixtiyarında olan ərazidə mərkəzi hakimiyyət nümayəndələrinin müdaxiləsi olmadan bəzi dövlət funksiyalarını (məsələn, məhkəmə işlərini, vergilərin yığılmasını, polis nəzarətini) yerinə yetirməsi nəzərdə tutulurdu.

İMPLEMENTASİYA – beynəlxalq hüquqi aktlarda olan normalara dövlət tərəfindən riayət edilməsi. Mənası "icra edirəm" olan "impleo" latın sözündən götürülmüşdür. Hər bir dövlət implementasiya üsullarını və vasitələrini özü seçir.

İMTİYAZLAR – dövlət tərəfindən ayrı-ayrı dövlətlərin bütün və ya bəzi mallarına güzəştli gömrük rüsumlarının tətbiq edilməsi.

İNCƏ KAPİTALLAŞDIRMA – bir sıra ölkələrdə vergi qanunvericiliyinin və səhmdar cəmiyyətlər üzrə xüsusi qanunvericiliyin, habelə beynəlxalq vergi planlaşdırmasının termini. Vergi qanunvericiliklərində və xüsusi qanunvericilik (səhmdar cəmiyyətləri haqqında, bank, sığorta, investisiya fondları və investisiya şirkətləri haqqında qanunvericilik) aktlarında bu termin adətən borcun və ödənmiş səhmdar kapitalının nisbətinin müəyyən olunmuş normativlərdən yüksək olması vəziyyətini ifadə edir. Bu uygunsuzluqlar qanunvericilik aktları və ya nəzarət edən orqanın qərarı ilə məyyən edilmiş müddətlərdə aradan qaldırılmadıqda, şirkətə müxtəlif növ sanksiyalar (cərimələr, qeydiyyatın və ya xüsusi lisenziyanın ləğv edilməsi, güzəştli vergi statusundan məhrum edilməsi) tətbiq edilə bilər. Vergi qanunvericiliyi aktlarında belə uyğunsuzluqlara görə şirkət və (və ya) onun səhmdarları vergi çıxılmalarından istifadə etmək hüququndan məhrum edən və ya həmin hüququ məhdudlaşdıran qaydalar müəyyən edilə bilər. Belə şirkətlərə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərlə müəyyən edilmiş güzəştli aradanqaldırmalar aid edilməyə bilər. Vergi planlaşdırmasında incə kapitallaşdırma termini müəssisələrin və ya təşkilatların (səhmdar cəmiyyətlərinin, məhdud məsuliyyətli cəmiyyətlərin) nizamnamə kapitalına vəsait qoymadan kreditlərin verilməsinin hesabına maliyyələşdirilməsi ilə həyata keçirilən vergilərdən yayınma metodu hesab olunur. Milli vergi qanunvericiliklərində və ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərdə dividentlərdən daha çox faizlərdən verginin tutulmasında güzəştli şərtlər müəyyən edilir və bu təcrübə vergi agentləri tərəfindən tutulan vergi məbləğlərinin azaldılmasına imkan verir.

İncə kapitallaşdırmadan vergi öhdəliklərinin azaldılması üçün istifadə etmək imkanlarının qarşısının alınması və ya azaldılması üçün vergi qanunvericiliyinin aktlarına və ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin mətnlərinə vergidən yayınmalara qarşı müəyyən tədbirlər daxil edilir:

- "dividentlər" termininin sərbəst izahları;
- "faizlər" termininin məhdudlaşdırıcı izahları;
- qarşılıqlı asılı şəxslər arasında bağlanmış sazişlər zamanı vergi çıxılmalarının və vergi güzəştlərinin tətbiqi üzrə müxtəlif növ istisna və məhdudiyyətlər;
- mərkəzi bankların yenidən maliyyələşdirilmə dərəcələrinin səviyyəsini ötən ödənmiş faizlərin məbləğlərinin çıxılmasına qadağalar və məhdudiyyətlər.

İNDOSSAMENT – qiymətli kağız üzərində hüququn bir şəxsdən digər şəxsə keçməsi barədə xüsusi qeyd.

İNFLYASİYA – pul vahidinin qiymətdən düşməsi. Latın dilində "inflatio" – "şişmə" deməkdir. Bu, əmtəə, həcminin, adekvat artımı olmadığı halda, tədavül kanallarının izafi pul kütləsi ilə həddindən artıq doldurulması nəticəsində baş verir. İnflyasiya mal və xidmətlərin qiymətlərinin, onların keyfiyyətinin yüksəlməsi ilə əlaqədar olmayan artmasında ifadə olunur. Ümumiyyətlə, inflyasiyanın qiymətlərin artım sürətinə, qiymətlərin tarazlıq səviyyəsinə və xarakterinə görə növləri fərqləndirilir. Qiymətlərin artım sürətindən asılı olaraq inflyasiyanın üç növü var:

1. Mülayim inflyasiya; il ərzində qiymətlər 10% dən çox artmırsa, bu cür inflyasiya mülayim və ya sürünən inflyasiya adlandırılır.

2. Sürətli inflyasiya; il ərzində qiymətlər 10% dən 200%-ə qədər artdıqda sürətli inflyasiya yaranacaqdır.

3. İfrat (hiper) inflyasiya; il ərzində qiymətlər 100%-dən çox artarsa, ölkədə ifrat (hiper) inflyasiya meydana çıxır. Qiymətlərin tarazlıq səviyyəsinə görə inflyasiyanın iki növü var:

- tarazlaşdırılmış inflyasiya; tarazlaşdırılmış inflyasiya zamanı müxtəlif əmtəə qruplarının qiymətləri bir-birinə nisbətən sabit qalır.

- tarazlaşdırılmamış inflyasiya; tarazlaşdırılmamış inflyasiya şəraitində isə müxtəlif əmtəələrin qiyməti bir-birinə nisbətən və həm də müxtəlif nisbətlərdə daim dəyişir.

Xarakterinə görə inflyasiyanı 2 növə bölürlər:

1. Gözlənilən inflyasiya; gözlənilən inflyasiya müəyyən dövr üçün əvvəlcədən proqnozlaşdırılır.

2. Qəfil inflyasiya; bu inflyasiya ani baş verir; birdən-birə qiymətlərdə sıçrayış olur.

İNFLYASİYA İNDEKSİ – inflyasiyanın səviyyəsini xarakterizə edən əsas göstəricilərdən biri. Orta alıcılıq qabiliyyətli alıcının aldığı malların və istifadə etdiyi xidmətlərin qeydə alınmış məcmusunun dəyərinin ümumi dəyişməsini səciyyələndirən nisbi göstəricidir. Bu göstərici müəyyən dövr ərzində istehlak edilən malların və xidmətlərin dəyişməz qaldığı şəraitdə əhalinin istehlak xərclərinin ümumi məbləğinin dəyişməsini əks etdirir:

İNFORMASİYA TEXNOLOGİYALARI – informasiya ehtiyatlarından istifadə olunması proseslərinin ağırlığını azaltmaq, onların etibarlılığını və operativliyini çoxaltmaq məqsədilə informasiyanın toplanmasını, emalını, saxlanmasını, ötürülməsini təmin edən və texnoloji zəncirdə birləşdirən metodlar, istehsal prosesləri və texniki-proqram vasitələri toplusu.

İNJİNİRİNQ XİDMƏTLƏRİ – xüsusi firmalar, həmçinin tikinti və sənaye şirkətləri tərəfindən həyata keçirilən, məqsədi istehsalın hazırlanmasını, bilavasitə həyata keçirilməsini və təqdim olunmasını əhatə edən mühəndis-məsləhət xidmətlərinin kompleksi. Bu sahədə göstərilən xidmətlər iki qrupa bölünür: istehsal prosesinin hazırlanması ilə əlaqədar olan xidmətlər; məhsulların istehsalı və reallaşdırılması proseslərinin normal gedişinin təmin olunması ilə əlaqədar olan xidmətlər.

İNNOVASİYA – yüksək səmərəliliyə malik yeniliyin tətbiqi; intellektual fəaliyyətin, kəşfin, ixtiranın son nəticəsi. İnnovasiya termini latın dilində "innovato" sözündəndir, "yeniləşmə" və "yaxşılaşma" deməkdir.

İNSAFSIZ EMİSSİYA – müəyyən edilmiş emissiyanın prosedurunun pozulması ilə emissiya qiymətli kağızlarının buraxılışının qeydiyyatını aparan orqanlar tərəfindən imtina edilməsi üçün əsas olan hərəkətlər. Bu halda emissiya qiymətli kağızlarının buraxılışı baş tutmamış hesab edilir və ya emissiya qiymətli kağızlarının emissiyası dayandırılır.

İNTELLEKTUAL MÜLKİYYƏT – yaradıcılıq fəaliyyətinin nəticələrinə müstəsna hüquqların məcmusu. Bu anlayış ilk dəfə 1967-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatını təsis edən konvensiya ilə gətirilmişdir.

İNTERNET SAYTI – kompüter şəbəkəsində bir ünvan altında birləşdirilən istənilən fərdin və ya təşkilatın sənədlərinin, məlumatlarının məcmusu.

İNTERNET VERGİ İDARƏSİ – VN-in rəsmi internet səhifəsində vergi ödəyicilərinə və vergi ödəyiciləri olmayan şəxslərə müxtəlif elektron xidmətlərin göstərilməsi məqsədilə yaradılmış xüsusi bölmə.

İNVENTARLAŞDIRMA – səyyar vergi yoxlaması zamanı vergi ödəyicisinin mülkiyyətində və ya istifadəsində olan hər hansı daşınar və daşınmaz əmlakın (yaşayış sahələri, büdcədən maliyyələşən təşkilatlar və bələdiyyələr istisna olmaqla), o cümlədən qeyri-maddi aktivlərin və pul vəsaitlərinin inventarizasiyasının aparılması.

İNVESTİSİYA – gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaiti, habelə maddi və intellektual sərvətlər. İngilis dilində "investment" – kapital qoyuluşu deməkdir. İnvestisiyaya aid olan vəsait və



Azərbaycan Respublikası Vergilər Nazirliyinin internet saytı: http://vn.taxes.gov.az/

sərvətlərə pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar, daşınar və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər), müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər, bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, ancaq patentləşdirilməmiş, texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu, torpaqdan, sudan və digər ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqdan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn başqa əmlak hüquqları və digər sərvətlər aiddir. Əsas fondların yaradılmasına və təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına investisiya yönəldilməsi kapital qoyuluşları şəklində həyata keçirilir (AR-in "İnvestisiya fəaliyyəti haqqında" 13 yanvar 1995-ci il tarixli 952 nömrəli Qanununun 1-ci maddəsi).

"İNVESTİSİYA FƏALİYYƏTİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – AR-in ərazisində investisiya fəaliyyətinin (sərmayədarlığın) ümumi sosial, iqtisadi və hüquqi şərtlərini müəyyənləşdirən Qanun. 1995-ci il 13 yanvar tarixli 952 nömrəli bu Qanun investisiyanın AR iqtisadiyyatına intensiv cəlb olunmasına, ondan olkənin sosial-iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə edilməsinə yonəldilmişdir və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. "İnvestisiya fəaliyyəti haqqında" AR Qanunu 21 maddədən və 4 fəsildən ibarətdir. Fəsillərin başlıqları aşağıdakılardır:

1. Ümumi müddəalar.
2. İnvestisiya fəaliyyətinin həyata keçirilməsi.
3. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi.
4. İnvestisiya fəaliyyəti subyektlərinin hüquqlarının təminatı və investisiyanın qorunması.

Qanunda göstərilmişdir ki, investisiya fəaliyyəti investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar bütün hərəkətlərinin məcmusudur və onun aşağıdakı növləri vardır:

- AR-in vətəndaşları, qeyri-dövlət müəssisə, idarə, təşkilat və qurumları tərəfindən həyata keçirilən özəl investisiya fəaliyyəti;
- dövlət hakimiyyət və idarəetmə orqanları, habelə müəssisə, idarə və təşkilatları tərəfindən büdcələrin, büdcədənkənar fondların və özlərinə məxsus borc vəsaitinin hesabına həyata keçirilən dövlət investisiya fəaliyyəti;
- xarici vətəndaşlar, hüquqi şəxslər, dövlətlər, beynəlxalq maliyyə təşkilatları, habelə vətəndaşlığı olmayan şəxslər tərəfindən həyata keçirilən xarici investisiya fəaliyyəti;
- AR-in və xarici dövlətlərin vətəndaşları, hüquqi şəxsləri və dövlətlər tərəfindən həyata keçirilən birgə investisiya fəaliyyəti.

Qanunun 3-cü maddəsində investisiya fəaliyyətinin obyektləri, 4-cü maddəsində subyektləri göstərilmişdir.

İqtisadiyyatın bütün sahələrində hər hansı əmlak, o cümlədən əsas fondlar və dövriyyə vəsaiti, qiymətli kağızlar, məqsədli pul əmanətləri, elmi-texniki məhsullar, intellektual sərvətlər, digər mülkiyyət obyektləri, habelə əmlak hüquqları investisiya fəaliyyətinin obyekti ola bilər.

Yaradılması və istifadə edilməsi AR-in qanunvericilik aktları ilə müəyyənləşdirilmiş sanitariya-gigiyena, radiasiya, ekologiya, arxitektura və digər normaların tələblərinə uyğun gəlməyən, habelə vətəndaşların, hüquqi şəxslərin və dövlətin qanunla müdafiə edilən hüquq və mənafelərini, eləcə də insanların sağlamlığını, dövlət təhlükəsizliyini pozan, yaxud poza biləcək obyektlərə investisiya qoyulması qadağandır. AR-in və xarici ölkələrin vətəndaşları və hüquqi şəxsləri, vətəndaşlığı olmayan şəxslər, habelə dövlətlər investisiya fəaliyyətinin subyektləri (investorları və iştirakçıları) ola bilərlər. Özunə məxsus olan, borc göturduyu və ya cəlb etdiyi maliyyə vəsaitini, maddi və intellektual sərvətləri investisiya fəaliyyəti obyektlərinə qoymaq haqqında qərar qəbul edən, habelə onlardan istifadə olunmasını təmin edən subyektlər investorlardır (sərmayədarlardır). İnvestorlar investisiya fəaliyyətində əmanətçi, kreditor və alıcı qismində çıxış edə, habelə investisiya fəaliyyətinin istənilən iştirakçısının funksiyalarını yerinə yetirə bilərlər. İnvestisiya niyyətinin həyata keçirilməsini sifarişlərin icraçısı qismində və ya investorların tapşırığı əsasında təmin edən AR-in və xarici dövlətlərin vətəndaşları və hüquqi şəxsləri, habelə vətəndaşlığı olmayan şəxslər investisiya fəaliyyətinin iştirakçılarıdır.

İNVESTİSİYA FOND PAYI – öz sahibinin paylı investisiya fondunda payına müvafiq mülkiyyət hüquqlarını təsdiq edən, paylı investisiya fondu ləğv edildikdən sonra fondun aktivlərinin satışından payına müvafiq pul vəsaitlərini almaq hüququnu, habelə "İnvestisiya fondları haqqında" AR Qanunu və müvafiq normativ-hüquqi aktlarla nəzərdə tutulmuş digər hüquqlar verən sənədsiz adlı qiymətli kağız.

İNVESTİSİYA LAYİHƏSİ – birbaşa xarici investisiyanın həyata keçirilməsinin qanunvericilikdə nəzərdə tutulmuş standartlara müvafiq olaraq hazırlanmış layihə-smeta sənədləri daxil olmaqla iqtisadi məqsədəuyğunluğun, həcmin və müddətlərin əsaslandırılmasını ifadə edən termin.

İNVESTİSİYA LAYİHƏSİNİN XƏRCİNİN ÖDƏNMƏSİ MÜDDƏTİ – Termin birbaşa xarici investisiyadan istifadə ilə investisiya layihəsinin maliyyələşdirilməsinin başlanğıc günündən, amortizasiya ayırmalarıyla yığılmış təmiz mənfəətin məbləği və xarici investisiyalı kommersiya təşkilatının, xarici hüquqi şəxsin filialının, maliyyə icarəsi (lizinq) müqaviləsi üzrə icarəçilərin investiya xərclərinin həcmi arasında fərq üzrə müsbət nəticə əldə olunduğu günə qədər olan müddəti ifadə edir. RF qanunvericiliyində istifadə olunur.

İNVESTİSİYA VERGİ KREDİTİ – lazımi əsaslardan biri olduğu halda kreditin və hesablanmış faizlərin məbləğinin sonrakı mərhələlərdə ödənilməklə təşkilatlara vergi üzrə

ödənişlərini müəyyən müddət ərzində və müəyyən hədlərdə azaltmaq imkanı verən ödəniş müddətinin dəyişdirilməsi. Vergi ödəyicisi olan təşkilatlara investisiya vergi krediti verilməsi üçün əsaslar aşağıdakılardan ibarətdir: təşkilat tərəfindən öz istehsalatının yeni texniki təminata keçirilməsinə, həmçinin əlillər üçün iş yerlərinin yaradılmasına və ya ətraf mühitin sənaye tullantılarıyla çirkləndirilməsindən qorunmasına yönəldilmiş elmitədqiqat və ya təcrübə-konstruktor işlərinin görülməsi; təşkilat tərəfindən tətbiqi və ya innovasiya fəaliyyətinin həyata keçirilməsi, həmçinin, tətbiq edilən texnologiyaların yenilərinin yaradılması və ya təkmilləşdirilməsi, xammalın və materialların yeni növlərinin yaradılması; təşkilat tərəfindən regionun sosial-iqtisadi inkişafı və əhaliyə xüsusi əhəmiyyətli xidmətlərin göstərilməsi üzrə mühüm sifarişlərin icrası.

İnvestisiya vergi krediti təşkilatların mənfəət vergisi üzrə, həmçinin, regional vergilər və yerli vergilər üzrə verilə bilər. İnvestisiya vergi krediti verilməsi haqqında qərar RF subyektlərinin büdcəsinə daxil olan mənfəət vergisi üzrə həmin subyektlərin maliyyə orqanları tərəfindən qəbul edilir. İnvestisiya vergi krediti bir ildən beş ilə qədər müddətə verilə bilər. İnvestisiya vergi krediti almış təşkilat bu kredit üzrə müqavilənin müddəti ərzində müvafiq vergi üzrə öz ödənişlərini azaltmaq hüququna malikdir. Hesabat dövrlərində azaldılma təşkilat tərəfindən ödənilməmiş azaldılmaların məbləğinin (kreditin yığılmış məbləğinin) müqavilə ilə nəzərdə tutulmuş kreditin məbləğinə bərabər olanadək investisiya vergi krediti verilmiş verginin ödənişi zamanı aparılır. Vergi ödənişlərinin azaldılmasının konkret sırası investisiya vergi krediti haqqında bağlanmış müqaviləylə müəyyən edilir. Təşkilat tərəfindən investisiya vergi krediti haqqında birdən artıq müqavilə bağlandıqda kreditin məbləği bu müqavilələrdən hər birinə görə ayrı təyin edilir. Bu halda təşkilat tərəfindən yığılmış kredit məbləğinin artımı əvvəlcə müddəti üzrə birinci olan müqavilə üzrə aparılır, həmin müqavilə ilə nəzərdə tutulmuş yığım məbləğinə çatdıqdan sonra isə növbəti müqavilə üzrə kredit yığımının məbləği artırıla bilər. İnvestisiya, vergi krediti haqqında müqavilələrin sayından asılı olmayaraq, hər hesabat dövründə vergi ödənişlərinin azaldılması müvafiq vergi ödənişinin 50%-dən artıq olmamalıdır. Kreditin yığılmış məbləği hesabat dövrü üçün verginin azaldılmasına icazə verilən son həddən artıq olduğu halda bu məbləğ və son həddin məbləği arasında fərq növbəti hesabat dövrünə keçir. Təşkilat fəaliyyətində vergi ilinin ayrı-ayrı hesabat dövrlərində və bütünlükdə vergi ilində zərər yarandıqda həmin dövrlər üzrə artıq yığılmış kredit məbləği növbəti vergi dövrünə keçirilir və yeni vergi dövrünün birinci hesabat dövründə nəzərə alınır. Təşkilatlara öz istehsalatının yenidən texniki təminatını keçirməsinə, həmçinin, əlillər üçün iş yerlərinin yaradılmasına və ya ətraf mühitin sənaye tullantıları ilə çirkləndirməsindən qorunmasına yönəldilmiş elmi-

tədqiqat və ya təcrübə-konstruktor işlərinin görülməsinə görə investisiya vergi krediti bu məqsədlərlə istifadə olunmaq üçün alınmış avadanlıqların dəyərinin 30%-i məbləğində verilir. Digər əsaslarla investisiya vergi kreditinin verilməsi zamanı kreditin məbləği səlahiyyətli orqanın və təşkilatın arasında bağlanılmış sazişə əsasən təyin edilir. İnvestisiya vergi kreditinin alınması üçün əsas olan sənədlər təşkilat tərəfindən təsdiq edilir. İnvestisiya vergi krediti təşkilatın ərizəsinə əsasən verilir və müvafiq səlahiyyətli orqanın və bu təşkilatın arasında bağlanılmış müqavilə ilə rəsmiləşdirilir. Müqavilə forması investisiya vergi kreditinin verilməsi haqqında qərar qəbul edən icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Səlahiyyətli orqan tərəfindən təşkilata investisiya vergi kreditinin verilməsi haqqında qərar ərizənin alınması günündən bir ay ərzində qəbul edilir. Bir təşkilatla investisiya vergi krediti üzrə bir və ya bir neçə müqavilənin olması bu sahədə əlavə müqavilənin bağlanılmasına manea yaratmır.

İNVESTOR – özünə məxsus olan, borc götürdüyü və ya cəlb etdiyi maliyyə vəsaitini, maddi və intellektual sərvətləri investisiya fəaliyyəti obyektlərinə qoymaq haqqında qərar qəbul edən, habelə onlardan istifadə olunmasını təmin edən hüquqi və ya fiziki şəxs. İqtisadiyyatın bütün sahələrində hər hansı əmlak, o cümlədən əsas fondlar və dövriyyə vəsaiti, qiymətli kağızlar, məqsədli pul əmanətləri, elmi-texniki məhsullar, intellektual sərvətlər, digər mülkiyyət obyektləri, habelə əmlak hüquqları investisiya fəaliyyətinin obyekti ola bilər. İnvestor müstəqil surətdə investisiya qoyuluşunun məqsədini, istiqamətini, növünü və həcmini müəyyənləşdirir, onun həyata keçirilməsi üçün müqavilə əsasında, o cümlədən müsabiqə və hərrac yolu ilə fiziki və hüquqi şəxsləri investisiya fəaliyyətinin hər hansı iştirakçısı qismində cəlb edir. AR qanunvericilik aktlarına uyğun olaraq, investor respublikanın ərazisində investisiyanın obyektlərinə və nəticələrinə sahiblik, istifadə və sərəncam vermək, həmçinin investisiya və ticarət əməliyyatları həyata keçirmək hüquqlarına malikdir.

İNZİBATİ CƏRİMƏ – nəzərdə tutulmuş hallarda hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən təyin edilən və təqsirkar şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləği.

İNZİBATİ CƏZA – inzibati tənbeh məsuliyyət tədbiridir və inzibati xəta törədən şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, habelə həm inzibati xəta törətmiş şəxs, həm də başqa şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaq məqsədi daşıyır.

İNZİBATİ HÜQUQ – hüququn bir sahəsi olub dövlət hakimiyyət orqanlarının fəaliyyəti zamanı meydana çıxan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu.

İNZİBATİ XƏTA – ictimai münasibətlərə qəsd edən, hüquqa zidd olan, təqsirli sayılan (qəsdən və ya ehtiyatsızlıq üzündən törədilən) və inzibati məsuliyyətə səbəb olan əməl (hərəkət və ya hərəkətsizlik).

İNZİBATİ-İQTİSADİ MƏHKƏMƏ – birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş inzibati və iqtisadi mübahisələrə dair işlərə baxır, məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, AR qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

İRİ VERGİ ÖDƏYİCİLƏRİ – aşağıdakı meyarlar əsasında müəyyən edilən vergi ödəyiciləridir:

a) əvvəlki üç ilin hər birində mülkiyyətində olan əsas vəsaitlərini ilin sonuna qalıq dəyəri şərti maliyyə vahidinin (1 manat 10 qəpikdir) 1000000 misli və əvvəlki üç illik orta illik dövriyyəsi (ƏDV-siz) şərti maliyyə vahidinin 500000 mislindən çox olduqda;

b) son üç vergi ili ərzində müəssisə tərəfindən vergi qanunvericiliyi ilə müəyyən edilmiş bütün vergi və vergi olmayan digər ödənişlərin hesablanmış məbləğləri hər il üçün şərti maliyyə vahidinin 180000 mislindən çox olduqda;

c) AR qanunvericiliyinə uyğun olaraq inhisarçı subyektlərə aid olunan vergi ödəyiciləri, o cümlədən onların tabeçiliyində olan müəssisə və təşkilatlar.

İSLAM ÖLKƏLƏRİNİN VERGİ ADMİNİSTRASİYALARI ASSOSİASİYASI (İÖVAA) – 2003-cü il 4-7 oktyabr tarixlərində Malayziyanın Putrajaya şəhərində 11 islam ölkəsinin iştirakı ilə keçirilmiş 1-ci Texniki Konfrans zamanı yaradılmış və fəaliyyətə başlamışdır. İslam Konfransı Təşkilatının bütün üzvləri və beynəlxalq vergi təşkilatlarının müşahidəçiləri konfransda iştirak etmək üçün dəvət olunmuşdular. Assosiasiyanın əsas missiyası dünyada sürətlə baş verən dəyişikliklərə (yeniliklərə) cavab vermək məqsədilə islam ölkələri daxilində zəkata xüsusi istinad edilməklə vergi inzibatçılığını təkmilləşdirmək və şəriət vergitutmasını inkişaf etdirməkdir. Əsas məqsədi və fəaliyyət istiqamətləri:

- vergitutma (zəkat) məsələləri üzrə fikir və təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədilə, illik texniki iclas da daxil olmaqla ,görüşlərin keçirilməsi;

- vergitutma (zəkat) təşkili üzrə seminarların, işçi qrupun iclaslarının və treninq kurslarının təşkil edilməsi;

- vergitutma (zəkat) məsələləri üzrə məlumatların toplanması, təhlili və paylanması;

- vergi inzibatçılığı sahəsində texniki yardım və araşdırmalar həyata keçirən ikitərəfli və çoxtərəfli agentliklərin işlərinin birbaşa təmin edilməsi və ya onlarla əməkdaşlıq və ümumiyyətlə, işlərində onlara yardım göstərilməsi;

- islam ölkələri arasında funksional əməkdaşlığın həyata keçirilməsi vasitəsilə vergitutmanın təkmilləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi;

- təşkilata üzv olan bütün ölkələrin qeyri-islam ölkələrində olan vergi və analoji rejimlərin inkişafı ilə, həmçinin, regional vergi assosiasiyalarının fəaliyyətləri ilə ayaqlaşmasını təmin etmək.

İSTEHLAK – ehtiyacların təmin olunması prosesində məhsuldan istifadə. İqtisadiyyatda istehlak xeyir və ya xidmətlərin əldə edilməsi ilə bərabərləşir. İstehlak gəlirin əldə edilməsi, yaxud qənaətlərin xərcinə görə mümkün olur.

İSTEHLAK KOOPERASİYASI – istehlakçıların özlərinin mülkiyyətində olan istənilən pərakəndə satış forması, istehlakçı müəssisələrin birlikləri.

İSTEHLAK SƏBƏTİ – orta hesabla bir il ərzində insanın ehtiyaclarının təmin olunması üçün lazım olan malların və xidmətlərin dəsti. İnsanın sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyyən edilmiş toplusu minimum istehlak səbətidir ("Yaşayış minimumu haqqında" AR 05.10.2004-cü il tarixli 768 nömrəli Qanununun 1-ci maddəsi). İstehlak səbəti yaşayış minimumunun hesablanması, həmçinin, müxtəlif regionlarda ərzağın kompleks qiymətlərinin müqayisəsi üçün istifadə olunur. Yuxarıda qeyd edilənlərdən fərqli olaraq tədqiqatçılar inflyasiya indekslərinin hesablanması üçün müxtəlif istehlak səbətlərindən istifadə edirlər. Minimum istehlak səbəti əhalinin əsas sosial-demoqrafik qrupları üzrə, bir nəfərin və ya ailənin xərc maddələri üzrə aşağıdakı tərkibdə formalaşdırılır: ərzaq məhsullarının minimum toplusu; fərdi və ailəvi istifadə olunan qeyri-ərzaq mallarının minimum toplusu (geyim, ayaqqabı və dəftərxana ləvazimatları, təsərrüfat, mədəni-məişət, sanitariya əşyaları, dərmanlar və s.); xidmətlərin minimum toplusu (mənzil-kommunal, nəqliyyat, rabitə, məişət, təhsil, mədəni-maarif, müalicə-istirahət xidmətləri və s.). Minimum istehlak səbətinin tərkibi dövlət elmi idarə və müəssisələrinin, qeyri-hökumət təşkilatlarının iştirakı ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən üç ildə bir dəfədən az olmayaraq müəyyənləşdirilir.

İSTEHSAL – insanlar tərəfindən özlərinin mövcudluğu üçün lazımi maddi şəraitin yaradılması məqsədilə təbii ehtiyatların çevrilmə prosesi; son məhsulun və ya xidmətin yaradılmasına istiqamətlənmiş hüquqi və ya fiziki şəxsin fəaliyyət növü; iqtisadi mənada müxtəlif növ iqtisadi məhsulların yaradılması prosesi.

İSTEHSAL XARAKTERLİ İŞLƏR VƏ XİDMƏTLƏR – məhsulun istehsalı, işlərin görülməsi, xidmətlərin göstərilməsi, xammal və materialların emalı, müəyyən edilmiş texnoloji proseslərin uyğunluğuna nəzarət, əsas vəsaitlərə texniki xidmət və digər bu kimi işlər; müqavilə şərtlərinə uyğun olaraq digər təşkilatlara və fərdi sahibkarlara nəqliyyat xidmətlərinin göstərilməsi, habelə vergi ödəyicisinin daxili yük daşımaları üzrə nəqliyyat xidmətləri.

İSTEHSAL XƏRCLƏRİ – məhsul (iş, xidmət) hazırlanmasına çəkilən canlı və maddiləşmiş əmək məsrəflərinin məcmusu. Əmtəə-pul münasibətləri şəraitində dəyər formasında çıxış edir.

İSTEHSAL MÜƏSSİSƏLƏRİNİN SU TƏSƏRRÜFATI SİSTEMLƏRİNDƏ GÖTÜRDÜYÜ SUYA GÖRƏ ÖDƏMƏ – RF-də əvvəllər nəzərdə tutulmuş məcburi regional

AZƏRBAYCAN RESPUBLİKASINDA MİNİMUM İSTEHLAK SƏBƏTİNİN TƏRKİBİ

(Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 23 iyun tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmişdir)

1. Ərzaq məhsulları

	Ölçü vahidi	İstehlakın həcmi (orta hesabla adambaşına bir ildə)		
		əmək qabiliyyətli əhali	pen-siyaçılar	uşaqlar 0-14 yaş
Çörək və çörək məhsulları (una çevirməklə)	kq	150	109	98
Kartof	kq	46.7	36.5	40.2
Tərəvəz və bostan məhsulları	kq	95.7	85.5	101.2
Meyvə və giləmeyvə	kq	38	38	76
Ət və ət məhsulları	kq	30	19.2	25
Süd və süd məhsulları (südə çevirməklə)	kq	193.6	223.1	247.5
Balıq və balıq məhsulları	kq	5	5	5
Yumurta	ədəd	135.0	91.0	169.0
Şəkər və qənnadı məmulatları (şəkərə çevirməklə)	kq	16.3	14.6	19.5
Bitki yağı, marqarin və digər piylər	kq	11	7.9	8.3
Mal-qara yağı	kq	8	5.5	6
Digər məhsullar (çay, duz)	kq	3.6	2.8	3.3

2. Qeyri-ərzaq malları

	Ölçü vahidi/ aşınma müddəti	İstehlakın həcmi (orta hesabla adambaşına bir ildə)		
		əmək qabiliyyətli əhali	pensiyaçılar	uşaqlar 0-14 yaş
Palto tipli üst geyimləri qrupu	ədəd/il	3/8	3/9	3/2.6
Kostyum tipli üst geyimləri	ədəd/il	9/4.2	8/4.8	12/2
Alt geyimləri	ədəd/il	9/2.5	9/2.7	12/2
Corab məmulatları	cüt/il	7/1.5	4.5/2	6/1.3
Baş geyimləri və xırdavat məmulatları	ədəd/il	4/5	3/6.4	4/3

Ayaqqabı	cüt/il	6/3.5	5/3.5	6/1.3
Məktəb-yazı ləvazimatı	ədəd/il	3/1	3/1	41/1
Yataq ləvazimatı	ədəd/il	11/7.1	11/7.1	11/7.1
Mədəni-məişət və təsərrüfat malları	ədəd/il	14/10.2	14/10.2	14/10.2
İlkin tələbat və sanitariya əşyaları, dərmanlar	bir ayda qeyri-ərzaq mallarına sərf olunan xərclərə görə faiz	10	10	10

3. Xidmətlər

Xidmətlərin adı	Ölçü vahidi	İstehlakın həcmi (orta hesabla adambaşına bir ildə)		
		əmək qabiliyyətli əhali	pen-siyaçılar	uşaqlar 0-14 yaş
Mənzil	ümumi sahə kv.m	12	12	12
Mənzillərin qızdırılması	ümumi sahə kv.m	12	12	12
İsti və soyuq su təchizatı	ayda kub	6	6	6
Kanalizasiya	ayda kub	6	6	6
Qaz təchizatı	ayda kub	21	21	21
Enerji təchizatı	ayda kVt/s	50	50	50
Nəqliyyat xidmətləri	bir ildə gediş	606	365	370
Rabitə	aylıq tarif	-	-	-
İnternet xidmətləri	aylıq tarif	-	-	-
Digər xidmətlər	bir ayda xidmətlərə sərf olunan ümumi	xərcə görə faiz	15	15

ödəniş. Hal-hazırkı qanunvericilikdə bu ödəmə su obyektlərindən istifadəyə görə haqqla əvəz edilmişdir.

İSTEHSAL VƏ REALLAŞDIRMA İLƏ ƏLAQƏDAR MƏSRƏFLƏR – vergi ödəyicisinin mənfəət vergisinin vergitutma bazasının müəyyənləşdirilməsi zamanı nəzərə alınan xərcləri.

İSTEHSALA VƏ TƏSƏRRÜFATA XİDMƏT EDƏNLƏR – öz işçilərinə və eləcə də digər şəxslərə xidmətlər göstərən yardımçı təsərrüfatlar, mənzil-kommunal təsərrüfatları obyektləri, sosial-mədəni sahələrin obyektləri, tədris kurs kombinatları və digər analoji istehsal və xidmət sahələri.

İSTEHSALA VƏ TƏSƏRRÜFATA XİDMƏT EDƏNLƏRİN MƏSRƏFLƏRİ – vergi ödəyicisinin müəssisələrin mənfəət vergisi üzrə çəkdiyi digər xərclərin elə bir növüdür ki, onlar üçün vergitutma məqsədləri üçün xərclərin uçotunun xüsusi qaydası müəyyənləşdirilmişdir.

İSTİQRAZ – sahibinin onu buraxmış şəxsdən nəzərdə tutulan müddətdə nominal dəyərini və ya başqa əmlak ekvivalentini almaq hüququnu təsdiqləyən qiymətli kağız. Sahibinə həmçinin istiqrazın nominal dəyərindən faiz almaq hüququ və ya digər əşya hüquqları verə bilər. Faiz ödənişlərini nəzərdə tutmayan istiqraz faizsiz istiqraz hesab olunur.

İŞ – malların təqdim edilməsi sayılmayan, nəticələri maddi ifadə kəsb edən fəaliyyət.

İŞÇİ – işəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxs.

İŞƏGÖTÜRƏN – tam fəaliyyət qabiliyyətli olub işçilərlə əmək müqaviləsi (kontrakt) bağlamaq, ona xitam vermək, yaxud onun şərtlərini dəyişdirmək hüququna malik mülkiyyətçi və ya onun təyin (müvəkkil) etdiyi müəssisənin rəhbəri, səlahiyyətli orqanı, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs.

İŞGÜZAR MƏQSƏDİN TESTİ – bir sıra dövlətlərin vergi qanunvericiliyində nəzərdə tutulmuş, bir qayda olaraq, bir-birindən asılı şəxslərin arasında bağlanılmış sazişlər barəsində tətbiq edilən xüsusi test. Test "formada saxlama" doktrinasına uyğun olaraq vergilərdən yayınmalara qarşı tədbir kimi tətbiq edilir. Sazişlər hər hansı şəxsin vergi öhdəliklərinin minimallaşdırması məqsədi ilə bağlandıqda onlar işgüzar məqsədin testinin tələblərinə cavab verməyən hesab olunur.

İŞİN (XİDMƏTİN) REALLAŞDIRILDIĞI YER – vergi qanunvericiliyində ƏDV-nin, satışdan verginin vergitutma obyektinin müəyyənləşdirilməsi üçün istifadə olunan anlayış.

İTKİN DÜŞMÜŞ FİZİKİ ŞƏXS – fiziki şəxsin olduğu yer məlum deyildirsə və iki il ərzində o, yaşayış yerində görünməmişsə, maraqlı şəxslərin ərizəsinə əsasən məhkəmə fiziki şəxsi xəbərsiz itkin düşmüş hesab edə bilər.

K

KABOTAJ – sahil boyu gəmiçilik; malların dəniz sahili boyu bir ölkədən o birinə aparılması. Bu söz "cabotage" fransız sözündən götürülmüşdür; sözün kökü "cabo" ispan dilində "qurunun dəniz və ya göl içinə keçmiş çıxıntısı", yəni coğrafi mənada "burun" deməkdir.

KADASTR – rəsmi orqanların, yaxud idarələrin siyahısı, reyestri; ora hər hansı obyekt və hadisə barədə sistemləşdirilmiş məlumatların cəmi, onların keyfiyyət və kəmiyyətləri daxil olur. Müvafiq obyektlər üzərində dövri və ardıcıl müşahidələr aparmaqla tərtib olunur. Kadastra, həmçinin, müvafiq obyekt və hadisələrin istifadəsi, mühafizəsi və s. daxil edilir. Aşağıdakı obyektlər üçün kadastr tərtib olunur: su, torpaq, iqlim, meşə, landşaft, mineral resurslar, tibbi, bioloji, xüsusi mühafizə olunan obyektlər və ərazilər, sənaye ovçuluğu, rekreasiya və s. "Kadastr" sözü fransızca "cadastre" (siyahı,reyestr) sözündən götürülsə də, kökü çox qədimlərə gedib çıxır. Roma imperatoru Oktavian Avqustun dövründə (e.ə. 27-ci ildən b.e. 14-cü ilinədək hakimiyyətdə olmuşdur) əhalinin siyahıya alınması latınca "caputigum registrum" (şəxslərin qeydiyyatı) adlanırdı. Əvvəlcə bu söz "capitastrum", daha sonra isə "catastrum" şəklinə düşdü. 1718-ci ildən başlayaraq İtaliyada torpaqların xəritəsi, qruntların növləri, məhsuldarlıq, mənfəəti əks etdirilən kadastrlar tərtib olunurdu və 1760-cı ildən vergi məqsədləri üçün istifadə edilməyə başlandı. XIX əsrin əvvəllərindən isə Fransada, Avstriyada, Belçikada, Nidrlandda və digər Avropa ölkələrində müfəssəl kadastrlar hazırlanırdı.

KADASTR BÖLGÜSÜ – kadastr obyektlərinin keyfiyyət, kəmiyyət və digər xüsusiyyətlərinə görə qruplaşdırması.

KADASTR İŞİ – torpaq sahəsinin dövlət kadastr uçotu obyekti kimi yaradılması və ləğv olunmasını təsdiq edən, qanunla nəzərdə tutulduğu şəkildə komplektləşdirilmiş sənədlər toplusu.

KADASTR QİYMƏT RAYONLARI – Torpaq vergisinin hesablanması məqsədilə torpaqların xüsusiyyətlərini nəzərə almaqla AR NK-nın 29 dekabr 2000-ci il tarixli 230 № -li Qərarı ilə kadastr qiymət rayonları, ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti ballar müəyyənləşdirilmişdir. Qərar "AR VM-in təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" AR Qanununun və bu Qanunla təsdiq edilmiş "AR VM-in tətbiq edilməsi barədə" AR Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə qəbul olunmuş və 2001-ci il yanvarın 1-dən qüvvəyə minmişdir.

Biçənəklər, örüşlər və otlaqlar (yay və qış otlaqları da daxil olmaqla) üçün torpaqların 1 hektarının şərti balları müvafiq kadastr qiymət rayonunun

Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinat, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmiş şərti balları aşağıdakı cədvəldə verilmişdir:

Sıra nömrəsi	Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar	Keyfiyyət qrupları	Bonitet şkalası	Torpaq vergisinin hesablanması üçün əkin, dinc və çoxillik əkmələrin altındakı torpaqların 1 ha-nın şərti balları
1	2	3	5	6
1.	Abşeron-Qobustan (Abşeron rayonu, Hacıqabul rayonunun Nəvahi-Atbulaq massivi, Siyəzən) və Xızı rayonlarının düzən torpaqları, habelə Bakı və Sumqayıt şəhərlərinin mövcud hüdudundan kənarda olan kənd təsərrüfatı təyinatlı torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	85 70 60 25 -
2.	Dəvəçi-Xaçmaz (Xaçmaz rayonu, Dəvəçi, Quba, Qusar və Siyəzən rayonlarının düzən torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	121 89 57 35 -
3.	Qanıx-Türyançay (Balakən, Qax, Zaqatala, Şəki, Oğuz və Qəbələ rayonlarının düzən torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	180 115 50 15 -
4.	Şəki-Zaqatala (Balakən, Qax, Zaqatala, Şəki, Oğuz və Qəbələ rayonlarının dağ torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	200 150 90 25 -
5.	Qusar-Qonaqkənd (Qusar, Quba, Dəvəçi, Siyəzən və Xızı rayonlarının dağ torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	40 20 10 5 -
5a	Xınalıq-Xaltan (Qusar və Quba rayonlarının orta və yüksək dağ torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	38 24 23 8 -

1	2	3	5	6
6.	Dağ-Şirvan (Şamaxı, İsmayıllı rayonları, Ağsu və Göyçay rayonlarının dağ torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	66 50 33 19 -
6a.	Qobustan-Xilmilli (Qobustan rayonunun dağ torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	58 44 29 16 -
7.	Gəncə-Qazax (Samux rayonu, Goranboy, Göygöl, Tovuz, Ağstafa, Şəmkir və Qazax rayonlarının düzən torpaqları, habelə Gəncə və Naftalan şəhərlərinin mövcud hüdudundan kənarda olan kənd təsərrüfatı təyinatlı torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	60 45 38 26 -
8.	Mil-Qarabağ (Bərdə, Ağcabədi, Beyləqan, Tərtər rayonları, Ağdam, keçmiş Ağdərə rayonunun ərazisi və Xocavəndin düzən torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	127 102 80 45 -
9.	Arazboyu (Füzuli, Zəngilan və Cəbrayıl rayonlarının düzən torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	56 41 37 20 -
10.	Daşkəsən-Gədəbəy (Gədəbəy, Daşkəsən rayonu, Goranboy, Göygöl, Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarının dağ torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	42 35 26 16 -
11.	Laçın-Qubadlı (Kəlbəcər, Laçın, Qubadlı rayonları və Zəngilan rayonunun dağ torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	29 23 17 11 -
12.	Dağ-Qarabağ (Şuşa, Xocalı rayonları, Xocavənd, keçmiş Ağdərə rayonunun ərazisi, habelə Ağdam, Füzuli, Cəbrayıl rayonlarının	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	42 30 27 20 -

1	2	3	5	6
13.	Muğan-Salyan (Salyan, Saatlı, Sabirabad, İmişli, Neftçala və Biləsuvar rayonları, Hacıqabulun Kür qırağı düzən hissəsi, habelə Şirvan şəhərinin mövcud hüdudundan kənarda olan kənd təsərrüfatı təyinatlı torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	98 92 75 33 -
14.	Aran-Şirvan (Kürdəmir, Zərdab, Ucar, Yevlax, Ağdaş rayonları, Ağsu, Göyçay rayonlarının düzən torpaqları və Mingəçevir şəhərinin mövcud hüdudundan kənarda olan kənd təsərrüfatı təyinatlı torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	84 75 65 30 -
15.	Lənkəran-Astara (Lənkəran, Masallı və Astara rayonlarının düzən torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	125 117 92 50 -
16.	Cəlilabad (Cəlilabad rayonunun düzən torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	73 59 47 - -
16a	Üçtəpə-Təzəkənd (Cəlilabad rayonunun dağ torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	60 48 58 - -
17.	Lerik-Yardımlı (Lerik, Yardımlı rayonları, Masallı, Lənkəran və Astara rayonlarının dağ torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	35 24 18 - -
18.	Şərur-Ordubad (Şərur, Sədərək, Babək, Ordubad və Culfa rayonlarının düzən torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	53 40 31 20 -
19.	Şahbuz-Paraqaçay (Şahbuz rayonu, Şərur, Sədərək, Babək, Ordubad, Culfa rayonlarının dağ torpaqları)	I II III IV V	100-81 80-61 60-41 40-21 20-1	24 18 12 8 -

əkin, dinc və çoxillik əkmələrin altındakı torpaqların I keyfiyyət qrupu üçün müəyyənləşdirilmiş şərti ballarının 1/10 miqdarında qəbul edilir.

KADASTR NÖMRƏSİ – hər bir kadastr obyektinə verilimiş unikal nömrə.

KADASTR PLANI – kadastr obyekti olan ərazinin kartoqrafik və ya qrafik qaydada yaradılmış tematik təsviri.

KADASTR UÇOTU – kadastra daxil edilmiş obyektlərin keyfiyyət və kəmiyyətləri barədə sistemləşdirilmiş məlumatların uçotunun aparılması.

KADRLARIN HAZIRLANMASI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİNƏ MƏSRƏFLƏR – vergi ödəyicisinin kadrların hazırlanması və təkmilləşdirilməsi (o cümlədən kadrların ixtisas artımı) ilə əlaqədar tədris müəssisələri ilə bağladığı müqaviləyə əsasən çəkdiyi xərclər.

KAMERAL VERGİ YOXLAMASI – vergi orqanı tərəfindən yerlərə getmədən vergi orqanında olan, vergi ödəyicisi tərəfindən təqdim edilən vergi hesabatları, habelə vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan digər sənədlər əsasında keçirilən yoxlama.

Kameral vergi yoxlaması AR VM-in 37-ci maddəsində göstərilən qaydalarla aparılır. Bu yoxlama vergi ödəyicisi tərəfindən verginin hesablanması və ödənilməsi üçün əsas olan sənədlərin vergi orqanına təqdim edildiyi gündən 30 gün müddətində keçirilir.

Kameral yoxlama aparmaq üçün vergi ödəyicisindən təqdim olunmuş bəyannamə ilə bağlı sənədlərdə olan məlumatlar arasında ziddiyyət və ya səhv aşkar edildikdə vergi orqanı vergi ödəyicisindən əlavə məlumat, sənəd və izahat tələb edə bilər.

Kameral yoxlama zamanı vergi bəyannaməsində vergilərin düzgün hesablanmaması (vergi məbləğinin az və ya artıq göstərilməsi) aşkar edildikdə, vergi ödəyicisinə 5 gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada vergi orqanı tərəfindən vergilərin hesablanmasına dair bildiriş göndərilir. Bildirişdə hesablamanın səbəbləri və vergi ödəyicisinin şikayət etmək hüququ göstərilməlidir.

Yuxarıda göstərilən hallarda və ya kameral yoxlama aparmaq üçün vergi bəyannaməsi, sənədlər və məlumatlar üzrlü səbəb olmadan təqdim edilmədikdə, VM-in 67-ci maddəsinə müvafiq olaraq, vergilər hesablanır.

Kameral vergi yoxlaması zamanı vergi orqanı müəyyən edilmiş qaydalara riayət etmədikdə, vergi ödəyicisinin səyyar vergi yoxlaması keçirilən zaman vergi orqanının təklifi əsasında həmin yoxlamanın keçirildiyi vaxta qədər yol verdiyi səhvləri (o cümlədən vergi məbləğlərinin düzgün hesablanmaması, vergi məbləğlərinin azaldılması və sair) 30 gün müddətində düzəltmək (aradan qaldırmaq) hüququ vardır və o, həmin müddət bitənədək yol verdiyi və kameral yoxlama zamanı müəyyən edilə bilən vergi qanunvericiliyinin pozulmasına görə (faizlərin ödənilməsi istisna olmaqla) məsuliyyət daşımır.

KANAL YIĞIMI – meliorasiya və irriqasiya məqsədləri üçün istifadə olunan və su istehlakçıları tərəfindən meliorasiya və irriqasiya məqsədləri üçün çaylardan, göllərdən, kanallardan və digər su təsərrüfatı sistemlərindən birbaşa götürülən suyun hər kubmetrinə görə ödənilməli olan yığım. Məbləği NK-nın 2002-ci il 17 iyun tarixli 97 nömrəli qərarı ilə təsdiq edilmiş "AR-də sudan pullu istifadə qaydaları haqqında Əsasnamə" ilə müəyyən olunur və hər kubmetrə bir manat təşkil edir.

KAPİTAL – daşınar və daşınmaz əmlakı ifadə edən beynəlxalq vergi hüququ termini. Bu kateqoriyaya nağd pul vasitələri, mülkiyyət hüquqlarını təsdiq edən aksiyalar və ya başqa sənədlər, veksellər, istiqrazlar və başqa borc öhdəlikləri, həmçinin patentlər, ticarət markaları, müəllif hüquqları və s. daxildir. Faktiki olaraq bu terminin mənası "əmlak" anlayışından az fərqlənir.

KAPİTAL ARTIQLIĞI – adi və imtiyazlı aksiyaların (səhmlərin) dəyəri çıxılmaqla şirkətin şəxsi vasitələri, həmçinin bölüşdürülməmiş mənfəəti.

KAPİTAL BAZARI – pul vasitələrinin tədavülünün müddəti bir ildən çox olan maliyyə bazarının bir hissəsi. Kapital bazarında azad kapitalın yenidən paylaşdırılması və onun müxtəlif gəlirli maliyyə aktivlərinə investisiya olunması baş verir.

KAPİTAL İXRACI – daha yüksək mənfəət normasının əldə edilməsi məqsədilə ölkə xaricində kapital qoyuluşlarının edilməsi və ya başqa ölkələrdə mülkiyyətin əldə olunması.

Korporativ maliyyənin bir nümunəsi səhmlərin şirkət tərəfindən investisiya bankları kimi institusional investorlara satılmasıdır. İnvestisiya bankları adətən bu səhmləri investorlara satır. Səhmi əldə edən şirkətdə pay sahibi olur.

Maliyyədən fiziki şəxslər (şəxsi maliyyə), hökumət (dövlət maliyyəsi), şirkətlər (korportaiv maliyyə) və məktəblərdən tutmuş qeyri-mənfəət qurumlarına qədər geniş spektrdə istifadə olunur. Ümumiyyətlə, yuxarıdakı fəaliyyətlər öz məqsədinə çatmaq üçün, institusional mexanizmindən asılı olaraq, uyğun maliyyə aləti və metodundan istifadə edir. Maliyyə biznesin idarə edilməsinin ən vacib amillərindən biridir. Uyğun maliyyə planı olmadan yeni müəssisə uğur qazana bilməz. Pulun (likvid aktiv) idarə edilməsi fiziki və hüquqi şəxslərin gələcəyinin təminatı üçün vacibdir.

KAPİTAL TUTUMU – bir şərti vahid dəyərində olan məhsulun, malların, xidmətlərin istehsalı üçün lazım olan kapitalı xarakterizə edən göstərici. Kapital tutumu pul şəklində olan və bir il ərzində istehsal olunan əsas vasitələrin məhsulun həcminə bölünməsi yolu ilə müəyyən edilir.

KAPİTALDAN GƏLİRLƏRƏ VERGİ – kapitaldan alınan gəlirlərdən tutulan vergi. Adətən, gəlirin 20-40% hüdudlarında müəyyən olunur. İsveçrədə bu vergi kapitaldan, lotereya uduşları və müəyyən sığorta mükafatlarından gələn gəlirin 35%-i miqdarında tutulur. Belə vergi ödənişləri İsveçrə federal vergi bəyannaməsində qeydiyyatdan keçmiş şəxslər üçün yumşaldıla və ya kanton vergi öhdə-

likləri müqabilində kreditləşdirilə bilər. Ünvanı İsveçrədən kənarda olan fiziki və hüquqi şəxslər, onların vətəndaşı olduğu ölkə ilə İsveçrə arasında imzalanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişə əsasən İsveçrə mənbə vergisindən azad ola bilərlər. İllik faizi 50 İsveçrə frankından yüksək olmayan bank əmanətləri bu vergidən azaddır. AFR-də kapitalın gəlirinə qoyulan vergi gəlir vergisinin formalarından biridir. Bu vergi kapitaldan gələn gəlirlərin, dividentlərin, səhm üzrə faizlərin və s. bilavasitə ödənilməsi zamanı fiziki şəxslərdən tutulur. Korporasiya vergisinin ödənilməsindən sonra dividentlərin cəminə vergi qoyulur. Kapitaldan gələn gəlirlərin vergi dərəcəsi 25%-dir. Bütün vergi daxilolmalarının ümumi həcmində kapital vergisinin payı 1,6 -1,7%-i aşmır.

KAPİTALIN HƏRƏKƏTİ İLƏ BAĞLI VALYUTA ƏMƏLİYYATLARI – maddi faydanın əldə edilməsi və hüquqi şəxsin idarə edilməsində hüquqların əldə edilməsi üçün həmin hüquqi şəxsin nizamnamə kapitalına birbaşa və dolayı investisiya qoyuluşları, cari valyuta əməliyyatları istisna olmaqla bütün digər valyuta əməliyyatları.

KAPİTALLAŞDIRMA ƏMSALI – vergi ödəyicisi olan Rusiya təşkilatı təşkilatın nizamnamə kapitalının (fondunun) 20%-dən çoxuna birbaşa və ya dolayısı ilə malik olan xarici təşkilatın xeyrinə borc öhdəlikləri üzrə faizlər şəklində gəliri ödəyərkən təşkilatların mənfəət vergisi üzrə vergi bazasının təyin edilməsi vaxtı tətbiq edilən əmsal. Kapitallaşdırmanın əmsalı ödənməmiş idarəolunan borcun ölçüsünün şəxsi kapitalın ölçüsünə bölünməsi yolu ilə müəyyən edilir.

KARGÜZARLIQ – təşkilatın öz vəzifələrini həyata keçirməsi ilə əlaqədar sənədləşdirmə və sənədlərlə işin təşkili üzrə fəaliyyəti.

KARİB BİRLİYİ – 1973-cü ildə bağlanmış Çaquaramas Müqaviləsi əsasında yaradılmış iqtisadi birlik. Fəaliyyətə 1974-cü ildə başlamışdır. 1968-ci ildən mövcud olan Karib Azad Ticarət Assosiasiyasını əvəz edir. İqamətgahı Qayananın Corctaun şəhərində yerləşən bu təşkilata Antiqua və Barbuda, Barbados, Beliz, Qayana, Qrenada, Dominika, Sent-Vinsent, Sent Lüsiya, Trinidad və Tobaqo, Yamayka, İngiltərənin tabeliyində olan Montserrat və Sent-Krostofer-Angilya daxildir.

KASSA – müəssisə və təşkilatda olan nağd pul; kassa əməliyyatlarını yerinə yetirən müəssisənin, təşkilatın, idarənin və s. struktur bölməsi.

KASSA ƏMƏLİYYATLARI – nağd vəsaitlərin müştərinin (vəsaiti alanın) hesabına qəbul edilməsini, müştəri tərəfindən nağd vəsaitlərin öz



hesabından çıxarılmasını, nağd vəsaitlərin müqavilədə nəzərdə tutulmuş şərtlərə və müddətlərə uyğun olaraq bankda saxlanılmasını nəzərdə tutan nağd pul vəsaitləri ilə aparılan əməliyyatlar.

KASSA HESABI – hüquqi və fiziki şəxslərin pul vəsaitlərinin mövcudluğu və hərəkəti haqqında məlumatların ümumiləşdirilməsi üçün nəzərdə tutulmuş mühasibat hesabı.

KASSA METODU – gəlirin əldə edilməsi zamanı və gəlirdən çıxılan xərclərin yalnız bu xərclərin çəkildiyi vaxt nəzərə alınması.


KASSA ORDERİ – müəssisələrin, təşkilatların və idarələrin kassa hesabları vasitəsilə nağd pul vəsaitlərinin qəbulu və verilməsi üzrə kassa əməliyyatlarının aparılması və rəsmiləşdirilməsi üçün nəzərdə tutulan pul sənədi.

KASSADAKI NAĞD PUL – müəssisə, fərdi sahibkar (fiziki şəxs) və təşkilatın kassasında olan nağd pul vəsaitlərinin miqdarı.

KASSADAKI NAĞD PUL ARTIQLIĞI – kassadakı nağd pul vəsaitinin kassa xidmətinin normativ tələbatından çox olan hissəsi.

KEYFİYYƏT STANDARTI – eyni tipli məhsul (işlər, xidmətlər) qrupunun xüsusiyyətlərinin göstərilən normaların tələblərinə uyğun hazırlanma, istehsal və tətbiq qaydalarını müəyyən edən normativ-texniki sənədlər toplusu. Keyfiyyət standartları ölkədaxili və ya beynəlxalq ola bilər. Hal-hazırda dünya üzrə keyfiyyətin ümumi standartları ISO-9000 beynəlxalq standartları tərəfindən tənzimlənir.

KEYNS CON MEYNARD (1883-1946) – ABŞ-da Kembricdə məntiq və iqtisadi nəzəriyyə professoru ailəsində anadan olmuşdur. Geniş riyazi və iqtisadi biliyə malik olan C.Keynsi müəllimi A.Marşall 1908-ci ildə Karol kollecinə həm iqtisadiyyatdan, həm də riyaziyyatdan mühazirələr oxumağa dəvət edir. 1909-1915-ci illərdə o, həmin kollecdə işləmişdir.



İlk elmi məqaləsini 1909-cu ildə "İndeks metodu" adı altında dərc etdirmişdir. Elm aləmində ilk dəfə olaraq ona şöhrət qazandıran 1913-cü ildə dərc etdirdiyi "Hindistanın pul tədavülü və maliyyəsi" əsəri olmuşdur. C.Keynsin iqtisadi fikrinin ən dəyərli cəhəti ondan ibarətdir ki, bazar iqtisadiyyatına özü-özünə tənzimlənən bir mexanizm kimi deyil, əksinə, onun təbiətinə vaxtaşırı xronoloji böhran törədici elementlərlə əhatə olunduğunu sübut etmişdir. A.Smitin "azad bazar" ideyasının "tənzimlənən bazar" ideyası ilə əvəz olunması onun əsas ideyası idi. İqtisadi təfəkkür tərzinin formalaşmasında psixoloji qanunların rolunu üzə çıxarmışdır. Xüsusən, "səmərəli tələb"in əmələ gəlməsində dövlətin stimullaşdırıcı imkanlarını göstərmişdir. İşsizliyin aradan qaldırılmasına görə hər cür əməkhaqqının azaldılması metodlarının əleyhinə

çıxmışdır. Müəyyən işsizlik səviyyəsini saxlamaqla, tam məşğulluğun həyata keçirilməsi istiqamətlərini müəyyən etmişdir. İstehsal miqyası ilə istehlakın miqyası arasındakı birbaşa əlaqəni izah etməklə, gəlirlərin artım səviyyəsini göstərmişdir. İstehlak səviyyəsi ilə gəlirlərin səviyyəsi arasındakı fərqin, ümumi işsizliyin azalması nəticəsində psixoloji qanunların təsiri nəticəsində sonuncunun xeyrinə dəyişildiyi istiqamətini əsaslandırmışdır. İnvestitsiyanın artımı ilə gəlirlərin artımı arasındakı birbaşa əlaqənin mahiyyətinin əsaslandırılması C.Keyns nəzəriyyəsinin ən incə və tutarlı istiqamətlərindəndir.

KƏND TƏSƏRRÜFATI – bitki və heyvan mənşəli məhsulların istehsal olunması, onların keyfiyyət və səmərəliliyinin yüksəldilməsi, bu məhsulların uyğun şərtlərdə mühafizəsi, işlənib qiymətləndirilməsi və satışa çıxarılması.

KƏND TƏSƏRRÜFATI MALLARI – kənd təsərrüfatında istehsal olunan mallar.

KƏND TƏSƏRRÜFATININ MƏHSUL İSTEHSALÇILARI – istehsal etdiyi məhsulun dəyər ifadəsi ilə ümumi miqdarının 50 faizdən, o cümlədən tutulan balıq və su bioresurslarının 70 faizdən çoxunu kənd təsərrüfatı məhsulları təşkil edən kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan fiziki və ya hüquqi şəxs.

KƏNDLİ TƏSƏRRÜFATI – mülkiyyətinə verilmiş torpaqda əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalı ilə, onların emalı və satışı ilə məşğul olan vətəndaşların əmək birləşməsi olmaqla, sərbəst sahibkarlıq forması. Kəndli təsərrüfatı ailə üzvlərinin və onlarla daimi işləyən digər şəxslərin ümumi mülkiyyətində olan istehsal alət və vasitələrinə, əsasən bir ailənin üzvlərinin əməyinə əsaslanan, hüquqi şəxs statusuna malik olan müstəqil təsərrüfatçılıq subyektidir. Kəndli təsərrüfatı bir nəfərdən də ibarət ola bilər.



KİÇİK MÜƏSSİSƏ – işçilərinin orta siyahı sayı (mövsümi cəlb edilən işçilər nəzərə alınmadan), illik dövriyyələrinin həcmi və digər meyarlara əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu cür müəyyən edilmiş müəssisə.

KİNO VƏ TELEÇƏKİLİŞLƏRİN APARILMASI HÜQUQUNA GÖRƏ YIĞIM – kommersiya kino və televiziya təşkilatları tərəfindən yerli idarəetmə orqanlarından müvafiq tədbirlərin görülməsini tələb edən çəkilişlərin aparılması zamanı yerli orqanların müəyyən etdiyi həcmdə yerli büdcələrə edilən ödəniş.

KLİRİNQ – hesablaşmalar sisteminin bir və ya bir neçə iştirakçısının həmin sistemin bir və ya bir neçə digər iştirakçısına verdiyi və ya onlardan aldığı ödəniş məbləğləri üzrə

yaranan tələblərin və öhdəliklərin, onların fərqi olan bir xalis tələb və ya bir xalis öhdəliyə çevrilməsi prosesi.

KLİRİNQ FƏALİYYƏTİ – qiymətli kağızlarla əqdlər üzrə qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (məlumatların toplanması, yoxlanması, üzləşdirilməsi, mühasibat sənədlərinin hazırlanması), hesablaşmaların aparılması və öhdəliklərin qarşılıqlı icrasının təmin edilməsi üzrə peşəkar fəaliyyət.

KOD – hər bir konkret obyektin eyniləşdirilməsi üçün istifadə edilən xüsusi alqoritm vasitəsilə verilmiş rəqəmlərin kombinasiyası.

KOLLİZİYA HÜQUQU – Beynəlxalq xüsusi hüququn tərkibinə daxildir, müxtəlif dövlətlərin qanunları arasında mövcud kolliziyaları həll edən normaların məcmusudur.

KOMMANDİT ORTAQLIĞI – ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirən və ortaqlığın öhdəlikləri üzrə öz əmlakı ilə məsuliyyət daşıyan iştirakçılar (tam ortaqlar) ilə yanaşı, ortaqlığın fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların məbləği həddində risk daşıyan və ortaqlığın sahibkarlıq fəaliyyətində iştirak etməyən bir və ya bir neçə iştirakçısı – maya qoyanı (kommanditçi) olan hüquqi şəxs. Kommandit ortaqlığında iştirak edən tam ortaqların hüquqi vəziyyəti və ortaqlığın öhdəlikləri üzrə onların məsuliyyəti tam ortaqlıq iştirakçıları haqqında qaydalar ilə müəyyənləşdirilir.

Şəxs yalnız bir kommandit ortaqlığında tam ortaq ola bilər. Tam ortaqlığın iştirakçısı kommandit ortaqlığında tam ortaq ola bilməz. Kommandit ortaqlığındakı tam ortaq tam ortaqlığın iştirakçısı ola bilməz. Kommandit ortaqlığının firma adında bütün tam ortaqların adları ilə "kommandit ortaqlığı" sözləri və ya "və ortaqları" və "kommandit ortaqlığı" sözləri əlavə edilməklə azı bir tam ortağın adı göstərilməlidir.

Kommandit ortaqlığında idarəetməni tam ortaqlar həyata keçirirlər. Onun tam ortaqlar tərəfindən idarə edilməsi və işlərinin aparılması qaydasını tam ortaqlar müvafiq qaydalara əsasən müəyyənləşdirirlər. Maya qoyanların kommandit ortaqlığının idarə edilməsində və işlərinin aparılmasında iştirak etmək, onun adından etibarnaməsiz çıxış etmək ixtiyarı yoxdur. Onlar ortaqlığın idarə edilməsi və işlərinin aparılması üzrə tam ortaqların hərəkətləri barəsində mübahisə edə bilməzlər (AR MM, maddə 84).

Kommandit ortaqlığına maya qoyanın hüquqları aşağıdakılardır (AR MM, maddə 85):

- ortaqlığın mənfəətinin onun şərikli kapitaldakı payına düşən hissəsini nizamnamədə nəzərdə tutulan qaydada almaq;
- ortaqlığın illik hesabatları və balansları ilə tanış olmaq;
- maliyyə ili qurtardıqda ortaqlıqdan çıxmaq və nizamnamədə nəzərdə tutulan qaydada öz mayasını almaq;
- şərikli kapitaldakı payını və ya onun hissəsini digər maya qoyana və ya üçüncü şəxsə vermək.

Kommandit ortaqlığına maya qoyanların hamısı ortaqlıqdan çıxdıqda o, ləğv edilir. Lakin tam ortaqlar kommandit ortaqlığını ləğv etmək əvəzinə onu tam ortaqlığa çevirə bilərlər.

Kommandit ortaqlığı tam ortaqlığın ləğv edilməsi əsasları üzrə də ləğv edilir. Lakin əgər kommandit ortaqlığında azı bir tam ortaq və bir maya qoyan qalırsa, ortaqlıq saxlanılır (AR MM, maddə 86).

KOMMERSİYA FƏALİYYƏTİNDƏN MƏNFƏƏT – beynəlxalq iqtisadi münasibətlər sahəsində fiziki və hüquqi şəxslərin gəlirlərinin elə növüdür ki, onlar üçün ikiqat vergitutmanın aradan qaldırılması barədə sazişlərin normaları, həmçinin bir sıra ölkələrin milli vergi qanunvericiliklərinin normaları ilə vergitutmanın əsas rejimi və ikiqat vergitutmanın aradan qaldırılmasının standart formaları müəyyən edilir.

KOMMERSİYA HÜQUQİ ŞƏXSİ – qanunla qadağan edilməyən istənilən fəaliyyət növlərini həyata keçirmək üçün zəruri mülki hüquqlara malik olan və mülki vəzifələr daşıya bilən kommersiya təşkilatı.

KOMMERSİYA (VERGİ) SİRRİ – hüquqi və fiziki şəxslərin istehsal, texnoloji, idarəetmə, maliyyə və başqa fəaliyyəti ilə bağlı, sahibinin razılığı olmadan açıqlanması, onların qanuni maraqlarına ziyan vura bilən məlumatlar. AR VM-in 30.2 maddəsinə görə, aşağıdakı məlumatlar istisna olmaqla vergi ödəyicisi barədə əldə edilən istənilən məlumat kommersiya (vergi) sirri və şəxsi həyata dair məlumat hesab olunur:

- vergi ödəyicisinin razılığı ilə aşkar edilən;
- VÖEN haqqında;
- müəssisənin nizamnamə fondu (nizamnamə kapitalı) haqqında;
- vergi qanunvericiliyinin pozulması və bu pozulmalara görə məsuliyyət tədbirləri haqqında;
- vergi ödənişləri üzrə borclar;
- hüquqi şəxslərin dövlət reyestrindəki məlumatlar (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna etməklə).

AR VM-ə görə (maddə 30.3), kommersiya (vergi) sirri vergi orqanları, onların vəzifəli şəxsləri tərəfindən, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, açılmamalıdır.

Vergi orqanları və onların vəzifəli şəxsləri vergi ödəyiciləri haqqında məlumatı ancaq aşağıdakı hallarda digər orqanlara qanunvericiliklə müəyyən edilmiş qaydada verə bilərlər:

- vergi orqanlarına və onların vəzifəli şəxslərinə vergi orqanlarının vəzifələrinin həyata keçirilməsi məqsədi ilə;
- vergi qanunvericiliyinin cinayət tərkibli pozuntuları ilə əlaqədar onların qarşısının alınması və istintaq aparılması üçün müvafiq icra hakimiyyəti orqanlarına; burada icra hakimiyyəti orqanlarının səlahiyyətlərini AR CPM-də müəyyən edilmiş dövlət orqanları həyata keçirirlər;
- inzibati xətalar və ya vergi qanunvericiliyinin cinayət tərkibli pozuntuları ilə bağlı işlərə baxılması ilə əlqədar olan məhkəmələrə;
- AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq digər dövlətlərin müvafiq dövlət hakimiyyəti orqanlarına;
- sosial müdafiə haqqında qanunların yerinə yetirilməsi üçün zəruri olan hədlərdə sosial müdafiə və tibbi sığorta fondlarına;

- gömrük qanunvericiliyinin tətbiq edilməsi məqsədləri üçün gömrük orqanlarına;

- cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə maliyyə monitorinqi orqanına.

AR CM-in 202-ci maddəsinə görə, kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və yaymaya görə cəzalar müəyyən edilmişdir. Göstərilən hərəkətlər sənədləri oğurlamaqla, satın almaqla və ya hədələməklə, habelə digər qanunsuz üsulla törədildikdə 100 man.-dan 500 man.-dək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır; məlumatların tamah və ya başqa şəxsi niyyətlə qanunsuz yölla istifadə edilməsi və ya yayılması külli miqdarda ziyan vurmaqla törədildikə 500 man.-dan 1000 man.-dək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

KOMPENSASİYA MƏHSULU – məhsulun bölünməsi haqqında razılaşmaya görə işlərin icra edilməsinə onun xərclərinin kompensasiyası üçün investorun mülkiyyətinə verilməsi üçün istehsal edilmiş məhsulun bölünməsi barədə razılaşmalar haqqında qanunda istifadə edilən termin. İnvestora ödənilməli olan xərclərin tərkibi kompensasiya olunmuş məhsulun hesabına RF qanunvericiliyinə uyğun olaraq razılaşma yolu ilə təyin edilir.

KOMPENSASİYA ÖDƏMƏLƏRİ – itkilərin, zərərin, çəkilmiş xərclərin əvəzinin ödənilməsinə yönəldilən ödəmələr.

KOMPENSASİYA RÜSUMLARI – ənənəvi gömrük rüsumlarından əlavə, yerli istehsalçıların maraqlarının müdafiəsi məqsədilə dövlətin gömrük ərazisinə birbaşa və ya dolayı subsidiyalar əsasında istehsal olunmuş malların idxalına tətbiq edilən xüsusi gömrük rüsumları.

KOMPENSASİYA RÜSUMU – daxili bazarın müdafiəsi məqsədilə daxili və idxal olunmuş malların qiymətlərinin bərabər səviyyəyə çatdırılması üçün tətbiq olunan gömrük rüsumu.

KOMPENSASİYA TƏDBİRLƏRİ – bir dövlətin kompensasiya rüsumlarının, o cümlədən müvəqqəti kompensasiya rüsumlarının tətbiqi vasitəsilə digər dövlət (dövlətlər birliyi) tərəfindən subsidiya şəklində verilən malların idxalının məhdudlaşdırılmasına yönələn tədbirlər.

KONDUİT KOMPANİYASI – qanunları pozmamaq şərti ilə vergidən yayınmaq məqsədilə yaradılmış şirkət.

KONOSAMENT – sahibinin yükə dair sərəncam vermək və daşıma başa çatdıqdan sonra yükü almaq hüququnu təsdiqləyən ticarət kağızı. Konosament adsız, orderli və ya adlı ola bilər.

KONSERN – inhisarçı ictimai birliklərin daha geniş inkişaf etmiş formalarından biri hesab edilməklə, mülkiyyət və ona nəzarət edilməsinin üzvi birliyi.

KONSESSİYA – istehsalçı və ya tacir (tapşıran) ilə sənətkarlıq şəklində

müstəqil fəaliyyətlə məşğul olan şəxs (konsessioner) arasında elə bir ümumi razılaşmadır (birtipli müqavilədir) ki, onun əsasında konsessioner aşağıdakıları öhdəsinə götürür: tapşırandan müəyyən malları (kontrakt mallarını) vaxtaşırı satın almaq; bu malları öz adından və öz hesabına başqasına satmaq; bu zaman kontrakt mallarını müəyyən ərazilərdə və (və ya) müəyyən müştərilərə satmaq. Onların barəsində tapşıran konsessionerə müstəsna satış hüququ (inhisar hüququ) verir, konsessioner isə tapşıranın mallarının onun nəzarəti altında satışına təminat verməlidir. Müqavilədə ayrı şərt qoyulmayıbsa, tapşıran barəsində konsessionerin kontrakt mallarını müqavilə ərazisinin hüdudlarından kənarda və ya müqavilə müştərilərindən savayı, başqa müştərilərə satmaq hüququ yoxdur. Başqasına satmaq üçün sadə satınalma konsessiya müqaviləsinə əsas verə bilməz. Müntəzəm ticarət münasibətləri də konsessiya haqqında müqaviləyə əsas verə bilməz.

AR MM-in "Kommersiya konsessiyası" adlı 43-cü fəslində göstərilmişdir ki, konsessionerin öz ticarət fəaliyyətini sərbəst təşkil etmək, o cümlədən təkrar satış qiymətlərini sərbəst təyin etmək hüququ vardır. Konsessionerin ticarətin təşkilini, satış və ya servis xidməti metodlarını dəyişdirməsi tapşıranın mallarının optimal satışını təhlükəyə məruz qoyursa, müqavilənin tapşıran tərəfindən dərhal ləğv edilməsinə əsas verə bilər.

Birtipli müqavilənin qüvvədə olduğu müddətdə tapşıranın eyni və ya oxşar malları satmaq məqsədi ilə birbaşa və ya üçüncü şəxslər vasitəsi ilə konsessionerin müştərilərinə müraciət etməsi qadağandır.

KONSUL – öz ölkəsinin və onun vətəndaşlarının hüquqi və iqtisadi mənafelərini başqa ölkənin hər hansı şəhərində və ya rayonunda qorumaq üçün nümayəndə kimi təyin edilmiş vəzifəli şəxs. Keçmişdə Roma imperiyasında bir illik seçilən ali mülki və hərbi hakimiyyətə malik vəzifəli şəxs də konsul adlanırdı.

KONSUL ARXİVLƏRİ – konsulluğun fəaliyyətinə aid olan bütün sənədlər, yazışmalar, kitablar, lentlər, səs yazıları, habelə onlarla bağlı olan şifrə və parollar.

KONSUL DAİRƏSİ – konsulluğun yerləşdiyi dövlətlə razılıq əsasında konsul vəzifələrini icra etmək üçün ona ayrılan ərazi.

KONSUL HÜQUQU – konsulların fəaliyyətini tənzimləyən norma və prinsiplərin məcmusu (həm daxili qanunvericilik, həm də beynəlxalq hüquq normaları daxil olmaqla).

KONSUL İMMUNİTETİ – konsulluq idarəsinin və onun əməkdaşlarına verilən güzəşt və imtiyazların məcmusu. Bu immunitet dövlətin daxili qanunvericiliyi və çoxtərəfli beynəlxalq müqavilələrlə (konsul münasibətləri haqqında 1963-cü il Vyana Konvensiyası), yaxud ikitərəfli konsulluq konvensiyaları və beynəlxalq ənənələrlə müəyyən edilir.

KONSUL PATENTİ – konsul vəzifəsinə təyin edilən şəxsin öz ölkəsinin Xarici İşlər Nazirliyindən aldığı vəkalətnamə.

KONSUL YIĞIMI – konsulluğa daxil olan müraciətlərin baxılması üçün alınan haqq.

KONSULLUĞUN FUNKSİYALARI – öz ölkəsinin vətəndaşlarının və hüquqi şəxslərinin konsulluğun yerləşdiyi dövlətin qanunvericiliyindən, öz ölkəsinin və həmin dövlətin iştirak etdiyi beynəlxalq müqavilələrdən, habelə beynəlxalq adətlərdən irəli gələn bütün hüquqlardan tam həcmdə istifadə etməsi və onların pozulmuş hüquqlarını bərpa etmək üçün zəruri tədbirlər görülməsi.

KONSULLUĞUN VƏZİFƏLİ ŞƏXSİ – konsulluğun başçısı da daxil olmaqla, konsul funksiyalarını yerinə yetirmək tapşırığı almış hər bir şəxs (baş konsul, konsul, vitse-konsul, konsul agenti və konsulluğun katibi), habelə konsulluqlarda işləməyə hazırlanmaq üçün konsulluğa ezam olunmuş şəxs (stajkeçən).

KONSULLUQ – konsulluq fəaliyyəti ilə məşğul olan diplomatik nümayəndəlik.

KONSULLUQ İŞÇİSİ – konsulluqda inzibati və ya texniki vəzifələri yaxud konsulluğa xidmət etməklə bağlı vəzifələri yerinə yetirən hər hansı şəxs.

KONTİNENTAL ŞELF – sahilyanı dövlətin ərazi dənizinin xarici sərhədindən başlamış açıq dənizə doğru, beynəlxalq hüquqla müəyyən olnmuş həddə qədər uzanan dəniz dibi və onun təki.

KONTİNENTAL ŞELFDƏN İSTİFADƏYƏ GÖRƏ ÖDƏMƏLƏR – kontinental şelfin istifadəsinə görə dövlət tərəfindən tətbiq olunan ödəmələr sistemi. Bu sistemə aşağıdakı ödəmələr daxil ola bilər: müsabiqədə (hərracda) iştiraka və mineral resursların istifadəsi üçün lisenziyaların verilməsinə görə yığımlar; canlı resurslardan istifadəyə görə lisenziyanın verilməsinə görə yıgım; mineral resurslar barədə geoloji məlumatların verilməsinə görə ödəmə; mineral resursların istifadəsinə görə ödəmələr; canlı resursların istifadəsinə görə ödəmələr; canlı resurslardan limitdən artıq həcmdə və qeyri-rasional istifadəyə görə cərimələr; aksizlər; mineral ehtiyatların yenidən bərpasına ayırmalar; tullantıların və digər materialların zərərsizləşdirilməsi üçün icazələrin verilməsinə görə yığım və s.



KONTRABANDA – malların, qiymətli əşyaların və digər predmetlərin qanunsuz olaraq dövlət sərhədindən keçirilməsi.

KONTRİBUSİYA – qalib gəlmiş dövlətin (müasir beynəlxalq hüquqla qadağan edilmişdir) xeyrinə qoyulan ödəniş; işğal edilmiş yerin əhalisindən düşmən tərəfindən alınan məcburi pul yığımı.

KORPORASİYA – təsərrüfatçılıq müəssisəsi yaratmaq məqsədilə həm fiziki və həm də hüquqi şəxslərin qanuni öhdəliklərlə əlaqələndirilmiş könüllü təşkilati iş birliyi.

KORPORATİV VERGİ – faktiki olaraq bütün inkişaf etmiş ölkələrdə və əksər inkişaf etməkdə olan ölkələrdə hüquqi şəxslərin gəlirlərindən (mənfəətlərindən) tutulan vergi.

Bu vergi aşağıdakı kimi də adlana bilər:

a) cəmiyyətlərin (səhmdar cəmiyyətlərinin) mənfəət vergisi;

b) hüquqi şəxslərin gəlir vergisi.

Bu vergi əsasən keçən əsrin ortalarından tətbiq olunur. Məsələn, İngiltərədə 1965-ci ildən başlayaraq vergi sisteminə daxil edilmişdir və 1984-cü ildə aparılan islahatlar nəticəsində vergi dərəcələri xeyli aşağı salınmışdır.

Korporativ verginin vergitutma obyekti şirkətlərin (korporasiyaların) gəlirlərindən məsrəflərin çıxılması nəticəsində alınan mənfəətdir. Məsrəflərə aşağıdakılar aid edilir:


- istehsal, kommersiya və nəqliyyat xərcləri;
- işçilərin əməkhaqqına çəkilən xərclər;
- borclar üzrə faizlər;
- cari ildə və əvvəlki illərdə itkilər (zərər);
- reklama, təqdimata və elmi araşdırmalara çəkilən xərclər.

Müxtəlif ölkələrin qanunvericiliklərində yuxarıda göstərilən məsrəflərə müəyyən məhdudiyyətlər qoyulur.

Vergi ili təqvim ili və ya maliyyə ili ola bilər.

KORPORATİV VERGİNİN İMPUTASİYA SİSTEMİ – Belçikada tətbiq edilmiş, Danimarka, İrlandiya, İtaliya, Böyük Britaniya və Şimali İrlandiya Krallığı, Fransa korporasiyalarının gəlirinin ikiqat vergiqoymasının aradan qaldırması məqsədi ilə hüquqi şəxslərin korporativ vergisinin vergitutma subyektlərindən vergi öhdəliklərinin hesablanılması sistemidir. Bu sistemlə şirkətin bölünən və bölünməyən mənfəəti (gəliri) vahid dərəcə üzrə korporativ vergiyə cəlb edilir. Səhmdara divident ödənilərkən korporasiyalardan yalnız gəlir vergisinin dərəcəsi həcmində avans olaraq vergi tutulur. İlin sonunda korporativ verginin ümumi məbləği hesablanarkən bütün avans ödənişləri bu ümumi hesablanmış məbləğdən çıxılır və qalıq büdcəyə ödənilir. İmputasiya sistemində vergi qoyulan səhmdarlar aksiyalara (səhmlərə) görə gəlirini tamamilə, yəni vergi çıxılmadan alırlar, korporasiyadan avans ödənişi isə vergi krediti şəklində rəsmiləşdirilir, yəni səhmdarlar rəsmən korporativ verginin ödəyicisi olmurlar. Səhmdar tərəfindən tam həcmdə alınmış divident məbləği onun ümumi gəlirinə daxil edilir və korporasiyalardan vergi güzəştləri nəzərə alınmaqla və tutulmuş avans vergisi çıxılmaqla gəlir vergisinə cəlb olunur. Vergilərin harmonizasiyası üzrə tədbirlər çərçivəsində Avropa İttifaqının bütün üzv ölkələrinin bu sistemə keçidi nəzərdə tutulmuşdur.

KOUZ RONALD HARRİ (1910) – ingilis iqtisadçısı, mikroiqtisadiyyat, iqtisadi təşkil və institusional iqtisadiyyat nəzəriyyəsi üzrə əsərlərin müəllifidir. "İnstitusional struktur və iqtisadiyyatın fəaliyyət göstərməsi üçün mülkiyyət hüquqları və sövdələşmələrin dəyərinin mənasının açılmasına və izah edilməsinə görə" 1991-ci ildə iqtisadiyyat üzrə



Nobel mükafatına layiq görülmüşdür. Onun əsərləri ənənəvi mikroiqtisadi nəzəriyyənin çərçivəsini xeyli genişləndirdi. Bazar mexanizminə başlıca təşkilati əlaqələndirici rolu ayıran və o dövrdə iqtisadi ədəbiyyatda üstünlük təşkil edən ənənənin əksinə olaraq, R.Kouz ilk dəfə bazar qüvvələrinin fəaliyyətinə təsir göstərə bilən və hətta bazar sövdələşmələrini pozan işgüzar firmanın təşkilati rolu haqqında məsələ qaldırdı. O, ilk dəfə olaraq iqtisadi təşkilin təhlilinə "sövdələşmələr üzrə xərclər"i daxil etdi və göstərdi ki, müəssisənin fəaliyyətinin təşkili və əlaqələndirilməsi ilə bağlı xərclərin artması son nəticədə bazardan firmaya sonrakı əməliyyatların yerdəyişməsini məhdudlaşdırır.

KÖLGƏ İQTİSADİYYATI – gəlirin qeydiyyatdan gizlədilən hissəsi, əsasən vergi, gömrük yığımlarından, qanunsuz silah satışından, narkotik alverindən və s.-dən əldə edilən vəsaitlərin hesabına formalaşır. Korrupsiya və rüşvətdən yararlanaraq şəbəkə qurulur və tədricən genişlənir.

KÖNÜLLÜ AUDİT – təsərrüfat subyektinin özünün qərarı ilə aparılan audit.

KÖNÜLLÜ QEYDİYYAT – ümumi mənada xüsusi reyestrdə uçotu aparılan şəxslərin sırasına könüllü əsaslarla qoşulma ifadə edən anlayış. AR-in vergi qanunvericiliyində bu termin ƏDV-nin tətbiqinə aid edilir.

KÖNÜLLÜ SIĞORTA MÜQAVİLƏLƏRİ ÜZRƏ ÖDƏMƏLƏR – qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, könüllü sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği.

KÖNÜLLÜ VERGİ – məcburi xarakter daşımayan, potensial vergi ödəyicisinə ödəyib-ödəməməsinə seçim hüququ verilmiş vergi. Misal kimi, İsveçdə bəzi bələdiyyələr tərəfindən tətbiq olunan turist yığımını qeyd etmək olar.

KREDİT – qaytarılma və adətən faizlə ödəmə şərtləri ilə pul və ya əmtəə formasında borcdur (ssudadır), başqa sözlə, ssuda formasında olan, iqtisadi sövdənin müxtəlifliyidir, bu zaman bir tərəfdaş müddət, qaytarılma və bir qayda olaraq, ödənişli şərtlərlə digərinə pul və ya əmlak təqdim edir; kreditorla borc alan arasında iqtisadi münasibətləri ifadə edir.

KREDİTOR – vəsaitləri (kredit resurslarını) qaytarılma, müddətlilik və ödənilmə şərtləri ilə təqdim edən kredit münasibətlərinin iştirakçısı.

KREDİTOR BORCU – müəssisənin kreditorlar qismində çıxış edən hüquqi və fiziki şəxslərə qaytarılmalı olan borclarının pulla ifadə olunan məbləği.

KURORT YIĞIMI – bir sıra dövlətlərin vergi sisteminin əsasları haqqında qanunvericiliyə əsasən yerli yığım növü.

KURORT ZONALARINDA İSTEHSAL OBYEKTLƏRİNİN TİKİNTİSİNƏ VERGİ – RF-də kurort zonalarında istehsal obyektlərinin tikintisinə görə tətbiq edilən yerli vergi növü.

KVOTA – müəyyən dövlətlərə və dövlətlər qrupuna idxal və ya ixrac olunan mallara dəyər və kəmiyyət hədlərinin tətbiq edilməsi.

Q

QAİMƏ – mal-material qiymətlilərinin göndərilməsi və qəbulu üzrə əməliyyatların əks etdirilməsi üçün nəzərdə tutulan ilkin mühasibatlıq sənədi.

QALIQ BALANSI – əsas vəsaitlərin vəziyyətinin dəyişməsinin, istismar zamanı və təbii qüvvələrin təsiri nəticəsində onların istehlak xüsusiyyətlərini və dəyərini tədricən itirməsini əks etdirən balans.

QALIQ DƏYƏR – amortizasiya olunan əmlakın hesablanmış amortizasiya çıxıldıqdan sonrakı dəyəri. Bu dəyər əmlakın ilkin dəyəri ilə istismar müddətində hesablanmış amortizasiya məbləği arasındakı fərq kimi müəyyən edilir.

QALIQ DƏYƏRİ - aktivlərin yararlı xidmət müddətinin sonuna olan dəyər. İstismar müddəti ərzində obyektin yaxşılaşmasıyla bağlı çəkilən xərclər onun qalıq dəyərini artırır.

QANUNSUZ SAHİBKARLIQ – AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılıq (lisenziya) tələb olunduğu hallarda belə razılıq olmadan, yaxud lisenziyada nəzərdə tutulmuş şərtlərin pozulması və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə sahibkarlıq fəaliyyəti ilə məşğul olma. AR İXM-nin 199-cu maddəsinə əsasən, qanunsuz sahibkarlığa görə fiziki şəxslər 10 man.-dan 15 man.-dək miqdarda, vəzifəli şəxslər 30 man.-dan 50 man.-dək miqdarda, hüquqi şəxslər 120 man.-dan 160 man.-dək miqdarda cərimə edilirlər. AR CM-in 192-ci maddəsinə görə, bu cür sahibkarlıq fəaliyyəti ilə məşğul olma vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurduqda, habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə – cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki misli miqdarında cərimə və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır; eyni əməllər külli miqdarda ziyan vurduqda, yaxud külli miqdarda gəlir əldə etməklə törədildikdə, yaxud mütəşəkkil dəstə tərəfindən törədildikdə – cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç misli miqdarında cərimə və ya bir ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

QANUNSUZ VALYUTA ƏMƏLİYYATLARI – valyuta tənzimi haqqında AR qanunvericiliyini pozmaqla valyuta sərvətlərinin ictimai yerlərdə alınıb-satılması və ya dəyişdirilməsi, valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi, müvəkkil banklar tərəfindən müştərilərin xarici valyuta əməliyyatlarının qanunvericiliklə müəyyən olunmuş qaydalarının pozularaq aparılması, avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində qanunvericiliklə müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilməməsi, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmaması.

QAPALI SƏHMDAR CƏMİYYƏTİ – səhmləri yalnız onun təsisçiləri arasında və ya qabaqcadan müəyyənləşdirilmiş digər şəxslər dairəsində yayılan səhmdar cəmiyyəti. Bu cür cəmiyyət buraxdığı səhmlərə açıq abunə yazılışı apara bilməz və ya başqa şəkildə onları əldə edilmək üçün şəxslərin qeyri-məhdud dairəsinə təklif edə bilməz.

Qapalı səhmdar cəmiyyətinin iştirakçılarının sayı müəyyənləşdirilmiş həddi keçməməlidir, əks halda o, bir il ərzində açıq səhmdar cəmiyyətinə çevrilməli, bu müddət bitdikdən sonra isə, əgər onların sayı azaldılıb müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş həddə endirilməzsə, məhkəmə qaydasında ləğv edilməlidir (AR MM, maddə 100.2).

QARŞILIQLI HESABLAŞMA – tərəflərin iştirakı ilə birgə tərtib edilmiş və imzalanmış üzləşmə aktı əsasında hesablaşmalar.

QARŞILIQLI ÖHDƏLİKLƏRİN TƏYİN EDİLMƏSİ (KLİRİNQ) ÜZRƏ FƏALİYYƏT – bağlanmış əqdlər üzrə məlumatların toplanması, yoxlanması, üzləşdirilməsi, mühasibat sənədlərinin hazırlanması, hesablaşmaların aparılması və öhdəliklərin qarşılıqlı icrasının təmin edilməsi üzrə peşəkar fəaliyyət.

QARŞILIQLI ASILI OLAN ŞƏXSLƏR – aralarındakı münasibətlər fəaliyyətlərinin iqtisadi nəticələrinə və ya onların təmsil etdiyi şəxslərin fəaliyyətinə bilavasitə təsir göstərə bilən fiziki şəxslər və (və ya) hüquqi şəxslər. Hal-hazırda mövcud vergi qanunvericiliyinə əsasən, qarşılıqlı asılı olan şəxslərə aşağıdakı şəxslər aid edilir:

- bir şəxs digər şəxsin əmlakında bilavasitə və ya dolayısı ilə iştirak edirsə və onun iştirak payı və ya səs hüququ azı 20 faizdirsə;
- bir şəxs özünün xidməti vəziyyətinə görə digər şəxsə tabedirsə və ya bir şəxs digər şəxsin bilavasitə və ya dolayısı ilə nəzarətindədirsə;
- şəxslər üçüncü şəxsin birbaşa və ya dolayısı ilə nəzarətindədirlərsə;
- şəxslər üçüncü şəxsə birbaşa və ya dolayısı ilə birgə nəzarət edirlərsə;
- ailə üzvləri.

QAZANC – əməkhaqqının müvafiq ödəniş sisteminə uyğun olaraq fiziki şəxsin muzdlu işlə əlaqədar aldığı gəlirlərin məcmusu; fiziki və hüquqi şəxs tərəfindən əməkhaqqı, məvacib, faiz, mənfəət və s. şəklində alınan pul; pul dəyərinə malik istənilən vəsaitlərin axını və ya material qiymətlilərinin alınması. Şirkətin gəlirini onun xüsusi kapitalının artmasına gətirib çıxaran, aktivlərinin artması və ya öhdəliklərinin azalması kimi xarakterizə etmək olar.

QEYDİYYAT – müəyyən uçotaalınma obyektlərinin qeydə alınması üçün tətbiq edilən prosedur.

QEYRİ-BÜDCƏ FONDLARI – müəyyən məqsədlər üçün yaradılan və hakimiyyət orqanlarının mülkiyyətində olan maliyyə resursları məcmusu.

QEYRİ-DÖVLƏT PENSİYA FONDU – əsas məqsədi qeyri-dövlət pensiya təminatında olan şəxslərə pensiya ödənişlərini həyata keçirmək olan sosial təminat üzrə qeyri-kommeriya təşkilatı.

QEYRİ-XƏTTİ ÜSUL – avadanlığın köhnəlməsi ilə bağlı amortizasiya məbləğinin hesablanması üsulu. Bu

üsul tətbiq edildikdə, əsas vəsaitin illik köhnəlmə dəyəri, yəni amortizasiya norması aşağıdakı qayda ilə hesablanır: əsas vəsaitin dəyərindən toplanmış amortizasiya çıxılır, ikiyə vurulur və əsas vəsaitin istifadə müddətinə bölünür; burada əsas vəsaitin dəyəri – onun alınması zamanı çəkilən bütün xərclər, başqa sözlə, balansda əks etdirilən dəyər, toplanmış amortizasiya – əsas vəsaitin müəyyən tarixə qədər hesablanmış amortizasiyaların cəmi, əsas vəsaitin istifadə müddəti – əsas vəsaitin istifadə ediləcəyi illərin sayıdır. Bu üsul bəzən ikiqat azalan balans üsulu adlanır.

QEYRİ-KOMMERSİYA FƏALİYYƏTİ – məqsədi gəlir götürmək olmayan və əldə etdiyi gəliri yalnız qeyri-kommersiya məqsədləri, o cümlədən öz nizamnamə məqsədləri üçün istifadə etməyi nəzərdə tutan, qanunla qadağan edilməyən fəaliyyətin həyata keçirilməsi; əks halda, bu fəaliyyət kommersiya fəaliyyəti sayılır.

QEYRİ-KOMMERSİYA HÜQUQİ ŞƏXSİ – əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən qurum.

QEYRİ-QANUNİ GƏLİR – qanunsuz yollarla əldə edilmiş gəlir. AR VM-in 66-cı maddəsinə görə, qeyri-qanuni əldə edilən gəlir AR qanunlarına uyğun olaraq müsadirə edilmirsə, həmin gəlirin qeyri-qanuniliyi onun vergiyə cəlb edilməsinə təsir göstərmir.

QEYRİ-MADDİ AKTİVLƏR – müəyyən müddət ərzində istehsalat fəaliyyətində və ya idarəetmə prosesində istifadə olunan, vergi ödəyicisi tərəfindən alınmış və ya yaradılmış, mülkiyyət hüququ müvafiq qaydada rəsmiləşdirilmiş intellektual fəaliyyətin məhsulları və digər intellektual mülkiyyətin obyektləri. Bu, aktivlərin fiziki forması olmasa da, müəyyən məbləğlə ifadə olunmuş dəyəri olur yaxud intellektual, o cümlədən ticarət nişanları, digər sənaye mülkiyyəti obyektləri, habelə müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada vergi ödəyicisinin mülkiyyət hüququnun obyekti kimi tanınan digər analoji hüquqlardır.

QEYRİ-REZİDENT – AR ərazisində diplomatik və ya konsulluq statusu olan şəxs və onun ailə üzvləri; AR ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçmiş beynəlxalq təşkilatın əməkdaşı və ya AR-də xarici ölkənin dövlət xidmətini həyata keçirən şəxs və onun ailə üzvləri; məqsədi yalnız AR ərazisindən bir xarici dövlətdən digər xarici dövlətə keçmək olan şəxs; AR ərazisində yerləşən diplomatik imtiyazları və immunitetləri olan diplomatik nümayəndəliklər, konsulluq idarələri və xarici ölkələrin digər rəsmi nümayəndəlikləri, beynəlxalq təşkilatlar və onların nümayəndəlikləri, habelə sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan xarici təşkilatların və firmaların nümayəndəlikləri; rezident anlayışı ilə əhatə edilməyən digər şəxslər.

QEYRİ-REZİDENT ŞİRKƏT – AR ərazisində yerləşən, diplomatik imtiyazları və immunitetləri olan diplomatik nümayəndəliklər, konsulluq idarələri və xarici ölkələrin digər rəsmi nümayəndəlikləri, beynəlxalq

təşkilatlar və onların nümayəndəlikləri, habelə sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan xarici təşkilatların və firmaların nümayəndəlikləri.

QEYRİ-REZİDENTİN GƏLİRİNDƏN ÖDƏMƏ MƏNBƏYİNDƏ VERGİ TUTULMASI – qeyri-rezidentin müvafiq dövlətin mənbəyindən əldə olunan gəliri kimi müəyyənləşdirilmiş gəlirdən həmin gəlirləri ödəyən şəxslər tərəfindən ödəmələr edilərkən qeyri-rezidentin göstərdiyi xidmətlərin xüsusiyyətindən asılı olaraq vergi qanunvericiliyində müəyyən olunmuş dərəcələrlə verginin tutulmasını özündə ehtiva edən vergitutma mexanizmi. AR-də bu dərəcələr 4-14 faiz hüdudlarındadır.

QEYRİ-REZİDENTLƏRİN VALYUTA ƏMƏLİYYATLARI – AR ərazisində qeyri-rezidentlərin hesablarına valyutanın mədaxil və məxarici.

QEYRİ-SAHİBKARLIQ FƏALİYYƏTİNDƏN GƏLİR – bilavasitə gəliri əldə edən şəxsin özünün fəaliyyətindən birbaşa asılı olmayan, bir qayda olaraq digər şəxsin fəaliyyəti nəticəsində yaranan və ya mütəmadi xarakter daşımayan gəlirlərin məcmusu. Bu cür gəlir, adətən, həmin şəxsə ona məxsus aktivlərin istifadəsinə görə ödənilir, məsələn, sərmayə kimi qoyulmuş aktivlərə görə dividentlərin verilməsi, depozitlərə görə faizlərin ödənilməsi, icarə haqqının verilməsi və s.

QEYRİ-STASİONAR TİCARƏT ŞƏBƏKƏSİ – səyyar ticarət prinsipləri əsasında işləyən və sıralarında stasionar ticarət şəbəkəsi obyektləri olmayan ticarət şəbəkəsi.

QEYRİ-TARİF TƏNZİMLƏMƏSİ – xarici ticarət fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi formaları. Bunlara, əsasən aşağıdakılar aiddir:

- idxal və ixracın həcminin məhdudlaşdırılması;
- ixrac nəzarəti;
- malların ayrı-ayrı növlərinin idxalında (ixracında) dövlət inhisarının həyata keçirilməsi;
- malların idxalında daxili bazarın qorunması;
- milli mənafeni nəzərə almaqla idxal və ixraca müəyyən qadağalar qoyulması;
- gətirilən malların keyfiyyətinin standartlara uyğunluğunun yoxlanılması.

QISA BƏYANNAMƏ – gömrük sərhədindən keçirilən mallar barədə məlumatları özündə əks etdirən və həmin əmtəələrin və ya nəqliyyat vasitələrinin müəyyən bir gömrük rejimi altında yerləşdirilməsindən öncə gömrük orqanlarına təqdim edilən sənəd.

QİYMƏT İNTERVALI – ticarətin təşkilatçısı tərəfindən qeydə alınmış təcili müqavilələrin, maliyyə aləti əməliyyatları üzrə müqavilələrin minimal və maksimal qiyməti arasındakı fərq.

"QİYMƏTLƏNDİRMƏ FƏALİYYƏTİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – 1998-ci il 25 iyun tarixli 510-IQ nömrəli AR Qanunu. AR-də əmlakın qiymətləndirilməsi fəaliyyətinin ümumi prinsiplərini müəyyən edir, habelə bununla bağlı yaranan təşkilati, iqtisadi və hüquqi münasibətləri tənzimləyir. 18 maddədən ibarətdir.

QİYMƏTLİ KAĞIZ – müəyyənləşdirilmiş formaya riayət olunmaqla hər hansı hüququ təsdiqləyən elə bir sənəddir ki, həmin hüquq bu sənəd olmadan nə həyata keçirilə bilər, nə də başqa şəxsə verilə bilər. Qiymətli kağız başqasına verildikdə onun təsdiqlədiyi bütün hüquqlar da keçir. Qiymətli kağızlarla təsdiqlənən hüquqların növləri, qiymətli kağızların məcburi rekvizitləri, qiymətli kağızın formasına aid tələblər və digər zəruri tələblər qiymətli kağızlar haqqında qanunlarla və ya onların müəyyənləşdirdiyi qaydada təyin edilir. Qiymətli kağızın məcburi rekvizitlərinin olmaması və ya qiymətli kağızın onun üçün müəyyənləşdirilmiş formaya uyğun gəlməməsi onun əhəmiyyətsizliyinə səbəb olur.

Qiymətli kağızda borcluya qarşı göstərilmiş hər hansı ayrıca tələb həmin qiymətli kağızla təsdiqlənir. Qiymətli kağızla təminat verilmiş tələbin etibarlığı bu tələbi əmələ gətirən əqdin mövcudluğundan və ya etibarlılığından asılı deyildir. Qiymətli kağız üzrə borclu icranı yalnız qiymətli kağızın ona verilməsi ilə eyni vaxtda həyata keçirməlidir. Borclu qiymətli kağızla təsdiqlənən kreditora icranı hansı həcmdə həyata keçirmişdirsə, öz öhdəliyindən də həmin həcmdə azad edilir. Qiymətli kağızı vermiş borclu və onu indossament etmiş bütün şəxslər onun qanuni sahibi qarşısında birgə məsuliyyət daşıyırlar. Qiymətli kağızın qanuni sahibinin tələbi qiymətli kağız üzrə öhdəlik götürmüş bir və ya bir neçə şəxs tərəfindən yerinə yetirildikdə, o (onlar), qiymətli kağız üzrə öhdəlik götürmüş qalan şəxslər qarşısında geriyə tələb (reqres) hüququ əldə edir (AR MM, maddə 988).



QİYMƏTLİ KAĞIZIN DÖVLƏT QEYDİYYAT NÖMRƏSİ – investisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatı həmin buraxılışa dövlət qeydiyyat nömrəsinin verilməsindən və bu məlumatların dövlət reyestrinə daxil edilməsindən ibarətdir. Dövlət qeydiyyat nömrəsinin verilməsi və reyestrin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

QİYMƏTLİ KAĞIZLAR BAZARINDA PEŞƏKAR FƏALİYYƏT – hüquqi və ya fiziki şəxslər tərəfindən qiymətli kağızlar bazarında xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilən sahibkarlıq fəaliyyəti.

QİYMƏTLİ KAĞIZLAR BAZARINDA PEŞƏKAR İŞTİRAKÇILAR – qiymətli kağızlar bazarında xüsusi razılıq (lisenziya) əsasında

sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və ya fiziki şəxslər.

Qiymətli kağızlar bazarı qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, sahibliyi, saxlanılması, onlarla əqdlərin bağlanması, digər əməliyyatların aparılması üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusudur. Qiymətli kağızlar bazarının iştirakçıları qiymətli kağızların emissiyasında, tədavülündə, ödənilməsində, sahibliyində, saxlanılmasında, qiymətli kağızlarla əməliyyatların aparılmasında subyekt və ya tərəf kimi çıxış edən şəxslər, habelə qiymətli kağızlar bazarının tənzimlənməsini həyata keçirən dövlət və qeyri-kommersiya təşkilatları olan qiymətli kağızlar bazarının iştirakçılarının özünü tənzimləyən təşkilatlarıdır (AR MM, maddə 992-1).

Qiymətli kağızların idarə olunması müştəriyə məxsus olub, peşəkar iştirakçının idarəçiliyinə verilmiş qiymətli kağızlar və ya pul vəsaitləri ilə müştərinin mənafeyi üçün və ya onun göstərdiyi üçüncü şəxsin mənafeyi üçün qiymətli kağızlar bazarında əməliyyatların aparılması üzrə peşəkar fəaliyyətdir.

Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatı qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının könüllülük, qeyri-kommersiya prinsipləri əsasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatı olan ictimai birliyidir.

QİYMƏTLİ KAĞIZLAR BAZARINDA TİCARƏTİN TƏŞKİLİ ÜZRƏ FƏALİYYƏT – hüquqi və ya fiziki şəxslər tərəfindən qiymətli kağızlar bazarında xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilən sahibkarlıq fəaliyyəti.

QİYMƏTLİ KAĞIZLAR BAZARININ PEŞƏKAR İŞTİRAKÇILARININ FƏALİYYƏTİNİN LİSENZİYALAŞDIRILMASI – hüquqi və ya fiziki şəxslər tərəfindən qiymətli kağızlar bazarında həyata keçirilən sahibkarlıq fəaliyyəti qanunvericilikdə nəzərdə tutulmuş qaydada lisenziyalaşdırılır.

QİYMƏTLİ KAĞIZLAR BAZARININ TƏNZİMLƏNMƏSİ – AR Mülki Məcəlləsinə müvafiq olaraq qiymətli kağızlar bazarının tənzimlənməsinin 2 növü fərqləndirilir: qiymətli kağızlar bazarının dövlət tənzimlənməsi; qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləməsi.

"QİYMƏTLİ KAĞIZLAR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – AR-də qiymətli kağızların buraxılışı və tədavülü qaydalarını müəyyən edən, qiymətli kağızlar bazarı iştirakçılarının fəaliyyətini tənzimləyən, AR Prezidenti tərəfindən 14 iyul 1998-ci ildə təsdiq edilmiş 523 -IQ nömrəli Qanun. Aşağıda sadalanan 5 fəsil 32 maddədən ibarətdir:

1. Ümumi müddəalar.
2. Qiymətli kağızlar bazarının tənzimlənməsi.
3. Qiymətli kağızların qeydiyyatı, buraxılması və tədavülü qaydası.
4. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyət.
5. Fond birjası.

QİYMƏTLİ KAĞIZLARA HÜQUQUN BAŞQASINA KEÇMƏSİ TARİXİ – qiymətli kağızın başqasına verilməsinin tarixi.

QİYMƏTLİ KAĞIZLARA VERGİ QOYULUŞU – qiymətli kağızlardan əldə olunan gəlirlər VM-in 13.2.12-ci maddəsinə əsasən satışdankənar gəlirlərə aiddir. VM-in 13.2.14.4-cü maddəsinə müvafiq olaraq, qiymətli kağızların tədavülü ilə bağlı əməliyyatlar maliyyə xidmətləri hesab edilir, lakin qiymətli kağızların və ya digər qiymətlilərin saxlanması və ya onların qorunmasının təmin edilməsi üzrə xidmətlər maliyyə xidmətlərinə aid deyildir. 16.1.8.2-ci maddəyə əsasən qiymətli kağızların satışı zamanı nağd pul hesablaşmaları nəzarət-kassa aparatları vasitələri ilə aparılmaya bilər. 164.1.3-cü maddəyə əsasən qiymətli kağızların göndərilməsi və ya idxal edilməsi ƏDV-dən azaddır. 218.2-ci maddəyə müvafiq olaraq qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının sadələşdirilmiş vergitutma sistemini tətbiq etmək hüququ yoxdur.

QİYMƏTLİ KAĞIZLARI OLAN ŞƏXSLƏR – investor qiymətli kağızlarını mülkiyyət kimi əldə etmiş şəxs.

QİYMƏTLİ KAĞIZLARIN BURAXILIŞI – emitentin qiymətli kağızlarının bir növünə aid olan və eyni dövlət qeydiyyat nömrəsi olan qiymətli kağızların buraxılışı.

QİYMƏTLİ KAĞIZLARIN EMİSSİYASI – emitentin qiymətli kağızlarının emissiyası haqqında qərarının qəbulunun, Mülki Məcəllə ilə nəzərdə tutulmuş hallarda emissiya prospektinin tərtibinin, qiymətli kağızların buraxılışının, yerləşdirilməsinin və Mülki Məcəllə ilə müəyyən edilmiş digər tədbirlərin məcmusu.

QİYMƏTLİ KAĞIZLARIN İDARƏ EDİLMƏSİ ÜZRƏ FƏALİYYƏT – müştəriyə məxsus olub, peşəkar iştirakçının idarəçiliyinə verilmiş qiymətli kağızlar və ya pul vəsaitləri ilə müştərinin mənafeyi üçün və ya onun göstərdiyi üçüncü şəxsin mənafeyi üçün qiymətli kağızlar bazarında əməliyyatların aparılması üzrə peşəkar fəaliyyət.

QİYMƏTLİ KAĞIZLARIN NOMİNAL SAXLAYICISI – hüquq sahibinin tapşırığı ilə və onun xeyrinə qiymətli kağız sahiblərinin reyestrində qeydə alınmış və bu qiymətli kağızların hüquqi mülkiyyətçisi olmayan şəxs.

QİYMƏTLİ KAĞIZLARIN SAHİBLƏRİNİN REYESTR APARILMASI ÜZRƏ FƏALİYYƏTİ – qiymətli kağızlar, onların emitenti, sahibləri, nominal saxlayıcıları barədə məlumatların toplanması, qeydə alınması, işlənməsi, saxlanması və təqdim edilməsi xidmətlərinin göstərilməsi üzrə peşəkar fəaliyyət.

QİYMƏTLİ KAĞIZLARIN SAHİBLƏRİNİN REYESTRİ – müəyyən tarixə qeydə alınmış qiymətli kağız sahiblərinin və nominal saxlayıcıların, onlara məxsus qiymətli kağızların sayının və növünün eyniləşdirməsini təmin edən siyahı. Reyestrdə emitent haqqında məlumat, hər bir qiymətli kağız sahibinə və nominal saxlayıcısına məxsus qiymətli kağızların sayı, nominal dəyəri, növü, forması, öhdəliklərlə yüklən-

məsi və qanunvericiliklə müəyyən edilmiş digər məlumatlar göstərilməlidir. AR İXM-in 209-cu maddəsinə görə qiymətli kağızların sahiblərinin reyestrinin aparılması qaydalarının və ya standartlarının pozulmasına görə vəzifəli şəxslər 60 man.-dan 70 man.-dək miqdarda, hüquqi şəxslər 150 man.-dan 200 man.-dək miqdarda cərimə edilir.

QİYMƏTLİ KAĞIZLARIN SAHİBLƏRİNİN REYESTRİNİN APARILMASI SİSTEMİ – qeydə alınmış şəxsləri (emitentləri, fiziki və hüquqi şəxsləri) identifikasiya edən və onların qiymətli kağızlar üzrə hüquqlarının uçotu barədə informasiyaları kağız və ya elektron daşıyıcılarda əks etdirən, qiymətli kağız sahiblərinin reyestrinin tərtib edilməsini təmin edən məlumatlar toplusu.

QİYMƏTLİ KAĞIZLARIN TƏDAVÜLÜ – yerləşdirmədən sonra qiymətli kağızlarla mülki-hüquqi əqdlərin bağlanması nəticəsində mülkiyyət hüquqlarının keçməsi və qeydiyyatı prosesi.

QİYMƏTLİ KAĞIZLARIN VİCDANLI ALICISI – əşyanı özgəninkiləşdirən onun mülkiyyətçisi olmadığı, lakin bu fakt barədə vicdanlı əldə edən olduğu hallarda da əldə edən əşyanın mülkiyyətçisi olur. Əgər əldə edən özgəninkiləşdirənin mülkiyyətçi olmadığını bilirsə və ya bilməli idisə, vicdanlı əldə edən sayılmır. Vicdanlılıq faktı əşya verilənə qədər mövcud olmalıdır. Daşınar əşyanın mülkiyyətçisi bu əşyanı itirmişdirsə, əşya ondan oğurlanmışdırsa və ya iradəsinin ziddinə olaraq başqa şəkildə onun sahibliyindən çıxmışdırsa, yaxud əldə edən onu əvəzsiz almışdırsa, həmin əşyanı əldə edən vicdanlı ola bilməz. Bu məhdudiyyətlər auksionda özgəninkiləşdirilmiş pula, qiymətli kağızlara və əşyalara tətbiq olunmur.

QİYMƏTLİ KAĞIZLARLA ƏMƏLİYYATLARDAN VERGİ – müəssisəyə məxsus səhmlər, istiqrazlar və digər qiymətli kağızlardan əldə olunan gəlirlər satışdankənar gəlirlərə aiddir. Səhmlərin, istiqraz vərəqələrinin, sertifikatların, veksellərin, çeklərin və digər qiymətli kağızların tədavülü ilə bağlı əməliyyatlar maliyyə xidməti hesab edilir.Qiymətli kağızların saxlanması və ya onların qorunmasının təmin edilməsi üzrə xidmətlər maliyyə xidmətlərinə aid deyildir. Maliyyə xidmətlərinin göstərilməsi, milli və ya xarici valyutanın (numizmatika məqsədlərindən başqa), həmçinin, qiymətli kağızların göndərilməsi və ya idxal edilməsi ƏDV-dən azaddır. Hesabat dövrü ərzində vergi ödəyicisi tərəfindən (VM-in 218.1.1-ci maddəsində nəzərdə tutulmuş vergi ödəyiciləri istisna olmaqla) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin həcmi sadələşdirilmiş vergi üzrə vergitutma obyektidir.

"QİYMƏTLİ METALLAR VƏ QİYMƏTLİ DAŞLAR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi ilə bağlı münasibətləri tənzimləyən 10 iyun 2005-ci il tarixli 924-IIQ nömrəli Qanun. Qanun 6 fəsildən, 21 maddədən ibarətdir.

Fəsillər aşağıdakılardır:

1. Ümumi müddəalar.

2. Qiymətli metalların və qiymətli daşların dövlət ehtiyatları.

3. Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi sahəsində münasibətlərin dövlət tənzimlənməsi.

4. Qiymətli metalların və qiymətli daşların istifadəsi və dövriyyəsi.

5. Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi üzərində dövlət nəzarəti.

6. Qiymətli metal və qiymətli daşlarla bağlı qanunvericiliyin pozulmasına görə məsuliyyət.

QIZIL RÜSUMLAR – kağız pul tədavülünə üstünlük verən ayrı-ayrı dövlətlər tərəfindən fiskal və proteksionist məqsədlər üçün qızıl valyutada və ya qızılın məzənnə qiyməti nəzərə alınmaqla tətbiq edilən gömrük rüsumları.

QLOBAL GƏLİR VERGİSİ – Mənbəyindən asılı olmayaraq vergi ödəyicisinin illik məcmu gəlirindən tutulan vergiyə uyğun olaraq fiziki şəxsin gəlirindən tutulan vergi sistemi. İlk dəfə bu sistem 1891-ci ildə Prussiyada istifadə edilmişdir. Müasir şəraitdə inkişaf etmiş ölkələrin əksəriyyətində tətbiq edilir. Qlobal gəlir vergisinin tətbiqi sistemi şedulyar gəlir vergisindən daha sadədir. Bu sistem vergi ödəyicisinin cəlb olunan gəlirinin dəqiq müəyyən edilməsinə imkan verir. Gəlir vergisi alınarkən butun gəlir növləri toplanır, mumkun xərclər cıxılır və xalis gəlir hesablanaraq ona mütərəqqi – artan nisbətli tarif dərəcəsi tətbiq edilir.

QONORAR – əməyə görə ödənilən məbləğ. Latın sözü olan "honorarium"dan götürülüb "xidmətə görə mükafat" mənasını verir. Müəllif qonorarı elm, ədəbiyyat və ya incəsənət əsərlərindən istifadəyə görə müəllifə (və ya onun varislərinə) ödənilən pul mükafatıdır. Müəllif qonorarının məbləği onun əsərindən istifadə edən təşkilatla müəllif arasında bağlanmış müqavilə əsasında müəyyən edilir.

Müqavilə ilə müəyyən edilmiş hallarda müəllifə avansın ödənilməsi də mümkündür. Əsərdən istifadənin hər növünə görə müəllifə, istifadənin başqa növlərinə görə qonoraron ödənilməsindən asılı olmayaraq, xüsusi müəllif qonorarı ödənilir. Həmmüəlliflərin arasında müəllif qonorarı onların razılaşmasına əsasən bölünür. Əgər belə razılaşmaya nail olunmamışdırsa, onda onların mübahisələrinə məhkəmədə baxılır.

QOPÇUR – Elxanilər dövlətində heyvandarlıqla məşğul olanlar üçün qoyulan vergi. Monqol dilində "qopçur" otlaq yer deməkdir. Azərbaycanda Elxanilərin hakimiyyətinin ilk illərində hər yüz qoyundan, inəkdən, atdan, camışdan və s. birini ödəyirdilər. Sonralar pul şəklində ödəməyə keçildi. Tədricən əhalinin qalan hissəsi də bu vergini ödəməyə məcbur edildi. Elxani hökmdarı Mahmud Qazan xanın (1271-1304) islahatından sonra qopçur əsasən kənd əhalisindən, həm də hissə-hissə iki dəfə yığılırdı.

L

LAFFER ARTUR (1940) – Amerika iqtisadçısı, iqtisadiyyatda "təklif nəzəriyyəsi"nin banilərindən biridir. R.Reyqanın prezidentliyi dövründə ABŞ-da tanınmış şəxsə çevrilmişdi.



Vergi dərəcələrinin vergi daxilolmalarına təsi- rinin qanunauyğunluğunu kəşf etməklə məşhurlaşmışdır. Bu effekt sonradan onun adı ilə adlan- dırılmışdır. Effektin qrafik ifadəsi – Laffer əyrisi göstərir ki, müəyyən şərtlərdə vergi dərəcələrinin azaldılması vergi daxilolmalarını artıra bilər.

A.Laffer Stenford Universitetinin fəlsəfə doktoru, Cənubi Karolina və Çikaqo universitetlərinin professorudur.

A.Lafferin ideyasının əsas müddəalarına görə, vergi dərəcələri ilə vergi daxilolmaları arasında əlaqə iki əsas şəkildə ifadə edilə bilər:

- vergi dərəcələrinin azaldılması istehsala stimullaşdırıcı təsir göstərir;

- vergi dərəcələrinin aşağı salınması büdcə daxilolmalarını azaltsa da, bu azalma müvəqqəti xarakter daşıyır.

Laffer əyrisi vergi dərəcələrinin aşağı salınmasının stimullaşdırıcı təsirini göstərir. Vergi yükünün azalması yığımın artmasına, investisiya və məşğulluq səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. Yekunda istehsal və gəlirlər artır və nəticədə büdcəyə vergi daxilolmalarının həcmi də yüksəlir.

LATIN AMERİKASI İQTİSADİ SİSTEMİ – Latın Amerikası və Karib hövzəsi ölkələrinin iqtisadi sistemi (SELA) 1975-ci ildə beynəlxalq təşkilat kimi yaradılmışdır və əsas məqsədi sözügedən ölkələrdə iqtisadi əməkdaşlıq və sosial inkişafın dəstəklənməsindən ibarətdir. Təşkilat 20 Latın Amerikası və 8 Karib hövzəsi ölkəsini birləşdirir. Təşkilatın Katibliyinin qərargahı Venesuelanın paytaxtı Karakas şəhərində yerləşir. SELA-nın əsas qərar qəbul edən orqanı Şuradır və onun ildə 1 dəfə iclasları keçirilir.

LATIN AMERİKASI İNTEQRASİYA ASSOSİASİYASI – Latın Amerikası ölkələrini birləşdirən ticarət birliyi. 1980-ci il 12 avqust tarixində Montevideo sazişinin imzalanmasının nəticəsində yaradılmışdır və əsas məqsədi regionda davamlı iqtisadi və sosial inkişafa nail olunması və vahid bazarın formalaşdırılmasıdır. Baş qərargahı Uruqvayın paytaxtı Montevideo şəhərində yerləşir.

LEQALLAŞDIRMA – Beynəlxalq hüquqda leqallaşdırma qanunsuz olan bir şeyə qadağanın aradan qaldırılmasını nəzərdə tutur.

LƏĞVETMƏ – müvafiq qanunvericiliyə uyğun olaraq fiziki və ya hüquqi şəxsin mövcudluğuna xitam verilməsi.

LİKVİDLƏR – maliyyə-kredit öhdəliklərini və pul tələblərini vaxtında ödəmək üçün qısa bir vaxt ərzində bazar qiymətinə yaxın qiymətə satıla bilən aktivlər.

LİKVİDLİK ƏMSALI – firmanın tədiyyə qabiliyyətini, onun aldığı borc vəsaitlərinin qaytarılması imkanını xarakterizə edən əmsal. Kredit idarəsinin balansının aktivindəki müxtəlif maddələrin passivindəki müəyyən maddələrin və ya əksinə, passivlərin aktivlərə nisbəti kimi müəyyən olunur; bankların likvidliyini xarakterizə edən göstəricidir.

LİMAN YIĞIMI – müəyyən olunmuş və rəsmi dərc edilən tariflər üzrə hesablanan, limanlarda gəmilərdən və yüklərdən tutulan məcburi ödənişlərin məcmusu.

LİSENZİYA – təşkilati-hüquqi formasından asılı olmayaraq bütün hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsə müvafiq sahibkarlıq fəaliyyəti növlərini həyata keçirməyə icazə verən sənəd. Lisenziya hər bir fəaliyyət növü üçün ayrıca verilir. Ərizəçinin fəaliyyəti çoxyönümlü olduqda, o, bir neçə lisenziyaya malik ola bilər. Ərizəçi yalnız lisenziya aldıqdan sonra həmin lisenziyada göstərilən fəaliyyət növü ilə müəyyən edilmiş qaydada və müddətdə məşğul ola bilər. Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı AR Prezidentinin 1997-ci il 4 oktyabr tarixli fərmanı ilə, bəzi fəaliyyət növlərinə lisenziya verilməsi qaydaları AR Prezidentinin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir. AR VN haqqında Əsasnaməyə görə , VN-in aşağıdakı hüquqları var:

- xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyətin belə razılıq olmadan həyata keçirildiyi halda qanunvericiliyə uyğun olaraq müvafiq tədbir görmək;

- xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə məşğul olan şəxslərdən lisenziyanın geri alınması barədə xüsusi razılıq (lisenziya) verən orqanın qarşısında vəsatət qaldırmaq.



LİSENZİYA MÜQAVİLƏSİ – qanunvericiliyə uyğun olaraq lisenziya alınması tələb olunan fəaliyyətin həyata keçirilməsinə lisenziya almaq məqsədilə lisenziya verənlə lisenziya alan arasında bağlanmış müqavilə.

LİSENZİYALI TİCARƏT – qanunvericiliyə uyğun olaraq satışının həyata keçirilməsi üçün lisenziya alınması tələb olunan mallarla ticarət fəaliyyətinin həyata keçirilməsi.

LİZİNQ – icarəyə verən (lizinq-verən) tərəfindən icarədar (lizinq-alıcısı) üçün istehsal məqsədilə icarə müqaviləsi müddətində mülkiyyət hüququnun saxlanması şərtilə maşın, avadanlıq və digər investisiya təyinatlı əmtəələrin uzunmüddətli icarəsi (bir qayda olaraq, uzunmüddətə və orta

müddətə). Başqa sözlə, lizinq əmlakın təcililik, qaytarılmaq və ödənilmək şərti ilə müvəqqəti istifadəyə verilməsini əsas fondlarda, xüsusilə onun aktiv hissəsi olan avadanlıqda əmtəə kreditidir.

Lizinq müqaviləsinə görə lizinq verən müəyyən əşyanı müqavilə ilə şərtləşdirilmiş müəyyən haqla, müəyyən müddətə və digər şərtlərlə (lizinq alana əmlakı satın almaq hüququnun verilməsi də daxil olmaqla) lizinq alanın istifadəsinə verməyə, lizinq alan isə müəyyənləşdirilmiş dövriliklə muzd ödəməyə borcludur (AR MM, maddə 747.1).

Müqaviləyə görə lizinq alana müqavilə müddəti qurtardıqdan sonra lizinq predmetini əldə etmək və ya kirayələmək vəzifəsi həvalə edilə bilər və ya belə hüquq verilə bilər, bu şərtlə ki, müqavilə öz predmetinin tam amortizasiyası ilə bitməsin. Qəti dəyər hesablanarkən amortizasiya faktı bütün hallarda nəzərə alınmalıdır. Əgər müqavilədə müvafiq müddəa yoxdursa, lizinq alanın lizinq predmetini əldə etməyə ixtiyarı çatır (AR MM, maddə 747.3).

Lizinq müqaviləsinin subyektləri lizinq verən, lizinq alan və satıcıdır (mal verəndir). Lizinq verən lizinq müqaviləsinə əsasən cəlb edilmiş və ya özünə məxsus maliyyə vəsaiti hesabına əldə etdiyi və mülkiyyətində olan əşyanı lizinq obyekti kimi lizinq alana müəyyən haqla, müəyyən müddətə və şərtlərlə (mülkiyyət hüququnun lizinq alana keçməsi və ya keçməməsi şərti də daxil olmaqla) müvəqqəti sahibliyə və ya istifadəyə verən hüquqi və ya fiziki şəxsdir. Lizinq alan lizinq müqaviləsinə uyğun olaraq lizinq obyektini müəyyən haqla, müəyyən müddətə və şərtlərlə müvəqqəti sahibliyə və istifadəyə qəbul edən hüquqi və ya fiziki şəxsdir. Satıcı (mal verən) alqı-satqı müqaviləsinə əsasən lizinq obyektini lizinq verənə satan hüquqi və ya fiziki şəxsdir.

Lizinqin obyekti AR qanunlarına əsasən sərbəst mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar istisna olmaqla, qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid olan daşınar və ya daşınmaz əşyalardır.

Lizinqin əsas formalarına daxili və beynəlxalq lizinq aiddir. Daxili lizinq həyata keçirildikdə lizinq verən və lizinq alan AR-in rezidentləridir. Beynəlxalq lizinq həyata keçirildikdə lizinq verən, yaxud lizinq alan (və ya onların hər ikisi) AR-in qeyri-rezidentləridir.

Sublizinq sublizinq müqaviləsi ilə rəsmiləşdirilir. Sublizinq zamanı əvvəllər lizinq verəndən lizinq müqaviləsi üzrə alınmış lizinq müqaviləsinin obyektini lizinq müqaviləsi üzrə lizinq alan üçüncü şəxslərə (sublizinq müqaviləsi üzrə lizinq alana) haqq ödənilməklə və sublizinq müqaviləsinin şərtlərinə uyğun müddətə sahibliyə və istifadəyə verir. Əşya sublizinqə verildikdə satıcıya qarşı tələb hüququ sublizinq müqaviləsi üzrə lizinq alana keçir. Lizinq obyektinin sublizinqə verilməsi zamanı hökmən lizinq verənin yazılı razılığı olmalıdır.

Lizinq müqaviləsi yazılı formada bağlanılır. Lizinq müqaviləsində


aşağıdakılar göstərilməlidir (AR MM, maddə 748.2):

- lizinq müqaviləsinin adında lizinqin forması;
- lizinq obyektinin dəqiq təsviri;
- lizinq obyekti üzrə verilən hüquqların həcmi;
- lizinq obyektinin verilmə yeri və qaydası;
-lizinq müqaviləsinin müddəti;
- lizinq obyektinin balans uçotunun qaydası;
- lizinq obyektinin saxlanması və təmiri qaydası;
- lizinq müqaviləsi əsasında lizinq verənin göstərəcəyi əlavə xidmətlərin siyahısı;
- lizinq ödənişinin ümumi məbləği və lizin qverənin mükafatının məbləği;
- hesablaşma qaydasını əks etdirən lizinq ödənişlərinin qrafiki; lizinq müqaviləsi vaxtından əvvəl icra edildikdə lizinq ödənişlərinin hesablanması qaydası;
- müqavilə ilə ayrı hal nəzərdə tutulmayıbsa, tərəflərin lizinq obyektini lizinq müqaviləsi ilə bağlı risklərdən sığorta etməsi vəzifələri.

Lizinq alana müvəqqəti sahibliyə və ya istifadəyə verilmiş lizinq obyekti lizinq verənin mülkiyyətidir. Lizinq müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, lizinq obyektinə sahiblik və ondan istifadə hüququ lizinq alana tam həcmdə keçir.

LİZİNQ ÖDƏNİŞLƏRİ – Lizinq müqaviləsinin qüvvədə olduğu müddət ərzində həmin müqavilə üzrə ödənişlərin ümumi məbləği lizinq ödənişləri hesab edilir. Lizinq ödənişləri lizinq müqaviləsi üzrə lizinq alana verilmiş lizinq obyektindən istifadəyə görə onun tərəfindən lizinq verənin xeyrinə həyata keçirilən ödənişlərdir. Lizinq ödənişlərinin məbləğinin həyata keçirilməsi üsulu, forması və dövriliyi lizinq müqaviləsinə uyğun olaraq AR MM-in müddəaları nəzərə alınmaqla həyata keçirilir.

Lizinq alan və lizinq verən arasında lizinq ödənişləri ilə bağlı



hesablaşmalar lizinq obyekti vasitəsilə istehsal olunan məhsulla (natura formasında) aparılırsa, belə məhsulun qiyməti tərəflərin razılığı ilə müəyyənləşdirilir və lizinq müqaviləsində qeyd edilir. Lizinq alanın lizinq ödənişlərinin verilməsi ilə bağlı öhdəlikləri, lizinq müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, lizinq alanın lizinq obyektindən istifadəyə başladığı vaxtdan qüvvəyə minir. Lizinq müqaviləsində lizinq ödənişlərinə lizinq obyektindən istifadəyə başlanıldığı vaxtdan 6 ay (180 gün) keçənədək möhlət verilməsi nəzərdə tutula bilər. Lizinq ödənişləri bilavasitə lizinq verənin hesabına köçürülür (AR MM, maddə 748-10).

AR MM-in 748-11 maddəsinə görə, lizinq ödənişlərinin ümumi məbləğinə aşağıdakılar daxildir:

- lizinq obyektinin amortizasiya ödənişləri;
-lizinq obyektinin əldə edilməsi ilə bağlı zəruri xərclər;
- lizinq obyektini əldə etmək üçün alınan kreditə görə faiz;
- lizinq verənin mükafatının məbləği;
- lizinq obyekti lizinq verən tərəfindən sığorta edilmişdirsə, sığorta üçün ödənilən məbləğ.
- lizinq verənin əlavə xidmətlərinin haqqı;
- lizinq verənin lizinq müqaviləsi ilə nəzərdə tutulmuş digər xərcləri.

Lizinq ödənişlərinin tərkibinə daxil edilən məbləğlər lizinq verən tərəfindən müvafiq sənədlərlə əsaslandırılmalıdır.

LİZİNQ ŞİRKƏTİ – əsas fəaliyyət növü lizinq xidmətləri göstərilməsindən ibarət olan hüquqi şəxs.

LOME KONVENSİYASI – Avropa İttifaqı və 71 Afrika, Karib və Sakit okean hövzəsi ölkələri arasında 1975-ci ilin fevralında Toqonun paytaxtı Lome şəhərində imzalanmış ticarət və yardım sazişi.

"LOTEREYALAR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – AR-də lotereyaların təşkili və keçirilməsinin qaydalarını, lotereyaların təşkilatçılarının və iştirakçılarının hüquq və vəzifələrini müəyyən edən 5 mart 2004-cü il tarixli 594-IIQ nömrəli 12 maddədən ibarət Qanun.

LÖVBƏR YIĞIMI – daxili reydlərdə dayanacaq üçün istisnasız bütün gəmilərdən, onların uzunluğundan asılı olaraq sutkalıq dərəcə üzrə alınan liman yığımı.

LÜKLƏRİN AÇILMASI VƏ BAĞLANMASINA GÖRƏ YIĞIM – sahilə yan alıb bağlanmış gəmilərdən konkret dərəcə üzrə alınan liman yığımı.

M

MADDİ XƏRC – təşkilatların mənfəət vergisi üzrə maddi xərclərinə xüsusilə aşağıdakı xərclər aiddir: məhsul, iş və xidmətlərə sərf edilən xammal və materialların dəyəri; məhsul istehsalı, normal texnoloji proseslərin təmin olunması, məhsulların qablaşdırılması və digər təsərrüfat ehtiyaclarına sərf edilmiş materiallar, əsas fondlara aid edilməyən vəsaitlərin və azqiymətli əşyaların köhnəlməsi; yarımfabrikatlar və komplektləşdirici məmulatlar; kənar müəssisələr və ya müəssisənin əsas növ fəaliyyətinə aid olmayan istehsalatlar tərəfindən yerinə yetirilən istehsal xarakterli işlər; təbii xammalların istifadəsi ilə əlaqədar olan xərclər; daxil olmuş material ehtiyatlarından təbii itki normaları həddində əskikgəlmələr və itkilər.

MADDİ KÖMƏK – həyat tərzində müəyyən çətinliklərlə rastlaşan insanlara hər hansı hüquqi və ya fiziki şəxsdən təmənnasız olaraq əşya və ya pul şəklində göstərilən yardım.

MADDİ MƏNFƏƏT ŞƏKLİNDƏ GƏLİR – fiziki şəxslərin gəlirləri üzrə vergiqoymanın obyekti. Vergi ödəyicisinin maddi mənfəət şəklində aldığı gəlirlərə aiddir: muzdlu işlə əlaqədar əldə edilən gəlir; muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir; vergilərdən azad edilən gəlirlərdən başqa bütün digər gəlirlər.

MADDİ MƏSRƏFLƏR – bax: *Maddi xərc.*

MAĞAZA – malların pərakəndə satışı və alıcılara xidmət göstərilməsi üçün nəzərdə tutulmuş, xüsusi avadanlıqlarla təchiz olunmuş stasionar bina və ya onun bir hissəsi.

MAL – hər hansı maddi və ya qeyri-maddi əmlak (aktiv), o cümlədən elektrik və istilik enerjisi, qaz, və s. ƏDV məqsədləri üçün qeyri-maddi aktivlər, pul vəsaiti və torpaq isə mal sayılmır. AR-in gömrük sərhədindən keçirilən istənilən əmlak, o cümlədən istilik, elektrik enerjisi və enerjinin digər növləri mal hesab olunur.

MALCƏHƏT – bax: *Bəhrə*.

MALDAN DÖVLƏTİN XEYRİNƏ İMTİNA – gömrük rüsumları, vergiləri alınmadan, həmçinin iqtisadi siyasət tədbirləri (lisenziyalaşdırma, kvotalaşdırma və s.) tətbiq edilmədən şəxsin maldan və ya nəqliyyat vasitəsindən imtina etməsindən ibarət gömrük rejimi.

MALIN DEMPİNQ İDXALI – malın onun normal qiymətindən aşağı ixrac qimətinə idxal olunması.

MALIN GÖMRÜK DƏYƏRİ – Malın AR GM-ə uyğun olaraq müəyyənləşdirilən və aşağıdakı məqsədlər üçün istifadə olunan dəyəri: maldan rüsum tutulması üçün; xarici iqtisadi əlaqələr və gömrük statistikasının aparılması, ticarət-iqtisadi münasibətlərin dövlət tənzimlənməsi, o cümlədən xarici iqtisadi əməliyyatlara valyuta nəzarəti, bu sahədə bank hesablaşmalarının həyata keçirilməsi ilə bağlı tədbirlər üçün.

MALIN GÖMRÜK DƏYƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ ÜSULLARI – Bu üsullar "Gömrük

tarifi haqqında" AR Qanununun 17-ci maddəsində göstərilmişdir. Malın gömrük dəyəri aşağıdakı üsullarla müəyyən edilir:

- gətirilən malların sövdələşmə qiyməti ilə;
- eyni malların sövdələşmə qiyməti ilə;
- eynicinsli malların sövdələşmə qiyməti ilə;
- dəyərin toplanması üsulu ilə;
- dəyərin çıxılması üsulu ilə;
- ehtiyat üsulu ilə.

Gətirilən malların sövdələşmə qiymətinə uyğun olaraq qiymətləndirilməsi gömrük dəyərinin müəyyən edilməsinin əsas üsuludur. Bu üsuldan istifadə edilə bilmədiyi halda, yuxarıda göstərilən üsullardan hər biri ardıcıl olaraq tətbiq edilir. Bu zaman hər bir sonrakı üsulun tətbiqi gömrük dəyərini əvvəlki üsulla təyin etmək mümkün olmadıqda həyata keçirilir. Dəyərin çıxılması və toplanması üsullarından istənilən ardıcıllıqla istifadə edilə bilər.

MALIN GÖMRÜKDƏ MÜŞAYİƏTİ ÜÇÜN GÖMRÜK YIĞIMI – malların gömrük müşayiəti üçün gömrük orqanları tərəfindən tutulan gömrük ödənişi şəklində gömrük yığımı.

MALIN İXRAC QİYMƏTİ – malın gömrük ərazisinə idxal edildiyi qiymət.

MALIN MƏNŞƏYİ HAQQINDA SERTİFİKAT – gömrük rəsmiləşdirilməsi zamanı dövlətin ərazisinə gətirilən malların mənşəyinin müəyyən bir ölkədən olduğunu təsdiq edən və gömrük bəyannaməsi ilə birlikdə təqdim edilən sənəd.

MALIN MƏNŞƏYİ OLAN ÖLKƏ – malın istehsal olunduğu və ya GM ilə müəyyən olunan meyarlar əsasında kifayət qədər yenidən emala məruz qaldığı ölkə.

MALIN NORMAL DƏYƏRİ – həmin malla ticarətin adi gedişatı zamanı malın istehsalçısı və ya ixracatçısı olan ölkədə analoji və ya bilavasitə rəqabət aparmaq qabiliyyətində olan malın qiyməti.

MALİYYƏ – iqtisad elminin bir qolu sayılır və elmi fondların idarə edilməsi ilə məşğuldur. Maliyyə biznes maliyyəsi, fərdi maliyyə və ictimai maliyyəni əhatə edir. Maliyyəyə pul yığımı və adətən, pulun borc verilməsi də daxildir. Maliyyə, əsasən, zaman, pul və risk anlayışları və onların bir-biri ilə əlaqəsi ilə məşğuldur. Eyni zamanda, pulun xərclənməsi və büdcənin hazırlanması ilə də məşğuldur.

Maliyyə prosesi, əsasən, fiziki və hüquqi şəxslərin banka əmanət yerləşdirməsi vasitəsilə işləyir. Bank pulu digər fiziki və hüquqi şəxslərə istehlak və ya investisiya məqsədilə kredit olaraq verir və onlardan faiz tələb edir. Kreditlər, son vaxtlarda artan sürətlə, yenidən satış üçün paketlənir, yəni investor krediti (borcu) ya bankdan, ya da birbaşa şirkətdən alır. İstiqraz vərəqələri şirkətlər tərəfindən investorlara birbaşa satılan borcdur, bu zaman investor faiz əldə edir və ya istiqraz vərəqəsini təkrar bazarda satır.

Bank sektoru kredit təmin etməklə fondlaşmanın əsas vasitəçisi rolunda çıxış edir. Ancaq şəxsi sərmayə, birgə fond, qorunma fondları və digər qurumlar müxtəlif istiqraz vərəqələrinə

investisiya etməklə əhəmiyyət qazanmışlar. İnvestisiya kimi qeyd olunan maliyyə aktivləri maliyyə riskinə nəzarət etmək məqsədilə maliyyə riskinin menecmentinə xüsusi diqqət yetirilərək idarə edilir. Maliyyə alətləri müxtəlif növ qiymətli kağızların birjalarda alınıb satılmasına imkan yaradır. Bu qiymətli kağızlara istiqraz vərəqələri və səhmlər də daxildir. Mərkəzi banklar isə son çarə kreditoru rolunu oynayır və pul kütləsinə nəzarət edir. Pul kütləsi artdıqca faizlər azalır.

Gəlirləri xərclərindən çox olan bir şəxs əlavə gəlirini borc verə və ya investisiya edə bilər. Digər tərəfdən, xərcləri gəlirlərindən çox olan bir şəxs borc alaraq və yaxud səhmlərini ixrac etməklə, xərclərini azaltmaqla və ya gəlirini artırmaqla kapitalını artıra bilər. Borc verən birbaşa borc almaq istəyən tərəfi, bank kimi maliyyə vasitəçiliyi fəaliyyətini göstərən qurumları tapa bilər və ya borc bazarında istiqraz vərəqəsi ala bilər. Vasitəçi iştirak edərsə, borc verən faiz əldə edir, borc alan borc verənin əldə etdiyindən daha yüksək faiz ödəyir, nəticədə aradakı fərqi maliyyə vasitəçisi qazanır.

Bank çox sayda borc alan və borc verənin fəaliyyətini cəmləşdirir. Bank borc verənlərdən depozit toplayaraq onlara faiz ödəyir. Sonra bank bu depozitləri borc alanlara verir. Banklar müxtəlif ölçüdə borc alan və borc alanın fəaliyyətini koordinasiya edir. Beləliklə, bank pul axımının təzminatçısı kimi çıxış edir.

MALİYYƏ ALƏTLƏRİ – maliyyə təbiətli bazar məhsulunun müxtəlif növləri; qiymətli kağızlar, pul öhdəlikləri, valyuta, fyuçerslər, opsionlar və başqaları. Maliyyə aləti "kvazidenqi", maliyyə sənədi (valyuta, qiymətli kağız, pul öhdəliyi, fyuçers, opsion və s.), pul vəsaitlərinin alınmasını təmin edən satış, yaxud ötürmədir. Maliyyə alətlərini ilkin (pul vəsaitləri, qiymətli kağızlar, cari əməliyyatlar üzrə kreditor və debitor borcu) və ikinci, yaxud törəmə (maliyyə opsionları, fyuçerslər, forvard müqavilələri, faiz mübadilələri, valyuta mübadilələri) alətlərə bölürlər.

MALİYYƏ BAZARI – pul bazarından və kapitallar bazasından ibarətdir. Onun tərkibinə daxil olan fond bazarı isə hər iki bazarın seqmentidir. Maliyyə bazarında vəsaitlərin hərəkətinin istiqaməti əmanətçidən istifadəçiyədir. Maliyyə bazarı vasitəsilə iqtisadiyyatın bir sektorundan digərinə maliyyə ehtiyatları axını həyata keçirilə bilər. Cəmi 4 sektor mövcuddur. Bunlar aşağıdakılardır:

- ev təsərrüfatı;
- kommersiya firmaları;
- dövlət sektoru;
- maliyyə vasitəçiləri.

Ev təsərrüfatının böyük bir hissəsi öz şəxsi vəsaitləri hesabına formalaşır. Məhz burada maliyyə vəsaitlərinin əsas hissəsi yaranır, o vəsaitlər də öz növbəsində kommersiya firmalarının maliyyələşdirilməsinə, dövlətə və maliyyə institutlarında yerləşdirilməsinə (investisiya fondları, banklar və s.) yönəldilir. Maliyyə vəsaitlərinə daha çox ehtiyacı nəhəng sektor olan – dövlət hiss edir. O, maliyyə bazarında ən iri borc alandır. Eyni zamanda, o, ev təsərrüfatlarının, kommersiya firmalarının və maliyyə vasitəçilərinin iri

kreditorçusu kimi çıxış edir. Sektordaxili vasitələrin hərəkəti də yer alır. Lakin bu pul axınları «qarşılıqlı ödənişlidir», belə ki, son nəticədə əmanətlərin cəmi (maliyyə aktivləri) investisiyaların cəminə (maliyyə öhdəliyi) bərabərdir.

MALİYYƏ HESABATI – müəyyən formalı cədvəllərdə əks etdirilə bilən və müəssisənin əmlak, öhdəlik və maliyyə vəziyyətini xarakterizə edən uçot göstəricilərinin məcmusu.

MALİYYƏ XİDMƏTLƏRİ – hüquqi və fiziki şəxslərin pul vəsaitlərinin cəlb edilərək istifadə olunmasından, maliyyə vasitəçiliyindən ibarət olan bir fəaliyyətdir. Bu xidmətlərə bank, investisiya-bank, lizinq, sığorta xidmətləri aid edilir.

MALİYYƏ LİZİNQİ – lizinq verən tərəfindən lizinq götürənin sifarişi əsasında müəyyən əmlakı müəyyən satıcıdan alaraq müəyyən məbləğə müəyyən müddətə və müəyyən şərtlərlə müvəqqəti istifadəyə verməni özündə ehtiva edən lizinq növüdür. Bu zaman əmlakın lizinqə vermə müddəti davamlılığına görə əmlakın tam amortizasiyası ilə müqayisə edilə bilər və ya ondan da artıq ola bilər.

İcarəyə verən maddi əmlakı maliyyə lizinqi müqaviləsi üzrə icarəyə verirsə, vergitutma məqsədləri üçün icarəçi əmlakın sahibi, icarə ödəmələri isə icarəçiyə verilmiş ssuda üzrə ödəmələr sayılır.

Aşağıdakı hallarda əmlak icarəsi maliyyə lizinqi sayılır:

- lizinq müqaviləsi ilə icarə müddəti qurtardıqdan sonra əmlakın mülkiyyətə verilməsi nəzərdə tutulursa;

- icarə müddəti qurtardıqdan sonra icarəçi əmlakı müəyyən edilmiş və ya qabaqcadan güman edilən qiymətlərlə almaq hüququna malikdirsə;

- icarə müddəti icarəyə götürülən əmlakın istismar müddətinin 75 faizindən artıqdırsa;

- icarə müddəti qurtardıqdan sonra əmlakın qalıq dəyəri icarənin əvvəlinə onun bazar qiymətinin 20 faizindən azdırsa;

- icarə haqqının ödəniləcək məbləği əmlakın icarənin əvvəlinə olan bazar qiymətinin ən azı 90 faizinə bərabər və ya ondan artıqdırsa;

- icarəyə götürülən əmlak icarəçi üçün sifarişlə hazırlanmışdırsa və icarə müddəti qurtardıqdan sonra icarəçidən başqa heç kəs tərəfindən istifadə edilə bilməzsə.

Maliyyə lizinqi müqaviləsində ssuda ödəmələri üzrə faiz dərəcəsi göstərilmədikdə və ya maliyyə lizinqi həyata keçirən qeyri-rezidentlərə, habelə qarşılıqlı surətdə asılı şəxslərə maliyyə lizinqi üzrə icarə ödəmələrinin cari dəyərini müəyyənləşdirməkdən ötrü istifadə edilən faiz dərəcəsi ödəmələr aid olduğu dövrdə eyni valyuta ilə, oxşar müddətə verilmiş banklararası kredit hərracında olan və ya hərraclar keçirilmədiyi təqdirdə banklararası kreditlər üzrə faizlərin orta səviyyəsinin 125 faizi məbləğində götürülür.

MALİYYƏ MONİTORİNQİ ÜZRƏ KOMİTƏ – cinayət yolu ilə əldə edilmiş çirkli pulların yuyulmasının qarşısının alınması üçün yaradılmış və bu sahədə fəaliyyəti əlaqələndirən icra hakimiyyəti orqanı.

MALİYYƏ NƏZARƏTİ – iqtisadi subyektin maliyyə və onunla bağlı təsərrüfat fəaliyyətinin digər məsələlərinin yoxlanılması üzrə həyata keçirilən hərəkətlərin və əməliyyatların məcmusu.

MALİYYƏ SANKSİYALARI – qanunun pozulmasına görə maliyyə məsuliyyəti tədbirləri. Maliyyə sanksiyaları Vergi Məcəlləsində nəzərdə tutulmuş hədlərdə və məbləğlərdə tətbiq edilir.

MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN YOXLANILMASI – bəzi ölkələrdə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən daşınmasını həyata keçirən şəxslərin, gömrük brokerlərinin va bu fəaliyyətlə məşğul olan digər şəxslərin gömrük qanunvericiliyinə uyğun olaraq gömrük orqanının vəzifəli şəxsləri tərəfindən həyata keçirilməsini nəzərdə tutan maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması.

MALİYYƏ UÇOTU – şirkətin təsərrüfat məlumatlarının əks etdirilməsi və ümumiləşdirilməsi, onun kənar istifadəçi üçün maliyyə hesabatı hazırlaması üçün nəzərdə tutulan mühasibat uçotu sistemi. Maliyyə uçotu şirkət ilə onun müştəriləri, malgöndərənlər, kreditorlar, işçilər və səhmdarlar arasında aparılmış əməliyyatların əks etdirilməsi üçün aparılır.

MALLARDAN NÜMUNƏ GÖTÜRÜLMƏSİ – gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti məqsədilə mallardan nümunə götürülməsi yolu ilə həyata keçirilən prosedurlar.

MALLARI KEÇİRƏN ŞƏXSLƏR – malların mülkiyyətçisi, alıcısı, sahibi və ya digər şəkildə AR qanunvericiliyinə uyğun olaraq öz adından mallar barəsində nəzərdə tutulmuş hərəkətləri etmək səlahiyyəti olan şəxslər (AR GM, maddə17).

MALLARIN (İŞLƏRİN, XİDMƏTLƏRİN) ALINMASINDA MADDİ FAYDA – mülki-hüquqi müqaviləyə uyğun olaraq vergi ödəyicisinə münasibətdə qarşılıqlı surətdə asılı olan fiziki şəxslərdən, təşkilatlardan və fərdi sahibkarlardan mal (iş, xidmət) alarkən vergi ödəyicisinin fiziki şəxslərin gəlir vergisi üzrə əldə etdiyi maddi fayda başa düşülür.

MALLARIN (İŞLƏRİN, XİDMƏTLƏRİN) BAZARI – alıcının əlavə xərc çəkmədən malları (işləri, xidmətləri) alıcıya ən yaxın ərazidən almaq (satmaq) imkanından çıxış edərək malların (işlərin, xidmətlərin) dövriyyəsinin baş verdiyi yer.

MALLARIN (İŞLƏRİN, XİDMƏTLƏRİN) REALLAŞDIRILMASI – vergi növləri üzrə vergitutma obyektinin müəyyənləşdirilməsi üçün müəyyən edilmiş qanunvericilik termini.

MALLARIN AYRI-AYRI NÖVLƏRİNƏ DÖVLƏT İNHİSARI – xarici ticarət fəaliyyətinin tənzimlənməsi haqqında qanunvericiliyə uyğun olaraq RF-də tətbiq edilən qeyri-tarif tənzimlənməsi metodu. Qanunvericiliklə nəzərdə tutulmuş idxal və (və ya) ixrac məqsədləri üçün malların ayrı-ayrı növlərinin siyahıları dövlət inhisarı ilə müəyyən edilir.

MALLARIN GÖMRÜK SƏRHƏDİNDƏ YERDƏYİŞMƏSİ İLƏ ƏLAQƏDAR ÖDƏNİLƏN VERGİLƏR – RF-nin vergilər və yığımlar haqqında və gömrük işi haqqında qa-

nunvericilik aktlarında istifadə edilən gömrük ödənişlərinə aid olan və aşağıdakıları ifadə edən termindir: gömrük yığımları; aksizlər (malların gömrük ərazisinə idxalı zamanı); ƏDV (malların gömrük ərazisinə idxalı zamanı).

MALLARIN İDXALI – gömrük qanunvericiliyinə uyğun olaraq idxal malları sayılan malların ölkə ərazisinə gətirilməsi.

MALLARIN İDXALINDA QORUYUCU TƏDBİRLƏR – RF-də xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi haqqında Qanunun 18-ci maddəsinə müvafiq tətbiq edilən gömrük-tarif tənzimlənməsi və tarifsiz tənzimlənmə məqsədilə həyata keçirilir. Hər hansı mal və ya mallar böyük miqdarda idxal edildiyi halda RF-nin ərazisində oxşar və ya bilavasitə rəqabət aparan malların istehsalçılarına əhəmiyyətli zərər vurularsa və ya belə zərərin vurulması təhlükəsi yaranırsa, beynəlxalq hüquq normalarına uyğun olaraq ciddi zərərin aradan qaldırılması üçün və ya belə zərərin vurulması təhlükəsinin qarşısının alınmasınadək müəyyən dərəcədə və müddətə aşağıdakı formada qoruyucu tədbirlər görülə bilər: ixracın və idxalın (tarifsiz tənzimləmə) miqdarının məhdudlaşdırılması; yüksəldilmiş xüsusi gömrük rüsumunun (gömrük tarif tənzimlənməsi) tətbiq edilməsi.

MALLARIN İDXALINDA MƏHDUDLAŞDIRMA – RF-nin iqtisadi maraqlarının müdafiəsi məqsədilə malların idxalının məhdudiyyəti aşağıdakı hallar üçün həyata keçirilə bilər:

- RF-nin ödəmə balansının tarazlığının saxlanılması;
- məqsədli federal inkişaf proqramlarının icrası;
- yeni mal növlərinin buraxılışı;
- iqtisadiyyatın sahələrinin struktur cəhətdən yenidən qurulmasında zərərçəkənlərin müdafiəsi;
- kənd təsərrüfatı mallarının istehsalının məhdudiyyəti üzrə tədbirlərin keçirilməsi.

RF-nin ödəmə balansının tarazlığının saxlanılması üçün malların idxalının müvəqqəti məhdudiyyəti haqqında qərar Mərkəzi Bankın təqdimatı əsasında və ya Mərkəzi Bankla razılaşmaqla federal icra hakimiyyəti orqanlarının təqdimatı üzrə RF hökuməti tərəfindən qəbul edilə bilər. Malların idxalının məhdudiyyəti idxal kvotasının və ya başqa ölçülərin tətbiqi vasitəsi ilə həyata keçirilir, bunun üçün RF ödəmə balansının tarazlığını bərpa etmək üçün beynəlxalq öhdəlikləri nəzərə almaq lazımdır. Belə kvotanın və ya malların idxalının məhdudiyyətinin başqa ölçülərinin reallaşdırılmasına nəzarət araşdırmalarının keçirilməsi məsuliyyətli federal icra hakimiyyəti orqanına həvalə edilir. Başqa hədəflərdə malların idxalının məhdudiyyəti normalara uyğun olaraq həyata keçirilir. RF icra hakimiyyətinin maraqlı olan orqanlarının təqdimatına və ya RF icra hakimiyyəti orqanlarının subyektlərinin qərarına əsasən RF-nin gömrük ərazisində bilavasitə idxal kvotasının tətbiqi ilə əlaqədar hədəflərə nail olmaq üçün dörd ildən çox olmayan müddətə RF hökuməti analoji və ya bilavasitə rəqabət aparan malların idxalının müvəqqəti məhdudiyyəti haqqında qərar qəbul edə bilər.

RF hökuməti hər hansı kənd təsərrüfatı mallarının idxalının müvəqqəti məhdudiyyəti, həmçinin, onların istehsalında istifadə olunan dəniz bioloji resurslarının və ya belə malların, məhsulların idxalının müvəqqəti məhdudiyyəti haqqında aşağıdakı hallarda qərar qəbul edə bilər:

- RF-də belə malların, məhsulların istehsalının məhdudiyyəti üzrə tədbirlər keçirilərkən;

- belə malların müvəqqəti artığının RF daxili bazarından çıxarılması zamanı. Yuxarıda göstərilən hallarda malların idxalının məhdudiyyəti federal icra hakimiyyəti orqanlarının və ya RF subyektlərinin icra hakimiyyəti orqanlarının təqdimatı üzrə bir il müddətə qədər bilavasitə idxal kvotasının tətbiqi ilə həyata keçirilir.

MALLARIN İXRACI – malların ölkənin gömrük ərazisindən bu əraziyə qaytarılmaq haqqında öhdəlik götürülmədən aparılmasından ibarət gömrük rejimi; başqa sözlə, gömrük qanunvericiliyinə uyğun olaraq, ixrac malları hesab edilən malların ölkə ərazisindən çıxarılması.

MALLARIN İXRACINDA İQTİSADİ MƏNAFELƏRİN QORUNMASI TƏDBİRLƏRİ – bəzi ölkələrdə iqtisadi maraqların qorunması üzrə tətbiq edilən ixraca müvəqqəti qadağa və ixracın müvəqqəti məhdudlaşdırılması tədbirləri.

MALLARIN MƏHV EDİLMƏSİ – xarici malların gömrük rüsumları, vergilər alınmadan, həmçinin mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən onların gömrük nəzarəti altında istifadə üçün yararsız hala gətirilməsi də daxil olmaqla, məhv edilməsindən ibarət gömrük rejimi.

MALLARIN MÜVƏQQƏTİ İDXALI (İXRACI) – gömrük ərazisində və ya ondan kənarda gömrük rüsumlarından, vergilərdən tamamilə və ya qismən azad olunmaqla, həmçinin, iqtisadi siyasət tədbirləri tətbiq edilmədən mallardan istifadə edilməsinə yol verilməsindən ibarət gömrük rejimi.

MALLARIN OBYEKTDƏN GÖTÜRÜLMƏSİ HAQQINDA PROTOKOL – səyyar vergi yoxlaması keçirilən zaman yoxlamanın predmetinə aid olan və vergilərin hesablanması üçün tələb olunan vergi ödəyicisi tərəfindən təqdim olunan sənədlərin və əşyaların öyrənilməsinə əlavə vaxt tələb olunduğu halda, həmçinin təqdim olunmuş sənədlərdə vergi qanunvericiliyinin pozulması halları müəyyən edildikdə və ya bu pozuntular bilavasitə əşyalarla bağlı olduqda, səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının vəzifəli şəxsi tərəfindən, VM-ə uyğun olaraq, ona təqdim edilmiş sənədləri və nümunə kimi əşyaları götürən zaman tərtib olunan sənəd.

MALLARIN REEKSPORTU VƏ REEKSPORT ÜÇÜN İCAZƏNİN VERİLMƏ QAYDASI HAQQINDA RAZILAŞMA – təkrar ixrac əməliyyatları AR-in gömrük ərazisinə daxil olan xarici mənşəli malların yenidən işlənmədən digər xarici ölkələrə ixrac əməliyyatlarını nəzərdə tutur. Təkrar ixrac əməliyyatları üzrə bağlanmış müqavilələr, AR-in beynəlxalq öhdəliklərində tələb olunan hallarda İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə, digər hallarda isə gömrük orqanlarında bəyan edilməklə icra olunur.

MALLARIN STANDART TƏSNİFATLARI – gömrük rüsumlarının qoyulması və gömrük nəzarəti məqsədləri üçün malların təsnifatı və kodlaşdırma sistemləri. Hazırda malların aşağıdakı standart təsnifatlarından istifadə edilir:

- Brüssel tarif nomenklaturası;
- Harmonizasiya edilmiş sistem;
- Standart beynəlxalq ticarət təsnifatı;
- MDB-də xarici iqtisadi fəaliyyətin vahid əmtəə nomenklaturası;
- GƏŞ-in nomenklaturası.

MALLARIN TARİF TƏSNİFATLARI – gömrük rüsumları, vergilər, malların idxalı və ixracı üzrə qadağalar və məhdudiyyətlər barədə məlumat toplusu. Gömrük orqanları gömrük rüsumlarının və qanunvericilikdə nəzərdə tutulmuş vergilərin tətbiqində bu təsnifatdan istifadə edirlər.

MALLARIN TƏKRAR İDXALI – gömrük qanunvericiliyinə uyğun olaraq, təkrar idxal malları sayılan malları təqdim etmədən və ixrac olunduğu andakı vəziyyətdə ixrac etmiş şəxsin həmin malları idxal etməsi.

MALLARIN TƏKRAR İXRACI – xarici malların gömrük işi üzrə ölkənin qanunvericilik aktlarına uyğun olaraq, idxal gömrük rüsumları, vergilər alınmadan və ya qaytarılmaqla, həmçinin iqtisadi siyasət tədbirləri tətbiq edilmədən bu ölkənin gömrük ərazisindən ixrac olunmasından ibarət gömrük rejimi.

MALLARIN TƏQDİM EDİLMƏSİ – mallar üzərində mülkiyyət hüququnun başqasına verilməsi, o cümlədən lakin bunlarla məhdudlaşdırılmayan, malların satışı, mübadiləsi, hədiyyə verilməsi, natura şəklində əməkhaqqı ödənilməsi və natura şəklində digər ödəmələr, həmçinin, girov qoyulmuş mallar üzrə mülkiyyət hüququnun girov saxlayana və ya digər şəxsə keçməsi.

MALLARIN TƏSNİFATI – malların xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasında müəyyən edilən konkret mövqelər üzrə təsnifatı.

MALLARIN TRANZİTİ – malların gömrük nəzarəti altında, ölkənin iki gömrük orqanı arasında, o cümlədən xarici dövlətlərin ərazisindən gömrük rüsumları, vergilər alınmadan və mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən keçirilməsindən ibarət gömrük rejimi.

MALLARIN VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN BƏYAN EDİLMƏSİ – bəyannamə təqdim etmiş şəxs tərəfindən gömrük orqanlarına gömrük məqsədləri üçün müəyyən edilmiş formada mallar və nəqliyyat vasitələri barədə dəqiq məlumatların, onların gömrük rejimi və lazım olan digər məlumatların bəyan edilməsi.

MALLARIN VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN BƏYAN EDİLMƏSİNİN SADƏLƏŞDİRİLMİŞ QAYDASI – GM-in 111-ci maddəsinə müvafiq olaraq gömrük rəsmiləşdirməsinin təkmilləşdirilməsi üçün malların və nəqliyyat vasitələrinin rəsmən elan edilməsi qaydası. Fiziki şəxslər tərəfindən daşınan mallar barəsində gömrük rəsmiləşdirməsinin sadələşdirilmiş qaydası Dövlət Gömrük Komitəsinin 25 yanvar 1999-cu il tarixli 38 № li əmrinə əsasən müəyyən edilmişdir.

MALLARIN VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN GƏTİRİLMƏSİNİN VƏ APARILMASININ QADAĞAN EDİLMƏSİ – milli təhlükəsizliyin, ictimai asayişin, insanların mənəviyyatının, həyat və sağlamlığının, mülkiyyət hüququnun, o cümlədən əqli mülkiyyət hüquqları obyektlərinin, heyvanlar və bitkilər aləminin, ətraf mühitin, xalqların bədii, tarixi və arxeoloji sərvətlərinin qorunması baxımından, başqa maraqlar nəzərə alınaraq, qanunvericiliyə və beynəlxalq müqavilələrə uyğun olaraq aşağıdakı malların gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması qadağandır: saxta kağız və metal pullar; gömrük ərazisinə idxalı və ya bu ərazidən ixracı qanunvericiliklə qadağan edilmiş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları; pornoqrafik materiallar və ya əşyalar; gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən qadağan olunmuş mallar.


MALLARIN VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN GÖMRÜK SƏRHƏDİNDƏN KEÇMƏSİ QAYDASI – malların və nəqliyyat vasitələrinin AR qanunvericiliyi ilə müəyyən edilmiş üsullarla, o cümlədən beynəlxalq poçt göndərişləri, boru kəmərləri və elektrikötürücü xətlər vasitəsi ilə gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması üzrə hərəkətlər.

MARJİNAL VERGİ DƏRƏCƏSİ – gəlirin və ya mənfəətin artırılmış hissəsindən tutulan verginin dərəcəsi. Gəlirin və ya mənfəətin hər vahid artımına əlavə vergi ödənilir. Məsələn, Böyük Britaniyada gəlir vergisinin ən yüksək dərəcəsi olan 40 faizlik dərəcə ilə vergi ödəyən şəxs bütün əlavə gəlirlərinə, o cümlədən kapital artımından gəlirlərə həmin dərəcə ilə vergi ödəyir.

MARKALAMA – malın qablaşdırılmasında və ya malın öz üzərində onun barəsində məlumatlardan ibarət yazı yaxud yük yerlərinin qablaşmasını işarə edən şərti nişanlar və göstəricilər.

MARKET – bazar-əmtəə və xidmətlərin istehsalçıları ilə istehlakçılar arasında davamlı iqtisadi əlaqələr əsasında yaranan iqtisadi münasibətlər sistemi.

MARKS KARL (1818 – 1883) – iqtisadçı alim, filosof, politoloq, sosioloq və tarixçi, I İnternasionalın – "Fəhlələrin beynəlxalq yoldaşlığı"nın



(1864) banilərindən biri, elmi kommunizm nəzəriyyəsinin banisi. Almaniyanın Trir şəhərində vəkil ailəsində anadan olmuşdur.

Fransız və alman maarifçilərinin, eləcə də XVIII əsrin axırları – XIX əsrin əvvəllərində sosialist-utopistlərin ideyaları Marksın dünyagörüşünün formalaşmasına ciddi təsir göstərmişdir. 1835-1841-ci illərdə Bonn, Berlin və Vyana universitetlərində fəlsəfə və hüququ öyrənmiş, Hegel təliminin tərəfdarı olmuşdur. 1842-1849-cu illərdə Almaniyada, Fransada və Belçikada inqilabi demokratik hərəkatda fəal iştirak etmişdir.

K. Marksın "Siyasi iqtisadın tənqidinə dair" əsəri (1859) əmək-dəyər

nəzəriyyəsinin, əmtəə və pulun təhlilinin şərhindən ibarətdir. Bu əsər onun nəzəri irsində mühüm rol oynayır. Əsas elmi əsəri "Kapital"dır (1-ci cild – 1867-ci il, 2-ci cild – 1885-ci il, 3-cü cild (iki hissədən ibarətdir) – 1894-cü il, üç hissədən ibarət olan "İzafi dəyər nəzəriyyələri" adlı 4-cü cild – 1905-1910-cu illər).


K.Marksın sağlığında "Kapital"ın yalnız birinci cildi işıq üzü görmüşdür. Bu əsərin 2-ci və 3-cü cildləri dostu və məsləkdaşı, alman filosofu Fridrix Engelsin redaktəsi ilə, 4-cü cildi isə alman iqtisadçısı və filosofu Karl Kautskinin redaktəsi ilə nəşr edilmişdir.

K.Marks kapitalist iqtisadiyyatının tədqiqinə həsr etdiyi nəzəri işini "məzlumların azad olunması uğrunda" inqilabi mübarizənin davamı sayırdı. K.Marks Hegel fəlsəfəsinin idealist xarakterini qəbul etməyərək tarixin dialektik-materialist anlayışını işləyib hazırlamışdır. K.Marksa görə, sosial, siyasi və intellektual həyat prosesləri son nəticədə maddi və mənəvi nemətlər istehsalının üsulu ilə müəyyən edilir.

K.Marks kapitalizm sistemini iki antaqonist sinifdən ibarət olan bir sistem kimi şərh edirdi: burjuaziya – istehsal vasitələrinin mülkiyyətçisi; proletariat – yalnız işçi qüvvəsinə malik olan və istehsal vasitələrinə malik olmadığına görə salamat qalmaq üçün bu qüvvəni əmtəə kimi kapitalistlərə satmağa məcbur olan sinif.

K. Marksın təsəvvüründə kommunizm sinifsiz bolluq cəmiyyəti olmalı idi. Burada "insanın yaradıcı, qurucu qabiliyyətləri tam inkişaf edir".

MARŞALL ALFRED (1842 – 1924) – ingilis iqtisadçısı, neoklassik iqtisadiyyatın banisi. Onun "İqtisadiyyatın prinsipləri" (1890) kitabı İngiltərədə uzun müddət dərslik kimi istifadə olunub. O, "İqtisad elminin prinsipləri" (1890-1891), "Sənayenin iqtisadiyyatının elementləri" (1892), "Pul, kredit və ticarət" (1892) və başqa əsərləri ilə iqtisad elminə əhəmiyyətli töhfələr vermişdir.



MASQREYV RİÇARD ABEL (1910 – 2007) – alman əsilli Amerika iqtisadçısı. Münhen, Heydelberq və Harvard universitetlərində təhsil almışdır. Bir sıra Amerika universitetlərində işləmişdir. Harvard Universitetinin professoru olmuşdur. ABŞ Milli Vergi Assosiasiyası 1999-cu ildən etibarən "Milli vergi jurnalı"nda ən yaxşı məqaləyə görə Masqreyv mükafatı təqdim edir.



R.A.Masqreyvin "Dövlət maliyyəsi nəzəriyyəsi" (1958), "Maliyyə sistemi" (1969) və "Dövlət maliyyəsi: nəzəriyyə və təcrübə" (1973) əsərləri vardır.

MAYA DƏYƏRİ – istehsalın cari xərclərinin və məhsulun reallaşmasının pulla ifadəsi. Maya dəyərinə daxil olan və vergiyə cəlb olunan mənfəətin (gəlirin) müəyyən edilməsi zamanı nəzərə alınan məsrəflərin tərkibi qanunvericiliklə müəyyən olunur.

Maya dəyəri xərclərinə aiddir: maddi xərclər, qaimə xərcləri, əmək haqqı, amortizasiya və s.

MAYAK YIĞIMI – mayak xidmətinin maliyyələşdirilməsi məqsədilə, adətən, limana daxil olan və limanı tərk edən gəmilərdən alınan ödəmə; liman yığımlarının növü.

MEŞƏ GƏLİRİ – meşə fondunun mülkiyyətçisinin meşə ehtiyatlarından istifadəyə görə əldə etdiyi gəlir. Aşağıdakı formalarda mövcud olur:

- ağacların kökünün satışı və ağac qətranının tədarükünə görə ödənişlər;
- meşədən ikinci dərəcəli istifadəyə görə (ağac qabığı, çırpı, toxum və s.) ödənişlər;
-digər gəlirlər, o cümlədən müxtəlif cərimələr, birdəfəlik daxilolmalar.

MEŞƏ VERGİSİ – meşə fondundan istifadəyə görə ödənişlər sistemi.

MƏAF – Azərbaycanda xanlıqlar dövründə vergi ödəməkdən azad olunmuş şəxs. Ərəbcə "vergi ödəməyən" mənasında olan bu sözün türkcə sinonimi "tərxan"dır. Qarabağ xanlığında məaf terminindən daha çox istifadə edilmişdir. Hərbi qulluqda və ya mülki xidmətdə qazandıqları uğurlara görə müəyyən şəxslər xanlardan torpaq, mülk alır, hər cür vergi və mükəlləfiyyətdən azad olunurdular.

MƏCBURİ AUDİT – qanunvericiliyə uyğun olaraq məcburi qaydada auditor təşkilatı tərəfindən audit keçirilməsinin nəzərdə tutulması. Qanunla nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmaya görə vəzifəli şəxslər 300 man.-dan 600 man.-dək miqdarda, hüquqi şəxslər 1500 man.-dan 2500 man.-dək miqdarda cərimə edilirlər (AR İXM, maddə 247-3).



Azərbaycan xanlıqları
I – Bakı xanlığı,
II – Dərbənd xanlığı,
III – Sarab xanlığı,
IV – Car-Balakən camaatı,
V – İlisu suktanlığı,
VI – Qazax sultanlığı,
VII – Şəmsəddil sultanlığı,
Qubalı Fətəli xanın (1758-1789) birləşdirdiyi ərazilər

MƏCBURI NƏZARƏT – Maliyyə Monitorinqi Xidməti tərəfindən ona daxil olmuş məlumatlar əsasında həyata keçirilən pul vəsaitləri və ya digər aktivlər üzrə aparılan əməliyyatlara nəzarət. Belə nəzarət tədbirləri bu cür əməliyyatları həyata keçirən təşkilatlar tərəfindən daxil olduqda da qanunvericilikdə nəzərdə tutulmuş qaydada bu məlumatların yoxlanılması yolu ilə həyata keçirilir.

MƏCMU VERGİ YÜKÜ – RF-də xüsusi iqtisadi zonalarda investisiya layihələrinin reallaşdırılmasını həyata keçirən iqtisadi subyektlər üçün hesablanır. $Tm = D/Vm$, burada *Tm* – təqvim ilində, yaxud rezident tərəfindən investisiya layihəsinin maliyyələşdirilməsinə başlanıldığı təqvim ilinin bir dövründə məcmu vergi yükünün kəmiyyəti; *D* – malların və məhsulların satışından daxilolmalar, həmçinin, təqvim ilində işlərin yerinə yetirilməsi ilə bağlı daxilolmalar; *Vm* – təqvim ilində, yaxud investisiya layihəsinin reallaşdırılmasına başlanılan təqvim ilinin bir hissəsində hesablanan vergilərin və yığımların (ƏDV və aksizlər istisna olmaqla) məbləğidir.

MƏDAXİL – pul vəsaitlərinin kassaya və ya hesaba yatırılması.

MƏDƏN VERGİSİ – dövlətin ərazisindən, o cümlədən kontinental şelfdən faydalı qazıntıların çıxarılmasına görə onları çıxaran şəxslər tərəfindən həmin qazıntıların həcminə və ya dəyərinə hesablanan və müvafiq büdcəyə ödənilən vergi növü.

AR-in ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) AR-ə mənsub olan sektorunda faydalı qazıntıların çıxarılmasına görə AR VM-in XVI fəslində göstərilən qaydalara əsasən tutulan vergi. Göstərilən ərazidə faydalı qazıntılar vergitutma obyekti, həmin faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr mədən vergisinin ödəyiciləridir.

Mədən vergisinin hesablanması, ödənilməsi müddəti və bəyannamənin verilməsi qaydaları AR VM-in 217-ci maddəsində göstərilmişdir. Bu verginin məbləği faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq ödənilir. Ödəyicilər hər ay hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına, yerli büdcələrə daxil olan mədən vergisi üzrə isə bələdiyyələrə verginin bəyannaməsini verirlər. Mədən vergisi (yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi istisna olmaqla) dövlət büdcəsinə ödənilir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir. Xam neftin və qazın hasilatı zamanı mədən vergisi hesablanarkən, hasil edilmiş neftin və qazın miqdarından texnoloji proseslə əlaqədar quyuya geri vurulan neftin və qazın miqdarı AR NK tərəfindən müəyyən edilən normativlər əsasında çıxılır.

MƏDƏNİ SƏRVƏTLƏR – tarixi, bədii və ya digər mədəni əhəmiyyət kəsb edən dünyəvi və ya dini xarakterli sərvətlər və ya tarixi, mədəni və mənəvi irs, tarix və mədəniyyət abidələri.

Yerin təkindən çıxarılan aşağıdakı faydalı qazıntıların növündən asılı olaraq, mədən vergisi hər kub m. üçün aşağıdakı dərəcələrlə hesablanır:

Mədən vergisinə cəlb olunan faydalı qazıntıların adı	Mədən vergisinin dərəcələri (faizlə)
Xam neft	26
Təbii qaz	20
Filiz faydalı qazıntıları:	
- bütün növ metallar	3

AR VM-in 216-cı maddəsinə görə yerin təkindən çıxarılan aşağıdakı faydalı qazıntıların növündən asılı olaraq, mədən vergisi onların topdansatış qiymətinə tətbiq edilməklə aşağıdakı kimi müəyyənləşdirilir:

Mədən vergisinə cəlb olunan faydalı qazıntıların adı	Mədən vergisinin dərəcələri (man. ilə)
Qeyri-filiz faydalı qazıntıları:	
seolit	0,5
barit	0,5
mişar daşları	0,5
çınqıl xammalı	0,5
yüngül doldurucular (keramzit, aqloporit) istehsalı üçün gillər	0,5
bentonit gilləri	0,5
kərpic-kirəmit gilləri	0,5
vulkan külü və pemza	0,5
kvars qumları	0,5
tikinti qumları	0,5
sement xammalı (əhəng daşı, mergel, gil, vulkan külü)	0,5
üzlük daşları (mərmər, qabbro, tuflar, travertin, mərmərləşmiş əhəng daşı)	1
qiymətli və yarımqiymətli bəzək daşları	4
duz	4
yodlu bromlu sular	0,02
mineral sular	6

MƏDƏNİ SƏRVƏTLƏR KOLLEKSİYASI – hər birinin dəyərindən asılı olmayaraq cəm şəkildə tarixi, bədii və ya digər mədəni əhəmiyyət kəsb edən eyni xassəli və ya müəyyən xüsusiyyətə görə yığılmış müxtəlif nəsnələrin toplusu.

MƏDƏNİ SƏRVƏTLƏRİN ÇIXARILMASI ÜÇÜN XÜSUSİ YIĞIM – mədəni sərvət hesab olunan qiymətlilərin dövlətin hüdudlarından çıxarılmasına müvafiq icra hakimiyyəti tərəfindən icazə verildikdə həmin qiymətlilərin bəyan edilən bazar qiyməti ilə hesablanan, adətən, mədəniyyətin və arxiv işinin inkişafına yönəldilən, yalnız dövlət muzeylərinin, arxivlərinin və kitabxanalarının fondları üçün əşyaların alınmasına sərf edilə bilən yığım.

MƏDƏNİ SƏRVƏTLƏRİN ÇIXARILMASI ÜÇÜN YIĞIM VƏ ÖDƏNİŞLƏR – mədəni sərvət hesab olunan qiymətlilərin ölkə daxilindən ixrac olunması zamanı ödənilməli olan yığım və ödənişlər. Mədəni sərvətlərin ixracı zamanı onların ekspertizasına görə haqq, həmin sərvətlərə hüquqların keçirilməsinə görə ödənişlər və s. də ödənilə bilər.

MƏDƏNİ SƏRVƏTLƏRİN ÇIXARILMASINA İCAZƏ ŞƏHADƏTNAMƏSİ – ekspert komissiyasının verdiyi mühafizə dərəcəsinə uyğun olaraq ixracın mümkünlüyü üçün verilən şəhadətnamə. Milli mədəniyyət sərvətlərinin kənara çıxarılması üçün ərizəçi AR Mədəniyyət və Turizm Nazirliyinin və ya ərazi üzrə AR NK yanında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin tabeliyində fəaliyyət göstərən müvafiq



Bakı, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu

ekspert komissiyasına müəyyən olunmuş qaydada ərizə ilə müraciət edir. Komissiya 1 ay ərzində mədəniyyət sərvətinin mühafizə siyahısına daxil edildiyi barədə şəhadətnamə və ya onun sərbəst istifadəsinə icazə verir.

MƏDƏNİ SƏRVƏTLƏRİN ÇIXARILMASININ VƏ GƏTİRİLMƏSİNİN TƏNZİMLƏNMƏSİ – AR NK-nın 1998-ci il 15 oktyabr tarixli 204 nömrəli qərarı ilə təsdiq edilmiş "Milli mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasından kənara çıxarılması Qaydaları" ilə tənzimlənir.

MƏDƏNİ SƏRVƏTLƏRİN GƏTİRİLMƏSİ VƏ ÇIXARILMASINDA QANUNVERİCİLİYİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT – Mədəni sərvətlərin gətirilməsi və çıxarılmasında qanunvericiliyin pozulması Cinayət Məcəlləsinin 206-cı və 207-ci maddələrinə əsasən cinayət məsuliyyəti yaradır.

MƏDƏNİ SƏRVƏTLƏRİN İDXALI – idxal edən ölkənin daxili bazarında reallaşdırmaq üçün mədəni

sərvətlərin xaricdən gətirilməsi, xarici tərəfdaşlardan ödənilməklə alınması.

MƏDƏNİ SƏRVƏTLƏRİN İXRACI – mədəni sərvətlərin ölkə ərazisinə yenidən gətiriləcəyi barədə öhdəliklər olmadan onların ölkənin iqtisadi ərazisindən daşınıb aparılması. Ölkə sərhədindən çıxarılmadan onların əcnəbi hüquqi və fiziki şəxslərə satılması da ixraca aiddir.

MƏDƏNİ SƏRVƏTLƏRİN QANUNSUZ ÇIXARILMASI VƏ GƏTİRİLMƏSİ – mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların AR-in gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə keçirilməsi. Bütün bunlar AR Cinayət Məcəlləsinin 206-cı maddəsinə əsasən cinayət məsuliyyəti yaradır.

MƏDƏNİ SƏRVƏTLƏRİN MÜVƏQQƏTİ ÇIXARILMASI ÜÇÜN XÜSUSİ YIĞIM – mədəni dəyərlərin ixracı və idxalı haqqında qanunvericiliyə uyğun olaraq belə sərvətlərin müvəqqəti çıxarılması üçün xüsusi yığım.

MƏDƏNİ SƏRVƏTLƏRİN MÜVƏQQƏTİ ÇIXARILMASINA İCAZƏ ŞƏHADƏTNAMƏSİ – Mədəniyyət sərvətləri xüsusi rejim əsasında, verilmiş mühafizə dərəcəsinə müvafiq surətdə ixrac edilir. İxracın mümkünlüyü müvafiq icra hakimiyyəti (AR-in Mədəniyyət və Turizm Nazirliyi) orqanının verdiyi mühafizə şəhadətnaməsi ilə müəyyən edilir.

MƏDƏNİ SƏRVƏTLƏRİN MÜVƏQQƏTİ ÇIXARILMASININ VƏ GƏTİRİLMƏSİNİN TƏNZİMLƏNMƏSİ – Mədəni sərvətlər xüsusi rejim əsasında, verilmiş mühafizə dərəcəsinə müvafiq surətdə ixrac edilir. İxracın mümkünlüyü müvafiq icra hakimiyyəti orqanının verdiyi mühafizə şəhadətnaməsi ilə müəyyən edilir.Müvəqqəti sərgi, qastrol səfərləri, bərpa işləri, prezentasiya, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi halları istisna olmaqla milli mədəniyyət əmlakı olan sərvətlərin AR hüdudlarından kənara aparılması qadağandır. Bu sərvətlərin AR hüdudlarından kənarda olması müddəti, bir qayda olaraq, il ərzində altı aydan çox olmamalıdır.

MƏDƏNİ SƏRVƏTLƏRİN ÖLKƏYƏ GƏTİRİLMƏSİ VƏ ÖLKƏDƏN APARILMASI HAQQINDA QANUNVERİCİLİK – "Mədəniyyət haqqında" AR Qanunu, Milli mədəniyyət sərvətlərinin AR-dən kənara çıxarılması Qaydaları və digər qanunvericilik aktlarından ibarətdir.

MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT İDARƏLƏRİ – mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən təşkilatlar.

MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT SAHƏSİNDƏ XİDMƏTLƏR – malların təqdim edilməsi sayılmayan, nəticələri maddi ifadə kəsb edən mədəniyyət və incəsənət sahəsində fəaliyyət.

MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT (MMC) – bir və ya bir neçə şəxs (fiziki və (və ya) hüquqi şəxs) tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəy-

yənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə məsuliyyət daşımır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar. Cəmiyyət öz iştirakçılarının üçüncü şəxslər qarşısında öhdəliklərinə görə məsuliyyət daşımır.

Cəmiyyət, AR MM-ə müvafiq olaraq, yeni cəmiyyətin yaradılması və ya həmin Məcəllədə müəyyən edilmiş qaydalar və məhdudiyyətlər nəzərə alınmaqla fəaliyyət göstərən hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) yolu ilə yaradıla bilər.

Cəmiyyətin yaradılması təsis yığıncağının keçirilməsini və müqavilənin bağlanmasını və ya cəmiyyətin yaradılması haqqında qərarın qəbul edilməsini (cəmiyyət bir şəxs tərəfindən yaradıldıqda), nizamnamə kapitalının ödənilməsini və nizamnamənin hazırlanmasını əhatə edir.

Cəmiyyətin yaradılması zamanı təsis yığıncağı cəmiyyətin nizamnamə kapitalı təsisçilər tərəfindən tamamilə formalaşdırıldıqdan sonra keçirilir. Təsis yığıncağı bütün təsisçilər və ya onların nümayəndələri iştirak etdikdə səlahiyyətlidir (yetərsay var). Yetərsay olmadıqda, yığıncaq təkrarən keçirilir. Təkrarən keçirilən təsis yığıncağında da yetərsay olmadıqda, cəmiyyətin yaradılması iclasda iştirak edən təsisçilər və ya onların nümayəndələri tərəfindən baş tutmamış hesab edilir və bu qərar bütün təsisçilərin nəzərinə yeddi gün müddətində çatdırılır.

Cəmiyyətin yaradılması zamanı keçirilən təsis yığıncağı:

- cəmiyyətin yaradılması zamanı nizamnamə kapitalına ödənilən pul olmayan əmanətlərin dəyərini təsdiq edir;
- cəmiyyətin yaradılması barədə qərarı qəbul edir və onun nizamnaməsini təsdiq edir;
- MM və cəmiyyətin nizamnaməsi ilə nəzərdə tutulmuş cəmiyyətin idarəetmə orqanlarını təşkil edir;
- cəmiyyətin yaradılması və cəmiyyətin fəaliyyətinin başlanılması ilə əlaqədar MM-ə, digər qanunvericilik aktlarına və təsisçilər arasında bağlanılmış müqaviləyə zidd olmayan digər məsələləri həll edir (AR MM 87.5).

Cəmiyyətin təsis yığıncağında cəmiyyətin təsis edilməsi, nizamnamənin təsdiq edilməsi, cəmiyyətin yaradılması zamanı nizamnamə kapitalına ödənilən pul olmayan əmanətlərin dəyərinin təsdiq edilməsi, idarəetmə orqanlarının formalaşdırılması barədə qərarlar təsisçilər tərəfindən yekdilliklə, digər məsələlər üzrə isə sadə səs çoxluğu ilə qəbul edilir. Cəmiyyətin yaradılması ilə bağlı və onun dövlət qeydiyyatına alınmasına qədər yaranmış öhdəliklərinə görə cəmiyyətin təsisçiləri birgə məsuliyyət daşıyırlar.

Məhdud məsuliyyətli cəmiyyətin ali orqanı onun iştirakçılarının ümumi yığıncağıdır. Bir iştirakçısı olan cəmiyyətdə cəmiyyətin ümumi yığıncağının səlahiyyətləri iştirakçı tərəfindən təkbaşına həyata keçirilir. Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası) və (və ya) təftiş komissiyası (müfəttiş) yaradıla bilər. Məhdud məsuliyyətli cə-

miyyətdə onun fəaliyyətinə cari rəhbərliyi həyata keçirən və iştirakçılarının ümumi yığıncağına hesabat verən icra orqanı (kollegial və (və ya) təkbaşçı) yaradılır. Cəmiyyəti təkbaşçı idarəetmə orqanı onun iştirakçıları olmayanların sırasından da seçilə bilər (AR MM, 91.1).

MƏHDUDLAŞDIRMALAR – qanunla müəyyən edilmiş və ya nəzərdə tutulmuş mövcud şərtlərin və qadağaların sırasında səlahiyyətli orqanlar tərəfindən daşınmaz əmlakın konkret obyektinə və ya başqa əmlaka mülkiyyət hüququnun əldə edilməsi vaxtı hüquq sahibinə məhdudlaşdırmalar (çətinliklər) servitut; ipoteka; icarə; əmlakın həbsi və başqa formalardadır.

MƏHSUL BÖLGÜSÜ – bəzi ölkələrdə istehsal olunmuş məhsulun dövlətlə investor arasında müvafiq bölünməsinə dair termin. Məhsul bölgüsü haqqında razılaşmada aşağıdakı şərtlər və qaydalar nəzərdə tutulmalıdır:

-istehsal olunmuş məhsulun müəyyən olunmuş ümumi həcmi və onun dəyəri;

- kompensasiya olunmuş məhsulun müəyyənləşdirilməsi (o cümlədən onun son həddi);

- dövlətlə investor arasında gəlirli məhsulun bölgüsü;

- razılaşma şərtlərinə müvafiq olaraq, dövlətə məxsus istehsal edilmiş məhsulun və ya onun dəyər ekvivalenti hissəsinin ona verilməsi;

- razılaşma şərtlərinə müvafiq olaraq investora məxsus istehsal olunmuş məhsulun onun tərəfindən alınması.

Razılaşmanın şərtlərinə müvafiq kompensasiya olunmuş məhsul, həmçinin gəlirli məhsulun bir hissəsi investorun mülkiyyət hüququna aiddir.

MƏHSUL BÖLGÜSÜ HAQQINDA RAZILAŞMA YERİNƏ YETİRİLDİKDƏ ÖDƏMƏLƏR – RF-nin məhsul bölgüsü və vergilər haqqında qanunvericilik aktlarına uyğun olaraq investorlar tərəfindən ödənilən məcburi ödənişlər.

MƏHSULUN (İŞİN, XİDMƏTİN) MAYA DƏYƏRİ – məhsulun istehsalına və reallaşmasına çəkilən xərclərin pulla ifadəsi.

MƏHSULUN BÖLGÜSÜ HAQQINDA RAZILAŞMA OLDUQDA VERGİQOYMANIN XÜSUSİYYƏTLƏRİ – RF-in qanunvericilik aktları ilə vergi dərəcələrinin tətbiqi, vergilərin hesablanması və ödənilməsi qaydalarının, vergilərin ödənilməsi müddətlərinin xüsusiyyətləri.

MƏHSULUN BÖLGÜSÜ SAZİŞİ – investora haqqı ödənilməklə və müəyyən dövr ərzində sazişdə göstərilən ərazidə axtarış, kəşfiyyat, mineral xammalın çıxarılması və bununla bağlı digər işlərin yerinə yetirilməsi kimi müstəsna hüquqlar verdiyi, investorun isə öz riski və öz hesabına qeyd olunan işləri yerinə yetirməyi öhdəsinə götürdüyü saziş.

MƏHSULUN KAFİ EMALI ÜÇÜN KRİTERİLƏR – malın istehsalında iki və ya daha çox ölkə iştirak etdiyi halda, malın mənşə ölkəsinin müəyyən edilməsi üçün istifadə edilən meyarlar.

MƏXARİC – pul vəsaitlərinin kassadan və ya aidiyyəti hesabdan çıxarılması.

MƏXARİC METODU – malın

(işin, xidmətin) Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergitutma məqsədləri üçün qiymətinin təyin edilməsi üsulu.

MƏİŞƏT XİDMƏTLƏRİ – əhaliyə göstərilən xidmətlərin təsnifatına uyğun olaraq fiziki şəxslərə göstərlən pullu xidmətlər.

MƏQSƏDLİ DAXİLOLMALAR – aidiyyəti təyinatı üzrə daxilolmalar.

MƏQSƏDLİ MALİYYƏLƏŞMƏDƏ TƏŞKİLATLARIN ƏLDƏ ETDİYİ ƏMLAK – vergi ödəyicisi tərəfindən əldə edilmiş və məqsədli maliyyələşməni həyata keçirən şəxs tərəfindən müəyyən olunmuş təyinat üzrə istifadə olunan əmlak.

MƏNBƏDƏ VERGİQOYMA – gəlir və ya mənfəət kimi ödənilməsi nəzərdə tutulan məbləğin ödənişdən əvvəl vergiyə cəlb edilməsi.

MƏNBƏDƏ VERGİNİN TUTULMASI – verginin gəlir və ya mənfəət əldə edilənədək tutulması.

MƏNFƏƏT – müəssisənin sahibkarlıq fəaliyyətinin səmərəliliyini xarakterizə edən yekun maliyyə göstəricisidir və ümumən, məhsulun qiyməti və maya dəyəri arasındakı fərq kimi hesablanır; müəssisənin mənfəəti məhsulun satışından əldə edilən gəlirlə satılmış məhsulun maya dəyəri arasındakı fərqdir; mənfəətin balans, ümumi, hesabat (vergiyə cəlb edilən) və xalis kimi növlərini fərqləndirirlər. Rezident müəssisə üçün vergitutma obyekti onun mənfəətidir. Vergi ödəyicisinin bütün gəlirləri (vergidən azad edilən gəlirdən başqa) ilə göstərilən, gəlirdən çıxılan xərc arasındakı fərq mənfəətdir.

AR-də özünün daimi nümayəndəliyi vasitəsilə fəaliyyət göstərən qeyri-rezident müəssisə bu fəaliyyətdən əldə etdiyi mənfəətindən, yəni daimi nümayəndəliyi ilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirinin həmin gəlirin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir.

Qeyri-rezidentin daimi nümayəndəliyi ilə bağlı olmayan ümumi gəliri, VM-in 125-ci maddəsində nəzərdə tutulduğu hallarda xərclər çıxılmadan ödəmə mənbəyində vergiyə cəlb olunur.

Daimi nümayəndəliklə bağlı olmayan əmlak təqdim edilməsindən gəlir əldə edən qeyri-rezident müəssisənin təqvim ili ərzində Azərbaycan mənbəyindən əldə etdiyi bu növ ümumi gəlirindən VM-də göstərilən və həmin dövrdə bu cür gəlirə aid olan xərclər çıxıldıqdan sonra vergi tutulur.


MƏNZİL FONDUNUN VƏ SOSİAL-MƏDƏNİ OBYEKTLƏRİN SAXLANMASINA VERGİ – mənzil fondunun və sosial-mədəni obyektlərin saxlanması məqsədilə səlahiyyətli yerli hakimiyyət orqanının müəyyənləşdirdiyi dərəcələrlə hüquqi şəxslər tərəfindən fəaliyyət göstərdikləri müəyyən ərazidə istehsal olunmuş malların (işlərin, xidmətlərin) təqdim olunmasından ödənilən məcburi ödəniş.

MƏNZİLƏ ORDER VERİLMƏSİNƏ GÖRƏ YIĞIM – fiziki şəxslər tərəfindən yeni yaşayış yerinə köçərkən mənzildə yaşamaq hüququnu verən orderlərin alınmasına görə yerli büdcəyə ödənilən, məbləği səlahiyyətli yerli hakimiyyət orqanı tərəfindən ümumi yaşayış sahəsindən və

mənzilin keyfiyyətindən asılı olaraq müəyyənləşdirilən, lakin minimal əməkhaqqının məbləğindən çox olmayan ödəmə.

MƏSRƏFLƏR – hər hansı bir şeyin pul formasında ifadə olunan xərcləri; müəyyən məhsulun (əmtəə və xidmətlərin) alınması məqsədilə istehsal prosesində «məhv edilən» resurslar. Məhsul istehsalına çəkilən məsrəflər xammalın, əsas və yardımçı materialların, alınmış yarımfabrikatların dəyərini, amortizasiya ayırmalarını, əməkhaqqını və sosial sığortaya ayırmaları, ümumi məsrəflərə aid inzibati -təsərrüfat, digər qaimə xərclərini və zərərlərini ehtiva edir.

MİLL CON STÜART (1806-1873) ingilis mütəfəkkiri və iqtisadçısı. 1865-1868-ci illərdə İngiltərə parlamentinin İcmalar palatasının üzvü olmuş, burada mülkədar torpaqlarının kəndlilərə verilməsi və ya uzunmüddətli icarə şərtləri daxilində həmin torpaqların kəndlilərə təhkim edilməsinin tərəfdarı kimi çıxış etmişdir. 1843-cü ildə "Məntiqin sistemi" adlı əsərini çap etdirmişdir. Özünün ən məşhur iqtisadi əsəri olan "Siyasi iqtisadın əsasları" kitabını il yarım ərzində yazaraq 1848-ci ildə nəşr etdirmişdir. C.S.Millin 1859-cu ildə çapdan çıxmış "Azadlıq haqqında" kitabının məzmunu dövlət və şəxsiyyətin qarşılıqlı münasibətlərinin hüdudları məsələsinin hərtərəfli müzakirəsinə həsr olunmuşdur. İqtisadi qanunların obyektiv, "təbii" xarakterini qəbul edən C.S.Mill bildirirdi ki, bölgü qanunları, əsasən, insanın özü tərəfindən formalaşır və buna görə də həmin qanunlar subyektivdir. Bununla əlaqədar o, sosial dəyişiklikləri əsasən gəlirlərin təkrar bölgüsü sahəsində həyata keçirilən tədbirlərdən ibarət hesab edirdi.



MİLLƏT ÜÇÜN DAHA ƏLVERİŞLİ REJİM – RF tərəfindən ticarət-siyasəti münasibətlərində ayrı-ayrı ölkələrə tətbiq edilən rejim. RF-nin gömrük ərazisinə idxal edilən mallara nisbətən ticarət-siyasət əlaqələri olan ölkələrdən idxal olunan mallara millət üçün əlverişli olan (iki dəfə artırılmadan) idxal gömrük rüsumu tətbiq edilir. "Gömrük tarifi haqqında" 20 iyun 1995-ci il tarixli AR Qanununun 3-cü hissəsinə əsasən, AR-in əlverişli ticarət rejimi tətbiq etdiyi ölkələrin malları üçün idxal gömrük rüsumları dərəcələrinin son həddi AR Milli Məclisi tərəfindən müəyyən olunur. Bu Qanunun müddəalarına uyğun olaraq, AR tərəfindən tarif imtiyazları verildiyi hallar istisna olmaqla, əlverişli ticarət rejimi tətbiq olunmayan ölkələrin mallarına və mənşə ölkəsi müəyyənləşdirilməyən mallara idxal gömrük rüsumlarının dərəcələri iki dəfə artırılır.

MİLLİ MƏNAFEYƏ GÖRƏ İDXAL VƏ İXRACA QADAĞA QOYULMASI – "Xarici ticarət fəaliyyətinin dövlət tənzimləməsi haqqında" Qanunun 19-cu maddəsinə müvafiq olaraq, RF-də tətbiq edilən tarifsiz tənzimləmə metodu. Federasiya qanunlarına və RF-nin beynəlxalq müqavilələrinə uyğun olaraq qadağalar və ixracın məhdudlaşdırılması aşağıdakılara və (və ya) malın idxalı, işlər,

xidmətlər, intellektual fəaliyyətin nəticələri, həmçinin müstəsna hüquqlar milli maraqlara əsaslanaraq müəyyən edilə bilər: ictimai əxlaqa və qanunqaydaya riayət etmə; həyatın mühafizəsinin, insanların sağlamlıqlarının, heyvanların və bitki aləminin və ətraf mühitin mühafizəsinin təmin edilməsi; RF xalqlarının mədəni irsinin saxlanılması; qanunsuz ixracdan, idxaldan və onlarda mülkiyyət hüquqlarının ötürülməsindən mədəni dəyərlərin müdafiəsi; əvəzedilməz təbii resursların tükənməsinin qarşısının alınması üçün daxili istehsalın və istehlakın məhdudlaşdırılması ilə bağlı tədbirlərə uyğun aparılması; RF milli təhlükəsizliyinin təminatı; xarici maliyyə durumunun müdafiəsi və ödəmə balansının saxlanılması; beynəlxalq öhdəliklərin icrası.

MİLS CON EVANS ATTA (1944) – Qananın qərb regionu olan



Tarkvada anadan olmuşdur. 1963-cü ildə Açimota kollecini bitirmiş, 1967-ci ildə Qana Dövlət Universitetinin hüquq elmi üzrə məzunu olmuşdur. Sonra London Universitetinin Şərq və Afrika Ölkələrinin Tədqiqatı Məktəbini oxuyaraq ABŞ-da Stenford məktə- bində təhsil almaq üçün seçilən azsaylı tələbələr sırasına daxil olmuşdur. Londona qayıtdıqdan sonra 27 yaşında "Vergitutma və inkişaf" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Vergi məsələləri ilə əlaqədar "Dividentlərin vergidən azad edilməsi: tənqidi analiz", "Qanada vergitutma sistemi və xarici investisiyalar" və s. elmi əsərlərin müəllifidir.

2009-2012-ci illərdə Qana Respublikasının prezidenti olmuşdur.

MİNERAL-XAMMAL BAZASININ TƏKRAR İSTEHSALI ÜÇÜN VERGİ – adətən, bazar iqtisadiyyatı mexanizmlərinə keçid dövründə istifadə olunan dövlət tənzimlənməsini təmin edən məqsədli vergi növü.

MİNERAL-XAMMAL BAZASININ TƏKRAR İSTEHSALINA AYIRMALAR – təbii ehtiyatlardan istifadəyə görə ödənilən qeyri-vergi ödənişlərdən biri olaraq kəşfiyyatı dövlət tərəfindən aparılan faydalı qazıntıların çıxarılmasına görə yer təkinin istifadəçiləri tərəfindən ödənilir.

MİNİMUM ƏMƏKHAQQI – AR qanunvericilik aktları ilə müəyyən edilən normativdir. Xüsusi halda, muzdla işləyənlər üzrə aylıq əməkhaqqının məbləği minimum aylıq əməkhaqqından az ola bilməz. Özəl müəssisələr və səhmdar təşkilatlar, gəlirlərindən asılı olaraq, aylıq əməkhaqqının həcmini müəyyən edə bilərlər.

Minimum aylıq əməkhaqqının miqdarı AR Prezidentinin 2005-ci il 16 sentyabr tarixli 298 nömrəli Sərəncamı ilə – 30 manat, 2006-cı il 19 dekabr tarixli 492 nömrəli Sərəncamı ilə – 40 manat, 2007-ci il 22 yanvar tarixli 1895 nömrəli Sərəncamı ilə – 50 manat, 2007-ci il 26 dekabr tarixli 2577 nömrəli Sərəncamı ilə – 60 manat, 2008-ci il 25 avqust tarixli 3005 nömrəli Sərəncamı ilə – 75 manat, 2010-cu il 31 avqust tarixli 1078 nömrəli Sərəncamı ilə – 75 manat, 2011-ci

il 1 dekabr 1866 nömrəli Sərəncamı ilə – 93 manat 50 qəpik olmuşdur.

MİNİMAL VERGİ – RF VM-in 346.18 maddəsində nəzərdə tutulmuş vergi. Xərc azaldılmaqla gəlirin vergitutma obyektinə tətbiq edilən sadələşdirilmiş vergitutma sistemi üzrə vergi ödəyiciləri tərəfindən ödənilən vahid vergiyə aiddir. Minimal verginin məbləği müəyyən edilmiş gəlirin vergitutma bazasının 1%-i miqdarında hesablanır. Minimal vergi o halda ödənilir ki, ümumi qaydada hesablanmış verginin məbləği hesablanmış minimal verginin məbləğindən azdır. Vergi ödəyicisi ümumi qaydada hesablanmış vergi ilə ödənilmiş minimal vergi məbləği arasındakı fərq məbləğini növbəti vergi dövrlərində birləşdirmək hüququna malikdir.

MİRLİS ALEKSANDR CEYMS (1936) –şotland iqtisadçısı. 1996-cı ildə "informasiya assimetriyası sahəsində araşdırma"ya görə Nobel mükafatına layiq görülmüşdür. Edinburq Universitetində və Kebric Universitetində (doktorluq dərəcəsi) təhsil almışdır.



Kembric və Oksford universitetlərində dərs demişdir. 1982-ci ildən Ekonometrika Cəmiyyətinin prezidenti, 1988-1989-cu illərdə isə Beynəlxalq Atlantik İqtisadi Cəmiyyətin prezidenti olmuşdur.

"Mənəvi risk nəzəriyyəsi və müşahidə olunmayan davranış" (1975) əsərinin müəllifidir.

MİSSİYA – diplomatik hüquq termini; iki mənada işlənir: a) müəyyən tapşırıqla başqa ölkəyə göndərilmiş nümayəndə heyəti; b) diplomatik nümayəndənin və ya işlər vəkilinin başçılıq etdiyi nümayəndəlik. Latınca "missio" – göndərmə, tapşırma, həvalə etmə deməkdir.

MONTESKYÖ ŞARL LUİ (1689 -1755) – fransız yazıçısı, maarifçi-filosof, siyasi mütəfəkkir, sosioloq və tarixçi. Dünyagörüşü etibarilə deist olan Ş.L.Monteskyö teologiya və kilsənin kəskin tənqidini vermişdir. İctimai əxlaqın qorunmasında dinin müəyyən rol oynadığını göstərmişdir. Ş.L.Monteskyö təbiət və cəmiyyət hadisələrinin tabe olduğu ən ümumi qanunauyğunluq ideyasını inkişaf etdirmişdir. Ş.L. Monteskyö 1748-ci ildə "Qanunların ruhu haqqında" əsərini yazmışdı. Onun fikrincə, siyasi xəyanətlərin aradan qaldırılması üçün təminat hakimiyyətin ciddi olaraq üç yerə bölünməsi (qanunverici, icraedici və məhkəmə) və qarşılıqlı məhdudlaşdırılması ola bilər. Bu ideyalar Fransa burjua inqilabı qanunvericiliyinə böyük təsir göstərmişdir. Atomistik nəzəriyyənin təmsilçisi olan Ş.L. Monteskyö ("ictimai müqavilə" nəzəriyyəsi) verginin əhalinin dövlətə ödədiyi pul müqabilində mühafizə, müdafiə və digər xidmətlər göstərilməsi üçün bağlanmış müqavilənin nəticəsi olduğunu qeyd etmişdir. Onun fikrincə, heç kim dövlətin göstərdiyi həmin xidmətlərdən imtina edə bilmədiyi kimi vergi ödəməkdən də imtina edə



bilməz. Yekun nəticədə bu mübadilə daha sərfəlidir.

MOTİVASİYA TESTİ – bir sıra dövlətlərin vergi qanunvericiliyində nəzərdə tutulmuş qaydada konkret sazişlə vergidən yayınma hallarının qarşısının alınması məqsədilə vergi məbləğinin azaldılması üçün tətbiq edilən xüsusi test. Əgər sazişi bağlamış şəxslər sübut edə bilsələr ki, sazişin bağlanması vaxtı verginin azalmasından başqa digər istənilən qanuni motivlər (hədəflər) istifadə olunub, o saziş motivasiya yönümlü testin tələblərinə cavab verən tərəfindən tanınır. Motivasiya yönümlü testin yerinə və ya onun növləri kimi işgüzar hədəfin testi və ya faydalılığın testi kimi istifadə oluna bilər.

MÖVSÜMİ İSTEHSAL – təbii iqlim şəraitlərindən və ilin mövsümündən bilavasitə asılı olan istehsal.

MÖVSÜMİ İŞ – təbii və iqlimi şərtlərlə əlaqədar olaraq müəyyən dövrlərdə, ilin müvafiq fəsillərində yerinə yetirilən iş.

MÖVSÜMİ RÜSUMLAR – malların idxalının və ixracının operativ qaydada tənzimlənməsi üçün ümumi gömrük tariflərindən imtina etmək şərti ilə bəzi mallara, əsasən kənd təsərrüfatı məhsullarına tətbiq olunan müddətli (6 aydan çox olmamaq şərti ilə) gömrük rüsumları.

MURADOV ŞAHBAZ MUSA OĞLU (1938) – iqtisad elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü. Azərbaycan Respublikasının Laçın rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetini bitirmişdir (1961). AMEA-nın İqtisadiyyat İnstitutunda kiçik elmi işçi (1961-1966), baş elmi işçi (1966-1968), şöbə müdiri (1968), elmi işlər üzrə direktor müavini (1991-1999), direktor (1999-2008) işləmişdir.



Elmi nailiyyətləri əhali sakinliyinin iqtisadiyyatı və demoqrafiyanın sosial iqtisadi problemləri, iş qüvvəsinin təkrar istehsalı və əmək ehtiyatlarından istifadənin sosial iqtisadi problemləri, məşğulluq, işsizlik və demoqrafiya siyasətinin nəzəri-metodoloji əsasları və regional aspektlərinin, habelə müxtəlif sosial-demoqrafik qruplardan olan əhalinin (qadınlar, kişilər, gənclər və təqaüdçülər) məşğulluq problemlərinin tədqiq ilə bağlıdır.

Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir (2004).

Əsas elmi əsərləri:

"Azərbaycan SSR-də qadın əmək ehtiyatlarından istifadənin sosial-iqtisadi problemləri" (1974), "Azərbaycan SSR-də əmək ehtiyatlarından istifadənin ictimai-iqtisadi problemləri" (1978), "Müasir mərhələdə demoqrafiya siyasəti" (1986), "Azərbaycan SSR-in əmək ehtiyatları: nəzəri-metodologi və sosial-iqtisadi aspektlər" (1987), "Bazar iqtisadiyyatına keçidin aktual problemləri: nəzəri-metodoloji və sosial-iqtisadi aspektlər" (1994), "Azərbaycan Respublikası əhalisinin dinamikası və etnodemoqrafik dəyişikliklər (1897-2007)" (2008).

MUSAYEV AKİF FƏRHAD OĞLU (1947) – iqtisad elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü. Azərbaycan Respublikasının Füzuli rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetini bitirmişdir (1971).



Elmi-tədqiqat işləri və əldə etdiyi elmi nailiyyətlər üç sahənin iqtisadi problemlərinin həllini əhatə edir: avtomobil nəqliyyatı işinin təşkili və planlaşdırması; neft maşınqayırması və neft-qaz sənayesinin inkişafının idarə edilməsinin, qarşılıqlı əlaqələrinin iqtisadi problemləri; Azərbaycanda vergilərin iqtisadi problemlərinin elmi tədqiqi istiqamətinin öyrənilməsi və təşkili.

1967-1999-cu illərdə elmi və elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş, 1999-2000-ci illərdə Baş Dövlət Vergi Müfəttişliyinin Analitik İnformasiya İdarəsinin rəisi, 2000-2007-ci illərdə AR Vergilər Nazirliyinin Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisi, 2007-2011-ci illərdə Azərbaycan Universitetinin rektoru olmuşdur. 2011-ci ildən Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisidir.

Azərbaycan Respublikasının vergi orqanlarında qulluq vəzifəsinin yerinə yetirilməsində fərqləndiyinə, ölkəmizin iqtisadi mənafeyinin qorunmasında xidmətinə görə «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif edilmişdir (2007).

Əsas elmi əsərləri:

"Методы оперативного планирования маятниковых грузовых автомобильных перевозок" (1996), "Нефтедобыча и нефтяное машиностроение: анализ взаимодействия. Монография" (1996), ""Vergi sistemi. Dərs vəsaiti" (1998), "Тенденции развития экономики машиностроения в Азербайджане. Монография" (1999), "Vergitutmanın nəzəri və metodoloji əsasları" (2001),"A Revenue Estimating Manual for The Republic of Azerbaijan. Monograph" (2004), "Vergi siyasətinin iqtisadi problemləri" (2004), "Yerli özünüidarəetmə (bələdiyyə) orqanlarının vergi sistemi" (2008), "Vergi mədəniyyəti" (A.Qəhrəmanovla birgə, 2010), "Ekonometrikaya giriş" (A.Qəhrəmanovla birgə, 2011).

MUXTAR RESPUBLİKA VERGİLƏRİ – AR büdcə sisteminə daxil olan muxtar respublika büdcəsinə qanunvericilikdə nəzərdə tutulan qaydada ödənilməli olan vergilərdir. Muxtar respublika vergiləri dedikdə, Naxçıvan MR-də ödənilən vergilər nəzərdə tutulur.

MUZDLU İŞ – əmək qanunvericiliyinə uyğun olaraq bağlanmış müqavilə (kontrakt) əsasında haqqı ödənilməklə müəyyən əmək funksiyasının yerinə yetirilməsini nəzərdə tutan əmək fəaliyyəti.

MÜDDƏT – mülki hüquq və vəzifələrin əmələ gəlməsinin, dəyişdirilməsinin və xitamının bağlı olduğu vaxt.

MÜƏLLİF HAQQI ALANIN YAŞADIĞI DÖVLƏT – müəllif haqqının alıcısının daim yaşadığı dövlət.

Daim yaşayan şəxs kimi ev ünvanı, yaşayış yeri və ya rəsmi ünvanına uyğun olaraq müvafiq dövlətdə vergiyə cəlb olunan şəxs qəbul olunur.

MÜƏLLİF HAQQININ ALICISI – insanın yaradıcı fəaliyyətinin nəticəsi olan elm, ədəbiyyat və ya incəsənət əsərlərinə görə, müəllif və ya müəllifin varisi olmasından asılı olmayaraq, mükafat alan istənilən şəxs.

MÜƏLLİF HAQQININ ÖDƏNİLMƏSİNİN DÖVLƏT MƏNBƏYİ – ödənilən müəllif haqlarının mənsubiyyətini müəyyən edən termin. O zaman müəllif haqlarının ödənilmə mənbəyi dövlət hesab olunur ki, aşağıdakı hallardan biri olsun:

- müəllif hüququndan əldə olunan müəllif haqqı bilavasitə dövlət və ya onun siyasi və inzibati qurumları və ya yerli orqanları tərəfindən ödənilsin;
- həmin dövlətdə daim yaşayan şəxs tərəfindən ödənilsin (ödənilən haqlar digər dövlətdəki fəaliyyəti ilə bağlı olmadığı hallarda);
- həmin dövlətdə daim yaşamayan şəxs tərəfindən ödənilsin (ödənilən haqlar həmin dövlətdəki fəaliyyətlə bağlı olduğu hallarda).

MÜƏLLİF HAQLARININ ÖDƏNMƏSİ – ədəbi, bədii və elmi əsərlərə müvafiq qanunvericilik normalarına uyğun olaraq təsdiqlənmiş müəllif hüquqlarının istifadəsindən əldə olunan istənilən mükafatların ödənməsi.

MÜƏSSİSƏ – mülkiyyət formasından asılı olmayaraq ictimai tələbatın ödənilməsi və mənfəət əldə edilməsi məqsədilə məhsul istehsal edən, satan, müvafiq iş və xidmətlər yerinə yetirən hüquqi şəxs olan müstəqil təsərrüfat subyekti.

MÜƏSSİSƏ VƏ TƏŞKİLATLARIN MƏNFƏƏTİNƏ VERGİ – bax: *Hüquqi şəxslərin mənfəət vergisi.*

MÜƏSSİSƏLƏRİN AYRI-AYRI GƏLİRLƏRİNƏ VERGİ QOYULUŞU – AR VM-in (fəsil X) müddəalarına əsasən, mülkiyyət formasından asılı olmayaraq, hüquqi şəxslərin mənfəət vergisindən başqa, aşağıdakı gəlirlərinə vergi müəyyən edil- mişdir:

a) dividentdən – dividenti ödəyən rezident müəssisə tərəfindən ödəmə mənbəyində 10 faiz vergi tutulur;

b) faizdən – rezident banklarına, maliyyə lizinqini həyata keçirən rezident şəxslərə və ya qeyri-rezident bankların, maliyyə lizinqini həyata keçirən qeyri-rezidentin AR-dəki daimi nümayəndəliyinə kreditlər (ssudalar), depozitlər (hesablar) üzrə ödənilən faizlər istisna olmaqla, rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən gəlir VM-in 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur;

c) həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlirdən ödəniş mənbəyindən 10 faiz dərəcəsi ilə vergi tutulur;

ç) daşınar və daşınmaz əmlak üçün icarə haqqından, həmçinin rezidentin və ya qeyri-rezidentin AR-dəki daimi nümayəndəliyinin ödədiyi və ya onun

adından ödənilən royaltidən gəlir Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur;

d) qeyri-rezidentin AR VM-in 13.2.16-cı maddəsi ilə Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin AR ərazisindəki daimi nümayəndəliyinə aid olmayan ümumi gəlirindən ödəmə mənbəyində xərclər çıxılmadan aşağıdakı dərəcələrlə vergi tutulur: dividentdən – 10 faiz; faizlərdən – 10 faiz; rezident müəssisənin və ya sahibkarın riskin sığortasına və ya təkrar sığortasına dair müqaviləyə uyğun olaraq sığorta ödəmələri – 4 faiz; AR ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya beynəlxalq daşımalar həyata keçirilərkən rabitə və ya nəqliyyat xidmətləri üçün rezident müəssisənin və ya sahibkarın ödəmələri – 6 faiz; rezident müəssisənin qeyri-rezidentə (AR-da saxlanılan və istifadə edilən əmlak üçün alınan royalti şəklində gəliri və daşınmaz əmlakın icarəyə verilməsindən əldə edilən gəlir istisna olmaqla) Azərbaycan mənbəyindən əldə etdiyi gəlirlər şəklində ödəmələrindən – 10 faiz; rezident müəssisələr tərəfindən qeyri-rezidentə icarə haqqı və royalti şəklində ödəmələrdən – 14 faiz; rezident müəssisənin və ya sahibkarın aşağıdakı ödəmələrindən: muzdlu işlə əlaqədar alınan gəlirlər istisna olmaqla işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən əldə edilən gəlirlər, o cümlədən VM-in 13.2.16.2- ci, 13.2.16.10-cu (AR-də saxlanılan və ya istifadə edilən əmlak üçün alınan royalti şəklində gəlir istisna olmaqla), 13.2.16.12-ci (AR-dəki daşınmaz əmlakın icarəyə verilməsindən əldə edilən gəlir istisna olmaqla) və 13.2.16.14-cü maddələrində göstərilən xidmətlərdən alınan gəlir və Azərbaycan mənbəyindən əldə edilən digər gəlirlər – 10 faiz;

e) qeyri-rezidentin daimi nümayəndəliyindən mənfəət vergisindən əlavə olaraq bu daimi nümayəndəliyin xalis mənfəətindən həmin qeyri-rezidentə köçürdüyü (verdiyi) hər hansı məbləğdən 10 faiz dərəcə ilə vergi tutulur.

MÜƏSSİSƏNİN ƏMLAKINA VERGİ – bax: *Əmlak vergisi*.

MÜƏSSİSƏNİN LƏĞV EDILMƏSI – bax: *Hüquqi şəxsin ləğv edilməsi.*

MÜƏSSİSƏNİN NİZAMNAMƏ KAPİTALI (FONDU) – müəssisənin kreditorlarının mənafelərinə təminat verən əmlakın minimum miqdarı.

MÜFƏTTİŞ – hər hansı müəssisənin və vəzifəli şəxsin fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğunluğunu yoxlayan səlahiyyətli şəxs.

MÜFLİSLƏŞMƏ – borclunun öz öhdəliklərini ödəmək qabiliyyətinin olmaması. Borclu həm fiziki şəxs, həm də hüquqi şəxs ola bilər.

MÜHASIBAT – mühasibat uçotunun aparılması; baş mühasibin rəhbərlik etdiyi mühasibat uçotunun həyata keçildiyi müəssisə və təşkilatların struktur bölməsi.

MÜHASİBAT BALANSI – hesabat dövrünün son gününə müəssisənin, idarənin, təşkilatın və digər təsərrüfat subyektlərinin əmlak və maliyyə vəziyyətini əks etdirən maliyyə hesabatı forması.

MÜHASİBAT HESABATLIĞI – müəssisənin əmlak və maliyyə vəziyyəti, mühasibat uçotunun məlumatları əsasında müəyyyən edilmiş formaya uyğun olaraq onun təsərrüfat fəaliyyətinin nəticələri barədə vahid məlumat sistemini ifadə edən termin.

MÜHASİBAT KİTABI – mühasibat balansının hesablarını, alınan və satılan malları, gəlir və xərclərin mənbələrini, əmək haqlarını və s. əks etdirən rəsmi mühasibat sənədi. Mühasibat kitabında faktiki olaraq bütün təsərrüfat əməliyyatları qeyd edilir.

MÜHASİBAT UÇOTU – müəssisənin, idarənin, təşkilatın və başqa təsərrüfat subyektlərinin əmlakının, öhdəliklərinin, kapitalının, dövriyyə vəsaitlərinin və ümumiyyətlə, bütün maliyyə-təsərrüfat fəaliyyətinin natural göstəricilər əsasında, pul ifadəsində, fasiləsiz, başdan-başa, sənədləşdirilmiş və mühasibat registrlərində qarşılıqlı əlaqələndirilmiş bütün təsərrüfat əməliyyatlarının mühasibat hesablarında ikili yazılış üsulu ilə yığılması və qaydaya salınması sistemi.

"MÜHASİBAT UÇOTU HAQQINDA" AZƏRBAYSAN RESPUBLİKASININ QANUNU – mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq AR ərazisində fəaliyyət göstərən hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən mühasibat uçotunun təşkili və aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi qaydalarını tənzimləyən Qanun. Bütün mühasibat uçotu subyektlərində mühasibat uçotunun bu qanunda müəyyən edilmiş müvafiq mühasibat uçotu standartlarına və ya sadələşdirilmiş uçotun qaydalarına uyğun aparılması məcburidir. AR-də mühasibat uçotu sahəsində dövlət tənzimlənməsinin əsas məqsədi kommersiya təşkilatları üçün maliyyə hesabatlarının beynəlxalq standartlarını və onlara əsaslanan MMUS-u, qeyri-kommersiya təşkilatları üçün isə İctimai Sektor üçün MUBS-a əsaslanan MMUS-i hazırlamaqla və tətbiq etməklə ölkədə mühasibat uçotunun beynəlxalq standartlar əsasında inkişaf etdirilməsini və maliyyə hesabatlarında şəffaflığı təmin etməkdən ibarətdir.

2004-cü il 29 iyun tarixli 716-IIQ nömrəli "Mühasibat uçotu haqqında" AR Qanunu 19 maddədən və aşağıdakı 6 fəsildən ibarətdir:

1. Ümumi müddəalar.
2. Mühasibat uçotu sahəsində tənzimləmə.
3. Mühasibat uçotu standartları.
4. Kommersiya təşkilatlarının maliyyə hesabatları.
5. Qeyri-kommersiya təşkilatlarının maliyyə hesabatları.
6. Yekun müddəalar.

MÜHASİBAT UÇOTU HAQQINDA QANUNVERİCİLİK – mühasibat uçotu ilə əlaqədar hazırlanmış və bu sahədə münasibətləri tənzimləyən bütün normativ-hüquqi aktların, habelə, tövsiyə xarakteri daşıyan sənədlərin toplusu.

MÜHASİBAT UÇOTUNUN HESABLAR PLANI – mühasibat uçotunun müəyyən edilmiş əlamətləri üzrə sintetik və subhesabların məcmusu.

MÜHƏSSİL – orta əsrlərdə Ərəb Xilafətinə daxil olan ölkələrdə vergiyığan məmur. Ərəb sözüdür, "yığan", "toplayan" deməkdir.

MÜXTƏLİF NƏQLİYYAT VASİTƏLƏRİNƏ VERGİLƏR – AR VM-in XV fəsli ilə tənzimlənən vergilər. AR ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri olan qeyri-rezident müəssisələr və qeyri-rezident fiziki şəxslər, habelə AR ərazisində mülkiyyətində və ya istifadəsində minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri olan şəxslər AR-in avtomobil yollarından istifadəyə görə yol vergisinin ödəyiciləridir. Vergitutma obyekti: AR ərazisinə daxil olan xarici dövlətlərin avtomobil nəqliyyatı vasitələrindən: minik avtomobilləri – mütləq məbləğdə (dollarla); avtobuslar üçün oturacaq yerlərinin sayından və AR ərazisində qaldığı müddətdən asılı olaraq; yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün oxların sayından və AR ərazisində qaldığı müddətdən asılı olaraq vergi hesablanır. AR ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan şəxslər (kənd təsərrüfatı məhsullarının istehsalında istifadə olunan kənd təsərrüfatı texnikası və büdcə təşkilatlarının avtomobil nəqliyyatı vasitələri istisna olmaqla) illik yol vergisi həmin avtonəqliyyat vasitələrinin mühərrikinin həcminə görə hesablanır. Xarici dövlətlərin avtonəqliyyat vasitələrindən vergini həmin avtonəqliyyat vasitələri AR gömrük ərazisinə daxil olan zaman gömrük orqanları tuturlar və bir bank günü ərzində dövlət büdcəsinə keçirirlər. İllik yol vergisinin ödənildiyini təsdiq edən sənədlər təqdim edilmədikdə, avtonəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan müvafiq icra hakimiyyəti orqanı (yol polisi xidməti) tərəfindən avtonəqliyyat vasitələrinin qeydiyyatı, yenidən qeydiyyatı və texniki baxışı keçirilmir. AR ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər. AR ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan fiziki şəxslər illik yol vergisini avtomobillər texniki baxışdan keçən zaman dövlət büdcəsinə ödəyirlər.

MÜKƏLLƏFİYYƏT – dövlət, cəmiyyət və s. tərəfindən əhali üzərinə qoyulan vəzifə.

MÜQAVİLƏ – mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması. Müqavilələrə iki və çoxtərəfli əqdlərə dair qaydalar tətbiq edilir. İkidən çox tərəfin bağladığı müqavilələrə müqavilə haqqında ümumi müddəalar belə bir şərtlə tətbiq edilir ki, bu, həmin müqavilələrin çoxtərəfli xarakterinə zidd olmasın.

Fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər. Onlar AR MM-də nəzərdə tutulmayan, lakin ona zidd olmayan müqavilələr də bağlaya bilərlər.

Müqavilə onun bağlandığı vaxt qüvvədə olan qanunla və digər hüquqi aktlar ilə müəyyənləşdirilmiş, tərəflər üçün məcburi qaydalara (imperativ normalara) uyğun gəlməlidir. Müqavilə bağlandıqdan sonra onu bağlayarkən qüvvədə olmuş qaydalardan fərqlənən, tərəflər üçün məcburi başqa qaydalar müəyyənləşdirən qanun qəbul edilmişsə, bağlanmış müqavilənin şərtləri qüvvəsini saxlayır, amma qanunda onun qüvvəsinin əvvəllər bağlanmış müqavilələrdən əmələ gələn münasibətlərə şamil olunmasının müəyyənləşdirildiyi hallar istisna təşkil edir (AR MM, maddə 390.2).

Tərəflər AR MM-də nəzərdə tutulmuş müxtəlif müqavilələrin ünsürlərini əhatə edən müqavilə (qarışıq müqavilə) bağlaya bilərlər. Tərəflərin razılaşmasından və ya qarışıq müqavilənin mahiyyətindən ayrı hal irəli gəlmirsə, qarışıq müqavilə üzrə tərəflərin münasibətlərinə qarışıq müqavilədə ünsürləri olan müqavilələrə dair qaydalar müvafiq hissələrdə tətbiq edilir. Müqavilə şərti tərəflərin razılaşması ilə ayrı qaydanın müəyyənləşdirilmədiyi halda tətbiq edilən normada (dispozitiv norma) nəzərdə tutulubsa, tərəflər razılaşma əsasında bu normanın tətbiqini istisna edə bilər və ya onun nəzərdə tutduğundan fərqli şərt müəyyənləşdirə bilərlər. Bu cür razılaşma olmadıqda müqavilə şərti dispozitiv norma ilə müəyyənləşdirilir. Müqavilə şərti onun iştirakçıları tərəfindən və ya dispozitiv norma ilə müəyyənləşdirilməyibsə, müvafiq şərtlər tərəflərin münasibətlərinə tətbiq edilə bilən işgüzar adətlərlə müəyyənləşdirilir.

MÜQAYİSƏLİ ŞƏRTLƏRLƏ VERİLMİŞ BORC ÖHDƏLİYİ – kredit riskinin eyni qrupuna daxil olan və analoji təminatı eyni valyuta ilə eyni müddətə verilən borc öhdəlikləri.

MÜLKİ HÜQUQ – fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini, əmlak hüquqlarının əmələ gəlməsi əsaslarını və həyata keçirilməsi qaydasını müəyyənləşdirən, müqavilə və digər öhdəlik münasibətlərini, sair əmlak münasibətlərini və onlarla bağlı olan şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən hüquq sahəsi.

MÜLKİ QANUNVERİCİLİK – AR mülki qanunvericiliyi AR Konstitusiyasına əsaslanır və Mülki Məcəllədən, digər qanunlardan və onların əsasında qəbul edilən, mülki hüquq normalarını müəyyənləşdirən başqa normativ-hüquqi aktlardan ibarətdir.

MÜLKİ MƏCƏLLƏ – mülki-hüquqi münasibətləri tənzimləyən qanunlar məcəlləsi.

MÜLKİYYƏT HÜQUQU – subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququ.

MÜMKÜN MİNİMAL DEMPİNQ MARJASI – iki faiz təşkil edən dempinq marjasi (bax: *dempinq marjasi*).

MÜSADİRƏ – dövlət tərəfindən mülkiyyətçinin əmlakının hamısının

və ya bir hissəsinin qanun pozuntusuna görə məcburi əvəzsiz alınması.

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ VERGİ (MALİYYƏ) TƏDQİQATLARI ORQANLARI RƏHBƏRLƏRİNİN KOORDİNASİYA ŞURASI – Vergi (maliyyə) tədqiqatları orqanları rəhbərlərinin Koordinasiya Şurası MDB Hökumət Başçıları Şurasının 30 noyabr 2000-ci



il tarixli Qərarı ilə yaradılmışdır. Həmin Qərar ilə Şuranın Əsasnaməsi təsdiq edilmişdir. Şuranın üzvləri MDB iştirakçısı olan dövlətlərin (Türkmənistan, Özbəkistan Respublikası və Ukrayna istisna olmaqla) vergi (maliyyə) tədqiqatları orqanlarının rəhbərləridir. Vergi (maliyyə) tədqiqatları orqanları rəhbərlərinin Koordinasiya Şurasının əsas məqsədləri aşağıdakılardır:

- vergi (maliyyə) qanunvericiliyinin pozulmasının aşkar edilməsi, qarşısının alınması və aradan qaldırılması ilə bağlı vəzifələrin səmərəli icrası məqsədilə qarşılıqlı fəaliyyətin təmin edilməsi, məlumat mübadiləsi, qarşılıqlı məsləhətləşmələr, tövsiyələrin və təkliflərin hazırlanması;

- MDB iştirakçısı olan dövlətlərin milli qanunvericiliklərinin təkmilləşdirilməsinə və harmonizasiyasına, vergi (maliyyə) qanunvericiliyinin pozulması ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlığın müqavilə-hüquq bazasının inkişafına dair təkliflərin hazırlanması.

Göstərilən məqsədləri həyata keçirmək üçün Koordinasiya Şurası aşağıdakı vəzifələri yerinə yetirir:

- vergi (maliyyə) qanunvericiliyinin pozulması ilə mübarizənin, habelə MDB iştirakçısı olan dövlətlərin ərazilərində vergi (maliyyə) təhqiqatları orqanları arasında qarşılıqlı əlaqələrin təşkilinin aktual məsələlərini müzakirə edir;

- vergi (maliyyə) təhqiqatları orqanlarının səlahiyyətlərinə aid məsələlərə dair təkliflər hazırlayır və onları müəyyən edilmiş qaydada MDB Hökumət Başçıları Şurasının müzakirəsinə çıxarır;

- vergi (maliyyə) təhqiqatları orqanları rəhbərlərinin Koordinasiya Şurasının səlahiyyətlərinə aid olan MDB Dövlət Başçıları Şurasının, Hökumət Başçıları Şurasının qərarlarının və MDB çərçivəsində bağlanmış müqavilələrin, habelə öz qərarlarının icrasının gedişini müzakirə edir;

- MDB iştirakçısı olan dövlətlərin vergi (maliyyə) təhqiqatları orqanları arasında qarşılıqlı təcrübə və məlumat mübadiləsinə kömək edir;

- qarşılıqlı maraq doğuran problemlərə dair birgə elmi-tədqiqat işlərinin aparılması məsələlərini müzakirə edir;

- vergi (maliyyə) təhqiqatları orqanlarının tədris müəssisələri və bölmələri üçün kadrların hazırlanması və ixtisaslarının artırılması məsələlərini müzakirə edir;

- yaradılmış işçi orqanlarına rəhbərlik edir.

MDB vergi (maliyyə) tədqiqatları orqanları rəhbərlərinin Koordinasiya Şurasının ilk iclası 24 noyabr 2000-ci



Vergi (maliyyə) tədqiqatları orqanları rəhbərlərinin Koordinasiya Şurasının 13-cü iclası. Bakı, 2011

ildə Moskva şəhərində keçirilmişdir. Bu iclasda təşkilati məsələlər müzakirə olunduqdan sonra Şuranın Əsasnaməsini MDB üzvü olan dövlətlərdən Azərbaycan, Ermənistan, Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, RF və Tacikistan imzalamışdır. Koordinasiya Şurasının sonrakı iclasları aşağıdakı tarixlərdə olmuşdur:

2-ci iclas – 28-29 may 2001-ci ildə Almatı şəhərində;

3-cü iclas – 6 dekabr 2001-ci ildə Yerevan şəhərində;

4-cü iclas – 27 iyun 2002-ci ildə Bişkek şəhərində;

5-ci iclas – 16 dekabr 2002-ci ildə Tbilisi şəhərində;

növbədənkənar iclas – 7 aprel 2004-cü ildə Kiyev şəhərində;

6- cı iclas – 16-17 iyun 2004-cü ildə Düşənbə şəhərində;

7-ci iclas – 31 mart 2006-cı ildə Moskva şəhərində;

8-ci iclas – 21-22 sentyabr 2006-cı ildə Astana şəhərində;

9-cu iclas – 18-19 oktyabr 2007-ci ildə Kişinyov şəhərində;

10-cu iclas (yubiley iclası) – 18-19 iyun 2008-ci ildə Samara (RF) şəhərində;

11-ci iclas – 10 sentyabr 2009-cu ildə Çolpon-Ata (Qırğızıstan) şəhərində;

12-ci iclas – 26-29 may 2010-cu ildə Almatı (Qazaxıstan) şəhərində;

13-cü iclas – 27-28 oktyabr 2011-ci ildə Bakı şəhərində; bu iclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, RF, Tacikistan, Ukrayna nümayəndələri iştirakçı, Litva və Latviya nümayəndələri isə müşahidəçi statusunda iclasda iştirak etmişlər.

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ VERGİ XİDMƏTLƏRİ RƏHBƏRLƏRİNİN KOORDİNASİYA ŞURASI – Koordinasiya Şurasının yaradılması və onun Əsasnaməsinin təsdiqi haqqında Qərar MDB Hökumət Başçıları Şurasının 31 may 2001-ci il tarixində Minsk



şəhərində keçirilmiş görüşü zamanı qəbul edilmişdir və o, MDB ölkələrinin vergi xidmətlərinin fəaliyyətinin uzlaşdırılması məqsədilə yaradılmışdır. MDB iştirakçısı olan 10 dövlətin vergi xidmətlərinin rəhbərlərinin daxil olduğu Koordinasiya Şurası MDB İcraiyyə Komitəsi ilə qarşılıqlı əlaqəli fəaliyyət göstərir. Şuranın fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

- vergi siyasətinə və vergi inzibatçılığına görə cavabdeh olan MDB iştirakçısı olan dövlətlərin vergi xidmətləri arasında əməkdaşlıq;

- vergi siyasətini və vergi inzibatçılığını nizamlayan milli qanunvericiliklərin təkmilləşdirilməsi və harmonizasiyası üzrə təkliflərin hazırlanması;

- qüvvədə olan milli qanunvericiliklərə və beynəlxalq hüquq normalarına uyğun olaraq vəzifələrinə vergi siyasəti və vergi inzibatçılığı məsələləri daxil olan MDB iştirakçısı olan dövlətlərin digər sahə əməkdaşlığı orqanları və milli strukturlarla qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi;

- vergi siyasəti və vergi inzibatçılığı sahəsində qəbul edilmiş dövlətlərarası və hökumətlərarası sazişlərin və qərarların icra edilməsində yardım etmək.

Koordinasiya Şurası göstərilən məsələlərin icrası məqsədilə aşağıdakı vəzifələri həyata keçirir:

- vergi siyasəti və vergi inzibatçılığı sahəsində qarşılıqlı münasibətlərin mühüm əhəmiyyətə malik məsələlərinin və perspektiv formalarının reallaşdırılması üzrə tədbirlərin hazırlanması;

- üzv ölkələrin vergi siyasəti və vergi inzibatçılığı sahəsində qarşılıqlı əlaqələrinin normativ-hüquqi tənzimlənməsi üçün təkliflərin hazırlanması və müvafiq qaydada MDB-nin İqtisadi Şurasının və birliyin digər orqanlarının müzakirəsinə verilməsi;

- vergi siyasəti və vergi inzibatçılığı sahəsində üzv ölkələrin milli qanunvericiliyinin harmonizasiyasını təmin edən tövsiyələrin verilməsi;

- vergi siyasəti və vergi inzibatçılığı məsələləri üzrə üzv ölkələrin vergi xidmətləri arasında informasiya mübadiləsinin həyata keçirilməsi, vergi qanunvericiliyinə riayət edilməsinə və pozuntuların aradan qaldırılmasına kömək göstərilməsi;

- kadrların hazırlanması və ixtisasının artırılması məsələlərində qarşılıqlı əlaqənin qurulması;

- qarşılıqlı əlaqə tələb edən digər məsələlərin həll edilməsi.

MDB Vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının iclasları aşağıdakı tarixlərdə olmuşdur:

1-ci iclas – 25-26 sentyabr 2001-ci ildə Moskva şəhərində;

2-ci iclas – 23 fevral 2002-ci ildə Moskva şəhərində;

3-cü iclas – 7 sentyabr 2002-ci ildə Yalta (Ukrayna) şəhərində;

4-cü iclas – 12 iyun 2003-cü ildə Bakı şəhərində;

5-ci iclas – 11 oktyabr 2003-cü ildə Moskva şəhərində;

6-cı iclas – 29 may 2004-cü ildə Minsk şəhərində;

7-ci iclas – 9 oktyabr 2004-cü ildə Yerevan şəhərində;



MDB Vergi Xidmətləri Rzhbərlərinin Koordinasiya Şurasının 19-cu iclası. Bakı, 2012

8-ci iclas – 20 may 2005-ci ildə Sankt-Peterburq şəhərində;

9-cu iclas – 16 sentyabr 2005-ci ildə Astana şəhərində;

10-cu iclas – 2 iyun 2006-cı ildə Düşənbə şəhərində;

11-ci iclas – 13 oktyabr 2006-cı ildə Kişinyov şəhərində;

12-ci iclas – 1 iyun 2007-ci ildə Kazan şəhərində;

13-cü iclas – 15 sentyabr 2007-ci ildə Çolpon-Ata (Qırğızıstan) şəhərində;

14-cü iclas – 7 iyun 2008-ci ildə Minsk şəhərində;

15-ci iclas – 21 noyabr 2008-ci ildə Bakı şəhərində;

16-cı iclas – 26 iyun 2009-cu ildə Yekaterinburq (RF) şəhərində;

17-ci iclas – 3 iyun 2010-cu ildə Düşənbə şəhərində;

18-ci iclas – 26 may 2011-ci ildə Yalta (Ukrayna) şəhərində;

19-cu iclas – 6-8 iyun 2012-ci ildə Bakı şəhərində.

Sonuncu iclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, RF, Tacikistan, Ukrayna vergi xidmətlərinin, həmçinin müşahidəçi kimi Latviya, Litva və Koreya respublikalarının vergi orqanlarının vəzifəli şəxsləri və MDB İcraiyyə Komitəsinin səlahiyyətli nümayəndələri iştirak etmişlər.

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNDƏ XARİCİ İQTİSADİ FƏALİYYƏTİN VAHİD ƏMTƏƏ NOMENKLATURASI – MDB ölkələrində vahid əmtəə nomenklaturası xarici ticarət və digər xarici iqtisadi fəaliyyətin gömrük-tarif və qeyri-tarif tənzimlənməsi və gömrük statistikasının aparılması məqsədilə tətbiq edilən tədbiri.

MÜSTƏQİL GÖMRÜK TARİFİ – müəyyən ölkələrdən idxal edilən ayrı-ayrı mallara, bir qayda olaraq, müəyyən edilən yüksəldilmiş gömrük rüsumlarının müstəqil (əsasa əlavə) gömrük tarifi. Ölkələrdən daxil olan mallara münasibətdə ixracat mükafatlarının verilməsini və ya başqa üsulla

dempinqi təcrübədə həyata keçirənlərə tətbiq edilə bilər.

MÜSTƏQİM MƏSRƏFLƏR – istehsal və satışa çəkilən xərclərin bir növü. Müstəqim məsrəflərə aid edilir: – məhsul istehsalında (işlərin yerinə yetirilməsində, xidmətlərin göstərilməsində) istifadə olunan, məhsulun (işin, xidmətin) əsasını təşkil edən və ya onun zəruri komponenti olan xammal və materialların alınmasına çəkilən maddi xərclər; əməyin ödənilməsi xərcləri; məhsul, iş, xidmət istehsalında bilavasitə istifadə olunan əsas vəsaitlər üzrə amortizasiya ayırmaları.

MÜSTƏQİM VERGİLƏR – bax: *Birbaşa vergilər.*

MÜSTƏNTİQ – öz səlahiyyətləri daxilində nəzərdə tutulmuş qaydada cinayət işi üzrə ibtidai istintaqı aparan şəxs.

MÜSTƏSNA İQTİSADİ ZONA – RF-nin su sərhədlərinin xaricində və ona bitişik olan, beynəlxalq müqavilələr və beynəlxalq hüquq normalarına əsasən RF-in xüsusi iqtisadi zona haqqında qanunu ilə müəyyən edilmiş dəniz ərazisi. Müstəsna iqtisadi zona, həmçinin, RF-nin bütün adalarına (insan yaşayışı və ya sərbəst təsərrüfat fəaliyyətinin həyata keçirilməsi mümkün olmayan qayalardan başqa) tətbiq edilir. Dəniz ərazisinin xarici sərhədi xüsusi iqtisadi zonanın daxili sərhədidir. Beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmamışdırsa, xüsusi iqtisadi zonanın xarici sərhədi dəniz ərazisinin eninə ölçülməklə başlanğıc (çıxış) xəttindən 200 dəniz mili məsafədə yerləşir, RF sahilinə əks sahili olan və ya qarışıq sahili olan dövlətlər arasında bitişik zonanın delimitasiyası beynəlxalq hüququn və RF-nin beynəlxalq müqavilələrinin ümumi qəbul edilmiş prinsiplərinə və normalarına uyğun olaraq həyata keçirilir. Müstəsna iqtisadi zonanın resurslarından istifadə üçün ödəniş sistemi müəyyən edilmişdir.

MÜSTƏSNA İQTİSADİ ZONANIN RESURSLARINDAN İSTİFADƏYƏ GÖRƏ ÖDƏMƏLƏR – RF-nin "Müstəsna iqtisadi zona haqqında" Qanununun 34-cü maddəsi ilə müəyyən edilmiş müstəsna iqtisadi zonanın canlı və cansız resurslarının istifadəsi üçün ödəniş sistemi. Canlı və cansız resurslarların istifadə zamanı dəniz mühitinin müdafiəsinin maliyyə təminatı, pullu istifadəsi, canlı və cansız resurslar və təsərrüfat fəaliyyəti şərtlərinin pozulmaları üçün məsuliyyət iqtisadi münasibətlərin əsas prinsipləridir. Canlı və cansız resursların istifadəsi pulludur. Müstəsna iqtisadi zonanın canlı resurları üzrə ödəniş və cansız resursların istifadəsi üçün tədiyyələri RF-nin vətəndaşları, təşkilati, hüquqi və mülkiyyət formasından asılı olmayaraq Rusiyanın hüquqi şəxsləri, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq xarici vətəndaşlar və xarici hüquqi şəxslər həyata keçirirlər. Canlı resurslardan istifadə üçün ödəniş sisteminə aiddir:

- canlı resurslardan istifadəyə lisenziyaların (icazələrin) verilməsi üçün yığım;

-canlı resurslardan istifadə üçün tədiyyə;

-canlı resursların limitdən artıq və səmərəsiz istifadəsi üçün cərimələr.

MÜŞAHİDƏ – tədqiq olunan obyektin məqsədyönlü, mütəşəkkil surətdə və müəyyən qeydə alınmış şəkildə qəbul edilməsi.

MÜŞAHİDƏÇİ – vergitutma məqsədləri üçün VM ilə nəzərdə tutulmuş hallarda səyyar vergi yoxlaması keçirilməsi zamanı dəvət olunan, yoxlamanın nəticələrində maraqlı olmayan şəxs.

MÜŞTƏRİ – yükgöndərən, yükalan sərnişin, icarəçi və sair kimi daşıyıcı ilə bağlanmış müqaviləyə uyğun nəqliyyatdan istifadə edən hüquqi və ya fiziki şəxs.

MÜTƏXƏSSİS – səyyar vergi yoxlamasının keçirilməsi zamanı bilavasitə vergi orqanlarının fəaliyyət dairəsinə aid olmayan sahələr üzrə xüsusi bilik və təcrübəyə malik olan və vergi orqanları tərəfindən dəvət olunan şəxs.

MÜTƏNASİB VERGİTUTMA – kəmiyyətindən asılı olmayaraq vergitutma obyektinə (vergi ödəyicisinin gəlirinə, əmlakın dəyərinə və s.) vahid faiz dərəcəsi ilə müəyyən edilmiş vergiqoyma sistemi. Adətən, əmlakın, hüquqi şəxslərin mənfəətinin, həmçinin bir sıra mal və xidmətlərin vergiyə cəlb edilməsi zamanı tətbiq edilir.

MÜTƏRƏQQİ VERGİTUTMA – böyük həcmli vergitutma obyektinə yüksək vergi dərəcəsinin uyğun olduğu vergitutma sistemi. Mütərəqqi vergitutmanın iki növü tətbiq edilir: sadə və mürəkkəb. Sadə mütərəqqi vergi gəlirin (və ya əmlakın dəyərlərinin) artımı zamanı vergi dərəcəsi bütün artan gəlirin (əmlakın dəyərlərinin) cəmi üzrə artırılır. Mürəkkəb mütərəqqi dərəcədə gəlirlər hissələrə bölünür və hər bir hissə üzrə öz vergi dərəcəsi tətbiq edilir, yəni yüksəldilmiş dərəcələr bütün artıma deyil, əvvəlki pilləni ötən hissə üçün tətbiq olunur. İqtisadi inkişaf etmiş ölkələrdə, əsasən, mürəkkəb mütərəqqi dərəcədən istifadə olunur.

MÜVƏKKİL BANK – valyuta əməliyyatlarının aparılması üçün AR Mərkəzi Bankının lisenziyasını almış banklar və digər kredit təşkilatları.

MÜVƏQQƏTİ ANTİDEMPİNQ RÜSUMU – dempinq əsasında ədalətli (düzgün) olmayan qiymət rəqabətinin mənfi nəticələrini neytrallaşdırmaq məqsədilə malın daxili və xarici bazarlarda satış qiymətləri arasındakı fərq miqdarında idxalçı ölkənin tətbiq etdiyi müvəqqəti rüsum.

MÜVƏQQƏTI BƏYANNAMƏ – bəyannamə təqdim edən şəxs tərəfindən xüsusi səbəblərə görə tam gömrük bəyannaməsinin təqdim edilməsi mümkün olmadıqda, Dövlət Gömrük Komitəsinin müəyyən etdiyi qaydada və icazəsi ilə təqdim edilən gömrük bəyannaməsi.

MÜVƏQQƏTI XÜSUSI RÜSUM – qanunvericiliklə müəyyən edilmiş qaydada gömrük məqsədləri fəaliyyət müddəti 200 gündən artıq olmayan xüsusi rüsum növü.

MÜVƏQQƏTI KOMPENSASİYA RÜSUMU – qanunvericiliklə müəyyən edilmiş qaydada gömrük məqsədləri üçün istisna hallarda müəyyən müddətdə tətbiq edilən kompensasiya rüsumunun növü.

MÜVƏQQƏTİ SAXLANC – AR dövlət sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin xüsusi an-

barlarda gömrük nəzarəti altında saxlanması. Mallar və nəqliyyat vasitələri gömrük orqanına təqdim olunduğu andan və onların buraxılışına qədər ya da seçilmiş gömrük rejiminə uyğun olaraq şəxsə verilənədək müvəqqəti saxlancda gömrük nəzarəti altında olur. Mallar və nəqliyyat vasitələri gömrük orqanına təqdim olunduğu andan müvafiq status alır.

MÜVƏQQƏTİ SAXLANC ANBARI – AR dövlət sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin müvəqqəti saxlanması üçün istifadə olunan xüsusi ayrılmış və quraşdırılmış binalar, açıq meydançalar və digər yerlər. AR NK-nın 1998-ci il 13 aprel tarixli 73 nömrəli qərarı ilə AR-də gömrük anbarlarının və müvəqqəti saxlanc anbarlarının təsis edilməsinə xüsusi razılıq (lisenziya) verilməsi Qaydaları təsdiq edilmişdir. Müvəqqəti saxlanc anbarları açıq tipli, yəni bütün mallar üçün və qapalı tipli, yəni saxlanması xüsusi şərait tələb edən nəqliyyat vasitələri və mallar üçün nəzərdə tutulur. AR-ə idxalı, ya da AR-dən ixracı qadağan olunmuş mallar və nəqliyyat vasitələrinin müvəqqəti saxlanc anbarlarında son saxlanc müddəti üç gündür; gömrük qaydalarının pozulması işləri üzrə maddi sübut olan və müvəqqəti saxlanc anbarlarında yerləşdirilən malların və nəqliyyat vasitələrinin saxlanc müddəti 6 aya qədər olur; qalan hallarda malların və nəqliyyat vasitələrinin müvəqqəti saxlanc anbarlarında ümumi saxlanma müddəti 2 ay təşkil edir.

Müvəqqəti saxlanc anbarında saxlanılan mallara və nəqliyyat vasitələrinə görə gömrük ödənişlərinin ödənilməsi üçün anbarın sahibi məsuliyyət daşıyır.

Müvəqqəti saxlanc anbarı sahibinin vəzifələri aşağıdakılar nəzərdə tutulmuşdur:

- anbarda saxlanan malların və nəqliyyat vasitələrinin gömrük nəzarətindən kənar gətirilməsinə imkan verməmək;
- gömrük nəzarətinin həyata keçirilməsini çətinləşdirməmək;
- müəyyən olunmuş qaydada anbarda saxlanılan malların və nəqliyyat vasitələrinin uçotunu aparmaq və gömrük orqanına hesabat təqdim etmək;
- saxlanılan malların və nəqliyyat vasitələrinin yanına üçüncü şəxsin daxil olmasına yol verməmək;
- verilmiş lisenziya şərtlərinə əməl etməklə gömrük orqanlarının tələblərini yerinə yetirmək;
- gömrük orqanlarının tələblərilə anbarda olan malların və nəqliyyat vasitələrinin nəqlini, çəkilməsini, malların miqdarının təyinini, yüklənməsini, boşaldılmasını, yenidən yüklənməsini, zədələrin düzəldilməsini, qablaşdırma vasitələrinin açılmasını, malların və nəqliyyat vasitələrinin çatdırılması və yenidən qablaşdırılmasını həyata keçirir; bu əməlyyatların hamısı anbar sahibinin vəsaiti hesabına aparılır.

N

NADİROV ASƏF ABBASQULU OĞLU (1929) – iqtisad elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü. Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olmuşdur.



Azərbaycan Dövlət Universitetini bitirmişdir (1951). AMEA-nın İqtisadiyyat İnstitutunda şöbə müdiri (1958-1992), elmi hissə üzrə direktor müavini (1964-1981) işləmiş, Akademiyanın Rəyasət Heyətinin üzvü olmuşdur (1981-1998). Azərbaycanda regional iqtisadiyyatın tətbiqi məktəbinin banisi kimi tanınmışdır.

Azərbaycan iqtisadiyyatının hərtərəfli kompleks inkişafının zəruriliyinin əsaslandırılması, onun gerçəkləşdirilməsi üçün böyük imkanların düzgün qiymətləndirilməsi, məhsuldar qüvvələrin ölkədə yüksək artımının əsas istiqamətlərinin müəyyən edilməsi, ölkənin iqtisadi inkişafı ilə onun mükəmməl və təkmil ərazi nisbətlərinin təşəkkülünün qarşılıqlı əlaqəsinin müəyyən edilməsi, iqtisadiyyatın inkişafının, o cümlədən onun ərazi üzrə səmərəli yerləşdirilməsinin nəzəri və metodoloji problemləri, iqtisadiyyatın bütün ardıcıl sahələri və regionlarda istehsalın inkişafı sahəsində dərin tədqiqatlar aparır.

A.A.Nadirov Azərbaycan Respublikasının Əməkdar elm xadimidir. Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə «Şöhrət» ordeni ilə təltif edilmişdir (2004).

Əsas əsərləri:

"Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri" (1976), "Экономика Советского Азербайджана на современном этапе" (1980), "Economic reforms in Azerbaijan" (2000) "Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri" (2001), "Azərbaycan iqtisadiyyatı" (2003).

NAĞD PUL HESABLAŞMALARI – nağd pul vasitəsilə həyata keçirilən hesablaşma və ya ödənişlər.

NAĞDSIZ HESABLAŞMALAR – kredit müəssisələrində hesaba köçürmələr və qarşılıqlı tələblərin hesabı.

NATURAL FORMADA FAYDA – bir sıra dövlətlərin vergi qanunvericiliyində mövcud olan, görülmüş işlərə, göstərilmiş xidmətlərə görə pul şəklində olmayan daxilolmaları ehtiva edən termin.

NATURAL FORMADA GƏLİR – fiziki şəxslərin gəlir vergisi üzrə vergitutma obyektini təşkil edən, mahiyyət etibarilə bilavasitə pul şəklində verilməsə də, müəyyən dəyərlə ifadə olunan və hər hansı fiziki formada təqdim olunan gəlir.

NATURAL MÜKƏLLƏFİYYƏTLƏR – əhalinin, vətəndaşların üzərinə qoyulmuş, ictimai işlərin yerinə yetirilməsindən, şəxsi əmlakın, vətəndaşlara məxsus material qiymətlilərinin bir hissəsinin verilməsi zərurətindən ibarət olan öhdəliklər.

NATURAL VERGİLƏR – natu-

ral, əmtəə formasında alınan vergilər. Müasir dövrdə inkişaf etmiş ölkələrdə tətbiq olunmur, əsasən orta əsrlərdə geniş yayılmışdı.

NEQATİV GƏLİR VERGİSİ – İngiltərədə keçən əsrin 40-cı illərində ledi Rays-Uilyams tərəfindən təklif edilmiş və həyata keçirilməmiş vergi növü. Bu vergiyə görə gəliri müəyyən həddən aşağı olan vergi ödəyiciləri üçün də vergi hesablanmalı və alınan məbləğ dövlət büdcəsindən vergi ödəyicisinə verilməlidir. Müasir dövrdə yaşayış minimumundan aşağı gəliri olanlara pul yardımı, əslində, neqativ gəlir vergisi rolunu oynayır.

NƏQLİYYAT VASİTƏLƏRİ – vergi və gömrük qanunvericiliyində istifadə olunan termin. Nəqliyyat vasitələri ictimai istehsalın müəyyən vasitəsi olmaqla çox böyük əməli və xalq təsərrüfatı əhəmiyyətli, istehsal alətlərinin, əmək məhsullarının və insanların yerdəyişməsini həyata keçirən əsas vasitədir. Nəqliyyat vasitələri quru, hava və su nəqliyyatı növləri üzrə təsnifləşdirilir. Kütləvi halda daşımalara imkan verən nəqliyyat vasitələrinə avtomobilləri, qatarları, gəmiləri və təyyarələri göstərmək olar. Vergi qanunvericiliyində nəqliyyat vasitələrinin ayrı-ayrı növləri vergilər üzrə (əmlak vergisi, yol vergisi və sadələşdirilmiş vergi) vergitutma obyekti kimi müəyyən edilmişdir.



NƏQLİYYAT VASİTƏLƏRİNƏ VERGİ – 1991-ci ildən 2003-cü ilədək RF-də tətbiq edilən yerli vergi. Vergi ödəyiciləri mülkiyyətində vergitutma obyekti hesab edilən əmlak olan fiziki şəxslər, vergitutma obyekti isə təyyarələr, vertolyotlar, teploxodlar, yaxtalar, katerlər, motokirşələr, motorlu qayıqlar və avarlı qayıqlardan başqa, digər hava və su nəqliyyatı olmuşdur. Bu vergi RF Vergi Məcəlləsinin və nəqliyyat vergisinin tətbiqi ilə əlaqədar 2003-cü ilin yanvar ayının 1-dən ləğv edilmişdir. AR vergi qanunvericiliyində oxşar vergitutma obyekti fiziki şəxslərin əmlak vergisi üzrə müəyyən edilmişdir. Belə ki, fiziki şəxslərə məxsus olan su və hava nəqliyyatı vasitələri 2001-ci ilin yanvar ayının 1-dək qüvvədə olmuş "Əmlak vergisi haqqında" AR Qanunu və həmin tarixdən AR VM ilə fiziki şəxslərin əmlak vergisinin vergitutma obyektinə aid edilmişdir. Fiziki şəxslərə məxsus olan su və hava nəqliyyatı vasitələrinə görə əmlak vergisinin dərəcələri aşağıdakı kimi müəyyən edilmişdir:

- su nəqliyyatı vasitəsinin mühərrikinin 1 kubsantimetri üçün 0,02 manat;
- hava nəqliyyatı vasitəsinin mühərrikinin 1 kubsantimetri üçün 0,02 manat;

- mühərriki olmayan su və hava nəqliyyatı vasitələri üçün – onların bazar qiymətinin 1 faizi.

Fiziki şəxslərin əmlak vergisi yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

NƏQLİYYAT VASİTƏLƏRİNİN SAHİBLƏRİNDƏN YOLDAN İSTİFADƏYƏ GÖRƏ TUTULAN VERGİ – 1994-cü ildən 2001-ci ilin yanvar ayının 1-dək qüvvədə olmuş "Dövlət Yol Fondu haqqında" AR Qanunu ilə müəyyən edilmiş vergilərdən biridir. Həmin qanuna əsasən nəqliyyat vasitələrinin sahiblərindən yoldan istifadəyə görə verginin məbləği hər il nəqliyyat vasitəsi mühərrikinin bir at gücü müqabilində minimum əməkhaqqına faizlə aşagıdakı kimi müəyyən edilirdi:

- vətəndaşlar minik maşınları üçün minimum əməkhaqqının 2 faizi, yük maşınları üçün 5 faizi miqdarında;

- mülkiyyət formasından, idarə mənsubiyyətindən və təşkilati-hüquqi formasından asılı olmayaraq idarələr, birliklər, müəssisələr, təşkilatlar və hüquqi şəxs yaratmaqla fəaliyyət göstərən sahibkarlar isə bütün növ nəqliyyat vasitələri üçün (şəhərdaxili sərnişin daşımalarına cəlb olunan avtobuslardan başqa) minimum əməkhaqqının 5 faizi miqdarında.

Nəqliyyat vasitələrinin sahibləri yoldan istifadəyə görə vergi hüquqi və fiziki şəxslər tərəfindən müvafiq dərəcələr üzrə təqvim ili üzrə hesablanıb Dövlət Yol Fonduna ödənilirdi. Qanuna əsasən, nəqliyyat vasitələrinin sahibləri yoldan istifadəyə görə vergini ödədikləri barədə qəbz və ya ödəniş sənədi təqdim etmədikdə nəqliyyat vasitələrinin qeydiyyata, yenidən qeydiyyata alınmaması və texniki baxışa buraxılmaması nəzərdə tutulmuşdu.

NƏZARƏT – qanunlarla, digər normativ aktlarla, eləcə də proqramlarla, planlarla, müqavilələrlə nəzərdə tutulan arzu olunan və lazımi vəziyyətə obyektin müşahidə olunan vəziyyətinin uyğun gəlməsini yoxlamaq məqsədi ilə obyekt üzərində müşahidəni ehtiva edən iqtisadi obyektlərin və hadisələrin idarə edilməsinin tərkib hissəsi.

NƏZARƏT EDİLƏN BORC – kreditorlar üzrə öhdəliklərin birmənalı və rahat icra edilməsinə imkan verən borc.

NƏZARƏT EDİLƏN MAL VƏ TEXNOLOGİYALARIN İDENTİFİKASİYASI – xarici -iqtisadi fəaliyyətin hüquqi tənzimlənməsi metodu. Bu zaman ixrac nəzarəti məqsədilə xarici-iqtisadi fəaliyyətin obyekti olan ixrac edilən xammal, material, avadanlıq, elmi-texniki informasiya, iş, xidmət və əqli fəaliyyətin nəticələrinin nəzarətdə olan mal və texnologiyaların siyahısına uyğunluğu müəyyən edilir.

NƏZARƏT EDİLƏN MALLAR VƏ TEXNOLOGİYALAR – "İxrac nəzarəti haqqında" Qanunun termini olmaqla, öz xüsusiyyətləri və xassələrinə görə kütləvi qırğın silahlarının, onların çatdırılması vasitələrinin, digər silah və hərbi texnikanın yaradılması işinə böyük töhfələr verə bilən xammalı, materialı, avadanlığı, elmi-texniki informasiyanı, işi, xidməti, əqli fəaliyyətin nəticələrini nəzərdə tutur.

NƏZARƏT EDİLƏN MALLARIN VƏ TEXNOLOGİYALARIN SİYAHISI – RF hökumətinin təqdimatı əsasında RF Prezidenti tərəfindən təsdiq edilən nəzarətdə olan mal və texnologiyaların siyahısı. Nəzarətdə olan mal və texnologiyaların siyahısı RF Federal Məclisinin, sənaye və elmi təşkilatların nümayəndələri də cəlb olunmaqla federal icra hakimiyyəti orqanları tərəfindən tərtib edilir.

NƏZARƏT EDİLƏN TƏCHİZAT – RF gömrük orqanlarının operativ-axtarış fəaliyyətinin bir metodu. Bu zaman onlar qeyri-qanuni dövriyyə hesab edilən narkotik vasitələrin və psixotrop maddələrin və ya digər bir növ cisimlərin RF ərazisinə gətirilməsinə və RF ərazisindən çıxarılmasına nəzarət edirlər.

NƏZARƏT-KASSA APARATI – malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı hesablaşmaların qeydiyyatında istifadə edilən, fiskal yaddaşa malik olan və vergi orqanlarında müəyyən olunmuş qaydada qeydiyyatdan keçən elektron avadanlıq və ya kompüter sistemləri.



NƏZARƏT-KASSA APARATLARININ ÇEKLƏRI – malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı hesablaşmaların qeydiyyatında istifadə edilən, fiskal yaddaşa malik olan və vergi orqanlarında müəyyən olunmuş qaydada qeydiyyatdan keçən elektron avadanlıqların və ya kompüter sistemlərinin çekləri.

NOMENKLATUR – elm, texnika və fəaliyyətin digər sahələrində işlədilən adlar, anlayışlar göstəricisinin sistemi (məcmusu).

NOMİNAL – səhm, veksel, digər qiymətli kağızların üzərində olan dəyərindən aşağı və ya yuxarı olmaqla birjada rəsmi müəyyən edilmiş qiyməti.

NORMA – fəaliyyət sahəsinin sərhədlərini göstərən tənzimləyici qayda. Norma anlayışı həmişə şərtidir, məqsəddən asılı olaraq, norma həddi müxtəlif ola bilər. Norma hərəkət, inam və hissdir. Hər bir fəaliyyətin və qaydanın norması olmalıdır.

NORMATİV – əsasən xammalın müəyyən xərcinə, materiallara, məhsulun miqdarı vahidinin enerjilərinə, kilometr qaçışa və resursların istehlakının obyektini xarakterizə edən digər vahidlərə aid olan universal, geniş yayılmış norma.


NORMATİV-HÜQUQİ AKT – tənzimlənməsi AR Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəd.

NORMATİVDƏN ARTIQ MƏSRƏFLƏR – müxtəlif ölkələrin vergi qanunvericiliyində istifadə edilən ter-

min olmaqla, vergi ödəyicisinin xərclərinin qanunvericilik aktları ilə müəyyənləşdirilən mütləq limitdən və ya normativlərdən çox olan hissəsini ifadə edir. Məhdudlaşdırılan və ya normativləşdirilən xərclərə, adətən, aşağıdakı xərclər aid edilir: borclar və bank kreditləri üzrə faizlərin ödənilməsi xərcləri; reklam xərcləri; müxtəlif növ sığorta xərcləri; nümayəndəlik xərcləri; ezamiyyə xərcləri və s.

NOTİFİKASİYA – vekselin sahibi tərəfindən borc məbləğinin ödənilməməsi, veksel öhdəliyinin icra edilməməsi barəsində indossanta, vekseli təqdim edən şəxsə göndərilən rəsmi xəbərdarlıq və ya təqdim edilən xəbərdarlıq məktubu.

NURİYEV ƏLİ XUDU OĞLU (1939) – iqtisad elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü. Azərbaycan Respublikasının Füzuli rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetini bitirmişdir (1963). AMEA İqtisadiyyat İnstitutunda aspirant olmuş, kiçik elmi işçi, böyük mühəndis-iqtisadçı, böyük elmi işçi vəzifələrində işləmişdir (1963-1972). AMEA-nın Naxçıvan Elm Mərkəzinin təşkilatçılarından biri olmuş, burada İqtisadiyyat şöbəsinə rəhbərlik etmişdir (1972-1980).



Ümumittifaq Kooperativ Ticarətinin İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Azərbaycan filialında elmi hissə üzrə direktor müavini (1980-1981), Azərbaycan Sənaye İnstitutunda dosent (1982-1989) vəzifələrində işləmişdir. Azərbaycan MEA-nın İqtisadiyyat İnstitutunda böyük elmi işçi, aparıcı elmi işçi, şöbə müdirinin müavini, şöbənin müdiri (1989-2002) olmuşdur. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Geostrateji Araşdırmalar Mərkəzinin müdiridir (2002).

Ə.X.Nuriyev respublikada ilk dəfə olaraq məhsuldar qüvvələrin yerləşməsinin sosial-iqtisadi problemlərini kompleks halda tədqiq etmiş, iqtisadi rayonlaşdırma, inzibati-ərazi bölgüsü və yerli özünüidarə orqanlarının qarşılıqlı əlaqə və sistem halında təkmilləşməsi konsepsiyasını işləyib hazırlamışdır. Naxçıvan MR xalq təsərrüfatının ayrı-ayrı sahələrinin perspektiv inkişaf istiqamətlərinin tədqiqi ilə məşğul olmuş, Azərbaycan iqtisadiyyatının böhrandan çıxması və regional inkişafın prinsipial məsələlərini araşdırmış, habelə regional inkişafın dövlət tənzimlənməsinin nəzəri-metodoloji əsaslarını işləyib hazırlamışdır.

Əsas əsərləri: «Məhsuldar qüvvələrin respublika daxilində yerləşməsinin sosial-iqtisadi problemləri» (1982), "Azərbaycan Respublikasının iqtisadi və inzibati ərazi quruluşunun kompleks təkmilləşdirilməsi" (1991), "Azərbaycan iqtisadiyyatının böhrandan çıxması və inkişafının prinsipial məsələləri" (1992), "Naxçıvan iqtisadiyyatı XX əsrdə" (həmmüəllif) (2000).

NÜMAYƏNDƏLİK MƏSRƏFLƏRİ – tədbirlərin keçirilmə yerindən asılı olmayaraq vergi ödəyicilərinin

rəsmi qəbul və (və ya) qarşılıqlı əməkdaşlığın qurulması və (və ya) saxlanması məqsədilə danışıqlarda iştirak edənlərlə, habelə İdarə Heyətinin (Şurasının) və yaxud vergi ödəyicisinin digər idarəetmə orqanının iclaslarında iştirak edən iştirakçılarla əlaqədar məsrəflər.

NÜMAYƏNDƏLİYİN BİNASI – nümayəndəliyin başçısının iqamətgahı da daxil olmaqla, mülkiyyət hüququnun kimə mənsub olmasından asılı olmayaraq, nümayəndəlik məqsədilə istifadə edilən bina və ya binanın bir hissəsi ilə birlikdə bu binaya və ya binanın bir hissəsinə xidmət edən torpaq sahəsi.

NÜMAYƏNDƏLİYİN ƏMƏKDAŞLARI – nümayəndəlik başçısı və nümayəndəliyin personalının üzvləri.

NÜMAYƏNDƏLİYİN HEYƏTİNİN ÜZVLƏRİ – diplomatik personalın, inzibati- texniki personalın və xidməti personalın üzvləri.

NÜMAYƏNDƏLİYİN XİDMƏTÇİ HEYƏTİNİN ÜZVLƏRİ – nümayəndəliyin xidməti üzrə vəzifələri yerinə yetirən nümayəndəlik personalının üzvləri.

NÜMAYƏNDƏLİYİN İNZİBATİ-TEXNİKİ HEYƏTİNİN ÜZVLƏRİ – nümayəndəliyin inzibati-texniki xidmətini həyata keçirən nümayəndəlik personalının üzvləri.

NÜZL – müsafir xərclərinin ödənməsi üçün vergi. Ərəb dilində "nuzl" qonaqlar üçün nəzərdə tutulan yer, "nuzul" onlara hazırlanan yemək deməkdir. Orta əsrlərdə yerli əhali hakim təbəqənin nümayəndələrini, o cümlədən vergi yığanları öz evlərində yerləşdirməli, onların bütün xərclərini ödəməli idilər. Bu cür xidmət üçün sərf olunan vəsait əhalidən vergi şəklində yığılırdı.

O

OBYEKT – dəyər, kəmiyyət və keyfiyyət xarakteristikalarına malik olan hər hansı yer.

OFFŞOR ŞİRKƏT – offşor zonalar adlandırılan yurisdiksiyalarda yaradılmış şirkət.

OFFŞOR ZONALARI – güzəştli vergi rejimi və sərt konfidensiallıq qanunlarına malik olan ölkələr və ərazilər. Bu zonalarda minimal, bəzi hallarda isə 0 (sıfır) həddində vergilərin və bank sirri də daxil olmaqla sərt konfidensiallıq qanunlarının olması onları vergidən yayınmaq üçün əlverişli alətlərə çevirir. Adətən, bu zonalarda şirkət təsis edilməsi haqqında həddindən artıq sadə qanunların mövcudluğu da vergidən yayınmaq arzusunda olan şəxslər üçün cəlbedici amil rolunu oynayır. Bir qayda olaraq, offşor zonalar qismində təbii resurslar və digər gəlir mənbələri baxımından kasıb olan ada dövlətləri çıxış edir.

OXŞAR MALLARLA QİYMƏT SÖVDƏLƏŞMƏSİ METODU – Malın dəyərini müəyyən etmək üçün müəyyən edilmiş şərtlərə riayət edilməklə seçilmiş oxşar malların sövdələşmə qiymətinin əsas götürülməsi.

ON İL QAYDASI – bir sıra dövlətlərin vergi qanunvericiliyində və beynəlxalq vergi planlaşdırmasında vətənini tərk edən adama vergidən yayınmaya qarşı tətbiq edilən termin. Bir sıra ölkələrin vergi qanunvericiliyinə uyğun olaraq başqa ölkəyə (adətən, güzəştli vergi qoyulan ölkəyə) daimi yaşamağa gedən fiziki şəxslərin gəlirlərinin ayrı-ayrı növlərinin vergiyə cəlb edilməsi məqsədi üçün yola düşmə (gediş) günündən 10 il ərzində rezident kimi baxılması davam etdirilir. Vətəni tərk edənin keçmiş rezident olduğu ölkəsinin ərazisində yerləşən mənbələrdən alınmış gəlirləri bu ölkədə rezidentin gəlirləri kimi vergiyə cəlb olunur, hətta o halda bu şəxsin gəlirlərinə ölkənin qanunvericiliyinin ümumi normalarına (və ya



Dünyadakı offşor zonaların xəritəsi

ikiqat vergitutmadan yayınma haqqında sazişlərə) uyğun olaraq qeyri-rezidentin gəlirləri kimi baxılmalıdır. Beynəlxalq vergi planlaşdırmasında "10 il qaydası" ifadəsi, faktiki olaraq, belə analoji halların tətbiqində digər müddətlər müəyyən edildikdə də tətbiq edilə bilər.

OPERATİV VERGİ NƏZARƏTİ – sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin və ya əmtəə-material ehtiyatlarının saxlanılması ilə bağlı olan anbar, ticarət və bu qəbildən olan digər binalarında (ərazilərində (yaşayış binaları (sahələri) istisna olmaqla), nəqliyyat vasitələrində (sahibkarlıq fəaliyyəti üçün istifadə edilməyən şəxsi nəqliyyat vasitələri istisna olmaqla) həyata keçirilən vergi nəzarəti forması. Bu nəzarət vergi orqanının əsaslandırılmış qərarına əsasən həyata keçirilir. Həmin qərarda vergi ödəyicilərinin yerləşdiyi ərazi, əhatə olunmalı məsələlər, vergi nəzarətinin müddəti və bu nəzarəti həyata keçirən vəzifəli şəxs (şəxslər) göstərilir.

Operativ vergi nəzarəti aşağıdakı məsələləri əhatə edir:

- müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarında uçota durmayan və "Fərqlənmə nişanı" almayan vergi ödəyicilərinin aşkar edilməsi;

- aksiz markaları ilə markalanmalı olan malların markalanmadan və saxta aksiz markaları ilə markalanmaqla satılması, satış məqsədi ilə saxlanılması və ya istehsal binasının hüdudlarından kənara çıxarılması faktlarının aşkar edilməsi;

- əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması;

- valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb satılması və dəyişdirilməsi faktlarının aşkar edilməsi;

- xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq olmadan məşğul olan şəxslərin aşkar edilməsi;

- nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamadan işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar edilməsi;

- xronometraj üsulu ilə müşahidə aparılması.

Operativ vergi nəzarətinin nəticələri üzrə vergi orqanının vəzifəli şəxsləri tərəfindən AR VN-in müəyyən etdiyi formada akt tərtib edilir.

OPSİON – qəbul edilmiş tapşırığı başqasına verməmək öhdəliyi.

OYUN BİZNESİNƏ VERGİ – beynəlxalq təcrübədə fəaliyyətini oyun biznesində həyata keçirən sahibkarlardan oyun avtomatlarının, totalizatorların və bukmeyker kontorların kassalarının ümumi sayına görə alınan vergi.

OYUN BİZNESİNİN AÇILIŞINA GÖRƏ YIĞIM – oyun avtomatlarının, əşya və ya pul uduşlu digər analoji avadanlığın, kart masalarının və oyun üçün nəzərdə tutulan digər vəsaitlərin qurulmasına onların mülkiyyətçiləri tərəfindən adətən yerli büdcəyə ödənilən, yerli orqanlar tərəfindən müəyyən edilən ödəniş.

Ö

ÖDƏMƏ – pul vəsaitinin, bu və ya digər qiymətlinin bir subyektdən digərinə verilməsi, ödənilməsi.

ÖDƏMƏ QABİLİYYƏTİ – öhdəliyi istənilən vaxt və tam həcmdə yerinə yetirmək imkanı.

ÖDƏMƏ QABİLİYYƏTİ PRİNSİPİ – böyük həcmdə gəlirlər əldə edən şəxslərin digərlərinə nisbətdə daha böyük vergiləri ödəmə konsepsiyası.

ÖDƏMƏ MƏNBƏYİ – vergi qanunvericiliyində vergi ödəyicisinə gəliri ödəyən təşkilatı və ya fiziki şəxsi ifadə edən anlayış.

ÖDƏMƏ MƏNBƏYİNDƏ DİVİDENTDƏN VERGİ TUTULMASI – vergi qanunvericiliyində hüquqi şəxs tərəfindən fiziki və hüquqi şəxslər olan təsisçilərə (iştirakçılara) xalis mənfəətin bölüşdürülməsi nəticəsində ödənilən vəsaitdən divident ödəyən zaman müvafiq dərəcə ilə (AR-də bu dərəcə 10 faiz təşkil edir) verginin tutulması qaydası.

ÖDƏMƏ MƏNBƏYİNDƏ FAİZLƏRDƏN VERGİ TUTULMASI – vergi qanunvericiliyində faiz gəlirlərini ödəyən şəxs tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş hallarda fiziki və hüquqi şəxslərə gəlirin ödənilməsi zamanı müvafiq dərəcə ilə (AR-də bu dərəcə 10 faiz təşkil edir) verginin tutulması qaydası.

ÖDƏMƏ MƏNBƏYİNDƏ İCARƏ HAQLARINDAN VƏ ROYALTİDƏN VERGİ TUTULMASI – vergi qanunvericiliyində müəyyən müddətə əmlakı icarəyə və qeyri-maddi aktivləri istifadəyə götürən şəxslər tərəfindən onların mülkiyyətçilərinə icarə haqqı və ya royalti ödənilərkən qanunvericilikdə nəzərdə tutulan hallarda müvafiq dərəcə ilə (AR VM əsasən, bu dərəcə 14 faiz təşkil edir) verginin tutulması qaydası.

Azərbaycan Respublikasında daşınmaz əmlakın (yaşayış fondu istisna olmaqla) vergitutma məqsədləri üçün aylıq icarə haqqının məbləği AR VM-nin 14-cü maddəsinə (bazar qiymətləri) uyğun olaraq bazar qiyməti nəzərə alınmaqla müəyyən edilir.

ÖDƏMƏ MƏNBƏYİNDƏ VERGİNİN TUTULMASI QAYDASI – vergi qanunvericiliyində gəliri ödəyən şəxs tərəfindən fiziki və hüquqi şəxslərin rezidentlik statusundan asılı olaraq müvafiq gəlirlərinin vergiyə cəlb olunması qaydası.

Bu qayda AR VM-in 150-ci maddəsi ilə müəyyən edilmişdir.

Aşağıdakı şəxslər (vergi agentləri) ödəmə mənbəyində vergini tutmağa borcludurlar:

- muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər;
- muzdla işləyən fiziki şəxslərə ödəmələr verən sahibkarlar və xüsusi notariuslar;
- dövlət sosial təminat sistemi vasitəsilə ödənilən pensiyalar istisna edilməklə, digər şəxslərə pensiya ödəyən hüquqi şəxslər və ya sahibkarlar;
- hüquqi və fiziki şəxslərə divident ödəyən rezident hüquqi şəxslər;
- hüquqi və fiziki şəxslərə faizlər

ödəyən hüquqi şəxslər və ya sahibkarlar;

- ödəmə mənbəyində vergi verən hüquqi şəxslər və ya sahibkarlar;

- vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) görə həmin fiziki şəxslərə haqq ödəyən hüquqi şəxslər və ya fərdi sahibkarlar;

- sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar.

Yuxarıda göstərilən şəxslər verginin tutulması və büdcəyə köçürülməsi üçün cavabdehdirlər. Vergi məbləği tutulmursa və ya tutulmuş vergi büdcəyə köçürülmürsə, gəliri ödəyən hüquqi şəxslər və sahibkarlar tutulmamış və ya köçürülməmiş verginin məbləğini, həmçinin müvafiq faizləri və sanksiyaları büdcəyə ödəməyə borcludurlar.

Ödəmə mənbəyində vergi tutan hüquqi şəxslər, fərdi sahibkarlar və xüsusi notariuslar:

- fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamağa və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq büdcəyə köçürməyə;

- gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergini büdcəyə köçürməyə;

- ödəmə mənbəyində tutulan vergilər barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada bəyannaməni vergi orqanına ödəmə mənbəyində vergini tutanlar rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq, ödəmə mənbəyində vergi tutan ƏDV ödəyiciləri və sadələşdirilmiş vergi ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, ödəmə mənbəyində vergi tutan digər vergi ödəyiciləri rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq verməyə borcludurlar.

Vergi ödəyicisinin iş yerində vergi agenti aylıq gəlir üzrə vergi tutmağa borcludur.

ÖDƏMƏLƏR – hər hansı öhdəliyin yerinə yetirilməsi və ya hesaba pul vəsaitinin köçürülməsi.

ÖDƏNİLƏCƏK VERGİLƏR ÜÇÜN EHTİYAT – gələcək dövrlərdə əldə edilməsi nəzərdə tutulan gəlirlərdən vergilərin ödənilməsinin optimallaşdırılması üçün aktiv hesabına yaradılan ehtiyat.

ÖDƏNİLMƏYƏN VERGİLƏR ÜÇÜN BİRGƏ MƏSULİYYƏT – başqa ad altında fəaliyyət göstərən, lakin məhkəmənin qərarı əsasında həmin vergi ödəyicisinə məxsus olması müəyyən edilən aktivləri almış şəxsin məsuliyyəti.

ÖLKƏ ƏRAZİSİNDƏN ÇIXARILDIQDA AKSİZLİ MALLARIN REALLAŞMASINA GÖRƏ ƏMƏLİYYATLARIN VERGİQOYMADAN AZAD EDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ – aksizli mallar təqdimolunma məqsədilə istehsal olunan ölkədən digər ölkəyə ixrac edilərkən əvvəlki mərhələlərdə ödənilmiş vergi məbləğinin əvəzləşdirilməsi hüququnu verən vergilərdən (aksiz vergisindən və ya əlavə dəyər vergisindən) sıfır (0) dərəcə ilə azadolunma mexanizminin tətbiq olunma prinsipi.

ÖLKƏ MƏNBƏLƏRİNDƏN GƏLİR – bir ölkənin sərhədləri çərçi-

vəsində müəyyən bir müddət ərzində ixracdan, dövlətdaxili istifadə və ehtiyat üçün istehsal olunan məhsullardan, malların satışından, xidmətlərin göstərilməsindən və işlərin görülməsindən əldə olunan gəlir.

ÖLKƏDƏN KƏNARDA OLAN MƏNBƏLƏRDƏN ALINAN GƏLİRLƏR – vergi ödəyicisinin rezidentlik statusu olan dövlətin hüdudlarından kənarda sahibkarlıq və ya qeyri-sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir.

ÖLÜLƏRDƏN VERGİLƏR – özündə vəfat etmiş şəxsin vergi öhdəliklərini ehtiva edən və müvafiq qanunvericilik aktları ilə tənzimlənən termin. Qəbul olunmuş vergitutma təcrübəsində əsasən vəfat etmiş şəxsin vergi öhdəliklərini onun varisi (varisləri) miras qalan əmlakın dəyəri hüdudlarında və mirasın alındığı tarixdəki payına mütənasib şəkildə ödəyirlər. Varis (varislər) olmadıqda isə vəfat etmiş fiziki şəxsin vergi öhdəlikləri silinir (ləğv edilir). Bununla yanaşı, bir sıra ölkələrdə ölümün, sözün həqiqi mənasında, vergituma obyekti kimi çıxış etdiyi hallar da mövcud olmuşdur. Qafqaz Albaniyasında (Şimali Azərbaycanda) V əsrin sonlarında qəbul olunmuş vergi qanunlarına görə, ölən şəxsin atı qalmışdısa bir at, öküzü qalmışdısa bir öküz ödənilirdi; mərhumun atı və öküzü yox idisə, onda ailəsi heç nə vermirdi.

Bəzi ölkələrdə müxtəlif dövrlərdə ölülərin bir yerdən başqa yerə aparılması üçün rüsum ödənilməliydi. Məsələn, XV əsrin sonlarında, XVI əsrın əvvəllərində Ağqoyunlu dövlətinin Diyarbəkir vilayətində ölülərin daşınma rüsumları aşağıdakı kimi müəyyən edilmişdi:

- ölü tranzit kimi vilayət ərazisindən keçirilirdisə, onda "bac" və ya "baci – buzurq" adlanan rüsum alınırdı; bu zaman nəqliyyat vasitəsi kimi, əsasən, dəvədən istifadə olunurdu və hər yükə (cəsədə) görə 48 qaraca – ağça (o dövrün pul vahidi olmuşdur) ödənilirdi;

- ölü vilayət ərazisində dəfn edilirdisə, onda "tamğa" vergisi alınırdı; cəsəd at ilə daşındıqda yük sahibi 63 qaraca-ağça, dəvə ilə daşındıqda, iki dəfə çox – 126 qaraca-ağça ödəməliydi.

Rusiyada XVIII əsrin əvvəllərində siyahıya alınmış şəxslərdən "can vergisi" alınırdı və sənədlərdə diri hesab olunan ölmüş kəndlilər üçün də vergi ödənilirdi.

Meksikanın Quanaxuato şəhərində 1896-1958-ci illərdə dəfnetmə vergiyə



cəlb olunurdu – illik 20 peso. Bu məbləği ödəməyə gücü çatmayan ailələr mərhumlarını dəfn edə bilmirdilər.

ÖZƏL SEKTOR – xüsusi mülkiyyətdə olan iqtisadi obyektlərin məcmusu.

P

PALATKA – asan yığılan və sökülən ticarət zalı (müştərilərə xidmət zalı) və malların saxlanması üçün xüsusi yeri olmayan, sahəsində bir günlük ticarət üçün mal ehtiyatı yerləşdirilən piştaxta ilə təchiz olunmuş, bir və ya bir neçə satıcı yeri nəzərdə tutulan konstruksiya.



PARTNYORLUQ – iki və ya daha çox tərəf arasında bağlanmış, özündə hər bir iştirakçının ümumi məqsədə nail olmaq və ya müəyyən məsələni həll etmək üçün yaranacaq riskləri, məsuliyyəti, resursları, hüquqları və mənfəəti bölmək şərti ilə birgə fəaliyyət göstərəcəyini ehtiva edən əməkdaşlıq barədə müqavilə.

PATENT – hər hansı bir ixtiraya verilmiş məhdud tətbiq hüququna malik olan ən yüksək hüquq qoruyucusu. O edilmiş xeyirli ixtira və ya sənaye modelinə müəlliflik hüququnu göstərən sənəd sayılır. Patentin etibarlılıq müddəti patentləşdirilmiş obyektdən asılı olaraq 8-20 il arasındadır. Azərbaycanda patent Prezident yanında AR-in Standartlaşdırma, Metorologiya və Patent üzrə Dövlət Agentliyi tərəfindən verilir.

PATENT RÜSUMU – patent verilmiş ixtiralara istifadə hüququnun alınmasına görə ödəmə.

PATENT YIĞIMI – bir çox hallarda mövcud vergitutma sistemlərinə alternativ olan, mahiyyət etibarilə kiçik və orta sahibkarlıqla (bir qayda olaraq, sənətkarlıq fəaliyyəti ilə) məşğul olan şəxslər tərəfindən büdcəyə ödəmələr.

PAVİLYON – müxtəlif firmaların və şəxslərin ticarət mərkəzlərində ayrıca şöbəsi.

PENYA – müqavilə ilə müəyyənləşdirilən öhdəliyin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən icranın gecikdirildiyi halda borclunun ödəməli olduğu pul məbləği.

PEŞƏKAR VERGİ ÇIXILMASI – RF-də müəyyən edilmiş qaydada gəlirlərə tətbiq edilən, dərəcəsi 13% təyin edilmiş vergi çıxılması. Vergi bazasının hesablanmasında aşağıdakı vergi ödəyiciləri peşəkar vergi çıxılmaları hüququna malikdirlər:

1. Qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi şəxs yaratmadan qeydiyyatdan keçmiş sahibkar fəaliyyətini həyata keçirən fiziki şəxslər, qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş qaydada şəxsi təcrübəylə məşğul olan şəxsi notariuslar və başqa şəxslər – faktiki olaraq onların tərəfindən istehsal edilmiş və bilavasitə gəlirlərin əldə edilməsi ilə bağlı sənədlərlə təsdiq edilmiş xərclər məbləğində peşəkar vergi çıxılması hüququna malikdirlər. Göstərilən xərclər təşkilatların mən-

fəət vergisinin hesablanılması vaxtı çıxılmaya qəbul edilən xərclər tərkibində olur. Vergi ödəyiciləri tərəfindən fiziki şəxslərin əmlaklarına ödənmiş verginin məbləğləri o halda çıxılmaya qəbul edilir ki, vergitutmanın obyekti olan bu əmlaklar bilavasitə sahibkar fəaliyyətinin həyata keçirilməsində istifadə edilir. Vergi ödəyiciləri fərdi sahibkarlıq fəaliyyətilə bağlı öz xərclərini sənədlə təsdiq etmək imkanında deyilsə, fərdi sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirin 20%-i miqdarında peşəkar vergi çıxılması tətbiq edilir. Bu hal hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən, lakin fərdi sahibkar kimi qeydiyyatda olmayan fiziki şəxslərə tətbiq edilmir.

2. Mülki-hüquqi xarakterli müqavilələr üzrə işlərin yerinə yetirilməsindən (xidmətlərin göstəril- məsindən) gəlir əldə edən vergi ödəyiciləri bilavasitə belə işlərin yerinə yetirilməsindən əldə edilən gəlir və sənədlərlə təsdiq edilən xərclər məbləğində peşəkar vergi çıxılması hüququna malikdirlər.

3. İfa və ya elmi yaradıcılığı, ədəbiyyat və incəsənət əsərləri üçün, ixtiraların və sənaye nümunələri üçün müəllif mükafatlarını alan vergi ödəyiciləri sənədlərlə təsdiq edilmiş xərclər nəzərə alınmaqla, faktiki mükafat məbləğində peşəkar vergi çıxılması hüququna malikdirlər. Vergi ödəyicisinin xərclərinə, həmçinin, vergilər və yığımlar haqqında qüvvədə olan qanunvericiliklə nəzərdə tutulmuş (fiziki şəxslərin gəlirlərinə vergi istisna olmaqla) vergi dövrü ərzində göstərilən fəaliyyət növündən hesablanmış və ya ödənilmiş vergi məbləğləri aiddir. Vergi bazasının sənədlərlə təsdiq edilmiş xərclərini müəyyən edərkən eyni zamanda normativ daxilində nəzərdə tutulmuş xərclər nəzərə alına bilməz. Qüvvədə olan qanunvericiliyə uyğun qaydada qeydiyyatdan keçmiş hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxs, özəl notariuslar və digər şəxslər, xüsusi təcrübə ilə məşğul olan şəxslər vergi dövrünün sonunda vergi orqanına vergi bəyannaməsi təqdim edərkən onların rəsmi ərizələrinə əsasən peşəkar vergi çıxılmaları verilir. Bu ərizələr aşağıdakı hallarda verilə bilər:

- mülki-hüquqi xarakterli müqavilələr üzrə işlərin (xidmətlərin göstərilməsinin) yerinə yetirilməsindən gəlirlər;

- elmi əsərlərdə olan yeniliklərin tətbiqi , ədəbiyyat və incəsənət əsərlərinin, kəşflərin, sənaye nümunələrinin istifadəsi üçün müəllif mükafatları.

Mülki-hüquqi xarakterli müqavilələr üzrə işlərin (xidmətlərin göstərilməsinin) yerinə yetirilməsindən gəlir əldə edən, lakin vergi agenti olmayan fiziki şəxslərə peşəkar vergi çıxılmaları vergi dövrünün sonunda vergi orqanına vergi bəyannaməsi təqdim edərkən onların rəsmi ərizələrinə əsasən verilir.

PETTİ UİLYAM (1623-1687) – ingilis iqtisadçısı. Burjuaziyanın mənafeyinə xidmət edən U. Petti merkantilistlərdən fərqli olaraq, var-dövlətin mənbəyini tədavüldə deyil, istehsalda görürdü. Pettini əmək-dəyər nəzəriy-



yəsinin yaradıcısı hesab etmək olar. U.Pettinin əsərləri içərisində 1662-ci ildə nəşr olunmuş "Vergilər və rüsumlar haqqında traktat" kitabı xüsusi qeyd olunur. Sonrakı illərdə alimin "Siyasi hesab" (1690), "Mütəfəkkirin dastanı" (1691), "İrlandiyanın siyasi anatomiyası" (1691), "Pulların müxtəlifliyi" (1695) kitabları nəşr olunmuşdur. Onun iqtisad elminə daha böyük töhfəsi isə milli sərvətin və vergiqoyma üçün lazımi bazanın müəyyən edilməsi yolu ilə milli gəlirin qiymətləndirilməsinə xidmət edən "Siyasi hesab" adlı əsəridir.

PƏRAKƏNDƏ SATIŞ – alıcılara nağd şəkildə malların satılması və xidmətlərin göstərilməsi.

PİQU ARTUR SESİL (1877-1959) – ingilis iqtisadçısı. Kembric Universitetinin yetirməsidir. Universitetdə iqtisadi nəzəriyyə sahəsində biliklərinin fundamentini təşkil edən



riyaziyyat və tarix fənlərini öyrənmiş, elmi fəaliyyətə A.Marşallın rəhbərliyi ilə başlamışdır. 1908-ci ildən Kembricdə A. Marşall öz kafedrasını sevimli tələbəsi Piquya təslim etdi. Eyni zamanda, o, həyatının sonuna qədər valyuta komitəsinin, gəlir vergisi üzrə kral komissiyasının, habelə pul dövriyyəsi üzrə Çemberlin komitəsinin üzvü olmuşdur. Piqu nəzəriyyəsinin əsasında cəmiyyətin xalis məhsulu kimi baxılan milli gəlir anlayışı dayanır.

Onun "Rifahın iqtisadi nəzəriyyəsi" ikicildliyi dəyərli əsər kimi bir sıra dillərə tərcümə olunmuşdur.

PODRAT – mülki hüquqda elə müqavilə növüdür ki, bir tərəf öz riski hesabına digər tərəfin tapşırığına əsasən özünün və ya sifarişçinin hesabına hər hansı bir işi yerinə yetirməyi, sifarişçi isə işi qəbil edərək haqqını ödəməyi öz üzərlərinə götürürlər.

PODRATÇI – podrat öhdəliyi götürmüş tərəf. Subpodratçı isə podratçı və ya əməliyyat şirkəti ilə birbaşa və ya vasitəli müqavilə üzrə, yaxud onların adından tərəflər arasında bağlanmış sazişlə əlaqədar mallar göndərən, işlər görən, yaxud xidmətlər göstərən hər hansı fiziki və ya hüquqi şəxs deməkdir.

PORTATİV KASSA – kiçik ölçülü, əldə gəzdirilə bilən, bir yerdən digər yerə asanlıqla daşınılan kassa aparatı.

PORTFEL İNVESTİSİYALARI – RF Qanununun (№ 3615 -1) 1-ci maddəsinin 10-cu bəndinə əsasən, qiymətli kağızların alınması mənasında istifadə edilən termin. Portfel inventisiyalarının məqsədi portfeldə yerləşən qiymətli kağızların kurs məbləğinin artmasından əldə olunan mədaxilin alınmasıdır.

POS-TERMİNAL – ticarət, ictimai iaşə və xidmət müəssisələrində müştərilərin plastik kart vasitəsilə nağdsız ödənişləri aparması üçün istifadə edilən, banklar tərəfindən müqavilə əsasında quraşdırılan xüsusi avadanlıq.



POS-terminal

PRİORİTET İNVESTİSİYA LAYİHƏSİ – RF Qanunu (№ 160-FZ,maddə 2) ilə müəyyən edilmiş aşağıdakı mənaları bildirən termindir:

- xarici investisiyaların ümumi həcmi ən azı 1 milyard rubl təşkil edən investisiya layihəsi.

- xarici investorun kommersiya təşkilatlarının nizamnamə kapitalında minimal payı ən azı 100 milyon rubl təşkil edən və RF Hökumətinin təsdiq etdiyi siyahıya daxil edilmiş investisiya layihəsi.

PROBLEMLİ VERGİ ÖDƏYİCİLƏRİNƏ OPERATİV NƏZARƏT ÜZRƏ REGİONLARARASI TƏFTİŞ – bir sıra ölkələrdə aşağıdakı vəzifələrin yerinə yetirilməsi məqsədilə yaradılan vergi orqanı: vergi ödəyicilərinin maliyyə-təsərrüfat fəaliyyətinin monitorinqi, onların hesabatlarının təhlili əsasında problemli vergi ödəyicilərinin aşkar edilməsi; yuxarı vergi orqanının razılığı ilə problemli vergi ödəyicilərində səyyar vergi yoxlamalarının aparılması; lisenziya tələb olunan fəaliyyət növləri ilə belə lisenziya olmadan məşğul olan vergi ödəyicilərinin aşkar edilməsi; problemli vergi ödəyiciləri ilə iş praktikasının təhlili və ümumiləşdirilməsi əsasında metodiki tövsiyələrin hazırlanması və s.

PROQNOZ – elmi əsaslarla gələcəyin proqnozlaşdırılması, həmçinin, proqnozlaşdırmanın nəticəsi.

PROQRESSİV VERGİTUTMA – bax: Mütərəqqi vergitutma.

PROPORSİONAL VERGİTUTMA – bax: *Mütənasib vergitutma.*

PROTOKOL – hər hansı fiziki şərtlərin (prosessual və ya istintaq fəaliyyəti ilə əlaqədar) qeydə alındığı rəsmi sənəd forması. Vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi zamanı protokollar Vergi Məcəlləsində nəzərdə tutulmuş hallarda tərtib edilir.


PUL – mübadilə vasitəsi kimi işlənən aktiv; ayrı-ayrı malların, xidmətlərin və digər aktivlərin qiymətləndirilmə vasitəsi.

PUL KAPİTALINDAN GƏLİRLƏRƏ VERGİ – qiymətli kağızlardan divident və ya faiz şəkilində əldə olunan gəlirlərdən tutulan vergi.



R

RAMSEY CON MAK-KULLOX (1789 - 1864) – şotland iqtisadçısı. London Universiteti kollecinin siyasi iqtisad üzrə professoru olmuşdur. D.Rikardonun davamçısı idi.



"Siyasi iqtisadın əsasları" əsərində əməyin dəyər mənbəyi olmasını qəbul etməklə əməyin özünü, onun insanlar, maşınlar, heyvanlar və ya təbiət qüvvələri tərəfindən yerinə yetirilməsindən asılı olmayaraq, fəaliyyətin və ya əməliyyatların bir növü kimi izah edirdi. Buna müvafiq olaraq, onun şərhində mənfəət toplamış əməyin, yəni kapitalın "işi" ilə yaradılmış dəyərin bir hissəsi hesab olunur.

RATİFİKASİYA – müqavilənin məcburiliyinə razılığın ifadə olunmasının üsullarından biri olub ali hakimiyyət orqanı (adətən, parlament və ya dövlət başçısı) tərəfindən müqavilənin təsdiq olunması.

RAYONLARARASI SƏVİYYƏDƏ VERGİ YOXLAMALARI – RF-də federal dairələrdə müfəttişlər tərəfindən həyata keçirilən yoxlamalar.

REALLAŞDIRILMAMIŞ GƏLİRLƏR – bağlanmış müqavilələrin ya müəyyən vaxta, yaxud da müəyyən qiymətə əməl etmək şərti ilə icrası nəticəsində alınan gəlirlər.

REALLAŞDIRILMAMIŞ XƏRCLƏR – bağlanmış müqavilələrin ya müəyyən vaxta, yaxud da müəyyən qiymətə əməl etməmək nəticəsində yaranan xərclər.

REALLAŞDIRMADAN GƏLİRLƏR – əmtəə və ya xidmətlərin satışı qiyməti ilə onların maya dəyəri arasındakı müsbət fərq.

REGİONAL VERGİ İDARƏSİ – öz səlahiyyətləri daxilində vergi ödəyicilərinin qeydiyyatı və uçotu, dövlət vergilərinin və digər büdcə daxilolmalarının düzgün hesablanması, onların vaxtında və tam məbləğdə dövlət büdcəsinə köçürülməsi sahəsində təşkilat və nəzarət tədbirlərini həyata keçirən struktur vahid.

REGİONAL VERGİ VƏ YIĞIMLAR – Vergi Məcəlləsi və regional qanunvericiliklə müəyyən edilən və bu regionlarda ödənilməsi məcburi olan vergi və ödənişlər.

REGİSTRASİYA DAİRƏSİ – hər hansı eyni əlamətə malik olan uçota alınma obyektlərinin məcmusu.

REGİSTRATOR – kargüzarlıqda qeydiyyata alınmanı həyata keçirən məsul şəxs.

REİNVESTİSİYA QOYULUŞU – xarici investorun və ya xarici investisiyalı kommersiya təşkilatının gəlirləri və ya mənfəəti hesabına ölkə ərazisində sahibkarlıq fəaliyyəti obyektlərinə kapital qoyuluşunun həyata keçirildiyini göstərən termin.

REKLAMA MƏSRƏFLƏR – müəssisənin istehsal (iş və xidmətlərin) artımına nail olunması məqsədilə istehlak bazarında alıcılara göstərdiyi məqsədyönlü informasiya təsirlərinə çəkilən xərclər.

REKVİZİSİYA – təbii fəlakətlər, texnoloji qəzalar, epidemiyalar baş verdikdə və fövqəladə xarakter daşıyan digər hallarda müvafiq dövlət orqanlarının qərarı ilə mülkiyyətçidən əmlakın qanunla müəyyənləşdirilmiş qaydada və şərtlərlə, dəyəri mülkiyyətçiyə ödənilməklə alınması.

RENTALS – axtarış, kəşfiyyat və istehsalın müxtəlif dövrlərində illik ödəmələrin miqdarını müəyyən etmək üçün tövsiyələr, ödəmə şərtləri və qaydası nəzərdə tutulmuş məhsul bölgüsü haqqında sazişə uyğun icarə haqqı forması. Rentals yer təkindən istifadəçinin neft, qaz və digər təbii ehtiyatların axtarışı və kəşfiyyatı üçün ödənişlərindən biridir. Digər ödənişlər – royalti və bonusdur.

REPO ƏMƏLİYYATLARI – investisiya qiymətli kağızların əvvəlcədən müəyyən edilmiş şərtlərlə geri satın alınması (satılması) öhdəliyi ilə satılması (alınması). İngiliscə "repurchase agreement" (yenidən alış sövdələşməsi) sözlərinin qısaldılmış variantıdır. Fond birjasında REPO əməliyyatları fond birjasının qaydalarına uyğun olaraq, klirinq təşkilatının iştirakı ilə keçirilir. Hər bir REPO əməliyyatı üzrə əmələ gələn öhdəliklərin icra olunmasında təminatçı kimi klirinq təşkilatı çıxış edir. Bu əməliyyat üzrə öhdəliklərin və təminatların həcmi də klirinq təşkilatı tərəfindən hesablanır. REPO-nun bağlanma tarixi onun predmeti olan qiymətli kağızların ödəniş və ya geri satınalınmasının başlanması tarixindən ən azı beş gün əvvəl olmalıdır. REPO açılış əqdi və REPO bağlanış əqdi eyni tarixdə həyata keçirildikdə, REPO-nun müddəti bir gün hesab edilir. REPO müddəti ərzində satıcı və alıcı şərtləri dəyişdirmək hüququna malikdirlər.

RESİPİYENT – donorla münasibətlərində qrant alan şəxs. Latın dilində "recipiens" – qəbul edən deməkdir. Aşağıdakılar resipiyent ola bilərlər:

- müvafiq icra hakimiyyəti orqanı qismində Azərbaycan dövləti;
- bələdiyyə orqanları;
- AR-də fəaliyyət göstərən, nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik, yaxud qrant predmeti ola bilən layihə və proqramların həyata keçirilməsi olan və qrant almaqla birbaşa mənfəət götürmək məqsədi güdməyən rezident və qeyri-rezident hüquqi şəxslər, onların filial, nümayəndəlik və şöbələri;
- AR-in fiziki şəxsləri (AR-in "Qrant haqqında" 17 aprel 1998-ci il tarixli 483 nömrəli Qanunu, maddə 3).

Qrant almaqda, donoru və gerçəkləşdirilməsi üçün qrant aldıqları layihə və proqramları seçməkdə AR-dən olan resipiyentlər tam sərbəstdirlər. AR-dən olan donorlar xarici ölkələrin hüquqi və ya fiziki şəxslərinə qrant verərkən resipiyent qismində kimlərin çıxış edə bilməsi həmin ölkələrin qanunvericiliyi ilə müəyyənləşdirilir. Resipiyentlər qrant müqavilələrinin (qərarların) şərtlərinə uyğun olaraq fəaliyyət göstərirlər.

REYESTR – uçota alınma obyektlərinin sistemləşdirilmiş formada tərtib edilmiş siyahısı.

REYESTRİN APARILMASI SİSTEMİNDƏN ÇIXARIŞ – qeydiyyat obyektinin dövlət reyestrinə

daxil edilmiş məlumatını əks etdirən və qeydiyyat orqanı tərəfindən təsdiq edilməklə verilən sənəd.

REZİDENT – Təqvim ilində üst-üstə 182 gündən artıq vaxtda, həqiqətən, AR-in ərazisində olan və ya təqvim ili içərisində, yaxud bir təqvim ili ərzində xarici ölkədə AR-in dövlət xidmətində olan şəxsr AR-in rezidenti sayılır. Fiziki şəxsin respublika ərazisində və xarici ölkədə (hər hansı birində) olma müddəti 182 gündən artıq olmadıqda, həmin fiziki şəxs ardıcıllıqla daimi yaşayış yeri, həyati mənafelərinin mərkəzi, adətən, yaşadığı yer və AR-in vətəndaşlığı meyarlarına əsasən AR-in rezidenti sayılır.

REZİDENTLƏRİN XARİCİ VALYUTADA HESABLARI – "Valyuta tənzimi haqqında" AR Qanununa görə xarici valyuta aşağıdakılar hesab edilir:

- müvafiq xarici dövlətin və ya dövlətlər qrupunun ərazisində tədavüldə olan və qanuni ödəniş vasitəsi sayılan, eləcə də tədavüldən çıxarılmış və ya çıxarılan, lakin həmin ərazidə tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən banknotlar, xəzinə biletləri və sikkələr şəklində pul nişanları;

- xarici dövlətlərin pul vahidlərində, beynəlxalq pul və ya hesablaşma vahidlərində hesablarda olan vəsaitlər.

Həmin qanuna görə:

- rezidentlər AR-də müvəkkil banklarda xarici valyuta hesablarına malik ola bilərlər;

-AR-in Mərkəzi Bankı tərəfindən başqa hal müəyyən edilmədikdə, rezident müəssisə və təşkilatlar əldə etdikləri xarici valyutanı məcburi şəkildə müvəkkil banklardakı öz hesablarına köçürməlidirlər;

- rezidentlər AR Mərkəzi Bankının müəyyən etdiyi hal və şərtlər daxilində AR-in hüdudlarından kənarda xarici valyuta hesabı açа bilərlər;

- müvəkkil banklar tərəfindən rezidentlərin xarici valyuta hesablarının açılması və bu hesablar üzrə əməliyyatların aparılması qaydasını AR-in Mərkəzi Bankı müəyyən edir.

REZİDENTLƏRİN VALYUTA ƏMƏLİYYATLARI – valyuta tənzimlənməsinin obyekti kimi çıxış edərək ölkə ərazisində rezidentlər tərəfindən həyata keçirilən valyuta əməliyyatları.

RİKARDO DAVİD (1772-1823)– ingilis iqtisadçısı. A.Smitin "Xalqların sərvəti" adlı əsərini oxuduqdan sonra Rikardonun iqtisad elminə marağı yaranmışdır.



1817-ci ildə ilk böyük əsəri olan "Siyasi iqtisadın başlanğıcı və vergiqoyma" nəşr olunmuşdur. Siyasi iqtisadda əmək-dəyər nəzəriyyəsinin banilərindən biri olan D. Rikardonun fikrincə, dəyər hər hansı əmtəənin istehsalına əməyin nəticəsi ilə deyil, əlverişsiz şəraitdə istehsal olunmuş eyni əmtəəyə sərf edilən əməklə ölçülür. O, "müqayisəli üstünlüklər nəzəriyyəsi"nin banisi kimi xarici ticarətin və beynəlxalq əmək bölgüsünün inkişafına əvəzsiz töhfə vermişdir.

ROTASİYA – növbəti vəzifəyə təyin edilmə, tərkibin yenilənməsi, növbəlilik.

ROYALTİ – qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunması və ya istifadə hüquqlarının verilməsinə görə dövri xarakter daşıyan ödənişlər, yaxud ədəbiyyat, incəsənət, elmi əsərlər, proqram təminatı, kinematoqrafik filmlər və digər qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunması, istifadə hüquqlarının verilməsinə görə, istənilən patentə, ticarət markasına, dizayn, yaxud modelə, plana, məxfi düstura, prosesə, sənaye, kommersiyaya, elmi təcrübəyə aid olan informasiyaya, sənaye, kommersiya və ya elmi avadanlıqdan istifadəyə, yaxud istifadə hüquqlarının verilməsinə görə mükafat şəklində alınan ödənişlərdir.

RÜSUM – müvəkkil olunmuş rəsmi orqanlar tərəfindən müəyyən funksiyaların yerinə yetirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş hədlərdə pul yığımı. Rüsum 2 növ ola bilər: dövlət orqanlarının, yerli idarəetmə orqanlarının və s. hüquqi hərəkətlərinin yerinə yetirilməsinə görə ödənilən dövlət rüsumu şəklində; idxal-ixrac əməliyyatlarının aparılması zamanı ödənilən gömrük rüsumu şəklində.

RÜSUM ÖDƏNMƏSİNDƏN AZADOLMA – dövlətin ərazisinə idxal olunan mallara münasibətdə tarif güzəşti.

RÜSUMLARIN XÜSUSİ NÖVLƏRİ – idxal rüsumlarının alınmasından asılı olmayaraq xüsusi müdafiə tədbiri kimi gömrük orqanları tərəfindən yerli istehsala təhlükə yarada bilən idxalın qarşısının alınması məqsədilə və ya dövlətə qarşı yol verilmiş diskriminasiyaya cavab tədbiri olaraq tətbiq edilən rüsumlar.

RÜSUMSUZ İDXAL – gömrük rüsumları, vergilər, yığımlar ödənilmədən dövlətin ərazisinə müəyyən malların, qiymətlilərin və digər əşyaların idxalı.

RÜSUMSUZ TİCARƏT MAĞAZASI – dövlət sərhədi keçən yerlərdə yaradılmış və çeşidində olan malların təqdim olunması vergilərdən (aksizlərdən, ƏDV-dən), rüsumlardan azad olunmuş ticarət nöqtələri. İlk belə mağaza 1947-ci ildə Brendan O Reqan tərəfindən İrlandiyada Şannon hava limanında açılmışdır.

RÜSUMSUZ TİCARƏT MAĞAZASININ TƏSİS EDİLMƏSİ ÜÇÜN LİSENZİYA – rüsumsuz ticarət mağazasının fəaliyyət göstərməsi üçün müvafiq yığımın müqabilində gömrük orqanı tərəfindən verilən xüsusi icazə sənədi.

RÜSUMSUZ TİCARƏT ZONASI – beynəlxalq müqavilələrdə və bəzi dövlətlərin vergi qanunvericiliyində nəzərdə tutulan anlayış. Aşağıdakı formaları var:

- azad ticarət zonasının gömrük rejimi;
- gömrük ittifaqı;
- rüsumsuz ticarət mağazalarının açılması üçün nəzərdə tutulan ərazilər.

S

SADƏLƏŞDİRİLMİŞ VERGİ – AR VM-in XVII fəslində göstərilən qaydalarla tutulan vergi. Həmin məcəllənin XI fəslinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 (on iki) aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 120.000 manat və ondan az olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdirlər.

Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malik olan vergi ödəyiciləri (AR VM-in 218.1.1 maddəsində nəzərdə tutulmuş vergi ödəyiciləri istisna olmaqla) hər il aprel ayının 20-dən gec olmayaraq müvafiq bəyannaməni və ya bu hüquqdan istifadə etməyəcəyi barədə yazılı məlumatı uçotda olduqları vergi orqanına təqdim edirlər. Vergi ödəyicisi qeyd olunan müddətdə bəyannaməni və ya yazılı məlumatı təqdim etmədikdə, vergi orqanı vergi ödəyicisinin əvvəlki vergi ilində seçdiyi metodu tətbiq edir. İl ərzində yeni fəaliyyətə başlayan vergi ödəyicisi vergi uçotuna durmaq üçün ərizədə qeyd etdiyi metodu tətbiq edir.

Aşağıda göstərilən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir:

- mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) AR ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər;

- mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər (mülkiyyətində və ya icarəsində olan, habelə məqsədli şəkildə ayrılan ərazidə (torpaq sahəsində) özünə məxsus və ya cəlb edilən vəsait hesabına əhalinin fərdi (şəxsi) ehtiyaclarını ödəmək və ya kommersiya məqsədləri üçün öz gücü ilə və yaxud müvafiq ixtisaslı peşəkar sifarişçi və ya podratçı cəlb etməklə bina tikdirən, habelə bu tikintinin və ya başa çatmış obyektin mülkiyyətçisi olan hüquqi və ya fiziki şəxslər);

- idman mərc oyunlarının operatoru və satıcıları olan şəxslər.

Aşağıda göstərilən şəxslərin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yoxdur:

- aksizli mallar istehsal edən şəxslər;

- kredit və sığorta təşkilatları, investisiya fondları, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, lombardlar;

- qeyri-dövlət pensiya fondları;

- əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edənlər;

- müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş təbii inhisar subyektləri;

- mükiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə (AR VM-in 218.1.1-ci maddəsində göstərilən şəxslər istisna olmaqla) qalıq dəyəri 100000 manatdan artıq olanlar.

Əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edən şəxslər bu fəaliyyətlə yanaşı, digər fəaliyyət növləri ilə məşğul olduqda, həmin digər fəaliyyətdən əldə etdiyi gəlirlərə

sadələşdirilmiş vergini tətbiq etmək hüququna malikdirlər. Bu halda əmlakın icarəyə verilməsi, royalti və digər fəaliyyət növləri üzrə əldə edilən gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparılır.

Hesabat dövri ərzində vergi ödəyicisi tərəfindən (AR VM-in 218.1.1-ci maddəsində nəzərdə tutulmuş vergi ödəyiciləri istisna olmaqla) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin (ödəmə mənbəyində vergi tutulmuş gəlirlər istisna edilməklə) həcmi, AR VM-in 218.1.1.1-ci maddəsində nəzərdə tutulmuş vergi ödəyicilərinin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri, mənzil tikintisi fəaliyyətini həyata keçirən şəxslər üçün zirzəmilər, mərtəbələr və çardaqlar daxil olmaqla, tikilən binanın ümumi sahəsi (dövlətə ayrılan hissə, dövlət büdcəsi, büdcədənkənar fondlar, dövlət zəmanəti və dövlətə ayrılan yardımlar hesabına tikilən yaşayış sahəsi, başqa tikintilərlə təmasda olmayan ayrıca tikilən fərdi və ya şəxsi yaşayış və ya bağ evlərinin, yaxud tikililərinin sahəsi istisna olmaqla), idman mərc oyunlarının operatoru üçün oyun iştirakçılarından qəbul edilmiş pul vəsaiti, idman mərc oyunlarının satıcısı üçün isə operatorun ona verdiyi komisyon haqq sadələşdirilmiş verginin vergitutma obyektidir.

Sadələşdirilmiş vergini ödəyən (mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) AR ərazisində sərnişin və yük daşımaları ilə məşğul olan, mənzil tikintisi fəaliyyəti ilə məşğul olan, idman mərc oyunlarının operatoru və satıcıları olan şəxslər istisna olmaqla (AR VM-in 218.1.1.2-ci maddəsi) hüquqi şəxslər ƏDV-nin, mənfəət vergisinin və əmlak vergisinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyət üzrə gəlir vergisinin və ƏDV-nin ödəyicisi deyildirlər.

Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) AR ərazisində sərnişin və yük daşımaları ilə məşğul olan, mənzil tikintisi fəaliyyəti ilə məşğul olan, idman mərc oyunlarının operatoru və satıcıları olan sadələşdirilmiş vergini ödəyən hüquqi şəxslər mənfəət vergisinin və əmlak vergisinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyət üzrə gəlir vergisinin ödəyicisi deyildirlər.

Sadələşdirilmiş vergi (AR VM-in 218.1.1-ci maddəsində nəzərdə tutulmuş fəaliyyətlə məşğul olan vergi ödəyiciləri istisna olmaqla) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) bu verginin ödəyicilərinin malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdiyi vəsaitin məbləğindən (ümumi hasilatının həcmindən) və satışdankənar gəlirlərdən aşağıdakı dərəcə ilə hesablanır:

Bakı şəhəri üzrə	4 faiz
Digər şəhər və rayonlarda, Naxçıvan MR-də	2 faiz

Bakı şəhəri istisna olmaqla, AR-in digər şəhər və rayonlarında, o cümlədən Naxçıvan MR-də fəaliyyət göstərən vergi ödəyicilərinə bu regionlar üzrə müəyyən edilmiş vergi dərəcəsi o halda tətbiq edilir ki, vergi ödəyiciləri öz istehsal sahəsi, daşınmaz əmlakı və işçi qüvvəsi ilə həmin ərazilərdə fəaliyyət göstərmiş olsunlar. AR-in şəhər və rayonlarında, Naxçıvan MR-də vergi uçotuna alınmış, lakin Bakı şəhərində fəaliyyət göstərən sadələşdirilmiş verginin ödəyiciləri vergini Bakı şəhəri üzrə müəyyən olunmuş vergi dərəcəsi ilə ödəyirlər.

Müxtəlif vergi dərəcələri ilə vergiyə cəlb edilən gəlirlər üzrə uçot ayrı-ayrılıqda aparılmalıdır. Belə uçot aparılmadıqda ən yüksək vergi dərəcəsi tətbiq edilir.

Yük və sərnişin daşınmasının növündən və həyata keçirildiyi ərazidən asılı olaraq, sərnişin və yük daşıyan vergi ödəyiciləri üçün sadələşdirilmiş verginin məbləğinə aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən edilir:

- Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında – 2,0;

- Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında (AR VM-in 220.6.1-ci maddəsində göstərilənlər istisna olmaqla) – 1,5;

- digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla digər yaşayış məntəqələri arasında (AR VM-in 220.6.1-ci və 220.6.2-ci maddələrində göstərilənlər istisna olmaqla) – 1,0.

Avtomobil nəqliyyatı vasitələrində (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsinə əsasən müəyyən edilir. Qeydiyyat şəhadətnaməsində belə göstəricilər olmadıqda isə onlar AR DİN tərəfindən vergi orqanlarına verilmiş arayışlar əsasında müəyyən edilir. Oturacaq yerlərinin sayını avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsi və ya AR DİN tərəfindən verilmiş

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün sadələşdirilmiş vergi aşağıdakı kimi müəyyən edilir:

Daşınma növü	Sadələşdirilmiş verginin tətbiq edildiyi ölçü vahidi	Sadələşdirilmiş verginin aylıq məbləği (man. ilə)
Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə	1 oturacaq yeri üçün	1,8
Taksi ilə sərnişin daşınması	1 ədəd nəqliyyat vasitəsi üçün	9,0
Yük daşınması	yükgötürmə qabiliyyəti üçün (hər tona)	1,0

arayışlar əsasında müəyyən etmək mümkün olmadıqda, sadələşdirilmiş verginin məbləği yerlərin faktiki sayına görə müəyyən edilir.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi vergitutma obyektinin hər kvadratmetri üçün 10 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əmsallar tətbiq edilməklə hesablanır.

İdman mərc oyunlarının operatoru tərəfindən oyun iştirakçılarından qəbul edilmiş vəsaitdən 6 faiz dərəcəsi ilə, idman mərc oyunlarının satıcısı tərəfindən isə operatorun ona verdiyi komisyon haqdan 4 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.

Sadələşdirilmiş verginin hesablanması, ödəmə müddəti və bəyannamənin verilməsi qaydaları AR VM-in 221-ci maddəsində göstərilmişdir. Bu maddəyə görə, sadələşdirilmiş vergi üçün hesabat dövrü rübdür və ödəyicilər bu dövrdən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanlarına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

Vergi ödəyicisi fəaliyyətini dayandırdıqda, habelə vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildikdə, bu Məcəllədə müəyyən olunmuş müddətdən gec olmamaq şərtilə vergi orqanına bəyannamə təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı, habelə vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildiyi və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildiyi günə qədər olan dövrü əhatə edir.

Sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyicisinin hər bir avtomobil nəqliyyatı vasitəsi üçün sadələşdirilmiş vergi müəyyən olunmuş ölçü vahidini sadələşdirilmiş verginin aylıq məbləğinə, habelə müvafiq əmsallara vurmaqla hesablanır və dövlət büdcəsinə ödənilir. Vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi əsasında istifadə edilən avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımaları həyata keçirildikdə, sadələşdirilmiş verginin ödənilməsinə nəqliyyat vasitəsini vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi ilə idarə edən şəxslər məsuliyyət daşıyırlar. Bütün digər hallarda sadələşdirilmiş verginin ödənilməsinə avtomobil nəqliyyatı vasitəsinin sahibi məsuliyyət daşıyır. Hüquqi şəxsin balansında olan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımaları hüquqi şəxsin özü tərəfindən həyata keçirildikdə, sadələşdirilmiş vergini həmin hüquqi şəxs ödəyir. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri tərəfindən sadələşdirilmiş verginin düzgün hesablanmasına və vaxtında dövlət büdcəsinə ödənilməsinə müvafiq icra hakimiyyəti orqanı nəzarət edir. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün müvafiq icra hakimiyyəti orqanından təqvim ayının sonunadək öz istəklərinə uyğun

olaraq növbəti ay, rüb, yarım il və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» almalıdırlar.

Vergi ödəyicisinin işçi heyətinin və özünə məxsus yüklərin daşınmasında istifadə edilən yeni avtomobil nəqliyyatı vasitələri müvafiq qaydada qeydiyyata alındıqdan sonra həmin avtomobil nəqliyyatı vasitələrinin sahibləri beş gün ərzində müvafiq icra hakimiyyəti orqanına bu barədə müvafiq icra hakimiyyəti orqanı (AR NN) tərəfindən təsdiq edilmiş formada məlumat təqdim edirlər.

Xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı (sahibkarlıq fəaliyyəti çərçivəsində onlara digər vergi ödəyiciləri tərəfindən göstərilən bu cür xidmətlər istisna olmaqla), habelə dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, AR MB-nin, hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və bu qəbildən olan digər sazişlər çərçivəsində fəaliyyət göstərən xarici podratçıların və subpodratçıların, dövlət fondlarının, xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan avtomobil nəqliyyatı vasitələri üçün «Fərqlənmə nişanı» və ya «Xüsusi fərqlənmə nişanı» alınmır və bu cür avtomobil nəqliyyatı vasitələrinin sahibləri həmin avtomobil nəqliyyatı vasitələri barədə AR NN-ə məlumat verirlər.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər hər bir tikinti sahəsi üçün sadələşdirilmiş vergini nəzərdə tutulmuş qaydada tikintinin təməl işlərinin başlandığı rübdə hesablayır və həmin rübdən sonrakı ayın 20-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə vergi orqanına bəyannamə təqdim edirlər.

SADƏLƏŞDİRİLMİŞ VERGİ SİSTEMİNDƏ ƏSAS VASİTƏLƏRİN ALINMASINDA MƏSRƏFLƏRİN VERGİ UÇOTUNUN XÜSUSİYYƏTLƏRİ – müvafiq qanunvericiliyin müddəalarına uyğun olaraq sadələşdirilmiş vergitutma sistemində əsas vəsaitlərin alınmasına çəkilən xərclərin təyin edilməsi xüsusiyyətlərini nəzərdə tutur.

SAMUELSON POL ANTONİ (1915-2009) – Amerika iqtisadçısı. "Statik və dinamik iqtisadi nəzəriyyəni inkişaf etdirən, iqtisad elmində təhlilin ümumi səviyyəsinin yüksəlməsinə töhfə verən elmi işlərinə görə" iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür (1970). P.Samuelson iqtisadi dinamika nəzəriyyəsinin, sabitlik, ümumi tarazlıq nəzəriyyəsinin, istehlak və rifah nəzəriyyəsinin işlənib hazırlanmasına, sə- mərəlilik və optimallıq problemlərinin tədqiqinə mühüm töhfə vermişdir. Onun ən iri fundamental əsəri "İqtisadi təhlilin əsasları"dır (1947), bu kitab XX əsrin ən əhəmiyyətli iqtisadi əsərlərindən biri hesab edilir. Samuelsonun növbəti iri əsəri – "Ekonomiks: giriş və təhlil"dir. Onun əsərlərində İkinci Dünya müha-



ribəsindən sonra dünya bazarında və xarici iqtisadi münasibətlərdə mövcud dəyişikliklər təhlil olunur, əmək və kapital gəlirlərindəki fərqlərin tarazlaşması amili kimi ölkələr arasında tam azad ticarətin zəruriliyi əsaslandırılırdı.

SAHİBKAR KİMİ QEYDİYYATA ALINMIŞ FİZİKİ ŞƏXSLƏR – hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən vergi uçotuna dayanmış fiziki şəxslər.

SAHİBKARLIQ FƏALİYYƏTİ – şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyət.

SAHİLƏ YANALMA YIĞIMI – idarə və ya milli mənsubiyyətindən asılı olmayaraq, limanda dayanan hər bir gəmidən limanda olan qurğuların və mexanizmlərin saxlanmasına çəkilən xərclərin ödənilməsi üçün alınan yığım. Adətən, dövlətin milli valyutası ilə gəminin limanda tutduğu yerə görə ödənilir.

SAXLAMA ÜÇÜN GÖMRÜK YIĞIMI – müvəqqəti saxlama anbarında və ya gömrük orqanının gömrük anbarında malların saxlanmasına görə ödənilən haqq.

SAQQAL VERGISI – müxtəlif ölkələrdə saqqal saxlayanlardan tutulan, lakin əhalinin bütün zümrələrini əhatə etməyən vergi. Bəzi Avropa ölkələrində XVI əsrdən tətbiq olunmağa başlanmışdı. İngiltərədə 1535-ci ildə kral VIII Henrix əhalinin bəzi qrupları üçun saqqal vergisinin ödənməsi barədə göstəriş verdi. Onun qızı Yelizaveta qərarda müəyyən düzəliş etdi: yalnız iki həftədən artıq saxlanan saqqal üçün vergi tutulurdu. Həmin dövrdə Fransada əsasən din xadimləri saqqal saxlayırdılar, ona görə də ruhanilər üçün saqqal vergisi təyin edildi və bütün ölkədə kasıb dindarlar üzlərini qırxmağa başladılar. Rusiyada 1698-ci ilin 5 sentyabrında I Pyotr saqqal rüsumu haqqında fərman verdi. 1705-ci il fərmanı bu rüsumun (verginin) ödəyicilərini, miqdarını müəyyənləşdirdi. Sonuncu fərmana görə keşişlərdən, monaxlardan və kəndlilərdən başqa bütün kişilər ya bığlarını və saqqallarını qırxmalı, ya da vergi ödəməliydilər. Dörd vergi dərəcəsi müəyyən edilmişdi: ildə 600 rubl, 100 rubl, 60 rubl və 30 rubl. Vergini ödəyən şəxsə "Saqqal nişanı" adlanan jeton verirdilər və onu həmin



şəxs bir il qoluna bağlayıb gəzirdi. Kəndlilər vergidən azad edilsələr də, hər dəfə hər hansı bir şəhərə daxil olduqda 1 qəpik rüsum ödəməliydilər. 1715-ci ildə çarın fərmanında düzəliş edildi və illik vahid vergi (rüsum) dərəcəsi – 50 manat qəbul olundu.

SANKSİYA – sosial nəzarətin mühüm təsir vasitəsi; müəyyən edilmiş norma və qaydaları pozanlara qarşı tətbiq edilən dövlət tədbiri; müvafiq normanı pozanlara qarşı dövlətin təsir tədbirlərini əks etdirən həmin nor-

manın tərkib hissəsi; beynəlxalq hüquqda – beynəlxalq öhdəliklərini və ya beynəlxalq hüququn normalarını pozan dövlətlərə qarşı tətbiq edilən təsir vasitəsi.

SATIŞ – istehsalçı ilə istehlakçı arasında konkret məhsul üçün mülkiyyət hüquqlarının mübadiləsi.

SATIŞDANKƏNAR GƏLİRLƏR – digər müəssisələrin fəaliyyətində payçı kimi iştirakdan gəlir, müəssisəyə məxsus səhmlər, istiqrazlar və digər qiymətli kağızlardan əldə olunan gəlirlər, habelə mal və xidmət (iş) istehsalı və satışı ilə bilavasitə bağlı olmayan əməliyyatdan götürülən digər gəlirlər, o cümlədən cərimə və zərərin ödənilməsi şəklində alınmış məbləğ, xarici valyuta əməliyyatları üzrə artan məzənnə fərqi, qanunvericiliyə müvafiq iddia müddəti keçmiş kreditor və deponent borc məbləğləri.

SAZİŞ – beynəlxalq müqavilələrin bir növü.

SELİQMEN EDVİN ROBERT ANDERSON (1861-1939) – Amerika iqtisadçısı. Nyu-Yorkda anadan olmuş, Kolumbiya Universitetində təhsil almış və burada müəllimlik etmişdir. Amerika İqtisadi Assosiasiyasının banilərndən biridir.



Edvin Seliqmen vergitutma, həmçinin, ictimai maliyyə və iqtisadi tarix sahələrində peşəkar mütəxəssis olmuşdur. Onun vergitutma sahəsində araşdırmalarında proqressiv vergitutmaya, vergi yükünün satıcıdan alıcının üzərinə və əksinə, keçirilməsi məsələlərinə toxunulurdu. E.Seliqmen "Vergi yükünün transferi və vergilərin aşağı sa- lınması" əsərində vergi yükünün başqasının üzərinə qoyulması hallarını araşdırmış və onun iki növünü aşkar etmişdir: vergi yükünün satıcıdan alıcıya keçirilməsi (hansı ki, dolayı vergilərlə həyata keçirilir) və əksinə alıcıdan satıcının üzərinə (vergi dərəcələrinin yuxarı olması səbəbindən əmtəənin qiymətinin yüksək olduğu zaman, misal üçün aksiz) keçirilməsi.

SENZ – Qədim Romada vətəndaşların sosial-siyasi, hərbi və vergi statusunu müəyyən etmək məqsədilə əmlakı göstərilməklə siyahıya alınması; şəxsin bu və ya digər siyasi hüquqlardan istifadə şərtləri: yaş senzi, əmlak senzi, təhsil senzi; ingilisdilli ölkələrdə əhalinin statistik siyahıya alınması.

SERTİFİKAT – müəyyən faktı təsdiq edən yazılı şəhadətnamə.

SERVİTUT – daşınmaz əşyanın digər daşınmaz əşya mülkiyyətçisinin xeyrinə elə yüklü edilməsidir ki, bu zaman ona (digər daşınmaz əşyanın mülkiyyətçisinə) ayrı-ayrı hallarda əşyadan istifadə etməyə icazə verilir və ya daşınmaz əşyanın mülkiyyətçisinə müəyyən hərəkətləri yerinə yetirməyə və ya mülkiyyət hüququndan irəli gələn digər hüquqları həyata keçirməyə icazə verilmir.

SERVİTUTA MALİK OLAN ŞƏXSLƏR – servitut almış şəxs (ixtiyarlı şəxs) servitutun saxlanması və həyata keçirilməsi üçün tələb olunan hər şeyi edə bilər, lakin öz hüququndan imkan daxilində elə istifadə etməlidir ki, bu, yüklü olan mülkiyyətçinin

mənafelərinə zidd olmasın və ona lüzumsuz narahatlıq yaratmasın.

SƏFİR – xarici dövlətdə və ya beynəlxalq təşkilatda dövlətin yüksək çinli diplomatik nümayəndəsi. Səfirlər dövlət başçısı tərəfindən təyin olunur.

SƏFİRLİK – hər hansı dövlətin başqa bir dövlətin hökumətinin, yaxud beynəlxalq təşkilatın yerləşdiyi şəhərdəki diplomatik nümayəndəliyi.

SƏHM – sahibinə səhmdar cəmiyyətində müəyyən paya sahiblik hüququnu təsdiqləyən maliyyə aləti. Əlavə investisiya əldə etmək məqsədilə şirkət səhm buraxılışı həyata keçirir və bu şirkətin hətta bir səhminə sahib olan hər bir şəxs həmin şirkətin səhmdarına çevrilir və digər səhmdarlarla eyni hüquqa malik olur. Şirkətin bütün səhmlərinin ümumi dəyəri onun nizamnamə kapitalını təşkil edir. Səhmlər iki növə ayrılır: adi və imtiyazlı. Adi səhmlərin sahibləri aşağıdakı hüquqlara malik olurlar:

- şirkətin gəlirindən divident almaq hüququ;
- səhmdarların ümumi yığıncağında səs hüququ;
- şirkət ləğv edildikdən sonra yerdə qalan əmlakın bir hissəsini əldə etmək hüququ.

İmtiyazlı səhm sahibləri səhmdarların ümumi yığıncağında səs hüququna malik olmurlar, lakin divident almaq barəsində imtiyazlar əldə edirlər. Məsələn, səhmdarların ümumi yığıncağı ilin yekununa əsasən belə qərara gələ bilər ki, divident ödənilməsin və bütün gəlirlər şirkətin inkişafına yönəldilsin. Belə olan halda, adi səhmlərin sahibləri divident almırlar, amma imtiyazlı səhm sahiblərinə dividentlər hər bir halda ödənilməlidir. Bundan əlavə, şirkət ləğv olunduğu təqdirdə cəmiyyət ilk növbədə imtiyazlı səhm sahiblərinin maraqlarını ödəməyə çalışır.

SƏHMDAR CƏMİYYƏTİ – Nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünmüş cəmiyyət səhmdar cəmiyyəti sayılır.

Səhmlər buraxmağa yalnız səhmdar cəmiyyətlərinin hüququ vardır. Səhmdar cəmiyyətinin əmlakı onun səhmlərinin yerləşdirilməsi, maliyyə-təsərrüfat fəaliyyəti nəticəsində, habelə anunla qadağan edilməmiş digər mənbələr hesabına yaranır. Səhmdar cəmiyyəti AR MM-ə müvafiq olaraq yeni cəmiyyətin yaradılması və ya bu Məcəllədə müəyyən edilmiş qaydalar və məhdudiyyətlər nəzərə alınmaqla, fəaliyyət göstərən hüquqi şəxsin yenidən təşkili (birləşmə, bölünmə, ayrılma, çevrilmə) yolu ilə yaradıla bilər. Səhmdar cəmiyyətinin iştirakçıları (səhmdarlar) onun öhdəlikləri üçün cavabdeh deyildirlər və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub səhmlərin dəyəri həddində risk daşıyırlar. Səhmdar cəmiyyəti bir şəxs (fiziki və ya hüquqi şəxs) tərəfindən yaradıla bilər və ya cəmiyyətin bütün səhmlərini bir səhmdarın əldə etdiyi halda bir şəxsdən (fiziki və ya hüquqi şəxsdən) ibarət ola bilər. Bu barədə məlumat cəmiyyətin nizamnaməsində göstərilməli, qeydə alınmalı və hamının tanış olması üçün dərc edilməlidir.

Səhmdar cəmiyyətinin yeganə iştirakçısı bir şəxsdən ibarət digər təsərrüfat cəmiyyəti ola bilməz.

Səhmdar cəmiyyətinin yaradılması

təsis yığıncağının keçirilməsini və müqavilənin bağlanmasını və ya səhmdar cəmiyyətinin yaradılması haqqında qərarın qəbul edilməsini (səhmdar cəmiyyəti bir şəxs tərəfindən yaradıldıqda), səhmlərin təsisçilər arasında bölüşdürülməsini və nizamnamənin hazırlanmasını (qəbul olunmasını) əhatə edir. Bu zaman təsis yığıncağı təsisçilər arasında bağlanmış müqavilədə nəzərdə tutulmuş müddətdə, səhmdar cəmiyyətinin bütün səhmləri təsisçilər arasında bölüşdürüldükdə keçirilir. Təsis yığıncağı bütün təsisçilər və ya onların nümayəndələri iştirak etdikdə səlahiyyətlidir (yetərsay var). Yetərsay olmadıqda, yığıncaq təkrarən keçirilir. Təkrarən keçirilən təsis yığıncağında da yetərsay olmadıqda, səhmdar cəmiyyətinin yaradılması iclasda iştirak edən təsisçilər və ya onların nümayəndələri tərəfindən baş tutmamış hesab edilir və bu qərar yeddi gün müddətində bütün təsisçilərin nəzərinə çatdırılır.

Səhmdar cəmiyyətinin yaradılması zamanı keçirilən təsis yığıncağı:

- səhmdar cəmiyyətinin yaradılması zamanı yerləşdirilən səhmlərin ödənilməsinə yönəldilən pul olmayan əmlakın dəyərini təsdiq edir;
- səhmdar cəmiyyətinin yaradılması barədə qərarı qəbul edir və onun nizamnaməsini təsdiq edir;
- AR MM və səhmdar cəmiyyətinin nizamnaməsi ilə nəzərdə tutulmuş səhmdar cəmiyyətinin idarəetmə, nəzarət və icra orqanlarını təşkil edir;
- səhmdar cəmiyyətinin yaradılması və cəmiyyətin fəaliyyətinin başlanılması ilə əlaqədar AR MM, digər qanunvericilik aktlarına və təsisçilər arasında bağlanılmış müqaviləyə zidd olmayan digər məsələləri həll edir (AR MM,98.11).

Səhmdar cəmiyyətinin təsis yığıncağında cəmiyyətin təsis edilməsi, nizamnamənin təsdiq edilməsi, səhmdar cəmiyyətinin yaradılması zamanı yerləşdirilən səhmlərin ödənilməsinə yönəldilən pul olmayan əmlakın dəyərinin təsdiq edilməsi, idarəetmə, nəzarət və icra orqanlarının formalaşdırılması barədə qərarlar təsisçilər tərəfindən yekdilliklə, digər məsələlər üzrə isə sadə səs çoxluğu ilə qəbul edilir. Səhmdar cəmiyyətinin təsisi zamanı səhmlərin buraxılışı və dövlət qeydiyyatı AR MM və ona uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir. Səhmdar cəmiyyətinin yaradılması ilə bağlı və onun dövlət qeydiyyatına alınmasına qədər yaranmış öhdəliklərinə görə cəmiyyətin təsisçiləri birgə məsuliyyət daşıyırlar.

SƏLAHİYYƏTLİ BANKLAR – bu və ya digər bank əməliyyatlarının aparılmasına icazə verilmiş bank.

SƏMƏDZADƏ ZİYAD ƏLABBAS OĞLU (1940) – iqtisad elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, Azərbaycan İqtisadçılar İttifaqının sədri. Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetini bitirmişdir (1961). Keçmiş SSRİ Elmlər Akademiyasının İqtisadiyyat İnstitunun aspiranturasında təhsil almışdır (1962-1964). AMEA-nın İqtisadiyyat İnstitunda kiçik elmi işçi, böyük elmi işçi, elmi katib, şöbə



müdiri işləmişdir. Azərbaycan SSRİ Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutu direktorunun birinci müavini (1976-1978), Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun elmi işlər üzrə prorektoru (1978-1982), Azərbaycan KP MK-nın şöbə müdiri, Azərbaycan SSR Ali Soveti sədrinin birinci müavini, Dövlət Plan Komitəsinin sədri (1983-1991) vəzifələrində işləmişdir.

Azərbaycan Respublikası Ali Sovetinin deputatı, parlamentin plan-büdcə komissiyasının sədri (1984-1995) olmuşdur.

Respublikada əmək məhsuldarlığı, iqtisadi inkişaf, sürət və proporsiyalar, milli gəlir və səmərəlilik problemləri üzrə elmi məktəbin yaranması Z.Ə.Səmədzadənin adı ilə bağlıdır. O, yeni iqtisadi təfəkkürün yorulmaz təbliğatçısıdır.

Z.Ə. Səmədzadə TACİS Proqramının Azərbaycanda fəaliyyətə başlaması üçün böyük zəhmət çəkmiş, Avropa İttifaqının (Aİ) ekspertləri ilə çoxsaylı görüşlər keçirmiş, milli koordinator, bir iqtisadçı-alim kimi TRACECA proqramının hazırlanması ilə bağlı elmi araşdırmalar aparmış, 1993-cü ilin may ayında Brüsseldə birinci beynəlxalq konfransda əsas məruzə ilə çıxış etmiş və Brüssel bəyannaməsini imzalamışdır.

Z.Ə. Səmədzadənin «Böyük yolun mərhələləri – Azərbaycan iqtisadiyyatı yarım əsrdə: reallıqlar və perspektivlər» (rus dilində) (2004), «Çin qlobal dünya iqtisadiyyatında» (2009) monoqrafiyaları ölkədə və onun hüdudlarından kənarda böyük əks-səda doğurmuşdur.

Z.Ə. Səmədzadə III və IV çağırış (2005, 2010) Azərbaycan Respublikası Milli Məclisinin üzvü seçilmişdir. Parlamentin İqtisadi siyasət komitəsinin sədridir. Ölkədə iqtisadi qanunvericiliyin hazırlanmasının, büdcə sisteminin təkmilləşdirilməsinin fəal iştirakçısıdır.

Azərbaycanın nüfuzlu dövri mətbu nəşrlərindən olan «İqtisadiyyat» qəzetinin yaradıcısı (1999) və baş redaktorudur.

Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə «Şöhrət» ordeni ilə təltif edilmişdir (2010).

Z.Ə. Səmədzadənin ideya müəllifliyi və baş redaktorluğu ilə dördcildlik «Böyük İqtisadi Ensiklopediya» hazırlanmış və nəşr edilmişdir (2012).

Digər əsas elmi əsərləri: "Azərbaycan SSR-də əmək məhsuldarlığı və əhalinin məşğulluğunun sahə quruluşu" (1973), "Əhalinin regional problemləri və SSRİ-nin əmək ehtiyatları (Azərbaycan SSR-də əmək ehtiyatlarının formalaşmasının və səmərəli istifadəsinin iqtisadi-demoqrafik şərtləri" (1978), "İctimai istehsalın strukturu və səmərəliliyi" (1980), "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması prblemləri" (2010).

SƏNƏDLƏRIN GÖTÜRÜLMƏSI – səyyar vergi yoxlaması keçirildikdə yoxlamanın predmetinə aid olan və vergilərin hesablanması üçün tələb edilən vergi ödəyicisi tərəfindən

təqdim olunan sənədlərin öyrənilməsinə əlavə vaxt tələb olunduğu halda, həmçinin təqdim olunmuş sənədlərdə vergi qanunvericiliyinin pozulması halları müəyyən edildikdə səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının vəzifəli şəxsi tərəfindən VM-in 42-ci maddəsinə müvafiq olaraq ona təqdim edilmiş sənədlərin götürülməsi.

SƏNƏDLƏRİN TƏLƏB EDİLMƏSİ – AR VM-in 42-ci maddəsinə görə səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxsi yoxlama üçün zəruri olan sənədləri vergi ödəyicisindən tələb edə bilər; sənədlərin verilməsi barəsində tələb yönəldilən şəxs həmin sənədləri 5 gün müddətində vergi orqanına təqdim etməlidir; tələb olunan sənədlər vergi ödəyicisi tərəfindən göstərilən müddətdə təqdim edilmədikdə və ya həmin sənədlərin onda olmaması vergi ödəyicisi tərəfindən bildirildikdə, yoxlamanı həyata keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan akt tərtib edilir. Vergi ödəyicisi həmin aktı imzalamaqdan imtina etdikdə, bu barədə aktda qeyd edilir; tərtib olunmuş aktın surəti vergi ödəyicisinə verilir; tələb olunan sənədləri və ya surətlərini səyyar vergi yoxlamasının keçirildiyi müddətdə digər mənbələrdən əldə etmək mümkün olmadıqda, həmin akta əsasən vergi orqanının ödənilməli olan vergi məbləğlərini VM-in 67-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada müəyyən etmək hüququ vardır.

Səyyar vergi yoxlaması üçün zəruri olan vergi orqanı tərəfindən tələb edilən sənədlərin vergi ödəyicisi tərəfindən vergi orqanına verilməsindən imtina edilməsi və ya göstərilən müddətdə təqdim edilməməsi qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur; sənədlərin təqdim edilməsindən imtina edildikdə, səyyar vergi yoxlamasını həyata keçirən vergi orqanının vəzifəli şəxsi VM-in 43-cü maddəsində nəzərdə tutulmuş qaydada sənədlərin götürülməsini həyata keçirə bilər.

Vergi nəzarətinin həyata keçirilməsi və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən daxil olmuş sorğuların icrası ilə bağlı zəruri olan sənədlər və ya onların lazımi qaydada təsdiq edilmiş surətləri vergi orqanının müraciətinə əsasən vergi ödəyicisi tərəfindən 20 gün müddətində təqdim edilməlidir.

SƏRBƏST ANBAR – xarici malların müvafiq ərazi hüdüdlarında və ya yerlərində gömrük rüsumları, vergiləri ödənilmədən, ticarət siyasəti tədbirləri görülmədən yerləşdirilməsini və istifadə olunmasını, yerli malların isə ixrac rejiminin şərtlərinə uyğun olaraq yerləşdirilməsini və istifadəsini nəzərdə tutan gömrük rejimi.

SƏRBƏST ANBARLARA VƏ ONLARIN SAHİBLƏRİNƏ TƏLƏBLƏR – dövlətin gömrük qanunvericiliyində sərbəst anbar təsis etməklə müvafiq rejimin tətbiq olunması üçün zəruri olan tələblər kompleksi. Anbar təchizatı gömrük nəzarətinin həyata keçirilməsinə imkan verməlidir. Sərbəst anbarın sahibi olan şəxs (mütləq həmin dövlətin vətəndaşı) aşağıdakıları etməlidir:

- gömrük nəzarəti olmadan malların götürülməsinin qarşısının alınması;

- lisenziyalaşdırma qaydalarına riayət edilməsi;

- gömrük nəzarətinin həyata keçirilməsi üçün zəruri tədbirlərin görülməsinin təmin olunması.

Eyni zamanda, həmin şəxs aşağıdakılarla təmin olunmalıdır:

- yükləmə, boşaltma və nəqliyyat vasitələri, anbar avadanlığı;

- təşkilati texnika;

- mebel təchizatı;

- işçi qüvvəsi.

SƏRBƏST ANBARLARIN TƏSİS EDİLMƏSİ ÜÇÜN LİSENZİYA – sərbəst anbar rejiminin həyata keçirilməsi məqsədi ilə nəzərdə tutulan sərbəst anbarın təsis edilməsi üçün tələb olunan səlahiyyətli dövlət qurumu tərəfindən müəyyən olunmuş həd hüdüdlarında ödənilən yığım müqabilində verilən xüsusi icazə.

SƏRBƏST AUDİTOR – AR Auditorlar Palatasının verdiyi lisenziyaya əsasən respublika ərazisində sərbəst auditor xidməti göstərmək hüququnu əldə etmiş fiziki şəxs.

"Auditor xidməti haqqında" AR Qanunu"nun 6-cı maddəsinə görə, sərbəst auditor hüququnu əldə etmək üçün aşağıdakılar tələb olunur:

- AR vətəndaşı olmaq;

- məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə maliyyə-təsərrüfat münasibətləri sahəsində müəyyən vəzifələr tutma və ya müəyyən fəaliyyət ilə məşğul olma hüququndan məhrum edilməmək və ya bu növ cəza ilə bağlı məhkumluğun qanunvericilikdə müəyyən edilmiş qaydada ödənilməsi;

- mühasibat uçotu, maliyyə, iqtisadçı və ya hüquqşünas ixtisasları üzrə ali təhsilə və ixtisas üzrə azı üç il iş stajına malik olmaq;

- sərbəst auditor imtahanlarını vermək.

Tamah məqsədilə cinayət törətmək, üstündə məhkum olunmuş və məhkumluğu ödənilməmiş şəxslər auditor ola bilməzlər.

Öz ölkəsində auditor xidməti ilə məşğul olmaq hüququ olan xarici ölkə vətəndaşı Auditorlar Palatasının rəsmi icazəsi ilə həmin hüquqdan AR ərazisində istifadə edə bilər.

SƏRBƏST TƏDAVÜL ÜÇÜN MAL BURAXILIŞI – dövlətin gömrük ərazisinə idxal olunan malların daim həmin ərazidə qalması və yenidən bu ərazidən ixrac olunmaması ilə səciyyələnən, bütün gömrük ödənişlərinin edilməsini, ticarət siyasəti tədbirlərinin görülməsini tələb edən gömrük rejimi.

SƏRHƏDDƏN KEÇMƏNİN RƏSMİLƏŞDİRİLMƏSİNƏ GÖRƏ YIĞIM – AR gömrük sərhəddindən keçirilən nəqliyyat vasitələri də daxil olmaqla malların, o cümlədən müşayiət olunmayan baqajda, beynəlxalq poçt göndərişlərində keçirilən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların və yüklərin, həmçinin nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinə görə AR qanunvericiliyi ilə müəyyən edilmiş miqdarda gömrük yığımı.

SƏRHƏDİN DELİMİTASİYASI – dövlət sərhədinin müəyyən olunması prosesinin mərhələsi olub sərhədin keçmə xəttinin dövlətlərarası müqavilədə ətraflı təsvir olunması və müqavilədə əlavə olunan xəritədə öz qrafik əksini tapması.

SƏRHƏDİN DEMARKASİYASI – dövlət sərhədinin müəyyən olunması prosesinin mərhələsi olub, razılaşdırılmış sərhəd xəttinin xüsusi sərhəd nişanları vasitəsilə yerdə müəyyən olunması.

SƏRHƏDYANI TİCARƏT – qonşu dövlətlərin sərhədyanı rayonlarının sakinləri tərəfindən həyata keçirilən beynəlxalq ticarətin nisbətən məhdudlaşdırılmış növü. Beynəlxalq təcrübədə sərhədyanı əraziyə sərhədin hər iki tərəfindən 15-20 km enliyində zolaq aid edilir.

SƏYYAR VERGİ YOXLAMASI – vergi orqanı tərəfindən vergi ödəyicisinin faktiki fəaliyyət göstərdiyi yerdə vergi bəyannamələrinin, habelə vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan və digər bəlli mənbələrdən alınan məlumatlar əsasında həyata keçirilən vergi yoxlaması.

AR VM-in 38-ci maddəsində səyyar vergi yoxlamasının aparılması, 39-cu maddəsində isə həmin yoxlamaların nəticələrinin rəsmiləşdirilməsi qaydaları göstərilmişdir.

Səyyar vergi yoxlaması vergi orqanının qərarına əsasən həyata keçirilir. Bu yoxlama növbəti və növbədənkənar ola bilər. Növbəti səyyar vergi yoxlaması keçirildikdə, vergi orqanı tərəfindən vergi ödəyicisinə vergi yoxlamasının başlanmasından azı 15 gün əvvəl yazılı bildiriş göndərilir. Vergi ödəyicisinə göndərilən bildirişdə vergi yoxlamasının əsası və tarixi, habelə vergi ödəyicisinin və vergi orqanlarının hüquq və vəzifələri göstərilməlidir. Növbəti səyyar vergi yoxlaması ildə bir dəfədən çox olmayaraq keçirilir və 30 gündən artıq davam edə bilməz. Müstəsna hallarda, yuxarı vergi orqanının qərarına müvafiq olaraq, səyyar vergi yoxlamasının keçirilməsi müddəti 90 günə qədər artırıla bilər.

Aşağıda göstərilən hallarda yuxarı vergi orqanının əsaslandırılmış qərarına əsasən səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddəti 30 gündən çox olmayan müddətə uzadıla bilər:

- səyyar vergi yoxlamasının obyektiv və dolğun keçirilməsi üçün zəruri olan sənədlər, o cümlədən vergi orqanının sorğusuna cavab xarici ölkədən alındıqda;

- nümunə kimi götürülən əşyaların tədqiqi, səyyar vergi yoxlaması zamanı ekspertizanın keçirilməsi və ya mütəxəssis tərəfindən rəy verilmə üçün müxtəlif bilik sahələrindən istifadə etməklə aparıldıqda;

- səyyar vergi yoxlaması ilə əlaqədar vergi orqanları tərəfindən göndərilən sorğulara cavabların alınma müddətləri cavab göndərən şəxslər tərəfindən pozulduqda.

Növbədənkənar vergi yoxlaması vergi orqanları tərəfindən aşağıda göstərilən hallarda keçirilə bilər:

- verginin hesablanması və ödənilməsi üçün zəruri olan vergi hesabatı sənədləri müəyyən edilmiş müddətdə və bu barədə vergi orqanının xəbərdarlığından sonra da təqdim edilmədikdə;

- vergi yoxlamasının nəticələri üzrə tərtib edilmiş aktda dürüst olmayan və (və ya) təhrif olunmuş məlumatlar aşkar edildikdə;

- ƏDV üzrə artıq ödənilmiş vergi, faiz və maliyyə sanksiyası digər

vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilməsi hesabına və ya sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edildikdə; bu halda növbədənkənar vergi yoxlaması yalnız vergi ödəyicisinin ƏDV-yə cəlb edilən əməliyyatları üzrə aparıla bilər;

- artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılması barədə vergi ödəyicisinin ərizəsi daxil olduqda;

- vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədildiyi (azaldıldığı) aşkar edildikdə, ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçmiş vergi ödəyicilərinin vergi hüquqpozmalarına yol verməsi barədə mənbəyi məlum olan məlumatlar olduqda;

- cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq-mühafizə orqanlarının vergi yoxlamalarının keçirilməsi barədə müvafiq qərarı olduqda;

- sənədlər nəzərdə tutulan müddətdə təqdim edilmədikdə və ya dürüst olmayan, yaxud təhrif olunmuş məlumatlar təqdim edildikdə;

- vergi ödəyicisi olan hüquqi şəxsin ləğv edilməsi, yenidən təşkil edilməsi və ya fiziki şəxsin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətinə xitam verilməsi barədə müraciəti olduqda.

Səyyar vergi yoxlaması iş günü və vergi ödəyicisinin iş vaxtı ərzində keçirilir.

İnventarizasiya səyyar vergi yoxlaması zamanı aşağıda göstərilən hallarda müvafiq icra hakimiyyəti orqanının əsaslandırılmış qərarı ilə aparılır:

- vergi ödəyicisində sonuncu vergi yoxlaması zamanı vergi ödəyicisi tərəfindən bilərəkdən hesabat sənədlərinin aparılmaması aşkar edildikdə;

- vergi ödəyicisində sonuncu vergi yoxlaması zamanı vergi ödəyicisi tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun olaraq hesabat sənədlərinin aparılmaması aşkar edildikdə və bununla əlaqədar vergi orqanının xəbərdarlığından sonra yol verilmiş dəqiqsizliklər aradan qaldırılmadıqda və hesabat müəyyən edilmiş qaydalara uyğun olaraq aparılmadıqda;

- vergi ödəyicisində səyyar vergi yoxlaması zamanı aksiz markaları ilə markalanmalı olan, ancaq markalanmamış mallar aşkar edildikdə.

Səyyar vergi yoxlaması zamanı inventarizasiyanın aparılması qaydaları AR NK tərəfindən müəyyən edilir.

Səyyar vergi yoxlamasının nəticələri üzrə vergi orqanlarının səlahiyyətli vəzifəli şəxsləri tərəfindən müəyyən edilmiş formada vergi yoxlaması aktı tərtib edilir və həmin şəxslər və yoxlanılan vergi ödəyicisinin rəhbəri (onu əvəz edən şəxs) və ya fərdi sahibkar tərəfindən imzalanır. Vergi ödəyicisi yoxlama aktında öz qeydlərini edə bilər, aktı imzalamaqdan imtina edə bilər və bu barədə həmin aktda müvafiq qeyd aparılır.

Vergi yoxlaması aktında yoxlama zamanı aşkar olunmuş və sənədlərlə təsdiq edilmiş vergi qanunvericiliyinin pozulması halları və həmin pozuntulara görə məsuliyyət nəzərdə tutan VM-in və digər qanunların konkret

maddələri, yaxud vergi qanunvericiliyinin pozulması hallarının olmaması göstərilməlidir.

Vergi yoxlaması aktının forması və onun tərtib edilməsinə dair tələblər AR VN tərəfindən müəyyən edilir.

Vergi yoxlaması aktının bir nüsxəsi vergi ödəyicisinə (onun səlahiyyətli nümayəndəsinə) verilmə tarixini təsdiq edən üsulla aktın tərtib edildiyi tarixdən sonra 5 gündən gec olmayaraq verilir və ya göndərilir.

Vergi ödəyicisi vergi yoxlaması aktı ilə və ya onun hər hansı bir hissəsi ilə razılaşmadıqda, vergi yoxlaması aktının verilməsi günündən 30 gün müddətində müvafiq vergi orqanına aktı imzalamamasının səbəblərini izah edə, yaxud akta və ya onun ayrı-ayrı hissələrinə öz etirazını yazılı surətdə bildirə bilər. Bu halda vergi ödəyicisi yoxlama aktını imzalamamasını və ya etirazını ona öz yazılı izahatını (etirazını) təsdiq edən sənədlərin surətini əlavə edərək vergi orqanına təqdim etməyə hüququ vardır.

Vergi ödəyicisi tərəfindən vergi yoxlaması aktı üzrə yazılı izahatlar və ya etirazlar təqdim edildikdə, yoxlamanın materialları vergi ödəyicisinin vəzifəli şəxslərinin və ya fərdi sahibkarın və (və ya) onların nümayəndələrinin iştirakı ilə baxılır.

Vergi orqanı vergi yoxlamasının materiallarına baxılmanın yeri və vaxtı haqqında vergi ödəyicisinə əvvəlcədən məlumat verir. Vergi ödəyicisi ona əvvəlcədən məlumat verilməsinə baxmayaraq, üzrlü səbəb olmadan gəlməyibsə, yoxlamanın materiallarına, vergi ödəyicisi tərəfindən təqdim edilən etirazlara, izahatlara, digər sənəd və materiallara onun iştirakı olmadan baxılır.

SƏYYAR VERGİ YOXLAMASINDA SƏNƏDLƏRİN VƏ NÜMUNƏ KİMİ ƏŞYALARIN GÖTÜRÜLMƏSİ – səyyar vergi yoxlaması keçirildikdə yoxlamanın predmetinə aid olan və vergilərin hesablanması üçün tələb olunan vergi ödəyicisi tərəfindən təqdim olunan sənədlərin və əşyaların öyrənilməsinə əlavə vaxt tələb olunduğu halda, həmçinin təqdim olunmuş sənədlərdə vergi qanunvericiliyinin pozulması halları müəyyən edildikdə və ya bu pozuntular bilavasitə əşyalarla bağlı olduqda, səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının vəzifəli şəxsi tərəfindən ona təqdim edilmiş sənədlərin və nümunə kimi əşyaların götürülməsi.

SIĞORTA – sığortalının və ya sığorta olunanın əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin, qanunvericiliklə qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan əmlak mənafelərinin müdafiəsi sahəsində riskin ötürülməsinə və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemi. Bu söz latın sözü olan "securitas"dan götürülüb, mənası təhlükəsizlik, əminlik, arxayınlıq deməkdir. Sığorta müxtəlif formalarda ola bilər: əmlakın sığortası, məsuliyyətin sığortası, fərdi sığorta, maliyyə və digər spesifik risklərin sığortası. Sığorta istehsal prosesində maddi itkilərin ödənilməsini təmin edir və normal, fasiləsiz, müntəzəm təkrar istehsalın əsas şərtlərindən hesab edilir. Sığorta könüllü və icbari formalarda həyata keçirilə bilər.

SIĞORTA FƏALİYYƏTİ İLƏ ƏLAQƏDAR XİDMƏTLƏR – sığorta şirkətlərinə göstərilən və onların göstərilməsinə görə ödənilən xərclər sığorta şirkətlərinin xərcləri kimi qəbul olunan xidmətlər. Həmin xidmətlərin nümunəsi kimi aşağıdakıları qeyd etmək olar:

- aktuarilərin xidmətləri;
- həyatın sığortası və tibbi sığorta zamanı tibbi müayinə üzrə xidmətlər;
- sığorta olunma hallarının araşdırılması zamanı detektivin xidmətləri;
- sığorta riskinin, sıgorta dəyərinin, sığorta ödənişinin və s. müəyyən olunması zamanı dəvət olunmuş mütəxəssislərin xidmətləri;
- sığorta sənədlərinin (polislər, blanklar və s.) çapı ilə bağlı mətbəə xidmətləri;
- inkassator xidmətləri və s.

SIĞORTA FƏALİYYƏTİNDƏN GƏLİRLƏRƏ VERGİ – müəyyən dövlətdə qanunvericilikdə nəzərdə tutulmuş qaydada alınmış lisenziya əsasında fəaliyyət göstərən hüquqi şəxslərin, habelə həmin dövlətdə daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən xaricdə təsis olunmuş hüquqi şəxslərin həyata keçirdikləri sığorta fəaliyyətindən əldə olunan gəlirlərin vergiyə cəlb olunması. ARdə sığorta fəaliyyəti ilə məşğul olan şəxslər mütləq qaydada mənfəət vergisinin ödəyicisi olaraq sığorta fəaliyyəti ilə əlaqədar alınan gəlirlərdən müvafiq xərcləri, o cümlədən sığorta xidmətlərinə çəkilən xidmətləri nəzərə almaqla mənfəət vergisini ödəməlidirlər, eyni zamanda sığorta fəaliyyəti maliyyə xidmətlərinə aid edildiyindən ƏDV-ni tətbiq etmirlər.

SIĞORTA HAQLARININ GƏLİRDƏN ÇIXILMASI – öz işçilərinin xeyrinə əmlakın zərərdən sığortalanması, habelə xarici sığorta təşkilatları ilə bağlanmış həyat sığortası müqavilələri üzrə sığorta haqları istisna olmaqla, sığortalının ödədiyi sığorta haqlarının gəlirdən çıxılması.

SIĞORTA TƏŞKİLATI – sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan təşkilat.

SİMOND DE SİSMONDİ JAN ŞARL LEONARD (1773 - 1842) – isveçrəli iqtisadçı və tarixçi, siyasi iqtisadın banilərindən biri. Fransa, Böyük Britaniya, İtaliyada yaşayan Sismondi 1798-ci ildə İsveçrəyə qayıtmışdır. 1833-cü ildən Fransa Mənəvi və Siyasi Elmlər Akademiyasının üzvü olmuşdur..



J.Sismondi özünün "Siyasi iqtisadın yeni başlanğıcı" adlı əsərində vergi nəzəriyyəsini "həzz nəzəriyyəsi" adlandırmışdır. O, vergiyə insanların cəmiyyətdən aldığı zövq və həzzin qiyməti kimi yanaşır. Vergilərin köməyi ilə vətəndaşlar ictimai qaydalardan alınan zövq, ədalət, şəxsiyyətin və mülkiyyətin qorunmasından əlavə heç nə almır. Beləliklə, Sismondi öz nəzəriyyəsini əsaslan- dırmaqla mübadilə nəzəriyyəsini özünəməxsus şəkildə təqdim etmişdir.

SİNTETİK UÇOT – əmlak növləri, öhdəliklər və müəyyən iqtisadi əlamətlər üzrə təsərrüfat əməliyyatları barədə ümumiləşdirilmiş məlumatların mühasibat uçotunun sintetik hesablarında əks etdirilməsi.

SOLOU ROBERT MERTON (1924) – yəhudi əsilli Amerika iqtisadçısı. Nyu-Yorkda anadan olmuşdur. 1940-cı ildə Harvard Universitetinə daxil olmuş, təhsilini bitirdikdən sonra burada Nobel laureatı V.Leontiyevin rəhbərliyi ilə assisent kimi çalışmışdır. 1951-ci ildə Kolumbiya Universitetində doktor elmi dərəcəsi almışdır. Hazırda Massaçuets Texnoloji Universitetinin professorudur.



1987-ci ildə Robert Solou "iqtisadi artım nəzəriyyəsində fundamental tədqiqatlarına görə" Nobel mükafatına layiq görülmüşdür.

SONRAKI REALLAŞMANIN QİYMƏT METODU – malların (işlərin, xidmətlərin) bazar qiymətinin həmin malların (işlərin, xidmətlərin) sonrakı (təkrar) satış qiymətinə əsasən müəyyən edilməsi.

SOSİAL VERGİ ÇIXILMALARI – gəlirin müəyyən hissəsinin müxtəlif xeyriyyə və sosial tədbirlərə yönəldilməsi zamanı vergitutma bazasının azaldılması.

SOSİAL-MƏDƏNİ SFERANIN OBYEKTLƏRİ – sosial-mədəni sferanın məqsədləri üçün istifadə olunan obyektlər.

SOYURQAL – orta əsrlərdə hərbi xidmət müqabilində feodal əyanlara bağışlanan torpaq sahəsi, mülk. İran, İraq, Azərbaycan və s. ölkələrdə geniş yayılmışdı.

SPESİFİK DƏRƏCƏ – gəlir və ya mənfəətin həcmindən asılı olmayaraq vergitutma vahidinə mütləq qiymətlərlə təyin olunur. Məsələn, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, ölkədə istehsal olunan bir litr içməli spirtə 0,8 manat aksiz hesablanır.

SPESİFİK SUBSİDİYA – konkret istehsalçıya və (ya) ixracatçıya, konkret ixracatçı birliyinə, iqtisadiyyatın konkret sahəsinə, ixracın stimullaşdırılmasına yönələn, yaxud malın idxalının əvəzlənməsi məqsədilə verilən subsidiya.

SPİRTLİ İÇKİLƏR – tərkibində müəyyən faiz nisbətində spirt olan içkilər.

STANDART BEYNƏLXALQ TİCARƏT TƏSNİFATI (STANDARD INTERNATIONAL TRADE CLASSIFICATION) – SITS adlandırılan bu təsnifat müxtəlif ölkələrin müxtəlif illərdəki məlumatlarını müqayisə etmək məqsədilə ixrac və idxalın BMT tərəfindən aparılan təsnifatıdır.

STANDART VERGİ ÇIXILMALARI – vergitutma bazasının azaldılmasına yönəldilmiş güzəşt.

STATİSTİK RÜSUMLAR – sərhəddən malların keçirilməsi zamanı xarici ticarət sahəsində əməliyyatların uçotunun aparılmasına çəkilən müvafiq inzibati xərclərin kompensasiya olunması məqsədilə bəzi dövlətlərdə alınan gömrük rüsumları.

STİFTONQ – Lixtenşteyndə beynəlxalq trasta oxşar formada hüquqi şəxs kimi təsis olunmuş fond. Beynəlxalq vergi planlaşdırmasında təsisçinin aktivlərinin qorunması üçün istifadə edilir.

STİQLİS COZEF YUCİN (1943) – Amerika iqtisadçısı. Massaçusets Texnoloji İnstitutunda təhsil almış və elə orada da doktor dərəcəsinə layiq görülmüşdür. Kolumbiya Universitetinin professoru, üzvləri iqtisadçılar və siyasətçilərdən ibarət "Siyasi dialoq naminə" elmi cəmiyyətinin sədridir. 2001-ci ildə qeyri-simmetrik bazarların təhlilinə görə Nobel mükafatına layiq görülmüşdür.



C.Stiqlis Beynəlxalq Valyuta Fondunun inkişaf etməkdə olan ölkələrdəki istisadi siyasətinin sərt tənqidçilərindəndir. Onun bir çox fikirləri öz elmi orijinallığı ilə seçilir. O, hesab edir ki, SSRİ dağıldıqdan sonra BVF-nin tövsiyələr vermək üçün keçmiş sovet respublikalarına ezam olunmuş əməkdaşları şəxsi mənafeləri üçün çalışırlar və tövsiyələri də dünya bazarının inkişafına xidmət etmir. O, Fond tərəfindən hər bir dövlətə münasibətdə eyni ssenarinin tətbiqinin əleyhinə çıxır. Vahid siyasət əvəzinə müxtəlif zaman kəsiyində müxtəlif ictimai-siyasi ukladlı quruluşlara münasibətdə fərdi siyasətin işlənib hazırlanmasının vacibliyini vurğulayır.

SU OBYEKTLƏRİNDƏN İSTİFADƏYƏ GÖRƏ ÖDƏMƏ – Su obyektlərinin və onların su ehtiyatlarının istifadə edilməsi və mühafizəsi ilə bağlı münasibətlər AR-in Su qanunvericiliyi ilə tənzimlənir. Sudan pullu istifadə (su obyektlərindən istifadəyə görə ödəmə) qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnaməyə uyğun olaraq müəyyən edilir. Sudan istifadə haqqı (su obyektlərindən istifadəyə görə ödəmə) onun keyfiyyətindən, istifadəyə görə təyinatından (içməli su, texniki su, suvarma suyu və s.), su təsərrüfatı obyektlərinin texniki səviyyəsindən, suyun götürülmə və nəqledilmə üsullarından və istehsal xərclərinin həcminə təsir edən digər amillərdən asılı olaraq ayrı-ayrı su təsərrüfatı sistemləri üzrə diferensiallaşdırılır.

SUBAYLIQ VERGİSİ – SSRİ Ali Soveti Rəyasət Heyətinin 1941-ci il 21 noyabr tarixli fərmanı ilə subaylara, tək və az ailəli vətəndaşlara vergi qoyuldu.

Oxşar vergi Monqolustanda da tətbiq edildi. Həmin dövrdə bu cür vergi dünyanın heç bir yerində yox idi. Lakin vergilərin tarixindən məlumdur ki, müxtəlif ölkələrdə, əsasən, demoqrafik vəziyyətin yaxşılaşdırılması məqsədilə bu cür vergilərdən istifadə edilmişdir.

Məsələn, qədim Sparta dövlətində ailədə uşaqların sayı artdıqca vergi məbləği azaldılırdı; beş uşağı olan ata vergilərdən tamamilə azad edilirdi. Osmanlı İmperiyasında evli və subay şəxslərin ödəyəcəyi vergilər tamamilə fərqli qaydalarla hesablanırdı. Subay

şəxslərdən rəsmi-mücərrəd, evli şəxslərdən rəsmi-bennak alınırdı.

Türkiyədə 1560-cı ildə qəbul olunmuş Malatya Qanunnaməsinə görə yalnız ayrı yaşayan subay şəxs vergi ödəməliydi, atasının himayəsində yaşayanlar isə vergidən azad edilmişdi.

XVIII əsrin ortalarında ABŞ-ın Merilend ştatında yaşı 25-i keçmiş və evlənməmiş kişilər varidatlarına görə 5 şillinqdən 20 şillinqə qədər vergi ödəyirdilər.

1789-1794-cü illərin Fransa inqilabı dövründə qanunverici orqan olan Konventin qərarına görə, subaylar evlilərdən iki dəfə artıq vergi verirdilər. İtaliyada Mussolini dövründə "əsaslandırılmamış subaylığa görə" vergi alınırdı.

SUBSİDİYA – hüquqi və fiziki şəxslərə, yerli hakimiyyət orqanlarına (yerli özünüidarəetmə orqanları) və başqa dövlətlərə verilən maliyyə yardımı. Latın dilində "subsidium" – kömək, dəstək deməkdir. AR "Büdcə sistemi haqqında" 2 iyul 2002-ci il tarixli 358 nömrəli Qanununun 1.1.17-ci maddəsinə əsasən subsidiya dövlət büdcəsindən Naxçıvan MR büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə əvəzsiz verilən maliyyə vəsaitidir. İstehsal və idxala subsidiyalar müəssisələrin cari istehsal fəaliyyəti ilə əlaqədar olaraq dövlət tərəfindən verilən və qaytarılmayan cari ödəmələridir. Kapital transferlərinə aid edilən əsas kapitalın yığımını maliyyələşdirmək üçün müəyyən edilən investisiya xarakterli subsidiyalar (qrantlar) da buraya daxildir. Məhsula görə subsidiyalar adətən rezidentlər tərəfindən istehsal edilən, satılan və ya idxal edilən məhsul və xidmətlərin miqdarına və ya dəyərinə proporsional olaraq ödənilən subsidiyalardır. Müəssisələrin istehsal etdiyi məhsulun satış qiymətinin orta istehsal xərclərindən aşağı təyin edilməsi nəticəsində baş verən daimi zərərlərə görə dövlət büdcəsindən müntəzəm ödəmələr, ixrac və idxal subsidiyaları və s. aiddir.

SUBVENSİYA – dövlət tərəfindən yerli hakimiyyət orqanlarına (yerli özünüidarəetmə orqanlarına) pul vəsaitlərinin verilməsi növü. Latın dilində "subvenire" – köməyə gəlmək deməkdir. AR-in "Büdcə sistemi haqqında" 2 iyul 2002-ci il tarixli 358 nömrəli Qanununa əsasən (maddə 1.1.16) subvensiya məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan MR-in büdcəsinə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaitidir. Subsidiyadan fərqli olaraq, subvensiya müəyyən tədbirin maliyyələşdirilməsi üçün verilir və verilən vəsait məqsədəuyğun istifadə edilmədikdə qaytarılmalıdır. Subvensiyalar yerli özünüidarəetmə orqanlarına, onların mərkəz tərəfindən bəyənilmiş təşəbbüslərinə əsasən, həyata keçirilən müəyyən proqramların və ya layihələrin maliyyələşdirilməsi məqsədilə verilir.

Ş

ŞAQULİ ƏDALƏTLİLİK PRİNSİPİ - daha çox vergi ödəmək qabiliyyətinə malik vergi ödəyicilərinin daha böyük məbləğ ödəməli olduqlarını nəzərdə tutan prinsip.

ŞEDULYAR GƏLİR VERGİSİ - müxtəlif mənbələrdən əldə edilən gəlirlər bir-birindən asılı olmayaraq ayrıca vergiyə cəlb edilir. Belə vergi növü Fransa, Belçika və İtaliyada XX əsrin 60-cı illərinə qədər tətbiq edilmişdir. Müasir dövrdə, demək olar ki, heç yerdə tətbiq edilmir.

ŞƏHADƏTNAMƏ - müəyyən məqsəd üçün vətəndaşın uçota alınmasını təsdiq edən unikal qeydiyyat nömrəsi olan sənəd.

ŞƏHADƏTNAMƏ-DUBLİKAT - Şəhadətnamə-dublikat bank idarəsində hesab açmaq üçün vergi ödəyicisinin ərizəsinə əsasən vergi orqanı tərəfindən sayı məhdudlaşdırılmadan verilir. Banklar hüquqi şəxslərə, onların filial və nümayəndəliklərinə, fərdi sahibkarlara yalnız onlar vergi orqanı tərəfindən verilən şəhadətnamə-dublikatını təqdim etdikdən sonra bank hesabları açırlar.

ŞƏXS - fiziki və ya hüquqi şəxs, qeyri-rezidentin daimi nümayəndəliyi, filialı və digər bölməsi.

ŞƏXSİ ƏMLAKA GÖRƏ VERGİ - əmlak vergisinin növlərindən biri. Bəzi Avropa ölkələrində (Avstriya, Danimarka, İrlandiya, İspaniya, Niderland, Norveç, Finlandiya, İsveçrə, İsveç) və Hindistanda tətbiq edilir. Şəxsi əmlaka görə vergi müxtəlif növ xüsusi mülkiyyətdən (o cümlədən qiymətli kağızlardan) xalis gəlirlərə görə tutulan yerli vergidir. Əmlakın dəyəri bazar qiyməti ilə hesablanır. Verginin hesablanmasında avtomobillər və başqa nəqliyyat vasitələri, mebel, ev əşyaları, sığorta vəsiqəsi, müəlliflik hüququ, incəsənət əsərləri, annuitetlər, kitab və marka kolleksiyaları nəzərə alınmır.

ŞƏRTİ GƏLİR - gəlirin əldə olunmasına təsir edən məcmu amillər nəzərə alınmaqla hesablanan vahid vergi ödəyicilərinin mümkün potensial gəlirləri. Bu anlayış RF-nin Vergi Məcəlləsində müəyyən olunmuş və təyin edilmiş gəlirdən vahid verginin (TEGVV) hesablanmasında istifadə olunur (RF-nin Vergi Məcəlləsi, maddə 346.27).

ŞİKAYƏT - hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə maraqlı şəxsin inzibati aktdan, inzibati aktın qəbul edilməsindən imtinadan və yaxud inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən subordinasiya baxımından yuxarı inzibati orqana yazılı müraciəti; dövlət orqanına, idarəsinə, təşkilatına və müəssisəsinə pozulmuş hüququn bərpası tələbi barədə müraciət.

ŞİR-BAHA - Elxanilər dövlətində yığılan vergilərdən biri. Mülkədarların, torpaq sahiblərinin, onların övladlarının toyu üçün yığılırmış. "Şir-baha" fars dilində "süd pulu" deməkdir; görünür, verginin adının uyğunsuzluğu dərhal nəzərə çarpdığından onu sonralar "toypulu" adlandırmışlar.

ŞİRKƏT - iqtisadi fəaliyyətlə məşğul olan, hüquqi şəxs statusuna malik kommersiya təşkilatı. Şirkətin tərkibinə müxtəlif müəssisələr daxil ola bilər.

ŞUMPETER YOZEF ALOİZ (1883-1950) – Amerikalı iqtisadçı. Avstriyada anadan olmuşdur. 1901-1906-cı illərdə Vyana Universitetində təhsil almışdır. 1919-1920-ci illərdə



Avstriyanın maliyyə naziri, Reyn və Harvard Universitetlərinin professoru, İqtisadi Cəmiyyətin prezidenti (1940-1941), 1948-ci ildə Amerika İqtisadçılar Assosiasiyasının prezidenti olmuşdur. O, artım konyunkturası problemlərini, iqtisadi təlimlər tarixini və iqtisadi sistemləri tədqiq etmişdir. İqtisadi dinamika və tsikllər konsepsiyası ona məxsusdur və burada sahibkarlıq funksiyası mərkəzi yer tutur. Tədqiqatlar nəticəsində Şumpeter belə bir nəticəyə gəlmişdir ki, xüsusi sahibkarlıq kapitalizminin dövlətin tənzimlədiyi iqtisadi inkişaf sisteminə transformasiya olunması labüddür. 1986-cı ildə alimin şərəfinə "Yozef Şumpeterin beynəlxalq cəmiyyəti", 2001-ci ildə Berlində Y.Şumpeter İnstitutu yaradılmışdır.

ŞÜBHƏLİ BORC - müqavilə ilə müəyyən edilmiş müddətdə ödənilməyən və müvafiq təminatı olmayan debitor borc.

ŞÜBHƏLİ BORCLARA GÖRƏ EHTİYAT - müqavilə ilə müəyyən edilmiş müddətdə ödənilməyən və müvafiq təminatı olmayan şübhəli debitor borclar üzrə yarana biləcək zərərlərin qarşısının alınması məqsədi ilə yaradılan ehtiyat kapital.

T

TAĞAR – bəzi Şərq ölkələrində istifadə olunan çəki ölçü vahidi. Azərbaycanda XIV-XVIII əsrlərdə Elxanilər və xanlıqlar dövrlərində daha çox tətbiq olunmuşdur. Həmin dövrlərdə tağarbaşı adlanan vergilər də ödənilmişdir. Tağar dəqiq ölçü hesab edilmir. Müxtəlif ərazilərdə 240 kq-dan 600 kq-a qədər dəyişdiyi məlumdur; məsələn, Təbrizdə təqribən 295 kq, Şamaxıda 400 kq-a yaxın olmuşdur.

TAM ORTAQLIQ – iştirakçıları (tam ortaqları) nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olan və ortaqlığın öhdəlikləri üzrə onlara mənsub əmlakla məsuliyyət daşıyan hüquqi şəxs. AR MM-ə görə şəxs yalnız bir tam ortaqlığın iştirakçısı ola bilər (maddə 69.2); tam ortaqlığın firma adına onun bütün iştirakçılarının adları və «tam ortaqlıq» sözləri daxil edilməli və ya «və ortaqları» və «tam ortaqlıq» sözləri əlavə edilməklə bir və ya bir neçə iştirakçının adı daxil edilməlidir (maddə 69.3). Tam ortaqlığın fəaliyyəti bütün iştirakçıların ümumi razılığı ilə idarə edilir. Tam ortaqlığın nizamnaməsində qərarın iştirakçıların səs çoxluğu ilə qəbul olunduğu hallar nəzərdə tutula bilər. Nizamnamədə tam ortaqlıq iştirakçılarının səslərinin sayını müəyyənləşdirməyin başqa qaydası nəzərdə tutulmayıbsa, tam ortaqlığın hər iştirakçısının bir səsi vardır. Ortaqlığın hər bir iştirakçısı ortaqlığın işlərini aparmağa vəkil edilib-edilmədiyindən asılı olmayaraq, işlərin aparılmasına dair bütün sənədlərlə tanış ola bilər. Bu hüquqdan imtina və ya onun məhdudlaşdırılması, o cümlədən ortaqlıq iştirakçılarının razılaşması üzrə imtina və ya məhdudlaşdırma əhəmiyyətsizdir.

Əgər tam ortaqlığın nizamnaməsində onun bütün iştirakçılarının işləri birlikdə aparması və ya işlərin aparılmasının ayrı-ayrı iştirakçılara tapşırılması müəyyənləşdirilməyibsə, tam ortaqlığın hər bir iştirakçısı ortaqlıq adından fəaliyyət göstərə bilər. Ortaqlığın iştirakçıları onun işlərini birlikdə apararkən hər bir əqdin bağlanması üçün ortaqlığın bütün iştirakçılarının razılığı tələb edilir. Ortaqlığın iştirakçıları onun işlərinin aparılmasını iştirakçıların birinə və ya bəzilərinə tapşırarlarsa, qalan iştirakçılar ortaqlıq adından əqdlər bağlamaq üçün ortaqlığın işlərinin aparılmasının tapşırıldığı iştirakçıdan (iştirakçılardan) etibarnamə almalıdırlar. Üçüncü şəxslərlə münasibətlərdə ortaqlıq onun iştirakçılarının səlahiyyətlərini məhdudlaşdıran nizamnamə müddəalarına istinad edə bilməz, amma əqdin bağlandığı vaxt ortaqlıq iştirakçısının ortaqlıq adından fəaliyyət göstərmək hüququ olmadığını üçüncü şəxsin bildiyini və ya bilməli olduğunu ortaqlığın sübuta yetirdiyi hallar istisna təşkil edir. Ortaqlığın işlərinin aparılması üzrə bir və ya bir neçə iştirakçıya verilmiş səlahiyyətlərə məhkəmə ciddi əsaslar olduqda, o cümlədən vəkil edilmiş şəxs (şəxslər) öz vəzifələrini kobud-

casına pozduqda və ya onun işləri ağılla aparmağa qadir olmadığı aşkara çıxdıqda ortaqlığın bir və ya bir neçə digər iştirakçısının tələbi ilə xitam verə bilər. Məhkəmə qərarına əsasən ortaqlığın nizamnaməsində müvafiq dəyişikliklər edilir (AR MM, maddə 72).

Tam ortaqlıq iştirakçısının aşağıdakı vəzifələri vardır (AR MM, maddə 73):

- tam ortaqlığın iştirakçısı nizamnamənin şərtlərinə uyğun olaraq ortaqlığın fəaliyyətində iştirak etməyə borcludur;

- tam ortaqlığın iştirakçısı ortaqlıq qeydə alınanadək onun şərikli kapitalına maya qoymağa borcludur;

- tam ortaqlıq iştirakçısının ixtiyarı yoxdur ki, qalan iştirakçıların razılığı olmadan öz adından öz mənafeləri və ya üçüncü şəxslərin mənafeləri üçün ortaqlığın fəaliyyət predmetini təşkil edən əqdlərlə eyni xarakterli əqdlər bağlasın;

- bu qayda pozulduqda ortaqlıq öz mülahizəsi ilə həmin iştirakçıdan ortaqlığa vurulmuş zərərin əvəzini ödəməyi və ya bu cür əqdlər üzrə əldə etdiyi bütün faydanı ortaqlığa verməyi tələb edə bilər.

Tam ortaqlığın mənfəəti və zərəri, əgər nizamnamədə və ya iştirakçıların digər razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, onun iştirakçıları arasında onların şərikli kapitaldakı paylarına mütənasib surətdə bölüşdürülür. Ortaqlıq iştirakçısının mənfəət və zərərdə iştirakdan kənar edilməsi barədə razılaşma əhəmiyyətsizdir. Ortaqlığın düşdüyü zərər nəticəsində onun xalis aktivlərinin dəyəri şərikli kapitalının miqdarından az olarsa, ortaqlığın götürdüyü mənfəət xalis aktivlərin dəyəri artıb şərikli kapitalın miqdarını ötənədək onun iştirakçıları arasında bölüşdürülmür (AR MM, maddə 74).

Tam ortaqlığın iştirakçıları ortaqlığın öhdəlikləri üzrə özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyırlar. Tam ortaqlığın təsisçisi olmayan iştirakçısı onun ortaqlığa daxil olmasından əvvəl əmələ gəlmiş öhdəliklər üzrə digər iştirakçılarla bərabər məsuliyyət daşıyır. Ortaqlıqdan çıxmış iştirakçı ortaqlığın onun çıxdığı anadək əmələ gəlmiş öhdəlikləri üzrə ortaqlığın onun çıxdığı il üçün fəaliyyəti barəsində hesabatın təsdiq edildiyi gündən iki il ərzində qalan iştirakçılarla bərabər məsuliyyət daşıyır. Bu maddədə nəzərdə tutulan məsuliyyətin məhdudlaşdırılması və ya aradan qaldırılması haqqında ortaqlıq iştirakçılarının razılaşması əhəmiyyətsizdir (AR MM, maddə 75).

Tam ortaqlığın hər hansı iştirakçısı ortaqlıqdan çıxdıqda və ya öldükdə, iştirakçılardan biri xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli və ya müflis sayıldıqda, məhkəmənin qərarına əsasən iştirakçılardan biri barəsində yenidən təşkil prosedurlarına başlandıqda, ortaqlıqda iştirak edən hüquqi şəxs ləğv olunduqda və ya iştirakçılardan birinin kreditoru tərəfindən tutma onun şərikli kapitaldakı payına uyğun əmlak hissəsinə yönəldildikdə ortaqlıq öz fəaliyyətini, əgər bu, ortaqlığın nizamnaməsində və ya qalan iştirakçıların razılaşmasında nəzərdə tutulubsa, davam etdirə bilər.

Tam ortaqlıq iştirakçılarının ixtiyarı var ki, iştirakçılardan hər hansı birinin məhkəmə qaydasında ortaqlıqdan çıxarılmasını qalan iştirakçıların yekdil qərarı ilə və bunun üçün ciddi əsaslar olduqda, məsələn, həmin iştirakçı öz vəzifələrini kobudcasına pozduqda və ya onun işləri ağılla aparmağa qadir olmadığı aşkara çıxdıqda, tələb etsinlər (AR MM, maddə 76).

TAMĞA – orta əsrlərdə tacirlərdən və sənətkarlardan yığılan vergi. İndiki anlamda gömrük rüsumudur. Tamğanın iki mənası var: damğa (yəni möhür) və mal aparılması üçün rüsum. Rus dilində indi də istifadə olunan tamojnya sözü tamğadan götürülüb.

TARXAN – feodal rus dövlətində xüsusi imtiyazlara sahib olan və vergi ödəməyən mülk sahibləri. Eyni zamanda belə hüquq verən sənəd də tarxan adlanırdı. Qədim türk dilində vergi və mükəlləfiyyətdən azad olunmuş rəiyyətə "tarxan" deyirdilər. Tatar-monqol dövləti tərəfindən tətbiq olunmuş güzəştdir. Ərəbcə "tarxan" əvəzinə "məaf" sözü işlədilirdi. Rəiyyət tarxanlığı sayəsində qısa müddət ərzində varlanır, ağa, bəy olurdu. Orta Asiyada, Qazan, Həştərxan və Krım xanlıqlarında feodal "tarxan" adlanmışdır.

TANTYEMA – səhmdar cəmiyyətlərinin, bankların, sığorta şirkətlərinin direktorlarına və vəzifəli işçilərinə mənfəətin müəyyən faizi qədər ödənilən mükafat. Bu termin fransız dilində işlədilən və "hissə" mənasını bildirən "tantieme" sözündən götürülmüşdür.

TARİF – dövlət və qeyri-dövlət orqanları və təşkilatları tərəfindən müəssisələrə, təşkilatlara, idarələrə və fiziki şəxslərə təqdim edilən müxtəlif istehsal və qeyri-istehsal xidmətləri üçün ödəniş dərəcələri sistemi. Bu sistemə nəqliyyat tarifləri, rabitə tarifləri, kommunal-məişət təsərrüfatlarının xidmətləri tarifləri, gömrük tarifləri, sığorta tarifləri və digər tariflər daxildir. Tariflərə, eyni zamanda, əməyin ödənilməsi dərəcələri də aid edilir.

TARİF GÜZƏŞTLƏRİ – ölkənin ticarət siyasəti həyata keçirilərkən qarşılıqlı və ya birtərəfli qaydada həmin ölkənin gömrük sərhədindən keçirilən mallar üzrə əvvəl ödənilmiş rüsumun qaytarılması, rüsum ödənişindən azadetmə, rüsum dərəcələrinin aşağı salınması, malın preferensial gətirilməsi (çıxarılması) üçün tarif kvotaları şəklində verilən güzəştlər. Gömrük güzəştlərinin verilməsi qaydası AR NK tərəfindən müəyyən edilir.

Gömrük rüsumlarından aşağıdakılar azad edilirlər:

- yüklərin, baqajın və sərnişinlərin beynəlxalq daşımalarını həyata keçirən nəqliyyat vasitələri, habelə onların yolboyu, dayanacaqlararası məntəqələrdə normal istismarı üçün lazım olan və ya həmin nəqliyyat vasitələrinin qəzasının (sınmasının) nəticələrini aradan qaldırmaq məqsədi ilə xaricdən alınmış maddi-texniki təchizat və tədarük malları, yanacaq, ərzaq və digər əmlak;

- dənizdə balıq ovlayan AR gəmilərinin və AR-in hüquqi və fiziki şəxsləri tərəfindən icarəyə (fraxta) götürülmüş gəmilərin fəaliyyətini təmin etmək məqsədilə AR-in gömrük ərazisindən çıxarılan maddi-texniki

təchizat və tədarük malları, yanacaq, ərzaq və başqa əmlak, habelə həmin gəmilərdə AR-in gömrük ərazisinə gətirilən vətəgəçilik məhsulları;

- rəsmi, yaxud şəxsi istifadə üçün xarici ölkələrin nümayəndələri tərəfindən və ya AR-in beynəlxalq müqavilələrinə və AR qanunvericiliyinə müvafiq surətdə bu cür malları rüsumsuz gətirmək və rüsumsuz çıxartmaq hüququna malik olan fiziki şəxslər tərəfindən AR-in gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallar;

- AR-in qanunvericiliyinə uyğun olaraq, gömrük sərhədi ərazisindən çıxarılan AR-in valyutası və bu əraziyə gətirilən xarici valyutalar (numizmatika məqsədi ilə istifadə olunanlardan başqa), qiymətli kağızlar;

- AR qanunvericiliyində nəzərdə tutulmuş hallarda dövlətin mülkiyyətinə keçirilməli olan mallar;

- qəza və dağıntıların, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması məqsədi ilə və ya humanitar yardım kimi AR-in gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallar, o cümlədən məktəblər, məktəbəqədər müəssisələr və müalicə ocaqları üçün pulsuz dərs vəsaitləri;

- texniki yardım da daxil olmaqla təmənnasız yardım və xeyriyyə məqsədi ilə dövlətlərin, hökumətlərin və beynəlxalq təşkilatların xətti ilə AR-in gömrük ərazisinə gətirilən və ya bu ərazidən çıxarılan mallar, habelə qrant haqqında müqaviləyə və ya qərara əsasən qrant kimi alınan pul və (və ya) digər maddi yardımlar;

- üçüncü ölkələr üçün nəzərdə tutulmuş və AR-in gömrük ərazisindən tranzit rejimi ilə gömrük nəzarəti altında keçən mallar;

- AR GM-ə uyğun olaraq, AR-in gömrük ərazisindən fiziki şəxslər tərəfindən istehsal və kommersiya təyinatı olmayan və yalnız şəxsi istifadə üçün çıxarılan mallar;

- AR-in ərazisinə qaytarılan milli mədəniyyət sərvətləri;

- yığma komandaların hazırlığı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən ölkəyə gətirilən idman avadanlığı, texnikası və malları;

- kütləvi informasiya vasitələri – kütləvi informasiya vasitələri məhsullarının ixracına, habelə fəaliyyətinin təşkili üçün idxal etdikləri avadanlıq, zəruri xammal və digər vasitələrə görə.

- əməkçi miqrantın qazandığı vəsaitin və bu vəsaitlə əldə etdiyi əşyaların, məişət avadanlıqlarının, həmçinin əmək fəaliyyəti üçün zəruri olan alətlərin, əməkçi miqrant əmək fəaliyyətinə başladıqda və əmək fəaliyyəti sona çatdıqda AR-ə gətirilməsi və AR-dən çıxarılmasına görə rüsum ödənilmir.

TARİFLƏR VƏ TİCARƏT HAQQINDA SAZİŞ – 1947-ci ildə BMT Ticarət və Məşğulluq Konfransının iclası zamanı imzalanmış və 153 ölkə arasında beynəlxalq ticarətin əsasını müəyyən etmiş saziş. 1993-cü ilədək beynəlxalq təşkilat kimi fəaliyyət göstərmiş və 1993-cü ilin 15 dekabr tarixində keçirilən Uruqvay danışıqlarından sonra ÜTT adı ilə fəaliyyət göstərməyə başlamışdır.

TEXNİKİ TƏCHİZATIN YENİLƏŞDİRİLMƏSİ – tikintinin, genişləndirmənin, yenidənqurmanın və


təchizat vasitələrinin texniki cəhətdən yenilənməsi, təzələnməsi.

TƏBİİ RESURSLARDAN İSTİFADƏYƏ GÖRƏ ÖDƏMƏLƏR – bax: *Yerin təkindən istifadəyə görə ödəmələr.*

TƏXİRƏ SALINMIŞ VERGİ – ödəmə müddəti uzadılan vergi.

TƏKALİFİ-ŞƏRİYYƏ – İslam dininə görə şəriətdə nəzərdə tutulan vergilər. Əsas növləri zəkat, üşr, cizyə və xərac hesab olunur, lakin müxtəlif müsəlman ölkələrində bu verginin 80-ə qədər növü var.

TƏKALİFİ-ÜRFİYYƏ – müsəlman ölkələrində dövlətin həm daimi, həm də fövqəladə məsrəfləri üçün toplanan vergilər. Ərəb dilində ürf – adət, ənənə, təyinetmə, qiymətləndirmə deməkdir. Ürfi vergilər dedikdə şəriətə aid olmayan vergilər başa düşülməməlidir, çünki dinə aid edilməyən vergilər də İslam hüququna aid ola bilər. İslamiyyət dövlət başçısına, lazım gəldikdə, əlavə vergilər qoymaq səlahiyyəti verir. Əhalinin imkanlarına görə tutulan təkalifi-ürfiyyə iki cür olur: a) təkalifi-adiyyə; b) təkalifi-şakka. Bunlardan birincisi şəriət baxımından alınması uyğun olan ürfi vergilərdir; ikincisi isə şəriət qanunlarına uyğun olmayanlardır. Müharibə dövründə ürfi vergilərin sayı və dərəcəsi, bir qayda olaraq, artırılırdı. Müxtəlif ölkələrdə yalnız həmin ölkə əhalisinə aid olan tamamilə yeni vergi növləri tətbiq olunurdu. Məsələn, XVI əsrin əvvəllərində Türkiyədə "İmdadiyyeyi-səfəriyyə" adı ilə heç bir yerdə olmayan bir ürfi vergi ödənilirdi. Elxanilər hökmdarı Ulcaytunun Bakı şəhərindəki Cümə məscidində aşkara çıxarılmış fərmanında əhalinin ürfi vergilərdən azad edilməsi göstərilir.



Güney Azərbaycanın Sultaniyyə şəhərində yerləşən Ulcaytu xudabəndə türbəsi

TƏKRAR EKSPERTİZA – əvvəl keçirilmiş ekspertiza nəticəsində tərtib edilmiş ekspertin rəyinin əsaslı olmadığı və onun düzgün olmasında şübhələrin olduğu hallarda təyin edilən ekspertiza.

TƏKRAR İXRAC ZAMANI AKSİZİN QAYTARILMASI – sonradan təkrar ixrac məqsədi ilə idxal olunan mallar üçün aksiz, malların idxalı vaxtı ödənilir və sonradan təkrar ixracın faktiki həcminə müvafiq məbləğdə aksizi almış gömrük orqanları tərəfindən 15 gün ərzində geri qaytarılır.

TƏLƏB HÜQUQUNUN BAŞQASINA KEÇMƏSİ – qanunvericiliyə uyğun olaraq üzərinə götürülmüş öhdəlik əsasında tələb hüququnun bir şəxsdən digər şəxsə keçməsi.

TƏMİNATLI TƏMİR VƏ XİDMƏTƏ GÖRƏ EHTİYAT – vergi ödəyicisi tərəfindən mənfəət vergisi

üzrə yaradılan ehtiyat. Belə ehtiyatların yaradılması xərcləri istehsal və satış fəaliyyəti ilə əlaqədar olan digər xərclərə aid edilir. Malların təqdim edilməsi ilə məşğul olan vergi ödəyicilərinin təqdim etdikləri mallara görə zəmanətli təmir və xidmət göstərilməsi məqsədilə ehtiyat fondları yaratmaq hüququ var.

TƏMİRLƏ BAĞLI XƏRCLƏRİN GƏLİRDƏN ÇIXILMASI – hər il üçün gəlirdən çıxılmalı olan təmir xərclərinin məbləği əsas vəsaitlərin hər bir kateqoriyasının əvvəlki ilin sonuna qalıq dəyərinə müvafiq olaraq VM-də müəyyən edilən əsas vəsaitlərin müxtəlif kateqoriyaları üzrə ilin sonuna qalıq dəyərinin müvafiq faiz həddi ilə məhdudlaşdırılan hissəsi.

TƏRCÜMƏÇİ – yazılı və şifahi mətni müəyyən dildən başqa dilə tərcümə edən mütəxəssis. AR Vergi Məcəlləsinin 46-cı maddəsinin müddəalarına əsasən, səyyar vergi yoxlamasının keçirilməsi zamanı zəruri hallarda tərcüməçi dəvət oluna bilər. Tərcüməçinin dəvət olunması vergi orqanının rəhbərinin (onun müavininin) qərarı əsasında həyata keçirilir. Tərcüməçi tərcümə üçün lazım olan dili bilən, işin nəticələrində marağı olmayan şəxs olmalıdır. Bu, həmçinin, eşitməyən və danışmayan fiziki şəxsin işarələrini başa düşən şəxsə də aiddir. Tərcüməçi müqavilə əsasında dəvət olunur. Müqavilədə tərəflərin hüquq və vəzifələri, bilərəkdən yalan tərcüməyə görə tərcüməçinin məsuliyyəti və mülki qanunvericiliyə müvafiq olaraq digər məsələlər müəyyən edilə bilər.

TƏŞKİLAT – konkret şəxsin rəhbərliyi altında konkret vəzifəni həyata keçirən və birgə fəaliyyət göstərən insanlar qrupu.

TƏŞKİLATDA PAY ŞƏRİKLİYİNDƏN GƏLİRLƏR – payçı və şərikli müəssisələrin (kommandit ortaqlıqların) fəaliyyətində payçı kimi iştirakdan əldə edilən gəlirlər.

TƏŞKİLATIN MƏNFƏƏT VERGİSİ – bax: *Hüquqi şəxslərin mənfəət vergisi.*

TƏŞKİLATIN MƏNFƏƏT VERGİSİNİN ÖDƏNMƏ VAXTI VƏ QAYDASI – Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Hər ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin 1/4 hissəsini təşkil edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini həmin rübdəki gəlirinin həcmini onun keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyənləşdirə bilər. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün üsulundan birini seçir və hər il aprel ayının 15-dək bu barədə vergi orqanına məlumat verir. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən hüquqi şəxslərin cari vergi ödəmələri aşağıda göstərilən qaydada həyata keçirilir:

- əvvəllər fəaliyyəti olmayan vergi

ödəyicilərinin mənfəət vergisi və ya gəlir vergisi üzrə cari vergi ödəmələri təqvim ili ərzində rüblər üzrə artan yekunla VM ilə müəyyənləşdirilən müvafiq vergi dərəcələrinə əsasən hesablanır;

- cari vergi ödəmələrinin məbləği mənfəətdən verginin məbləğinin 75 faizindən az olmamalıdır;

- əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidirlər.

Cari vergi ödəmələri AR VM-ə əsasən müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün əvvəllər fəaliyyəti olmayan vergi ödəyicisindən ödənilməmiş cari vergi ödəmələrinə görə faiz tutulur. Əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri VM-də nəzərdə tutulmuş müvafiq arayışı təqdim etmədikləri halda, vergi orqanı cari vergi ödəmələrinin məbləğini Məcəllənin 67-ci maddəsinə uyğun olaraq vergini əlaqəli məlumatlar əsasında hesablayır və vergi ödəyicisinə müvafiq bildiriş göndərir. Cari vergi ödəmələri hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir və bu zaman hesablanmış cari vergi məbləği hesabat üzrə vergi məbləğindən çox olduğu halda artıq hesablanmış cari vergi və ona uyğun faiz məbləğləri azaldılır.

TƏŞKİLATIN RƏHBƏRİ – vəkalətnamə olmadan təşkilat adından öz səlahiyyəti daxilində çıxış edən, onu bütün dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, kommersiya və qeyri-kommersiya təşkilatları qarşısında, o cümlədən məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edən şəxs.

TƏŞKİLATLARIN ƏMLAK VERGİSİ – bax: *Əmlak vergisi.*

TƏŞKİLATLARIN MƏNFƏƏTİNƏ (GƏLİRİNƏ) VERGİ – bax: *Hüquqi şəxslərin mənfəət vergisi.*

TİCARƏT HÜQUQUNA GÖRƏ YIĞIM – qanunvericiliklə müəyyən olunmuş qaydada ticarət əməliyyatlarının aparılması hüququnun əldə edilməsi məqsədilə ödəniş.

TİCARƏT SALONUNUN SAHƏSİ – ticarət fəaliyyətinin həyata keçirildiyi qapalı ərazinin sənədlərlə təsdiq olunmuş sahəsi.

TİCARƏT YERİ – ticarət fəaliyyətinin həyata keçirildiyi yer.

TİCARƏTİN ADİ GEDİŞİ – malların orta maya dəyəri və orta gəlirliliyinin orta istehsal, ticarət, inzibati və digər xərclər əsasında formalaşan qiymətə istehsalçı dövlətin və ya ixracatçının daxili bazarında alışı və satışı.


TİCARƏTİN TƏŞKİLATÇISI – qiymətli kağızlar bazarında ticarətin təşkili üzrə fəaliyyət göstərən qiymətli kağızlar bazarının peşəkar iştirakçısı.

TİKİNTİLƏRƏ, BİNALARA VƏ QURĞULARA VERGİ – bax: *Əmlak vergisi.*

TİYUL – orta əsrlərdə bəzi Yaxın Şərq ölkələrində, o cümlədən Türkiyədə, İranda və Orta Asiyada mövcud olmuş torpaq sahibliyi. XV-XIX əsrlərdə xüsusilə geniş yayılmışdı. Tiyul torpaqlarından yığılan məhsuldan gəlirin müəyyən hissəsi xəzinəyə

ödənilirdi. Azərbaycan Rusiyanın tərkibinə daxil edildikdən sonra 1846-cı il fərmanı ilə tiyul torpaq sahibliyi irsi elan olunmuşdu.

TOBİN CEYMS (1918 – 2002) Amerika iqtisadçısı. İllinoys ştatının Şampeyn əyalətində anadan olmuşdur. 1939-cu ildə Harvard kollecinə daxil olur. Lakin müharibənin başlaması onun təhsilinin müvəqqəti təxirə salınmasına səbəb olur. Müharibədən sonra o, təhsilini Harvard Universitetində davam etdirir və 1947-ci ildə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 1958-1960-cı illərdə Amerika iqtisadçılar assosiasiyasının icraedici komitəsinin (Executive Committee) üzvü olmuşdur. 1981-ci ildə "maliyyə bazarlarının və onlarınn işsizliyə, istehsala və qiymətlərə təsiri ilə əlaqədar xərclər sahəsində qərarların qəbul olunması" işinə görə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür.



TORPAĞIN KEYFİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ – təbii resurs kimi torpaqlar torpaq haqqının məbləğini, torpağın dəyərini və rüsumların həcmini müəyyən etmək, habelə torpaq dövriyyəsi prosesini tənzimləmək məqsədilə qiymətləndirilir. Torpaqların qiymətləndirilməsində torpağın normativ qiy- mətindən və bazar qiymətindən istifadə olunur.

TORPAĞIN NORMATİV QİYMƏTİ – torpaq sahəsinin təbii və iqtisadi potensialına ekvivalent götürülən dəyər göstəricisi.

TORPAQ İSTİFADƏÇİLƏRİ – torpaq sahəsindən istifadə hüququnu əldə etmiş şəxslər.

TORPAQ KADASTRI – torpaq istifadəçiliyinin dövlət qeydiyyatı, torpaqların kəmiyyət və keyfiyyətcə uçotu, bonitirovkası və iqtisadi qiymətləndirilməsi üzrə zəruri və etibarlı məlumatların məcmusu.

TORPAQ QANUNVERİCİLİYİ – AR-in torpaq qanunvericiliyi "Torpaq islahatı haqqında" AR Qanunundan və digər normativ-hüquqi aktlardan ibarətdir.

TORPAQ QURULUŞU OBYEKTİNİN PLANI – mülkiyyət formasından asılı olmayaraq, torpaqların səmərəli istifadəsinin və mühafizəsinin planlaşdırılmasının təşkili.

TORPAQ QURULUŞU OBYEKTLƏRİNİN HİSSƏLƏRƏ AYRILMASI – yerquruluşu təyinatından asılı olaraq, kompleks və təsərrüfatdaxili yerquruluşu işlərindən ibarətdir.

TORPAQ MƏCƏLLƏSİ – ARdə torpaq üzərində mülkiyyətin müxtəlif növlərinin tətbiqi əsasında yaranan torpaq münasibətlərinin tənzimlənməsinə, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin torpaqla bağlı vəzifələrinin yerinə yetirilməsinə və torpaq üzərində hüquqlarının müdafiəsinə, torpaqlardan səmərəli istifadə və onların mühafizəsi üçün şərait yaradılmasına, torpağın münbitliyinin bərpasına və artırılmasına, texnogen çirklənmə və dağılmadan korlanmış torpaqların rekultivasiyasına, təbii mühitin qorunub saxlanmasına və yaxşılaşdırılmasına həsr edilmiş məcəllə. 23 fəsildən, 113 maddədən ibarətdir. 25 iyun 1999-cu il ta-

rixli 695-IQ nömrəli AR Qanunu ilə təsdiq edilmişdir.

TORPAQ MÜNASİBƏTLƏRİNİN İŞTİRAKÇILARI – AR dövlət orqanları, bələdiyyələr, AR-in vətəndaşları və hüquqi şəxsləri, habelə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, xarici dövlətlər.

TORPAQ MÜNASİBƏTLƏRİNİN OBYEKTLƏRİ – torpaq sahəsi və onun üzərində hüquqlardan ibarətdir.

TORPAQ NƏZARƏTİ – torpaqların münbitlik xassələrini səciyyələndirən ayrı-ayrı göstəricilərdə dəyişikliklərin vaxtında aşkara çıxarılması, qiymətləndirilməsi, mənfi proseslərin qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması üçün torpaq fondunun vəziyyətinə uzunmüddətli müşahidə-nəzarət sistemindən ibarətdir.

TORPAQ SAHƏLƏRİNİN DÖVLƏT KADASTR QEYDİYYATI – Dövlət torpaq kadastrı məlumatlarının qeydiyyatı torpaqların hüquqi statusunun, rejiminin, kəmiyyət və keyfiyyət göstəricilərinin uçotunu aparmaq və torpaq münasibətlərinin tənzimlənməsinə nəzarət etmək məqsədilə həyata keçirilir.

Dövlət torpaq kadastrı məlumatlarının qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada vahid sistem üzrə aparılır.

Dövlət torpaq kadastrının məlumatları AR-in torpaq qanunvericiliyində nəzərdə tutulmuş qaydada dövlət torpaq reyestrində qeydiyyata alınır.

TORPAQ SAHƏSİ – dövlət torpaq kadastrında və torpaq üzərində hüquqların dövlət qeydiyyatı sənədlərində, sərhədləri, ölçüləri, coğrafi mövqeyi, hüquqi statusu, rejimi, təyinatı və digər göstəriciləri əks etdirilmiş yer səthinin bir hissəsi.

TORPAQ SAHƏSİNİN HİSSƏLƏRƏ AYRILMASI – Torpaq sahəsi bölünən və bölünməz ola bilər. Bölünən o torpaq sahələri hesab edilir ki, öz məqsədli və təsərrüfat təyinatına görə ayrı-ayrı hissələrə bölünə bilər və bölgüdən sonra bu hissələrin hər biri müstəqil torpaq sahələrinə çevrilməklə dövlət qeydiyyatından keçirilə bilər. Bölünməz o torpaq sahələri hesab edilir ki, onlar öz məqsədli və təsərrüfat təyinatına görə ayrı-ayrı müstəqil torpaq sahələrinə bölünə bilməzlər.



TORPAQ SAHƏSİNİN İCARƏÇİLƏRİ – AR-in vətəndaşları və hüquqi şəxsləri, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlər torpaq qanunvericiliyində nəzərdə tutulmuş qaydada torpaq icarəçisi ola bilərlər.

TORPAQ SAHƏSİNİN MÜLKİYYƏTÇİSİ – dövlət mülkiyyətində olan torpaq sahələri üzərində – Azərbaycan dövləti, bələdiyyə mülkiyyətində olan torpaq sahələri üzərində – bələdiyyələr, xüsusi mülkiyyətdə olan torpaq sahələri üzərində – AR vətəndaşları və hüquqi şəxsləri.

TORPAQ VERGİSİ – AR VM-in XIV fəslində göstərilən qaydalarla torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq, torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanan vergi.

Rezident və qeyri-rezident fiziki şəxslər, habelə rezident və qeyri-rezident müəssisələr torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra fiziki şəxslər və bələdiyyə müəssisələri bələdiyyələrdə, digər müəssisələr isə vergi orqanında 1 ay ərzində uçota durmalıdırlar.

AR-in ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir.

Fiziki şəxslərin və müəssisələrin AR-in ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri vergitutma obyekti sayılır.

Torpaq vergisinin dərəcəsi kənd təsərrüfatı torpaqları üzrə 1 şərti bal üçün 0,06 man. müəyyən edilir.

AR NK tərəfindən kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla, şərti balları müəyyənləşdirilir.

AR VM-ə görə, aşağıdakı torpaqlar torpaq vergisinə cəlb edilmir (maddə 207.1):

- yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları;
- dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, AR MB-nin və onun qurumlarının, AR DNF-nın mülkiyyətində və ya istifadəsində olan torpaqlar;
- istehsal fəaliyyətinə cəlb edilməmiş dövlət, meşə və su fondu torpaqları, Xəzər dənizinin (gölünün) AR-ə məxsus olan sektorunun altında yerləşən torpaqlar;
- dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar.

Eyni zamanda, müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye parkının idarəedici təşkilatı və ya operatoru sənaye parkının ərazisində istifadə etdiyi torpaqlara görə torpaq vergisini ödəməkdən azaddır. Buna müvafiq olaraq, sənaye parkının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq, sənaye parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq, sənaye parkında istifadə etdikləri torpaqlara görə 7 (yeddi) il müddətinə torpaq vergisini ödəməkdən azad edilmişdir.

Bəzi şəxslərin (AR Milli Qəhrəmanlarının, Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının, "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilənlərin, I və II qrup müharibə əlillərinin, həlak olmuş, yaxud sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarının (ərlərinin), 1941-45-ci illərdə

arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilənlərin, müharibə veteranı adı alanların, atom obyektlərində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulanların və bu xəstəliyi keçirənlərin)` mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 manat azaldılır.

Torpaq vergisi torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Tikililərin və qurğuların altında olan torpaqlara, obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur.

Torpaq vergisini müəssisələr torpaq sahələrinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən illik olaraq hesablayır və mayın 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər. Müvafiq orqanlar tərəfindən hər il iyulun 1-dək fiziki şəxslərə torpaq vergisi hesablanılır və tədiyyə bildirişləri avqustun 1-dən gec olmayaraq onlara çatdırılır.

Ayrılıqda bir neçə hüquqi və ya fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib surətdə hesablanır.

Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir.

Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı yaşayış fondlarının həyətyanı sahələri və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə torpaq sahəsinin hər 100 kv.m.-ə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunur:

Yaşayış məntəqələri	Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar (man. ilə)	Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar (man. ilə)
Bakı	10	0,6
Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu	8	0,5
Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri	4	0,3
Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla)	2	0,1

Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilir. Müəssisələrin torpaq vergisi dövlət büdcəsinə, fiziki şəxslərin torpaq vergisi isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

TORPAQLARIN DÖVLƏT MONİTORİNQİ – torpaqların münbitlik xassələrini səciyyələndirən ayrı-ayrı göstəricilərdə dəyişikliklərin vaxtında aşkara çıxarılması, qiymətləndirilməsi, mənfi proseslərin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün torpaq fondunun vəziyyətinə müntəzəm müşahidə sistemi.

TORPAQLARIN KATEQORİYALARI – məqsədli təyinatına və hüquqi rejiminə uyğun olaraq, AR-in torpaqları aşağıdakı kateqoriyalara bölünür:

- kənd təsərrüfatı təyinatlı torpaqlar;
- yaşayış məntəqələrinin (şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin) torpaqları;
- sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar;
- xüsusi qorunan ərazilərin torpaqları;
- meşə fondu torpaqları;
- su fondu torpaqları;
- ehtiyat fondu torpaqları.

TORPAQLARIN VAHİD DÖVLƏT REYESTRİ – torpaq üzərində hüquqlar (müddəti on bir aydan az olan icarə və istifadə hüquqları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır və həmin reyestrdən çıxarışla rəsmiləşdirilir.

TÖYCÜ – orta əsrlərdə torpaq vergisi. Kəndlilər bu vergini torpaq sahiblərinə məhsul və ya pul şəklində ödəyirdilər. "Töycü" termini həddindən çox olan vergi mənasında da işlədilir.

TRANSFERT QİYMƏTİ – iri kompaniyalar, o cümlədən transmilli korporasiyalar tərəfindən onların filialları və struktur bölmələri arasında aparılan alqı-satqı əməliyyatlarında istifadə olunan qiymətlər nəzərdə tutulur. Çox hallarda tətbiq olunan transfert qiymətlər oxşar əqdlərdə istifadə olunan qiymətlərdən dəfələrlə aşağı ola bilər. Bunun da nəticəsində transfert qiymətlər şirkətin maliyyə nəticələrinə birbaşa təsir edir.

Transfert qiymətqoymada məhsulun qiymətinin müəyyən olunması ilə bağlı iki əsas yanaşma mövcuddur. Bunlardan biri maya dəyəri və rentabellik norması, digəri isə faktiki çəkilmiş xərclərlə müqayisə olunan qiymətin təyinatının müəyyən edilməsi ilə bağlıdır. Birinci yanaşma məhsulun istehsalına çəkilmiş artıq xərclərin qiymətə daxil edilməsinə əsas verir. Bu çatışmazlığı isə qiymətqoyma zamanı ikinci yanaşmadan istifadə etməklə aradan qaldırmaq mümkündür.

Beynəlxalq təcrübədə transfert qiymətlərin müəyyən olunmasının 4 əsas metodu mövcuddur:

- bazar qiyməti əsasında hesablama metodu;
- xərc normaları əsasında hesablama metodu;

- müqavilə qiymətləri əsasında hesablama metodu;

- istehsal xərcləri əsasında hesablama metodu.

Bazar qiyməti əsasında hesablama metodu o halda tətbiq olunur ki, bu qiymət şirkətin eyni məhsuluna tətbiq edilən qiymətin yuxarı həddi kimi qəbul edilmiş olsun.

Xərc normaları əsasında hesablama metodu o halda tətbiq olunur ki, bazar qiymətləri əsasında transfert qiymətləri müəyyən etmək mümkün olmasın.

Müqavilə qiymətləri əsasında hesablama metodundan o vaxt istifadə olunur ki, məhsulun satışı ilə bağlı daxili və xarici bazarda müxtəlif xərclər mövcuddur və ya həmin məhsulun bir neçə bazar qiyməti vardır.

Nisbətən daha sadə sayılan istehsal xərcləri əsasında hesablama metodundan isə bazar qiymətləri olmadıqda istifadə olunur. Onun tətbiqi məhsulun istehsalına çəkilmiş bütün xərclərin nəzərə alınmasına əsaslanır. Bu metod daha çox şaquli şəkildə inteqrasiya olunmuş koorporasiyalarda tətbiq olunur.

TRANZİT RÜSUMLARI – bir dövlətdə istehsal olunan malların digər dövlətdə istehlak olunması üçün üçüncü dövlətin ərazisindən daşınması zamanı üçüncü dövlət tərəfindən gömrük orqanlarının xərclərinin ödənilməsi məqsədilə tətbiq olunan gömrük rüsumları.

TRAST – müştərinin tapşırığına əsasən əmlakın idarə olunması və digər xidmətlərin onun maraq dairəsində, onun xeyrinə kommersiya bankları və xüsusi maliyyə institutları tərəfindən aparılan əməliyyat. İki növü məlumdur: etibarlı idarəetmə; agent xidmətləri.

TRÜHEND – əhalisi alman dilində danışan ölkələrdə fəaliyyətin mülki-hüquqi formalarından biri. Almanca "treuhand" – "etibar etməklə fəaliyyət" mənasını daşıyır. Müəyyən bir şəxs müqavilə və ya vəkalətnamə əsasında digər şəxsin adından fəaliyyət göstərir və məsuliyyət daşıyır.

TÜSTÜ VERGİSİ – Tikililərdən tutulan ən qədim və geniş yayılmış vergi növlərindən biri. Tüstü vergisi XX əsrə qədər mövcud olmuşdur. Məsələn, orta əsrlərdə İngiltərədə tikililərdən çıxan tüstünün sayına görə 2 şillinq vergi tutulurdu.

TVİNNİNQ – Aİ üzvü olan ölkələrlə digər ölkələrin hakimiyyət orqanları arasında inkişaf və texniki əməkdaşlıq forması. "Twinning" mənası "əkizlər" olan "a twin" ingilis sözündən götürülmüşdür və əslində, bərabər hüquqlu əməkdaşlıq kimi başa düşülür. Tvinninq hakimiyyət qurumlarının, insan resurslarının, idarə aparatının fəaliyyətinin inzibati cəhətdən təkmilləşdirilməsinə kömək etmək məqsədilə yaradılmışdır və müəyyən bir proqramı həyata keçirir. Tvinninq proqramı Aİ-yə namizəd ölkələrin İttifaqın genişlənməsinə hazırlanmaları üçün 1998-ci ildə Avropa Komissiyasının təşəbbüsü ilə yaradılmışdır. Bu proqram əvvəlcə namizəd ölkələrin Birliyin qanunvericiliyini tətbiq etməsi üçün inzibati və hüquqi imkanlarının genişləndirilməsinə yardım etməklə konkret məsələləri həll etməli olan inzibati əməkdaşlığı nəzərdə tuturdu. Proqram Aİ-yə qonşu ölkələrə təqdim edilməklə yeni impuls qazandı.



«Kompüter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» tvinninq layihəsinin təqdimatı. 14 aprel 2011-ci il

2003-cü ilin sonundan etibarən müxtəlif dövlətlərlə Aİ arasında tərəfdaşlıq və əməkdaşlıq sazişləri yeni müstəqillik qazanmış dövlətlər üçün də uyğun hesab edildi.

Azərbaycanda Tvinninq layihəsinin təqdimatına dair təkliflər 2007-ci ilin oktyabr ayından başlanmışdır. 2009-cu ilin 21 yanvarında Bakı şəhərində Tvinninq konfransı keçirilmişdir.

TYER ADOLF LUİ (1797-1877) – fransız tarixçisi və siyasi xadimi. Bir neçə dəfə Fransanın baş naziri, Fransada üçüncü respublikanın birinci prezidenti (müvəqqəti, konstitusiyanın qəbuluna qədər, 1871-1873) olmuşdur.



A.Tyer vergilərə bir qədər fərqli yanaşmışdır. Onun fikrincə, vergilər hər hansı riskin qarşısının alınması üçün əhalinin dövlətə ödədiyi sığorta ödənişidir. Vergi ödəyiciləri, gəlir əldə edən əhali kimi, öz gəlirlərinin həcmindən asılı olaraq, əmlaklarını müharibədən, yanğından, oğurluqdan və s. sığortalayırlar. Lakin əsl sığortadan fərqli olaraq vergilər sığorta hadisəsinin baş verdiyi zaman onun qarşılığının ödənilməsi üçün deyil, hökumətin müdafiə və hüquq qaydalarının qorunması xərclərini təmin etmək məqsədilə ödənilir. Beləliklə, qeyd edilən nəzəriyyədə göstərilən sığorta ideyası dövlətin risklərin mövcudluğu şəritində vətəndaşlara sığorta ödənişi etmək öhdəliyi götürdüyü zaman qəbul edilə bilər.

U

UÇOT - iqtisadi obyektlərin və proseslərin idarə edilməsinin tərkib hissəsidir və onların fəaliyyəti, öhdəlikləri barədə informasiyanın yığılmasını, sistemləşdirilməsini və ümumiləşdirilməsini nəzərdə tutur. Aşağıdakı formaları var: analitik uçot, mühasibat uçotu və büdcə uçotu.

UÇOT DƏRƏCƏSİ - dövlətin mərkəzi bankı tərəfindən kommersiya banklarına verilən ssudalara görə faiz şəklində edilən ödəniş.

UÇOT DƏYƏRİ - kalkulyasiya olunmuş dəyərdir, yəni bu dəyərə yalnız faktiki (müqavilədə göstərilmiş) dəyər deyil, eyni zamanda aktivlərin alınmasına çəkilən xərclər də daxil edilir, ya da aktivlərin vergitutma məqsədləri üçün müəyyən olunan dəyəridir; yaxud vergitutmada vergi ödəyicisinin gəlirdən çıxmaq hüququna malik olduğu xərclər istisna edilməklə, aktivlərin dəyərini artıran digər xərclərin, o cümlədən aktivlərin alınmasına, gətirilməsinə, istehsalına, tikilməsinə, quraşdırılmasına və qurulmasına çəkilən xərclərin məcmusudur.

UYĞUNLUQ - müvafiq biznes fəaliyyətində uyğunluğun təminatı və ya tətbiq olan tələblərə riayət etmə üzrə hərəkətlər.

UYĞUNLUQ SERTİFİKATI - istehsalçılardan və istehlakçılardan asılı olmayan orqanlar tərəfindən məhsulun normativ sənədlərdə əks olunan müəyyən tələblərə cavab verməsini təsdiq edən sənəd.

UZUNMÜDDƏTLİ MÜQAVİLƏ - müqavilədə nəzərdə tutulan istehsal, quraşdırma və ya tikinti, yaxud bunlarla bağlı xidmətlərin və işlərin vergi ili ərzində başa çatdırılmadığı müqavilə. Müqavilədə göstərilən işlərin başlandığı gündən 6 ay ərzində başa çatdırılmasını nəzərdə tutan müqavilələr uzunmüddətli müqavilələrə aid edilmir.

Ü

ÜFÜQİ BƏRABƏRLİK – oxşar iqtisadi situasiyalarda gəlirlərinin həcmindən asılı olmayaraq bütün şəxslərin eyni dərəcə ilə vergiyə cəlb olunması.

ÜFÜQİ ƏDALƏTLİLİK PRİNSİPİ – bərabər şəraitdə olan subyektlərə vergi qanunvericiliyinin eyni qaydada şamil edilməsini əks etdirən vergiqoyma prinsipi.

ÜMİDSİZ BORCLAR – mülki qanunvericiliyə uyğun olaraq müvafiq qurumlar tərəfindən tərtib edilmiş akta əsasən yerinə yetirilməsinin mümkün olmaması səbəbindən icrasına xitam verilmiş borc.

ÜMİDSİZ BORCLARIN GƏLİRDƏN ÇIXILMASI – malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi ilə əlaqədar gəlir əvvəllər sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirə daxil edildikdə, vergi ödəyicisi tərəfindən onlarla bağlı olan ümidsiz borc məbləğinin gəlirdən çıxılması.

ÜMİDSİZ BORCLARIN SİLİNMƏSİ – vergilər, faizlər və maliyyə sanksiyaları üzrə ümidsiz borcların vergi orqanları tərəfindən aşağıdakı hallarda silinməsi nəzərdə tutulur: Vergi Məcəlləsində müəyyən edilmiş vergi öhdəliyinin yerinə yetirilməsi müddəti qurtardıqda; Vergi Məcəlləsində müəyyən edilmiş əsaslar üzrə vergi öhdəlikləri qüvvədən düşdükdə.

ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI (ÜTT) – 1995-ci ildə Tariflər və Ticarət üzrə Baş Sazişin varisi kimi yaradılmış beynəlxalq



təşkilat. ÜTT millətlər arasında ticarətin qlobal qaydalarını müəyyənləşdirən yeganə beynəlxalq təşkilatdır. Onun əsas funksiyası ticarətin tarazlı, maneəsiz, ehtimal olunan şəkildə və azad aparılmasını təmin etməkdir. Məqsəd üzv ölkələrin əhalisinin rifah halını yaxşılaşdırmaqdır. ÜTT çoxtərəfli ticarət sazişləri əsasında ölkələrarası ticarət münasibətlərinin tənzimlənməsini həyata keçirir. Dünya ticarətinin 97%-dən artığını əhatə edən 153 üzvü var. 30-a yaxın ölkə ilə üzvlük barədə danışıqlar davam etdirilir.

ÜMUMİ DAXİLİ MƏHSUL – ölkədə istehsal olunmuş məhsul və xidmətlərin ümumi dəyəridir. Adambaşına düşən ÜDM ölkədə yaşayan insanların həyat səviyyəsinin əsas göstəricilərindən biri kimi qəbul edilir. Beynəlxalq müqayisə üçün ÜDM-i eyni bir valyutada iki yolla – məzənnə və ya alıcılıq qabiliyyətinin pariteti yolu ilə hesablamaq olar.

Nominal və real ÜDM . Nominal ÜDM cari ilin qiymətləri ilə ölçülən ÜDM-dir. Bu səbəbdən nominal ÜDM məhsulun cari ilin qiymət dəyişikliklərindən asılıdır – yəni inflyasiya (deflyasiya) nəticəsində məhsulun qiyməti qalxdıqda (düşdükdə) nominal ÜDM də qalxır (düşür).

Real ÜDM seçilən hər hansı bir bazis ilinin qiymətlərindən istifadə etməklə hər il istehsal olunan əmtəə və

xidmətlərin ümumi dəyərinin hesablanmasıdır.

ÜDM-in deflyatoru isə qiymətlərin ümumi səviyyəsindəki dəyişmələri müəyyən etmək üçündür. Nominal ÜDM-in real ÜDM-ə olan nisbətinin 100-ə hasili kimi hesablanan və qiymət səviyyəsini ifadə edən göstəricidir.

ÜDM-in deflyatoru = Nominal ÜDM / Real ÜDM) ·100

ÜDM 3 yolla müəyyən edilir:

1) *ÜDM = C + İ + G + (EX − İM)*

C – əhalinin istehlak xərcləri,

İ – ümumi xüsusi investisiyalar,

G – dövlət xərcləri,

EX – ixrac,

İM – idxal.

2) *ÜDM = İMD − OM + V – S,*

İMD – istehsal edilən son məhsulların dəyəri,

OM – son məhsul (İMD) üçün istifadə olunan başqa məhsulların dəyəri,

V – məhsul üçün vergi, S – subsidiyalar.

3) *ÜDM = XÜDM + A, XÜDM = G + DG + V – S,*

XÜDM – xalis ÜDM,

A – amortizasiya,

G – razılaşmaya əsasən hüquqi və ya fiziki şəxsin (işəgötürənin) işçisinə ödəməli olduğu məbləğlər,

DG – digər gəlirlər.

ÜMUMİ İLLİK GƏLİR – fiziki şəxslərin təqvim ili ərzində bütün gəliri ilə həmin dövr üçün gəlirdən çıxılması sənədlərlə təsdiq edilmiş xərclərin arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlir. Gəlir mənbəyinin fəaliyyətinin vaxtından (müddətindən) asılı olmayaraq, təqvim ili ərzində müəyyən edilmiş illik məbləğ ümumi illik gəlirdir. Əgər gəlirin mənbəyi il boyu fəaliyyət göstərmişdirsə və il ərzində işdə fasilələr olmuşdursa, bu halda, faktiki olaraq alınmış gəlirin cəmi məbləği illik gəlir hesab edilir.

ÜMUMİ MƏHSUL – müəyyən sahədə istehsal edilmiş və pul şəklində hesablanmış məhsulun ümumi həcmini əks etdirən statistikanın göstəricisi.

ÜMUMİ MİLLİ MƏHSUL (ÜMM) – ölkənin milli iqtisadi vahidləri tərəfindən həmin ölkə daxilində və xaricində il ərzində istehsal olunmuş son (hazır) məhsulun bazar qiymətləri ilə ümumi dəyərini göstərir.

ÜMUMİ VERGİ YÜKÜ – vergi daxilolmalarının cəminin ümumi daxili məhsulun həcminə nisbətinin faizlə ifadəsi.

ÜSTƏLİK MƏNFƏƏTƏ VERGİ – bir sıra ölkələrdə fövqəladə hal kimi tətbiq edilən mənfəətin artımına vergi növlərindən biri olmaqla gəlir vergiləri qrupuna aid olan birbaşa vergi.

Vergitutma obyekti – hüquqi şəxslərin (korporasiyaların) və fiziki şəxslərin mənfəətinin (xalis gəlirinin) əvvəlki dövrdə müəyyən edilmiş orta həcmindən artıq hissəsidir.

Bu vergi dövlətin kəskin maliyyə çətinlikləri olduğu və eyni zamanda inflyasiyanın hesabına müəssisələrin və təşkilatların mənfəətlərinin artdığı hallarda, habelə müharibələr dövrlərində fövqəladə tədbirlər kimi istifadə olunurdu. İki üsulla hesablanırdı: faiz və normativ. Birinci üsulda vergi dərəcəsi kapitala müəyyən edilmiş faizlə tətbiq edilirdi. İkinci üsulda isə

vergi dərəcəsi mənfəətin əvvəlki illər (bir qayda olaraq, 3 – 4 il) üzrə orta ("normal") mənfəətdən artıq olan hissəsinə faizlə tətbiq edilirdi.

İlk dəfə Böyük Britaniya və Şimali İrlandiya Birləşdirilmiş Krallığında (1915-ci il) və Rusiyada tətbiq edilmişdir.

Vergi İkinci Dünya müharibəsi illərində bir sıra dövlətlərdə istifadə olunurdu. Bütün dövlətlərdə verginin yüksək dərəcələri tətbiq edilirdi: ABŞ-da 1943-1945-ci illərdə üstəlik mənfəətin 80% -i, Böyük Britaniyada isə 1939-1945-ci illərdə üstəlik mənfəətin 100%-i. Vergi dərəcəsinin yüksək faiz olmasına baxmayaraq dövlət büdcələrinə bu vergi üzrə daxilolmalar əhəmiyyətsiz dərəcədə idi.

SSRİ-də üstəlik mənfəətə vergi "spekulyativ qiymətlərin tətbiq nəticəsində özəl kapitalist elementlərinin əldə etdiyi gəlirlərin alınması" məqsədi ilə 1926-cı ildə tətbiq edilmişdir. Vergi ödəyiciləri ticarət və sənaye müəssisələrinin sahibləri, habelə ticarət vasitəçiləri idi. Vergitutma obyekti il ərzində müəyyən edilmiş qiymətlərə əsaslanaraq hesablanmış normadan artıq olan mənfəət olmuşdur. Mənfəətin norması ticarət orqanları ilə birgə quberniya maliyyə şöbələri tərəfindən təyin edilirdi. Verginin məbləği gəlir vergisinin 50%-dən artıq ola bilməzdi. Vergi SSRİ Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin qərarı ilə 17 may 1934-cü ildə ləğv edildi.

ÜŞR – orta əsrlərdə müsəlman dövlətlərində mövcud olmuş natural vergi. Ərəbcə "üşr" onda bir deməkdir. Şəriət qanunlarına görə əkinçilik, heyvandarlıq, balıqçılıq və s. məhsulların onda biri həcmində vergi ödənilirdi. Azərbaycanda dəhyek, salariyyə, ondabir və s. adlarla da məlum idi və XIX əsrin ikinci yarısınadək tətbiq edilmişdir. Əlcəzairdə 1918-ci, Türkiyədə 1925-ci, Tunisdə 1935-ci ildə ləğv olunmuşdur. Bir sıra müsəlman ölkələrində (məsələn, Səudiyyə Ərəbistanında) indi də mövcuddur.

Keçmişdə dünyanın, demək olar ki, hər yerində gəlirin onda birini vergi kimi almaq daha çox tətbiq olunurdu. Bu barədə dini kitablarda da (məsələn, Əhdi-ətiqdə) yazılmışdır. Roma İmperiyasında bu vergi "decuma" adlanırdı. Çində Konfutsi (e.ə. 551-ci il – e.ə. 479-cu il) bu vergi dərəcəsini optimal hesab edirdi. Hökmdarlar bu dərəcəni artırmaqdan çəkinirdilər. Hətta Çingiz xan Rusiyanı fəth etdiyi zaman da dərəcəsi 10 faiz olan vergi yığırdı, lakin bu, təkcə gəlirdən deyil, bütün varidatdan alınırdı.



Çingiz xan

V

VALYUTA – iqtisadi mübadilədə işlədilən pul vahidi. "Valyuta tənzimi haqqında" AR Qanununa görə valyuta aşağıdakılar hesab edilir:

- AR-in milli valyutası: tədavüldə olan, eləcə də tədavüldən çıxarılan, lakin tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən AR MB-nin buraxdığı kağız və metal pul nişanları; AR-də banklarda və digər kredit təşkilatlarında hesablarda olan manat vəsaiti; AR-dən kənarda yerləşən banklarda və digər kredit təşkilatlarında hesablarda olan manat vəsaiti;

- milli valyutada qiymətli kağızlar: manatla ifadə edilmiş ödəniş sənədləri (çeklər, veksellər, akkreditivlər və s), fond sərvətləri (səhmlər, istiqrazlar) və digər borc öhdəlikləri.

- xarici valyuta: müvafiq xarici dövlətin və ya dövlətlər qrupunun ərazisində tədavüldə olan və qanuni ödəniş vasitəsi sayılan, eləcə də tədavüldən çıxarılmış və ya çıxarılan, lakin həmin ərazidə tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən banknotlar, xəzinə biletləri və sikkələr şəklində pul nişanları; xarici dövlətlərin pul vahidlərində, beynəlxalq pul və ya hesablaşma vahidlərində hesablarda olan vəsaitlər.

VALYUTA ƏMƏLİYYATLARI – Valyuta sərvəti kimi qəbul olunan mülkiyyət hüquqları ilə sıx bağlı əməliyyatlar; valyuta sərvətlərinin AR ərazisinə gətirilməsi və ərazisindən aparılması; beynəlxalq pul vəsaitinin köçürülməsi.

VALYUTA QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT – rezident və qeyri-rezident olan müəssisə və təşkilatlar, o cümlədən müvəkkil bankların vəzifəli şəxsləri, eləcə də fiziki şəxslər AR-in qanunvericiliyinə müvafiq surətdə valyuta qanunvericiliyinin pozulmasına görə inzibati, mülki- hüquqi və cinayət məsuliyyəti daşıyırlar. "Valyuta tənzimi" haqqında AR Qanununa görə, müvəkkil banklar da daxil olmaqla, qanunvericiliyin müddəalarını pozmuş rezidentlər və qeyri-rezidentlər aşağıdakı şəkildə məsuliyyət daşıyırlar:

- etibarsız hesab edilən əqdlər üzrə, habelə əqdlər üzrə deyil, qeyri-qanuni fəaliyyətlər nəticəsində əldə edilən gəlirlər dövlətin mədaxilinə silinir;

- müvəkkil banklar da daxil olmaqla, rezidentlər və qeyri-rezidentlər valyuta əməliyyatları uçotunu aparmadıqlarına və onu müəyyən edilmiş qaydaların pozulması ilə həyata keçirdiklərinə, valyuta nəzarəti orqanlarına və agentlərinə sənədləri və məlumatları təqdim etmədiklərinə və ya vaxtında təqdim etmədiklərinə görə AR-in qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

VALYUTA NƏZARƏTİ – valyuta əməliyyatları aparılarkən valyuta qanunvericiliyinə əməl olunmasını təmin etmək. Valyuta nəzarətinin əsas istiqamətləri aşağıdakılardır:

- aparılan valyuta əməliyyatlarının qüvvədə olan qanunvericiliyə uyğunluğunu və bunun üçün lisenziya və icazələrin olmasını müəyyən etmək;

- dövlət qarşısında xarici valyuta üzrə və AR-in valyuta bazarında valyutanın satışı üzrə öhdəliklərin rezidentlər tərəfindən yerinə yetirilməsi vəziyyətini yoxlamaq;

- xarici valyuta ilə ödənişlərin əsaslandırılmış olduğunu yoxlamaq;

- valyuta əməliyyatları, o cümlədən qeyri-rezidentlərin milli valyuta ilə əməliyyatları üzrə uçot və hesabatın tamlığı və obyektivliyini yoxlamaq.

VALYUTA NƏZARƏTİ AGENTLƏRİ – müvəkkil banklar.

VALYUTA NƏZARƏTİ ORQANLARI – AR-in Mərkəzi Bankı və müvafiq icra hakimiyyəti orqanı.

Valyuta nəzarəti orqanları öz səlahiyyətləri daxilində bütün rezident və qeyri-rezidentlər tərəfindən AR-də icrası məcburi hesab edilən normativ aktlar qəbul edirlər. Valyuta nəzarəti orqanları və agentləri öz səlahiyyətləri daxilində:

- AR-də rezident və qeyri-rezidentlər tərəfindən həyata keçirilən valyuta əməliyyatlarının mövcud qanunvericiliyə, lisenziya və icazələrin şərtlərinə nə dərəcədə uyğun gəlməsinə, həmçinin, valyuta nəzarəti orqanlarının aktlarının yerinə yetirilməsinə nəzarət edirlər;

- rezidentlərin və qeyri-rezidentlərin valyuta əməliyyatlarını yoxlayırlar;



- rezidentlərin və qeyri-rezidentlərin valyuta əməliyyatları üzrə uçotun, hesabatın və sənədləşmələrin forması və qaydalarını müəyyən edirlər.

VALYUTA SƏRVƏTLƏRİ – nağd xarici valyuta, xarici valyutada qiymətli kağızlar, qiymətli daşlar, qiymətli metallar, o cümlədən qiymətli daşlardan və ya qiymətli metallardan hazırlanmış zərgərlik və ya digər məişət məmulatları.

VALYUTA SİSTEMİ – pul-kredit münasibətlərinin toplusu. Valyuta sistemi dünya, beynəlxalq və milli valyuta sistemlərinə ayrılır.

VALYUTA SİYASƏTİ – valyuta münasibətləri sahəsində dövlət təşkilatları, mərkəzi bank və maliyyə müəssisələri, həmçinin, beynəlxalq valyuta-maliyyə təşkilatları tərəfindən həyata keçirilən iqtisadi, hüquqi və təşkilatı tədbirlər məcmusu.

"VALYUTA TƏNZİMİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – AR-də valyuta əməliyyatlarının həyata keçirilməsi prinsiplərini, valyuta tənzimi və valyuta nəzarəti orqanlarının səlahiyyətlərini və funksiyalarını, hüquqi və fiziki şəxslərin valyuta sərvətlərinə sahib olmaq, bu sərvətlərdən istifadə etmək və onlar barəsində sərəncam vermək sahəsində hüquqlarını və vəzifələrini, valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyən edən Qanun. 1994-cü ilin 21 oktyabrında qəbul edilmiş 910 nömrəli bu Qanun 3 fəsildən (Ümumi müddəalar, Valyuta tənzimi, Valyuta nəzarəti) və 19 maddədən ibarətdir.

VALYUTA TƏNZİMLƏNMƏSİ – beynəlxalq hesablaşmaların və valyuta əməliyyatlarının aparılması qaydalarının dövlət tərəfindən müəyyən olunması.

VARİSLİK VƏ YA BAĞIŞLAMA YOLU ILƏ BAŞQASINA KEÇƏN ƏMLAKDAN VERGİ – əvvəlki sahibi tərəfindən ödənilməmiş əmlak vergisi varislik və ya bağışlama yolu ilə keçən yeni sahibi tərəfindən ödənilir.

VEKSEL – Borclunun pul öhdəliyini təsdiq edən orderli qiymətli kağız. Veksel verən onun vasitəsi ilə müəyyən şəxsə müəyyən məbləğ ödəmək barəsində başqa şəxsə (ödəyiciyə) göstəriş verir (köçürmə vekseli) və ya hər hansı müəyyən şəxsə və ya bu şəxsin sərəncamına müəyyən məbləğ ödəməyi öhdəsinə götürür (sadə veksel).

Köçürmə vekseli aşağıdakı rekvizitlərin olduğu sənəddir:

- sənədin mətninə daxil edilmiş «veksel» adı;
- veksel verənin müəyyən məbləği ödəmək barəsində sadə və heç nə ilə şərtləşdirilməmiş göstərişi;
- kim ödəməlidirsə, onun (ödəyicinin) adı;
- ödəniş kimə və ya kimin sərəncamı ilə icra edilməlidirsə, onun adı;
- vekselin tərtib edildiyi tarix;
- veksel verənin imzası;
- vekselin tərtib edildiyi yer;
- vekselin ödənilməsi vaxtı (veksel üzrə ödəniş müddəti);
- ödənişin icra edilməli olduğu yer.

Göstərilmiş rekvizitlərdən hər hansı birinin olmadığı sənədin, aşağıdakı hallar istisna olmaqla, köçürmə vekseli qüvvəsi yoxdur:

Təqdim edildikdə və ya təqdim edildikdən sonra müəyyən vaxt ərzində ödənilməli olan köçürmə vekselində veksel verən şərt qoya bilər ki, veksel məbləğinin üstünə faizlər hesablanacaqdır. Faiz dərəcəsi vekseldə göstərilməlidir; belə göstəriş olmadıqda şərt yazılmamış sayılır. Faizlərin hesablanmağa başladığı gün göstərilmədikdə, onlar vekselin tərtib edildiyi gündən hesablanmalıdır.



VERGİ – ölkə vətəndaşlarının və müəssisələrinin gəlirlərinin müəyyən hissəsinin dəqiq müəyyən edilmiş qayda ilə məcburi ödənişi. AR VM-in 11-ci maddəsinə görə, vergi – dövlətin və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin (hüquqi və fiziki şəxslərin) mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir.

Qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur, heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və



İrəvan mahalında vergi yığılması

qanunda göstərilmiş həcmdən əlavə vergilər və başqa dövlət ödənişləri ödəməyə məcbur edilə bilməz (AR Konstitusiyası, maddə 73).

VERGİ (YIĞIM) ÖDƏNİŞİ ÜZRƏ VƏZİFƏLƏR – vergi ödəyicisinin və ya müəyyən olunmuş hallarda vergi agentinin müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş vergiləri və yığımları tam həcmdə, müəyyən edilmiş müddətlərdə və qaydada ödəmək öhdəliyini əhatə edən tələblər. Müvafiq öhdəliyin lazımi qaydada yerinə yetirilməməsi nəzarətedici orqanlar tərəfindən öhdəliklərin müəyyən olunması və məcburi qaydada alınmasına yönəldilən tədbirlər kompleksinin və cəza tədbirlərinin tətbiqinə səbəb olur.

VERGİ ADMİNİSTRATORLARININ BİRLİYİ ASSOSİASİYASI (VABA) – 1977-ci ildə Barbadosda keçirilən Maliyyə Nazirləri Birliyinin görüşündə qəbul edilmiş qərarla yaradılmışdır. Həmin dövrdə VABA-nın Nizamnaməsi tərtib edildi və 22-23 may 1978-ci ildə Londonda Vergi İnzibatçılarının Birliyi rəhbərlərinin görüşündə Müvəqqəti idarəçilik komitəsi yaradıldı. Onun fəaliyyətinə illik texniki iclaslar, vergi işçiləri üçün yüksək səviyyəli treninq proqramları, hər bir üzvün özünəməxsus zəruri məsələlərinin həll edilməsi üçün nəzərdə tutulmuş ölkədaxili treninq proqramları, rüblük bülletenlərin nəşri, sorğu əsasında üzvlərə məsləhət xidmətlərinin göstərilməsi və araşdırmaların aparılması, üzvlərə məlumatların təqdim edilməsi və internet xidmətləri daxildir.

VERGİ AGENTİ – vergi qanunvericiliyinə əsasən vergi məbləğini hesablamağa, onu vergi ödəyicisindən tutmağa və təyinatı üzrə köçürməyə borclu olan şəxs. VM-ə görə vergi agenti:

- müvafiq vergiləri düzgün və vax-

tında hesablamağa, onları vergi ödəyicisindən tutmağa və təyinatı üzrə köçürməyə;

- vergi ödəyicilərinə ödənilən gəlirlərin, onlardan tutulan və təyinatı üzrə köçürülən vergilərin uçotunu aparmağa;

- vergilərin hesablanmasının, tutulmasının və ödənilməsinin düzgünlüyünə nəzarət etmək üçün zəruri sənədləri dövlət vergi orqanlarına verməyə;

- vergi ödəyicisindən verginin tutulması mümkün olmadığı hallarda, bu barədə və borcun məbləği barədə vergi orqanlarına 30 gün müddətində yazılı məlumat verməyə;

- VM ilə müəyyən olunmuş digər vəzifələri yerinə yetirməyə borcludur (VM, maddə 17.3).

VERGİ ANBARI REJİMİ – istehsal prosesi başa çatan və (və ya) xüsusi anbara daxil olan andan göndərilmə (təhvil verilmə) anınadək alkoqollu içkilərə münasibətdə vergi orqanları tərəfindən həyata keçirilən vergi nəzarətinin tədbirlər kompleksi.

VERGİ BAZASINI TƏYİN ETDİKDƏ NƏZƏRƏ ALINMAYAN GƏLİRLƏR – vergi ödəyicisi tərəfindən vergi dövrü ərzində əldə edilən və hüquqi şəxslərin mənfəət vergisi üzrə vergitutma bazasına daxil edilməyən gəlirlər.

VERGİ BAZASININ HESABLANMASI – vergi ödəyicisinin vergi dövrünün nəticələrinə əsasən, müvafiq təsdiqedici sənədlər əsasında vergitutma bazasının müəyyən edilməsi prosesi.

VERGİ BƏYANNAMƏSİ – vergi ödəyicisinin müəyyən dövr ərzində əldə etdiyi gəlirləri və bu gəlirlərə tətbiq oluna biləcək azadolma və güzəştlər, o cümlədən xərcləri barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş formada rəsmi ərizəsi.



VERGİ BİLDİRİŞİ – ödənilməli hesablanmış və ya yenidən hesablanmış vergiləri, faizləri və tətbiq edilmiş maliyyə sanksiyası məbləğlərini, ödəmə müddətlərini, verginin ödənildiyi yeri, ödənmə üsulunu və şikayətetmə qaydasını əks etdirən bildiriş.

VERGİ BORCLARININ ALINMASI QAYDASI – AR VM-in 65-ci maddəsində göstərilmiş qayda. Bu maddəyə görə vergi ödəyicisi vergi öhdəliyini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, vergi orqanı hesablanmış və ya yenidən hesablanmış vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının 5 gün müddətində ödənilməsinə dair vergi ödəyicisinə bildiriş göndərir.

Hesablanmış və ya yenidən hesablanmış vergilər, faizlər və ya tətbiq edilmiş maliyyə sanksiyaları vergi ödəyicisi tərəfindən bildirişdə göstərilən müddətdə ödənilmədiyi halda, vergi orqanı vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər

hesablarından vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün banka və ya digər kredit təşkilatına icra (ödəniş) sənədi olan sərəncam verir.

Vergi orqanı vergi ödəyicisinin ƏDV depoziti hesabından yalnız ƏDV üzrə vergi borclarının dövlət büdcəsinə alınmasını təmin edir. ƏDV üzrə vergi borclarının ödənilməsi üçün ƏDV depoziti hesabında vergi ödəyicisinin kifayət qədər vəsaiti olmadıqda, ƏDV üzrə vergi borclarının dövlət büdcəsinə alınması üçün həmin şəxsin digər hesablarına sərəncam verilə bilər.

Vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olduqda vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatı tərəfindən həmin sərəncamın daxil olduğu gün icra edilir.

Vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olmadıqda və ya vergilər üzrə borcların və faizlərin tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinə kifayət etmədikdə, vergi orqanının sərəncamı bankda və ya digər kredit təşkilatında saxlanılır və vergi ödəyicisinin hesablarına vəsait daxil olduqca icra edilir.

Vergi orqanlarının vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması haqqında sərəncamları bank və digər kredit təşkilatı tərəfindən AR MM-də nəzərdə tutulmuş ödənişlərin növbəliliyi ardıcıllığına uyğun olaraq icra edilir.

Vergi orqanlarının vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması haqqında sərəncamı vergi ödəyicisinin valyutada olan bank hesabına yönəldildikdə, bank və ya digər kredit təşkilatı hesabdakı vəsaiti VM-in 60.1.2-ci maddəsində müəyyən edilmiş qaydada dondurur və dərhal bu barədə vergi ödəyicisinə məlumat göndərir. Vergi ödəyicisi tərəfindən konvertasiya əməliyyatı aparıldıqdan sonra bank və ya digər kredit təşkilatı vergi orqanının sərəncamını icra edir.

Vergi orqanının vergilər üzrə borcların və faizlərin dövlət büdcəsinə alınması haqqında sərəncamı bir neçə bank və ya kredit təşkilatına verildikdə və bu zaman valyutada cari və ya digər hesablarından dövlət büdcəsinə alındıqda, vergi orqanı digər banklara və ya kredit təşkilatlarına verilən sərəncamların dərhal geri qaytarılmasını təmin edir.

Vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından dövlət büdcəsinə artıq alınmış vəsaitin geri qaytarılması VM-in 87-ci maddəsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

VERGİ CİNAYƏTLƏRİ – AR Cinayət Məcəlləsinin 192 (Qanunsuz sahibkarlıq), 192-1 (Qanunsuz olaraq lotereyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi), 193 (Yalançı sahibkarlıq), 205-1 (Saxta aksiz markalarını hazırlama, əldə etmə və ya satma) və 213-cü maddələrində (Vergi ödəməkdən yayınma) nəzərdə tutulmuş cinayətlər. Bu cinayətlərə dair işlər üzrə ibtidai istintaq AR VN tərəfindən aparılır.

VERGİ DAŞIYICISI – son nəticədə üzərinə vergi yükü qoyulan şəxs.

VERGİ DƏRƏCƏSİ – vergitutma bazasının vahidinin üzərinə düşən vergi hesablamalarının kəmiyyətcə ifadəsi. Adətən, iki formada ola bilər: advalor (latınca "ad valorem" – qiymətə uyğun) – vergitutma obyektinin dəyərinə nisbətən formalaşan dərəcə; spesifik – müəyyən olunmuş həddə tətbiq olunan dərəcə.

VERGİ DÖVRÜ – ayrı-ayrı vergi növləri üzrə vergitutma bazası müəyyən olunan və vergi məbləği hesablanan vaxt intervalı.

VERGİ GÜZƏŞTLƏRİ – vergi ödəyicisinin tam və ya qismən vergidən azad olunmasını təsbit edən qanunvericilik norması. Vergitutma bazasından vergitutma obyektinin müəyyən hissəsinin çıxılması, vergidən azad olunan gəlirin müəyyən edilməsi, vergi dərəcələrinin azaldılması və s. formalarda ola bilər.

VERGİ HARMONİZASİYASI – müxtəlif ölkələrin vergi sistemlərinin bir-birinə uyğunlaşdırılması. Vergi harmonizasiyası ideyası ilk dəfə 1950-ci ildə Fransanın xarici işlər naziri Şuman tərəfindən Gömrük İttifaqının yaradılması zamanı irəli sürülmüşdür. Lakin bu ideyanı o zaman reallaşdırmaq mümkün olmamışdır, çünki əsas prioritetlər vergi qanunvericiliyindəki disproporsiyaların hamarlaşdırılmasına yox, gömrük münasibətlərinin unifikasiyasına verilirdi. Avropanın vergi harmonizasiyası tarixində növbəti mərhələ Avropa Komissiyasının Memorandumu oldu. Memorandum məhsulların ixracatını stimullaşdıran müxtəlif vergi güzəştlərinin ləğv edilməsini, sonra isə dolayı vergiqoymada, daha sonra birbaşa vergiqoymada harmonizasiyanın həyata keçirilməsini nəzərdə tuturdu. Bununla da vergi harmonizasiyasının məqsədləri aşağıdakı kimi müəyyənləşdirildi:

- təsərrüfat subyektləri üçün bərabər rəqabət şərtlərinin yaradılması məqsədilə vergi sərhədlərinin sadələşdirilməsi;
- vergi sistemləri strukturunun, əsas vergi növlərinin yığılma qaydalarının uyğunlaşdırılması;
- ümumi daxili bazarın birləşməsi və unifikasiyası.

Vergilərin harmonizasiyası üzrə real addımlar 1967-ci ilin aprelində atılmışdır. Bu tarixdə Birliyin Nazirlər Şurası iştirakçı ölkələrin 1970-ci il yanvarın 1-dən gec olmayaraq, ƏDV yığımı üzrə Avropa sisteminə keçməsi barədə direktiv qəbul etmişdir. Daha sonra 1977-ci il mayın 17-də Nazirlər Şurası tərəfindən altıncı direktiv qəbul olunmuşdur. Bu direktivdə vergi qanunvericiliklərinin yaxınlaşması barədə ümumi maddələrdən başqa, ilk dəfə olaraq ƏDV hissəsində ümumi qanunvericiliyin hazırlanmasına dair əsas yanaşmalar müəyyənləşdirilmişdir.

Vergi harmonizasiyası zamanı əsas diqqət həmişə dolayı vergiqoymaya yönəldilirdi. Belə ki, 1993-cü il yanvarın 1-də ƏDV dərəcələrinin harmonizasiyası barədə qərarlar qəbul edilmişdir. AB Nazirlər Şurası aksizlərin harmonizasiyası ilə bir qədər gec məşğul oldu. Bütün aksizlər təsnifat kateqoriyalarına görə dörd qrupa bölünmüşdür:

- harmonizasıyaya məruz qalan aksizlər;

- müəyyən mallar üzrə təyin edilməsi xüsusi ekspertizanın olmasını tələb edən aksizlər;

- harmonizasiyaya lüzumu olmayan aksizlər;

- onlardan əldə edilən ƏDV gəlirlərini kompensasiya etməklə sadələşdirilməyə ehtiyacı olan aksizlər.

Birbaşa vergilər sahəsində vergi harmonizasiyasının məqsədi ümumi bazar çərçivəsində müxtəlif üzv dövlətlərin şirkətləri üçün daxili bazarın analoji hüquqi şərtlərinə uyğun olan hüquqi şərtlərin yaradılmasıdır. Hüquqi şəxslərdən tutulan vergilərin harmonizasiyası istiqamətində əsas yanaşmalar aşağıdakılardır:

- təşkilatların və müəssisələrin təmərküzləşməsi prosesinə vergi maneələrinin aradan qaldırılması və bununla da dünya bazarında uğurla rəqabət aparmaq qabiliyyətinə malik olan transmilli Avropa şirkətlərinin yaradılmasının stimullaşdırılması;

- korporasiya vergi bazasının hesablama üsullarına nəzərən ümumi yanaşmaların qəbul edilməsi və ikiqat vergiqoymanın ləğv edilməsi.

AB çərçivəsində birbaşa vergilərin unifikasiya mexanizminin yaranması özünün ilkin mərhələsindədir. Birbaşa vergi harmonizasiyası sahəsindəki real addımlar hələ ki, cüzidir və Birliyin Nazirlər Şurasının 1990-cı ildə qəbul edilmiş, 1992-ci ildə qüvvəyə minmiş iki direktivindən ibarətdir. Direktivlər müxtəlif üzv dövlətlərin şirkətlərinin birləşməsi, ayrılması, udulması və iştirak payının əldə edilməsi hallarında vahid vergi sistemi barədə, əsas və törəmə şirkətlərin vahid vergi sistemi barədə idi. Bunlardan əlavə, 1990-cı ildə öz aralarında asılı olan müəssisələrin ikiqat vergi tutulmasının aradan qaldırılması barədə Konvensiya qəbul edilmişdir. 1997-ci ilin dekabrında isə vergiqoymada davranış Kodeksi qəbul edilmişdir. Bu Kodeks vergiqoymada yeni güzəştlərə qadağalar yolu ilə və ya mənfəətə qoyulan vergi dərəcəsini azaldan inzibati tədbirlər yolu ilə vergi rəqabətinin tətbiq edilmə imkanını məhdudlaşdırır.

VERGİ HESABATI – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada vergi ödəyicisi tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya müvafiq qanunvericiliyə uyğun olaraq, elektron sənəd formasında göndərilməsi də daxil olmaqla) təqdim edilən bəyannamə.

AR VM-in 72-ci maddəsində vergi hesabatının tərtib edilməsi və verilməsi qaydası göstərilmişdir. VM-ə və ona müvafiq qəbul edilmiş qanunlara uyğun olaraq, vergi hesabatını, yəni vergi bəyannaməsini verməyə borclu olan vergi ödəyiciləri onu nəzərdə tutulmuş müddətlərdə AR VN-in müəyyənləşdirdiyi formada və yerdə vergi orqanına verməlidirlər. Vergi hesabatları vergi ödəyicisi tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya müvafiq qanunvericiliyə uyğun olaraq elektron sənəd formasında göndərilməsi də daxil olmaqla) təqdim edilə bilər. Qanunvericiliyə müvafiq olaraq, vergi ödəyi-


cisinin vergi hesabatının tərtib edilməsində müstəqil auditor iştirak edirsə, o, vergi hesabatını imzalamalı, möhür vurmalı və öz vergi ödəyicisinin eyniləşdirmə nömrəsini göstərməlidir. Hesabatı bir nəfərdən çox tərtibatçı hazırlayırsa, onu ancaq baş tərtibatçı imzalayır.

Vergi orqanı tərəfindən vergi hesabatının onun barəsində kameral vergi yoxlaması aparıldıqdan sonra və ya hər hansı digər hərəkətlərin həyata keçirilməsi ilə qəbul edilməsinin şərtləndirilməsi yolverilməzdir və qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. Vergi orqanı tərəfindən vergi hesabatı yalnız aşağıdakı hallardan biri olduqda qəbul edilmir:

- vergi ödəyicisinin eyniləşdirmə nömrəsi göstərilmədikdə və ya səhv göstərildikdə;
- vergi dövrü əks olunmadıqda;
- vergi ödəyicisi olan hüquqi şəxs tərəfindən kağız daşıyıcısı vasitəsi ilə verilən vergi hesabatı imzalanmadıqda və möhürlə təsdiq olunmadıqda;
- vergi ödəyicisi olan fiziki şəxs tərəfindən vergi hesabatı imzalanmadıqda;
- vergi ödəyicisi olan hüquqi və fiziki şəxslər tərəfindən elektron sənəd formasında göndərilən vergi hesabatı müvafiq qanunvericiliyin və ya qaydaların tələblərinə uyğun olmadıqda.

VERGİ HESABATININ ELEKTRON SƏNƏD FORMASINDA GÖNDƏRİLMƏSİ – AR NK-nın 2007-ci il 27 iyul tarixli 120 nömrəli qərarı ilə təsdiq edilmiş göndərilmə Qaydası. Bu Qayda AR VM-ə və digər normativ hüquqi aktların tələblərinə uyğun olaraq hazırlanmışdır və məqsədi AR-in qanunvericilik aktlarına uyğun olaraq, vergi bəyannamələrinin (hesabatların) vergi ödəyicisi tərəfindən elektron şəkildə təqdim edilməsi, vergi orqanları tərəfindən onların qəbulu və bu barədə vergi ödəyicisinə elektron şəkildə bildirişin verilməsi işlərinin tənzimlənməsi ilə «Elektron hökumət» layihəsi çərçivəsində dövlət orqanlarının vətəndaşlara və təşkilatlara təqdim etdiyi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına və onların təqdim olunma prosedurlarının beynəlxalq standartlara uyğunlaşdırılmasına nail olmaqdır.

Elektron mübadilənin aparılması üçün vergi orqanına təqdim olunan ərizənin və müqavilənin forması AR VN tərəfindən təsdiq edilir, bu formalar, habelə zəruri proqram təminatları, onlardan istifadə qaydaları üzrə təlimat və digər metodik məlumatlar VN-in www.e-taxes.gov.az İnternet Vergi İdarəsi saytında yerləşdirilir. VN tərəfindən müəyyən edilmiş formatda tərtib edilən və vergi orqanına təqdim



olunan elektron sənəd kağız və ya yazılı şəkildə digər məlumat daşıyıcısı üzərindəki sənədin ekvivalentidir və onunla eyni hüquqi qüvvəyə malikdir.

Bəyannamənin (hesabatın) və bildirişin elektron şəkildə tərtib və təqdim olunması üçün zəruri proqram təminatları VN tərəfindən hazırlanır və müqavilə əsasında əvəzsiz (ödənişsiz) vergi ödəyicisinə verilir.

Vergi ödəyicisi vergi orqanına təqdim etdiyi elektron bəyannamələrin (hesabatların) və vergi orqanından daxil olmuş bütün elektron sənədlərin 7 ildən az olmayan müddət ərzində saxlanılmasını təmin edir.

Vergi ödəyicisi elektron sənəd mübadiləsi üçün istifadə olunan istifadəçi kodunu, şifrəni və parolu məxfi saxlayır, onları başqa şəxslərə istifadə üçün vermir, istifadəçi kodu, parol və şifrədən başqaları tərəfindən istifadə olunduğunu bildikdə, dərhal uçotda olduğu vergi orqanına yazılı məlumat verir.

Vergi ödəyicisi (rəhbəri) vergi bəyannamələrini elektron şəkildə göndərmək üçün müvafiq ərizəni və 2 nüsxədə müqavilə formasını doldurub imzalayır (möhürləyir) və uçotda olduğu vergi orqanına təqdim edir. Vergi orqanı vergi ödəyicisinin ərizəsini qəbul etdiyi tarixdən sonrakı 2 gün müddətində müqavilənin imzalanıb (möhürlənib) təsdiq edilməsini təmin edir. Müqavilə imzalandıqdan sonra onun bir nüsxəsi və elektron sənəd mübadiləsinin aparılması üçün zəruri istifadəçi kodu, şifrə və parol vergi ödəyicisinə qapalı zərfdə təqdim edilir. Müqavilənin qarşılıqlı imzalanması ilə vergi ödəyicisi bəyannamələrini vergi orqanına elektron şəkildə təqdim etmək hüququnu əldə edir və vergi orqanındakı qeydiyyat məlumatlarına və büdcə qarşısındakı öhdəliklərinə baxış imkanına malik olur.

Vergi ödəyicisi elektron sənəd mübadiləsi ilə bağlı VN-in bütün təlimat və qaydalarına əməl edir, elektron bəyannaməni (hesabatı) qanunvericilikdə müəyyən olunmuş müddətlərdə vergi orqanına göndərir. Müqavilənin qüvvədə olduğu müddətdə eyni hesabat dövrü üzrə eyni tip bəyannamə vergi ödəyicisi tərəfindən yalnız bir formatda (elektron və yaxud kağız formatda) təqdim edilə bilər.

Bəyannamələrin (hesabatların) elektron şəkildə təqdim edilməsi üçün vergi ödəyicisi tərəfindən internet bağlantısından və zəruri proqram təminatlarından istifadə edilir. Bu proqram təminatları vergi ödəyicisi tərəfindən öz kompüterinə İnternet Vergi İdarəsinin saytının müvafiq bölməsindən yüklənib quraşdırılmalıdır.

Elektron sənədlərin dəqiqliyi ilə əlaqədar mübahisə yarandığı halda, mübahisənin yaranma səbəbi, vergi orqanına (və ya vergi ödəyicisinə) mübahisə predmeti olan elektron sənədin tarixi və nömrəsi göstərilməklə, yazılı müraciət olunur. Müraciətə fayl şəklində olan mübahisəli elektron sənəd və təsdiqedici elektron sənəd əlavə edilir.

Vergi ödəyicisi vergi orqanına müvafiq yazılı ərizə verməklə elektron sənəd mübadiləsinin aparılmasından imtina edə bilər.

Vergi ödəyicisi elektron sənəd mübadiləsi üçün nəzərdə tutulmuş

texniki qayda və normalara əməl etmədikdə, vergi orqanı hesabat dövrünün başa çatmasına azı 10 gün qalmış ona xəbərdarlıq etməklə elektron sənəd mübadiləsinin aparılmasından birtərəfli qaydada imtina edə bilər.

VERGİ HESABATININ VAXTINDA VERİLMƏMƏSİNƏ GÖRƏ MALİYYƏ SANKSİYALARI – AR VM-in 57-ci maddəsində nəzərdə tutulan sanksiyalar. Həmin maddəyə görə vergi hesabatını və VM-nin 16.2-ci maddəsində nəzərdə tutulmuş arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 40 manat məbləğində, VM-in 23-cü maddəsində göstərilən sənədlərin (o cümlədən elektron formatda məlumatların) bilərəkdən təhrif olunmuş formada təqdim edilməsinə, habelə tərtib edilmiş sənədlərin və ya məlumatların qanunla müəyyən edilmiş müddətdə üzrlü səbəb olmadan saxlanılmamasına görə vergi ödəyicisinə və ya üçüncü şəxsə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

VERGİ HÜQUQU – AR-də vergi və digər ödəmələrin müəyyən edilməsi, tətbiqi və dövlət büdcəsinə, bələdiyyə büdcələrinə və büdcədənkənar məqsədli fondlara ödənilməsi, habelə vergi nəzarətinin həyata keçirilməsi, vergi orqanlarının aktlarından, onların vəzifəli şəxslərinin hərəkət və ya hərəkətsizliyindən şikayət verilməsi, eyni zamanda vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət müəyyən edilməsi zamanı yaranan münasibətləri nizama salan maliyyə-hüquq normalarının məcmusu.

VERGİ XİDMƏTİ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI – VN-in yaradılması barədə AR Prezidentinin fərmanının imzalandığı gün. Fərman 11 fevral 2000-ci il tarixdə imzalanmışdır.

VERGİ XİDMƏTİ İŞÇİLƏRİNİN RÜTBƏLƏRİ – vergi orqanlarının vəzifəli şəxslərinə vergi orqanlarında tutduğu vəzifəsinə, ixtisasına, iş stajına və əldə olunmuş nailiyyətlərinə görə fərdi qaydada verilən xüsusi rütbələr.

VERGİ İLİ – mənfəət və ya gəlir vergisi üzrə vergitutma bazası müəyyən olunan və vergi məbləği hesablanan dövr.

VERGİ İMMUNİTETİ – vergi qanunvericiliyinə, yaxud beynəlxalq hüquqa uyğun olaraq, ayrı-ayrı hüquqi və fiziki şəxslərin vergi öhdəliyindən azad edilməsi. Latınca "immunitas" "güzəşt", "nədənsə (o cümlədən mükəlləfiyyətdən) azad olmaq" deməkdir.

Dünyanın, demək olar ki, hər yerində bütün dövrlərdə vergi ödəməyən şəxslər olmuşlar. Qədim Hindistanda vergi yığılmasında tətbiq edilən Manu qanunlarını bilənlər vergidən azad edilirdilər. İndiki İran ərazisində olan qədim dövlətlərdə əyanlar, əsgərlər, ruhanilər, mirzələr və sarayın vəzifəli şəxsləri vergi ödəmirdilər. Vergi immuniteti Roma imperiyasında vətəndaşlığı olanlara verilirdi. Avropada feodalizm dövründə ruhanilər və zadəganlar bu immunitetdən istifadə edirdilər.

Qarabağ xanlığında xüsusi xidməti olanları xan vergidən azad edirdi və onlara məaf (ərəb sözüdür, "azad

olmuş", "qurtulmuş" mənasında işlənir) deyirdilər.

Müasir beynəlxalq hüquq və xüsusi beynəlxalq sazişlər diplomatik nümayəndəliklərin, konsul idarələrinin, onlara bərabər tutulan idarə və təşkilatların əməkdaşlarının və ailə üzvlərinin vergi immunitetini nəzərdə tutur. Lakin onlar olduqları ölkə ərazisində daşınmaz əmlaka və həmin ölkədəki mənbədən əldə etdikləri gəlirlərə görə vergi ödəməlidirlər.

VERGİ KREDİTİ – vergi orqanı tərəfindən verginin ödənmə müddətinin dəyişdirilməsi. Bir sıra ölkələrin, o cümlədən RF-nin qanunvericiliyində nəzərdə tutulmuş vergi güzəştidir. Məsələn, RF-də verginin ödənmə müddəti 3 aydan bir ilə qədər aşağıdakılar baş verdikdə dəyişdirilə bilər:

- təbii fəlakət nəticəsində şəxsə ziyan dəydikdə;
- dövlət sifarişini yerinə yetirən şəxsin büdcədən maliyyələşdirilməsi ləngidikdə;
- şəxsin vergini birdəfəyə ödəməsi müflisləşmə təhlükəsi yaratdıqda.

VERGİ KVOTASI – vergi ödəyicisinin gəlirindən tutulan vergi məbləğinin faizlə göstərilən miqdarı (vergi dərəcəsi); latın sözü "quota" – "hissə", "pay" deməkdir.

VERGİ QALIĞI – yerinə yetirilməyən və ya tam yerinə yetirilməyən vergi öhdəliyi.

VERGİ QANUN POZUNTUSU – AR VM, AR İnzibati Xətalar Məcəlləsi və AR-in digər qanunları ilə müəyyən edilmiş hər hansı normanın vergi ödəyiciləri, vergi agentləri və onların nümayəndələri, habelə vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən pozulması.

VERGİ QANUNVERİCİLİYİ – bax: *Azərbaycan Respublikasının vergi qanunvericiliyi.*

VERGİ QANUNVERİCİLİYİ İLƏ TƏNZİMLƏNƏN MÜNASİBƏTLƏRİN İŞTİRAKÇILARI – Vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçıları aşağıdakılardır: VM-ə uyğun olaraq vergi ödəyicisi hesab edilən hüquqi və fiziki şəxslər; VM-ə uyğun olaraq vergi agenti hesab edilən hüquqi və fiziki şəxslər; AR-in dövlət vergi orqanları; AR-in gömrük orqanları; VM ilə nəzərdə tutulan məsələlərin həlli ilə bağlı maliyyə orqanları; VM ilə nəzərdə tutulan hallarda vergi ödəyicilərindən vergilərin ödənilməsi üçün vəsaitlərin alınmasını və onların büdcəyə köçürülməsini, vergi və gömrük orqanlarından başqa, müəyyən edilmiş qaydada həyata keçirən dövlət hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, digər səlahiyyətli orqanlar və vəzifəli şəxslər.

VERGİ QANUNVERİCİLİYİ ÜZRƏ BANKLARIN VƏZİFƏLƏRİ – banklar və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları tərəfindən məlumatların verilməsi. AR VM-in 76-cı maddəsinə görə vergi ödəyicisinin qanunvericiliklə müəyyən edilmiş qaydada gəlirlərinin və xərclərinin uçotunun aparılmaması, mühasibat və hesabat sənədlərinin məhv olunması (itirilməsi) halları aşkar edildikdə, habelə vergi bəyannamələri müəyyən olunmuş müddətdə təqdim edilmədikdə və ya vergi yoxlamasının aparılması zamanı vergi ödəyicisi tərəfindən vergi orqanlarının vəzifəli

şəxslərinə sənədlər təqdim edilmədikdə, onlara ərazi və ya binalara (yaşayış binaları (sahələri) istisna olmaqla) daxil olmağa icazə verilmədikdə, vergi ödəyicisinin vergi öhdəliklərini müəyyənləşdirmək məqsədi ilə vergi orqanları müvəkkil banka yazılı bildiriş göndərməklə həmin bankın xidmət etdiyi hər hansı hüquqi şəxsin və ya fərdi sahibkarın bank hesabı və əməliyyatları barədə qanunvericiliyə uyğun olaraq məlumat almaq hüququna malikdirlər. Müvəkkil bank AR VN-in təsdiq etdiyi formada göndərilən bildirişi aldıqdan sonra həmin bildirişdə göstərilən məlumatların vergi orqanına veriləcəyi barədə 5 gün ərzində hüquqi şəxsə və fərdi sahibkara rəsmi məlumat göndərməlidir (verməlidir). Bu rəsmi məlumat göndərildikdən (verildikdən) sonra 15 gün ərzində bildirişdə göstərilən məlumatların verilməsinə etiraz edilməsi haqqında hüquqi şəxsin və fərdi sahibkarın ərizəsinə məhkəmədə baxılacağı barədə aidiyyəti məhkəmədən məlumat daxil olmadıqda, müvəkkil bank hüquqi şəxsin və fərdi sahibkarın hesabları və ya əməliyyatları barədə məlumatı vergi orqanına göndərir. Digər hallarda hüquqi şəxsin və fərdi sahibkarın hesabları və ya əməliyyatları barədə məlumatların verilməsinə yol verilmir.

VERGİ QANUNVERİCİLİYİNƏ RİAYƏT EDİLMƏSİ MƏSƏLƏLƏRİ ÜZRƏ ƏMƏKDAŞLIQ VƏ QARŞILIQLI YARDIM HAQQINDA BEYNƏLXALQ SAZİŞ – vergitutma sahəsində bağlanan saziş növü. Qarşılıqlı yardım haqqında müqavilələr ya yardımın bütün növlərini əhatə etməklə bağlana bilər, ya da ayrılıqda məlumat mübadiləsi haqqında, yaxud vergilərin toplanmasında yardım haqqında müqavilə formasında bağlana bilər. Məsələn, vergi qanunvericiliyinin tələblərinə əməl edilməsi üzrə bu cür sazişlər bəzi MDB ölkələri arasında imzalanmışdır.

VERGİ QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT – vergi ödəyicilərinin, vergi agentlərinin və onların nümayəndələrinin, habelə vergi orqanlarının vəzifəli şəxslərinin vergi qanunvericiliyinin pozulmasına görə VM, AR İXM və AR-in digər qanunları ilə müəyyən edilmiş qaydada məsuliyyəti. Bu məsuliyyətin ümumi əsasları AR VM-in 53-cü maddəsində göstərilmişdir. Həmin maddəyə görə, vergi qanunvericiliyini pozmuş vergi ödəyicilərinə və vergi agentlərinə VM ilə müəyyən edilmiş maliyyə sanksiyaları və faizlər tətbiq edilir; heç bir kəs vergi qanunvericiliyinin pozuntusu olan eyni hərəkətə (hərəkətsizliyə) görə təkrarən məsuliyyətə cəlb oluna bilməz; vergi qanunvericiliyinin pozulması faktını təsdiq edən halların və vergi ödəyicisinin təqsirinin sübut edilməsi vergi orqanlarının üzərinə qoyulur; vergi qanunvericiliyinin pozulmasında vergi ödəyicisinin təqsirinin olmasında aradan qaldırılmaz şübhələr olduqda, onlar vergi ödəyicisinin xeyrinə şərh olunur; vergi ödəyicisinin vergitutma obyektinin uçotunda, vergilərin hesablanmasında və ödənilməsində yol verdiyi səhvləri müstəqil düzəltmək hüququ vardır; bu

müddəalar vergi agentlərinə də şamil edilir.

Vergi ödəyicisi tərəfindən vergi qanunvericiliyinin bir neçə pozuntusuna yol verildikdə, maliyyə sanksiyaları hər pozuntuya münasibətdə ayrıca tətbiq edilir.

Vergi qanunvericiliyinin pozulmasına görə maliyyə tənbehinə məruz qalmış şəxs tənbehin icra olunması günündən sonrakı 1 il ərzində vergi qanunvericiliyinin eyni cür pozuntusuna yol vermədikdə, o, tənbehə məruz qalmamış hesab edilir.

AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə, qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas ixrac boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə başqa qaydalar nəzərdə tutulmadığı hallarda, bu sazişlər çərçivəsində fəaliyyət üzrə vergi hesabatını əsas olmadan müəyyən edilən müddətdə təqdim edilməməsinə görə vergi ödəyicisinin vəzifəli şəxsinin (şəxslərinin) həmin hərəkətə görə inzibati məsuliyyətə cəlb edilməsi AR İXM-ə müvafiq olaraq həyata keçirilir (AR VM, maddə 53.8).

VERGİ QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏTƏ CƏLB OLUNMANI İSTİSNA EDƏN HALLAR – AR VM-in 54-cü maddəsində göstərilmiş hallar. Bu maddəyə görə şəxs aşağıda müəyyən olunmuş hallardan ən azı biri olduqda, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilə bilməz:

- vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusu hadisəsinin olmaması;

- vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusunda şəxsin təqsirinin olmaması;

- vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusunu törədən fiziki şəxsin həmin əməl törədildiyi ana məsuliyyətə cəlb edilmə yaşına çatmaması;

- vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlbetmə müddətinin qurtarması.

VERGİ QANUNVERİCİLİYİNİN POZULMASINDA ŞƏXSİN TƏQSİRİNİ İSTİSNA EDƏN HALLAR – AR VM-in 55-ci maddəsində göstərilmiş hallar. Bu maddəyə görə, vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edən hallar aşağıdakılardır:

- vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunun təbii fəlakət, yaxud digər fövqəladə və qarşısıalınmaz hadisələr nəticəsində törədilməsi;

- vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunun vergi ödəyicisi – fiziki şəxs tərəfindən xəstə halı ilə əlaqədar olaraq öz hərəkətlərinə nəzarət (özünə hesabat verməyi) və rəhbərlik etməyi bacarmadığı vəziyyətdə törədilməsi;

- vergi ödəyicisi və ya vergi agenti tərəfindən vergi orqanının və ya digər səlahiyyətli dövlət orqanının, yaxud onların vəzifəli şəxslərinin öz səlahiyyətləri daxilində verdikləri yazılı göstərişlərinin və ya izahatlarının yerinə yetirilməsi;

- vergi orqanlarının qərarlarına yenidən baxıldıqda vergi ödəyicisinin hərəkətləri üçün hüquqi əsaslar olmasının aşkar edilməsi;

- hər hansı vergilər, o cümlədən vergi agentləri tərəfindən ödənilən

vergilər üzrə artıq ödənilmiş məbləğlərin hesabına digər vergilər üzrə borcların nəzərə alınması;

- vergilərin düzgün hesablanmaması və vergi öhdəliklərinin yerinə yetirilməməsi ilə bağlı vergi qanun vericiliyinin pozulmasının vergi orqanının yoxlamasına qədərki dövrdə vergi ödəyicisinin özü tərəfindən aradan qaldırılması.

VERGİ QEYDİYYATI – vergi ödəyicilərinin, onların nümayəndəliklərinin, filiallarının, təsərrüfat suyektlərinin (obyektlərinin) və nəzarət kassa aparatlarının qanunvericilikdə müəyyən edilmiş qaydada vergi uçotuna götürülməsi.

VERGİ QİYAMLARI – Dünyanın demək olar ki, hər yerində vergi yükünün ağırlığı dözülməz olduqda əhali qiyam qaldırırdı. Təkcə Avropada indiyə qədər 80-dən artıq vergi qiyamının baş verdiyi məlumdur. Bütün hallar gərgin qarşıdurma və böyük tələfatla nəticələnirdi. 532-ci ildə Bizans imperiyasında I Yustinianın hakimiyyəti dövründə qiyamın yatırılması zamanı 35000-dən artıq adam öldürülmüşdü.

Azərbaycan ərazisində 794-cü ildə Abbasilərin 5-ci xəlifəsi Harun ər-Rəşidin dövründə ərəb amilinin öldürülməsi ilə qiyam başlandı. Xəlifə əvvəlcə qiyamçılara qarşı 5000 süvaridən ibarət ordu göndərdi. Lakin həmin ordu və bundan sonra göndərilmiş daha iki ordu qiyamçılar tərəfindən məğlub edildi. Qəzəblənmiş xəlifə bu dəfə 30000 əsgərdən ibarət üç ordu göndərdi. Qiyamçılara qarşı üç tərəfdən hücum onların ağır məğlubiyyəti ilə nəticələndi.

1381-ci ildə İngiltərədə Uot Taylerin başçılıq etdiyi və çox ağır olan can vergisi əleyhinə olan qiyam da çətinliklə yatırılmışdı.

1648-ci ildə Rusiya çarı Aleksey Mixayloviç duza vergini 4 dəfə (5 qəpikdən 20 qəpiyə qədər) artırdı. Ölkədə "Duz qiyamı" adlanan qiyam başlandı. Dövlət qiyamı yatıra bilmədi və çar təzədən vergini əvvəlki həddinə qaytarmağa məcbur oldu.



Rusiya çarı Aleksey Mixayloviç (1629-1676)

Vergi qiyamlarından biri daha gözlənilməz nəticəyə gətirib çıxarmışdır: ABŞ-ın yaranmasına səbəb olmuşdur. Bu qiyam Boston limanında başlanmışdı. Qiyamın qarşısını almaq məqsədilə Böyük Britaniya hökuməti limanı bağladı və bu hadisə vəziyyəti daha da gərginləşdirdi. Narazı əhali qiyamçılara qoşuldu və bunun nəticəsində Böyük Britaniya Amerika qitəsindəki müstəmləkəsini itirdi. Yeni müstəqil dövlət (ABŞ) yarandı.

VERGİ QOYULMAYAN MİNİMUM MƏBLƏĞ – qanunvericiliklə müəyyən olunmuş vergitutma obyektinin vergi tutulmayan (sıfıra bərabər) hissəsi, yaxud vergi məqsədləri üçün vergitutma obyektinin vergi tutulan hissəsinin vergi güzəştləri və azadolmalar şəklində azaldılan məbləği. Məsələn, fiziki şəxslərin əmlak vergisi üzrə onların xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyərinin 5000 manatadək olan hissəsindən vergi tutulmaması.

VERGİ MƏCƏLLƏSİ – bax: *Azərbaycan Respublikasının Vergi Məcəlləsi.*

VERGİ MƏDƏNİYYƏTİ – vergi münasibətləri sahəsində qayda və prinsiplərə həm vergi ödəyicilərinin, həm də vergi orqanlarının riayət etməsi səviyyəsinin keyfiyyət ölçüsü. Vergi mədəniyyəti, əslində, ayrı-ayrı fərdlərdən daha çox cəmiyyətə aiddir. Ən intizamlı vergi ödəyicisi də ağır vergi yükü altında zorakılıqla, qanun pozuntuları ilə qarşılaşsa, onun intizamından əsər-əlamət qalmayacaq. Yüksək vergi mədəniyyətinə o zaman nail olmaq mümkündür ki, ölkədə qanunlara ciddi riayət edilsin, əhalinin maddi rifah səviyyəsi yüksək olsun, vergilər mükəmməl vergi qnunvericiliyinə uyğun ödənilsin, sahibkarlıq fəaliyyətinə geniş imkanlar yaradılsın. İnkişaf etmiş mədəni cəmiyyətdə vergidən yayınmaq istəyənlərin sayı çox olmur və onlar da qanunla nəzərdə tutulmuş qaydada cəzalandırılırlar.

Vergi mədəniyyətinin inkişafına aşağıda göstərilən amillər təsir edir:

- iqtisadi vəziyyət; iqtisadi vəziyyətin ağırlığı həm vergi yığanlar, həm də vergi ödəyənlər üçün böyük problemlər yaradır; lakin vəziyyət yaxşılaşdıqca ayrı-ayrı fərdlərin qazancı artır, dolanışıq səviyyəsi yüksəlir, vergi ödəmək asanlaşır; beləliklə, vergi mədəniyyəti inkişaf edir;

- bioloji kod; hər bir şəxsin bioloji kodu onun genetik xüsusiyyətlərini müəyyənləşdirir; bu xüsusiyyətlərin isə ümumi mədəni səviyyə, habelə vergi mədəniyyəti üçün əhəmiyyəti böyükdür; əqli və fiziki cəhətdən normal insanlar mədəniyyətə daha tez yiyələnirlər; onlar səmərəli fəaliyyət göstərir, gəlir əldə edir və qanuna uyğun olaraq öhdələrinə düşən məsuliyyəti dərk edib vaxtında vergiləri ödəyirlər;

- sosial mühit; dövlətin siyasi sistemindən asılı olan sosial mühit həm mədəniyyətə, həm də xüsusi halda vergi mədəniyyətinə güclü təsir edir;

- vergi sistemi; hər bir ölkədə özəl vergi sistemi mövcuddur və müvafiq vergi qanunları qüvvədədir; mükəmməl vergi sistemi yoxdursa, vergi mədəniyyəti də ola bilməz;

- tarixi şərait; ölkənin iqtisadiyyatını və mədəniyyətini tarixi şəraiti nəzərə almadan təsəvvür etmək mümkün deyil; vergi mədəniyyəti isə iqtisadiyyatdan asılı olduğuna və ümumi mədəniyyətin tərkib hissəsi olduğuna görə tarixi şəraitin dəyişməsi vergi mədəniyyətinin səviyyəsini dəyişdirir.

Bu mədəniyyətin səviyyəsinin yüksəlməsinə mane olan əsas səbəblər aşağıdakılardır:

- əhalinin hökumətə inamsızlığı;

- vergi qanunvericiliyinin mükəmməl olmaması;

- vergi orqanlarında qanunlara riayət edilməməsi, rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə aparılmaması;



- kölgə iqtisadiyyatının inkişafı;
- vergi ödəyicilərinin təsərrüfat fəaliyyətinin əhəmiyyətinin azalmasına səbəb olan yüksək vergilər;
- vergilərdən yayınma;
- vergi ödəyicilərinə vergilərin növləri, onların dərəcələri, ödənmə vaxtı və s. barədə zəruri informasiyanın verilməməsi;
- vergilərin əhəmiyyəti barədə təşviqat xarakterli materialların yayılmaması.

İctimai-siyasi quruluşundan asılı olmayaraq, bütün cəmiyyətlərdə hər bir şəxsin vergi mədəniyyətinin səviyyəsini bilik, mütəşəkkillik və əxlaq müəyyən edir. Bilikli vətəndaş vergilər barədə ən zəruri məlumatları, vergi qanunlarını, vergi güzəştlərini, qanunvericiliyin pozulmasına görə məsuliyyət daşıdığını bilir və ona görə də çalışır ki, vergiləri vaxtında ödəsin. Bundan əlavə, mütəşəkkilliyin, yəni qayda-qanuna riayətin, məsuliyyətin, nizam-intizamın və əxlaqın, yəni yüksək mənəvi xüsusiyyətlərə malik olmağın, vətənpərvərliyin, ədalətliliyin, xeyirxahlığın və doğruçuluğun da əhəmiyyəti böyükdür.

VERGİ NƏZARƏTİ – vergi ödəyicilərinin fəaliyyətinə vergi qanunvericiliyinə əməl edilməsi nöqteyinəzərindən vergi orqanları tərəfindən həyata keçirilən nəzarət. Bu nəzarət vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotuna, habelə vergi qanunvericiliyinə riayət olunmasına vahid nəzarət sistemidir. Vergi orqanları vergi nəzarətini vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotunu aparmaqla, uçot və hesabat məlumatlarını yoxlamaqla, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparmaqla, gəlir əldə etmək üçün istifadə olunan binalara baxış keçirməklə və VM ilə müəyyən edilmiş digər formalarda həyata keçirirlər.

VERGİ ORQANINDA ŞİKAYƏTƏ BAXILMA – AR VM-in 63-cü maddəsində göstərilmiş şikayətə baxılma qaydaları. Həmin maddəyə görə vergi ödəyicisinin və ya başqa borclu şəxsin vergi orqanının qərarlarından (aktlarından), vergi orqanının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətinə yuxarı vergi orqanı və ya onun vəzifəli şəxsi tərəfindən həmin şikayət alındığı gündən 30 gün müddətində baxılır və şikayət vermiş şəxsə yazılı cavab verilir; qəbul edilmiş qərar barəsində şikayət vermiş şəxsə 10 gün müddətində yazılı cavab verilməlidir.

Vergi ödəyicisi ona hesablanmış verginin məbləği ilə razı olmadığı halda, verginin ödənilməsini dayandırmadan bilavasitə vergi nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına (AR VN-ə) və ya məhkəməyə şikayət verə bilər; vergi ödəyicisinin şikayətə baxılan müddət ərzində maliyyə sanksiyasını ödəməmək hüququ vardır.

Şikayət edilən qərar (akt) və ya hərəkət AR qanunvericiliyinə uyğun olmadıqda, şikayətə baxan vergi orqanı (vəzifəli şəxsi) onun icrasını tam və ya qismən dayandıra bilər; qərarın (aktın) və ya hərəkətin icrasını tam və ya qismən dayandırmaq barədə qərarı həmin aktı qəbul etmiş vergi orqanının rəhbəri və ya yuxarı vergi orqanı qəbul edir.

Hesablanmasından və ya tətbiq edilməsindən şikayət edilən verginin, faizlərin və ya maliyyə sanksiyasının məbləği hesablanmaya (tətbiq edilməyə) uyğun şəkildə ödənildiyi və bu şikayətin təmin edilməsi nəticəsində vergi, faizlər və ya maliyyə sanksiyası tamamilə və ya qismən ləğv edildiyi halda, vergi ödəyicisinin aşağıdakılara hüququ vardır:

- səhv tutulan məbləğlərə görə VM-in 61.2-ci maddəsinə uyğun olaraq kompensasiya almaq;
- həmin məbləğlərdən faizlər almaq.

VERGİ ORQANINDA UÇOTA ALINMA – vergi nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədi ilə vergi ödəyicisi olan hüquqi şəxslərin, filial və nümayəndəliklərin olduqları (dövlət qeydiyyatı haqqında sənədlərdə qeyd olunmuş hüquqi ünvan), vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirdən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlərin Azərbaycan mənbəyindən gəlirin alındığı yer üzrə, fərdi sahibkarların və VM-in müddəalarına uyğun olaraq bəyannamə verməli olan rezident fiziki şəxslərin yaşadıqları yer üzrə vergi orqanlarında uçota alınması.

VERGİ ORQANINDA UÇOTA ALINMA ŞƏHADƏTNAMƏSİ – hüquqi və ya fiziki şəxsin vergi uçotuna dayanmasını təsdiq edən və özündə onların adını, VÖEN-ni və ünvanını əks etdirən, blankın təkrar çapdan müdafiə məqsədi ilə xüsusi gizli nişanları olan sənəd.

VERGİ ORQANINDA UÇOTDAN ÇIXARILMA – hüquqi şəxs qanunamüvafiq qaydada ləğv edildikdə, fiziki şəxs isə vəfat etdikdə vergi ödəyicisinə verilmiş VÖEN məlumat bazasında ləğv edilmiş kimi arxivləşdirilir. Fiziki şəxsin fəaliyyətinə xitam verildikdə ona verilmiş VÖEN məlumat bazasından çıxarılaraq arxivləşdirilir.

VERGİ ORQANINDA YENİDƏN UÇOTA ALINMA – fəaliyyətinə xitam verilmiş fiziki şəxs yenidən fəaliyyətə başlayarkən arxivləşdirilmiş VÖEN məlumat bazasında bərpa olunur.

VERGİ ORQANLARI – vergi qanunvericiliyinə əsasən vergi ödəyicisi kimi müəyyən olunan şəxslər tərəfindən vergilərin hesablanmasına, bəyan edilməsinə və ödənilməsinə nəzarətedici qurum olan VN və onun struktur vahidləri.

"VERGİ ORQANLARI İLƏ SƏMƏRƏLİ ƏMƏKDAŞLIĞA GÖRƏ" MEDALI – VN-in 10 illik yubileyi ilə əlaqədar AR-in 29 dekabr 2009-cu il tarixli 937-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş, vergi sisteminin inkişafı sahəsində göstərdikləri səmərəli əməkdaşlığa görə istər AR-in, istərsə də digər dövlətlərin vətəndaşlarına təqdim olunan dövlət təltifi. Medal bürüncdən tökülmüş, qızılı rəngli, dairəvi formalı,



diametri 50 mm olan lövhədən ibarətdir. Səkkizguşəli ulduz formasındadır, ön tərəfində dairənin içərisində VN-in tanınma nişanı həkk edilmişdir. Dairədə çevrə boyunca «SƏMƏRƏLI ƏMƏKDAŞLIĞA GÖRƏ» sözləri həkk olunmuşdur. Medalın arxa tərəfi hamar səthlidir və paltara bərkidilmək üçün xüsusi elementi vardır.

VERGİ ORQANLARI İŞÇİLƏRİNİN SOSİAL MÜDAFİƏSİ – vergi orqanlarının işçilərinin vəziyyətlərinin yaxşılaşdırılmasına yönələn konkret iqtisadi, hüquqi və təşkilati xarakterli məqsədyönlü tədbirlər kompleksi. Vergi orqanları işçilərinin sosial müdafiəsi onların dövlət büdcəsinin vəsaiti hesabına icbari surətdə qanunla müəyyən olunmuş qaydada sığorta olunmasını, dövlət büdcəsinə daxil olan maliyyə sanksiyaları məbləğinin müəyyən faizi hesabına büdcədənkənar fond yaradılmasını nəzərdə tutur.

VERGİ ORQANLARI TƏRƏFİNDƏN VERGİLƏRİN HESABLANMASI – AR VM-in 83-cü maddəsi ilə müəyyən olunmuş qaydada aparılır. Vergi məbləğinin hesablanması konkret hesabat dövrü üçün vergi ödəyicisinin ödəməli olduğu vergi məbləğinin vergi orqanının uçot sənədlərində qeyd edilməsi deməkdir. Hesablanmış vergi məbləğlərinin vergi orqanları tərəfindən müəyyən edilmiş hallarda yenidən hesablanaraq uçot sənədlərində qeyd edilməsi də vergilərin hesablanması deməkdir. Vergi orqanının vergi ödəyicisinin vergi öhdəliklərini aşağıdakı məlumat mənbələrindən birinə və ya bir neçəsinə əsaslanaraq hesablamaq hüququ vardır:

- vergi ödəyicilərinin vergi bəyannamələrində olan məlumata;
- ödəmələr haqqında verilmiş məlumata;
- vergi yoxlaması materiallarına;
- vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumata.

Vergi orqanlarında vergi ödəyicisinin vergini ödəməkdən yayınmaq niyyətində olduğunu təsdiq edən əsaslandırılmış konkret məlumat varsa və verginin tutulmasının təmin edilməsi zəruridirsə, vergi orqanının vergini onun ödənildiyi tarixədək hesablamaq hüququ vardır. Vergi orqanı bu barədə əsaslandırılmış qərar çıxarmalıdır.

Vergi ödəyicisinin verginin hesablanması barəsində vergi orqanının qərarından aşağıdakıları əsas tutaraq məhkəməyə müraciət etmək hüququ vardır:

- vergi məbləğinin ödənilməli olan miqdarından çox olduğunu;
- verginin vaxtından əvvəl hesablanmasına əsas vermiş amilin və ya vəziyyətin olmadığını.

"VERGİ ORQANLARINDA XİDMƏTDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ" MEDALI – VN-in 10 illik yubileyi ilə əlaqədar AR-in 29 dekabr 2009-cu il tarixli 937-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir, adından da göründüyü kimi, vergi orqanlarında xidmətdə fərqlənməyə görə vergi orqanlarının əməkdaşlarına təqdim olunan dövlət təltifidir. Medalın 3 dərəcəsi vardır:

-1-ci dərəcəsi vergi orqanlarında azı 20 il xidmət edən şəxslərə;

-2-ci dərəcəsi vergi orqanlarında azı 15 il xidmət edən şəxslərə;

-3-ci dərəcəsi vergi orqanlarında azı 12 il xidmət edən şəxslərə verilir.

1-ci dərəcəli medal qızılı, 2-ci dərəcəli medal gümüşü, 3-cü dərəcəli medal isə bürünc rənglidir. Medalın özü bürüncdəndir və lövhə şəklində tərtib edilmişdir. Diametri 42 mm-dir, lövhə dairə şəklində hamar hissə və kənarlardan qabarıq şəkildə səkkizguşəli ulduzdan ibarətdir. Medalın üz tərəfi hamar səthlidir, dairəsinin içərisində VN-in tanınma nişanı təsvir edilmişdir və kənarlarda çevrə boyu çələng yerləşdirilmişdir. Medalın arxa tərəfində dairənin mərkəzində «VERGİ ORQANLARINDA XİDMƏTDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ» sözləri və onun altında medalın dərəcəsindən asılı olaraq «I», «II» və ya «III» rəqəmi həkk olunmuşdur. Medal paltara bərkidilmək üçün elementi olan 37 mm x 45 mm ölçüdə metal lövhəyə halqa və ilgək vasitəsilə birləşdirilir. Lövhə hər iki tərəfdən paralel olaraq mavi, qırmızı və yaşıl rənglərdən ibarət yuxarıdan aşağıya doğru hər birinin eni 4 mm olan zolaqlardan, mərkəz hissədə isə eni 13 mm olan tünd göy rəngli zolaqdan ibarətdir. 1-ci dərəcəli medalın lövhəsinin üz tərəfində mərkəzdə 25 mm diametr olan dairəvi lent vardır, lentin sağ və sol kənarlarından konusvarı mərkəzə doğru ortada mavi rəng və onun hər iki kənarında qırmızı və yaşıl rənglərdən ibarət zolaqlar, yuxarı və aşağı hissəsində isə tünd göy rəngli zolaq vardır. Lövhənin mərkəzindəki tünd göy rəngli zolağın daxilindən yuxarıdan aşağıya doğru 2-ci dərəcəli medal üçün eni 1 mm olan və bir-biri ilə arası 3 mm olan gümüşü rəngdə iki zolaq, 3-cü dərəcəli medal üçün eni 1 mm olan və bir-biri ilə arası 2 mm olan bürünc rəngdə üç zolaq vardır. Medala paltara bərkidilmək üçün ele-



«Vergi orqanlarında xidmətdə fərqlənməyə görə» Azərbaycan Respublikasının 1-ci dərəcəli medalı



«Vergi orqanlarında xidmətdə fərqlənməyə görə» Azərbaycan Respublikasının 2-ci dərəcəli medalı



«Vergi orqanlarında xidmətdə fərqlənməyə görə» Azərbaycan Respublikasının 3-cü dərəcəli medalı

menti olan, metaldan düzəldilmiş və lövhə ilə eyni tərtibatda olan 37 mm x 10,3 mm ölçülü qəlib əlavə olunur.

VERGİ ORQANLARININ HÜQUQLARI – vergi orqanları "AR VN haqqında Əsasnamə"nin 4-cü bəndində və AR VM-də təsbit edilmiş hüquqlara malikdir. AR VM-in 23-cü maddəsinə görə, vergi orqanlarının aşağıdakı hüquqları var:

- müəyyən edilmiş hallarda və qaydada kameral və səyyar vergi yoxlamalarını, operativ vergi nəzarətini keçirmək;

- vergi ödəyicilərində bütün maliyyə sənədlərini, mühasibat kitablarını, hesabatları, smetaları, nağd vəsaitləri, qiymətli kağızları və başqa qiymətliləri, bəyannamələri və vergilərin hesablanması, ödənilməsi ilə bağlı olan digər sənədləri yoxlamaq, yoxlamaların keçirilməsi zamanı vergi ödəyicilərindən və ya onun vəzifəli şəxslərindən lazımi izahatlar, arayışlar və məlumat almaq;

- mühasibat uçotu elektron formatda aparıldığı halda, elektron auditin məqsədləri üçün vergi ödəyicisinin və onun filiallarının elektron daşıyıcılardakı məlumatların verilməsini, həmin məlumatlara birbaşa və ya məsafədən çıxışa imkan yaradılmasını və onların təqdim edilməsini tələb etmək;

- qanunvericiliklə müəyyən edilmiş qaydada xronometraj metodu ilə müşahidə aparmaq və baxış keçirmək, sənədləri və əşyaları götürmək, əmlakın inventarizasiyasını aparmaq;

- vergi ödəyicilərindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını, vergi ödəyicisi auditor tərəfindən yoxlanılmalı olduğu halda, auditor rəyini tələb etmək;

- vergi qanunvericiliyinin pozulması ilə bağlı işlərə baxmaq, vergi borclarına faizlər hesablamaq, qaydanı pozmuş şəxslərə maliyyə sanksiyaları və inzibati cərimələr tətbiq etmək;

- müəyyən edilmiş müddətlərdə ödənilməmiş vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin dövlət büdcəsinə ödənilməsini təmin etmək;

- vergilər üzrə borcların və faizlərin, maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün banklara və ya digər kredit təşkilatlarına ödəniş sənədi olan sərəncam vermək, inzibati cərimələrin alınmasını təşkil etmək;

- qanunla müəyyən edilmiş hallarda vergi ödəyicisinin hesablaşma, valyuta və digər hesablarına həbs qoyulması barədə məhkəmədə iddia qaldırmaq, müəyyən edilmiş qaydada vergi ödəyicisinin əmlakının siyahıya alınması üçün tədbirlər görmək;

- müəyyən olunmuş hallarda və qaydada vətəndaşların vergi məsələləri ilə bağlı sorğusunu keçirmək;

- müəyyən olunmuş hallarda və qaydada binalara (yaşayış sahələri istisna olmaqla), qurğulara və torpaq sahələrinə daxil olmaq və baxış keçirmək;

- müəyyən olunmuş hallarda və qaydada nəzarət qaydasında mal alqısını həyata keçirmək;

- AR CPM ilə müəyyən edilmiş qaydada təhqiqat aparmaq;

- aksiz markası ilə markalanmalı olan malların markalanmadan satışının həyata keçirilməsi aşkar edildikdə, həmin malları siyahıya almaq və məsul saxlamaya qoymaq;

- müəyyən edilmiş qaydada mütəxəssisləri, ekspertləri, tərcüməçiləri, müşahidəçiləri cəlb etmək;

- məhkəmənin qərarı ilə müsadirə edilmiş aksiz markası olmayan və ya saxta aksiz markaları ilə markalanmış malların satışını təşkil etmək.

- hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması barədə məhkəmədə iddia qaldırmaq;

- vergi risklərinin minimallaşdırılması məqsədi ilə vergi ödəyiciləri ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və formada "Vergi partnyorluğu sazişi" bağlamaq;

- VM və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə vergi orqanlarının təyinatına uyğun olaraq nəzərdə tutulmuş başqa hüquqları həyata keçirmək.

Yuxarı vergi orqanları tabeliyində olan vergi orqanlarının və onların vəzifəli şəxslərinin qeyri-qanuni aktlarını və qərarlarını ləğv edə bilərlər.

VERGİ ORQANLARININ QƏRARLARINDAN (AKTLARINDAN) VƏ ONLARIN VƏZİFƏLİ ŞƏXSLƏRİNİN HƏRƏKƏTLƏRİNDƏN (HƏRƏKƏTSİZLİYİNDƏN) ŞİKAYƏT VERİLMƏSİ – hər bir vergi ödəyicisinin və ya başqa vəzifəli şəxsin vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət etmək hüququ vardır. Vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət qanunla müəyyən edilmiş qaydada yuxarı vergi orqanına (yuxarı vəzifəli şəxsə) və (və ya) məhkəməyə verilir. Şikayətin yuxarı vergi orqanına (yuxarı vəzifəli şəxsə) verilməsi həmin şikayətin eyni zamanda və ya sonradan məhkəməyə verilməsini istisna etmir.

VERGİ ORQANLARININ VƏ ONLARIN VƏZİFƏLİ ŞƏXSLƏRİNİN MƏSULİYYƏTİ – AR VM-in 61-ci maddəsi ilə müəyyən edilmiş məsuliyyət. Həmin maddəyə görə vergi orqanlarının hüquqazidd hərəkətləri (qərarları) və ya hərəkətsizliyi, habelə vergi orqanlarının vəzifəli şəxslərinin və digər işçilərinin öz vəzifələrini icra etdikdə, onların hüquqazidd hərəkətləri (qərarları) və ya hərəkətsizliyinə, həmçinin bunların nəticəsində vergi ödəyicilərinə dəymiş zərərə görə vergi orqanları və vergi orqanlarının vəzifəli şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar; dəymiş zərər məhkəmənin qərarına əsasən ödənilir.

Vergi orqanları tərəfindən düzgün tutulmayan vergi, maliyyə sanksiyaları, faizlər və inzibati cərimələrin məbləğləri, vergilər üzrə borclar olmadıqda, VM-də başqa hallar nəzərdə tutulmadıqda vergi ödəyicisinin müraciətinə əsasən 45 gün müddətində geri qaytarılmalıdır və ya gələcək ödənişlərin hesabına aid edilə bilər.

Vergi orqanlarının vəzifəli şəxsləri və digər işçiləri özlərinin hüquqazidd hərəkətlərinə (qərarlarına) və ya hərəkətsizliyinə, o cümlədən öz xidməti vəzifələrini yerinə yetirmədiyinə və ya lazımınca yerinə yetirmədiyinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

VERGİ ORQANLARININ VƏZİFƏLƏRİ – vergi orqanları "AR VN haqqında Əsasnamə"nin 2-ci bəndində və AR VM-də təsbit edilmiş vəzifələrə malikdir. AR VM-in 24-cü maddəsinə görə vergi orqanları aşağıdakı vəzifələri həyata keçirməyə borcludur:

- vergi qanunvericiliyinə tam və dəqiq riayət etməyə;
- vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etməyə;
- vergi ödəyicilərinin hüquqlarını və qanuni mənafelərini gözləməyə və müdafiə etməyə;
- vergi qanunvericiliyi və vergi qanunvericiliyində edilən dəyişikliklər barədə vergi ödəyicilərinə məlumat verməyə, müəyyən edilmiş hesabat formalarının doldurulması qaydalarını izah etməyə, vergilərin hesablanması və ödənilməsi barədə izahatlar verməyə, vergi ödəyicilərinə onların hüquq və vəzifələrini izah etməyə;
- hesablanmış və təyinatı üzrə daxil olmuş vergilərin uçotunu aparmağa və bu barədə müvafiq icra hakimiyyəti orqanlarına məlumat verməyə;
- vergi qanunvericiliyinin pozulması hallarına dair məlumatları toplamağa, təhlil etməyə və qiymətləndirməyə, belə halların baş verməsinə gətirib çıxaran səbəblərin və şəraitin aradan qaldırılması üçün müvafiq dövlət orqanlarına təkliflər verməyə;
- vergi ödəyicilərinin, onların filiallarının, nümayəndəliklərinin və ya digər bölmələrinin (obyektlərinin), habelə nəzarət-kassa aparatlarının uçotunu aparmağa;
- kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatını və dövlət reyestrini aparmağa və bununla bağlı məlumatları müvafiq icra hakimiyyəti orqanlarına göndərməyə;
- nəzərdə tutulmuş qaydada vergi ödəyiciləri haqqında məlumatın, o cümlədən vergi və kommersiya sirrinin qorunması qaydalarına riayət etməyə və onu təmin etməyə;
- vergi ödəyicilərinə vergi yoxlamalarının nəticələri haqqında aktın, müəyyən edilmiş hallarda vergi orqanının qərarının surətini verməyə;
- artıq ödənilmiş vergi məbləğlərinin əvəzləşdirilməsi və ya geri qaytarılması, düzgün tutulmayan vergi məbləğlərinin, maliyyə sanksiyalarının, faizlərin və inzibati cərimələrin geri qaytarılması üçün müəyyən edilmiş tədbirləri görməyə;
- tabeliyində olan vergi orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirməyə.

VERGİ ORQANLARININ VƏZİFƏLİ ŞƏXSLƏRİ – vergi orqanlarında işləyən və dövlət qulluğunda olan vəzifəli şəxslər. Vergi orqanlarının vəzifəli şəxsləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada vəzifəyə təyin edilir və vəzifədən azad olunur. "AR VM-in təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" AR Qanununun və bu Qanunla təsdiq edilmiş "AR VM-in tətbiq edilməsi barədə" AR Prezidentinin 30 avqust 2000-ci il tarixli 393 nömrəli fərmanına görə, burada nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini AR Prezidenti həyata keçirir. Vergi orqanlarının vəzifəli

şəxslərinə tutduğu vəzifəsinə, ixtisasına və iş stajına görə xüsusi rütbələr verilir; xüsusi rütbələrə uyğun olaraq xüsusi geyim forması və fərqlənmə nişanları vardır. Vergi orqanlarının vəzifəli şəxsləri elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, heç bir sahibkarlıq və digər ödənişli fəaliyyət növləri ilə məşğul ola bilməzlər.

12 iyun 2001-ci il tarixli 141-IIQ nömrəli Qanunla təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də vergi orqanının vəzifəli şəxslərinin hüquqları göstərilmişdir. Bu hüquqlar aşağıdakılardır:

- vergi orqanında tutduğu vəzifəyə dair hüquq və vəzifələrini müəyyən edən sənədlərlə tanış olmaq;
- müəyyən edilmiş qaydada xidməti vəzifələrini yerinə yetirmək üçün zəruri olan məlumat və sənədlər almaq;
- xidməti vəzifələrinə uyğun olaraq qərarlar qəbul etmək və ya onların hazırlanmasında iştirak etmək;
- xidmət illərinə görə, xidmətin nəticələri və ixtisasının səviyyəsi nəzərə alınmaqla, əməkhaqqının artırılmasına və vergi orqanlarında xidməti yüksəlişə;
- şəxsi işində olan materiallarla tanış olmaq və zəruri hallarda özü haqqında olan dəyişikliklərlə bağlı şəxsi işinə əlavələr etmək;
- maddi həvəsləndirmə və inkişaf fondunun vəsaitləri hesabına öz ixtisasını artırmaq və təkmilləşdirmək;
- xidmət illəri nəzərə alınmaqla pensiya təminatına;
- şərəf və ləyaqətini alçaldan məlumatların təkzib edilməsi üçün xidməti araşdırmaların aparılmasını tələb etmək;
- həmkarlar ittifaqlarında birləşmək;
- vergi orqanlarının vəzifəli şəxslərinin iclaslarında iştirak etmək;
- müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi vergi orqanlarının vəzifəli şəxsləri qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada fiziki qüvvə, xüsusi vasitələr və xidməti silah tətbiq etmək.

Vergi orqanlarının vəzifəli şəxslərinin AR qanunvericiliyində nəzərdə tutulan digər hüquqları da vardır.

Əsasnamədə, həmçinin, göstərilmişdir ki, vergi orqanının vəzifəli şəxsi aşağıdakıları etməyə borcludur:

- AR Konstitusiyasına, qanunlarına və digər normativ-hüquqi aktlarına riayət etmək;
- fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni maraqlarının müdafiəsini təmin etmək;
- vergi orqanlarının rəislərinin səlahiyyətləri çərçivəsində verdikləri əmr və sərəncamları yerinə yetirmək;
- xidməti vəzifələri hüdudlarında fiziki və hüquqi şəxslərin müraciətlərinə vaxtında baxmaq;
- vergi orqanlarında müəyyən edilən daxili intizam və xidməti informasiya ilə rəftar qaydalarını gözləmək, vəzifə təlimatlarını yerinə yetirmək;
- dövlət sirrini və qanunla müəyyən edilmiş digər sirləri qorumaq, xidməti vəzifələrini yerinə yetirərkən ona məlum olmuş məlumatları açıqlamamaq.

Vergi orqanlarının vəzifəli şəxsləri xidməti vəzifələrini yerinə yetirərkən dövlət nümayəndəsi kimi təmsil olu-

nur və dövlətin mühafizəsi altında olurlar. Qanunla səlahiyyət verilmiş müvafiq orqanlar və vəzifəli şəxslər istisna olmaqla, onların fəaliyyətinə heç kəsin müdaxilə etmək hüququ yoxdur.

Vergi orqanlarının vəzifəli şəxslərinin vəzifəyə təyin olunması zamanı onların öz əsas ixtisası, yaxud ona yaxın olan ixtisas sahəsi üzrə yenidən hazırlığı aparıla bilər.

Vergi orqanlarının vəzifəli şəxsləri xidmət üzrə aşağıdakı hallarda başqa işə keçirilirlər:

- vəzifəli şəxsin yüksək vəzifəyə keçirilməsi;
- vəzifəli şəxsdən daha məqsədyönlü istifadə edilməsi;
- vəzifəli şəxsin sağlamlığı və ya yaş həddi nəzərə alınmaqla digər vəzifəyə keçirilməsi.

Xidməti vəzifə ilə bağlı barəsində cinayət işi qaldırılan, habelə xidməti vəzifələrini yerinə yetirərkən kobud pozuntulara yol verən vergi orqanının vəzifəli şəxsləri istintaq və ya xidməti araşdırma başa çatana qədər tutduğu vəzifələrdən müvəqqəti olaraq kənar edilə bilərlər. Həmin şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifələrinə qaytarıldıqda onlara işdən kənarlaşdırıldıqları müddət ərzində verilməmiş əməkhaqqı ödənilir.

Vergi orqanlarının vəzifəli şəxsləri digər hüquq-mühafizə orqanlarına xidmətə keçirilərkən onların vergi orqanlarında xidmət illəri göstərilən orqanlarda xidmət illərinə daxil edilir. Digər hüquq-mühafizə orqanlarından vergi orqanlarına xidmətə qəbul edilmiş vəzifəli şəxslərin həmin orqanlarda xidmət illəri vergi orqanlarında xidmət illərinə daxil edilir.

VERGİ ORQANLARININ VƏZİFƏLİ ŞƏXSLƏRİNİN XÜSUSİ RÜTBƏLƏRİ – AR-in 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə əsasən, vergi orqanlarının vəzifəli şəxslərinə tutduqları vəzifəsinə, ixtisasına və iş stajına görə xüsusi rütbələr verilir. Vergi orqanlarının vəzifəli şəxslərinə verilən xüsusi rütbələr ilkin və növbəti rütbələrə bölünür.

Vergi orqanlarına xidmətə qəbul olunan vətəndaşlara və vergi orqanlarının vəzifəli şəxslərinə aşağıda göstərilən xüsusi rütbələr verilir :

- 3-cü dərəcəli müfəttiş;
- 2-ci dərəcəli müfəttiş;
- 1-ci dərəcəli müfəttiş;
- kiçik vergi xidməti müşaviri;
- vergi xidməti müşaviri;
- baş vergi xidməti müşaviri;
- 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri;
- 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri;
- 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri;
- AR-in Həqiqi dövlət vergi xidməti müşaviri.

Vergi orqanlarının vəzifəli şəxslərinə 3-cü dərəcəli müfəttiş, 2-ci dərəcəli müfəttiş, 1-ci dərəcəli müfəttiş, kiçik vergi xidməti müşaviri, vergi xidməti müşaviri, baş vergi xidməti müşaviri və 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbələri əvəzinə, müvafiq olaraq, 3-cü dərəcəli hüquqşünas, 2-ci dərəcəli hüquqşünas, 1-ci dərəcəli hüquqşünas, kiçik ədliyyə müşaviri, ədliyyə müşaviri, baş ədliyyə müşaviri və 3-cü dərəcəli

dövlət ədliyyə müşaviri xüsusi rütbələri verilir.

Vergi orqanlarının vəzifəli şəxslərinə verilən xüsusi rütbələr Azərbaycan Respublikası DİN, MTN, MN və DGK orqanları əməkdaşlarına qanunvericiliklə verilən xüsusi rütbələrə və ixtisas dərəcələrinə bərabər tutulur. Bu vəzifəli şəxslərin tutduqları vəzifələr və həmin vəzifələrə müvafiq xüsusi rütbələr aşağıdakılara bölünür:

- kiçik rəis heyəti: 3-cü dərəcəli müfəttiş, 2-ci dərəcəli müfəttiş, 1-ci dərəcəli müfəttiş;

- baş rəis heyəti: kiçik vergi xidməti müşaviri, vergi xidməti müşaviri və baş vergi xidməti müşaviri;

- ali rəis heyəti: 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri və AR-in Həqiqi dövlət vergi xidməti müşaviri.

Vergi orqanlarının vəzifəli şəxsinə növbəti xüsusi rütbə – o, ştat üzrə tutduğu vəzifəyə görə nəzərdə tutulmuş rütbəyə uyğun olduqda və əvvəlki xüsusi rütbədə müəyyən edilmiş xidmət illəri bitdikdə verilir.

Vergi orqanlarının vəzifəli şəxsləri üçün xüsusi rütbələrdə xidmət illəri aşağıdakı kimi müəyyən edilir:

3-cü dərəcəli müfəttiş – 2 il;
2-ci dərəcəli müfəttiş – 2 il;
1-ci dərəcəli müfəttiş – 3 il;
kiçik vergi xidməti müşaviri – 3 il;
vergi xidməti müşaviri – 4 il.

Baş vergi xidməti müşaviri və daha yüksək rütbələr üçün xüsusi rütbələrdə xidmət illəri müəyyən edilmir.

Xüsusi şəxsi xidmətlərinə görə vergi orqanının vəzifəli şəxsinə növbəti xüsusi rütbə ona verilmiş xüsusi rütbə üçün müəyyən olunmuş xidmət illərinin yarısı keçdikdən sonra, lakin tutduğu vəzifəyə görə ştat üzrə nəzərdə tutulmuş xüsusi rütbədən bir pillə yüksək olmamaq şərti ilə vaxtından əvvəl verilə bilər. Növbəti xüsusi rütbənin vaxtından əvvəl və vergi orqanının vəzifəli şəxsinin tutduğu vəzifə üçün nəzərdə tutulan xüsusi rütbədən bir pillə yuxarı verilməsinə vergi orqanlarında xidmət müddətində yalnız 2 dəfə yol verilə bilər.

Vergi orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbədə xidmət illəri onlara bu rütbənin verildiyi gündən başlayaraq hesablanır.

Vergi orqanlarının vəzifəli şəxsləri, habelə istefada olan şəxslər ancaq məhkəmənin qərarı ilə xüsusi rütbədən məhrum edilə bilərlər.

VERGİ ÖDƏNİLMƏSİNDƏ MÖHLƏT – vergi öhdəliklərinin yerinə yetirilməsi müddətlərinin daha gec müddətə dəyişdirilməsi.

VERGİ ÖDƏNİLMƏYƏN GƏLİRLƏR – AR VM-in 102-ci maddəsinə əsasən, fiziki şəxslərin aşağıdakı gəlirləri gəlir vergisindən azaddır:


- rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin xarici ölkədə aldığı əməkhaqqı, Azərbaycan vətəndaşı olmayan diplomatik və ya konsulluq əməkdaşının rəsmi məşğulluğundan gəlir;

- AR-in rezidenti olmayan şəxsin iş yerindən gəlir – əgər bu gəlir AR-in rezidenti olmayan işəgötürən tərə-


Vergi orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələri




AR-in Həqiqi dövlət vergi xidməti müşaviri




1-ci dərəcəli dövlət vergi xidməti müşaviri



2-ci dərəcəli dövlət vergi xidməti müşaviri



3-cü dərəcəli dövlət vergi xidməti müşaviri




baş vergi xidməti müşaviri



vergi xidməti müşaviri



kiçik vergi xidməti müşaviri



1-ci dərəcəli müfəttiş



2-ci dərəcəli müfəttiş



3-cü dərəcəli müfəttiş

findən, yaxud onun adından ödənilirsə və qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən və ya onun adından, yaxud daimi nümayəndəlikdə fəaliyyəti ilə əlaqədar ödənilmirsə;

- təqvim ili ərzində hədiyyələrin, təhsil və ya müalicə haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 1000 manatadək olan hissəsi, xaricdə müalicə haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 2000 manatadək olan hissəsi, mirasların dəyərinin 20000 manatadək olan hissəsi; hədiyyə, maddi yardım və miras vergi ödəyicisinin ailə üzvlərindən alındığı halda onun tam dəyəri; təhsil və ya müalicə haqları almış şəxslərə bu güzəşt o halda verilir ki, həmin məbləğlərin təyinatı üzrə ödənildiyini təsdiq edən müvafiq sənədlər təqdim edilmiş olsun;

- əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlər istisna olmaqla, dövlət müavinətləri, əvəzsiz dövlət köçürmələri, dövlət pensiyaları, dövlət təqaüdləri, işçilərin sayının və ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq əmək müqaviləsinə xitam verildikdə, işçilərə AR Əmək Məcəlləsinə müvafiq ödənilən təminatlar, habelə AR qanunları və müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar;

- alimentlər;

- fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 200 manatadək olduqda əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 1 misli, illik gəliri 2400 manatadək olduqda əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi;

- qiymətli daşlardan və metallardan, qiymətli daşlar və metalların məmulatlarından, incəsənət əsərlərindən, əntiq əşyalardan və vergi ödəyicisinin sahibkarlıq fəaliyyətində istifadə edilən və ya istifadə edilmiş əmlakdan başqa, daşınar maddi əmlakın təqdim edilməsindən gəlir;

- sığorta hadisəsi baş verdikdə sığorta olunanın və faydalanan şəxsin həyatına, habelə onun əmlakına və ya əmlak mənafelərinə dəymiş zərərin əvəzini ödəmək üçün pul və ya natura şəklində ödənilmiş vəsait, həmçinin, işəgötürən tərəfindən ödənilən bütün növ icbari sığorta və könüllü tibbi sığorta haqları, 3 ildən az olmayan müddətə bağlanan müqavilə ilə həyatın yığım sığortası və pensiya sığortası üzrə işəgötürənin AR-in sığortaçılarına ödədikləri sığorta haqları, həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilənin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra sığorta olunana və faydalanan şəxsə ödənilən hər hansı məbləğlər;

- vergi ödəyicisinin azı 3 il ərzində əsas yaşayış yeri olduğu daşınmaz əmlakının təqdim edilməsindən gəlir;

- dəymiş zərərlərin ödənilməsi ilə bağlı alınan kompensasiya ödənişləri;

- bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər;

- sənətkarlığın misgərlik, qalayçılıq və saxsı məmulatlarının, təsərrüfat müxəlləfatının, bağçılıq-bostançılıq

alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallardan məişət alətlərinin hazırlanması sahəsində fəaliyyət göstərən fiziki şəxslərin gəliri;

- müvafiq qaydada müvafiq icra hakimiyyəti orqanında qeydiyyatdan keçmiş lotereyalardan, habelə dövlət daxili uduşlu istiqrazlardan əldə olunan uduşların dəyəri;

- fiziki şəxslərə kompensasiya xarakterli aşağıdakı ödəmələr: a) iş vaxtı daimi yolda olan və ya işi gedişgəliş (səyyar) xarakteri daşıyan, çöl təşkilatlarında işləyən işçilərə gündəlik ezamiyyə xərclərinin əvəzində verilən əlavə vəsaitin, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin qanunvericiliklə nəzərdə tutulan məbləği; b) qanunvericiliklə müəyyən edilmiş ezamiyyə xərclərinin (gündəlik yemək xərcləri, kommunal xərclər və nəqliyyat xərcləri) məbləğləri; c) ağır, zərərli və təhlükəli istehsalatlarda işçilərin tibbi müayinədən keçirilməsi üçün işəgötürənin hesabına qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilmiş xərc məbləğləri; ç) əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən pulsuz müalicə-profilaktik yeməklər, süd və ona bərabər tutulan digər məhsulların dəyəri və işçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşidlərdə verilən xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələrinin dəyəri; d) istehsalatdan ayrılmaqla təhsil almağa göndərilmiş tələbələrə, aspirantlara (magistrlərə) müəssisə və təşkilatların hesabına ödənilən təqaüd məbləğləri; e) təbii fəlakət və digər fövqəladə hallarla əlaqədar müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında, habelə xarici dövlətlər və digər təşkilatlar tərəfindən göstərilən birdəfəlik yardımlar; ə) verdikləri qana görə donorlara ödənilən kompensasiya məbləğləri; f) dalğıc işləri üçün pul mükafatı; g) ictimai təşkilatlar, xeyriyyə cəmiyyətləri və fondları tərəfindən verilən maddi yardımlar; h) hərbi qulluqçulara, prokurorluq orqanlarının prokurorluq işçilərinə və prokurorluq işçiləri olmayan hərbi qulluqçularına, hüquq-mühafizə və feldyeger rabitəsi orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarına ödənilən bütün növ ödənişlər (vəzifə və hərbi (xüsusi) rütbəyə görə maaşlar istisna olmaqla), habelə, əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərə, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edən şəxslərə ödənilən bütün növ əməkhaqqı, mükafat və digər maddi təminatlar; x) işəgötürən tərəfindən işçinin hərbi və alternativ xidmətə çağırılması ilə əlaqədar ödənilən müavinətlərin qanunvericilikdə nəzərdə tutulan məbləği;

- beynəlxalq yarışlarda və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri 4000 manatadək, respublika, şəhər və rayon yarışlarında və müsabiqələrində isə – 200 manatadək;

- dövlət qulluqçusu pensiya yaşına çatmasına görə könüllü işdən çıxması ilə əlaqədar verilən birdəfəlik haqq;

- AR Milli Məclisinin deputatlarına

deputatlıq səlahiyyətlərinin yerinə yetirilməsi ilə əlaqədar xərclərin ödənilməsi üçün vəzifə maaşlarına aylıq pul təminatı və müvafiq icra hakimiyyəti orqanının qərarı ilə vəzifəyə təyin olunan AR-in icra hakimiyyəti və digər dövlət orqanlarının (təsisatlarının) rəhbər işçilərinə səlahiyyətlərinin icrası ilə bağlı təmsilçilik xərclərinin ödənilməsi üçün verilən vəzifə maaşlarına aylıq əlavə pul təminatı;

- torpaqların dövlət ehtiyacları üçün alınması zamanı ödənilən kompensasiya;

- "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununun 53-1-ci maddəsi ilə müəyyən edilmiş qaydada keçirilən idman mərc oyunlarından əldə edilən uduşlar;

- Azərbaycan Respublikasının keçmiş Prezidentinə və onun ailə üzvlərinə ödənilən pensiya, müavinət və digər ödənişlərin məbləği.

VERGI ÖDƏNİŞİNDƏ KÖNÜLLÜ ƏMƏLETMƏ – vergi ödəyiciləri tərəfindən cəmiyyətin rifahında, dövlətin möhkəmlənməsində öz məsuliyyətini dərk edərək şüurlu surətdə vaxtlı-vaxtında və tam həcmdə vergi öhdəliklərinin yerinə yetirilməsi. Vergi ödənişində könüllü əməletmə dedikdə ödəyicinin aşağıdakı şərtləri yerinə yetirməsi nəzərdə tutulur:

- ödəniləcək vergiləri könüllü olaraq heç bir kənar təzyiq olmadan hesablamaq;

- vergi bəyannamələrini vaxtında doldurub vergi orqanlarına təqdim etmək;

- vergi ödəmələrini vaxtında yerinə yetirmək;

- vergi sistemində aparılan yeniliklərin, islahatların tələblərinə əməl etmək.

Hər bir vergi ödəyicisi bu və ya digər vergilərin ödənməsində hüquq və vəzifələri barədə məlumata malik olmalıdır. O, vergi ödənməsinə könüllü əməl edirsə, məsuliyyəti daha da artır. Bütün vergi bəyannamələrini vaxtında doldurub vergi orqanına təqdim edir. Lakin bununla işini də asanlaşdırır, çünki bəyannamələri vaxtında təhvil verən şəxs həm də vaxta qənaət edir.

Vergi ödəyicilərini əməletmə göstəricilərinə görə dörd yerə ayırmaq olar:

- yüksək səviyyəli əməl edənlər; bu vergi ödəyiciləri vaxtında qeydiyyatdan keçir, bəyannamələri vaxtında təqdim edir, vergiləri ödəyir, sənədləri səliqəli və düzgün tərtib edir, audit prosesində əməkdaşlıq edir, vergi yoxlamaları zamanı verilən sorğuları cavablandırırlar;

- orta səviyyəli əməl edənlər; bu



vergi ödəyiciləri qeydiyyatdan keçir, bəyannamələri əsasən vaxtında təqdim edir, vergiləri ödəyir, sənədlərin əksəriyyətini düzgün tərtib edir, audit prosesində iştirak edir, vergi yoxlamaları zamanı anlaşılmazlıqlara müəyyən səbəblər göstərirlər;

- əməl etməyənlər; bu vergi ödəyiciləri qeydiyyatdan keçsə də bəyannamələri gecikdirir, vergiləri vaxtında ödəmir, sənədlərin bəzilərini hazırlayır, amma orada dəqiq olmayan məlumat da olur, audit prosesində qismən əməkdaşlıq edir, vergi yoxlamaları zamanı sorğularda faktlara və qanunlara əsaslanmırlar;

- vergidən yayınanlar; bu şəxslər qeydiyyatdan keçmir, bəyannamələri təqdim etmir, vergiləri ödəmir, sənədləri tərtib etmir, audit prosesində əməkdaşlıq etmir, vergi ödənilməməsini əsaslandırmırlar.

VERGİ ÖDƏYİCİLƏRİNİN UÇOTU – vergi nəzarətini həyata keçirmək məqsədilə vergi ödəyicilərinə eyniləşdirmə nömrəsinin verilməsi, onların uçota alınması, yenidən uçota alınması, uçotdan çıxarılması qaydalarının yerinə yetirilməsi sistemi. AR VM-ə görə (maddə 33.1) vergi ödəyicisi olan hüquqi şəxslər, filial və nümayəndəliklər olduqları (dövlət qeydiyyatı haqqında sənədlərdə qeyd olunmuş hüquqi ünvan), vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirdən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər Azərbaycan mənbəyindən gəlirin alındığı yer üzrə, fərdi sahibkarlar və bəyannamə verməli olan rezident fiziki şəxslər yaşadıqları, xüsusi notariuslar isə fəaliyyət göstərdiyi yer üzrə vergi orqanlarında uçota alınır; kommersiya hüquqi şəxslərinə, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filiallarına qanunvericiliyə müvafiq qaydada dövlət qeydiyyatına alındığı zaman VÖEN verilir və həmin andan onlar vergi uçotuna alınmış hesab olunurlar; bu zaman verilən dövlət qeydiyyatı haqqında şəhadətnamə vergi ödəyicisinin vergi uçotuna alınmasını təsdiq edən şəhadətnamə hesab edilir.

Vergi ödəyicisinin filialı, nümayəndəliyi və ya digər təsərrüfat subyekti (obyekti) olduqda, vergi ödəyicisi həm özünün olduğu yer üzrə, həm də filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu ünvan üzrə vergi uçotuna alınır; AR-in büdcə və qeyri-kommersiya təşkilatları olduğu yerdən kənarda yerləşən və onların funksiyalarının həyata keçirilməsi məqsədilə yaradılan bölmələri ayrıca uçota alına və onlara VÖEN verilə bilər (AR VM, maddə 33.2).

Hüquqi şəxsin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin vergi ödəməsi vəzifəsini şərtləndirən halların olub-olmamasından asılı olmayaraq onlar vergi orqanında vergi ödəyicisi kimi uçota alınır; AR-də fəaliyyət göstərən xarici ölkələrin diplomatik və konsulluq nümayəndəlikləri, habelə beynəlxalq təşkilatların nümayəndəlikləri bu maddəyə uyğun olaraq vergi orqanında uçota alına bilərlər. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini fiziki şəxs kimi həyata keçirmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər

Dövlət Miqrasiya Xidməti tərəfindən verilən vəsiqə əsasında vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınırlar. (AR VM, maddə 33.3).

Vergi orqanlarında uçota alınmaq üçün vergi ödəyiciləri tərəfindən (kommersiya hüquqi şəxsləri, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialları istisna olmaqla) onların olduğu və ya yaşadığı yer üzrə vergi orqanına ərizə verilir; vergi orqanına ərizə qeyri-kommersiya hüquqi şəxsin dövlət qeydiyyatına alındığı gündən, AR-də filial və nümayəndəlik vasitəsi ilə sahibkarlıq fəaliyyəti həyata keçirildikdə isə filialın və ya nümayəndəliyin yaradılmasından sonra 30 gün müddətində verilməlidir (AR VM, maddə 33.4).

AR VM-in 33.7-ci maddəsinə görə, , AR VM-in 13.2.50-ci və 13.2.51-ci maddələrində göstərilən iri vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssisələr aşağıdakı qaydada mərkəzləşdirilmiş uçota alına bilər:

- iri vergi ödəyicilərinin və xüsusi vergi rejimli müəssisələrin mərkəzləşdirilmiş uçotu VN-in müəyyən etdiyi vergi orqanı tərəfindən aparılır;

- iri vergi ödəyicilərinin və xüsusi vergi rejimli müəssisələrə eyniləşdirmə nömrələrinin verilməsi VM-ə və digər müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirilir;

- olduqları yer üzrə vergi uçotuna alınmış şəxslər sonradan iri vergi ödəyicilərinə və ya xüsusi vergi rejimli müəssisələrə aid edildikdə, əvvəlki eyniləşdirmə nömrələri ilə mərkəzləşdirilmiş uçota alınırlar;

- mərkəzləşdirilmiş uçota alınmış iri vergi ödəyicilərinin və xüsusi vergi rejimli müəssisələrin filiallarının, nümayəndəliklərinin və ya digər təsərrüfat subyektlərinin (obyektlərinin) vergi uçotu VM ilə müəyyən edilmiş qaydada həyata keçirilir;

- olduqları yer üzrə vergi uçotuna alınmış hüquqi şəxslər xüsusi vergi rejimi üzrə fəaliyyətə başladığı gündən sonra 15 gün müddətində mərkəzləşdirilmiş uçota alınmaq üçün vergi ödəyicilərinin mərkəzləşdirilmiş uçotunu aparan müvafiq vergi orqanına müraciət etməyə borcludurlar;

- xüsusi vergi rejimində fəaliyyət göstərən müəssisələrin mərkəzləşdirilmiş qaydada yenidən uçota alınması və ya mərkəzləşdirilmiş uçotdan çıxarılması, onların xüsusi vergi rejimində fəaliyyətə başlaması və ya həmin fəaliyyəti dayandırması barədə onların mərkəzləşdirilmiş uçotunu aparan müvafiq vergi orqanına ərizə ilə müraciət etdiyi gündən sonra 15 gün müddətində həyata keçirilməlidir;

- iri vergi ödəyicilərinə aid edilən müəssisələrin olduqları yer üzrə uçotdan çıxarılaraq mərkəzləşdirilmiş qaydada yenidən uçota alınması və ya mərkəzləşdirilmiş uçotdan çıxarılması barədə VN-in müəyyən etdiyi vergi orqanı tərəfindən hər il may ayının 15-dək qərar qəbul edilir;

- iri vergi ödəyicilərinə aid edilən müəssisələrin mərkəzləşdirilmiş uçota alınması onların mərkəzləşdirilmiş uçota alınması barədə qərar qəbul edildiyi vergi ilindən sonrakı ilin yanvar ayında həyata keçirilir.

- VN hər il iyun ayının 15-dək olduqları yer üzrə uçotdan çıxarılaraq mərkəzləşdirilmiş qaydada yenidən uçota alınmış və ya mərkəzləşdirilmiş

uçotdan çıxarılmış iri vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssisələr barədə məlumatı AR MN ilə razılaşdırılmış forma üzrə AR MN-ə təqdim edir.

AR-in tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrə əsasən xarici dövlətin rezidentinin AR-də fəaliyyət göstərən və daimi nümayəndəlik yaratmayan bölmələrinin, idarəetmə yerinə görə rezident sayılan hüquqi şəxsin vergi orqanında uçota alınması qaydaları aşağıdakı qaydada aparılır (AR VM, maddə 33.8):

- AR-də daimi nümayəndəlik yaratmayan bölmələr AR-də fəaliyyətə başladıqdan 30 gün müddətində, idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxslər isə AR VM-ə və ya AR-in tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin müddəalarına əsasən idarəetmə yerinə görə rezident sayıldıqları vaxtdan 30 gün müddətində olduqları yer üzrə vergi orqanına ərizə təqdim etməlidirlər;

- AR-də daimi nümayəndəlik yaratmayan bölmələrin, habelə idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin vergi uçotuna alınması üçün verilən ərizə xarici hüquqi şəxs və ya onun müvəkkil etdiyi şəxs tərəfindən imzalanmalıdır;

- AR-də daimi nümayəndəlik yaratmayan bölmələrinin, idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin vergi orqanlarında uçota alınması üçün VM-in 33.8-ci maddəsində göstərilənlərdən başqa sənəd və məlumatlar tələb olunmur;

- xarici dövlətin rezidentinin AR-də daimi nümayəndəlik yaratmayan bölmələrinin uçota alınması barədə verilən ərizəyə aşağıdakılar əlavə edilməlidir: xarici hüquqi şəxsin qeydiyyata alındığı dövlətdə qeydiyyat (inkorporasiya) sənədi və ticarət reyestrindən çıxarış; xarici dövlətin rezidentinin səlahiyyətli orqanının AR-də daimi nümayəndəlik yaratmayan bölməsinin yaradılması haqqında qərarı; təsis sənədləri; rezidentliyi barədə vergi orqanları tərəfindən təsdiq edilmiş sənəd; AR-də hüquqi ünvanını təsdiq edən sənəd (icarə müqaviləsi, mülkiyyət hüququnu təsdiq edən və ya digər sənədlər); bölmənin rəhbərinin (təmsilçisinin) şəxsiyyətini təsdiq edən sənədin surəti; AR-də daimi nümayəndəlik yaratmayan bölmələr və gəlir mənbələri barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən forma üzrə məlumat;

- idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxs tərəfindən uçota alınma barədə verdiyi ərizəyə aşağıdakılar əlavə edilməlidir: qeydiyyata alındığı dövlətdə qeydiyyat (inkorporasiya) sənədi və ticarət reyestrindən çıxarış; təsis sənədləri; AR-də hüquqi ünvanını təsdiq edən sənəd (icarə müqaviləsi, mülkiyyət hüququnu təsdiq edən və ya digər sənədlər); hüquqi şəxsin rəhbərinin (təmsilçinin) şəxsiyyətini təsdiq edən sənədin surəti; AR-də və digər ölkələrdə bilavasitə və ya dolayısı yolla nəzarətində olan qurumlar və gəlir mənbələri haqqında müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən forma üzrə məlumat;

- göstərilən sənədlər AR XİN və

ya AR-in xarici dövlətlərdəki nümayəndəlikləri (AR-in mənafeyini təmsil edən digər ölkənin konsulluq idarələri) tərəfindən leqallaşdırılır;

- göstərilən sənədlər Azərbaycan dilinə notariat qaydasında təsdiqlənən tərcümə ilə birgə ərizəyə əlavə edilir;

- xarici dövlətin rezidentinin ARdə fəaliyyət göstərən daimi nümayəndəlik yaratmayan bölməsinin vergi uçotundan çıxarılması və VÖEN-nin ləğv edilməsi aşağıdakı hallarda həyata keçirilir: xarici dövlətin rezidenti olan şəxs və ya daimi nümayəndəlik yaratmayan bölmə ləğv edildikdə; daimi nümayəndəlik yaratmayan bölmənin fəaliyyəti daimi nümayəndəlik yaratdıqda;

- idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin vergi uçotundan çıxarılması və VÖEN-nin ləğv edilməsi aşağıdakı hallarda həyata keçirilir: idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin qeydiyyata alındığı (inkorporasiya) dövlətdə ləğv edildikdə; idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin rezidentliyi dəyişildikdə.

Yerli (bələdiyyə) vergilərin ödəyicilərinin uçotu bələdiyyələrin vergi xidməti orqanı tərəfindən aparılır (AR VM, maddə 33.9).

Vergi orqanında uçota alınmaq üçün vergi ödəyicisi (kommersiya hüquqi şəxsləri, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialları istisna olmaqla) tərəfindən ərizə verilir. Vergi ödəyicisi olan hüquqi şəxslər, onların filial və nümayəndəlikləri (kommersiya hüquqi şəxsləri, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialları istisna olmaqla) uçota alınmaq üçün ərizə ilə birgə vergi orqanına müraciət etdikdə, onların müəyyən edilmiş qaydada təsdiq edilmiş dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin, nizamnaməsinin (və ya əsasnaməsinin), rəhbərin təyin olunmasını və hüquqi şəxsin ünvanını təsdiq edən sənədlərin, habelə rəhbərin şəxsiyyətini təsdiq edən sənədin bir nüsxədə surətlərini və olduğu yer (ünvanı) haqqında məlumatı vergi orqanına təqdim etməlidirlər. Vergi ödəyiciləri olan hüquqi şəxslər (kommersiya hüquqi şəxsləri, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialları istisna olmaqla) onların yuxarı təşkilatlarına VÖEN verildikdən sonra uçota alınırlar. Ərizə vergi ödəyicisi və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən doldurulur. Ərizədə göstərilənlərin düzgünlüyünə vergi ödəyicisi (onun rəhbəri) cavabdehdir.

Vergi ödəyicisi olan fərdi sahibkar uçota alınması üçün ərizə ilə birgə onun şəxsiyyətini təsdiq edən sənədin surətini təqdim edir.

Vergi ödəyiciləri olan fiziki şəxslər uçota alındıqda, onların şəxsi məlumatlarına, o cümlədən onların adı, doğulduğu tarix və yer, cinsi, yaşadığı ünvan, şəxsiyyətini təsdiq edən sənədin məlumatları, vətəndaşlığı haqqında məlumat daxil edilir. Uçota alınmaq üçün ərizənin forması AR VN tərəfindən təsdiq olunur.

Vergi orqanları tərəfindən fiziki şəxslərin vergi uçotuna alınması elektron və (və ya) kağız formatda aparılır. Onların uçota alınması, yenidən uçota alınması və uçotdan çıxarılması qay-

daları AR VN tərəfindən müəyyən edilir.

Uçota alınma, yenidən uçota alınma, uçotdan çıxarılma ödənişsiz həyata keçirilir.

Hər bir vergi ödəyicisinə bütün vergilər üzrə, o cümlədən AR-in gömrük sərhədindən malların keçirilməsi ilə bağlı ödənişlər üzrə AR-in bütün ərazisində vahid olan VÖEN verilir.

Vergi ödəyicisi olan fiziki şəxsin uçotdan çıxarılması aşağıdakı hallarda mümkündür (AR VM, maddə 34.7.3):

- fəaliyyətinə xitam verildikdə;
- məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada ölmüş, itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayıldıqda;
- vəfat etdikdə.

Vergi ödəyicisi uçotdan çıxarıldıqda, onun uçota alınmasını təsdiq edən şəhadətnamə vergi orqanına təhvil verilir. Vergi orqanı şəhadətnamə-dublikatın etibarsız hesab olunması barədə bank idarələrinə məlumat verməlidir.

Dövlət qeydiyyatı vergi orqanları tərəfindən aparılan hüquqi şəxslər, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialları dövlət qeydiyyatına alınması haqqında ərizə ilə birlikdə və ya qeydiyyata alındıqdan sonra istənilən vaxt, digər vergi ödəyiciləri isə uçota alınması haqqında şəhadətnaməni aldıqdan sonra bank idarəsində hesab açmaq üçün vergi orqanına ərizə verir. Vergi orqanı bu ərizə əsasında vergi ödəyicisinə 2 gündən gec olmayaraq şəhadətnamə-dublikat verir. Vergi ödəyicisinə verilən şəhadətnamə-dublikatların sayı məhdudlaşdırılmır və onların hər biri nömrələnir. Bank hesabının açılması məqsədi ilə şəhadətnamə-dublikat vergi ödəyicisinin büdcəyə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olmadıqda, bu maddədə müəyyən edilmiş müddətdə verilir. Şəhadətnamə-dublikatın alınması üçün vergi ödəyicisi tərəfindən verilən ərizənin və şəhadətnamə-dublikatın forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir (AR VM, maddə 35.1).

VERGİ ÖDƏYİCİSİ – vergi qanunvericiliyində müəyyənləşdirilmiş vergitutma obyektlərindən (gəlir, mənfəət, əmlak, torpaq, təqdimetmə və s.) vergini ödəməli olan istənilən hüquqi və ya fiziki şəxs.

VERGİ ÖDƏYİCİSİNƏ VERİLMİŞ ELEKTRON HESAB-FAKTURA – Elektron vergi hesab-fakturası müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi forma üzrə hazırlanan və özündə aşağıdakı məlumatları əks etdirən sənəddir: vergi ödəyicisinin və alıcının (sifarişçinin) adı; vergi ödəyicisinin və alıcının (sifarişçinin) eyniləşdirmə nömrəsi; yola salınmış malların, görülmüş işlərin və ya göstərilmiş xidmətlərin adı; vergi tutulan əməliyyatın haqqının məbləği, həmçinin, vergi tutulan əməliyyatın həcmi; aksizli mallarda aksizin məbləği; vergi tutulan əməliyyatdan ödənilməli olan verginin məbləği; elektron vergi hesab-fakturasının verilmə tarixi; elektron vergi hesab-fakturasının nömrəsi.

VERGİ ÖDƏYİCİSİNİN AİLƏ ÜZVLƏRİ – vergi ödəyicisi ilə qohumluq əlaqələri, birgə yaşayış və ya birgə büdcə ilə səciyyələndirilən, ailə

üzvləri kimi statusu vergi qanunvericiliyində təsdiqlənən fərdlər. VM ilə ailə üzvlərinə aşağıdakı şəxslər aid edilir:

- ər-arvadlar, valideynlər;
- övladlar və övladlığa götürülmüş şəxslər;
- vərəsələr;
- doğma (ögey) bacılar (qardaşlar);
- bacı və qardaş övladları;
- ər-arvadların bacıları, qardaşları və valideynləri;
- bacıların ərləri və qardaşların arvadları;
- valideynlərin bacıları (qardaşları);
- qəyyumlar və qəyyumluğa götürülənlər, onların arasındakı ev təsərrüfat birliyi nəticəsində biri o biri ilə valideyn və övlad kimi bağlı olduqda.

VERGİ ÖDƏYİCİSİNİN EYNİLƏŞDİRMƏ NÖMRƏSİ (VÖEN) – hər bir vergi ödəyicisinə qanunvericiliyə müvafiq qaydada dövlət qeydiyyatına alındığı zaman bütün vergilər üzrə, o cümlədən AR-in gömrük sərhədindən malların keçirilməsi ilə bağlı ödənişlər üzrə verilən və AR-in bütün ərazisində vahid olan nömrə. VÖEN verilən andan ödəyici vergi uçotuna alınmış hesab olunur.

VERGİ ÖDƏYİCİSİNİN ƏMLAKI HESABINA VERGİNİN TUTULMASI – siyahiya alınmış əmlakın ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət edilməsi. Vergi ödəyicisinin əmlakı hesabına verginin tutulması qaydası AR VM-in 90-cı maddəsində göstərilmişdir. Bu maddəyə görə, vergi ödəyicisinin əmlakı siyahıya alındıqdan sonra 30 gün müddətində vergi öhdəliyi yerinə yetirilmədikdə vergi orqanı vergi öhdəliyinin icrasının təmin olunması məqsədi ilə siyahıya alınmış əmlakın zəruri və kifayət olan həcmdə ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət edə bilər. Siyahıya alınmış əmlakın yararlılıq müddəti bu maddədə göstərilən müddət başa çatanadək bitirsə, onda vergi orqanının məhkəməyə müraciəti tezləşdirmək ixtiyarı var.

Məhkəmə vergi orqanının müraciətinə AR MPM-də müəyyən edilmiş qaydada baxır. Vergi ödəyicisinin siyahıya alınmış əmlakının əmtəə birjalarının nəzdində yaradılmış ixtisaslaşdırılmış təşkilat tərəfindən ixtisaslaşdırılmış açıq hərraclarda satılması haqqında məhkəmənin qərarı qüvvəyə mindikdən sonra qətnamə ilə təmin edilmiş borca faizin hesablanması dayandırılır və vergi borcunun dövlət büdcəsinə ödənilməsi icra məmuru tərəfindən təmin edilir. AR ƏN vergi ödəyicisinin siyahıya alınmış əmlakının hərracda satışından əldə olunan vəsait barədə rüblük məlumatı AR VN-ə təqdim edir.

Əmlakın hərracda satılması məqsədi ilə vergi ödəyicisinin siyahıya alınmış əmlakı, qanunvericiliyə müvafiq olaraq tənzimlənən qiymətlərin tətbiq olunduğu hallar istisna edilməklə, "Qiymətləndirmə fəaliyyəti haqqında" AR Qanununa uyğun olaraq qiymətləndirici tərəfindən qiymətləndirilir. Məhkəmə qərarlarına əsasən verilən icra vərəqələri daxil olduqdan 10 gün müddətində qiymətləndirici icra məmuru tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada dəvət olunur. Qiymətləndiricinin xidməti

məhkəmənin qərarı ilə əmlakı satılan vergi ödəyicisi tərəfindən ödənilir.

Hərracda iştirak etmək üçün müraciət etmiş və müvafiq qaydada sənədləri tərtib edib, elanda göstərilən müddətdə təqdim etmiş, habelə elanda göstərilən bank hesabına behin köçürülməsi barədə bildiriş təqdim etmiş şəxslər hərracda iştirak edə bilərlər.

Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiq edilmiş) ərizə sifariş verən tərəfindən müəyyən olunmuş nümunəyə müvafiq olaraq hərracın təşkilatçısına verilir və sifarişə aşağıdakı sənədlər əlavə edilir:

- elanda göstərilmiş bank hesabına behin köçürüldüyünü təsdiq edən sənəd;
- fiziki şəxslər tərəfindən şəxsiyyəti təsdiq edən sənədin notariat qaydasında təsdiq edilmiş surəti;
- hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin notariat qaydasında təsdiq edilmiş surəti.

Hərracın təşkilatçısı tərəfindən aşağıdakı hallar müəyyən edildikdə, şəxslər hərracda iştirak etmək üçün buraxılmırlar:

- hüquqi şəxs yenidən təşkil olunma, ləğv olunma yaxud müflis vəziyyətində olduqda;
- şəxs özü haqqında dəqiq olmayan məlumat verdikdə;
- sənədlər sifarişlərin qəbulu müddəti qurtardıqdan sonra təqdim edildikdə;
- ərizə müvafiq səlahiyyəti olmayan şəxs tərəfindən təqdim edildikdə;
- məlumatda göstərilən siyahıya uyğun bütün sənədlər təqdim edilmədikdə, yaxud təqdim olunmuş sənədlər müvafiq qaydada tərtib olunmadıqda.

Sənədlərin qəbulundan imtina hərracın təşkilatçısı tərəfindən əsasları göstərilməklə edilir. Ərizəni və sənədləri qəbul edilməyən şəxslərin sənədləri, imtinanın əsasları yazılı surətdə bildirilməklə, növbəti iş günü ərzində qaytarılır.

Hərracda iştirak etmək üçün şəxslər ərizəni və ona əlavə olunmuş sənədləri, habelə təqdim olunan sənədlərin 2 nüsxədən ibarət siyahısını hərracın təşkilatçısına təqdim edirlər.

Hərracın təşkilatçısı hər bir ərizəni və ona əlavə olunmuş sənədləri verilmə tarixi və vaxtını göstərməklə xüsusi jurnalda ardıcıllıqla qeyd edir.

Hərracın təşkilatçısı təqdim olunan sənədlərin siyahısının bir nüsxəsində ərizənin verilmə tarixini və vaxtını, habelə qeydiyyat jurnalındakı nömrəsini göstərməklə ərizəçiyə qaytarır.

Hərrac iştirakçılarına onların hərracda iştirak etmək nömrəsini əks etdirən bilet verilir.

Şəxs hərracda iştirak etmək üçün ərizələrin qəbulu başa çatanadək öz ərizəsini geri götürə bilər. Bunun üçün şəxs hərracın təşkilatçısına yazılı müraciət etməlidir.

Sənədlərin qəbulu jurnalında hərracda iştirak etmək üçün ərizələrin geri götürülməsi barədə müvafiq qeyd aparılmalıdır.

Hərracın şərtlərinə uyğun olaraq hərracda iştirak etmək üçün ərizələrini geri götürmüş şəxslərin ödədiyi beh geri qaytarılır.

Hərracda iştirak etmək üçün müraciət edən şəxslərin hərraca buraxılıb-buraxılmaması barədə hərracın təşkilatçısının qərarı protokolla rəsmiləşdirilir. Bu protokolda müraciətləri (ərizələri) qəbul edilən və rədd edilən şəxslərin adları qeyd edilir. Müraciətlərinin (ərizələrinin) rədd edilməsinin əsasları şəxslərə yazılı surətdə bildirilir.

Müraciətlərin (ərizələrin) qəbuluna dair protokol imzalandıqdan sonra müvafiq şəxslər hərracın iştirakçısı statusunu əldə edir.

Hərracın təşkilatçısı təqdim olunmuş ərizələrin və onlara əlavə edilmiş sənədlərin müvafiq qaydada saxlanılması üçün zəruri tədbirlər görür.

Hərracın təşkilatçısı:

- hərracın təşkil olunmasını və keçirilməsini təmin edir;

- satışın baş tutub-tutmadığını təsdiq edir;

- hərracın gedişində mübahisəli vəziyyət yarandıqda mübahisənin səbəbləri aradan qaldırılanadək hərracı dayandırır; mübahisənin səbəblərini aradan qaldırmaq mümkün olmadıqda hərracı baş tutmamış elan edir;

- hərracın yekunu barədə protokol tərtib edir və onu təsdiq etmək üçün sifariş verənə təqdim edir.

Hərrac aşağıdakı qaydada keçirilir:

- satışa çıxarılan əmlakın ilkin satış qiyməti elan olunur. İlkin satış qiyməti və ya əlavələr edilməklə artırılan satış qiyməti elan olunduqda, hərracda iştirak edən şəxslər öz biletlərini qaldırmaqla elan olunmuş qiymətə əmlakı almağa razı olduqlarını bildirirlər;

- hərracı aparan hər yeni elan olunmuş qiyməti üç dəfə təkrar edir. Elan olunmuş satış qiymətinə əmlakı almağa razı olan hərracda iştirakçılarının sayı iki və daha çox olduqda, həmin qiymət iştirakçılar tərəfindən əlavəetmə yolu ilə artırılır. Elan olunmuş satış qiymətinə əmlakı almağa yalnız bir iştirakçı razılıq verdiyi halda, həmin şəxs hərracın qalibi hesab olunur. Bu vaxt hərracı aparan şəxs əmlakın satıldığını, satış qiymətini və qalib gəlmiş şəxsin biletinin nömrəsini bildirir;

- ilkin qiymət və ya əmlakın növbəti hərracda aşağı salınmış qiyməti 3 dəfə elan olunduqdan sonra iştirakçıların heç biri biletini qaldırmazsa, hərrac baş tutmamış hesab olunur;

- birinci hərrac baş tutmadıqda və ya siyahı üzrə ayrı-ayrılıqda əmlakın satışı baş tutmadıqda, hər növbəti hərraca 10 gün qalmış kütləvi informasiya vasitələrində 90.3.5-ci maddədə qeyd olunan elan dərc olunur. İkinci hərracda qiymət birinci hərracda satılmayan əmlakın və ya onun ayrılıqda siyahı üzrə satılmayan hissəsinin ilkin satış qiymətinin 10 faizi, üçüncü və dördüncü hərraclarda isə müvafiq olaraq 20 və 40 faizinədək aşağı salına bilər;

- bu zaman ikinci və sonrakı hərraclar arasındakı müddət 10 gündən, yararlılıq müddəti başa çatan (yaxud bu müddət ərzində qurtaran) əmlakın növbəti hərracları arasındakı müddət isə 3 gündən çox olmamalıdır;

- yararlılıq müddəti başa çatmış yeyinti məhsullarının hərraca yenidən qida məhsulları qismində çıxarılması qadağandır. Bu əmlak qanunvericiliyə uyğun olaraq heyvanların yem-

ləndirilməsi üçün istifadəyə yararlı olduqda 5 gün müddətində qanunvericiliklə müəyyən edilmiş qaydada yenidən qiymətləndirilərək hərracda satılmalıdır;

- hərrac başa çatdıqdan sonra hərracın təşkilatçısı hərracın yekunları üzrə iki nüsxədə protokol tərtib edir və qanunvericiliyə uyğun olaraq sifarişçi və alıcı arasında alqı-satqı müqaviləsi imzalanır.

VERGİ ÖDƏYİCİSİNİN GƏLİRİNİN ÖDƏNMƏ MƏNBƏYİ – vergi ödəyicisinə iqtisadi münasibətlər nəticəsində gəlir ödəyən fiziki va ya hüquqi şəxs.

VERGİ ÖDƏYİCİSİNİN HÜQUQLARI – Vergi ödəyicisinin hüquqları və qanuni maraqları AR qanunvericilik normaları ilə təmin edilir. Onun hüquqlarının və qanuni maraqlarının təmin olunmaması və ya lazımınca təmin olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Vergi ödəyicisi AR VM-in 15-ci maddəsində təsbit edilmiş aşağıdakı hüquqlara malikdir:

- vergi orqanlarından qeydiyyat yeri üzrə qüvvədə olan vergilər, onların ödənilməsi qaydasını və şərtlərini tənzimləyən normativ-hüquqi aktlar, vergi ödəyicilərinin hüquq və vəzifələri, vergi orqanlarının və onların vəzifəli şəxslərinin səlahiyyətləri haqqında yazılı məlumat almaq;

- vergi orqanlarından vergi qanunvericiliyinin tətbiq edilməsi məsələlərinə dair yazılı izahatlar almaq;

- müəyyən edilmiş hallarda və qaydada vergi güzəştlərindən istifadə etmək;

- artıq ödənilmiş və ya artıq tutulmuş vergilərin vaxtında geri qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etmək;

- vergi münasibətlərində bilavasitə və ya nümayəndəsi ilə iştirak etmək;

- vergi yoxlaması ilə bağlı tərtib edilən aktların (protokolların) və vergi orqanlarının qərarlarının surətini almaq;

- vergi orqanlarından və onların vəzifəli şəxslərindən vergi ödəyicisinə münasibətdə qanunvericiliyə riayət olunmasını tələb etmək;

- vergi orqanlarının və onların vəzifəli şəxslərinin qanuna uyğun olmayan qərarlarını və tələblərini yerinə yetirməmək;

- müəyyən edilmiş qaydada vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliklərindən) şikayət etmək;

- kommersiya (vergi) sirrinin qorunmasını tələb etmək;

- vergi orqanlarının və ya onların vəzifəli şəxslərinin qeyri-qanuni hərəkətləri nəticəsində dəymiş zərərin tam ödənilməsini müəyyən edilmiş qaydada tələb etmək;

- vergi yoxlamalarının materialları ilə tanış olmaq, vergi orqanlarına və onların vəzifəli şəxslərinə vergilərin hesablanması və ödənilməsi, keçirilən vergi yoxlamalarının aktları üzrə öz rəyini bildirmək;

- müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilməsi üçün nəzarət-kassa aparatının modelini sifariş vermək;

- qanunvericilikdə göstərilən fəaliyyət növləri ilə məşğul olan vergi ödəyicisi tərəfindən nağd pul hesablaşmalarını nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək;

- vergi risklərinin minimallaşdırılması məqsədi ilə "Vergi partnyorluğu sazişi" bağlamaq üçün AR NK-nin müəyyən etdiyi formada ərizə ilə vergi orqanlarına müraciət etmək.

VERGİ ÖDƏYİCİSİNİN XƏRCLƏRİ – vergi ödəyicisinin fəaliyyəti ilə bağlı çəkdiyi xərclər.

VERGİ ÖDƏYİCİSİNİN NÜMAYƏNDƏSİ – qanuni əsaslarla vergi orqanları (gömrük orqanları və s.) ilə münasibətlərdə vergi ödəyicisinin maraqlarını təmsil edə biləcək fiziki və ya hüquqi şəxs.

VERGİ ÖDƏYİCİSİNİN VƏZİFƏLƏRİ – vergi ödəyicisinin AR VM-in 16-cı maddəsində təsbit edilmiş aşağıdakı vəzifələri var:

- qanunla müəyyən edilmiş vergiləri ödəmək;
- vergi orqanlarından VÖEN almaq;
- qanunvericilikdə nəzərdə tutulmuş qaydada gəlirlərinin (xərclərinin) və vergitutma obyektlərinin uçotunu aparmaq;
- vergi orqanlarına qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada, auditor tərəfindən yoxlanılması nəzərdə tutulduğu hallarda isə auditor rəyi əlavə edilməklə vergi hesabatını təqdim etmək;
- vergi orqanlarının aşkar etdiyi pozuntuların aradan qaldırılması haqqında qanuni tələblərini icra etmək, vergi orqanlarının vəzifəli şəxslərinin qanuni fəaliyyətinin icra edilməsinə maneçilk törətməmək;
- müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan məlumatları və sənədləri təqdim etmək;
- mühasibat uçotu elektron formatda aparıldığı halda, vergilərin hesablanması məqsədi ilə vergi orqanlarının səyyar yoxlamanı həyata keçirən vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək, o cümlədən özünün və filiallarının elektron daşıyıcılarındakı məlumatlara birbaşa və ya məsafədən çıxışa imkan yaratmaq və həmin məlumatları vergi orqanının tələbi ilə təqdim etmək
- müəyyən edilmiş müddətdə mühasibat sənədlərinin və vergilərin hesablanması, ödənilməsi üçün zəruri olan digər sənədlərin, gəliri, xərcləri və ödənilən vergiləri təsdiq edən sənədlərin saxlanılmasını təmin etmək;
- müəyyən fəaliyyət növləri istisna olmaqla, nağd pul hesablaşmalarını nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək (istisna olunan fəaliyyət növlərinin siyahısı VM-in 16.1.8 maddəsində göstərilmişdir və həmin siyahıya qiymətli kağızların və lotereya biletlərinin satışı, idman mərc oyunları üzrə operator və satıcı tərəfindən həyata keçirilən fəaliyyət, obyektlərin kirayə verilməsi, vəkillik və digər hüquq xidmətləri, səhiyyə xidməti, bədən tərbiyəsi və idman xidməti və s. fəaliyyət növləri daxildir);
- nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən edilmiş məlumatların əks etdirilməsini təmin etmək;
- istismar zamanı nəzarət-kassa aparatının plombu pozulduqda və ya başqa nasazlıqlar yarandıqda, vergi

orqanlarına dərhal məlumat verməklə, nəzarət-kassa aparatından istifadəni müvəqqəti dayandırmaq və həmin müddətdə nağd pul hesablaşmalarının qeydiyyatının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada aparılmasını təmin etmək;

- sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident bank idarələrində və digər qeyri-rezident kredit təşkilatlarında hesabların açılması üçün vergi orqanlarından alınmış şəhadətnamə-dublikatların bildiriş hissəsində müvafiq qeydlər etməklə, bu hesablar üzrə əməliyyatlar aparıldığı tarixədək vergi orqanına təqdim etmək;

- qanunvericiliklə müəyyən edilmiş hallarda nağdsız ödənişlərin aparılması üçün POS-terminalların quraşdırılmasını və istifadəsini təmin etmək;

- vergi orqanı tərəfindən kameral və səyyar vergi yoxlamaları zamanı hesablanmış və ya yenidən hesablanmış vergilər, faizlər, habelə tətbiq edilmiş maliyyə sanksiyalarından verilmiş şikayətə məhkəmədə baxıldığı dövrdə və həmin şikayət üzrə məhkəmənin çıxardığı qərar qanuni qüvvəyə minənədək əlavə hesablanmış vəsaitin 105 faizi həcmində milli və ya xarici valyutada cari və digər hesablarında dondurulmasını təmin etmək;

- Vergi Məcəlləsi və qanunlarla müəyyən edilmiş digər vəzifələr.

VERGİ ÖHDƏLİYİ – vergi ödəyicisinin AR VM-də göstərilən hallarda və qaydada müəyyən edilən vergini (o cümlədən cari vergi ödəmələrini) ödəmək vəzifəsi.

AR VM-in 77-ci maddəsinə görə, vergi ödəyicisinin VM-də göstərilən hallarda və qaydada müəyyən edilən vergini (o cümlədən cari vergi ödəmələrini) ödəmək vəzifəsi onun vergi öhdəliyi hesab olunur; vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehdir; vergi öhdəliyinə aşağıdakı hallarda xitam verilmiş hesab olunur:

- verginin ödənilməsi;

- verginin ödənilməsi öhdəliyinin xitam verilməsi vergilər haqqında qanunvericiliyə müvafiq olaraq ortaya çıxan hallarda;

- vergi ödəyicisi vəfat etmiş və ya AR-in mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ölmüş hesab edildikdə; vəfat etmiş və ya ölmüş hesab edilmiş şəxsin əmlak vergiləri üzrə borcları vərəsəlik əmlakının dəyəri hədlərində ödənilir;

- ləğvetmə komissiyası tərəfindən büdcə ilə (büdcədənkənar fondlarla) bütün hesablaşmalar aparıldıqdan sonra vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə;

- AR-in qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müflis olması nəticəsində ləğv edilmiş borclu vergi ödəyicisinin məhkəmənin qərarı ilə ödənilməsindən imtina edilmiş tələblər ləğv edilmiş sayıldıqda.

AR VM-in 78-ci maddəsində vergi öhdəliklərinin yerinə yetirilməsi qaydaları göstərilmişdir. Bu qaydalara görə vergi məbləği müəyyən edilmiş müddətlərdə ödənilməlidir; vergi ödəyicisinin hesablarında və ya kassa-

sında vəsaitin, habelə onun əmlakının olub-olmamasından asılı olmayaraq, vergi öhdəliklərinin yerinə yetirilməsi məcburidir; vergi öhdəliklərinin yerinə yetirilməsi digər şəxsin üzərinə qoyula bilməz.

VERGİ PLANLAŞDIRMASI – minimal xərc çəkməklə maksimal maliyyə nəticəsinin əldə edilməsi üçün vergiqoyma sisteminin təşkil edilməsi. Kompleks vergi planlaşdırması müəssisədə maliyyə planlaşdırmasının bir hissəsini təşkil edir. Vergi planlaşdırması bütövlükdə vergiqoymanın optimallaşdırılmasını, ayrı-ayrı vəziyyətlərdə vergi ödənişlərinin optimallaşdırılması sxemlərinin işlənməsini, müxtəlif idarəetmə qərarlarının vergilərə göstərdiyi təsiri vaxtında təhlil etmək üçün vergiqoyma sisteminin təşkilini nəzərdə tutur. Vergi planlaşdırması çərçivəsində vergi ödənişlərinin planlaşdırılması müəssisələrə mövcud resursları daha səmərəli idarə etmək imkanı yaradacaqdır.

Vergi planlaşdırmasının əsas prinsipləri bunlardır:

- vergiqoymanın optimallaşdırılmasının bütün üsullarının və metodlarının qanuniliyi;
- vergiqoymanın optimallaşdırılması sxemlərinin tətbiqinin qənaətliliyi;
- konkret vergi ödəyicisinin fəaliyyətinə və xüsusiyyətlərinə fərdi yanaşma;
- işlənmiş vergiqoyma sxemlərinin və metodlarının tətbiqinin kompleksliyi və çoxvariantlılığı.

Vergi planlaşdırmasının təşkili aşağıdakılardan ibarətdir: təşkilatın maliyyə və təsərrüfat fəaliyyətinin ilkin təhlili; qüvvədə olan qanunvericiliyin tədqiq edilməsi, vergi planlaşdırmasının ən perspektivli istiqamətlərini müəyyən etmək məqsədilə konkret vergi ödəyicisinin vergi problemlərinin tədqiq və təhlil edilməsi; konkret fəaliyyət növlərində tərəfdaşların və rəqiblərin üzərinə vergi qoyulmasının optimallaşdırılması sxemlərinin tədqiq edilməsi, habelə müəssisədə vergiqoymanın ən sərfəli üsullarının tətbiq edilməsi.

Vergi planlaşdırması biznesin təşkili mərhələsində aparılırsa, onda daha səmərəli nəticələr verir, çünki təşkilati-hüquqi formanın seçilməsinə, müəssisənin qeydiyyat yerinin müəyyən edilməsinə, müəssisənin təşkilati strukturunun işlənməsinə əvvəlcədən düzgün yanaşmaq məqsədəuyğundur.

Müəssisə fəaliyyət göstərən zaman vergi planlaşdırmasının təşkili təchizatçılarla və sifarişçilərlə müqavilə münasibətləri rəsmiləşdirildiyi halda, təsərrüfat əməliyyatları həyata keçirildiyi halda və s. hallarda zəruridir. Vergi planlaşdırması müəssisənin yaradılması, yenidən təşkil edilməsi, ləğv edilməsi, dəyişdirilməsi, birləşdirilməsi və s. proseslərin ayrılmaz hissəsidir.

VERGİ POLİSİ – RF-də hüquq-mühafizə orqanlarından biridir və vergi sahəsində cinayətlərin, inzibati hüquq pozuntularının qarşısını alır, müəyyən edir, istintaqını aparır. AR-də bu institut mövcud deyildir.

VERGİ SANKSİYASI – vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicilərinə və vergi agentlərinə müəyyən edilmiş sanksiya.

VERGİ SERTİFİKATLARI – istənilən vaxt pula dəyişdirilə bilən dövlət istiqraz vərəqələri; bu vərəqələr vergilərin ödənilməsi məqsədilə istifadə edilirsə, onun faiz dərəcəsi də yüksək olur. Bəzi ölkələrdə hüquqi və ya fiziki şəxsin müəyyən dövrdə vergidən tam və ya qismən azad olunması üçün Maliyyə Nazirliyi və ya başqa dövlət orqanı tərəfindən verilən şəhadətnamə də vergi sertifikatı adlanır; bu cür sertifikat offşor zonalarda və güzəştli vergi rejimi olan ərazilərdə daha çox tətbiq edilir.

VERGİ SIĞINACAĞI – xarici kapitalı cəlb etmək məqsədilə vergi dərəcələrinin başqa ölkələrlə müqayisədə nəzərəçarpacaq dərəcədə aşağı olduğu və vergi güzəştlərinin verildiyi ölkələr, regionlar, ərazilər, limanlar.

VERGİ SİRRİ – bax: *Kommersiya sirri.*

VERGİ SİSTEMİ – dövlət tərəfindən təyin edilən və dövlət büdcəsinin maliyyə ehtiyatlarının yaradılması məqsədini güdən vergi, yığım, rüsum və digər ödənişlər, həmçinin, onların yığılmasının forma, üsul və prinsiplərinin məcmusu. Vergi sistemi ayrıca olaraq götürülmüş bir ölkədə onu bilavasitə formalaşdıran əsas elementlərin qarşılıqlı əlaqəli olmasını təmin edən bir sistemdir. Bu əsas elementlərə aşağıdakılar aiddir: 1) vergi qanunvericiliyi sistemi və prinsipləri; 2) vergi siyasətinin prinsipləri; 3) vergilərin təyin edilməsi qaydaları; 4) vergilərin növləri və elementləri; 5) vergilərin büdcə üzrə bölüşdürülməsi qaydası; 6) vergi orqanları sistemi; 7) vergi nəzarətinin forma və üsulları; 8) vergilərin hesablanması və ödənilməsi qaydaları.

VERGİ SİYASƏTİ – dövlət tərəfindən işlənib hazırlanmış, vergi sahəsində cəmiyyətin qarşısında duran bu və ya digər vəzifələri həyata keçirməyə yönəlmiş tədbirlər sistemi. Vergi siyasətinin əsas məqsədi vergilərin mahiyyəti və funksiyalarından irəli gəlir və məcmu ictimai məhsulun bir hissəsinin dövlət tərəfindən alınmasından və bu vəsaitlərin büdcə vəsaiti ilə yenidən bölüşdürülməsindən ibarətdir. Vergi siyasətinin həyata keçirilmə müddətindən, təsir dairəsindən, iqtisadi vəziyyətin dəyişməsinə reaksiyasından asılı olaraq, müxtəlif formaları mövcuddur.

Əhatə etdiyi dövrün uzunluğundan və həll edilən məsələlərin xarakterindən asılı olaraq, vergi siyasəti vergi strategiyası və vergi taktikasına bölünür. Vergi strategiyası vergi sahəsində dövlətin uzunmüddətli kursunu müəyyən edir və irimiqyaslı məsələlərə aiddir. Vergi taktikası isə vergi sisteminə əlavə və dəyişikliklər edilməsi yolu ilə konkret bir dövrdə qarşıda duran məsələlərin həllini nəzərdə tutur. Miqyasından və təsir dairəsindən asılı olaraq vergi siyasəti daxili və xarici vergi siyasətinə bölünür. Daxili vergi siyasəti bir ölkə və ya ərazi vahidi çərçivəsində həyata keçirilir və daxili məsələlərin həllini nəzərdə tutur.

Xarici vergi siyasəti isə ikiqat vergitutmanın aradan qaldırılmasına, müxtəlif ölkələrin vergi sistemlərinin yaxınlaşmasına, onların vahid şəklə salınmasına yönəldilir. İqtisadiyyatda baş verən dəyişikliklərə reaksiya mexanizmindən asılı olaraq, diskresion və qeyri-diskresion vergi siyasəti bir-

birindən fərqləndirilir. Buna uyğun olaraq da onun fəaliyyət mexanizmləri, vergi tənzimlənməsinin forma və üsulları müəyyənləşdirilir. Diskresion vergi siyasəti vergi dərəcələri və ya vergitutmanın strukturu ilə manipulyasiya etmək barədə hökumətin qərarları əsasında həyata keçirilir. O, iqtisadi tənəzzülün tez bir zamanda aradan qaldırılması və tarazlıq vəziyyətinin saxlanılması üçün istifadə edilir. Bununla əlaqədar olaraq diskresion siyasəti bəzən stabilləşdirici siyasət də adlandırırlar. Qeyri-diskresion vergi siyasəti isə hökumətin qərarlarından asılı olmayaraq, avtomatik surətdə həyata keçirilir. Bu, özünütənzimləmə rejimində işləyən mexanizmlərin köməyi ilə mümkün olur. İqtisadi vəziyyətdən, iqtisadi inkişafın cari mərhələsində dövlətin üstün hesab etdiyi məqsədlərdən asılı olaraq, vergi siyasətinin müxtəlif tiplərindən istifadə olunur.

Vergi siyasətinin üç tipi birbirindən fərqləndirilir: maksimal vergilər siyasəti; optimal vergilər siyasəti; sosial yönümlü yüksək dərəcəli vergilər siyasəti. Maksimal vergilər siyasəti zamanı dövlət yüksək vergi dərəcələri tətbiq etməklə, vergilərin sayını artırmaqla, vergi güzəştlərini ixtisar etməklə vətəndaşların mümkün qədər çox maliyyə vəsaitlərini toplamağa çalışır. Optimal vergilər siyasəti zamanı dövlət sahibkarlıq fəaliyyətinin subyektləri üçün vergi yükünü yüngülləşdirir, onların inkişafına təkan verən əlverişli vergi mühiti yaradır. Bu isə dövlət xərclərinin azalmasına, ilk növbədə sosial proqramların məhdudlaşdırılmasına səbəb olur. Sosial yönümlü yüksək dərəcəli vergilər siyasəti həyata keçirilərkən dövlət kifayət dərəcədə yüksək vergilər tətbiq etməklə nəzərəçarpacaq sosial müdafiə proqramları işləyib hazırlayır. Bu zaman büdcə gəlirlərinin böyük hissəsi müxtəlif sosial fondların artırılmasına yönəldilir.

VERGİ ŞƏFFAFLIĞI (TRANSPARANTLIĞI) – gəlirin hər hansı mərhələdə dəyişikliyə uğramadığını, yəni öz formasını və kateqoriyasını saxladığını göstərən vergi planlaşdırması termini. Vergi məqsədləri üçün transparantlıq (fransız dilində "transparense" – "şəffaflıq deməkdir) qeyriməhdud məsuliyyətli cəmiyyətlərdə (tam ortaqlıqlarda, birgə fəaliyyət göstərən şəxslərin birliklərində) şərikliklə əlaqədardır. Bu halda ümumi cəmiyyətin deyil, ayrı-ayrı şəriklərin gəlirləri vergitutma məqsədləri üçün nəzərə alınır, gəlirin forması və kateqoriyası saxlanılır. Şərikli fəaliyyətdən dividentlər və faizlər ayrı-ayrı şəriklərin dividentləri və faizləri hesab edilir. Nəticədə şərikli fəaliyyət göstərən şəxslər qanunvericilikdə nəzərdə tutulmuş müxtəlif vergi güzəştlərindən istifadə etmək imkanına malik olurlar.

VERGİ TUTULMASI – vergi ödəyicisi tərəfindən vergi öhdəliyi könüllü yerinə yetirilmədiyi halda, icra sənədi əsasında büdcəyə alınması.

VERGİ UÇOTU – vergi nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədi ilə vergi ödəyicisi olan hüquqi şəxslərin olduqları (dövlət qeydiyyatı haqqında sənədlərdə qeyd olunmuş hüquqi ünvan) yer üzrə, fərdi sahibkarların isə VM-in müddəalarına uyğun olaraq bəyannamə

verməli olan rezident fiziki şəxslərin yaşadıqları yer üzrə vergi orqanlarında uçotu.

VERGİ VƏ YIĞIMLAR HAQQINDA QANUNVERİCİLİK – AR-in vergi və yığımlar haqqında qanunvericiliyi AR Konstitusiyasından, VM-dən və onlara uyğun olaraq qəbul edilmiş AR-in qanunvericilik aktlarından ibarətdir.

VERGİ VƏ YIĞIMLAR HAQQINDA QANUNVERİCİLİK TERMİNLƏRİ – vergilər və yığımlar haqqında qanunvericilik aktlarında istifadə olunan terminlər (anlayışlar). Bu terminlər iki hissəyə bölünür:

- vergi və yığımlar haqqında qanunvericilik aktlarında mənası izah olunan terminlər;

- vergi və yığımlar haqqında qanunvericilik aktlarına aid olmayan qanunvericilik aktlarında mənası izah olunan terminlər.

Vergi və yığımlar haqqında qanunvericilik aktlarında mənası izah olunan terminlərin əsas hissəsi AR VM-in 12-ci və 13-cü maddələrində verilmişdir. Bunlar aşağıdakılardır:

- vergi; vergitutma obyekti; vergitutma bazası; şəxs; hüquqi şəxs; fiziki şəxs; üçüncü şəxs, vergi ödəyicisi; rezident; qeyri-rezident; vergi ödəyicisinin ailə üzvləri; mal; qeyri-maddi aktivlər; malların təqdim edilməsi; xidmət (iş); satışdankənar gəlirlər; maliyyə xidmətləri; divident; Azərbaycan mənbəyindən gəlir; əsas vəsaitlər; faizlər; xalis mənfəət; iştirakçı; əmlak; əmlakın qalıq dəyəri; royalti; nəzarət-kassa aparatı; forvard kontraktı; opsion; qeyri-kommersiya fəaliyyəti; malların ixracı; malların



Azərbaycanın qanunverici orqanı – Milli Məclis

təkrar ixracı; malların idxalı; malların təkrar idxalı; AR ərazisindən tranzit; beynəlxalq daşıma; muzdlu iş; xeyriyyəçilik fəaliyyəti; xeyriyyə təşkilatı; sahibkarlıq fəaliyyəti; büdcə təşkilatı; müəssisə; ƏDV-nin depozit hesabı; kommersiya hüquqi şəxsi; qeyri-kommersiya hüquqi şəxsi, idman mərc oyunları, idman mərc oyunlarının operatoru, idman mərc oyunlarının satıcısı, vergi riskləri, vergi risklərinin minimallaşdırılması, vergi partnyorluğu sazişi.

Vergi və yığımlar haqqında qanunvericilik aktlarına aid olmayan qanunvericilik aktlarında izahı verilmiş terminlər müvafiq sahədə həmin izahın verdiyi mənada başa düşülməlidir. Vergitutma məqsədləri üçün istifadə olunan terminlərin mühüm hissəsi, xüsusilə beynəlxalq vergi münasibətlərinə aid olan terminlər aşağıda göstərilən AR qanunlarında verilmişdir:

- "İxrac nəzarəti haqqında" AR Qanunu;
- "Qiymətli kağızlar və fond birjaları haqqında" AR Qanunu;
- "Valyuta tənzimi haqqında" AR Qanunu;
- "AR-in dövlət sərhədi haqqında" AR Qanunu;
- "Daşınmaz əmlakın dövlət reyestri haqqında" AR Qanunu;
- "Gömrük tarifi haqqında" AR Qanunu;
- "Qiymətli kağızlar bazarında investorların hüquqlarının müdafiəsi haqqında" AR Qanunu;
- "Xarici investisiyanın qorunması haqqında" AR Qanunu.

AR ilə digər ölkələrin bağladığı beynəlxalq müqavilə və sazişlərdə vergi və yığıma aid istifadə edilən terminlər (anlayışlar) həmin müqavilə və sazişlərdə göstərilən mənalarda başa düşülür.

VERGİ VƏ YIĞIMLAR HAQQINDA QANUNVERİCİLİYİN POZULMASINA GÖRƏ BANKLARIN MƏSULİYYƏTİ – banklara və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən digər kredit təşkilatlarına tətbiq olunan maliyyə sanksiyaları.

VERGİ VƏ YIĞIMLAR ÜZRƏ GÜZƏŞTLƏR – qüvvədə olan qanunvericiliyə uyğun olaraq fiziki və hüquqi şəxslərin vergi və yığımlardan tam və ya qismən azad olunması. AR VM-in 12.2-ci maddəsinə əsasən, vergi müəyyən edildikdə, Vergi Məcəlləsi ilə nəzərdə tutulan əsaslarla vergi güzəştləri müəyyənləşdirilə bilər. Bütün vergi güzəştlərinin vahid ümumi məqsədi vergi ödəyicilərinin vergi öhdəliklərinin miqyasını azaltmaqdır. Bəzən isə güzəştlər ödəmənin təxirə salınması və ya möhlət verilməsi məqsədi daşıyır ki, bu da dolayı olaraq vergi öhdəliklərinin ixtisarına gətirib çıxarır. İstənilən dövlətdə vergi və yığım güzəştlərinin verilməsinin forma və üsulları daim dəyişir.

VERGİYIĞAN – vergi ödəyicilərindən vergiləri yığıb büdcəyə ödəyən dövlət orqanı, yerli idarəetmə orqanı və ya digər müvəkkil orqan və vəzifəli şəxs. Bəzi ölkələrdə "vergi yığan" dedikdə qanunvericiliklə öhdəsinə vergiləri və yığımları toplamaq vəzifəsi qoyulmuş hüquqi və fiziki şəxslər başa düşülür; elə ölkələr də var ki, orada bu anlayışla "vergi agenti" birləşdirilmişdir.

Ölkələrin əksəriyyətində vergi yığanın öhdəsinə düşən işi vergi idarələri, digər idarələr, banklar, müəssisələr və fiziki şəxslər görürlər. Məsələn, maaşdan, müəllif haqqından, divident, faiz və royalti kimi gəlirlərdən müəssisələr, idarələr və banklar vergi tuturlar. Onlar verginin tam və vaxtında yığılması, mərkəzi və ya yerli büdcəyə köçürülməsi üçün məsuliyyət daşıyırlar. Bu qayda vergi orqanlarının vergilərin ödənilməsinə nəzarətini asanlaşdırır və yığılan vəsaitin dövlət xəzinəsinə daxil olmasını tezləşdirir.

Bəzi ölkələrdə baş vergi yığan vəzifəsi mövcuddur. Məsələn, ABŞ-da bu vəzifəni birbaşa maliyyə nazirinə tabe olan "Daxili gəlirlər xidmətinin komissarı" yerinə yetirir.

VERGİ YOXLAMALARI – vergilərin və yığımların hesablanması və ödənilməsinə nəzarəti həyata keçirmək üçün vergi orqanları tərəfindən

həyata keçirilən vergi nəzarəti forması. Vergi orqanları tərəfindən keçirilən yoxlamalar kameral və səyyar ola bilər. Yoxlamalar keçirildikdə vergi orqanları və onların vəzifəli şəxsləri düzgün qərar qəbul edilməsi üçün əhəmiyyətli olan bütün halları, o cümlədən vergi ödəyicisi üçün əlverişli olan halları aydınlaşdırmalıdırlar. Vergi yoxlamasının nəticələri ilə razılaşmayan vergi ödəyiciləri növbədənkənar vergi yoxlamasının keçirilməsini tələb edə bilərlər. Bu halda, vergi yoxlaması əvvəlki yoxlamanı keçirmiş şəxslər tərəfindən aparıla bilməz.

VERGİ YOXLAMASI AKTI – vergi nəzarəti tədbirinin nəticəsində həmin nəzarətin nəticələrini özündə əks etdirən rəsmi sənəd.

VERGİ YURİSDİKSİYASI – müvafiq vergi qanunlarının qüvvədə olduğu ərazi.

VERGİDƏN AZAD EDİLMİŞ KOMPANİYA – xüsusi vergi statusuna malik şirkətin növü.

VERGİDƏN AZADOLMALAR VƏ GÜZƏŞTLƏR – vergi qanunvericiliyində iqtisadiyyatın stimullaşdırılması, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə vergidən tam və ya qismən azad olunmanı təsbit edən qanunvericilik normaları.

VERGİDƏN YAYINMA – vergilərin və digər icbari ödənişlərin vaxtında ödənilməməsi və vergi ödəməkdən yayınma. Bu yayınma iki cür baş verə bilər: bəzən ödəyici elə fəaliyyət göstərməyə çalışır ki, qanunvericilikdə nəzərdə tutulan bütün mümkün güzəştlərdən istifadə edə bilsin; bu, qanuni yayınmadır və ödəyici heç bir məsuliyyət daşımır; vergidən yayınan digər ödəyicilər ya dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərir, yaxud öz işini gəlirlərindən vergi tutulmayan hüquqi və ya fiziki şəxs kimi qurur və beləliklə də vergidən yayınırlar. Vergidən yayınma və ya vergi ödəməkdən yayınma dedikdə, adətən, qeyri-qanuni yayınma başa düşülür.

Vergidən yayınmanın səbəbləri müxtəlifdir. Bu səbəblər dövlətin həyata keçirdiyi tədbirlərə qarşı mülkiyyətçinin öz əmlakını, gəlirlərini və kapitalını qorumaq cəhdi kimi meydana çıxır. Vergidən yayınma səbəblərini dörd qrupa bölmək olar:

- mənəvi səbəblər; bu səbəblər iki amillə bağlıdır: birincisi – tamahkarlıq, acgözlük, çoxlu varidat toplamaq cəhdi ilə; ikincisi – vergi yükünün ağırlığı ilə;

- siyasi səbəblər; dövlət vergilərdən təkcə xərclərin ödənməsi üçün deyil, həm də sosial və iqtisadi siyasət aləti kimi istifadə edir; bu zaman bəzi sahibkarlar üçün vergilərin ödənilməsi müflisləşməyə gətirib çıxarır və ona görə də vergi ödəmək istəmir; ümumiyyətlə, narazılığa səbəb olan siyasi qərarlar vergidən yayınma hallarını artırır;

- iqtisadi səbəblər; bu səbəblər üç cür olur: a) vergi ödəyicisinin maliyyə vəziyyətindən asılı olan səbəblər; b) iqtisadi konyunkturanın doğurduğu səbəblər; c) ictimai nemətlərə fərdi tələbata uyğun vergi yükünün müəyyən edilə bilməməsindən yaranan səbəblər;

- hüquqi səbəblər; bu səbəblər

vergi sisteminin mürəkkəbliyi ilə bağlıdır; bu zaman effektiv vergi nəzarəti mümkün olmur və nəticədə ödəyici vergidən yayına bilir.

AR CM-ə görə, vergi ödəməkdən yayınma iqtisadi fəaliyyət sahəsində olan cinayət hesab edilir. Həmin məcəllənin 213-cü maddəsinə görə xeyli miqdarda (2 min man.-dan 50 min man.-dək məbləğ başa düşülür) vergi ödəməkdən yayınma üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə min man.-dan iki min man.-dək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır; eyni əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə, yaxud külli miqdarda (50 min man.-dan yuxarı olan məbləğ başa düşülür) törədildikdə – üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır

VERGİQOYMA ELEMENTLƏRİ – dövlətin normativ aktları ilə müəyyən olunan, vergitutmanın tətbiqi üçün zəruri olan, özündə prinsipləri, qaydaları, kateqoriyaları, terminləri əhatə edən vergitutmanın təşkili prinsipləri və mexanizmləri. Bu elementlər aşağıdakılardır:

- vergitutma obyektinin vergitutma bazası;
- vergi dövrü;
- vergi dərəcəsi;
- verginin hesablanması qaydası;
- verginin ödənilməsi qaydası və müddəti.

VERGİQOYMA MƏQSƏDİLƏ MALLARIN (İŞLƏRİN, XİDMƏTLƏRİN) QİYMƏTİNİN TƏYİN EDİLMƏSİ METODLARI – bəzi ölkələrin vergi qanunvericiliyinə əsasən, vergi orqanları tərəfindən vergilərin hesablanmasının düzgünlüyünə nəzarətin həyata keçirilməsi məqsədilə tətbiq edilən metodlar. Aşağıdakı formaları var:

- eyni cinsli mallar üzrə aparılan sövdələşmənin qiymətinə əsaslanan metod;
- oxşar mallar üzrə aparılan sövdələşmənin qiymətinə əsaslanan metod;
- sonrakı satış qiymətinə əsaslanan metod;
- xərclər metodu.

VERGİQOYMA MƏQSƏDLƏRİ ÜÇÜN MALLARIN (İŞLƏRİN, XİDMƏTLƏRİN) QİYMƏTİ – hüquqi şəxslərin mənfəət vergisi və fiziki şəxslərin gəlir vergisi üzrə vergitutma bazasının müəyyənləşdirilməsi məqsədilə istifadə edilən, malların (işlərin, xidmətlərin) satışı əsas götürülməklə, faktiki və ya hesablanmış göstəriciyə uyğun olaraq müəyyən edilən qiymət.


VERGİQOYMA MƏQSƏDLƏRİ ÜÇÜN NƏZƏRƏ ALINAN MƏSRƏFLƏR – vergi qanunvericiliyində nəzərdə tutulan hədlər daxilində vergitutma bazası müəyyənləşdirilərkən vergi ödəyicisinin mənfəət və ya gəlir vergisi üzrə çıxılan xərcləri. Mənfəət və ya gəlir vergisi üzrə çıxılan xərclərə vergitutma məqsədləri ilə nəzərə alınmayan xərclər istisna olunmaqla əsaslandırılmış

və sənədlərlə təsdiq edilmiş xərclər aiddir.

VERGİQOYMA MƏQSƏDLƏRİ ÜÇÜN NƏZƏRƏ ALINMAYAN MƏSRƏFLƏR – vergitutma bazası müəyyənləşdirilərkən vergi ödəyicisinin mənfəət və ya gəlir vergisi üzrə nəzərə alınmayan (çıxılmayan) xərcləri.

VERGİQOYMA MƏQSƏDLƏRİ ÜÇÜN ŞƏXSİN DAİMİ OLDUĞU YER – mülk, ailənin məskunlaşdığı ünvan və şəxsin adətən yaşadığı yer onun yaşayış yeri sayılır; şəxsin bir neçə yaşayış yeri ola bilər.

VERGİQOYMA PRİNSİPLƏRİ – vergi sahəsində mövcud olan başlıca ideya və qaydaların məcmusu başa düşülür.



Adam Smit\ (1723 - 1790)

Bu prinsiplər ilk dəfə 1776-cı ildə ingilis iqtisadçısı A.Smitin yazdığı "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" adlı əsərində ifadə olunmuşdur və aşağıdakılardan ibarətdir:

1. Təsərrüfat müstəqilliyi və sərbəstlik prinsipi.
2. Ədalətlilik prinsipi.
3. Müəyyənlik prinsipi.
4. Əlverişlilik prinsipi.
5. Qənaətlilik prinsipi.

Müasir dövrdə vergitutmanın aşağıdakı prinsipləri həyata keçirilir:

1. Ədalətlilik prinsipi. Bu prinsipə əsasən ölkənin hər bir vətəndaşı dövlət xərclərinin maliyyələşdirilməsində öz gəlirlərinə və imkanlarına uyğun olaraq iştirak etməlidir.

2. Tarazlılıq prinsipi. Bu prinsipin əsas məqsədi dövlət xəzinəsinin və vergi ödəyicilərinin maraqlarını tarazlaşdırmaqdan ibarətdir.

3. Vergi ödəyicisinin maraq və imkanlarının maksimum nəzərə alınması prinsipi. Bu prinsipə əsasən, verginin məbləği, onun ödənilmə müddəti vergi ödəyicisinə əvvəlcədən məlum olmalıdır və o, vergi qanunvericiliyindəki bütün dəyişikliklər barədə qabaqcadan xəbərdar edilməlidir. Bu prinsip, həmçinin, vergilərin hesablanmasının və ödənilməsinin sadəliyini və vergi qanunvericiliyinin təklif etdiyi üsullardan hər hansı birini seçmək imkanı verir.

4. Səmərəlilik prinsipi. Bu prinsipə əsasən, yığılmış vergilərin məbləği onun yığılmasına çəkilən xərclərin cəmindən çox olmalıdır.

VERGİQOYMANIN SADƏ SİSTEMİNDƏ GƏLİRİN TƏYİN EDİLMƏSİ VƏ TANINMASI QAYDASI – sadələşdirilmiş vergitutma sistemində vergi öhdəliyinin yaranmasını göstərən vergitutma elementlərinin vəhdəti. AR-də sadələşdirilmiş vergitutma sistemində (fəaliyyət növlərinə görə sadələşdirilmiş verginin tətbiq olunması istisna olmaq şərti ilə) vergi dövrü olan rüb üzrə vergitutma obyektinin yaranması 2 əsas amildən asılıdır: təqdimetmənin baş verməsindən və hasilatın əldə olunmasından.

VERGİQOYMANIN SADƏ SİSTEMİNDƏ VERGİNİN HESABLANMA VƏ ÖDƏNMƏ QAYDASI – sadələşdirilmiş vergitutma

sistemində vergi öhdəliyinin həcminin müəyyən olunması və yerinə yetirilməsi qaydası. Sadələşdirilmiş vergitutma sistemində (fəaliyyət növlərinə görə sadələşdirilmiş verginin tətbiq olunması istisna olmaq şərti ilə) vergi əldə olunmuş ümumi gəlirlərə hər hansı xərclər nəzərə alınmadan müvafiq dərəcə (2 faiz və ya 4 faiz) tətbiq olunmaqla rüblük hesablanır və dövlət büdcəsinə ödənilir.

"VERGİLƏR" QƏZETİ – AR VN tərəfindən təsis edilmiş, 10 mart


HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

Vergilər

Regionun ən iri telekommunikasiya tədbiri - «Bakutel-2012»

Prezident İlham Əliyev telekommunikasiya və informasiya texnologiyaları sərgisi ilə tanış olmuşdur

2000-ci il tarixdə Ədliyyə Nazirliyində qeydiyyata alınmış (qeydiyyat şəhadətnaməsinin nömrəsi – R148) həftəlik nəşr. Qəzetin əsas vəzifələri ölkəmizin iqtisadi həyatında baş verən sürətli inkişaf fonunda respublikamızın vergi sistemində gedən köklü islahatlar, tətbiq edilən ən müasir texnologiyalar, vergi qanunvericiliyində aparılan dəyişikliklər, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin tənzimlənməsi məsələləri, həmçinin, beynəlxalq vergi təcrübəsinin qabaqcıl örnəklərini oxucuların diqqətinə çatdırmaq, ən aktual problemləri vaxtında şərh etməkdir. Bunundan əlavə, qəzetdə vergitutmanın müasir problemlərini və vergi işinin ümumkonseptual məsələlərini də nəzəri və praktiki uzlaşmada elmi-metodoloji cəhətdən ifadə edən məqalələr dərc olunur, iqtisadiyyatın digər sahələri ilə bağlı yazıların dərcinə də yer verilir. Azərbaycan dilində nəşr olunur.

VERGİLƏR NAZİRLİYİNİN TƏDRİS MƏRKƏZİ – AR VN-in dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təkmilləşdirilməsini və ixtisaslarının artırılmasını, habelə vergi siyasətinə dair elmi tədqiqatların aparılmasını təmin edən struktur vahidi. Mərkəz 2002-ci ildə yaradılmışdır, yaranan gündən 2012-ci ilin əvvəllərinədək Bakı şəhərində (Suraxanı qəsəbəsində) qərarlaşmışdı, hal-hazırda isə Şamaxı rayonunun ərazisində yerləşir.



VERGİLƏRİN AZALDILMASINA VƏ DİGƏR VERGİ HÜQUQPOZMALARINA GÖRƏ MALİYYƏ SANKSİYALARI – AR VM-in 58-ci maddəsində nəzərdə tutulmuş sanksiyalar. Bu maddəyə görə vergilərin azaldilmasina və digər vergi hüquqpozmalarına görə aşağıdakı maliyyə sanksiyaları müəyyən edilmişdir:

- verginin (o cümlədən ödəmə mənbəyində verginin) hesabatda gös-

tərilən məbləği verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

- VM-in 33.4-cü maddəsində göstərilən müddətdə vergi orqanında uçota alınmaq üçün və ya 34.3-cü maddəsində göstərilən müddətdə olduğu yer, yaxud yaşadığı yerin dəyişməsi barədə ərizənin verilməməsinə, həmçinin digər uçot məlumatlarında (vergi ödəyicisinin vergi uçotuna alınma haqqında ərizədə qeyd olunan rekvizitlər) dəyişiklik haqqında məlumatın təqdim edilməməsinə görə, habelə 221.4.7-ci maddəsində nəzərdə tutulmuş "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşınmasına görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

- VM-in 65-ci maddəsi ilə müəyyən edilmiş qaydada vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün banka, kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə sərəncamın verildiyi tarixdən, kredit təşkilatlarında və ya bank əməliyyatları aparan şəxslərdə hesabları olmadığı halda bildirişin müddəti başa çatdığı tarixdən vergi ödəyicisi tərəfindən onun kassasından AR MM-də nəzərdə tutulmuş hesabdan pul vəsaitinin silinməsi növbəliliyi pozulmaqla nağd qaydada məxaric əməliyyatları aparıldıqda – aparılmış məxaric əməliyyatlarının 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

- VM-in 155-ci maddəsinə müvafiq olaraq vergi ödəyicisi tərəfindən ƏDV üzrə qeydiyyat məcburi olduğu halda, qeydiyyat olmadan fəaliyyət göstərilməsinə görə vergi ödəyicisinə ƏDV üzrə qeydiyyat olmadan fəaliyyət göstərdiyi bütün dövr ərzində büdcəyə ödənilməli olan ƏDV məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

- VM-in 157-ci və 158-ci maddələrinə müvafiq olaraq ƏDV məqsədləri üçün qeydiyyat qüvvəyə minmədən və ya ləğv edildiyi halda ƏDV üzrə elektron vergi hesab-fakturasının təqdim edilməsinə görə vergi ödəyicisinə təqdim edilmiş elektron vergi hesab-fakturasında göstərilmiş vergi məbləğinin 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

- VM-in 175.1.3-cü maddəsinə müvafiq olaraq, 175.8-ci maddəsində göstərilən vergi ödəyicisi tərəfindən malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən gec ƏDV məbləğinin ödənilməsinə görə vergi ödəyicisinə vaxtında ödənilməmiş ƏDV məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

- nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən (nəzarət-kassa aparatları quraşdırılmadan, qanunvericiliklə müəyyən edilmiş formalara uyğun ciddi hesabat blankları olmadan və ya nağd ödə-

nilmiş məbləği mədaxil etmədən), vergi orqanlarında qeydiyyatdan keçirilməmiş və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarından istifadə etməklə, qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blanklarından istifadə etmədən və ya müəyyən olunmuş qaydada təsdiq olunmuş formalara uyğun olmayan ciddi hesabat blanklarından istifadə etməklə, əhali ilə pul hesablaşmalarının aparılmasına, alıcıya təqdim edilməli olan çekin, bankların valyuta-mübadilə şöbələri tərəfindən müştəriyə təqdim edilməli olan bank çıxarışlarının və ya digər ciddi hesabat blanklarının verilməsi barədə alıcının müraciətindən sonra da bunların verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə, nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulmasına görə vergi ödəyicisinə:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə – 400 manat məbləğində;

- təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə – 800 manat məbləğində;

- təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə – 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

- xammalın, materialların, yarımfabrikatların, hazır məhsulların və digər sərvətlərin, habelə pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə və ya uçota alınmamasına görə vergi ödəyicisinə:

- gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə – 5 faiz miqdarında;

- il ərzində belə hallara təkrar yol verildikdə, gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə – 10 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

- VM-in 194.2-ci maddəsində nəzərdə tutulmuş plombların vurulması və açılması arasındakı müddətdə nəzarət-ölçü cihazlarının göstəricilərində dəyişikliklərin edilməsinə, texnoloji avadanlıqlardakı plombların zədələnməsinə, istehsal olunmuş məhsulların aksiz markası ilə markalanmamasına, tam uçota alınmamasına, aksiz markalarının inventarizasiyasında kənarlaşmalara yol verilməsinə, eləcə də VM-in 191.2-ci maddəsinin tələblərini pozmaqla hazır məhsulun istehsal sahəsindən kənara çıxarılmasına görə vergi ödəyicisinə 5000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

- AR ƏM-də nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

- vergi orqanından şəhadətnamə-dublikat alınmadan sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident bank idarələrində və digər qeyri-rezident kredit təşkilatlarında açılmış

hesaba (rezident banklar tərəfindən qeyri-rezident banklarda açılmış müxbir hesablar istisna olmaqla) mədaxil edilmiş pul vəsaitinin 100 faiz miqdarında vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilir.

VERGİLƏRİN İNDEKSLƏŞDİRİLMƏSİ – bəzi ölkələrdə birbaşa vergilərin tutulmasında vergitutma elementlərinin dəyişilməsini göstərən termin. Vergilərin indeksləşdirilməsinin tətbiqi onunla əlaqədardır ki, inflyasiya şəraitində şəxslərin gəlirlərinin nominal artması baş verir, mütərəqqi vergitutma tətbiq olunduqda ödəyicilər daha yüksək dərəcədə vergi ödəməli olurlar. İndeksasiya, adətən, aşağıdakı vergilərə aid edilir:

- fiziki şəxslərin gəlirlərindən vergilərə (fiziki şəxsin əmlakının satışından gəlirlərə);
- hüquqi şəxslərin mənfəətinə vergilərə (əsas fondlara aid olan aktivlərin reallaşdırılmasından gəlirlərə);
- pul kapitalından gəlirlərə görə vergilərə (qiymətli kağızların satışından gəlirlərə);
- kapital artımına vergilərə (daşınar və daşınmaz əmlakın reallaşdırılmasından gəlirlərə);
- əmlaka aid olan vergilərə.

Vergilərin indeksasiyası 1969-cu ildən Danimarkada, 1972-ci ildən Niderlandda, 1973-cü ildən Kanadada, İsveçrənin bəzi kontonlarında və bir sıra başqa ölkələrdə tətbiq olunur.

VERGİLƏRİN KOMPENSASİYASI – vergi ödəyicisi tərəfindən büdcəyə ödənilmiş vergilərin əvəzinin verilməsini ifadə edən vergi planlaşdırılması anlayışı. Kompensasiya birbaşa (verginin qaytarılması) və ya dolayı (digər vergilərin hesabına yönəldilməsi) ola bilər. Kompensasiya aşağıdakı hallarda baş verə bilər:

- vergi ödəyicisinin hesablamalarında səhvlər olduqda;
- ödəmə mənbəyindən güzəştlər nəzərə alınmadan verginin tutulması zamanı;
- vergi orqanı tərəfindən əsaslandırmamış vergi məbləğlərinin tutulması zamanı və s.

VERGİLƏRİN MÜƏYYƏN EDİLMƏSİNİN VƏ TUTULMASININ ƏSASLARI – Bu əsaslar AR VM-in 3-cü maddəsində verilmişdir. Göstərilmişdir ki, vergilər haqqında qanunvericilik vergitutmanın ümumi, bərabər və ədalətli olmasına əsaslanmalıdır; vergilər iqtisadi cəhətdən əsaslandırılmalıdır; hər kəsin Konstitusiya hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə maneçilik törədən vergilərin müəyyən edilməsinə yol verilmir.

AR-in vahid iqtisadi məkanını pozan (xüsusilə, AR ərazisində malların (işlərin, xidmətlərin) və pul vəsaitlərinin azad yerdəyişməsini bilavasitə və ya dolayısı ilə məhdudlaşdıran və ya digər yolla vergi ödəyicilərinin qanuni fəaliyyətini məhdudlaşdıran, yaxud maneçilik törədən) vergilərin müəyyən edilməsinə yol verilmir. Heç bir şəxs əldə etdiyi mənfəətdən (gəlirdən) eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilə bilməz. Vergilər siyasi, ideoloji, etnik, konfessional və vergi ödəyiciləri arasında mövcud olan digər xüsusiyyətlər əsas götürülməklə müəyyən edilə bilməz və diskriminasiya xarakteri daşıya

bilməz. Mülkiyyət formasından və ya fiziki şəxslərin vətəndaşlığından və ya kapitalın yerindən asılı olaraq, vergilərin müxtəlif dərəcələrinin müəyyən edilməsi qadağandır.

AR-ə gətirilən mallar üçün ,həmin malların hansı ölkədən gətirilməsindən asılı olaraq, VM-ə və gömrük qanunvericiliyinə uyğun olaraq müxtəlif gömrük rüsumu dərəcələrinin müəyyən edilməsi mümkündür.

Vergilər haqqında qanunvericilik elə tərzdə formalaşdırılmalıdır ki, hər kəs hansı vergiləri, hansı qaydada, nə vaxt və hansı məbləğdə ödəməli olduğunu dəqiq bilsin.

Vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməlidir.

Vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları vergi ödəyicisinin xeyrinə şərh edilməlidir.

VERGİLƏRİN ÖDƏNİLMƏ QAYDASI – müvafiq büdcəyə vergilərin ödənilməsini özündə ehtiva edən vasitələr. Aşağıdakı amillərdən ibarətdir:

- verginin ödənilmə istiqaməti – müvafiq büdcənin, hesabın müəyyənləşdiriməsi;
- ödəniş vasitəsi – adətən, milli valyuta ilə ödənilsə də, dövlətin qanunvericiliyində müxtəlif istisnalar da ola bilər;
- ödəniş mexanizmi – bir qayda olaraq faktiki vergi məbləği ödənilsə də, müəyyən hallarda avans xarakterli ödəmələr da edilir;
- ödəniş subyekti – vergini büdcəyə ödəməli olan şəxsin (vergi ödəyicisinin və ya vergi agentinin) müəyyənləşdirilməsi;
- ödəniş forması – nağd, nağdsız.

VERGİLƏRİN ÖDƏNİLMƏSİ MÜDDƏTİ – vergi məbləğinin büdcəyə ödənilməli olan vaxt intervalı. Həmin müddət təqvim tarixi və ya illərlə, rüblərlə, aylarla, həftələrlə, günlərlə ifadə olunan dövrün bitməsi və hər hansı hüquqi hərəkətin və ya hadisənin baş verməsi ilə müəyyənləşdirilə bilər.

Vergi öhdəliyinin yerinə yetirilməsi müddətləri və həmin müddətlərin dəyişdirilməsi qaydaları AR VM-in 85-ci maddəsində göstərilmişdir.

Hər bir verginin ödənilmə müddəti və həmin müddətin dəyişdirilməsi yalnız VM ilə müəyyən edilmiş qaydada həyata keçirilə bilər. Vergilərin ödənilmə müddətləri pozulmaqla ödənilməsinə görə vergi ödəyicisi müəyyən edilmiş qaydada və şərtlərlə faiz ödəyir. Vergilərin ödənilməsi müddəti təqvim tarixi ilə və ya illərlə, rüblərlə, aylarla, dekadalarla, həftələrlə və günlərlə hesablanan dövrün qurtarması ilə, habelə baş verməli hadisə və yaxud edilməli olan hərəkət göstərilməklə müəyyən olunur. Vergi orqanları vergiyə cəlb edilən hesabat dövri qurtardıqdan sonra 3 il ərzində vergi ödəyicisinin vergisini, faizləri və maliyyə sanksiyasını hesablamaq və hesablanmış məbləği yenidən hesablamaq, verginin, faizlərin və maliyyə sanksiyalarının hesablanmış (yenidən hesablanmış) məbləğini vergiyə cəlb edilən hesabat dövri qurtardıqdan sonra 5 il ərzində tutmaq hüququna malikdirlər. Vergi ödəyicisi vergi hesabatı dövrü qurtardıqdan sonra 3 il ərzində ondan düzgün tutulmamış vergilərin, faizlərin və maliyyə sank-

siyalarının hesablanmasını və hesablanmış məbləğin yenidən hesablanmasını, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğinin qaytarılmasını və ya əvəzləşdirilməsini 5 il ərzində tələb etmək hüququna malikdir.

Vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri aşağıda göstərilən halların biri olduqda müəyyən edilmiş müddətdən daha gec müddətə dəyişdirilə bilər:

- təbii fəlakət və digər qarşısıalınmaz qüvvə nəticəsində vergi ödəyicisinə zərər dəydikdə;
- vergini birdəfəyə ödədiyi təqdirdə vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi olduqda.

Vergilərin ödənilmə müddətinin dəyişdirilməsi mövcud olan öhdəliyi ləğv etmir və yeni vergi öhdəliyi yaratmır.

Vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırılıbsa, vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıla bilməz.

Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün vergi ödəyicisi yazılı şəkildə əsaslandırılmış və onun tərəfindən vergi öhdəliyinin yerinə yetirilməsi üçün müvafiq girovun və ya zəmanətin verildiyini özündə əks etdirən müraciətini vergi orqanına göndərir. AR VN 30 gün müddətində bu müraciətə baxır və müvafiq əsaslar olduğu halda müddətin uzadılması barədə qərar qəbul edir. Müraciət vergi növü (növləri) üzrə onların müvafiq hesabat dövri üçün qanunvericiliklə müəyyən edilmiş ödəmə müddətinədək təqdim olunmalıdır.

Vergi orqanının vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərarında vergi üzrə borcun məbləği, ödənilməsi müddəti uzadılan verginin növü (növləri), ödənilmənin müddəti və qaydası, hesablanan faizlər, habelə girov və ya zəmanət haqqında qeydlər göstərilməlidir.

VERGİLƏRİN TƏSNİFATI – sistemləşdirmə və müqayisə aparmaq məqsədilə vergilərin, yığımların və digər məcburi ödəmələrin qruplaşdırılması. Vergilərin hesablanması və tutulması, daxilolmaların büdcənin ayrı-ayrı hissələri üzrə paylanması, vergi dərəcələrinin, vergi güzəştlərinin xüsusiyyətləri və digər kriterilər nəzərə alınmaqla təsnifat aparıla bilər. Qanunvericiliyin, vergi və statistika orqanlarının, tədqiqatçıların məqsəd və vəzifələri fərqli olduğuna görə, vergilərin təsnifatının müxtəlif növləri və formaları var. Təsnifatları aşağıdakı əlamətlər bir-birindən fərqləndirə bilər:

- yerli vergilərin və yığımların ayrı-ayrı qruplara daxil edilməsi;
- daxilolmaların büdcənin hissələrinə paylanması;
- kapital artımına verginin gəlirə və ya əmlaka vergilərə aid edilməsi;
- sosial sığorta fonduna və digər sosial fondlara ödəmələrin nəzərə alınmaması;
- korporasiya vergisinin şəxsi vergilər siyahısına salınıb-salınmaması.

Beynəlxalq miqyasda təsnifatların bir-birindən fərqlənməsi yalnız nəzəri deyil, həm də praktiki çətinliklərə gətirib çıxara bilər. Vergitutma sahəsində statistik məlumatların təhlili

göstərir ki, ölkələrin vergi sistemləri çox fərqli xüsusiyyətlərə malikdir və ona görə də hər hansı müqayisə apardıqda vergilərin təsnifat metodologiyasını nəzərə almaq lazımdır.

Bütün təsnifatları bir neçə əsas növə ayırmaq olar. Ən çox istifadə olunan təsnifat ənənəvi təsnifatdır və burada vergilər üç hissəyə ayrılır:

- birbaşa (müstəqim) vergilər;
- dolayı vergilər;
- yığımlar və rüsumlar.

Birbaşa vergilər dedikdə, gəlirlərə və əmlaka vergilər, dolayı vergilər dedikdə, mallara və xidmətlərə vergilər başa düşülür; bu iki hissəyə daxil edilməyən bütün vergilər üçüncü hissəyə – yığımlar və rüsumlar hissəsinə aid olur.

Birbaşa vergilər – real vergilər və şəxsi vergilər adlandırılan althissəyə bölünür; real vergilər vergi ödəyicisinə aid olan əşyalardan, şəxsi vergilər isə onun gəlirlərindən və əmlakından tutulur; real vergilərə mədən vergisi, torpaq vergisi, pul kapitalından gəlirlərə vergi, qiymətli kağızlara vergi, şəxsi vergilərə isə fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, kapital artımına vergi, üstəlik mənfəətə vergi, varislik və ya bağışlanma yolu ilə başqasına keçmiş əmlakdan vergi aid edilir.

Dolayı vergilərin əsas növləri aşağıdakılardır:

- aksizlər;
- dövriyyədən vergilər;
- satışdan vergilər;
- ƏDV;
- gömrük rüsumları və gömrük yığımları;
- dövlət rüsumu.

Aksiz anlayışı məhdud və geniş mənalarda işlədilə bilər. Geniş mənada aksizlər – mallara və xidmətlərə aid bütün vergilər, o cümlədən ƏDV, satışdan vergilər, idxal rüsumları, məhdud mənada isə ayrı-ayrı malların və xidmətlərin qiymətlərinə əlavələr hesab edilir.

Ənənəvi təsnifatda anlaşılmazlıq yaradan səbəblərdən biri sosial sığorta ödəmələrinin və icbari xarakterli digər ödəmə və yığımların vergilər siyahısına salınıb-salınmamasıdır. Bəzi ölkələrdə bu ödəmələr və yığımlar dövlət büdcəsindən asılı olmayan ayrıca fondlara, digərlərində dövlət büdcəsinə (məsələn, ABŞ-da federal büdcəyə) daxil edilir; qarışıq variantın tətbiq edildiyi ölkələr də mövcuddur.

Beynəlxalq miqyasda İƏİT təsnifatından daha çox istifadə olunur. Bu təsnifatda hər bir vergi vergitutma obyektinə görə müəyyən qrupa və altqrupa daxil edilmiş və ona xüsusi kod nömrəsi verilmişdir. Sosial sığortaya ödənişlər ümumiləşdirmə və statistik təhlil aparmaq məqsədi ilə, şərti olaraq, vergilərə aid edilmiş, lakin ayrıca qrup kimi göstərilmişdir. Hər bir təsnifat qrupu daxilində vergilər dövri və qeyri-dövri, fiziki şəxslərdən və hüquqi şəxslərdən tutulan vergilər kimi altqruplara bölünmüşdür.

İƏİT təsnifatına oxşar təsnifatdan BVF də istifadə edir, lakin birinci təsnifat daha müfəssəldir.

VERGİLƏRİN TƏSNİFATI ÜÇÜN İSTİFADƏ EDİLƏN KRİTERİLƏR – dövlətin vergi siyasətinin, vergi və büdcə statistikasının, vergi daxilolmalarının struktur təhlilinin, beynəlxalq vergi planlaşdır-

masının işlənib hazırlanması məqsədilə vergilərin və vergi daxilolmalarının qruplaşdırılması üçün istifadə edilən kriterilər. Vergitutmanın ayrı-ayrı növlərinin xüsusiyyətləri aşağıda göstərilən kriteri və əlamətlər vasitəsilə aşkara çıxarılır:

- vergi ödəyiciləri üzrə;
- vergitutma obyektləri üzrə;
- vergi və yığımların tətbiqi sahəsində hakimiyyətin səlahiyyətləri üzrə;
- vergi ödəmələrinin müəyyən hesaba daxil edilməsi üzrə;
- məqsədli təmayül üzrə;
- ödənişlərin dövriliyi üzrə.

Vergi ödəyicilərinin hansı şəxs qrupuna aid olmasına görə də təsnifat aparmaq olar. Bu zaman bütün vergilər üç əsas növə ayrılır:

- fiziki şəxslərin ödədikləri vergilər;
- hüquqi şəxslərin ödədikləri vergilər;
- fiziki və hüquqi şəxslərin ödədikləri vergilər.

VERGİNİN (YIĞIMIN) QAYTARILMASI – müəyyən edilmiş vergi məbləğindən artıq ödənilmiş məbləğ və ya düzgün tutulmayan vergi məbləği ödənildikdə, vergi ödəyicisinin ərizəsinə əsasən, artıq ödənilmiş və ya düzgün tutulmayan vergi məbləğinin vergi ödəyicisinə qaytarılması.

VERGİNİN HESABLANMA QAYDASI – vergitutma obyektinin vergitutma bazasına müvafiq vergi dərəcəsini tətbiq etməklə və müvafiq vergi güzəştlərini nəzərə almaqla vergi ödəyicisinin müəyyən olunmuş vergi dövrü üzrə müvafiq vergi növü üzrə vergi öhdəliyinin müəyyən olunması prosesi. Verginin hesablanması, adətən, bilavasitə vergi ödəyicisi, qanunvericilikdə nəzərdə tutulan hallarda isə vergi agenti və ya hətta müvafiq orqan tərəfindən də hesablanıla bilər.

VERGİNİN ÖDƏNMƏSİ HAQQINDA TƏLƏB – vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicisinə vergi borcunun, faizlərin, maliyyə sanksiyalarının məbləğlərinin, inzibati cərimələrin ödənilməsi, habelə aşkar edilmiş pozuntuların aradan qaldırılması üçün göndərilən tələbnamə.

VERGİNİN SƏLAHİYYƏTLİ ORQANLARI – bax: *Vergi orqanları.*

VERGİNİN SIFIR DƏRƏCƏSİ İLƏ TUTULMASI – dolayı vergi məbləğinin tətbiqində vergi ödəyicisinə növbəti mərhələdə tam azadolma ilə yanaşı əvvəlki mərhələdə artıq ödənilmiş vergi məbləğinin əvəzləşdirilməsi (geri istənilməsi) hüququ verən güzəşt növü.

VERGİTUTMA BAZASI – vergitutma obyektinin dəyərlə, fiziki göstəricilərlə və ya hər hansı digər formada xarakteristikası; yaxud vergitutma obyektinin vergi tutulan hissəsinin kəmiyyətcə ifadəsi. Vergitutma bazası dəyər və fiziki göstəricilərlə ifadə oluna bilər. Məsələn, əmlak vergisi üçün əmlakın dəyəri, torpaq vergisi üçün torpağın sahəsi və s.

VERGİTUTMA OBYEKTİ – dəyərlə, kəmiyyətlə ifadə edilən və ya fiziki xarakteristikası olan malların (işlərin, xidmətlərin) təqdim olunması, əmlak, mənfəət, gəlir, xərclər və vergi qanunvericiliyinə əsasən vergi ödəyicisində vergi öhdəliyinin yaranması

üçün əsas verən hər hansı digər öhdəlik; yaxud gəlir, mənfəət, əmlak, torpaq, faydalı qazıntılar, təqdim edilmiş malların (işin, xidmətin) dəyəri və s. Vergitutma obyekti vergi ödəmək vəzifəsini müəyyən edən faktdır, yəni vergitutma obyekti varsa, vergi ödəmək vəzifəsi yaranır.

VERGİTUTMANIN FORMALARI – vergi ödəyicisi tərəfindən vergi öhdəliklərinin yerinə yetirilməsi üçün mövcud qanunvericilikdə verginin ödənilməsi mexanizmləri. Azərbaycanda 3 forma vardır:

- bilavasitə mənbədən – verginin ödəniş mənbəyindən müəyyən məbləği ödəyən şəxs (vergi agenti) tərəfindən tutulması;

- bəyannamə üzrə – vergi ödəyicisinin hesabladığı və müvafiq bəyannamə ilə bəyan etdiyi vergi məbləğinin müstəqil olaraq ödənilməsi;

- bildiriş üzrə – vergi orqanı (o cümlədən də bələdiyyə vergi orqanı) tərəfindən hesablanmış vergi məbləğinin vergi ödəyicisi tərəfindən ödənilməsi.

VERTİKAL BƏRABƏRLİK – müxtəlif iqtisadi situasiyalarda olan şəxslərin müxtəlif dərəcələrlə vergi ödəməsi; bu qaydaya görə daha çox gəliri olan daha yüksək dərəcə ilə vergi ödəməlidir.

VƏTƏNDAŞIN GƏLİRLƏRİ HAQQINDA BƏYANNAMƏ – vətəndaşın özünün öz məsuliyyəti altında təqvim ili ərzində əldə etdiyi gəlirlərin məbləği, mənbəyi və zamanı barədə məlumatları göstərdiyi hüquqi sənəd.

VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXS – AR vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olmayan şəxslər.

VƏTƏNDAŞLIQ – şəxsin müəyyən dövlətə siyasi və hüquqi məxsusluğu. Bu məfhum hələ qədim Afina və Romada tətbiq olunmuşdur. Həmin dövrdə vətəndaş dedikdə, azad insan başa düşülürdü. Orta əsrlərdə isə vətəndaşlıq məfhumu təbəəliklə əvəz olundu.

AR Konstitusiyasının 52-ci maddəsində və "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" 1998-ci il 30 sentyabr taixli 527-IQ Qanununun 1-ci maddəsində göstərilir: "Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır".

Qarşılıqlı hüquq və vəzifələr şəxs və dövlət arasındakı daimi siyasi və hüquqi əlaqədən irəli gəlir. Siyasi əlaqə siyasi hakimiyyətin təşkilində vətəndaşın iştirakı və onun siyasi hüquq və azadlıqlara malik olması ilə izah olunmalıdır.

Vətəndaşla dövlət arasında hüquqi əlaqə daimidir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər isə yalnız müvəqqəti hüquqi əlaqədə olur. Dövlət həm əcnəbiləri, həm də vətəndaşları müdafiə edir. Lakin vətəndaşları əcnəbilərdən onun dövlətlə siyasi əlaqəsinin olması fərqləndirir. Əcnəbilərin siyasi sahədə hüquqları məhdudlaşdırılır. Deməli, vətəndaşlıq dedikdə, şəxsin dövlətə mənsubiyyəti, şəxslə dövlət arasında onların qarşılıqlı hüquq və vəzifələrində ifadə olunan daimi siyasi hüquqi əlaqə başa düşülür.

AR-in vətəndaşlığı, onun əldə edilməsi əsaslarından asılı olmayaraq, hamı üçün bərabərdir; AR vətəndaşlarının hüquqları, azadlıqları və vəzifələri onların mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən, məşğuliyyət növündən və xarakterindən, yaşayış yerindən, həmin yerdə yaşadığı müddətdən və başqa hallardan asılı olmayaraq, bərabərdir (AR vətəndaşlığı haqqında Qanun, maddə 3).

VƏZİFƏLİ ŞƏXS – dövlət hakimiyyətinin nümayəndəsi funksiyasını həyata keçirən şəxs, dövlət orqanlarında, yerli özünüidarəetmə orqanlarında, AR Silahlı Qüvvələrində, AR qanunvericiliyinə müvafiq surətdə yaradılmış başqa qoşun birləşmələrində, dövlət və qeyri-dövlət təşkilatlarında, idarə və müəssisələrində təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat vəzifələrində daimi və ya müvəqqəti işləyən şəxs və ya həmin vəzifələri xüsusi səlahiyyət əsasında həyata keçirən şəxs, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq belə səlahiyyətləri yerinə yetirən fiziki şəxs.

VYANA KONVENSİYASI – müxtəlif vaxtlarda (1961, 1963, 1969-cu illərdə) bağlanmış, hüquqi məsələlərə aid olan 3 beynəlxalq konvensiya. Onlardan birincisi 1961-ci ilin 18 aprelində qəbul edilmişdir və diplomatik münasibətlərin müxtəlif cəhətlərini əhatə edir; diplomatik nümayəndəliyin yaradılması, onun funksiyaları, diplomatik əlaqələrin qurulması və kəsilməsi kimi məsələlər bu konvensiyada ətraflı göstərilmişdir; SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən 1964-cü ilin 11 fevralında ratifikasiya edilmişdir. İkinci konvensiya 1963-cü ilin 24 aprelində bağlanmışdır və konsul əlaqələrinin tənzimlənməsinə aiddir; bu konvensiya konsul əlaqələri haqqında ümumi qaydaları, konsul əlaqələrinin həyata keçirilməsi, konsul funksiyalarına xitam verilməsi, konsul idarələrinin işçilərinin imtiyaz və immunitetləri və digər məsələləri əhatə edir; konvensiya 1967-ci il martın 19-da qüvvəyə minsə də, SSRİ-də Ali Sovetin Rəyasət Heyəti tərəfindən xeyli sonra, 1989-cu ilin 16 fevralında təsdiq edilmiş və həmin ilin 14 aprelindən tətbiq olunmağa başlanmışdır. Üçüncü konvensiya isə beynəlxalq müqavilələrin hüquqi məsələlərinə aiddir və 1969-cu ildə bağlanmış, SSRİ-də 1986-cı il mayın 29-da qüvvəyə minmişdir. AR Milli Məclisinin qərarı ilə respublikamız diplomatik əlaqələr haqqında və konsul əlaqələri haqqında Vyana konvensiyalarına 1992-ci il iyulun 21-də, beynəlxalq müqavilələr haqqında Vyana Konvensiyasına isə 2004-cü il iyunun 18-də qoşulmuşdur.

Y

YALANÇI SAHİBKARLIQ – kredit almaq, rüsumlardan azad olmaq və ya digər əmlak mənfəəti əldə etmək, yaxud qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədilə sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan müəssisə və digər hüquqi şəxsin yaradılması. AR İXM-yə görə (maddə 200), yalançı sahibkarlıq fəaliyyəti üçün 20 man.-dan 50 man.-dək cərimə nəzərdə tutulmuşdur. Bu fəaliyyət xeyli miqdarda (1000 man.-dan 7000 man.-dək) ziyan vurduqda, habelə xeyli miqdarda (1000 man.-dan 7000 man.-dək) gəlir əldə etməklə törədildikdə AR CM-ə görə (maddə 193.1), vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki misli miqdarında cərimə və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırma nəzərdə tutulmuşdur; eyni əməllər külli miqdarda (7000 man.-dan artıq) ziyan vurduqda, yaxud külli miqdarda (7000 man.-dan artıq) gəlir əldə etməklə törədildikdə, yaxud mütəşəkkil dəstə tərəfindən törədildikdə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç misli miqdarında cərimə və ya bir ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır (maddə 193.2).

YAM – tatar-monqol dövlətlərində poçt stansiyasını əvəz edən və birbirindən müəyyən məsafədə yerləşmiş dayanacaqlar. Yamlar Rusiya ərazisində XIII əsrdən XVIII əsrin axırlarına qədər olmuşdur.

Azərbaycanın da daxil olduğu Elxanilər dövlətində hər 3-4 fərsəng (1fərsəng təxminən 7 km-dir) məsafədə yam tikilmişdi və hər yamda 15 at saxlanılırdı. Dövlət qulluqçuları uzaq yol gedərkən yamlarda atları dəyişdirirdilər. Yamda xüsusi işçilər (yamçılar) qulluq edirdilər. Yamların və atların saxlanması üçün xərc tələb olunurdu və əhalidən bu xərci ödəmək üçün vergilər yığılırdı. At çatmadıqda kəndlilərin və hətta yoldan keçənlərin atlarını zorla əllərindən alırdılar.

YAŞAYIŞ MİNİMUMU – hər hansı ölkədə müəyyən yaşayış səviyyəsini təmin etmək üçün lazım olan minimal gəlir səviyyəsi. Yaşayış minimumu əhalinin əsas sosial-demoqrafik qrupları üzrə qanunda nəzərdə tutulmuş qaydada müəyyən edilir və təsdiq olunur. İstehlak səbətinə daxil olan ərzaq məhsulları, qeyri-ərzaq malları və xidmətlər orta bazar qiymətləri (tarifləri) ilə, icbari ödənişlər isə normalaşmış faktiki məsrəflər əsasında hesablanır. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumu ildə bir dəfə yenidən hesablanır və dövlət büdcəsi ilə birgə təsdiq edilir. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumu aztəminatlılığın həddini müəyyən edir və rəsmi dövlət nəşrlərində dərc olunur ("Yaşayış minimumu haqqında" AR 05.10.2004-cü il tarixli 768 nömrəli Qanununun 4-cü maddəsi).

YENİDƏNQURMA (REKONSTRUKSİYA) – tamamilə yeni prinsiplər əsasında radikal dəyişikliklərin həyata keçirilməsi.

YENİDƏNTƏŞKİL (REORQANİZASİYA) – Yenidəntəşkil bir neçə formada həyata keçirilə bilər: a) birləşmə, b) qoşulma, c) bölünmə, ç) ayrılma, d) çevrilmə.

Mülki Məcəlləyə əsasən, hüquqi şəxsin yenidən təşkili onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə həyata keçirilə bilər. Qanunla müəyyənləşdirilmiş hallarda hüquqi şəxsin bölünməsi və ya tərkibindən bir və ya bir neçə hüquqi şəxsin ayrılması şəklində yenidən təşkili məhkəmənin qərarı ilə həyata keçirilir. Qoşulma şəklində yenidən təşkil halı istisna olmaqla, hüquqi şəxs yeni yaranan hüquqi şəxslərin dövlət qeydiyyatına alındığı andan yenidən təşkil edilmiş sayılır. Hüquqi şəxs başqa hüquqi şəxsin ona qoşulması şəklində yenidən təşkil edilərkən qoşulan hüquqi şəxsin fəaliyyətinə xitam verilməsi haqqında qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan birinci hüquqi şəxs yenidən təşkil edilmiş sayılır.

"YERİN TƏKİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU – AR ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) AR-ə mənsub bölməsində yer təkinin öyrənilməsi (axtarış, kəşfiyyat), onun səmərəli istifadəsi, mühafizəsi və görülən işlərin təhlükəsizliyi ilə əlaqədar münasibətləri tənzimləyən, yerin təkindən istifadədə dövlətin, yer təki istifadəçilərinin və vətəndaşların mənafelərinin qorunmasını təmin edən 13 fevral 1998-ci il tarixli 439-IQ nömrəli Qanun. Qanun 7 fəsildən, 48 maddədən ibarətdir. Fəsillərin başlıqları aşağıdakılardır:

1. Ümumi müddəalar.
2. Yerin təkindən istifadənin əsasları.
3. Yer təkinin səmərəli istifadəsi və mühafizəsi.
4. Yer təkinin geoloji tədqiqi.
5. Yerin təkindən istifadə münasibətlərinin dövlət tənzimlənməsi.
6. Yerin təkindən istifadənin iqtisadi mexanizmi.
7. Qanunun pozulmasına görə məsuliyyət.

YERİN TƏKİNDƏN İSTİFADƏYƏ GÖRƏ ÖDƏMƏLƏR – "Yerin təki haqqında" AR Qanununa əsasən AR ərazisində yerin təkindən istifadə, bu Qanunun 44-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, ödənişlidir. Yerin təkindən istifadəyə görə yer təki istifadəçiləri aşağıdakıları ödəyirlər:

- xüsusi razılığın verilməsinə görə dövlət rüsumu (haqq);
- yerin təkindən istifadə haqqı;
- mədən vergisi;
- mineral-xammal bazasının bərpasına ayırmalar;
- dəniz dibi sahələrindən və akvatoriyasından istifadə haqqı.

Yerin təkindən istifadəçilər, həmçinin, qanunvericiliklə nəzərdə tutulan digər ödəniş və vergiləri ödəyirlər. Yerin təkindən istifadə haqqı faydalı qazıntıların axtarışı və kəşfiyyatı işlərinə görə ödənilir. Haqqın miqdarı, işlərin dəyərindən faizlə və onun ödənilməsi qaydası qanunvericiliklə müəyyən edilir. Faydalı qazıntılar çıxarılması üçün verilmiş dağ-mədən ayırmasının sərhədlərində istifadə-

çidən faydalı qazıntının kəşfiyyatına görə ödənişlər alınmır. Faydalı qazıntıların çıxarılmasına görə ödənişlər vergi qanunvericiliyinə uyğun olaraq ödənilir.

Faydalı qazıntılar çıxarılarkən normativdən artıq itkilərə görə ödənişlər qanunvericiliklə müəyyən edilmiş qaydada və miqdarda ödənilir. Faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər, o cümlədən yeraltı qurğuların tikintisi və istismarı üçün yerin təkindən istifadəyə görə ödənişlər istifadəyə verilən yer təkinin hüdudlarının ölçülərindən, faydalılığından və ondan istifadə zamanı ekoloji tarazlığın pozulma təhlükəsinin səviyyəsindən asılı olaraq qanunvericiliklə müəyyən edilir.

Mineral-xammal bazasının bərpasına ayırmalar dövlət vəsaiti hesabına kəşfiyyatı aparılmış bütün faydalı qazıntı növlərinin çıxarılmasına görə yer təki istifadəçilərindən alınır. Faydalı qazıntıların yataqlarının axtarışı və kəşfiyyatını öz vəsaiti hesabına aparmış, yaxud faydalı qazıntıların müvafiq ehtiyatlarının axtarışına və kəşfiyyatına dövlətin çəkdiyi xərcləri tam ödəmiş yer təki istifadəçiləri həmin yataqları istismar edərkən mineral-xammal bazasının bərpasına ayırmaları ödəməkdən azad edilirlər. Ayırmaların dərəcələri AR-in mineral-xammal bazasının bərpasına tələb olunan xərcləri təmin edə biləcək miqdarda müəyyən edilir və eyni növ mineral-xammal çıxaran yer təkinin bütün istifadəçiləri üçün eynidir.

Mineral-xammal bazasının bərpasına ayırmaların miqdarı faktiki çıxarılan faydalı qazıntıların dəyərindən faizlə müəyyən edilir. Bu ayırmalar mineral-xammal bazasının bərpasını və yer təkinin geoloji öyrənilməsini maliyyələşdirmək məqsədilə yaradılan dövlət fonduna daxil edilir. Mineral-xammal bazasının bərpasına ayırmalardan faydalı qazıntı yataqlarının ilkin açılmasının və kəşfiyyatının həvəsləndirilməsi üçün istifadə edilə bilər. Mineral-xammal bazasının bərpasına ayırmaların dərəcələri, ödənilməsi və istifadəsi qaydası qanunvericiliklə müəyyən edilir.

Dəniz dibi sahələrindən və akvatoriyasından istifadə haqqı dəniz şəraitində faydalı qazıntıların axtarışı, kəşfiyyatı və çıxarılması ilə bağlı işlərə və dəniz dibinin təkindən digər məqsədlər üçün istifadəyə görə ödənilir. Haqqın ödənilməsi qaydası və miqdarı sahənin yerləşməsindən və konfiqurasiyasından, su qatının qalınlığından, dəniz dibinin təkindən istifadənin məqsədlərindən asılı olaraq qanunvericiliklə müəyyən edilir. Yerin təkindən istifadəyə görə ödənişlər, onların növlərindən asılı olaraq, aşağıdakı formalarda verilə bilər:

- pul ödənişləri;
- çıxarılan mineral-xammalın və ya istifadəçi tərəfindən istehsal olunan digər məhsulların bir hissəsi;
- xidmət göstərilməsi.

Ödənişlərin verilməsi forması normativ-hüquqi aktlara uyğun olaraq yerin təkindən istifadə hüququ verən xüsusi razılıqla və ya icazədə müəyyən edilir.

Yerin təkindən istifadəyə görə ödənişlərin əvəzinə istifadəçidən kommersiya sirri sayılan məlumatların tələb edilməsinə yol verilmir.

YERLİ ƏHƏMİYYƏTLİ TİKİNTİ MATERİALLARI ÜZRƏ MƏDƏN VERGİSİ – bax: *Mədən vergisi.*

YERLİ İSTEHSAL – müəyyən coğrafi ərazidə yerli əmək resurslarından, bəzən isə digər istehsal faktorlarından da (kapitaldan, təbii resurslardan) istifadə etməklə iqtisadi məhsulun yaradılması prosesi.

YERLİ VERGİLƏR – bax: *Bələdiyyə vergiləri.*

YERLİ VERGİLƏR VƏ YIĞIMLAR – Bələdiyyələr tərəfindən tətbiq edilən digər məcburi ödənişlər.

Yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir. Vergi qanunvericiliyinə uyğun olaraq, bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər.

Yerli vergilərin hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və bələdiyyələrin vergi xidməti orqanlarının hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, bələdiyyələrin vergi xidməti orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir.

Yerli vergilərə (bələdiyyə vergilərinə) aşağıdakılar aiddir:

- fiziki şəxslərin torpaq vergisi;
- fiziki şəxslərin əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

Yerli ödənişlərə aşağıdakılar aiddir:

- bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödəniş;
- AR qanunvericiliyinə uyğun olaraq bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsindən, icarəyə və istifadəyə daxil olan ödəniş;
-. bələdiyyələr tərəfindən xüsusi ayrılmış torpaq sahələrində stasionar və ya səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə görə ödəniş;
- bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödəniş;
- bələdiyyə ərazilərində hüquqi və fiziki şəxslərə məxsus olan ixtisaslaşdırılmış avtomobil dayanacaqları və ya bələdiyyələrin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və ya müvəqqəti dayanacaqları üçün ödəniş.

Qanunvericilikdə nəzərdə tutulmuş qaydada bələdiyyələr yerli əhəmiyyətli proqramların maliyyələşdirilməsi üçün yerli rəy sorğusunun nəticəsinə əsasən hüquqi və fiziki şəxslərin sərəncamında qalan mənfəət və gəlirlər hesabına ödənilən könüllü birdəfəlik ödənişlər tətbiq edə bilər. Bu ödənişlərdən yalnız təyinatı üzrə istifadə olunmalıdır.

YIĞILMIŞ FAİZ GƏLİRİ – ödənilməsi bu cür qiymətli kağızın buraxılması şərtlərində nəzərdə tutulan,

qiymətli kağızın buraxıldığı və ya ona sahiblik hüququnun başqasına keçdiyi tarixdən sonrakı günlərin sayına mütənasib olaraq hesablanan faiz gəlirinin bir hissəsi.

YIĞIM – dövlət, yerli hakimiyyət və digər səlahiyyətli orqanlar tərəfindən müəyyən hüquqların və ya lisenziyaların verilməsi müqabilində təşkilatlardan və fiziki şəxslərdən alınan məcburi ödəmədir.

YOXLAMA – müvafiq qanunvericiliyə əməl edilməsi vəziyyətinin araşdırılması məqsədilə həyata keçirilən nəzarət tədbiri.

YOL FONDLARININ YARADILMA MƏNBƏYİ OLAN VERGİLƏR – 1994-cü ildən 2001-ci ilin yanvar ayının 1-dək qüvvədə olmuş "Dövlət Yol Fondu haqqında" AR Qanunu ilə müəyyən edilmiş vergilər. Həmin qanuna əsasən, Yol Fondu aşağıda göstərilən mənbələrin hesabına yaradılır:

- yanacaq-sürtkü materiallarının satışından vergi;
- avtomobil yollarının istifadəçilərindən vergi;
- avtonəqliyyat və təkərli texnika vasitələrinin alınmasına görə vergi;
- nəqliyyat vasitələrinin sahiblərindən (idarələrdən, müəssisələrdən və vətəndaşlardan) yoldan istifadəyə görə vergi;
- xarici dövlətlərin avtonəqliyyat vasitələrinin AR ərazisindəki avtomobil yollarından istifadəyə görə vergi.

Göstərilən vergilərlə yanaşı Yol Fonduna məqsədli istiqrazların, lotereyaların keçirilməsindən, səhmlərin satılmasından, nəzərdə tutulmuş vergilərin vaxtında ödənilməməsinə görə qanunvericilikdə nəzərdə tutulan cərimə sanksiyalarından, könüllü ianələrdən və digər mənbələrdən daxil olan vəsait də yönəldilə bilərdi.

YOL FONDU – ümumi istifadədə olan avtomobil yolları şəbəkəsinin saxlanması və inkişafı üçün yaradılmış fond. AR ərazisində ümumi istifadədə olan avtomobil yollarının və yol qurğularının saxlanması, təmiri, yenidən qurulması və tikintisi ilə əlaqədar xərclər Dövlət Yol Fondunda toplanan məqsədli vəsaitin və büdcədən ayrılan vəsait hesabına maliyyələşdirilir. Yol fondunun vəsaiti ümumi istifadədə olan avtomobil yollarının saxlanması, təmiri, yenidən qurulması və çəkilməsi, dövlət bölməsində olan yol servisi obyektlərinin və yol təsərrüfatının idarə olunması xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

YOL VERGİSİ – AR VM-in XV fəslində müəyyən edilmiş qaydalarla tutulan vergi. AR-in ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri olan qeyri-rezident müəssisələr və qeyri-rezident fiziki şəxslər, AR-in ərazisində mülkiyyətində və ya istifadəsində minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri olan şəxslər AR-in avtomobil yollarından istifadəyə görə yol vergisinin ödəyicilərdir.

AR-də şəxslərin mülkiyyətində və ya istifadəsində olan və xarici dövlətlərin respublika ərazisinə daxil olmuş avtonəqliyyat vasitələri yol vergisinin vergitutma obyektidir.

Yol vergisinin dərəcələri AR VM-in 211-ci maddəsində göstərilmişdir. Bu maddəyə görə, avtonəqliyyat vasitələrinin növündən, oturacaqlarının sayından, yük götürmə qabiliyyətindən və avtonəqliyyat vasitəsinin yüklə birlikdə ümumi çəkisindən, AR ərazisində qət edilən məsafədən, təhlükəli yüklərin daşınmasından asılı olaraq, xarici dövlətlərin AR ərazisinə daxil olmuş avtonəqliyyat vasitələrindən, AR ərazisində şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələrinin mühərriklərinin həcmindən asılı olaraq, avtonəqliyyat vasitələrindən vergi aşağıdakı dərəcələrlə hesablanır:

- xarici dövlətlərin AR ərazisinə daxil olan və Azərbaycan Respublikasının ərazisini tərk edən zaman yol vergisinə cəlb olunmalı hallarda avtomobil nəqliyyatı vasitələrindən:

- minik avtomobilləri üçün mühərriklərinin həcmindən və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq:

Ölkə ərazisində qaldığı müddət	Mühərrikin həcmi 2000 kubsantimetrədək olduqda	Mühərrikin həcmi 2000 kubsantimetrdən 4000 kub sanimetrədək olduqda	Mühərrikin həcmi 4000 kubsantimetrdən çox olduqda
1 aya qədər	15 ABŞ dolları	20 ABŞ dolları	40 ABŞ dolları
3 aya qədər	30 ABŞ dolları	40 ABŞ dolları	60 ABŞ dolları
1 ilə qədər	40 ABŞ dolları	80 ABŞ dolları	120 ABŞ dolları
1 ildən yuxarı	40 ABŞ dolları + 1 ildən artıq qalan hər gün üçün 0,5 ABŞ dolları	80 ABŞ dolları +1 ildən artıq qalan hər gün üçün 0,6 ABŞ dolları	120 ABŞ dolları+ 1 ildən artıq qalan hər gün üçün 1,2 ABŞ dolları

- avtobuslar üçün oturacaq yerlərinin sayından və AR ərazisində qaldığı müddətdən asılı olaraq:

Ölkə ərazisində qaldığı müddət	Oturacaq yerlərinin sayı 12-dək olanda	Oturacaq yerlərinin sayı 13-dən 30-dək olanda	Oturacaq yerlərinin sayı 31 və çox olanda
1 gün üçün	15 ABŞ dolları	20 ABŞ dolları	25 ABŞ dolları
1 həftəyədək	30 ABŞ dolları	40 ABŞ dolları	50 ABŞ dolları
1 aya qədər	100 ABŞ dolları	140 ABŞ dolları	175 ABŞ dolları
3 aya qədər	300 ABŞ dolları	400 ABŞ dolları	500 ABŞ dolları
1 ilə qədər	1050 ABŞ dolları	1400 ABŞ dolları	1750 ABŞ dolları
1 ildən yuxarı	1050 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 12 ABŞ dolları	1400 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 15 ABŞ dolları	1750 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 20 ABŞ dolları

- yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün oxların sayından və AR ərazisində qaldığı müddətdən asılı olaraq:

Ölkə ərazisində qaldığı müddət	4 (dörd) oxa qədər olanda	4 (dörd) ox və çox olanda
1 gün üçün	20 ABŞ dolları	30 ABŞ dolları
2 həftəyədək	40 ABŞ dolları	80 ABŞ dolları
1 aya qədər	140 ABŞ dolları	280 ABŞ dolları
3 aya qədər	400 ABŞ dolları	800 ABŞ dolları
1 ilə qədər	1400 ABŞ dolları	2800 ABŞ dolları
1 ildən yuxarı	1400 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 15 ABŞ dolları	2800 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 30 ABŞ dolları

AR ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan şəxslər (kənd təsərrüfatı məhsullarının istehsalında istifadə olunan kənd təsərrüfatı texnikası (traktorlar, kombayn və yığım maşınları, pambıqyığan maşınlar) və büdcə təşkilatlarının avtomobil nəqliyyatı vasitələri istisna olmaqla) illik yol vergisini həmin avtonəqliyyat vasitələrinin mühərrikinin həcminə görə aşağıdakı dərəcələrlə ödəyirlər:

Vergitutma obyektinin adı	Yol vergisinin dərəcəsi
1	2
Minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri:	
- mühərrikin həcmi 2000 kubsantimetrədək olduqda	20 manat
- mühərrikin həcmi 2000 kubsantimetrdən 3000 kubsantimetrədək olduqda	20 manat + mühərrikin həcminin 2000 kubsantimetrdən çox olan hissəsinin hər kubsantimetrinə görə – 0,02 manat
- mühərrikin həcmi 3000 kub santimetrdən 4000 kubsantimetrədək olduqda	40 manat + mühərrikin həcminin 3000 kubsantimetrdən çox olan hissəsinin hər kubsantimetrinə görə – 0,03 manat
- mühərrikin həcmi 4000 kubsantimetrdən 5000 kubsantimetrədək olduqda	70 manat + mühərrikin həcminin 4000 kubsantimetrdən çox olan hissəsinin hər kubsantimetrinə görə – 0,04 manat
- mühərrikin həcmi 3000 kubsantimetrdən 4000 kubsantimetrədək olduqda	40 manat + mühərrikin həcminin 3000 kub santimetrdən çox olan hissəsinin hər kubsantimetrinə görə – 0,03 manat

Vergitutma obyektinin adı	Yol vergisinin dərəcəsi
1	2
- mühərrikin həcmi 4000 kubsantimetrdən 5000 kubsantimetrədək olduqda	70 manat + mühərrikin həcminin 4000 kubsantimetrdən çox olan hissəsinin hər kubsantimetrinə görə – 0,04 manat
- mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda	110 manat + mühərrikin həcminin 5000 kub santimetrdən çox olan hissəsinin hər kubsantimetrinə görə – 0,05 manat

Verginin məbləği ağır çəkili avtonəqliyyat vasitələri ilə yüklərin daşınmasına görə AR-in ərazisində qət edilən yolun hər kilometri üçün nəqliyyat vasitələrinin yüklə birlikdə ümumi çəkisi:

- 37 tondan 41 tonadək olduqda – 0,15 ABŞ dolları;
- 41 tondan 51 tonadək olduqda – 0,30 ABŞ dolları;
- 51 tondan 61 tonadək olduqda – 0,45 ABŞ dolları;
- 61 tondan 71 tonadək olduqda – 0,60 ABŞ dolları;
- 71 tondan 81 tonadək olduqda – 0,75 ABŞ dolları;
- 81 tondan çox olduqda – 1,8 ABŞ dolları qədər artırılır.

Təhlükəli yüklərin daşınmasına görə də vergi məbləğində artım nəzərdə tutulmuşdur:

Yol vergisinin tutulması qaydası AR VM-in 212-ci maddəsində göstərilmişdir. Bu maddəyə görə:

- xarici dövlətlərin avtonəqliyyat vasitələrindən müəyyən edilmiş vergini həmin avtonəqliyyat vasitələri AR-in gömrük ərazisinə daxil olan zaman və Azərbaycan Respublikasının ərazisini tərk edən zaman yol vergisinə cəlb olunmalı hallarda gömrük orqanları tərəfindən tutularaq bir bank günü ərzində dövlət büdcəsinə keçirilməlidir;
- AR ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər;
- AR-in ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan fiziki şəxslər illik yol vergisini avtomobillər texniki baxışdan keçən zaman dövlət büdcəsinə ödəyirlər;
- illik yol vergisinin ödənildiyini təsdiq edən sənədlər təqdim edilmədikdə, avtonəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan müvafiq icra hakimiyyəti orqanı (AR DİN) tərəfindən avtonəqliyyat vasitələrinin qeydiyyatı, yenidən qeydiyyatı və texniki baxışı keçirilmir;
- avtonəqliyyat vasitələrini dövlət qeydiyyatına alan müvafiq icra hakimiyyəti orqanı (AR DİN) hər rüb, hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq, yeni qeydiyyata alınmış və qeydiyyatdan çıxarılmış avtonəqliyyat vasitələri barədə məlumatı müvafiq icra hakimiyyəti orqanının (AR VN-in) müəyyən etdiyi formada müvafiq icra hakimiyyəti orqanına (AR VN-ə) təqdim edir.

Təhlükəli yüklərin daşınmasına görə də vergi məbləğində artım nəzərdə tutulmuşdur:


Ölkə ərazisində qaldığı müddət	4 (dörd) oxa qədər olduqda			4 (dörd) ox və çox olduqda		
	az təhlükəli yüklər üçün	təhlükəli yüklər üçün	xüsusi təhlükəli yüklər üçün	az təhlükəli yüklər üçün	təhlükəli yüklər üçün	xüsusi təhlükəli yüklər üçün
1 gün üçün	20 ABŞ dolları	40 ABŞ dolları	80 ABŞ dolları	30 ABŞ dolları	60 ABŞ dolları	120 ABŞ dolları
2 həftəyə-dək	40 ABŞ dolları	80 ABŞ dolları	160 ABŞ dolları	80 ABŞ dolları	160 ABŞ dolları	320 ABŞ dolları
1 aya qədər	140 ABŞ dolları	280 ABŞ dolları	560 ABŞ dolları	280 ABŞ dolları	560 ABŞ dolları	1120 ABŞ dolları
3 aya qədər	400 ABŞ dolları	800 ABŞ dolları	1600 ABŞ dolları	800 ABŞ dolları	1600 ABŞ dolları	3200 ABŞ dolları
1 ilə qədər	1400 ABŞ dolları	2800 ABŞ dolları	5600 ABŞ dolları	2800 ABŞ dolları	5600 ABŞ dolları	11200 ABŞ dolları
1 ildən yuxarı	1400 ABŞ dolları +1 ildən artıq qaldığı hər gün üçün 15 ABŞ dolları	2800 ABŞ dolları +1 ildən artıq qaldığı hər gün üçün 30 ABŞ dolları	5600 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 60 ABŞ dolları	2800 ABŞ dolları +1 ildən artıq qaldığı hər gün üçün 30 ABŞ dolları	5600 ABŞ dolları +1 ildən artıq qaldığı hər gün üçün 60 ABŞ dolları	11200 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 120 ABŞ dolları

YÜK GÖMRÜK BƏYANNAMƏSİ – mal gömrük ərazisindən keçirildikdə gömrük orqanına verilən bəyannamə. AR-də yük gömrük bəyannaməsinin doldurulması qaydaları AR DGK-nın 17 iyun 1998-ci il tarixli 027 nömrəli əmri ilə təsdiq edilmişdir.

YÜKDAŞIMA – nəqliyyat vasitəsi ilə istənilən obyektlərin bir məntəqədən digər məntəqəyə aparılması prosesi.

Z

ZƏKAT – müsəlmanların ödədikləri, toplanma qaydası və həcmi şəriət qanunları ilə müəyyənləşdirilmiş dini vergi. Zəkat ərəbcə çoxaltma, təmizlik deməkdir. Onun ödənməsi islamın 5 vacib şərtlərindən biri hesab olunur. Yığılan vəsait əsasən icmanın ehtiyaclarına sərf edilir və yoxsul müsəlmanlar arasında bölüşdürülür. Bu verginin zəkat-əl-fitr (fitrə) adlandırılan növü Ramazan ayında orucluq tamam olan gün sədəqə kimi paylanılır. Zəkat yalnız imkanlı müsəlmanlardan tutulur. Onun ən geniş yayılmış dərəcəsi illik gəlirin 2,5 faizidir.



ZƏMANƏT – mülki hüquqda borclu tərəfindən öhdəliklərin yerinə yetirilməməsi və ya lazımi qaydada yerinə yetirilməməsinə görə hər hansı bir şəxsin kreditorlar qarşısında tam və ya qismən cavabdeh olmasını qanunla və ya müqavilə ilə nəzərdə tutan öhdəlik; satıcının müəyyən edilmiş müddət ərzində malların maddi çatışmazlığına görə məsul olmasını nəzərdə tutan qanunla müəyyən edilmiş öhdəlik.

ZƏRƏR – itkilər, gözlənilməyən xərclər, əmlakın və pulların itirilməsi, tam alınmamış gəlir; bir təsərrüfat subyektinin fəaliyyəti ilə hərəkətləri ilə başqa subyektlərə, yaxud təbiətə, ətraf mühitə, insanlara vurulan ziyan.

ZƏRƏRİN SONRAKI DÖVRƏ KEÇİRİLMƏSİ – müəssisənin gəlirlərdən çıxarılmasına yol verilən xərclərinin gəlirdən artıq olan hissəsinin beş ilədək davam edən sonrakı dövrə keçirilməsi və illər üzrə məhdudiyyət qoyulmadan həmin illərin mənfəəti hesabına kompensasiya edilməsi. Fiziki şəxsin sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirindən çıxılmasına yol verilən xərclərinin belə ümumi gəlirdən artıq olan hissəsi digər gəlirlərdən çıxıla bilməz, lakin gələcək dövrlərdə sahibkarlıq fəaliyyətindən ümumi gəlir hesabına kompensasiya edilməsi üçün üç ilədək davam edən sonrakı dövrə keçirilə bilər.

ZİNƏT ƏŞYALARI – qiymətli metallardan və onların əlvan metallarla ərintilərindən, qiymətli daşlardan xüsusi emal edilmiş qiymətli və ya yarımqiymətli və bəzək daşları ilə bəzədilmiş və ya bəzədilməmiş bədii-estetik, məişət məqsədləri üçün istifadə edilən, bədii-incəsənət tərtibatına malik olan zərgərlik və digər məişət əşyaları.

SÖZLÜK

A

Açıq Səhmdar Cəmiyyəti 12
Adi milli kompaniya 12
Adlı emissiya qiymətli kağızları 12
Adsız bank kitabçası 13
Advalor dərəcə 13
Advalor vergi 13
Agent 13
Akkreditə 13
Aksiya 13
Aksiz anbarı 13
Aksiz məbləğlərinin aid edilmə qaydası 13
Aksizlər 13
Aksizlərin vergitutma obyekti 18
Aksizli mallar 18
Aksizli mallar gömrük ərazisinə gətirildikdə vergi bazası 18
Aksizli malların ixracı 18
Aksizli malların ixracı faktını təsdiq edən sənədlər 18
Aksiz markaları 18
Aksizli mineral xammal 18
Akt 19
Aktivlər 19
Aktivlər təqdim edilərkən gəlir və zərər 19
Aktivlərin dəyəri 19
Aqressiv mühit 19
Alimentlər 19
Alkoqol və tütün məmulatlarına nəzarət üzrə regionlararası təftiş 19
Alkoqollu məhsullar 19
Amil 19
Amnistiya 19
Amortizasiya 20
Amortizasiya ayırmaları 20
Amortizasiya edilən əmlak 20
Amortizasiya qrupları 20
Amortizasiya məbləğinin hesablanması üsulları 20
Amortizasiya norması 20
Amortizasiya olunan əmlakın ilkin dəyəri 20
Analitik uçot 20
Analogiya 20
Analoji əmtəə 20
Annuitetlər 18
Anştalt 21
Antidempinq 21
Antidempinq rüsumları 21
Antidempinq tədbirləri 21
Aparat 21
Apatridlər 21
Apelyasiya 21
Apelyasiya Məhkəməsi 22
Apostil 22
Arayış 22
Arbitraj 22
Artıq ödəmə 22
Artıq tutulmuş vergi 22
Asılı agent 22
Attestasiya 22
Audit 23
Audit hesabatı 23
Auditlə əlaqədar xidmətlər 23
Auditor 23
Auditor fəaliyyəti haqqında qanunvericilik 23
Auditor fəaliyyətinin qaydalarıb (standartları) 23
Auditor xidməti 24
“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu 24
Auditor sirri 24
Auditor təşkilatı 24
Auditor təşkilatlarının və sərbəst auditorların hüquq və vəzifələri 24
Avadanlığın yerdəyişməsi 26
Avadanlıq (vəsait, ləvazimat, azuqə, ehtiyat) 26
Aval 26
Avans 26
Avans ödəniş 26
Avropa Birliyi ölkələrində əlavə dəyər vergisi 27

Avropa İqtisadi Birliyi 28
Avropa İttifaqının Şərq Tərəfdaşlığı 28
Avropa Qonşuluq Siyasəti 28
Avropadaxili Vergi Administrasiyaları Təşkilatı 28
Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi 29
Avtomobil dayanacaqlarından istifadəyə görə ödəniş 30
Avtomobil yollarından istifadəyə görə vergi 30
Avtomobillərin, hesablama texnikasının və fərdi kompüterlərin alınıb-satılmasına vergilər 30
Avtonəqliyyatın saxlanma yerinə görə yığım 30
Avtonəqliyyat vasitələrinin alınmasına vergi 31
Avtonom gömrük tarifi 31
Azad gömrük zonası 31
Azad iqtisadi zonalar 31
Azad Ticarət Avropa Assosiasiyası (EFTA – European Free Trade Association) 31
Azad ticarət zonası 32
Azad ticarət zonasının yaradılması haqqında saziş 32
Azadolma 32
Azərbaycan mənbəyindən gəlir 32
Azərbaycan Respublikası Auditorlar Palatası 33
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi 33
Azərbaycan Respublikası mənbələrindən xarici təşkilatların gəlirləri 34
Azərbaycan Respublikası Vergilər Nazirliyi 34
"Azərbaycan Respublikası Vergilər Nazirliyinin 10 illiyi" yubiley medalı 42
Azərbaycan Respublikasında vergi və yığım növləri 43
Azərbaycan Respublikasının Baş Dövlət Vergi Müfəttişliyi 46
Azərbaycan Respublikasının Cinayət Məcəlləsi 46
Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi 47
"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanunu 47
Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu 48
Azərbaycan Respublikasının Əmək Məcəlləsi 46
Azərbaycan Respublikasının Əmlak məsələləri Dövlət Komitəsi 49
Azərbaycan Respublikasının ərazisi 49
Azərbaycan Respublikasının ərazisindən tranzit 49
Azərbaycan Respublikasının Gömrük Məcəlləsi 50
Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi 50
Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi 51
Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi 51
"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu 52
Azərbaycan Respublikasının Mülki Məcəlləsi 53
Azərbaycan Respublikasının Mülkü-Prossesual Məcəlləsi 55
Azərbaycan Respublikasının vergi qanunvericiliyi 55
Azərbaycan Respublikasının Vergi Məcəlləsi 55
Azərbaycan Respublikasının vergi sistemi 57
Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə 57
"Azərbaycanın vergi jurnalı" 57

B

Bac 58
Baxış 58
Balans 58
Balans dəyəri 58
Balans mənfəəti 58
Balansdankənar faydalı qazıntı ehtiyatları 58

Balanslaşdırılmış büdcə 59
Bank 59
Bank fəaliyyətini həyata keçirdikdə çəkilmiş məsrəflər 59
Bank hesabı 59
Bank kitabçası 60
“Bank olmayan kredit təşkilatları haqqında” Azərbaycan Respublikasının Qanunu 61
“Banklar haqqında” Azərbaycan Respublikasının Qanunu 61
“Banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərin gəlir vergisindən azad edilməsi 62
Bankların gəlirlərinə vergi 62
Barter əməliyyatları 62
Baskak 62
Başlanğıc xətlər 62
Baş mühasib 63
Başa çatdırılmamış istehsal 63
Başqa təşkilatlarda pay şərikliyindən gəlirlər 61
Baza gəlirliyinin düzəliş əmsalları 63
Baza gəlirliyinin K1 əmsalı 64
Baza gəlirliyinin K2 əmsalı 64
Baza gəlirliyinin K3 əmsalı 64
Bazar qiyməti 64
Bazar qiymətinin təyin edilməsi 65
Benefisiar 65
Beynəlxalq daşıma 65
Beynəlxalq hüquq 65
Beynəlxalq xüsusi hüquq 65
Beynəlxalq ikiqat vergiqoyma 66
Beynəlxalq iqtisadi münasibətlər 66
Beynəlxalq işgüzar kompaniya 66
Beynəlxalq kompaniya 66
Beynəlxalq Maliyyə Korporasiyası 66
Beynəlxalq müqavilə 67
Beynəlxalq müqavilələrin tətbiqində xüsusi qaydalar 67
Beynəlxalq təşkilat 67
Beynəlxalq ticarət 67
Beynəlxalq Valyuta Fondu 67
Beynəlxalq Vergi (fiskal) Assosiasiyası 68
Beynəlxalq vergi hüququ 68
Beynəlxalq vergi münasibətləri 68
Beynəlxalq vergi sazişləri 68
Beynəlxalq Vergi və İnvestisiya Mərkəzi 69
Bəhrə 69
Bələdiyyə 69
Bələdiyyə büdcəsi 69
Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi 70
Bələdiyyə vergiləri 70
Bərpa dəyəri 70
Bəyannamə 70
Bəyannaməçi 70
Bəyannaməyə görə vergilərin tutulması 71
Bildiriş 71
“Bir pəncərə” sistemi 71
Birbaşa xarici investisiyalar 71
Birbaşa investisiyalar 71
Birbaşa vergilər 71
Birdəfəlik rüsum 72
Birgə fəaliyyət 72
Birgə fəaliyyətdən gəlir 72
Birja 72
Birja vergisi 72
Birjada sövdələşməyə görə yığım 72
Birləşmiş Millətlər Təşkilatının nümunəvi vergi konvensiyası 72
Birləşmiş Millətlər Təşkilatının vergi məsələlərində beynəlxalq əməkdaşlıq üzrə Ekspertlər Komitəsi 72
Bitişik zona 73
Biyar 73
Biznes 73
Biznes mühiti 73
Biznes vergitutmasının aparılmasına dair Davranış Məcəlləsi 73
Bonifikasiya 74
Bonus 74
Borc öhdəliyi 74
Borc vəsaitlərinin alınmasında faizlərə qənaət şəklində maddi fayda 74
Borcun və ödənmiş səhmdar kapitalının nisbəti 74
Bölgü vergisi 74

Bölüşdürülməmiş mənfəətə vergi 74
Broker 75
Broker fəaliyyəti 75
Brüssel Tarif Nomenklaturası 75
Buraxılış 75
Büdcə 75
Büdcə gəlirləri 75
Büdcə xərcləri 76
Büdcə kəsiri 76
Büdcə nəzarəti 76
Büdcə profisiti 77
"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu 77
Büdcə təşkilatı 77
Büdcədənkənar fondlar 78
Büdcənin vergi gəlirləri 78
Büdcənin vergi xərcləri 78
Byukenen Ceyms MakCil 78

C

Cari hesab 79
Cari valyuta əməliyyatları 79
Cari vergi ödəmələri 79
Cenevrə Nomenklaturası 80
Cərimə 80
Cıdırda totalizator oyununda iştirakçıdan yığım 80
Cıdırda yarış iştirakçısından yığım 80
Ciddi uçot blankı 80
Cinayət 80
Cinayət əməli 80
Cinayət işi üzrə ibtidai istintaq 81
Cinayət Məcəlləsi 81
Cinayət prosesinin iştirakçıları 81
Cinayət yolu ilə alınan gəlirlər 81
Cinayət yolu ilə alınan gəlirlərin leqallaşdırılması 81
Cizyə 81

Ç

Çek 82
Çıxarılmış faydalı qazıntı 83
Çıxarılmış faydalı qazıntının miqdarı 83
Çıxılmayan məsrəflər 83
"Çirkli" pulların leqallaşdırılması (yuyulması) 83
Çoxqat vergi qoyuluşu 83
Çoxmilli müəssisə 84

D

Daxili audit 85
"Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanunu 85
Daxili bazarda mühüm olan istehlak mallarının və digər malların çatışmazlığı 85
Daxili nəzarət 85
Daimi nümayəndəlik 86
Daimi yaşayış yeri 86
Daimi yaşayış yerinə malik şəxs 86
Daşınar əmlak 87
Daşınmaz əmlak 87
Daşınmaz əmlaka aid sövdələşmənin qeydiyyatı 88
Daşınmaz əmlaka hüququn dövlət qeydiyyatı 88
Daşınmaz əmlaka hüququn qeydiyyatını aparan orqan 89
Daşınmaz əmlaka vergi 89
"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu 89
Daşıyıcı 89
Debet 89
Defolt 89
Demerec 89
Dempinq 89
Dempinq marjası 90
Denonsasiya 90
Depo hesabı 90
Deponent 92
Depozit 92
Depozit (əmanət) sertifikatı 92
Depozitar 92
Depozitar fəaliyyəti 92
Depozitar müqaviləsi 93
Dər-əl-istixrac 93
Dəyər 93
Dəyərin çıxılması üsulu 93
Dəyərin toplanması üsulu 93

Digər məsrəflər 94
Diler 94
Diler fəaliyyəti 94
Diplomat 94
Diplomatik agent 94
Diplomatik dərəcələr 94
Diplomatik heyətin üzvü 95
Diplomatik hüquq 95
Diplomatik immunitet 95
Diplomatik korpus 95
Diplomatik kuryer 95
Diplomatik nümayəndəlik 95
Diplomatik poçt 95
Diplomatik vəzifələr 95
Diplomatiya 96
Disbursment hesabı 96
Diskresion səlahiyyətlər 96
Diskresiya trastı 96
Dispaç 96
Diversifikasiya 96
Divident 96
“Doing Business” 97
Dolayı qiymətləndirmə metodu 97
Dolayı məsrəflər 97
Dolayı vergilər 97
Domisil 97
Domisil kompaniya 97
Donor 98
Dotasiya 98
Dövlət 98
“Dövlət borcu haqqında” Azərbaycan Respublikasının Qanunu 98
Dövlət büdcəsi 99
Dövlət Gömrük Komitəsi 99
Dövlət Gömrük Komitəsinin funksiyaları 99
Dövlət Gömrük Komitəsinin hüquqları 99
Dövlət Gömrük Komitəsinin normativ aktları 100
Dövlət Gömrük Komitəsinin vəzifələri 100
Dövlət gömrük orqanları və təşkilatları 103
Dövlət Xəzinədarlıq Agentliyi 104
Dövlət immuniteti 104
Dövlət istiqrazları 104
Dövlət qeydiyyatı 104
Dövlət qulluğu 104
Dövlət Maliyyələri Beynəlxalq İnstitutu 104
Dövlət mülkiyyəti 104
Dövlət proqramı 104
Dövlət reyestri 105
Dövlət rüsumu 105
“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu 105
Dövlət rüsumunun qaytarılması 105
Dövlət sektoru 105
Dövlət sərhədi 105
Dövlət torpaq kadastrı 103
“Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında” Azərbaycan Respublikasının Qanunu 105
Dövlət vergi müfəttişi 106
Dövlət vergi orqanları 107
Dövlət vergiləri 107
Dövlət vergilərinə əlavələr 107
Dövlət və bələdiyyə qiymətli kağızları 107
Dövlətə məcburi ödəmələr 107
Dövr 107
Dövri gömrük bəyannaməsi 107
Dövriyyə 107
Dövriyyə vəsaitləri 107
Dövriyyədən vergilər 108
Duayen 108
Dublikat 108
“Duty Free” 108
Dünya Bankı 108

E

Effektiv əlaqəli gəlir 110
Ehtiyat mallar 110
Ehtiyat üsulu 110
Ehtiyat sığorta fondlarına ayırmaların gəlirdən çıxılması 110
Ehtiyatların yaradılmasına məsrəflər 110
Ekspatriasiya 111
Ekspatriant 111

Ekspert 111
Ekspertiza 111
Ekzekvatura 111
Elektron audit 111
Elektron bəyannamə 112
Elektron hesab-fakturalar 112
Elektron hökumət 112
Elektron xidmətlər 112
Elektron imza 112
Elektron kargüzarlıq 112
Elektron qeydiyyat 112
Elektron qutu 112
Elektron mübadilə 113
Elektron vergi hesab-fakturası 113
Emissiya 113
Emissiya olunan qiymətli kağızın sertifikatı 113
Emissiya olunan qiymətli kağızlar 114
Emissiya olunan qiymətli kağızların sənədli forması 114
Emissiya olunan qiymətli kağızların yerləşdirilməsi 114
Emitent 114
Etil spirtinin, spirtli və alkoqollu məhsulların istehsalına və dövriyyəsinə hüquq və lisenziya verilməsinə görə yığım 114
Eynicinsli mallar 114
Eynicinsli mallarla qiymət sövdələşməsi metodu 114
Eyniləşdirmə (identifikasiya) 114
Ezamiyyə xərcləri 114

Ə

Əlavə dəyər 115
Əlavə dəyər vergisi 115
Əlavə dəyər vergisi üzrə gömrük borcunun hesablanması 118
Əlavə dəyər vergisindən azadedilmələr 119
Əlavə dəyər vergisinin depozit hesabı 120
Əlavə dəyər vergisinin depozit hesabına vəsaitlərin mədaxili 120
Əlavə dəyər vergisinin depozit hesabından vəsaitlərin məxarici 121
Əlavə dəyər vergisinin sıfır faizlə ödənilməsi hüququnu təsdiq edən sənəd 121
Əlavə dəyər vergisinin sub-uçot hesabı 121
Əlavə dəyər vergisinin sub-uçot hesabları üzrə vəsaitlərin hərəkəti 122
Əlavə ekspertiza 122
Əlavə gəlir vergisi 122
Əlavə vergilər 122
Ələsgərov Ağasəlim Kərim oğlu 122
Əlillərin sosial müdafiəsini təmin edən məqsədlər 123
Ələverişlilik testi 123
Əmanət 123
Əməkhaqqı 124
Əməkhaqqına məsrəflər 124
Əmək kitabçası 124
Əmək müqaviləsi (kontraktı) 124
Əmlak 124
Əmlak haqqında bəyannamə 124
Əmlak vergisi 125
Əmlaka aid olan vergi çıxılmaları 127
Əmlaka həbs qoyulması 127
Əmlakın etibarlı idarə edilməsi müqaviləsi 127
Əmlakın girov qoyulması 127
Əmlakın qalıq dəyəri 127
Əmlakın müsadirə edilməsi 127
Əmlakın olduğu yer 128
Əmlakın orta illik dəyəri 128
Əmlakın reallaşdırılmasında məsrəflər 128
Əmlakın siyahıya alınması 128
Əmlakın təqdim edilməsindən yaranan zərər 131
Əmr 131
Əmtəə 131
Əmtəə nişanı 131
Əmtəə-material ehtiyatlarının uçotu 131
Ənənəvi müəssisə-ixracatçı 131
Ərazi 131
Ərazi vergilər idarəsi 132
Ərazi zonası 132
Ərizə 132
Ərzaq vergisi 132

Əsas vasitələr 133
Əsas vasitələrin təmirinə məsrəflər 133
Əsas vəsaitlər 133
Əsasnamə 133
Əşyaların nümunə kimi götürülməsi 133
Əvariz 134
Əvəzləşdirmə 134
Əvəzsiz əldə edilən əmlakdan gəlirlər 134
Əvəzsiz ödəniş 135
Əvvəlki dövrdə mal ixracı 135

F

Faiz 136
Faiz gəlirləri 136
Faizlər 136
Faizlərdə qənaətdən maddi fayda 136
Faktiki gəlirin alınma tarixi 136
Faydalı istifadə müddəti 136
Faydalı qazıntı ehtiyatlarının dövlət balansı 136
Faydalı qazıntı yataqlarının və təzahürlərinin dövlət kadastrı 137
Faydalı qazıntılar 137
Faydalı qazıntılar çıxarılışına vergi 139
Faydalı qazıntıların çıxarılması 139
Faydalılıq prinsipi 139
Federal dairələr üzrə regionlararası müfəttişliklər 139
Feldşteyn Martin Stüart 139
Fəaliyyətin ayrı-ayrı növləri üçün şərti gəlirə vahid vergi 139
Fəaliyyətin həyata keçirildiyi yer 139
Fəaliyyətin müəyyən növləri üçün şərti gəlirə vahid vergi 140
Fərdi hesab 141
Fərdi istifadəçi kodu 141
Fərdi sahibkar 141
“Fərqlənmə nişanı” 141
Filial 142
Fiskal federalizm 142
Fiskal rüsumlar 142
Fiskal siyasət 142
Fiziki şəxs 143
Fiziki şəxsin gəlirlərinin növləri 143
Fiziki şəxsin məsrəflərinə vergi nəzarəti 144
Fiziki şəxsin sahibkar kimi qeydiyyat şəhadətnaməsi 144
Fiziki şəxsin yaşadığı yer 144
Fiziki şəxslərin dövlət qeydiyyatı 144
Fiziki şəxslərin əmlak vergisi 144
Fiziki şəxslərin faktiki gəlirlərindən iri həcmli məsrəflərin uyğunluğuna dövlət nəzarəti 144
Fiziki şəxslərin gəlir vergisi 144
Fiziki şəxslərin qiymətli kağızlarla əməliyyatlarına aid gəlirləri 148
Fiziki şəxslərin torpaq vergisi 148
Fond birjası 148
Forvard kontraktı 150
Fridman Milton 150

G

Getmə vergisi 151
Gəlir 151
Gəlir mənbəyi 151
Gəlir vergiləri 151
Gəlirdən amortizasiya olunan aktivlər üzrə çıxarılan məbləğlər 151
Gəlirdən çıxılan xərclər 152
Gəlirdən çıxılan məbləğlərin məhdudlaşdırılması 152
Gəlirdən çıxılmayan xərclər 152
Gəlirin dəqiqləşdirilməsi 152
Gəlirin əldə edilməsi ilə bağlı xərclər 152
Gəlirin transformasiyası 152
Gəlirin və xərcin uçotu 153
Gəlirlərdən və əmlakdan ikiqat vergiqoymanın aradan qaldırılması haqqında sazişlər 153
Gəlirlərə vergilər 153
Gəlirlərin (xərclərin) faizlər şəklində vergi uçotu 1553
Gəlirlərin və xərclərin nəzərə alınma metodları 153
Gəlirli məhsul 154
Gətirilən mallara görə standartlar və tələblər 154

Gətirilən mallarla qiymət sövdələşməsi metodu 154
Gətirilmədə gömrük rüsumlarının dərəcəsi 154
Girov 154
Gömrük 154
Gömrük agenti 154
Gömrük anbarı 154
Gömrük anbarının yaradılması üçün lisenziya 155
Gömrük anbarlarına və onların sahiblərinə tələblər 155
Gömrük baxışı 156
Gömrük bəyannaməsi 156
Gömrük birlikləri 156
Gömrük birliyi 156
Gömrük birliyi haqqında saziş 156
Gömrük brokeri 156
Gömrük brokeri kimi fəaliyyət göstərmək üçün lisenziya 157
Gömrük daşıyıcısı 157
Gömrük daşıyıcısı kimi fəaliyyət göstərmək üçün lisenziya 157
Gömrük Əməkdaşlıq Şurası 158
Gömrük Əməkdaşlıq Şurasının nomenklaturası 158
Gömrük ərazisi 158
Gömrük ərazisində malların emalı 158
Gömrük ərazisində malların emalı üçün lisenziya 158
Gömrük ərazisindən çıxarılan mallara əlavə dəyər vergisi 158
Gömrük ərazisindən kənarda malların emalı 159
Gömrük ərazisindən kənarda malların emalı üçün lisenziya 159
Gömrük ərazisinə gətirilən mallara əlavə dəyər vergisi 159
Gömrük güzəşti 159
Gömrük işi 159
Gömrük işi haqqında qanunvericilik 159
Gömrük işi sahəsində cinayətlər 159
Gömrük İttifaqı 159
Gömrük İttifaqı haqqında saziş 160
Gömrük qaydaları 160
Gömrük qaydalarını pozmuş şəxs 160
Gömrük qaydalarını pozmuş şəxslərin məsuliyyəti 160
Gömrük qaydalarının pozulması 160
Gömrük qaydalarının pozulmasına görə cərimələr 160
Gömrük laboratoriyaları 160
Gömrük Məcəlləsi 160
Gömrük nəzarəti 160
Gömrük nəzarəti olduqda malların emalı 160
Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi olmadan gömrük sərhədindən keçirilən aksizli mallardan aksizin alınması xüsusiyyətləri 160
Gömrük nəzarəti zonası 160
Gömrük orqanları 161
Gömrük orqanlarının hüquqları 161
Gömrük orqanlarının vəzifələri 162
Gömrük ödənişləri 164
Gömrük ödəmələrindən yayınma 165
Gömrük ödənişlərinin təmin edilməsi 165
Gömrük postu 165
Gömrük rejimi 165
Gömrük rejimlərinin formaları 165
Gömrük rəsmiləşdirilməsi 166
Gömrük rəsmiləşdirilməsi üçün gömrük yığımı 166
Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis 166
Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisin ixtisas attestatı 166
Gömrük rəsmiləşdirilməsinin sadələşdirilmiş qaydası 166
Gömrük rüsumları 167
Gömrük rüsumuna əlavələr 167
Gömrük rüsumunun baza dərəcəsi 167
Gömrük rüsumunun qarışıq dərəcəsi 167
Gömrük rüsumunun qaytarılması 167
Gömrük rüsumunun ödənilməsindən azadolma 165
Gömrük sərhədi 168
Gömrük sərhədindən keçirmə 169
Gömrük siyasəti 169
Gömrük statistikası 170
Gömrük tarifi 170

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu 170
Gömrük tədiyyələrinin ödənilməsində möhlət 170
Gömrük təmsilçisi 171
Gömrük yığımları 171
Gömrük-tarif tənzimlənməsi 171
Güzəşt 171
Güzəştli vergi tutulan ölkələrdə əldə edilən gəlir 171

H

Haaqa Konvensiyası 171
Hamilton Robert 172
Harberger Arnold 172
Harmonizasiya edilmiş sistem 172
Hasilat sənayesi 173
Hasilatın pay bölgüsü 173
Hasilatın pay bölgüsünə dair sazişlər 173
Hazırlıq xarakterli fəaliyyət 173
Hecinq 174
Hezell Silvio İohan 174
Hesab 175
Hesabat dövrü 175
Hesabat ili 175
Hesab-faktura 175
Hesablama metodu 175
Hesablaşma 176
Heyvanlar aləminə aid obyektlərdən və su bioloji resurslarından istifadə hüququna görə yığım 176
Həbs 176
Həbs qətimkan tədbiri 176
Hərrac 176
Hiks Con Riçard 177
Həvəsləndirmə və inkişaf fondu 177
Holdinq 177
Holdinq kompaniyası 177
Hökumət başçısı 177
Hüquq 177
Hüquqi şəxs 178
Hüquqi şəxsin ləğv olunması 178
Hüquqi şəxslərin dövlət qeydiyyatı 178
Hüquqi şəxslərin əmlak vergisi 179
Hüquqi şəxslərin mənfəət vergisi 179
Hüquqi şəxslərin torpaq vergisi 180
Hüquqların vahid dövlət reyestri 180

X

Xalis aktivlər 181
Xalis gəlir 181
Xalis mənfəət 181
Xammal 181
Xarici dövlətlərin nümayəndəliklərinə və onların əməkdaşlarına gömrük güzəştləri 181
Xarici fiziki şəxs 182
Xarici hüquqi şəxs 182
Xarici hüquqi şəxsin filialı 182
Xarici iqtisadi fəaliyyət 182
Xarici iqtisadi fəaliyyətin iştirakçıları 182
Xarici iqtisadi fəaliyyətin mal nomenklaturası 183
Xarici investisiya 183
Xarici investisiyalı kommersiya təşkilatı 183
"Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu 183
Xarici investor 183
Xarici mallar 184
Xarici malların çıxarılması (eksport) 184
Xarici şəxslər 184
Xarici şəxslərin bəzi qruplarına gömrük güzəştləri 184
Xarici təşkilat 184
Xarici təşkilatın daimi nümayəndəliyi 184
Xarici təşkilatın gəlirlərindən verginin vergi agenti tərəfindən tutulması 184
Xarici təşkilatın tikinti meydançası 184
Xarici ticarət 185
Xarici ticarət fəaliyyəti 185
Xarici ticarət fəaliyyəti haqqında qanunvericilik 185
Xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi orqanları 185
Xarici ticarət fəaliyyətinin koordinasiyası və tənzimlənməsi orqanı 185

Xarici ticarət rüsumları 185
Xarici ticarət siyasəti 185
Xarici ticarət yığımları 185
Xarici ticarətin gömrük statistikası 185
Xarici valyuta 186
Xarici valyuta ilə ifadə olunan kağız pulların və ödəniş sənədlərinin alınmasına vergi 186
Xarici valyutanın alqı-satqı əməliyyatlarından gəlirlər 186
Xarici vətəndaşlar 186
Xarici vətəndaşların ayrı-ayrı kateqoriyalarının gəlirləri 186
Xeyriyyə təşkilatı 186
Xeyriyyə təşkilatlarının gəliri 186
Xeyriyyəçilik fəaliyyəti 186
Xərac 187
Xərc 187
Xətti üsul 187
Xidmət 187
Xidmətçi heyətin üzvü 187
Xidməti informasiya 187
Xırda biznesə və xidmət sahələrinə vergi qoyuluşuna nəzarət üzrə regionlararası təftiş 187
Xırda sahibkarlıq üçün vergiqoyma, uçot və hesabatın sadələşdirilmiş sistemi 188
Xronometraj 188
Xüms 188
Xüsusi bəyannamə 188
"Xüsusi fərqlənmə nişanı" 188
Xüsusi fondlar 189
Xüsusi gömrük statistikası 189
Xüsusi iqtisadi zona 189
Xüsusi kapital 189
Xüsusi razılıq 189
Xüsusi regionlararası təftişlər 190
Xüsusi rüsumlar 190
Xüsusi rüsumsuz ticarət mağazaları 190
Xüsusi ticarət tədbirləri 190
Xüsusi vergi rejimi 190
Xüsusi vergi statusuna malik kompaniya 190
Xüsusiləşmiş bölmələri olan vergi ödəyicisi 190

İ

İanə 191
İcarə 191
İcarə haqqı 191
İcarə müqaviləsi 191
İcbari ödəniş 191
İcmal büdcə 191
İdentik mallar 191
İdxal 191
İdxal vergiləri 191
İdxal və ixracın məhdudlaşdırılması 191
İdxalın gömrük rüsumu 192
İxrac 192
İxrac gömrük rüsumu 192
İxrac kvotası 192
İxrac mükafatı 192
İxrac nəzarəti 193
"İxrac nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanunu 193
İxrac nəzarəti sahəsində qanunvericilik 193
İxrac nəzarəti sistemi 193
İxrac nəzarətinin firmadaxili proqramı 194
İxrac nəzarətinin həyata keçirilməsinin məqsədləri və prinsipləri 194
İxraca dövlət inhisarı 194
İxracat vergisi 194
İxtisaslaşdırılmış hərrac 194
İkili mühasibatlıq 194
İkiqat vergitutmanın aradan qaldırılması 195
İqta torpaqları 195
İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı 195
İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Vergi Məsələləri üzrə şəffaflıq və məlumat mübadiləsinə dair Qlobal Forumu 195
İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının vergi sazişləri üzrə Qlobal Forumu 196
İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Vergi Siyasəti və İnzibatçılığı Mərkəzi 196

İqtisadi mənafelərin müdafiəsi tədbirləri 196
İqtisadi sahəyə mühüm ziyan vurulması təhlükəsi 196
İqtisadi siyasət 196
İqtisadi siyasət tədbirləri 197
İqtisadi təhlükəsizlik 197
İlkin əməliyyatlar 197
İlkin satış qiyməti 197
İlkin uçot 197
İlkin vergi güzəşti 197
İmmunitet 197
İmplementasiya 198
İmtiyazlar 198
İncə kapitallaşdırma 198
İndossament 199
İnflyasiya 199
İnflyasiya indeksi 199
İnformasiya texnologiyaları 199
İnjinirinq xidmətləri 199
İnnovasiya 200
İnsafsız emmisiya 200
İntellektual mülkiyyət 200
İnternet saytı 200
İnternet Vergi İdarəsi 200
İnventarlaşdırma 200
İnvestisiya 200
"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu 201
İnvestisiya fond payı 202
İnvestisiya layihəsi 202
İnvestisiya layihəsinin xərcinin ödənməsi müddəti 202
İnvestisiya vergi krediti 202
İnvestor 204
İnzibati cərimə 204
İnzibati cəza 204
İnzibati hüquq 204
İnzibati xəta 204
İnzibati-iqtisadi məhkəmə 205
İri vergi ödəyiciləri 205
İslam ölkələrinin Vergi Administrasiyaları Assosiasiyası 205
İstehlak 206
İstehlak kooperasiyası 206
İstehlak səbəti 206
İstehsal 206
İstehsal xarakterli işlər və xidmətlər 206
İstehsal xərcləri 206
İstehsal müəssisələrinin su təsərrüfatı sistemlərində götürdüyü suya görə ödəmə 206
İstehsal və reallaşdırma ilə əlaqədar məsrəflər 208
İstehsala və təsərrüfata xidmət edənlər 208
İstehsala və təsərrüfata xidmət edənlərin məsrəfləri 209
İstiqraz 209
İş 209
İşçi 209
İşəgötürən 209
İşgüzar məqsədin testi 209
İşin (xidmətin) reallaşdırıldığı yer 209
İtkin düşmüş fiziki şəxs 209

K

Kabotaj 210
Kadastr 210
Kadastr bölgüsü 210
Kadastr işi 210
Kadastr qiymət rayonları 210
Kadastr nömrəsi 214
Kadastr planı 214
Kadastr uçotu 214
Kadrların hazırlanması və təkmilləşdirilməsinə məsrəflər 214
Kameral vergi yoxlaması 214
Kanal yığımı 215
Kapital 215
Kapital artıqlığı 215
Kapital bazarı 215
Kapital ixracı 215
Kapital tutumu 215
Kapitaldan gəlirlərə vergi 215
Kapitalın hərəkəti ilə bağlı valyuta əməliyyatları 216
Kapitallaşdırma əmsalı 216
Kargüzarlıq 216
Karib Birliyi 216

Kassa 216
Kassa əməliyyatları 216
Kassa hesabı 217
Kassa metodu 217
Kassa orderi 217
Kassadakı nağd pul 217
Kassadakı nağd pul artıqlığı 217
Keyfiyyət standartı 217
Keyns Con Meynard 217
Kənd təsərrüfatı 218
Kənd təsərrüfatı malları 218
Kənd təsərrüfatının məhsul istehsalçıları 218
Kəndli təsərrüfatı 218
Kiçik müəssisə 218
Kino və teleçəkilişlərin aparılması hüququna görə yığım 218
Klirinq 218
Klirinq fəaliyyəti 219
Kod 219
Kolliziya hüququ 219
Kommandit ortaqlığı 219
Kommersiya fəaliyyətindən mənfəət 220
Kommersiya hüquqi şəxsi 220
Kommersiya (vergi) sirri 220
Kompensasiya məhsulu 221
Kompensasiya ödəmələri 221
Kompensasiya rüsumları 221
Kompensasiya rüsumu 221
Kompensasiya tədbirləri 221
Konduit kompaniyası 221
Konosament 221
Konsern 221
Konsessiya 221
Konsul 222
Konsul arxivləri 222
Konsul dairəsi 222
Konsul hüququ 222
Konsul immuniteti 222
Konsul patenti 222
Konsul yığımı 222
Konsulluğun funksiyaları 223
Konsulluğun vəzifəli şəxsi 223
Konsulluq 223
Konsulluq işçisi 223
Kontinental şelf 223
Kontinental şelfdən istifadəyə görə ödəmələr 223
Kontrabanda 223
Kontribusiya 223
Korporasiya 223
Korporativ vergi 223
Korporativ verginin imputasiya sistemi 224
Kouz Ronald Harri 224
Kölgə iqtisadiyyatı 225
Könüllü audit 225
Könüllü qeydiyyat 225
Könüllü sığorta müqavilələri üzrə ödəmələr 225
Könüllü vergi 225
Kredit 225
Kreditor 225
Kreditor borcu 225
Kurort yığımı 225
Kurort zonalarında istehsal obyektlərinin tikintisinə vergi 225
Kvota 225

Q

Qaimə 226
Qalıq balansı 226
Qalıq dəyər 226
Qalıq dəyəri 226
Qanunsuz sahibkarlıq 226
Qanunsuz valyuta əməliyyatları 226
Qapalı Səhmdar Cəmiyyəti 227
Qarşılıqlı hesablaşma 227
Qarşılıqlı öhdəliklərin təyin edilməsi (klirinq) üzrə fəaliyyət 227
Qarşılıqlı asılı olan şəxslər 227
Qazanc 227
Qeydiyyat 227
Qeyri-büdcə fondları 227
Qeyri-dövlət pensiya fondu 227
Qeyri-xətti üsul 227
Qeyri-kommersiya fəaliyyəti 228
Qeyri-kommersiya hüquqi şəxsi 228
Qeyri-qanuni gəlir 228
Qeyri-maddi aktivlər 228
Qeyri-rezident 228

Qeyri-rezident şirkət 228
Qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində vergi tutulması 229
Qeyri-rezidentlərin valyuta əməliyyatları 229
Qeyri-sahibkarlıq fəaliyyətindən gəlir 229
Qeyri-stasionar ticarət şəbəkəsi 229
Qeyri-tarif tənzimləmə 229
Qısa bəyannamə 229
Qiymət intervalı 229
"Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu 230
Qiymətli kağız 230
Qiymətli kağızın dövlət qeydiyyat nömrəsi 230
Qiymətli kağızlar bazarında peşəkar fəaliyyət 230
Qiymətli kağızlar bazarında peşəkar iştirakçılar 230
Qiymətli kağızlar bazarında ticarətin təşkili üzrə fəaliyyət 231
Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının fəaliyyətinin lisenziyalaşdırılması 231
Qiymətli kağızlar bazarının tənzimlənməsi 231
"Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının Qanunu 231
Qiymətli kağızlara hüququn başqasına keçməsi tarixi 232
Qiymətli kağızlara vergi qoyuluşu 232
Qiymətli kağızları olan şəxslər 232
Qiymətli kağızların buraxılışı 232
Qiymətli kağızların emissiyası 232
Qiymətli kağızların idarə edilməsi üzrə fəaliyyət 232
Qiymətli kağızların nominal saxlayıcısı 232
Qiymətli kağızların sahiblərinin reyestr aparılması üzrə fəaliyyəti 232
Qiymətli kağızların sahiblərinin reyestri 232
Qiymətli kağızların sahiblərinin reyestrinin aparılması sistemi 233
Qiymətli kağızların tədavülü 233
Qiymətli kağızların vicdanlı alıcısı 233
Qiymətli kağızlarla əməliyyatlardan vergi 233
"Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanunu 233
Qızıl rüsumlar 234
Qlobal gəlir vergisi 234
Qonorar 234
Qopçur 234

L

Laffer Artur 235
Latın Amerikası iqtisadi sistemi 235
Latın Amerikası İnteqrasiya Assosiasiyası 235
Leqallaşdırma 235
Ləğvetmə 235
Likvidlər 235
Likvidlik əmsalı 235
Liman yığımı 236
Lisenziya 236
Lisenziya müqaviləsi 236
Lisenziyalı ticarət 236
Lizinq 236
Lizinq ödənişləri 238
Lizinq şirkəti 239
Lome Konvensiyası 239
"Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanunu 239
Lövbər yığımı 239
Lüklərin açılması və bağlanmasına görə yığım 239

M

Maddi xərc 240
Maddi kömək 240
Maddi mənfəət şəklində gəlir 240
Maddi məsrəflər 240
Mağaza 240
Mal 240
Malcəhət 240
Maldan dövlətin xeyrinə imtina 240

Malın dempinq idxalı 240
Malın gömrük dəyəri 240
Malın gömrük dəyərinin müəyyən edilməsi üsulları 240
Malın gömrükdə müşayiəti üçün gömrük yığımı 241
Malın ixrac qiyməti 241
Malın mənşəyi haqqında sertifikat 241
Malın mənşəyi olan ölkə 241
Malın normal dəyəri 241
Maliyyə 241
Maliyyə alətləri 242
Maliyyə bazarı 242
Maliyyə hesabatı 243
Maliyyə xidmətləri 243
Maliyyə lizinqi 243
Maliyyə monitorinqi üzrə komitə 243
Maliyyə nəzarəti 244
Maliyyə sanksiyaları 244
Maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanması 244
Maliyyə uçotu 244
Mallardan nümunə götürülməsi 244
Malları keçirən şəxslər 244
Malların (işlərin, xidmətlərin) alınmasında maddi fayda 244
Malların (işlərin, xidmətlərin) bazarı 244
Malların (işlərin, xidmətlərin) reallaşdırılması 244
Malların ayrı-ayrı növlərinə dövlət inhisarı 244
Malların gömrük sərhədində yerdəyişməsi ilə əlaqədar ödənilən vergilər 244
Malların idxalı 245
Malların idxalında qoruyucu tədbirlər 245
Malların idxalında məhdudlaşdırma 245
Malların ixracı 246
Malların ixracında iqtisadi mənafelərin qorunması tədbirləri 246
Malların məhv edilməsi 246
Malların müvəqqəti idxalı (ixracı) 246
Malların obyektdən götürülməsi haqqında protokol 246
Malların reeksportu və reeksport üçün icazənin verilmə qaydası haqqında razılaşma 246
Malların standart təsnifatları 247
Malların tarif təsnifatları 247
Malların təkrar idxalı 247
Malların təkrar ixracı 247
Malların təqdim edilməsi 247
Malların təsnifatı 247
Malların tranziti 247
Malların və nəqliyyat vasitələrinin bəyan edilməsi 247
Malların və nəqliyyat vasitələrinin bəyan edilməsinin sadələşdirilmiş qaydası 247
Malların və nəqliyyat vasitələrinin gətirilməsinin və aparılmasının qadağan edilməsi 248
Malların və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçməsi qaydası 248
Marjinal vergi dərəcəsi 248
Markalama 248
Market 248
Marks Karl 248
Marşall Alfred 249
Masqreyv Riçard Abel 249
Maya dəyəri 249
Mayak yığımı 250
Meşə gəliri 250
Meşə vergisi 250
Məaf 250
Məcburi audit 250
Məcburi nəzarət 251
Məcmu vergi yükü 251
Mədaxil 251
Mədən vergisi 251
Mədəni sərvətlər 251
Mədəni sərvətlər kolleksiyası 253
Mədəni sərvətlərin çıxarılması üçünə xüsusi yığım 253
Mədəni sərvətlərin çıxarılması üçün yığım və ödənişlər 253
Mədəni sərvətlərin çıxarılmasına icazə şəhadətnaməsi 253
Mədəni sərvətlərin çıxarılmasının və gətirilməsinin tənzimlənməsi 253

Mədəni sərvətlərin gətirilməsi və çıxarılmasında qanunvericiliyin pozulmasına görə məsuliyyət 253
Mədəni sərvətlərin idxalı 253
Mədəni sərvətlərin ixracı 254
Mədəni sərvətlərin qanunsuz çıxarılması və gətirilməsi 254
Mədəni sərvətlərin müvəqqəti çıxarılması üçün xüsusi yığım 254
Mədəni sərvətlərin müvəqqəti çıxarılmasına icazə şəhadətnaməsi 254
Mədəni sərvətlərin müvəqqəti çıxarılmasının və gətirilməsinin tənzimlənməsi 254
Mədəni sərvətlərin ölkəyə gətirilməsi və ölkədən aparılması haqqında qanunvericilik 254
Mədəniyyət və incəsənət idarələri 254
Mədəniyyət və incəsənət sahəsində xidmətlər 254
Məhdud Məsuliyətli Cəmiyyət 254
Məhdudlaşdırmalar 256
Məhsul bölgüsü 256
Məhsul bölgüsü haqqında razılaşma yerinə yetirildikdə ödəmələr 256
Məhsulun (işin, xidmətin) maya dəyəri 256
Məhsulun bölgüsü haqqında razılaşma olduqda vergiqoymanın xüsusiyyətləri 256
Məhsulun bölgüsü sazişi 256
Məhsulun kafi emalı üçün kriteriler 256
Məxaric 256
Məxaric metodu 256
Məişət xidmətləri 257
Məqsədli daxilolmalar 257
Məqsədli maliyyələşmədə təşkilatların əldə etdiyi əmlak 257
Mənbədə vergiqoyma 257
Mənbədə verginin tutulması 257
Mənfəət 257
Mənzil fondunun və sosial-mədəni obyektlərin saxlanmasına vergi 257
Mənzilə order verilməsinə görə yığım 257
Məsrəflər 258
Millət üçün daha əlverişli rejim 258
Mill Con Stüart 258
Milli mənafeyə görə idxal və ixraca qadağa qoyulması 258
Mils Con Evans Atta 259
Mineral-xammal bazasının təkrar istehsalı üçün vergi 259
Mineral-xammal bazasının təkrar istehsalına ayırmalar 259
Minimum əməkhaqqı 259
Minimal vergi 260
Mirlis Aleksandr Ceyms 260
Missiya 260
Monteskyö Şarl Lui 260
Motivasiya testi 261
Mövsümi istehsal 261
Mövsümi iş 261
Mövsümi rüsumlar 261
Muradov Şahbaz Musa oğlu 261
Musayev Akif Fərhad oğlu 262
Muxtar respublika vergiləri 262
Muzdlu iş 262
Müddət 262
Müəllif haqqı alanın yaşadığı dövlət 262
Müəllif haqqının alıcısı 262
Müəllif haqqının ödənilməsinin dövlət mənbəyi 263
Müəllif haqlarının ödənməsi 263
Müəssisə 263
Müəssisə və təşkilatların mənfəətinə vergi 263
Müəssisələrin ayrı-ayrı gəlirlərinə vergi qoyuluşu 263
Müəssisənin əmlakına vergi 264
Müəssisənin ləğv edilməsi 264
Müəssisənin nizamnamə kapitalı (fondu) 264
Müfəttiş 264
Müflisləşmə 264
Mühasibat 264
Mühasibat balansı 264
Mühasibat hesabatlığı 265
Mühasibat kitabı 265
Mühasibat uçotu 265
“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu 265

Mühasibat uçotu haqqında qanunvericilik 265
Mühasibat uçotunun hesablama planı 266
Mühəssil 266
Müxtəlif nəqliyyat vasitələrinə vergilər 266
Mükəlləfiyyət 266
Müqavilə 266
Müqayisəli şərtlərlə verilmiş borc öhdəliyi 267
Mülki hüquq 267
Mülki qanunvericilik 267
Mülki Məcəllə 267
Mülkiyyət hüququ 267
Mümkün minimal dempinq marjası 267
Müsadirə 267
Müstəqil Dövlətlər Birliyi Vergi (maliyyə) təhqiqatları orqanları rəhbərlərinin Koordinasiya Şurası 268
Müstəqil Dövlətlər Birliyi Vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurası 269
Müstəqil Dövlətlər Birliyində xarici iqtisad fəaliyyətin vahid əmtəə nomenklaturası 271
Müstəqil gömrük tarifi 271
Müstəqim məsrəflər 272
Müstəqim vergilər 272
Müstəntiq 272
Müstəsna iqtisadi zona 272
Müstəsna iqtisadi zonanın resurslarından istifadəyə görə ödəmələr 272
Müşahidə 273
Müşahidəçi 273
Müştəri 273
Mütəxəssis 273
Mütənasib vergitutma 273
Mütərəqqi vergitutma 273
Müvəkkil bank 273
Müvəqqəti antidempinq rüsumu 273
Müvəqqəti bəyannamə 273
Müvəqqəti xüsusi rüsum 273
Müvəqqəti kompensasiya rüsumu 273
Müvəqqəti saxlanc 273
Müvəqqəti saxlanc anbarı 274

N

Nadirov Asəf Abbasqulu oğlu 275
Nağd pul hesablaşmaları 275
Nağdsız hesablaşmalar 275
Natural formada fayda 275
Natural formada gəlir 275
Natural mükəlləfiyyətlər 275
Natural vergilər 275
Neqativ gəlir vergisi 276
Nəqliyyat vasitələri 276
Nəqliyyat vasitələrinə vergi 276
Nəqliyyat vasitələrinin sahiblərindən yoldan istifadəyə görə tutulan vergi 277
Nəzarət 277
Nəzarət edilən borc 277
Nəzarət edilən mal və texnologiyaların identifikasiyası 277
Nəzarət edilən mallar və texnologiyalar 277
Nəzarət edilən malların və texnologiyaların siyahısı 278
Nəzarət edilən təchizat 278
Nəzarət-kassa aparatı 278
Nəzarət-kassa aparatlarının çekləri 278
Nomenklatur 278
Nominal 278
Norma 278
Normativ 278
Normativ-hüquqi akt 278
Normativdən artıq məsrəflər 278
Notifikasiya 279
Nuriyev Əli Xudu oğlu 279
Nümayəndəlik məsrəfləri 279
Nümayəndəliyin binası 280
Nümayəndəliyin əməkdaşları 280
Nümayəndəliyin heyətinin üzvləri 280
Nümayəndəliyin xidmətçi heyətinin üzvləri 280
Nümayəndəliyin inzibati-texniki heyətinin üzvləri 280
Nüzl 280

O

Obyekt 281
Offşor şirkət 281

Offşor zonaları 281
Oxşar mallarla qiymət sövdələşməsi metodu 281
On il qaydası 281
Operativ vergi nəzarəti 282
Opsion 282
Oyun biznesinə vergi 282
Oyun biznesinin açılışına görə yığım 282

Ö

Ödəmə 283
Ödəmə qabiliyyəti 283
Ödəmə qabiliyyəti prinsipi 283
Ödəmə mənbəyi 283
Ödəmə mənbəyində dividentdən vergi tutulması 283
Ödəmə mənbəyində faizlərdən vergi tutulması 283
Ödəmə mənbəyində icarə haqlarından və royaltidən vergi tutulması 283
Ödəmə mənbəyində verginin tutulması qaydası 283
Ödəmələr 284
Ödəniləcək vergilər üçün ehtiyat 284
Ödənilməyən vergilər üçün birgə məsuliyyət 284
Ölkə ərazisindən çıxarıldıqda aksizli malların reallaşmasına görə əməliyyatların vergiqoymadan azad edilməsi xüsusiyyətləri 284
Ölkə mənbələrindən gəlir 284
Ölkədən kənarda olan mənbələrdən alınan gəlirlər 285
Ölülərdən vergilər 285
Özəl sektor 285

P

Palatka 286
Partnyorluq 286
Patent 286
Patent rüsumu 286
Patent yığımı 286
Pavilyon 286
Penya 286
Peşəkar vergi çıxılması 286
Petti Uilyam 287
Pərakəndə satış 287
Piqu Artur Sesil 288
Podrat 288
Podratçı 288
Portativ kassa 288
Portfel investisiyaları 288
POS-terminal 288
Prioritet investisiya layihəsi 289
Problemli vergi ödəyicilərinə operativ nəzarət üzrə regionlararası təftiş 289
Proqnoz 289
Proqressiv vergitutma 289
Proporsional vergitutma 289
Protokol 289
Pul 289
Pul kapitalından gəlirlərə vergi 289

R

Ramsey Con Mak-Kullox 290
Ratifikasiya 290
Rayonlararası səviyyədə vergi yoxlamaları 290
Reallaşdırılmamış gəlirlər 290
Reallaşdırılmamış xərclər 290
Reallaşdırmadan gəlirlər 290
Regional vergi idarəsi 290
Regional vergi və yığımlar 290
Registrasiya dairəsi 290
Registrator 290
Reinvestisiya qoyuluşu 290
Reklama məsrəflər 290
Rekvizisiya 291
Rentals 291
REPO əməliyyatları 291
Resipiyent 291
Reyestr 291
Reyestrin aparılması sistemindən çıxarış 291
Rezident 292
Rezidentlərin xarici valyutada hesabları 292
Rezidentlərin valyuta əməliyyatları 292
Rikardo David 292

Rotasiya 293
Royalti 293
Rüsum 293
Rüsum ödənilməsindən azadolma 293
Rüsumların xüsusi növləri 293
Rüsumsuz idxal 293
Rüsumsuz ticarət mağazası 293
Rüsumsuz ticarət mağazasının təsis edilməsi üçün lisenziya 293
Rüsumsuz ticarət zonası 293

S

Sadələşdirilmiş vergi 294
Sadələşdirilmiş vergi sistemində əsas vasitələrin alınmasında məsrəflərin vergi uçotunun xüsusiyyətləri 298
Samuelson Pol Antoni 298
Sahibkar kimi qeydiyyata alınmış fiziki şəxslər 299
Sahibkarlıq fəaliyyəti 299
Sahilə yanalma yığımı 299
Saxlama üçün gömrük yığımı 299
Saqqal vergisi 299
Sanksiya 299
Satış 300
Satışdankənar gəlirlər 300
Saziş 300
Seliqmen Edvin Robert Anderson 300
Senz 300
Sertifikat 300
Servitut 300
Servituta malik olan şəxslər 300
Səfir 301
Səfirlik 301
Səhm 301
Səhmdar cəmiyyəti 301
Səlahiyyətli banklar 302
Səmədzadə Ziyad Əlabbas oğlu 302
Sənədlərin götürülməsi 303
Sənədlərin tələb edilməsi 304
Sərbəst anbar 304
Sərbəst anbarlara və onların sahiblərinə tələblər 304
Sərbəst anbarların təsis edilməsi üçün lisenziya 305
Sərbəst auditor 305
Sərbəst tədavül üçün mal buraxılışı 305
Sərhəddən keçmənin rəsmiləşdirilməsinə görə yığım 305
Sərhədin delimitasiyası 305
Sərhədin demarkasiyası 306
Sərhədyanı ticarət 306
Səyyar vergi yoxlaması 306
Səyyar vergi yoxlamasında sənədlərin və nümunə kimi əşyaların götürülməsi 308
Sığorta 308
Sığorta fəaliyyəti ilə əlaqədar xidmətlər 309
Sığorta fəaliyyətindən gəlirlərə vergi 309
Sığorta haqlarının gəlirdən çıxılması 309
Sığorta təşkilatı 309
Simond de Sismondi Jan Şarl Leonard 309
Sintetik uçot 310
Solou Robert Merton 310
Sonrakı reallaşmanın qiymət metodu 310
Sosial vergi çıxılmaları 310
Sosial-mədəni sferanın obyektləri 310
Soyurqal 310
Spesifik dərəcə 310
Spesifik subsidiya 310
Spirtli içkilər 310
Standart beynəlxalq ticarət təsnifatı 310
Standart vergi çıxılmaları 310
Statistik rüsumlar 310
Stiftonq 311
Stiqlis Cozef Yucin 311
Su obyektlərindən istifadəyə görə ödəmə 311
Subaylıq vergisi 311
Subsidiya 312
Subvensiya 312

Ş

Şaquli ədalətlilik prinsipi 313
Şedulyar gəlir vergisi 313
Şəhadətnamə 313
Şəhadətnamə-dublikat 313
Şəxs 313
Şəxsi əmlaka görə vergi 313

Şərti gəlir 313
Şikayət 313
Şir-baha 313
Şirkət 313
Şumpeter Yozef Aloiz 314
Şübhəli borc 314
Şübhəli borclara görə ehtiyat 314

T

Tağar 315
Tam ortaqlıq 315
Tamğa 317
Tarxan 317
Tantyema 317
Tarif 317
Tarif güzəştləri 317
Tariflər və ticarət haqqında saziş 318
Texniki təchizatım yeniləşdirilməsi 318
Təbii resurslardan istifadəyə görə ödəmələr 319
Təxirə salınmış vergi 319
Təkalifi-şəriyyə 319
Təkalifi-ürfiyyə 319
Təkrar ekspertiza 319
Təkrar ixrac zamanı aksizin qaytarılması 319
Tələb hüququnun başqasına keçməsi 319
Təminatlı təmir və xidmətə görə ehtiyat 319
Təmirlə bağlı xərclərin gəlirdən çıxılması 320
Tərcüməçi 320
Təşkilat 320
Təşkilatda pay şərikliyindən gəlirlər 320
Təşkilatın mənfəət vergisi 320
Təşkilatın mənfəət vergisinin ödənmə vaxtı və qaydası 320
Təşkilatın rəhbəri 321
Təşkilatların əmlak vergisi 321
Təşkilatların mənfəətinə (gəlirinə) vergi 321
Ticarət hüququna görə yığım 321
Ticarət salonunun sahəsi 321
Ticarət yeri 321
Ticarətin adi gedişi 321
Ticarətin təşkilatçısı 321
Tikintilərə, binalara və qurğulara vergi 321
Tiyul 321
Tobin Ceyms 322
Torpağın keyfiyyətinin qiymətləndirilməsi 322
Torpağın normativ qiyməti 322
Torpaq istifadəçiləri 322
Torpaq kadastrı 322
Torpaq qanunvericiliyi 322
Torpaq quruluşu obyektinin planı 322
Torpaq quruluşu obyektlərinin hissələrə ayrılması 322
Torpaq Məcəlləsi 322
Torpaq münasibətlərinin iştirakçıları 323
Torpaq münasibətlərinin obyektləri 323
Torpaq nəzarəti 323
Torpaq sahələrinin dövlət kadastr qeydiyyatı 323
Torpaq sahəsi 323
Torpaq sahəsinin hissələrə ayrılması 323
Torpaq sahəsinin icarəçiləri 323
Torpaq sahəsinin mülkiyyətçisi 324
Torpaq vergisi 324
Torpaqların dövlət monitorinqi 326
Torpaqların kateqoriyaları 326
Torpaqların vahid dövlət reyestri 326
Töycü 326
Transfert qiyməti 326
Tranzit rüsumları 327
Trast 327
Trühend 327
Tüstü vergisi 327
Tvinninq 327
Tyer Adolf Lui 328

U

Uçot 329
Uçot dərəcəsi 329
Uçot dəyəri 329
Uyğunluq 329
Uyğunluq sertifikatı 329
Uzunmüddətli müqavilə 329

Ü

Üfüqi bərabərlik 330
Üfüqi ədalətlilik prinsipi 330
Ümidsiz borclar 330
Ümidsiz borcların gəlirdən çıxılması 330
Ümidsiz borcların silinməsi 330
Ümumdünya Ticarət Təşkilatı 330
Ümumi daxili məhsul 330
Ümumi illik gəlir 331
Ümumi məhsul 331
Ümumi milli məhsul 331
Ümumi vergi yükü 331
Üstəlik mənfəətə vergi 331
Üşr 332

V

Valyuta 333
Valyuta əməliyyatları 333
Valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyət 333
Valyuta nəzarəti 333
Valyuta nəzarəti agentləri 334
Valyuta nəzarəti orqanları 334
Valyuta sərvətləri 334
Valyuta sistemi 334
Valyuta siyasəti 334
"Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanunu 334
Valyuta tənzimlənməsi 335
Varislik və ya bağışlama yolu ilə başqasına keçən əmlakdan vergi 335
Veksel 335
Vergi 335
Vergi (yığım) ödənişi üzrə vəzifələr 336
Vergi Administratorlarının Birliyi Assosiasiyası 336
Vergi agenti 336
Vergi anbarı rejimi 337
Vergi bazasını təyin etdikdə nəzərə alınmayan gəlirlər 337
Vergi bazasının hesablanması 337
Vergi bəyannaməsi 337
Vergi bildirişi 337
Vergi borclarının alınması qaydası 337
Vergi cinayətləri 338
Vergi daşıyıcısı 339
Vergi dərəcəsi 339
Vergi dövrü 339
Vergi güzəştləri 339
Vergi harmonizasiyası 339
Vergi hesabatı 339
Vergi hesabatının elektron sənəd formasında göndərilməsi 341
Vergi hesabatının vaxtında verilməməsinə görə maliyyə sanksiyaları 343
Vergi hüququ 343
Vergi xidməti işçilərinin peşə bayramı 343
Vergi xidməti işçilərinin rütbələri 343
Vergi ili 343
Vergi immuniteti 343
Vergi krediti 344
Vergi kvotası 344
Vergi qalığı 344
Vergi qanun pozuntusu 344
Vergi qanunvericiliyi 344
Vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçıları 344
Vergi qanunvericiliyi üzrə bankların vəzifələri 344
Vergi qanunvericiliyinə riayət edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında beynəlxalq saziş 345
Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət 345
Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb olunmanı istisna edən hallar 346
Vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edən hallar 346
Vergi qeydiyyatı 347
Vergi qiyamları 347
Vergi qoyulmayan minimum məbləğ 347
Vergi Məcəlləsi 348
Vergi mədəniyyəti 348
Vergi nəzarəti 349
Vergi orqanında şikayətə baxılma 349
Vergi orqanında uçota alınma 350

Vergi orqanında uçota alınma şəhadətnaməsi 350
Vergi orqanında uçotdan çıxarılma 350
Vergi orqanında yenidən uçota alınma 350
Vergi orqanları 350
"Vergi orqanları ilə səmərəli əməkdaşlığa görə" medalı 350
Vergi orqanları işçilərinin sosial müdafiəsi 351
Vergi orqanları tərəfindən vergilərin hesablanması 351
"Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı 351
Vergi orqanlarının hüquqları 353
Vergi orqanlarının qərarlarından (aktlarından) və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət verilməsi 354
Vergi orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyəti 354
Vergi orqanlarının vəzifələri 355
Vergi orqanlarının vəzifəli şəxsləri 355
Vergi orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələri 357
Vergi ödənilməsində möhlət 358
Vergi ödənilməyən gəlirlər 358
Vergi ödənişində könüllü əməletmə 362
Vergi ödəyicilərinin uçotu 363
Vergi ödəyicisi 367
Vergi ödəyicisinə verilmiş elektron hesab-faktura 367
Vergi ödəyicisinin ailə üzvləri 367
Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) 368
Vergi ödəyicisinin əmlakı hesabına verginin tutulması 368
Vergi ödəyicisinin gəlirinin ödənmə mənbəyi 371
Vergi ödəyicisinin hüquqları 371
Vergi ödəyicisinin xərcləri 372
Vergi ödəyicisinin nümayəndəsi 372
Vergi ödəyicisinin vəzifələri 372
Vergi öhdəliyi 373
Vergi planlaşdırması 374
Vergi polisi 374
Vergi sanksiyası 374
Vergi sertifikatları 374
Vergi sığınacağı 375
Vergi sirri 375
Vergi sistemi 375
Vergi siyasəti 375
Vergi şəffaflığı (transparantlığı) 376
Vergi tutulması 376
Vergi uçotu 376
Vergi və yığımlar haqqında qanunvericilik 377
Vergi və yığımlar haqqında qanunvericilik terminləri 377
Vergi və yığımlar haqqında qanunvericiliyin pozulmasına görə bankların məsuliyyəti 378
Vergi və yığımlar üzrə güzəştlər 378
Vergiyığan 378
Vergi yoxlamaları 378
Vergi yoxlaması aktı 379
Vergi yurisdiksiyası 379
Vergidən azad edilmiş kompaniya 379
Vergidən azadolmalar və güzəştlər 379
Vergidən yayınma 379
Vergiqoyma elementləri 380
Vergiqoyma məqsədilə malların (işlərin, xidmətlərin) qiymətinin təyin edilməsi metodları 380
Vergiqoyma məqsədləri üçün malların (işlərin, xidmətlərin) qiyməti 380
Vergiqoyma məqsədləri üçün nəzərə alınan məsrəflər 380
Vergiqoyma məqsədləri üçün nəzərə alınmayan məsrəflər 381
Vergiqoyma məqsədləri üçün şəxsin daimi olduğu yer 381
Vergiqoyma prinsipləri 381
Vergiqoymanın sadə sistemində gəlirin təyin edilməsi və tanınması qaydası 381
Vergiqoymanın sadə sistemində verginin hesablanma və ödənmə qaydası 381
"Vergilər" qəzeti 382
Vergilər Nazirliyinin Tədris Mərkəzi 382

Vergilərin azaldılmasına və digər vergi hüquqpozmalarına görə maliyyə sanksiyaları 382
Vergilərin indeksləşdirilməsi 385
Vergilərin kompensiyası 385
Vergilərin müəyyən edilməsinin və tutulmasının əsasları 385
Vergilərin ödənilmə qaydası 386
Vergilərin ödənilməsi müddəti 386
Vergilərin təsnifatı 387
Vergilərin təsnifatı üçün istifadə olunan kriterilər 388
Verginin (yığımın) qaytarılması 389
Verginin hesablanma qaydası 389
Verginin ödənilməsi haqqında tələb 389
Verginin səlahiyyətli orqanları 389
Verginin sıfır dərəcəsi ilə tutulması 389
Vergitutma bazası 389
Vergitutma obyekti 389
Vergitutmanın formaları 390
Vertikal bərabərlik 390
Vətəndaşın gəlirləri haqqında bəyannamə 390
Vətəndaşlığı olmayan şəxs 390
Vətəndaşlıq 390
Vəzifəli şəxs 391
Vyana Konvensiyası 391

Y

Yalançı sahibkarlıq 392
Yam 392
Yaşayış minimumu 392
Yenidənqurma (rekonstruksiya) 392
Yenidəntəşkil (reorqanizasiya) 393
“Yerin təki haqqında” Azərbaycan Respublikasının Qanunu 393
Yerin təkindən istifadəyə görə ödəmələr 393
Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi 395
Yerli istehsal 395
Yerli vergilər 395
Yerli vergilər və yığımlar 395
Yığılmış faiz gəliri 395
Yığım 396
Yoxlama 396
Yol fondlarının yaradılma mənbəyi olan vergilər 396
Yol fondu 396
Yol vergisi 396
Yük gömrük bəyannaməsi 400
Yükdaşıma 400

Z

Zəkat 401
Zəmanət 401
Zərər 401
Zərərin sonrakı dövrə keçirilməsi 401
Zinət əşyaları 401

VERGİ

ENSİKLOPEDİYASI

Redaktor
Elşən Əliyev

Kompüter dizayneri
Zamin Əliyev

Korrektor
Nəsimi Həbiboğlu

Dizayn
SS PRODUCTION

Mətbəə
CAŞIOĞLU

ISBN: 978-9952-8188-3-3